MAHİR QABİLOĞLU

# SANDIQ

SANDIQ

MAHİR QABİLOĞLU



MAHİR QABİLOĞLU

# SANDIQ

BAKI - 2015

Redaktor:
Eldəniz Elgün

Bədii tərtibçisi və korrektoru:
Azər Aydın

Mahir Qabiloğlu. "Sandıq".
Bakı, "Bakı Çap Evi" nəşriyyatı, 2015, 416 səh.

İSBN 978-9952-512-11-3

© Mahir Qabil oğlu İmamverdiyev, 2015

# MÜƏLLİFDƏN

"SANDIQ". Köhnə sözdür. Nənəmin də sandığı vardı. Həmişə üstünə nimdar salıb oturardı. Biz nəvələrinə pul və ya hədiyyə verəndə üstündən düşər, dizi üstə çömbələr, sandığın qıfılını açardı. Heç kim bilməzdi ki, bu sandıqda başqa nələr var. Sandıq bir sirrixuda idi bizim üçün. Bəzi rayonlarda, kəndlərdə bu gün də gəlinin cehizinə sandıq qoşurlar.

Sandığın yanında sandıqça da olur. Bunu indi mücrü əvəz edir. Sandıqçaya qızıl, pul, digər qiymətli əşyalar qoyulur. İndi pul qabı,"koşelyok" adlandırdığımız əşya da keçmişdə sandıqça adlandırılıbmış. Sandığın mənası çoxdur. Əsgərlikdə avtomata gülləylə dolu "maqazin" qoşurdum. Sonra bildim ki, Azərbaycanca "maqazin"ə "sandıq" deyilir. Fotoaparatın da sandığı olur. Sandıq sanki bir "taynik", gizlincdir. Məhz bu mənası ədəbiyyat nəzəriyyəsində də öz əksini tapıb. "Sandıq ədəbiyyatı" deyilən qeyri-rəsmi janrın adı burdan meydana gəlib. Məndə də bir "sandıq" var. "Sandıq" sözünü niyə dırnaq arasında verdim? Çünki məcazi məna daşıyır. Gözlə görünmür. Beynimdə, yaddaşımdadır. Bu, Qabildən və digər yazıçı qonşu-əmilərimdən, yaşadığım 49 illik həyatdan mənə qalan "Sandıq" – sandıq ədəbiyyatıdır. Hərdən qıfılını açıb, içərisindəkiləri bir-bir azadlığa buraxıram.

Ona görə də seçmə bədii-publisistik yazılarımın toplandığı növbəti kitabımın adını da məhz "SANDIQ" qoydum.

Oxuyun, qiymətləndirin.


ŞAİR
QABİL

# HEYDƏR ƏLİYEV FONDUNA ŞİKAYƏT...

Uşaqlıqda həyətdə oynayanda özümdən yaşca kiçik bir uşağın xətrinə dəydim. Ağladı: "Bax, atam axşam işdən gəlsin. Ona deyəcəyəm səni döyəcək". Məhlə uşaqlarıyla onu məsxərəyə qoyduq. Adına "xəbərçi" dedik. O, atasını güclü bilirdi. Ona güvənirdi.

Onda başa düşməmişdim. İndi başa düşdüm.

Sovet vaxtı idi. Şamaxıdaydıq. Əmoğlu Nadir İcraiyyə Komitəsinin Ümumi şöbəsinin müdiri işləyirdi. Bütün günü işdə olurdu. Ona görə də evə gəlməyini gözləmədim. Getdim "rayispolkom"a. Gördüm ki, nəsə fikirlidir. Səbəbini soruşdum. Qabağıma bir məktub qoydu.

- Bu nədir?
- Məktub.
- Kimdən gəlib?
- Lenindən.

1983-cü il idi. Vladimir İliç Leninin ölümündən düz 59 il keçirdi. Bəs onda Lenindən necə məktub almaq olardı? Bu, bir zarafat idimi? İnanmıram. Sovet dövründə, "Rayispolkom"un binasında belə bir zarafat yersiz yox, sadəcə xatalı idi.

- Nə? Lenin? Başın xarabdır?
- Xarab niyə? Üstünü oxu.

Məktubun üstünü oxuyuram. Böyük bir möhür var. Möhürün üstündə rus dilində "Leninin qəbri - Movzoleydən" sözləri yazılıb.

- İcraiyyə komitəsinin sədri bir şamaxılını incidirdi. Torpaq istəyirdi yazıq – ev tikmək üçün. Vermədilər. Umacaqları vardı. O da şikayət məktubu yazaraq göndərib Leninin qəbrinə. İndi də Movzoleydən cavab gəlib ki, bəs şamaxılı torpaqla təmin olunsun. Vəssalam. Başa düşdün?

Öz-özümə sual verdim. Sovet dövründə şikayət ediləsi o qədər orqan var ki: Xalq Nəzarəti Komitəsi, DTK, Mərkəzi Komitə, prokurorluq. Bəs onda niyə Leninin qəbri?

Onda başa düşməmişdim. İndi başa düşdüm.

Müstəqillik dövrü idi. Ümummilli liderimiz Heydər Əliyev prezident idi. Yeni institutlar, təsisatlar yaradılırdı. Prezidentimiz mətbuata, televiziyaya xüsusi diqqət ayırırdı. Diqqət o səviyyəyə çatmışdı ki, mətbuatı "4–cü hakimiyyət" adlandırmışdılar. Mən də jurnalist idim. Qılıncımızın qabağı da kəsirdi, dalı da...

O dövrdə Milli Elmlər Akademiyasının nəzdində İnsan Hüquqları institutu yaradılmışdı. Dostum, Azərbaycanın ilk siyasi elmlər doktoru Rövşən Mustafayev direktor təyin olunmuşdu. Çox enerjili adam idi. Yeniliklə nəfəs alırdı. Çəkilişlərə də məni çağırırdı. O dövrdə yeni təsisat olan "İnsan Hüquqları Müvəkkili – Ombudsman" institutu yaradılırdı. Qanun layihəsinin yazılmasını da İnsan Hüquqları institutuna tapşırmışdılar. Rövşən müəllim isə bunu başqa cür ifadə edirdi: "İlk dəfə olaraq məhz onun rəhbərlik etdiyi institut Milli Məclis qarşısında qanunvericilik təşəbbüsüylə çıxış edəcəkdi". Qanun layihəsi hazır idi. Müzakirələr gedirdi. Müzakirələrdə o qədər iştirak etmişdim ki, qanunu maddə-maddə əzbər bilirdim.

İşdəydim. Rövşən müəllim zəng etdi:

- Axşam saat 6-da institutda ola bilərsən?

- Əlbəttə, Rövşən müəllim.

Deyilən vaxtda operator və kamera ilə instituta gəldim. Bizi – daha doğrusu kamera və operatoru görəndə duruxdu. Demə, Rövşən müəllim şəxsən məni – jurnalist Mahiri dəvət

edibmiş. Qonağı isə Avropa Şurasından gələn bir məsul şəxsdir. Sadəcə insan hüquqlarından xəbəri olan, "Ombudsman təsisatı" ilə maraqlanan jurnalistlərlə görüşmək istəyirmiş. Avropalılar da kamera görəndə yaman qıcıqlanırlarmış. Mən isə bunu bilmirdim.

Operatoru geri göndərdim. 5-6 jurnalist və Avropa Şurasının eksperti stol arxasında "Ombudsman"la bağlı fikir mübadiləsinə başladıq. İnstitutun kollektivi, Rövşən müəllim isə arxa sırada oturmuşdular. Ekspertin ilk sualı belə oldu:

- Bu gün Azərbaycanda Ombudsman institutu yoxdur. Təzə-təzə yaradılmağa başlayır. Bəs bugünəcən əhali hüquqları pozulanda, əli hər yerdən üzüləndə kimə müraciət edib, kimin qapısını döyüb?

Hərə bir söz dedi. Daha çox mövzuya dəxli olmayan, mitinq məfkurəli fikirlər səsləndirildi. Növbə mənə çatdı.

- Bu günəcən Azərbaycanda Ombudsman rolunu mətbuat, televiziya oynayıb. Bizim qapımızı döyüblər. Biz də kömək əlaməti olaraq bu problemləri işıqlandırmışıq. Prezidentimiz Heydər Əliyev də həmən reaksiya verib.

Görüş qurtarandan sonra Rövşən müəllim məni qucaqlayıb öpdü. Bircə bunu dedi: "Mahir, sağ ol. Çox sağ ol!" Rövşən müəllim niyə başqa jurnalistlərə yox, məhz mənə xüsusi minnətdarlığını bildirdi?

Onda başa düşməmişdim. İndi başa düşdüm.

"Ümid sonda ölür". "İnsanın əli hər yerdən üzüləndə saman çöpündən belə, yapışar". "İnsanın əli yananda barmaqlarını ağzına təpər". Misallar çoxdur. Televiziyada da reytinq xətrinə çox verilişlər yaradılıb: "Ümid qapısı", "İkinci həyat" və sairə, ilaxır.

Köpüyü çox, içi boş. Leninin qəbri viran qalıb. Mətbuat – 4-cü hakimiyyət çoxdan devrilib. Avropa Şurası, Avropa Məhkəməsi hörmətdən düşüb. Televiziyalar, qəzetlər reytinqinin qurbanına çevrilib.

Televizora baxıram. Xəbər bülleteni gedir: "Qaz, su gəlmir… İşıq yanmır... Yolumuzu düzəltmirlər... Zibil daşınmır… Avtobus işləmir... Evimizi söküblər, pulumuzu vermirlər…".

Camaat əlacsız qalıb yolu bağlayır. Aləm bir-birinə dəyir. Diqqətlə izləyirəm. Görəsən bu incidilmiş insanlar onların üstünə gələn İcra hakimiyyətinin nümayəndələrini, polisləri nəylə qorxuzacaqlar? Nə daş atırlar, nə "Molotov kokteyli". Nə söyüş söyürlər, nə də qarğış edirlər. Gözləyirəm ki, deyəcəklər ki, "Baxarsınız, sabah prokurorluğa, məhkəməyə, Bakı şəhər İcra Hakimiyyətinə, Prezident Aparatına, Ombudsmana, Ali Məhkəməyə, Avropa Şurasına, Avropa Məhkəməsinə, Amerika səfirliyinə, BMT-yə müraciət edəcəyik".

Heç birini eşitmirəm. Bircə bunu deyirlər: "Sabah düz Heydər Əliyev Fonduna gedəcəyik. XANIMın qəbuluna".

Bu qədər dövlət və beynəlxalq təsisat olduğu halda niyə məhz Heydər Əliyev Fonduna? Niyə məhz Mehriban xanım Əliyevanın qəbuluna?

Başa düşürəm. Allah heç kimi ümidsiz qoymasın....

2013

# ÜRƏYİM QARA KÜRÜ İSTƏDİ

Nədənsə ürəyim qara kürü istədi. Uşaqlığım yadıma düşdü. Atam otuzdurardı qabağında. Əvvəl kərə yağını, sonra da qara kürünü çəkərdi çörəyin üstünə. Verərdi ki, "ye!!!". Yemirdim. Ağlayırdım. Məcburi yedizdirərdi ki, "xeyrinədir, ye!". Bu xatirələrlə bir an fikrə getdim. Görəsən indi qiyməti neçəyədir? Dostlardan soruşdum. Onlar da konkret bir rəqəm demədilər. Sadəcə "çox bahadır" dedilər, "qızıldan da baha". Məcbur olub bazara getdim. Gördüm ki, piştaxtanın üstünə "CAVİAR" etiketi yapışdırılmış qara kürü bankası qoyulub. Satıcı yaxınlaşdı:

- Qədeş, nə lazımdır?
- Qara kürü. Neçəyədir?
- Qədeş, sən kürü alana oxşamırsan.
- Niyə ki?
- Kürü almağa gələn qiymət soruşmur. Sadəcə neçə kilo istədiyini deyir. Sən isə lap məqalə yazan jurnalistlər kimi danışdın. Qiymət soruşurlar, sonra da üstünə beşini qoyub qəzetlərində yazırlar.
- Yaxşı, bu bankada qoyduğun kürü nə kürüsüdür? Təzədir?
- Ay rəhmətliyin oğlu, nə kürü? Burda kürü qoymaq olar? Moment oğurlayarlar. Bankası kürü bankasıdır, içindəki isə qara semişkadır.
- Bah... mən də elə bilirəm ki, təkcə televiziyalarda emitasiyalar olur. Demə bazarlar da bu sistemə keçib?
- Qədeş, görürəm yaxşı oğlana oxşayırsan. Bilirəm ki, kürü almağa duxun da yoxdur, pulun da... Gözün də bu bankada

qalıb. Əvvəl-axır düşüb sınacaq. Götür... bağışlayıram sənə. Çıx get. Baş-beynimi aparma.

Bankanı götürüb evə gəlirəm. Soyuducudan bir manatlıq badımcan kürüsünü götürüb içi qara günəbaxan tumuyla dolu olan “CAVİAR” etiketli bankayla yanaşı qoyuram. Badımcan kürüsünü qara çörəyin üzərinə çəkirəm. Gözüm qara kürü bankasına baxır, özüm isə badımcan kürüsünü ləzzətlə yeyə-yeyə deyirəm.

- İmitasiya, nə yaxşı ki, sən varsan. Yoxsa qara kürü üzünə həsrət qalardıq.

2013

# AYAZ MÜTƏLLİBOV, YAXŞILIĞA YAMANLIQ HANSI…

9-cu sinifdə oxuyurdum. Azad Abbasəliyev adlı sinif yoldaşımız vardı. Deyilənə görə atası böyük vəzifədə işləyirdi. Amma heç birimiz bunun fərqinə varmırdıq. Nə o bununla lovğalanır, nə də müəllimlər ayrıseçkilik salırdılar.

Günlərin bir günü sevincək gəldi ki, bəs atamın vəzifəsini qaldırıblar. Amma yenə də bilmədik ki, bu vəzifə nə vəzifədir. Təsadüfən evdə "Kommunist" qəzeti əlimə keçdi: "Sabit Abbasəliyev Dövlət Plan Komitəsinin sədri, Nazirlər Kabineti sədrinin müavini təyin edilsin". Sonralar başa düşdüm ki, qısaca "qosplan" adlanan bu vəzifə çox böyük vəzifəymiş. Azadın atası indiki dillə desək, baş nazir postunun bir addımlığındaymış. Amma üstündən 2-3 ay keçməmiş 50 yaşını yenicə qeyd etmiş Sabit Abbasəliyev infarktdan vəfat etdi. Heydər Əliyevin ona böyük hörmətinin əlaməti olaraq Azadın atası 1-ci Fəxri Xiyabanda dəfn edildi. Heydər Əliyevin öz yetirməsinin xatirəsinə böyük ehtiramının əlaməti olaraq Sabit Abbasəliyevin tutduğu posta onun 40-ı çıxandan bir qədər sonra təyinat verildi. Bu hamımızın indi eks-prezident kimi tanıdığımız Ayaz Mütəllibov idi. Azərbaycan SSR-in ilk və son prezidenti Ayaz Mütəllibovla tanışlığım 15 yaşında başladı.

## HEYDƏR ƏLİYEV HƏR ADAMI İRƏLİ ÇƏKMİRDİ

Heydər Əliyev böyük dövlət və partiya xadimi idi. Onun etimadını qazanmaq hər adamın işi deyildi. Böyük insan

olduğundan, tələbləri də böyük idi. Ayaz Mütəllibov bu etimada 41 yaşında nail olmuşdu. 1979-cu ildə artıq o, nazir idi. 44 yaşında isə baş nazirin müavini. Növbəti pilləni isə deməyə ehtiyac yoxdur. Bu cümlələri elə-belə yazmadım. Yazımın son akkordlarında mənə lazım olacaq.

BAŞ NAZİR

Üstündən illər keçdi. 1989-cu il idi. Mən də əsgərliyimi başa vurmuş, kommunist-tələbə idim. Mitinq dalğası Azərbaycanı bürümüşdü. Ermənistandan, Qarabağdan xoruz banları, güllə səsləri eşidilməyə başlamışdı. Kinolarda gördüyümüz komendant saatının diqtəsi altında yaşayırdıq. Xalq hərəkatı vüsət almışdı. Mitinqlər," istefa", "azadlıq" şüarları Azərbaycanı bürümüşdü. Əbdürəhman Vəzirov Azərbaycanın rəhbəri, Ayaz Mütəllibov isə Nazirlər Kabinetinin sədri idi. Başqa dillə desək, Heydər Əliyevin uğurlu kadr siyasəti nəticəsində bir vaxtlar irəli çəkilən bu şəxslər artıq Azərbaycana rəhbərlik edirdilər.

Qorbaçov Vəzirovu bu vəzifəyə təyin edəndə Heydər Əliyevi "qaralamaq" əmri vermişdi. Vəzirov da yanıqlı idi. Çünki bir vaxtlar Azərbaycanın ikinci böyük şəhəri sayılan Kirovabada (Gəncə) Heydər Əliyev tərəfindən 1-ci katib təyin edilən Vəzirov elə Heydər Əliyevin də əmriylə bu vəzifədən çıxarılmışdı. Bəlkə də əvəz çıxmaq baxımından Vəzirovun hansısa qarayaxma kampaniyası aparmağına haqq qazandırmaq olardı. Haqqı olmasaydı da belə. (Vəzirov sonralar SSRİ boyda dövlətin Pakistandakı fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdi) Amma vəzifə pillələrində inamla addımlayan, heç yerdə büdrəməyən Ayaz Mütəllibovdan Heydər Əliyevin əleyhinə hansısa addım atacağını gözləmək ağlasığmaz idi.

Ayaz Mütəllibov Baş nazir kimi nəzərə çapmırdı. Çünki Vəzirov çox fəal idi. Kənddə hamam tikdirirdi. Qoz ağacları

əkirdi ki, gələcəkdə onun "qozlarını yeyək". Sağıcı qadından "özün işdəsən, bəs uşaqları kimin yanında qoyub gəlmisən?" əvəzinə "uşaqların kimdəndir?" soruşurdu. Kəndli qadın da "Boooyy... kimdən olacaq? Ərimdən" deyə cavab verirdi. Mitinqçilər "istefa, istefa" qışqıranda, "bu Musatafa kimdir e... elə hey  çağırırlar" deyə ətrafdakılardan xəbər alırdı. Etibar Məmmədova, Nəcəf Nəcəfova  "malçişka" deyirdi.  Azərbaycanlılara xas olan milli qanı da oyanmışdı. Füzuli rayonunda doğulan bir çoxlarını vəzifələrə də yerləşdirmişdi. Bütün bu və digər hadisələrin fonunda Ayaz Mütəllibov gözə dəymirdi. Sadəcə öz vəzifə səlahiyyətlərinin icrasında idi. Baxmayaraq ki, iqtisadiyyat digər respublikalardakı kimi tənəzzülə gedirdi. İkinci dəfə 23 yaşlı mən onu  Nazirlər Sovetinin sədri kimi tanıdım.

20 YANVAR 1990-CI İL

Yanvarın 15-dən etibarən Azərbaycanda rəhbər yox idi. Sonuncu dəfə Prezident sarayının qarşısındakı mitinqdə iştirak edəndə heç Xalq Cəbhəsinin rəhbərliyindən də  gözə dəymirdi. Vəzirov üçün dar ağacı qurmuşdular. Bir nəfər əlində səsucaldan  "Ay camaat, burda durmayın. Vəzirov oğraş binada yoxdur. Qaçıb. Oturun avtobuslara. Siz Salyan kazarmasının qabağında və "şamaxinka"da lazımsınız" deyə-deyə mitinqçiləri avtobusa doldurub bu istiqamətlərə daşıyırdı. Yanvarın 19-u saat 20.30 idi.   Mitinqi bilmirəm kim aparırdı, amma özündən rəhbər seçkisi də keçirməyə başlamışdı. Namizədi isə Etibar Məmmədov və Vəkil Hacıyev idi. Sonrakı hadisələri isə hamınız yaxşı bilirsiniz. Başqa bir yazının mövzusudur.  Nəhayət yanvarın 25-i.  Çox çətinliklə də olsa xəbər tutduq ki, Sovet İttifaqı  Kommunist Partiyası Mərkəzi Komitəsinin Plenumunda Azərbaycanın yeni rəhbəri Ayaz Mütəllibov təyin edilib.  Ayaz Mütəllibovla 3-cü  tanışlığımız şəhidlərin qanı üstündə hakimiyyətə gələndə  oldu.

YENİ RƏHBƏR

Bax bundan sonra Ayaz Mütəllibovun qara günləri başlandı. İlk baxışdan təqdirəlayiq addımlar atmağa başladı. Milli ruhuyla digər partokratlardan seçilən Həsən Əziz oğlu Həsənov Nazirlər Kabinetinin sədri təyin edildi. Məhəmməd Əsədov, İsmət Qayıbov, Tofiq İsmayılov, Vəli Məmmədov kimi adamlar vəzifə başına gətirildi. Xalq hərəkakatında təmsil olunanlarla əlaqələr yarandı. Onların iştirakıyla Şura təsis olundu. Mitinqlər AzTV ilə canlı yayımlanmağa, müstəqil qəzetlərin sayı isə artmağa başlandı. Çaykənd ermənilərdən boşaldıldı. Şaumyan (kənd ) rayonu ləğv edildi. Dağlıq Qarabağ Muxtar Vilayəti xəritədən silindi. Xocalı rayonu, Xocalı aeroportu Qarabağda bir mərkəzə çevrildi. OMON və Azərbaycanın ilk özünümüdafiə dəstələri silahlı mübarizəyə başladı. Əlbəttə ki, bu işlərin çoxu SSRİ-nin dövründə, ermənilərin böyük təsir qüvvəsinin olduğu vaxtlarda həyata keçdi. Xalqla canlı dialoqa girməyən Ayaz Mütəllibov yalnız bircə dəfə - Azadlıq meydanında mitinq keçirməklə yadda qaldı. O mitinqi televiziya ilə mən də seyr edirdim. SSRİ xalq artisti, deputat, "91-lər"dən kimi tanıdığımız Zeynəb Xanlarovanın mitinq aparmaq qabiliyyətinə malik olmasını, öz prezidenti Ayaz Mütəllibova dərin hörmət və sevgisini ilk də orda gördüm.

Günlərin bir günü atamın stolunun üstündə bir yazı gördüm. Oxudum. Adı "Azərbaycan SSR-in prezidenti Ayaz Mütəllibova suallar" idi. O dövrün partiyaçısı kimi nəsə maraqlı gəlmədi mənə.

Qapıbir qonşumuz Bayram Bayramov o vaxt Qarabağa Xalq Yardımı Komitəsinin sədri idi. "Azərbaycan" qəzeti isə bu komitənin orqanı kimi çap olunurdu. Baş redaktoru da Xalq Cəbhəsinin üzvü Sabir Rüstəmxanlı idi. Atam götürər bu sualları gedər birbaşa Sabirin yanına ki "Sabir, bunu çap elə. Amma Bayramın xəbəri olmasın. Xəbər tutsa çapına imkan verməyəcək". Sabir əmi də "baş üstə" deyib, səlahiyyətləri daxilində sualları qoyar Bayram əminin stolunun üstünə.

Bayram əmi də gülə-gülə "Sabir, sən Allah saxla, mən deyəndə çap edərsən" deyir.

Günlərin bir günü Aparatda nəsə bir iclas keçirilibmiş. Ordakı çıxışlar da Bayram Bayramovun xoşuna gəlməyib. Ayağa durub Prezident qarışıq hamısını otuzdurub yerində. Sonra da hirsi soyumayıb. Otağına gələrək "Sabir, Qabilin suallarını qoy səhifəyə getsin. Vaxtıdır" deyib.

Bu 24 sual o dövrdə böyük rezonans doğurdu. Rezonans doğurandan sonra mən də mahiyyətini başa düşdüm.

Ayaz Mütəllibovu 4-cü dəfə onda tanıdım.

AYAZ MÜTƏLLİBOV YERLİBAZ VƏ QOHUMBAZ İDİMİ?

Gözəl şairimiz vardı. Nəğməkar şair də deyirdilər – Tofiq Mütəllibov. Ayaz Mütəllibovun doğmaca əmisi oğlu idi. Mentalitet hesablamalarına görə xalq şairi olmalıydı... olmadı. Bir müəllimimiz vardı – Təhsin Mütəllibov. Ayaz Mütəllibovun doğmaca əmisi oğlu idi. Sadəcə professor, universitet müəllimi idi. İndi də müəllimdir. Mentalitet hesablamalarına görə ən aşağısı BDU-nun rektoru olmalıydı. Olmadı.

Tez-tez Şamaxıya gedirdik. Heç bir dəyişiklik yox idi. Heç hiss olunmurdu ki, Azərbaycanın prezidenti bu rayonda doğulub. Heç bir dəfə də şamaxılıların dilindən eşitmədim ki, prezidentin şamaxılı olmasıyla fəxr edələr. Ayaz Mütəllibovu 5-ci dəfə belə tanıdım.

İMKAN VERİN YOLU ÇƏKDİRSİN DƏ...

Atamla İsmayıl Şıxlıgildəydik:

- Qabil, bu camaat da qəribədir e. Ayaz Zabrat yolunu enlədib Maştağayacan təzə yol çəkdirməyə başlayıb. O saat da ad qoyublar – "Qaynana prospekti". O da tikintini yarımçıq saxlatdırıb. Ay balam, imkan verin yolu çəkdirib qurtarsın, sonra ad qoyun da...

Tikiş kooperativində işləyirdim. Satış bazarımız isə Moskvada idi. Malı maşınla, qatarla yola salmaq təhlükəli idi. Yük vaqon qarışıq yoxa çıxırdı. Ona görə də məcbur olub təyyarə ilə göndərirdik. Trikotaj məhsullarını da xüsusi olaraq ensiz uzun qutulara qablaşdırırdıq. Üstünə isə müdirimiz "Lalə", "Qərənfil" və digər gül adları yazırdı. Maraqlandım ki, bəs niyə gül adları yazırsınız? Deyirdi ki, Ayazın xüsusi göstərişidir. Aeroportdan Moskvaya ancaq gül vurmağa icazə verilir. Belə yazırıq ki, aeroportdakıları aldadaq.

O vaxt mən bilmirdim ki, şamaxılı Ayaz Mütəllibov Maştağadan evlənib. Atalar burda deyib e

-Haralısan?

-Hələ evlənməmişəm.

Ayaz Mütəllibovla 6-cı tanışlığım belə oldu.

QKÇP (Fövqəladə Hallar üzrə Dövlət Komitəsi)

QKÇP baş vermişdi. Yəni ki, Qorbaçovu devirmişdilər. Elə bil SSRİ boyda dövlətdə "qurbağa gölünə daş atmışdılar". Sakitlik hökm sürürdü. Nə mitinq vardı, nə də qışqıran. Qorxusundan hamı qınına çəkilmişdi. Belə bir vaxtda Ayaz Mütəllibov QKÇP-yə qahmar çıxdı. Üstündən iki gün keçməmiş Yeltsin QKÇP-ni yıxıb hakimiyyəti ələ keçirdi. Buna demokratik qüvvələrin qələbəsi deyildiyi üçün bizim demokratik qüvvələr də yavaş-yavaş dil açmağa başladı. "Azadlıq" meydanında mitinq keçirib başladılar Ayazı "neprav" çıxarmağa ki, "bəs bu, niyə QKÇP-ni dəstəkləyib". Mitinqdə mən də vardım. Bir də gördüm ki, söz atama verildi. Nə desə yaxşıdır?

- Qorbaçovun əli 20 Yanvarda, Qarabağda xalqımın qanına batıb. Ayaz neyləməliydi ki? Qorbaçovu müdafiə etməliydi? Düz edib.

Onu da qeyd edim ki, atam şair Qabil Ayaz Mütəllibovun qəti əleyhdarı idi. Çəkinmədən küçədə belə, söyürdü. Amma bir məqamı da nəzərinizə çatdırmaq istəyirəm.

Günlərin bir günü atam, İsmayıl Şıxlı, Bayram Bayramov və başqa ziyalılar bir yerə yığışmışdılar. İsmayıl əmi dedi ki, "bu Ayazı hamımız tənqid edirik - biz ziyalılar da, xalq Cəbhəsi də. Camaat da bizə baxıb öyrənir. Bu yazıq təklənib. Bəlkə buna görə nəsə bir iş görə bilmir. Bəlkə dəstək verək? Görək nə olur da?"

İsmayıl əminin bu sözü atamın da ağlına batmışdı. "Həyat özü cavab verdi" adlı kiçik bir məqalə yazıb "Kommunist" qəzetində çap elətdirdi. Bu 10 cümləlik yazıya görə Xalq Cəbhəsinin üzvlərindən əks reaksiya gəldi. Xüsusilə də Mahir Qarayev adlı biri atamın əleyhinə böyük yazıyla çıxış etdi. Çünki səhnəarxası proseslərdən, söhbətlərdən xəbərsiz idilər. Yəqin ki, maraqlanacaqsınız ki, ziyalılardan gələn bu dəstək Ayaz Mütəllibovun fəaliyyətində müsbətə doğru bir işartı oldumu? Cavab: İsmayıl əmi bu söhbətdən bir qədər sonra atama dedi ki, "Qabil, mən bu dəstək məsələsində yanılmışam"

İsmayıl əminin bu sözü mənim Ayaz Mütəllibovla 7-ci tanışlığım idi.

## İLHAM ƏLİYEV "ƏR KİŞİ"DİR...

Ayaz Mütəllibov Azərbaycanın çox mürəkkəb vaxtlarında rəhbər olub. O dövrün şahidi kimi onu çox gözəl başa düşürəm. Vertolyot qəzasında yaxın ətrafını "təmizləyiblər". Xocalı hadisələrində təqsirkar çıxarıblar. Barəsində cinayət işi qaldırıblar. Azərbaycan Məhkəməsinin hökmüylə cinayət məsuliyyətinə cəlb olunmasa da, öz şəxsi qərarıyla 20 illik bir sürgün həyatı yaşayıb. Sonra isə qeyri-rəsmi əfv olunub. Eks-prezident kimi qocalığını yaşamaqdadır. Bütün bunları siz də bilirsiniz, mən də. Ayaz Mütəllibov isə bizdən də yaxşı bilir. Amma məni bu yazını yazmağa bir xüsus vadar etdi. Bir insan kimi bir suala cavab tapa bilmirəm.

Ayaz Mütəllibov Heydər Əliyevin sevimli kadrı olub. Belə olmasaydı onu Soyuducular zavodunun direktorluğundan

nazir, baş nazirin müavini kimi yüksək vəzifələrə irəli çəkməzdi. Bəs Ayaz Mütəllibov nə etdi? Bunun əvəzin necə verdi? "Yaxşılığa yaxşılıq hər kişinin işidir" atalar misalına məhəl qoydumu? Əsla. Əksinə Heydər Əliyevin hakimiyyətə gəlişinin qabağını almaq üçün "vətəndaş 70-i haqlayıbsa prezident ola bilməz" kimi yaş senzi tətbiq etdi. Onun prezidentliyi dövründə Heydər Əliyevin tərəfdarı kimi tanınan Əjdər Xanbabayev (sifarişli) qətlə yetirildi. Heydər Əliyev Milli Məclisdə çıxış edərkən təpik, fit səsləri eşidildi. Və bütün bunlara o zalda yuxarı başda oturan prezident Ayaz Mütəllibov heç bir reaksiya vermədi. Çünki baş təşkilatçı məhz özüydü. Və sonda Heydər Əliyev Bakını tərk edib Naxçıvana getdi. Yaxşılığın əvəzi bu idimi?

İlham Əliyev isə bir prezident və Heydər Əliyevin oğlu kimi bütün bu yamanlıqların üstündən xətt çəkdi, unutdu. Təşəbbüskarı olduğu "Eks-prezidentlik qanunu"na, artıq 75-i haqlayan Ayaz Mütəllibov üçün nə maneə, nə yaş senzi qoydu. Xocalı hadisələriylə bağlı cinayət işi və digər baş verən hadisələr də tarixin arxivinə göndərildi. Vaxt gələcək canlı şahidlər olan bizlər də yox olacağıq. Sadəcə bir sual cavabsız qalacaq.

"Yaxşılığa yaxşılıq hər kişinin işidir..." Bunu bildik. "...Yamanlığa yaxşılıq isə ər kişinin işidir". Bunu da İlham Əliyevin timsalında gördük. Bəs YAXŞILIĞA YAMANLIQ HANSI KİŞİNİN İŞİDİR, AYAZ MÜTƏLLİBOV?

2013

# POLİS NƏCİB PEŞƏDİRMİ?

Daxili. Bu sözün çox mənası var. Həm məcazi, həm də hərfi.

Məsələn, insanın daxili gözəl olmalıdır. Bu ruhla bağlı bir xüsusiyyətdir. Yaxud da ana gileylənir:

- Uşaq arıqdır. Nə qədər yemək verirəm kökəlmir ki, kökəlmir.

- Nə olsun ki? Təki sağlam olsun? – deyə həmən cavab verirlər.

Mən də özümü daxilən həm məcazi, həm də hərfi mənada sağlam sayıram. Amma bir də görürsən ki, xarici təsirlərdən - ekologiyadan, soyuqdan, əsəbdən, stresdən, müxtəlif qayğılardan özümü nasaz hiss edirəm. Həkimə gedirəm. Qan analizi verirəm. Müxtəlif aparatlardan keçirəm. Həkim təyinat yazır. Çox vaxt həb atmaqla canımı qurtarıram. Bəzən əzələ daxilinə iynə vururlar. Xəstəlik ağır olanda venaya sistem qoşurlar. Bəzən isə cərrahi əməliyyata məruz qalırsan. Kəsirlər, içalatını bayıra tökürlər, qan çıxarırlar, sonra yaranı tikirlər və sağaldırlar. Daxilən yenə də sağlam olursan.

Bəzən isə nə həkimlər, nə də dava-dərman köməyinə çata bilir. Ölürsən - cismən də, ruhən də. Həkimlər də başlayır ölünün yiyələrinə təsəlli verməyə ki, bəs gərək vaxtında üstünə düşəydiniz, xəstəliyin başlanğıc mərhələsində bilsəydik, nəsə kömək etmək olardı.

İnsanın daxilini terapevtlər, xirurqlar müayinə-müalicə edir. Xaricini kosmetik cərrahlar, dəri həkimləri. Amma bütün xarici fəsadlar daxildən baş qaldırır. Orqanizm xəstələnəndə özünü xaricən biruzə verir. Əgər böyrəyin xəstədirsə gözünün

altı qaralır, xəstəsənsə rəngin saralır, qotursansa dərin səpir, qızarır, göbələksənsə dərin qaşınır, soyulur, qorxursansa bədənin əsir, soyuqlamısansa dərin qızdırmadan yanır, titrəyirsən. Bir sözlə insanın xarici onun daxilinin inikası, güzgüsüdür.

Bu insan orqanizmidir. İnsan sağlamlığının keşiyində duranlar isə həkimlərdir. Həkimliyi isə xalq arasında nəcib peşə adlandırırlar.

## POLİS NƏCİB PEŞƏDİRMİ?

Bir dostuma deyəndə ki, polislər də nəcib peşə sahibləridir... etiraz etdi. Fikrimdə israrlı olanda əsaslandırmağımı istədi. Mən də sözümü isbatladım. Nə qədər tutarlı oldu? Bilmirəm. Deyim, siz də bilin.

Dövlət də insan kimidir. Onun da daxili və xarici mövcuddur. Vuran qolu, gəzən ayağı, eşidən qulağı, görən gözü, danışan dili, beyni, dırnağı, reaksiyası, bütün dövləti bir-birilə əlaqəndirən damarları, kapilyarları, sinirləri, gizlinləri var. Əgər dövlətin daxilində əminamanlıq, sakitlikdirsə xaricində də bu o saat hiss olunur. Əgər daxildə münaqişə, çaşqınlıqdırsa... xaricdən müdaxilələr çoxalır. Çünki insandakı kimi dövlətin də daxilində baş verənlər onun xarici görünüşündə özünü biruzə verir.

Budəfəki yazımda mən bu daxili qoruyan Daxili İşlər orqanlarına bir publisist-vətəndaş baxışı keçirəcəyəm. Bu mənim son 20 ildə gəldiyim şəxsi qənaətlərimdir.

Daxili İşlər Nazirliyi, el diliylə desək POLİS. Onu rəsmi olaraq dövlətin güc strukturu hesab edirlər. Amma mən bu orqanı dövlətin daxili həkimi adlandırardım. Məndən soruşanda ki, dövlət strukturlarından ən məlumatlısı hansıdır. Deyirəm ki, Daxili İşlər və Rabitə nazirlikləri. Çünki ən ucqar kənddə belə, bu strukturların ən azı bir nümayəndəsi mövcuddur. Onlar hər yerdədirlər. Yerin altında, üstündə, dəmiryolunda, aeroportda, metroda, vağzal və stansiyalarda, qoruqlarda. Sadalayıb başınızı ağrıtmaq istəməzdim. Bir sözlə insanın hər

bir üzvünün ayrıca həkimi olduğu kimi, dövlətin də hər bir sahəsinə cavabdeh öz polisi var. Hər hansı bir hadisəylə rastlaşanda birinci onlar yada düşürlər. Ər-arvad dalaşır - polis, qonşu bloka sərxoş girir – polis, biri nəşə çəkib özündən gedir – polis, birinin qızı qoşulub qaçır – polis, qadının boğazından boyunbağısını dartıb oğurlayırlar – polis, evini yandırırlar – polis, maşınını qaçırırlar – polis, qonşu təmir edib tıqhatıq salır – yenə də polis. Ən xırda məişət problemlərimizdə belə, polisi axtarırıq. Ona pənah aparırıq. Əli bıçaqlı, silahlı caninin, adi xuliqanın qabağına, daha dəqiq desək ölümə, təhlükəyə özümüzü yox, sovet vaxtından miras qalan "mənim polisim məni qoruyur" şüarı ilə onu veririk.

Hətta bəzən günahı üstünə yıxıb özümüzü yüngülləşdiririk də. Özümüz çağırdığımız halda sonradan qapısına gedib yalvarırıq ki, "sən Allah tutduğunu burax. Yazıqdır" və ya "əsəbləşmişdim. Ona görə Sizi çağırdım. Qonşudur də... Bizim nəsildən hələ işverən çıxmayıb". Bu cür davranışlarımızla polis üçün öz Femidamızı da yaradırıq. Haqqında hekayə, roman yazmaq, əsər, kino yaratmaq əvəzinə, milli televiziyalarımızın ekranlarında şəninə hələ bir lətifələr də qoşuruq.

Xırda məişət problemlərində polis Münsiflər məhkəməsinə, cəmiyyətin müəllliminə çevrilir. Müəllim kimi bir gözü görür o biri yox, bir qulağı eşidir, o biri qulağı kardır. Amma özümüz də çox gözəl başa düşürük ki, polis bu xüsusiyyətlərə malik olmasa türmələrdə boş yer tapılmaz. Yox elə bilməyin ki, polis qanunu pozur, yaxud da ondan yan keçir... Əsla. Sadəcə onun adı, nəfəsi, arxamızca gələn həniri, dubinkası, böyründən asdığı qandalların cingiltisi, kaburasından boylanan tapançası başa düşən insanlar üçün bütün qanunlardan üstündür. Polislər həkimlər kimi xəstələyi başlanğıc mərhələdə aşkarlayan, onu blokadaya alıb insanları, dövləti baş berə biləcək fəsadlardan, xətalardan hifz eləyən nəcib peşə sahibləridirlər.

Atam Qabilin bir misalı vardı. Qarabağ məsələləri başlayanda demişdi bunu: "Dövlət arvadların geyindiyi kapron

coraba bənzəyir. Sapı qaçdısa qabağını almaq mümkün deyil". Elə də oldu. İlk olaraq Qarabağda və Ermənistanda yaranan mitinq və çaxnaşmalar, sonra müxtəlif münaqişə ocaqlarının yaranmasına, SSRİ boyda dövlətin süqutuna səbəb oldu. Xalqın üstünə yeriyən isə polis yox, qoşun idi. Çünki sovet milisini seyrçi mövqedə qoymuşdular. Amma buna baxmayaraq Azərbaycan milisi bu seyrçi mövqe əmrinə tabe olmadı. Azərbaycan milisi o dövrdə silaha sarılıb xalqının, özünümüdafiə dəstələrinin və şəhid olanların içindəydi.

Polis sistemindən hamı qorxur. Yox hörmət eləmir. Sadəcə qorxur. Rusların bir misalı var: "Boitsya, znaçit uvajaet" – "Qorxursa deməк hörmətlə yanaşır". Bir anlıq təsəvvür edin: Bakının küçələrində yol polisi, müxtəlif radarlar, evakuatorlar yoxdur. Nə baş verərdi? Yaxud da polis yoxdur. Küçələrdə asayişi, təhlükəsizliyi qorumaq olardımı? Əsla. Yox, burda bir xətaya yol verdim. Son vaxtlar şəhərdə gəzəndə polisə az rast gəlirəm. İstər gecə, istərsə də gündüz. Təkcə piyada keçidlərinin qabağında cərimə yazanlar istisna olmaqla. Amma buna baxmayaraq hər şey qaydasındadır. Polis xalqın içindədir. Çünki polis həm də xalqın sıravi nümayəndəsidir.

Polis xırda xəstəlikləri özü müalicə edir. Kiçik xəta törədənləri bir neçə sutkalığa "KPZ"-yə salır. Həkim diliylə desək həblə müalicə edir. Cinayət bir az ağırdırsa və yaxud da Milli mənafelərimizə təhlükə yaranırsa Milli Təhlükəsizlik və Prokurorluq orqanları köməyə gəlir. Həkim kimi cinayətin dərəcəsini müəyyən edirlər. Son hökmü isə məhkəmə hakimləri-həkimlər konsiliumu verir. Törədilən cinayət yüngül olanda icbari, şərti cəza, yəni ki, əzələ daxilinə iynə vurulur. Bir az ağır olanda ümumi rejimli cəzaçəkmə müəssisəsində azadlıqdan məhrumetmə, yəni vena daxilinə iynə, sistem təyin edilir. Cinayət bir az ağır olanda ciddi rejimli müəssisədə cəzaçəkmə, həkim dilində desək cərrahiyyə əməliyyatı aparılır, reanimasiyaya qoyulur. Heç bir islaha yatmayan qatı cinayətkarlar isə ömürlük həbs cəzasına məhkum edilirlər. Həkim diliylə desək xəstə ümidsizdir, yəni ki, "morq"luqdur. Bu sistemdə

də reanimasiyalar – təcridxanalar, palatalar, yəni kameralar var. Polis də hadisə yerinə özünü təcili yardımda olduğu kimi qısa müddətə, qırmızı-göy işıqlı miqalkası, sirenası olan avtomobillərdə çatdırır. Təcridxanalarda – reanimasiyada yatanların yanına heç kim buraxılmır.

Bu mənim dostuma verdiyim izahlar idi. İnsan bədənindəki xəstəliklərə həkimin, dövlət daxilində baş verən və ya baş verə biləcək neqativ, cinayət tərkibli hallara polisin müdaxiləsinin qısa izahı. Daha düzgün desəm paralellərim. Görəsən bu yazdıqlarımdan sonra polisi nəcib peşə sahibləri hesab etmək olarmı? Siz necə düşünürsünüz, bilmirəm. Mən isə öz fikrimdə qalıram. O ki qaldı səhərdən mənim yazımı oxuya-oxuya polisdə baş verən bəzi neqativ halları yada salıb, beyninizdə varaqlamağınıza... Düzdür. Amma belələri bütün sahələrdə var. Lap bunu deyənlərin özlərinin işlədiyi sahələrdə də. Bir də ki, bunu heç Daxili işlər nazirliyinin rəhbərliyi, kollegiyası da gizlətmir. Səlahiyyətlərini aşanların, sistemdən qovulanların sayı, adları mütəmadi olaraq cəmiyyətə açıqlanır. Amma bu, özünü cinayətkar gülləsinin qabağına verərək həlak olan, ölümündən sonra yüksək fəxri adlara layiq görülən polis – hüquq mühafizə orqanları işçilərinin fonunda çox cılız görsənir.

Yeri gəlmişkən, dekabrın 22-si daxili işlər naziri, atama böyük hörmət və ehtiramı olan Ramil Usubovun yubileyidir. 65 yaşınız mübarək Ramil müəllim. Daxilimiz Sizin rəhbərlik etdiyiniz nazirliyə əmanət. Əmanətə xəyanət etmək istəyənlərə qarşı qılıncınız həmişə kəsərli olsun.

2013

# İLYAS ƏFƏNDİYEV, QABİL VƏ HACIBALA ABUTALIBOV KÖHNƏ KİŞİLƏRDƏNDİR

Elə bilməyin ki, bu yazının oxunaqlı olması üçün adını belə qoymuşam. Əsla. Kiçik xatirələr toplumunda nə Hacıbala Abutalıbov Bakı şəhər İcra Hakimiyyətinin başçısıdır, nə də Elçin Əfəndiyev Baş nazirin müavini... İkisi də atam Qabilin dostlarıdırlar. Biri vəfalı, biri vəfasız... Əlbəttə ki, ölümündən sonra.

Giriş bu qədər kifayətdir. Yazımın sonuna isə illər qalır. Bu illərdə bilmədiyiniz çox şeylər var. İlyas Əfəndiyev şəxsiyyətinin dərinliklərinə vara bilməsəm də (çünki cild-cild kitablar yazılmalıdır, yazılır da), atamın xatirələri və öz yaddaşım fonunda bəzilərini qələmə almağı özümə borc bildim. Əlbəttə ki, sonu müqayisəli başa çatsa belə... Nəticəni pis qəbul etməyin, çünki bütün şəxsiyyətlərin, yaradıcı insanların öz ziddiyyətləri vardır.

## QONŞUMUZ ƏFƏNDİYEVLƏR

İlyas Əfəndiyev. Bu ad ədəbiyyat tariximizə həkk olunub. Dramaturgiyamıızın Qızıl Fondu onun əsərləriylə daha da zənginləşib desəm, yanılmaram.

Atam şair Qabil onu özünə dost sayırdı. Oğlanlarını da çox istəyirdi. Elçini və Timuçini. Timuçini Elçindən fərqli olaraq

mən də çox istəyirəm. Bəlkə də uzun müddət qonşu, uşaqları Nigar və Yalçınla (Allah rəhmət eləsin) yaşıd və dost olduğuma görə. Yaxud da xeyirxah və gözəl insan, ailə başçısı və xanımı ilə ölən gününədək İlyas müəllimin qulluğunda durduğu üçün...

İlyas əmi kiçik oğluyla bir qalırdı. Nəvələri də ona baba yox, dədə deyirdilər. Elçin də tez-tez atasına baş çəkməyə gəlirdi. Sonralar bizim həyətdə ona da ev verdilər. İlyas müəllim "Domsovet"in arxasındakı yeni binaya köçəndə bu ev, ata ocağı Elçinə qaldı. Elçinin ailəsini – xanımı aristokrat-ziyalı, böyük hörmət bəslədiyim Nüşabə xanımı, qızlarını, şair Teymur Elçini də bundan sonra daha yaxşı tanımağa başladım. Atam da mənə həmişə bir örnək kimi ancaq Anar və Elçini nümunə gətirirdi. Yaradıcı bir insan yox, ata-analarına layiqli bir övlad kimi...

İndi isə növbəylə. Atamın "Sən, ey qadir məhəbbət" xatirə yazısını və öz yaddaşımı varaqlaya-varaqlaya...

İLYAS ƏFƏNDİYEVƏ KOSTYUM ÇOX YARAŞIRDI

Atamın dediklərindən: "Ədəbi aləmə göz açandan, Yazıçılar İttifaqına gedib-gəldiyim ilk vaxtlardan İlyas Əfəndiyevi tanımışam. 1943-44-cü illərdə o vaxtın yetirməsi olan utancaq bir uşağın heç bir yazıçıyla, o cümlədən İlyas Əfəndiyevlə yaxınlığı, salam-kəlamı ola bilməzdi. Arabir "Ədəbiyyat qəzeti" redaksiyasına gəlirdim, guya şeir gətirirdim və geri qaytarılırdım. Bir şey diqqətimi cəlb edirdi. İttifaqda gördüyüm yazıçıların hamısı eyni paltarda idi. Sən demə Ədəbiyyat Fondu Amerikadan gələn yardım (bu gün humanitar...) xəttiylə İttifaqın üzdə olan üzvlərinə eyni biçimdə, eyni tünd mavi rəngdə, nazik ağ zolaqlı kostyum paylamışdı. Yazıçılar içində İlyas Əfəndiyev və Ənvər Məmmədxanlı yaraşıqlıydılar. Kostyum da xüsusən onlara qiyamət yaraşırdı".

## İLYAS ƏFƏNDİYEVLƏ QABİLİN İLK TANIŞLIĞI

Atamın dediklərindən: "1944-cü ilin aprelində "Ədəbiyyat" qəzetində Nikbin təxəllüsüylə "Gəl, baharım" adlı ilk şeirim çıxdı. Müharibə illəriydi. Dərsdən sonra Tağı adlı biriylə sabun satmaqla məşğul olurduq. Çiynimdə sabun dolu çanta Krupskaya küçəsiylə "Kubinka"ya doğru gedirdim. Ketcxoveli küçəsinin tininə çatanda qulağıma evlərin yuxarı mərtəbəsindən səs gəldi:

- Nikbin, hara gedirsən, çiynindəki nədir heylə?

Yuxarı boylandım. Eyvanın məhəccərinə söykənmiş İlyas Əfəndiyevi gördüm. İttifaqa gəlib-gedəndə nə əcəb sifətim, hətta ilk imzam, təxəllüsüm onun yaddaşında qalmışdı?!

- Şeirini oxudum, təbrik edirəm, yaxşıdır, özü də əruzdur. Bu vəzn hər yazanın xörəyi deyil.

İlyas müəllimin səsi mülayim və ərkyana idi. Elə bil məni lap çoxdan tanıyırdı. İlk mətbu şeirim haqqında ilk yazıçı sözü eşitdim. Elə bil həmin gün 18 yaşlı Qabilə 30 yaşlı İlyas müəllim şairlik vəsiqəsi verdi".

## MİRZƏ İBRAHİMOVUN ETİRAZI

Atamın dediklərindən: "İlyas müəllimin köhnə İnturistdə 60 illik yubileyi şərəfinə verilən ziyafətdə əlimdə ləbaləb piyalə saatıma baxıb sağlıq dedim:

- Bu dəqiqə Azərbaycanda İlyas Əfəndiyevdən böyük dramaturq yoxdur!

Mirzə İbrahimov (çox qiymətli ədəbi sima, ictimai-siyasi xadim) açıq etiraz etdi:

- İstedadları saata baxıb təyin etmək olmaz!

Sağlığımı, yəni fikrimi təxminən 30-35 dəqiqə keçəndən sonra bir də təkrar etdim. Bərk əsəbləşmiş Mirzə müəllimi Kamran Hüseynov məzəmmətlədi:

- Ay Mirzə, cavan adamdır, keyfi yuxarıdır, deyir də... bu saat İlyasa möhürlü vəsiqə vermədi ki, bu Qabil...

Düzdür, məclis yeyib-içmək məclisiydi, ancaq dediyim sözlər mənim ayıq, aydın qənaətim idi. Möhürlü vəsiqəni də İlyas müəllimə Qabil yox, Allah vermişdi...".

“QABİL, MƏSUD, HARANI ÇAPIB-TALAYIB QARƏT EDİBSİZ?”

Atamın dediklərindən: "1959-cu ilin bir yay gecəsi Rəsul Rza, Məsud Əlioğlu və mən Lənkərandan gəlirdik. Astarada əsgərlik çəkən Anara baş çəkməyə gedəndə Rəsul müəllim bizi də özünə yol yoldaşı eləmişdi. Bakıya qayıdanda yolumuza Lənkəran sovqatlarından, nemətlərindən pay qoymuşdular. Kitab passajına – evlərinə çatanda Rəsul müəllim dedi:

- Uşaqlar kürü mənim, balıq sizin. Nigar balıq yemir.

Bəli, həyətimizə girəndə maşının yük yerindən həsirə bükülmüş balıq payımızı götürdük. Mən baltadan, bıçaqdan axtarırdım ki, iri, ağır nərə balığını iki bölüb yarısını verim Məsuda. Həsiri açanda gördük ki, balıq bir yox, ikidir və qulaq-qulağa pərçim olublar.

- Məsud, dart.

Başladıq balıqları dartışdırmağa.

- Dart.

- Dartıram.

Sən demə İlyas müəllim oyaqmış, işləyirmiş. Hay-küyümüzə balkona çıxır.

- Əhhə...əhhə. Ə, o nədi heylə, gecənin bu vaxtında dartışdırırsız, haranı çapıb-talayıb qarət edibsiz?

Məsələni ona dedik. Üçümüz də bərkdən güldük. Gecə gülüşü Hüsü Hacıyev 19-u başına götürdü. Ümumiyyətlə, bizim həyət kənd kimi bir şeydi, əgər bozbaş yemisənsə, hamı biləcəkdi ki, içində neçə dənə noxud vardı".

## "İLYAS ÇOX NÜMUNƏVİ ATADIR!.. "

Atamın dediklərindən: "Son dərəcə xeyirxah adam olan, İlyas müəllimi qoruyan, onun qədrini bilən, istedadını yüksək qiymətləndirən qocaman ədibimiz Əli Vəliyev özünəməxsus səs və ifadə tərziylə deyərdi:

- İlyas çox nümunəvi atadır!.. "

## "ELÇİN VƏ SİQARET..."

Yuxarıda qeyd etdiyim ki, atam Anarla Elçini mənə həmişə "oğulluq nümunəsi" çəkirdi: "Mahir, bilirsən də. İlyas müəllim Elçinə deyib ki, səndən bircə xahişim var. Yerinə yetirərsən? O da deyib ki, "baş üstə". Deyib ki, "siqaret çəkmə". O da neçə ilin siqaret çəkəni, başı ağarmış kişi atasının sözündən çıxmayıb. Siqareti tərgidib".

Atamın ömrünün son illərində hansı bir məclisə gedəndə, ortaya balıq ləvəngisi gələndə, mən tıxların təmizləyər və qabağına qoyardım. O saat kövrələrdi ki, bəs Elçin də belə edirdi. Toyuğu xırda-xırda edib atasının qabağına qoyurdu. Yeməyinə nəzarət edirdi.

## "FƏDAİ" ŞERİ VƏ YA QABİL NİYƏ "XALQ ŞAİRİ" ALMADI?

İlyas Əfəndiyevin hər dram əsəri, premyerası ədəbi mühit öz yerində, həyətimiz üçün də bayram idi. Hər bir qonşuya, ailə üzvüləriylə birlikdə bilet (cibinin puluna) göndərərdi. Mən də bu sənət bayramlarının kiçik tamaşaçısıydım.

Xüsusilə də "Büllur saray"da əsərinin. Bu əsərə azı on dəfə baxmışdım. Hər dəfə də ilk dəfə baxırmışam kimi. Atamı da yaman tutmuşdu bu əsər. Premyeradan sonra, 1986-cı ildə İlyas müəllimə "Fədai" adlı 21 bəndlik şer də ithaf eləmişdi.

*Səhnə ulduzları parlayır bir-bir,*
*Ad alır, san alır, şöhrətə çatır.*
*Təzə aktyorlar nəsli yetişir,*
*"İlyas teatrı" məktəb yaradır.*

*...Tarix yetişdirib Şekspirləri,*
*Görməmiş deyildir bəşər övladı.*
*Ancaq, misilsizdir məndən ötəri*
*Xalqımın fədai oğlunun adı.*

Atam söz vermişdi ki, bundan sonra İlyas müəllimin hər dəfə yeni əsəri dünyaya gələndə bu şeirə yeni bənd əlavə edəcək.

O dövrlər İsmayıl Şıxlı Yazıçılar Birliyinin sədri idi. Eyni gündə Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Samvel Qriqoryan, Hüseyn Arif "Xalq şairi" fəxri adına, Bayram Bayramov, İsmayıl Şıxlı isə "Xalq yazıçısı" adına layiq görülmüşdülər. Əlbəttə ki, təqdimatı Ali Sovetə Yazıçılar İttifaqının rəhbəri kimi İsmayıl Şıxlı yazmışdı. Atam da söhbət əsnasında "ay İsmayıl müəllim, mən də bu ədəbi nəslin son nümayəndəsiyəm. Nə əcəb mənim üçün də təqdimat verməmisən?" soruşanda cavab vermişdi:

- Qabil, şeiri İlyasa yazırsan, təqdimatı isə...

SON

Üstündən illər keçdi... İlyas müəllim, atam və bu yazımdakı digər korifeylər, qonşular - Əli Vəliyev, Mirzə İbrahimov, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri rəhmətə getdilər. Hamısı Fəxri Xiyabanda uyuyur. Burada gəzəndə özümü Hüsü Hacıyev 19-da hiss edirəm. Atamla İlyas Əfəndiyevin qəbirləri üzbəüzdür. Yenə də qonşudurlar. O vaxt olduğu kimi, indi də Elçini atasına baş çəkməyə gələndə görürəm. İlk illərdə atamın qəbirüstü abidəsini ucaltmaqda çətinlik çəkirdim. Yox. Elə bilməyin ki, hökumət pul buraxmırdı. Sadəcə bu

pul normal bir heykəltaraşlıq nümunəsini ortaya çıxarmağa bəs etmirdi.

Növbəti dəfə qəbir üstünə gələndə köhnə qonşum Elçinlə rastlaşdım. O da atasını ziyarətə gəlmişdi. Qonşu və yazıçı oğlu kimi salamlaşdıq. Birdən yadıma düşdü ki, Elçin həm də Baş nazirin müavinidir axı... özü də humanitar sahə üzrə. Qərara aldım ki, qəbirüstü abidənin götürülməsində ondan kömək istəyim. Bir də ki, söz təkcə xalq şairi Qabildən yox, həm də atası İlyas Əfəndiyevin, özünün, qardaşı Timuçinin, ümumiyyətlə Əfəndiyevlər ailəsinin dostundan gedir axı... Ağzımı açar-açmaz əliylə məni yüngülvari itələdi, səmtimi sanki Bakı şəhər İcra Hakimiyyətinə yönəldən kimi...

- Get, get, Mahir, Hacıbalanın yanına. Onun ehtiyat fondu var. Get, get ona de, o eləsin, – dedi.

Öz aləmində başından elədi. Bir sözlə yazıçı oğlu, yazıçı, qonşu Elçin bütün mənəvi kriteriyaların üstündən məmur, baş nazirin müavini Elçin Əfəndiyev kimi xətt çəkdi.

Hörmətli Elçin müəllim, Siz deyən kimi də elədim. Demə ADAM tanıyanmışsınız. İcra başçısı yox, Qabilin dostu Hacıbala müəllimə pənah apardım. O, mərhum dostuna səadaqətli çıxdı. Qəbrinə də yiyə durdu. El dilində desək, Hacıbala müəllim də köhnə kişilərdəndir. İlyas Əfəndiyev və Qabil kimi.

Mən isə o gündən Baş nazirin müavini yox, yazıçı, atamın dostu Elçindən incik gəzirəm. Bəlkə də bu inciklik və küsü ona insan kimi verdiyim ən böyük qiymətdir. Əlbəttə ki, atamın bir rübaisinə inansaq.

*İnci incə adamdan,*
*Ürəyincə adamdan,*
*Məhəbbətdir küsü də,*
*Küsmə becə adamdan.*

2013

# 2014

# KİRVƏ MÜQƏDDƏS ADAM OLMALIDIR, ERMƏNİ YOX!

- Mahir, səni təbrik edirəm. Qonaqlıq verməlisən.
- Niyə?
- Necə yəni niyə? Bəs İsmayıl Şıxlı haqqında kitab yazmışam.
- Mən niyə qonaqlıq verməliyəm ki? Get Elçin versin.
- Oğlu öz yerində... sənin də kirvəndir axı. Ona görə də birinci qonaqlığı sən verməlisən.

Dostum professor Buludxan Xəlilov yaman yerdə tutmuşdu məni. Yarızarafat, yarı ciddi olsa da… Cavab axtarırdım ki, qonaqlıq yükünün altından siyrişib çıxım. Tapdım da.

- Ay professor, mənim kirvəm xalq yazıçısı, atamın dostu, gözəl insan, qonşumuz, müəllim İsmayıl Şıxlıdır e, oliqarx yox. Əgər oliqarx olsaydı, sənə nəinki qonaqlıq verərdim... kitabını da çap etdirərdim, təqdimat mərasimini də keçirdərdim, üstəlik altına bir maşın da alıb qoyardım. Bildin?

Mən bu sözləri dedikcə Buludxan qımışdı, çöhrəsində sevinc yarandı. Bir anlıq özünü təqdimat mərasimində, güllərin-çiçəklərin ağuşunda hiss etdi. Birdən ayıldı. Ciddi görkəm aldı:

- Amin, Mahir. Amin,- dedi. Elçini bilmirəm, mən bu kitabın qonaqlığını verdim.

KİRVƏ

Tam əminliklə deyə bilərəm ki, bu sözdən, bu adı daşıyanlardan bütün Azərbaycan kişilərinin zəhləsi gedir. Əlbəttə ki,

uşaqlıqda aldıqları mənəvi travmaya görə. Mənim də bu mərasimdən iki şey yadımda qalıb. Əmbiya adlı dəllək, bir də kirvəm İsmayıl Şıxlı. İndi də, 3 yaşlı Mahirin kirvəsinə dediyi "xoş" sözlərə görə xəcalət çəkirəm. Söyüş leksikonum üçyaşlı olmasına baxmayaraq. Məndə olan məlumata görə Böyük İsmayıl Şıxlı həyatında bir dəfə belə məsuliyyətli yükün altına girib. O da Qabilə görə. Bilmirəm bilərəkdən, ya bilməyərəkdən - Xəlil Rza Ulutürk mənim ad günlərimdə çaşıb İsmayıl əmiyə həmişə "Qabilin kirvəsi İsmayıl müəllim" deyə müraciət edirdi. Özünün kirvə seçilməsi prosesi İsmayıl Şıxlıya da ləzzət eləmişdi. Hətta onu "Dostum Qabilin qəribə əhvalatları"nda xüsusi qeyd etmişdi:

"Bir səhər Qabil bizə gəldi. Narahat idi. Sözlü adama oxşayırdı. Ortaya çay qoyuldu. Stəkanı axıracan içməyə səbri çatmadı.

- Bilirsən, nə var, Mirzə, oğlumu sünnət eləmək istəyirəm.

- Lap yaxşı eləyirsən, çox mübarək.

- Sağ ol, amma bir məsələ var.

- O nədi, elə?

- Kirvə axtarıram.

Gülməyim tutdu.

- Gülmə, Mirzə, bizdə - Abşeronda – kirvəlik o qədər dəb deyil. Amma siz tərəfdə dəbdir.

- Dəb salarsınız, dəbdə olar.

- Elə məsələ də orasındadır. Bilirsən, Mirzə, Mahir mənim gözümün ağı-qarası bircə balamdır. İstəyirəm onun kirvəsi müqəddəs adam olsun.

- Yaxşı eləyirsən. Nə çoxdu dost-aşnan.

- Var. Amma onları istəmirəm.

- Bəs kimi istəyirsən?

- Səni.

- Məni?

- Həri. Mənə səndən yaxın kim var? Səndən əməllisini hardan tapacam. Düz iki aydır, götür-qoy eləyirəm, əl çəkən deyiləm.

Mən Qabilə etiraz etdim. Ürəyimin zəif olduğunu, uşağın əziyyətinə dözə bilməyəcəyimi söylədim. Qabil üz vurdu, mən boyun qaçırdım. Axırda əlacı kəsilib susdu. Gördüm yaman pərt oldu. Axı, indiyəcən onun bir sözünü iki eləməmişdim. Birdən gözü söhbətimizə qulaq asan həyat yoldaşıma sataşdı. Dərhal dirçəldi:

- Ümidə bacı, indi ki, belə oldu, sən Mahirin kirvəsi ol.
- Boy, nə danışırsan, Qabil, heç arvaddan da kirvə olar?
- Niyə olmur, dəbə salarsan, olar.

Razılaşmaqdan başqa yolum qalmadı“.

İsmayıl Şıxlının bu kiçik xatirəsində atamın bir sözü məni yaman tutdu. “İstəyirəm onun kirvəsi müqəddəs adam olsun”.

Deməli kirvəlik var-dövlət, cəmiyyətdə tutduğu mövqeyə görə seçilmir. Kirvə müqəddəs adam olmalıdır. Axı, ilk kişilik pasportunu o verir.

Bir anlıq xatirələrdən uzaqlaşıram. Nəcəf bəy Vəzrovun “Yağışdan çıxdıq, yağmura düşdük” əsərindəki erməni Qıdı Kirvələr gəlib dayanır göz önümdə. Azərbaycanda görəsən nə qədər erməni türk övladlarına kirvəlik edib? Bu ermənilər nə qədər Azərbaycanlıya kişilik pasportu veriblər? Erməni kirvələr öz kəndlərindədirlər. Bəs balaca kişilər hardadırlar?

# DEPUTAT OLMAQ İSTƏYİRƏM – BİR ÇAĞIRIŞ

Bu həvəs məndə 16 yaşında baş qaldırıb. Bircə arzum ürəyimdə qaldığım üçün.

LENİN BABA VƏ DEPUTAT

1982-ci il idi. Sinif rəhbərimiz Ramizə İsmayılova Yeni il tətili günlərində 18 nəfər 10-cu sinif şagirdi olan bizi Moskvaya aparmışdı. Paytaxtın gəzməli-görməli yerlərini gəzdik. Demək olar ki, hər yerdə olduq. Sonda Qızıl Meydana gəldik. Mavzoleyə böyük bir növbə uzanmışdı. Havada da 25-30 dərəcə şaxta. Ramizə İsmayılova xəstələnərik deyə, 4-5 saat növbəyə dayanmağa risk etmədi. Beləcə o vaxt hər bir sovet övladının, oktyabryat, pioner, komsomolçunun böyük arzusu olan Lenin babanı görmək arzusu ürəyimizdə qaldı. Bir vaxtlar SSRİ Ali Sovetinin deputatı olmuş Ramizə müəllimə də pərt olmuşdu. Tez-tez təkrar edirdi:

- İndi olaydım SSRİ-nin deputatı. Burda qabağımızı kəsib növbəyə düzən milis "çest" verib özü bizi qapıyacan müşayiət etmişdi. Bilirsinizmi nə qədər azərbaycanlını növbəsiz Lenini görməyə aparmışam? Eybi yox, bu dəfə qaldı, yayda gələndə ziyarət edərik.

Ramizə müəllimə sonra onu da dedi ki, "bəs Mavzoleyə növbəsiz giriş səlahiyyətinə yalnız SSRİ deputatı malikdir, Azərbaycan SSR Ali Sovetinin deputatları yox. SSRİ-nin deputatı 200 rubl maaş alır. Dəmiryol, təyyarə biletləri də havayıdır, bronu da öz yerində".

Nədənsə ilk dəfə onda deputat olmaq istədim.

DEPUTAT İSMAYIL ŞIXLI

Deyirlər ki, deputat seçilmirlər. Təyin edilirlər. Yaxud da ki, deputatlıq da həcc kimi adamın boynuna düşməlidir. Bu sovet dövründə belə idi. Məsələn, Azərbaycan Yazıçılar İttifaqının sədri SSRİ-nin deputatı, minimum Azərbaycanın deputatı seçilməliydi. Yaxud da iki dəfə Sosialist Əməyi Qəhrəmanları hökmən deputat olmalıydılar. O cümlədən bütün raykomların 1-ci katibləri. İndi də bu prinsiplərin bəziləri davam etməkdədir. Kimi "Azərkimya"nın, AzTV-nin sədri qoyurlar o saat deputat seçilir. Kimi də bu vəzifədən çıxarırlar, deputatlığından məhrum olur. Sovet dövrü başqa tələblər də vardı. Məsələn 10 uşağı olan "qəhrəman ana", sağıcı axtarırdılar ki, bəs SSRİ deputatlığına namizədliyini irəli sürsünlər. Göründüyü kimi deputatlıq sovet dövründə həm də vakant vəzifə əlavələriydi. İstəsən də, istəməsən də. Sadəcə bəxtin gətirməliydi.

Nə isə, böyük yazıçımız İsmayıl Şıxlı 1987-ci ildə Yazıçılar Birliyinin sədri, eyni zamanda həm də deputat idi. Günlərin bir günü İsmayıl əmi vəzifəsindən istefa verdi. Qalanın isə öz dilindən versəm yaxşı olar:

"Mən mənzilimi dəyişmişdim. Aralı düşmüşdük. Amma əlaqəmiz kəsilməmişdi. Bir gün Qabil yenə qapımızı döydü. Hay-harayla içəri girdi. Xoş-beşdən sonra gözlənilmədən soruşdu:

- Mirzə, hələ səni deputatlıqdan çıxarmayıblar ki?

Qəfil sualdan özümü itirsəm də cavab verdim:

- Yox.

- Lap yaxşı,- deyə azacıq fikrə getdi və sonra yenidən gözünü üzümə zillədi:- Yəqin sənə hələ beş-on gün dəyməzlər.

- Mən də elə bilirəm.

- Sən vəzifədən çıxmısan... bunun deputatlığa nə dəxli?

Keçib əyləşdik. Qabilin sorğu-sualının dalını gözlədim. O məni intizarda qoymadı. Təzədən qəribə sual verdi:

- Deputat sərhəd rayonlarına "propusksuz" gedə bilərmi?
- Gedə bilər.
- Bəs maşında yanınca gedənlər necə?
- Onlar da "propusksuz" gedə bilərlər.

Bu dəfə mən dözmədim.

- Qabil, mus-mus deyincə bir dəfəlik Mustafasını de görək.
- Bu saat, Mirzə, səbr elə. Heç Yardımlıda olmusanmı?
- Yox. Yolum düşməyib.
- Hə, indi düşəcək. Salyanda, Şorsuludan o tərəfdəki sərhəd məntəqəsindən bizi sən keçirəcəksən. Elçin bala əyləşəcək "Volqa"sında, yanında da sən. Arxada da üç nəfər. Birbaş qalxacağıq Yardımlıya.
- Xeyirdimi, Qabil?
- Xeyirdir, Mirzə. Mahir balama elçiliyə gedirik. Onun kirvəsi müqəddəs adam, elçisi də deputat olmalıdır. Yoxsa bizi sərhəddən buraxmazlar".

Sovet dövrü deputatın belə səlahiyyətləri də vardı. Sərhəd-keçid məntəqəsindən öz maşınında kimi istəsə keçirə bilərdi. Heç kim də soruşmurdu ki, hara gedirsən?..

## İCLAS ZAHİD QARALOVUNDUR

AzTV-də işləyəndə tez-tez Milli Məclisin komissiya iclaslarına gedirdim. Əvvəlcədən bilmirdik ki, hansı komissiyadır. O vaxtlar deputatlar xarici səfərlərə tez-tez gedirdilər. Təcrübəni öyrənirdilər. Tətbiq edirdilər.

Komissiyaların bütün iclaslarında ortaya "Badamlı" düzürdülər. Kiminsə boğazı qurusa içsin. İçəri girdik. Həmkarlardan soruşdum ki, "Bəs hansı komissiyadır?". Dedilər ki, görmürsən ortada "Badamlı" və stəkanlar yoxdur? Hamısını qıraqda bir stolun üstünə yığıblar. Deməli Zahid Qaralovun komissiyadır. Hansısa xarici ölkədə görüb, gəlib bizdə də tətbiq edib. "Ortaya su düzmək olmaz, qonaqlıq-zad deyil a... Kim istəyir, getsin, qıraqda içsin".

## MƏN SOVET HÖKUMƏTİNİ ...

Deyilənə görə olmuş hadisədir. Amma lətifə kimi danışırlar. Mənə də arvadı deputat olmuş bir tanışım danışmışdı.

Deməli sovet dövründə raykom katiblərinə hay çəkirlər ki, bəs on uşağı olan, sağıcı qadın tapmalısınız ki, SSRİ deputatlığına namizədliyini verək. Çətinliklə də olsa ucqar dağ kəndindən birində tapırlar. Sənədlərin toplayıb seçkiyə buraxırlar və sağıcı qadın deputat seçilir. Daha doğrusu təyin olunur.

Seçkinin səhəri günü sağıcının əri gedir ZAQS-a ərizə verir ki, bəs boşanıram. Soruşurlar ki, niyə? Heç nə demir. Söhbət gedir çıxır rayon aktivinə. Kişini çox çək-çevirə salırlar. Axırda dözmür:

- Ay camaat, bu mənim üçün əvvəllər arvad idi. Bir yastığa baş qoyurduq. Gecələr də ki... On uşağımız var. İndi deputat seçilib. Hökumət sayılır. Mən hər gün gecə Sovet Hökumətiylə necə intim əlaqədə ola bilmərəm? (Mən Sovet Hökumətini qay… bilmərəm.) Ona görə də boşanıram. Bildiz?

## MƏNİMÇÜN DEPUTAT OLMAQ VACİBDİR

Günlərin bir günü yenə komissiya iclasıydı. Özü də MM-in bir neçə daimi komissiyası bir yerə toplaşmışdı. Deməli gündəlikdə vacib məsələ olmalıydı. Bir passiv millət vəkili vardı. Amma nədənsə bu dəfə çox fəal görünürdü. Onun bu fəallığı mənim də diqqətimi cəlb etdi. Qanun layihəsini anlamağa çalışan deputata digər həmkarı köməyə gəldi. Loru dildə:

- Ay qız, bax sən indi deputatsan. Sabah isə deputat seçilməyə bilərsən. Bax yaşın çatanda, pensiyaya çıxanda sən fəaliyyətdə olan deputatın maaşının 80 faizini alacaqsan. Bildin?

İndi həmin gündən yuxum ərşə çəkilib. Pensiya yaşıma isə cəmi 15 il qalır.

# UŞAQ DOĞMAQ – KİTAB DOĞMAQ

## HALALLIQLA DOĞMAQ

Hamiləyəm. İlk uşağımdır. Ərimlə xoşbəxt yaşayıram. Dolanışığımız da ortabab. İndidən gedib həkim nəzarətinə düşmüşəm. Hər ay qan, sidiy analizindən, USM müayinəsindən keçirəm. Ginekoloqa da demişəm ki, necə başlamısan doğuşu da özün başa çatdırarsan, inşallah. Uşağın adını da əvvəlcədən qoymuşuq. İndidən aya 60-70 manat qırağa atıram. Ərim deyinəndə ki, axı tibbi xidmət pulsuzdur, borclarıdır... deyirəm ki, yox! Hər şey halallıqla olmalıdır. Getmə ayda üç toya, atma 50-100 manat. Özün görəcəksən doqquz ayın tamamında xəstəxana pulum tam düzələcək.. Muştuluq pulunu da nəzərə almışam. Hələ "Bon Appetit"dən iri bir tort da kəsdirəcəm. Qoy doğuşda iştirak etməyənlər də balamın şirinliyindən dadsınlar. Qoy uşağım dünyaya gələn doğum evində hamı desin: "Ay ayağı yüngül olsun, ruzulu olsun. Ata-anasına arxa olsun. Yarıyanlardan olsun!".

"Hamiləyəm". Əlbəttə ki, məcazi mənada . İlk kitabıma hamiləyəm. Yazmışam, o qədər yazmışam ki, ilk kitabımı çıxarmaq iddiasına düşmüşəm. Bütün araşdırmaları aparmışam. Kitab neçə səhifə olacaq, mətbəə xərcləri, dizayn. Hətta adını da qoymuşam. Hamısını nəzərə almışam. Öz cibimdən verəcəyəm. Necə deyərlər "Əkə bilərsən, bəs doğanda boğazından kəsib niyə doğmayasan ki?" Kitab çıxan gün yaxın dostlarla ilk siqnal nümunəsinin qonaqlığı, təqdimat mərasimi,

təqdimatdan sonra kitabı bir az da geniş tərkibdə araqla "dezinfeksiya" və digər rəsmi tədbirlər. Bütün bu xərclərə də hazıram. Axı, ilk kitabımdır. Hamı deməlidir ki, Allah xeyirli eləsin. Axırıncı yox, axarıncı olsun. Müəllifinin nə arzuları var həyata keçsin!

SPONSORLA DOĞMAQ

Hamiləyəm. İndidən dərd alıb canımı. İkinci gün gedib həkimə qeydiyyata düşməliyəm. Bilirəm o saat da göndərəcəklər analizə, ordan da UZİ-yə. Xərci də ki, nə qədər. Bilmirəm qaynanama deyim, yoxsa anama. Ərimə dünən eşitdirdim ki, pul ver. Üzünü o yana çevirib yatdı. Anama desəm yaxşıdır. Yəqin etiraz etməz. Bəs doğum evi? Eybi yox ora yığışanda, qohumlar  bir şey fikirləşərlər. Qaynatam jurnalistdir. Qışqır-bağır salacaq, o saat qorxacaqlar. Demaqoqluğu əla bacarır. Elə bərkdən bağıracaq  ki, mən doğanda qışqırmağım onun yanıda toya getməli olacaq. Muştuluq yerinə də yeni çıxan 100 qramlıq kitabını avtoqraf yazıb verəcək.

Hə. Bunu da yoluna qoyduq. Dalımızca deyinəcəklər? Qoy deyinsinlər. Nə olacaq ki? Xeyir-duanı Allah verir, roddom yox!

Kitab çıxarmalıyam. Ona görə yox ki, onu kimsə oxuyacaq. Əsla. Sadəcə, yazılarımı bir yerə yığım ki, toplu şəklində qalsın. Bir də ki, qohum var, tanış var. Bir yerə gedəndə desinlər ki, böyük yazardır, hələ kitabı da çıxıb.  Nə olsun ki, çəkisi 100 qramdır.  Bəs sponsor hardan tapım? Kimin yanına gedim? Kimin qapısın döyüm? Bəlkə borca çıxarım? Sonrasına Allah kərimdir. Qapı-qapı düşüb kəndimizdən olan vəzifəli adamlara paylayaram. Hərəsi 50 manat versə bəs edər. Heç olmasa kitabın pulu çıxar. Bəs borcu hardan tapım? Hələ dost-tanış boynuma qonaqlıq da qoyacaq. Eybi yox, telefonu söndürərəm. Bəs sonra? Əsas kitabın dünyaya gəlməsidir, sonrasına isə Allah Kərimdir!

# "GÖRDÜN? ELMİRA QAFAROVA KİŞİ QIZIDIR!"

20 yanvar, qanlı yanvar. Çoxları bu günü qəhrəmanlıq salnaməmiz adlandırır. Amma mən bu günü sadəcə qəhrəmanlığımızın son zirvəsi adlandırıram. Əlbəttə ki, subyektiv fikrimdir. Çünki bundan yuxarı qalxa bilmədik. Əksinə aşağı yuvarlandıq. Məncə isbata da ehtiyac yoxdur. Sadəcə bu tarixdən keçən 24 illik yola, verdiyimiz qurbanlara, torpaqlara baxsaq bəs edər.

Mən həmin günlərə bir yazıçı övladı kimi nəzər salacağam. Şərhsiz-filansız. Sadəcə "Deyilən söz yadigardır" prizmamdan. Çox çətin günlər idi. Təki olmayaydı.

QABİL MÜƏLLİM, OTUR MAŞINA

20 yanvarın səhəri. Televizor işləmir. AzTV-nin enerji bloku partladılıb. İnformasiya blokadasındayıq. Bircə Mirzə Xəzərin səsi gəlir. Çox qəribə idi. Sovet dövrü olmasına baxmayaraq xarici radio ilə telefon əlaqəsi saxlamaq mümkün idi. Atam səhər tezdən geyinib aşağı düşdü. Daxili İşlər Nazirliyinin qabağından keçəndə səliqəli geyinmiş, üzü qırxılmış bir polis generalı gülə-gülə:

- Salam, Qabil müəllim! Necəsən?

- Sən bizim Soltan Məmmədovun qardaşı olmasaydın, deyərdim sənə necəyəm! Nazir olmağına-zada baxmazdım, - deyib üzü akademiyaya tərəf addımlamağa başlayır.

Səmada isə vertolyotlar uçuşur. Yerə vərəqələr atırlar. Xəbərdarlıq edirlər ki, bəs şəhərə ordu girib, komendant saatıdır. Guya ki, camaatın xəbəri yoxdur. Necə deyərlər, "toydan sonra nağara".

Bu an bir "Zaparojest" markalı maşın dayanır.

- Qabil müəllim, otur maşına.

- Sən kimsən, ay bala.

- Qabil müəllim, sizi tanıyanlardan biri. Gecə elə şeylər baş verib ki... Bunları mənim yox, sizin görməyiniz daha vacibdir. Danışan dilimizsiniz.

Atam maşına minir. Naməlum adam atamı 11-ci Qızıl Ordu heykəli və əks istiqamətdə baş verən faciənin qanlı izləriylə gəzdirir. Atam da gecə baş verənləri, həlak olan günahsız, əliyalın tankın qabağına çıxan insanların cəsədlərini öz gözləriylə görür. Beləcə həmin gün "Mərsiyə" dünyaya gəlir.

*Gecəni atəş ilə qırmızı dan eylədilər,*
*Xalqımı-millətimi gülləbaran eylədilər!*

*Tutulub vahimədən nitq bu gün, dil bu səhər,*
*Bəzəyib Abşeronu qanlı qərənfil bu səhər,*
*Bakı fəryad eyləyir, gözdən axır sel bu səhər.*
*Gəmilər nalə çəkir, ərşə çıxır zil bu səhər,*
*Gecəni atəş ilə qırmızı dan eylədilər,*
*Xalqımı-millətimi gülləbaran eylədilər! ...*

*... Öz qızıl ordumuzun Yurdumuza qəsdinə bax,*
*Üstümə tank yeridən fitnəkarın şəstinə bax,*
*Gözü qanımla xumar düşmənimin məstinə bax,*
*Qara bayraqlarımın cərgəsinə, dəstinə bax,*
*Gecəni atəş ilə qırmızı dan eylədilər,*
*Xalqımı-millətimi gülləbaran eylədilər! …*

## PARTİYA BİLETLƏRİNİ YANDIRMAQ MƏRASİMİ

Ertəsi gün ziyalılar Akademiyanın Rəyasət Heyətinə axışırlar. Etiraz əlaməti olaraq partıya biletlərini də yandırırlar. Bəxtiyar Vahabzadə, Qabil və digər vətənpərvərlər də bu aksiyanın önündə gedirlər. Sayını deyə bilmərəm. Sovet Ordusunun hələ də şəhərdə olduğu, komendant saatının at oynatdığı, meydan suladığı bir dövrdə bu çox ciddi və siyasi addım idi.

HAŞİYƏ: Hüseyn Arifə də çatdırırlar ki, bəs ziyalılar etiraz əlaməti olaraq partiya bilətlərini yandırıblar. Bəxtiyar Vahabzadə də bu siyahıda birincidir. Hüseyn Arif də:

- Yalan deyir, evdə üç dənəsi də var. (SON)

## "GÖRDÜN? ELMİRA QAFAROVA KİŞİ QIZIDIR!"

Qonşumuz Bayram Bayramov hardansa 20 Yanvar gecəsi baş verənlərin videokassetini əldə etmişdi. Onlarda videomaqnitafon olduğundan atamı da çağırmışdı ki, gəl birgə tamaşa edək. Mənə isə icazə vermədilər.

Yanvarın 20-si Bayram əmi bizdəydi. Çox qəribə olsa da Azərbaycan Dövlət radiosu fəaliyyət göstərirdi. Əlbəttə ki, yalnız simfonik musiqi verirdilər. Amma ara-sıra komendantın elanları da eşidilirdi. Elə bu zaman Azərbaycan SSR Ali Sovetinin sədri Elmira Qafarovanın səsi gəldi. Bəyanat verirdi. Bayram əmi yerindən durub servantın üstündəki radioqəbulediciyə yaxınlaşdı. Diqqətlə Elmira Qafarovanın bəyanatına qulaq asmağa başladı:

"Azərbaycan SSR-nin suverenliyinin kobud surətdə pozulması, SSRİ Ali Sovetinin Rəyasət Heyəti tərəfindən respublikanın paytaxtı Bakı şəhərində fövqəladə vəziyyət elan edilməsi ilə əlaqədar olaraq Azərbaycan xalqı, Respublikanın bütün vətəndaşları adından qəti etirazımı bildirirəm.

Fövqəladə vəziyyət elan etmək üçün ağır döyüş texnikasından və avtomat silahlardan istifadə etməklə dinc əhaliyə qarşı

amansız tədbirlər görülmüşdür. Bu isə çoxlu insan təlafatına gətirib çıxarmışdır. Həlak olanlar arasında gənclər, qadınlar, qocalar, uşaqlar da vardır...

...Azərbaycan xalqı özünün oğlan və qızlarının bu cür faciəli surətdə həlak olmasını heç kəsə bağışlamayacaqlar".

Bəyanat başa çatdı. Bayram əmi üzünü atama tərəf döndərib:

- Qabil, gördün... Elmira Qafarova kişi qızıdır.

BƏXTİYAR, İSMAYIL, MƏN... ÜÇÜMÜZÜ DƏ QIRACAQDILAR

Radionun işlədiyini görən atam, Bəxtiyar Vahabzadə və İsmayıl Şıxlı üz tuturlar telestudiyaya. Həyətə girəndə əli avtomatlı əsgərlər və bir general kəsir bunların qabağını. Zabitə izah edirlər ki, bəs biz filankəsik, deputatıq – xalqa müraciət etmək istəyirik. General da mədəni surətdə cavab verir ki, "nelzya", yəni ki olmaz. Bu sözdən sonra üçü də geri dönüb qayıdırlar. Bir neçə addım gedəndən sonra Bəxtiyar Vahabzadə geri dönür. Yeyin addımlarla generala yaxınlaşaraq "Cəllad!" deyib üzünə tüpürür. Əsgərlər də bunu görüb avtomatların "zatvor"unu çəkirlər. Yəni ki, atəş açmaq hazırlığına gətirirlər. General isə əliylə işarə verir ki, silahları salın aşağı. Beş-on saniyə rus generalıyla göz-gözə dayanan Bəxtiyar əmi atamgilin yanına qayıdır:

- Getdik!

HAŞİYƏ: Bu əhvalatı atam Bayram əmiyə də danışdı. Bayram əmi:

- Bəxtiyarın da bu "pokazuxa"lığı olmaya da. (SON)

PARTİYA BİLETİNİ QAYTARDIM, QAYTARDILAR

Şəhidlərin üçü günü Universitetin filologiya fakültəsinin 5-ci kursunda oxuyan altı nəfər partiyacı tələbə - mən və beş qız – Şəhidlər xiyabanını ziyarət etdik. Sonra universitetə gəlib

partiyadan imtinayla əlaqədar ərizə yazdıq, partiya biletimizi təhvil verdik.

Torpaq soyudar deyərlər. Şəhidlərin 40-ı çıxan günün səhəri dərsə gəldik. Gördük ki, partiya iclasıdır. Çox güclü arqumentlərin qarşısında partiya biletini geri götürdüm. Sonradan eşitdim ki, o boyda fakültədən üç nəfər üzvlükdən imtina edib. Onlardan biri də professor Bəxtiyar Vahabzadə idi.

AzTV-də 20 YANVAR ŞOUSU

20 Yanvar hadisələri mənimçün bir də 90-cı illərin sonunda "təkrar olundu". AzTV-də işləyirdim. Ümumi kollektivin adından prokurorluğa müraciət qəbul edildi ki, bəs Elşad Quliyev sədr olanda enerji blokunun partladılmasından əvvəlcədən xəbərdar imiş. Bəs bunu bilə-bilə heç kimə xəbər verməyib. Çox "gözəl" məntiq idi. Faciə törədənlər qalıb bir yanda, Elşad Quliyev yenidən qayıdıb gündəmə. Hətta 1990-cı ildə 10-15 yaşı olanlar, televiziyada işləməyənlər də bu müraciətə qol çəkmişdilər. AzTV-yə müstəntiq də gəlmişdi. Sonda məlum oldu ki, bu oyun sadəcə televiziya professionalı Elşad Quliyevin yenidən sədrliyə qayıtmasının qabağını almaq üçünmüş. Bilmirəm kimin ideyasıydı. Amma bəhrəsini vermişdi. 20 yanvar Elşad Quliyevin torbasını tikmişdi.

SON

20 Yanvarda və sonralar çox hadisələr olub. Bu haqda çox şeylər yazılıb. Bu da mənim yadımda qalanlardır. Sadəcə yazdım…

# SÜD

Süd. Dünaya gəldiyimiz ilk anlardan ağız dadımız. Sonradan müxtəlif südlü sıyıqlar, daha sonra qatıq, xama, kəsmik, qaymaq, yağ, ayran, dovğa, süzmə, kefir, dondurma. Nəhayət, bu gün dəbdə olan süd məhsulu - yoqurt. Süd təkcə yemək deyil, həm də yüz dərdə dərmandır. Çağanın qulağı ağraıyanda, burnu tutulanda, zökəmdə ana südü dərman kimi istifadə olunur. İnsan zəhərlənəndə qatıq verirlər. Kimya sənayesində, şüa ilə bağlı işlərdə, televiziyada çalışanlara süd verirlər. "Kitabi-Dədə Qorqud"da "ana südü, dağ çiçəyi" kəlamı da elə-belə deyilməyib. Ana südü ilə bağlı lətifə də var.

LƏTİFƏ

Günlərin bir günü orta yaşlı bir kişi xəstələnir. Həkim də onu müayinə etdikdən sonra təyinat verir:

- Sənin bircə dərmanın var. O da ana südüdür. Özü də əmməlisən.

Kişi məəttəl qalır ki, bu nə xəstəlikdir ki, əlacı yalnız ana südüdür? Bəs ana südünü hardan tapsın? Hansı gəlin onu əmizdirməyə razılıq verər?

Amma bu yandan da xəstəliyi onu incidirmiş. Küçəylə gedəndə görür ki, bir cavan gəlin skameykada oturub uşağın əmizdirir. Yaxınlaşır. Hal-qaziyəni başa salır. Kişi gözləmədiyi halda gəlinin ona yazığı gəlir. Razılıq verir. Çağanı yatızdırıb yedəyə qoyandan sonra, kişini ağuşuna alır. O da ədəb-ərkanla başlayır qadını əmməyə. Demə gəlin də dul imiş. Bir az keçdikdən sonra cuşa gəlir. Nəsə ürəyi "başqa şeylər"

istəməyə başlayır. Deməyə də utanır. Kişi isə gəlinin döşünü marça-muçla əmməkdə davam edir. Sonda qadın dözməyib kişidən soruşur:

- Ay kişi, bəs ürəyin başqa şey istəmir?

Kişi dodaqlarını gəlinin döşündən ayırıb:

- İstəyir.

Gəlin də kişinin onu başa düşdüyünü zənn edib sevinir:

- Nə?
- Kişmişli bulka.

## MƏN GÖRƏSƏN NƏ İÇİRƏM?

Nədənsə bu lətifə yadıma düşdü. İndi soruşacaqsınız ki, süd bu qədər aktual problemdir ki, Mahir bu mövzuya müraciət edib?

Mən hər gün səhər bir stəkan süd və bir taxta peçenye yeyirəm. Dükandan süd alırdım. Qonşum İsmayıl üzümə məəttəl-məəttəl baxdı ki, "ay Mahir müəllim, paçka süd niyə içirsən? Qonşu inək saxlayır. Denən təzə sağılmış südü evə gətirsin də...". Dedim ki, "Ay İsmayıl, Masazırda otlaq sahəsi yox. İnəyə də nə yem verir, Allah bilir. İstəmirəm". Cavabı tutarlı oldu: "Sənin aldığın poroşok südündən yaxşıdır ki...".

İki ildən çox Xırdalandakı Bakı Süd Kombinatında kadrlar üzrə inspektor olmuşam. İsmayılın bu sözü məni o illərə apardı. Bir an ayıldım. Bu sahəni az-maz bilən adam kimi, görəsən dükandan aldığım nədir? Süd, yoxsa...

## ŞAMAMA HƏSƏNOVA ƏSL TƏSƏRRÜFATÇIDIR

Füzulidə əsgərlikdəydim. Sovet vaxtı idi. İki dəfə Sosialist Əməyi Qəhrəmanı Şamama Həsənova o bölgənin hörmətli adamlarından sayılırdı. Bir sərhədçi kimi Molla Məhərrəmli, Əhmədallar, Horadiz (qəsəbə) sakinləriylə sıx təmaslarımız olurdu. İki nəfər öz aralarında söhbət zamanı :

- Bu Şamama xanım çox ağıllı adamdır. Əsl təsərrüfatçıdır.

- Düz deyirsən. İndi nə yenilik edib?
- Kolxozun bütün inəklərin satıb. Yerinə camış alıb. Camış da ki, həyasız heyvandır. İnək kimi tez-tez xəstələnmir. Yediyi də ki, qamış. Amma süd verəndə yağlılığı 6-7 faiz.

Bu sözün nə olduğunu o vaxt anlamadım. Sonralar süd kombinatında işləyəndə başa düşdüm.

## TAXTA YEŞİKDƏN YAĞ ALANLAR

Sovet vaxtı Bakını iki kombinat süd və qaymaqla təmin edirdi. Biri "Baksüd" İstehsalat Birliyi, o biri isə Bakı Süd Kombinatı. "Bakmoloko"nun rayonlarda 30, Bakı süd kombinatının isə 5 süd zavodu vardı. Hər gün rayonlardan sisternalarla paytaxta süd göndərirdilər. İnək südünün yağlılığı maksimum 6 faiz, camış südünkü isə 7,7 faiz olurdu. Əlbəttə ki, kağızda. Xammaldan Bakıda süd, qatıq, kəsmik və digər məhsullar hazırlanırdı.

Südün yağını birinci rayon zavodlarında sivirirdilər. Yəni ki, aşağı salırdılar. 7 faizdirsə qalırdı 5 faiz. Qalan südü sisternalara vurub Bakıya göndərirdilər. Bəzən süddən qaymaq alıb çəlləklərə doldururdular. Göndərilən qaymaqdan isə kombinatda yağ alınırdı.

Beləliklə, süd sisterna ilə zavoddan çıxır. Maşının sürücüsü bir az gedəndən sonra bilirsinizmi nə edirdi? Əvvəlcədən taxtadan hazırladığı yeşiyi qoyurdu üç tonluq süd sisternasının içinə. Bakıyacan 200-300 kilometr yolu süd maşını dərə-təpə yollarla çalxalana-çalxalana gəlib çatırdı kombinata. Necə deyərlər təbii nehrə. Çataçatda şofer yeşiyi südün içindən çıxarırdı. Ona yapışan yağı qəşəngcə sivirirdi. Yağın tapılmayan vaxtında ailəsinə heç olmasa 1 kilo qənimət yağ aparırdı.

O dövrdə şoferlər müxtəlif üsullardan istifadə edirdilər. İstehsal sahələrinə və ya anbara pambıq, yun, şəkər tozu, qənd aparanlar guya ki, maşını yumaq adıyla salırdılar çaya. Həm yük maşını təmiz olurdu, həm də apardıqları yük çayın rütubətini özünə çəkib bir az da ağırlaşırdı. Mala hopan rütubətin

ağırlığı sürücünün qazancı sayılırdı. Axı, hesablaşmada artıq mala nəğd pul verirdilər…

## SÜD QƏBULU SEXİ

Kombinatda südün yağlılığını ölçüb qəbul edirdilər. Yuxarı çənlərə vururdular. Ordan da qatıq, kəsmik, süd, pendir sexlərinə paylanırdı. Pepsin deyilən bahalı - bir kilosu bir "Jiquli" qiymətinə olan - maddə isə qatıq və pendirə xüsusi qatılıq verirdi. Texnologiyadan danışıb başınızı ağrıtmaq istəmirəm. Bunları oxuya da bilərsiniz. Pərdəarxası məqamları vermək istəyirəm.

## SÜDƏ SU QATANLAR

Deyilənə görə şəriətdə də böyük günah sayılır. Südə su qatmazlar. O dünyada haqq-hesab çəkəndə bu günahı işlədənlərə deyirlər. "Südü sudan ayır". Əlbəttə ki, bu günahın sahiblərinin son mənzili Cəhənnəmdir. Bunu uşaqlıqda, böyüklərin dilindən eşitmişəm.

Bəs 5, 6, 7 faizli südü normallaşdırmaq, yəni 3 faiz, 2,4 faizə salmaq üçün südçülər nə etməlidir? Texnologiyaya görə yağlı süd su ilə yox, digər məhsulların istehsalından geri qayıdan yağsız südlə - "abrat"la qarışdırılmalıdır. Buna normallaşdırma deyirlər. Əgər "abrat" yoxdursa? Baballları öz boyunlarına.

## HACI VƏ MEYMUN

Biri süd satıb ailəsini dolandırırmış. Sonradan südə su da qatmağa başlayır. Bu minvalla varlanır. Həcc boynuna düşür. Ailəsiylə sağollaşıb yola düşür. Səfərin müəyyən hissəsini gəmiylə getməli olur. Qızıl pullarını isə kisəyə qoyub böyründən asıbmış. Birdən gəmidəki meymun hoppanır kişinin üstünə. Ani halda pul kisəsini böyründən çıxarıb qalxır dor ağacına. Ağzını açır. Qızılın birini dənizə, birini də ziyarətə gedənin

üstünə atır. O da dinməzcə durub bu mənzərəyə tamaşa edir. Yanındakılar:

- Ay kişi, bir əncam çək. Belə getsə meymun pulların yarısını dənizə atacaq?!

- İşiniz yoxdur. Meymun yaxşı bilir nə edir. Qazandığım pulun yarısı südün, yarısı suyundur.

PALTARYUYAN MAŞIN HARA, YAĞ HARA?

“Köhnə yurdun qədrini təzə yurdda bilərlər”. Sovetlər dağılırdı. İşçiləri tez-tez öz hesabına növbəti məzuniyyətə çıxarırdım. Üst-üstə ilin 6 ayın işləyirdilər. Yanıma gəlib ərizə yazanda köhnə xatirələri oyanırdı:

- Heyf deyildi sovet vaxtı. Hərəmizin evində “Malyutka” paltaryuyan maşını vardı...

- Əladır ki... ərin səni gör nə çox istəyir? İstəmir ki, paltarları əllə yuyub əziyyət çəkəsən.

- Nə paltar? Sən də söz danışdın da... Paltaryuyan maşında camaşır yumurduq e, yağ alırdıq. Üç kiloqram qaymağı əkişdirib gətirirdik evə. Atırdıq maşına.

3 kilodan 1 kilo yağ alınırdı. Özü də yağın talonla olan vaxtında.

ANAMI DA ALDATMIŞDILAR

90-cı illərin əvvəllərində Bakıda xüsusi kənd təsərrüfatı yarmarkaları keçirirdilər. Bizim kombinat da bu “məhsul bayramı”nda fəal iştirak edirdi. Bir gün atamgilə baş çəkməyə gəldim. Gördüm ki, anam yarmarkadan təzəcə qayıdıb. Yağ alıb. Atama da bəh-bəhlə tərifləyir ki, bəs təmiz inək yağıdır. Soruşdum ki, bəs hardan bilirsən ki, inək yağıdır. Dedi ki, rənginə bax... sapsarıdır. Anam deyəndə ki, yağı “Nərimanov” kinoteatrının qabağındakı yarmarkadan alıb... dodağımı dişlədim. Deməli məhsul bizim kombinatındır. Bir gün qabaq iki texnoloqun öz aralarındakı söhbəti yadıma düşdü:

- Yağa o qədər rəng vurmuşam ki, sapsarıdır. Lap inək yağı kimi.

“VALLAH, BUNLARIN AĞLI YOXDUR!”

Gürcüstandan da Bakıya nəzərəçarpmaz dərəcədə köç başlamışdı. Tez-tez “yeraz”la yanaşı, “qraz” kəlmələri də eşidilməyə başlayırdı. Bir gün kombinata yaşlı bir kişi gəldi. Dedilər ki, Gürcüstandan gəlib. Məşhur pendir ustasıdır. Bir gün, iki gün... üçüncü gün… dözmədi bu pendir ustası, başladı gileylənməyə. Səbəbiylə maraqlandım.

- Ay Mahir, pendirə yağlı süd verməlidirlər. Bunlar isə mənim istədiyim südü vermirlər. Sonra da deyirlər ki, Gürcüstanda elədiyin pendirdən düzəlt. Mən də başa sala bilmirəm ki, pendir yağlı olanda bunlara da xeyirdir, keyfiyyətinə də. Çünki yağlı pendir suyu özündə saxlayır. Bu da artıq çəki deməkdir. Biclik edib suyun hesabına xeyir götürməkdənsə, südün yağlılığını kəsirlər.

MOZZARELLA Dİ BUFALA

Bir dəfə AzTV-də Standarlaşdırma İdarəsinə çəkilişə getmişdik. Apardılar bizi “Baksteel”ə. Yəni ki, armatur istehsalat edən zavoda. İstehsalat sahələrinin arasından keçib bir mərtəbəli binaya yaxınlaşdıq. İçəri girdik. Tam başqa bir aləmə düşmüşdük. Demə zavodun içində məşhur italyan - “Mozzarella di Bufala” - pendirləri istehsal edirlərmiş. İstehsalatı yaratmaq üçün rayonların birində camış ferması da yaradıblarmış. Çünki adından da göründüyü kimi bu pendir yalnız camış (bufala – tərcümədə camış deməkdir) südündən hazırlanır. İtalyan pendir ustaları bu məqsədlə rayona gedəndə kəndlilər onların qabağına bizim motal, qoyun pendiri, camış qatığı qoyublar. Xaricilər də bu nemətlərimizdən dadıb, heyrətlərini gizlədə bilməyiblər.

- Bu cür gözəl pendir hazırlayırsınız, "Motzorella de Bufala"ya nə ehtiyac vardı ki?

SON

Bu mənim südlə bağlı müşahidələrim, təəssüratlarım idi. Hər səhər süd içəndə - xüsusilə də soyuq qış aylarında - fikirləşirəm ki, içdiyim süd təbiidirmi? Bu südə su qatırlarmı? Yadıma o da düşür ki, qış vaxtı süd istehsalı azalırdı. Xaricdən toz - paraşok süd alırdıq. Paraşoku da su ilə qarışdırırdılar. Hinkir-Minkirin isə kitabında südə su qatanlarla bağlı maddə var. Paraşoka su qatanlar isə hələ ki, Cənnətlikdir.

# ELAN: "İNTİHAR ETMƏK İSTƏYİRƏM!"

Nəsə həvəsə düşmüşəm. Özümü öldürmək istəyirəm. Ona görə yox ki, nəsə problemim var. Əsla. Obyektimi də sökməyiblər. Çünki yoxumdur. Vəzifəmi də əlimdən almayıblar. Çünki o da yoxdur.

Sadəcə Əzrayılı qabaqlamaq istəyirəm. Axı niyə mən, mənə ayrılan ömrün sonuna qədər səksəkəylə oturub onu gözləməliyəm ki, nəvaxtsa gəlib canımı alsın. Elə özüm-özümün canımı alaram da. Axı, bu can mənə məxsusdur, ona yox. İkincisi də ki, Azərbaycanda hər şey monopoliyadadır. Pul qazanmaq da çətinləşib. Bu addımımla Azərbaycan iqtisadiyyatında yeni – perspektivli sahənin əsasını qoyaram: İqtisadi intihar.

İQTİSADİ İNTİHAR

Özünü öldürmək, deyirlər ki, günahdır. Bunu bilirəm. Özünə qəsd edən də Cənnətlik yox, Cəhənnəmlikdir. Bunu da bilirəm. Bəs axı bir misal da var: Cəhənnəmə gedən özünə yoldaş axtarar. Mən də qərar verdim ki, özümə dörd yoldaş seçim. Birinci onların canın alım, sonra da özümün. Qiymətlərin də özüm təyin etdim. Kimin kiminlə nə ədavəti, düşmənçiliyi varsa, müraciət edə bilər. Adambaşı 100 min dollar. Düzdür başqa maraqlı təkliflər də ola bilər. Amma bilin. İcra başçısı, nazir mənim ranqımda deyil. Onlar bir növ mini Allahdırlar. Mən isə heç vaxt Allaha qarşı üsyan qaldıra bilmərəm.

Nə isə elanı verdim. Xeyrim isə cəmi 400 min manat olacaq. Bunun 10 mini dəfn, ehsan xərcləridir. 390 mini isə halal edin.

Nəbadə dalımca danışasınız a... Deməyin ki, "Kül başına Mahir, 390 minə görə də adam özünü öldürər? Filankəs icra başçısının yerinə keçməyə görə 2 milyon verirdi də...".

## ALLAH RƏHMƏT ELƏSİN DEMƏYƏCƏKLƏR?

Deyirlər ki, yaxşılıq elə. Öləndə hamı desin ki, Allah rəhmət eləsin. Özünü öldürənə isə rəhmət düşmür. Amma xalqımızın ağıllı oğlanları buna da əlac tapıblar. Ürəyiniz nə qədər istəyir bir-birinizə pislik edə bilərsiniz. Buna baxmayaraq hamı sizə öləndən sonra bir ağızdan rəhmət oxuyacaq. Sadəcə ölməmişdən qabaq bu vəsiyyəti etməyi yaddan çıxartmayın:

Bir pis adam var imiş. Kənddə hamının zəhləsi gedirmiş bundan. Ölüm ayağında oğlunu yanına çağırıb vəsiyyət edir. Deyir ki, ay oğul, məni basdıran gün axşam gedirsən bir maşın təzə mal peyini alırsan. Gətirib tökürsən qəbrimin üstünə. Bildin?

Oğlu razılaşmır. Amma sonda atasının son vəsiyyətini həyata keçirəcəyinə söz verir. Atası ölür. Basdırırlar. Pis adam olduğu üçün kimsə də demir ki, Allah rəhmət eləsin. Axşam oğlu atası vəsiyyət edən kimi bir maşın peyini gətirib tökür qəbrin üstünə. Səhəri gün kənd camaatı mərhumun üç mərasiminə qəbirüstünə gələndə bu igrənc və üfunətli mənzərəni görürlər. Elə bil ki, ürəklərindən tikan çıxır. Və bir ağızdan:

- Bu peyini qəbrin üstünə tökənin Allah atasına rəhmət eləsin.

## KOROĞLU, YOXSA KORUN OĞLU?

Gördüyünüz kimi rəhmət məsələsi də öz həllini tapıb. Yuxarıda dediklərimi çoxdan yazmışam. Amma hər dəfə ictimailəşdirmək istəyəndə fikrimdən daşınmışam. Ona görə yox ki, yazdıqlarım sadəcə lağlağadır. Heç kim belə bir şeyə getməz. Ümumiyyətlə ölümlə zarafat etmək də təhlükəlidir. Sadəcə intihar gündəmimizin ən populyar mövzularından

birinə çevrildikcə xarakteri də dəyişir. Bir aydır ki, araşdırıram... bir şey anlaya bilmirəm ki, bilmirəm.

İlk olaraq Qarabağ əlili özünü yandırdıqdan sonra fikirləşdim ki, vsyo... batdıq. Problemlər çox. Kim həlli yolun tapmasa 80 qəpik verib 1 litr benzin alacaq, əvvəlcədən də televiziyalardan birini xəbərdar etməklə başlayacaq öz problemlərini həll etməyə. Əlbəttə ki, intihardan sonra. Amma...

Xalq qəhrəmanı olan Koroğlunun əsl adı Rövşəndir. Sultan atasının gözünü çıxartdıqdan, kor etdikdən sonra onun adını Koroğlu deyə çağırmağa başlayırlar. Bir gənc də bu dastanı oxuyur. İstəyir ki, öz qəhrəmanına oxşasın. Birinci növbədə atasının gözlərini çıxarır. Amma camaat onu Koroğlu yox, korun oğlu çağımağa başlayır.

Yaxşı ki, Qarabağ əlilinin bu intiharından sonra kimsə "Koroğlu" olmağa can atmadı.

## ÖLÜM QİYMƏTLİDİR, YOXSA QİYMƏTSİZ?

Bəs deyəcəksiniz ki, Koroğlu söhbəti öz yerində, axı intiharlar artmaqda davam edir. Bəs buna nə deyirsən? Mənbədən başlamaq istəyirəm.

Mən indi də başa düşə bilmirəm ki, Qarabağ əlili nəyə görə özünü yandırdı? Birinci gün başa düşdüm ki, bu haqsızlığa qarşı bir üsyan imiş. Yazığı bezdiriblər, o da bu addımı atıb. Odun-alovun içindən çıxan, ölümün üzünə dəfələrlə dik baxan, hər an taleyinə tankda yanmaq yazılan, sonda sağlamlığını itirən bir qazi özü-özünə od vurdu. Özü də uşağının gözü qabağında, nümayişkaranə. Yəqin ki, siz də mənim kimi bu intihara haqq qazandırmırsınız. Motiv nə olsa belə. İkinci gün isə məlum oldu ki, bəs bu ölümün vur-tut 100 min manat qiyməti varmış. Sizcə bu ölümün qiyməti 100 min manat idimi? Heç 100 milyon da deyildi. Çünki insan həyatı heç bir əskinazla qiymətləndirilə bilməz. Hər uşağa 300 manat müavinət – bunu başa düşüb alqışlayıram. Bəs 100 mini necə? Pulu nümayişkaranə verməklə nə qazandıq? Bir insan

həyatını qiymətləndirməklə ucuzlaşdırmadıqmı? Əlbəttə ki, cavab elə sualın özündədir. Bəlkə də bu, sadəcə Qarabağ əlilinin qan bahasıydı. Qarabağ əlili nə qazandı, nə uduzdu? Bilmirəm. Bircə onu bilirəm ki, beş balaca övladına, o cümlədən yüz min seyrçidən biri olan mənə də vurduğu psixoloji zərbəni heç bir pulla sağaltmaq olmaz. Bəs sonuncu ata tərbiyəsi, örnəyi necə, uğurlu alındımı?

## GƏNC ZOOFİLLƏR QEYRİ-HÖKUMƏT TƏŞKİLATI

Dediyim kimi, yaxşı ki, bu hal örnək olaraq geniş vüsət almadı. Amma intiharın digər yeni müstəviyə keçməsi məni narahat edir. İntiharın düzgün istiqamətə yönəldilməsini gündəmə gətirir.

Məsələn: Bir də görəcəksiniz ki, biri Gənc Zoofillər Qeyri-Hökumət Təşkilatı yaradacaq. Gələcək ki, bəs qrant verin, şəhərin mərkəzində tədbir keçirmək istəyirik. Əlbəttə ki, dalına bir təpik vurub qovacaqlar. O da ətrafdakıların qınağını və "işıqlı" ideyalarının həyata keçməməsini görüb intihar edəcək. Video müraciətində də "mən Bakının küçələrində rezin sapoq geyinən oğlanla keçinin, eşşəklə əlində taburetka olan kişinin birgə addımlamağını görmək istəyirdim. Amma bu, mənə qismət olmadı. Gün o gün olacaq ki, bu arzularım həyata keçəcək. O gün uzaqda deyil".

Biz də bu müraciətə dəfələrlə baxacağıq, saytların da reytinqini qıracağıq.

## ŞƏRƏFLİ İNTİHAR

Qız istəyirəm. Atası vermir. Özümü asıram.

Oğlan aldadıb qaçıb. Uşağa qalmışam. Çıxış yolu axtarıram. Tapdım. İntihar.

İnstituta girmişəm. Təhsil haqqın ödəməyə pulum yoxdur. İntihar. Bəs görəsən cəmiyyətdə kamikadzelərin yaranması nə vaxt baş verəcək. Torpaqların zəbt olunması namus-qeyrət

məsələsi deyilmi? Vətənə məhəbbət qıza olan sevgidən uca deyilmi?  Belinə partlayıcı qurğu bağlayıb Yerevanın insan axını gur olan yerində özünü partlatmaq dar mənada intihar, geniş anlamda şəhid olmaq sayılmırmı? Bəs bu hadisədən sonra döşünü bəzəyəcək Milli Qəhrəman nişanı, heç bu da olmasa xalqın qəlbində əbədi yaşamaq ailənə, uşaqlarına, nəslinə baş ucalığı gətirməyəcəkmi?

Deməli intiharın da şərəflisi və şərəfsizi varmış. Birin də mən qulağınıza dedim: “İQTİSADİ İNTİHAR”.

# ŞÜŞƏ SİLƏN UŞAQ VƏ ÖZÜNÜ YANDIRAN QARABAĞ ƏLİLİ

ŞÜŞƏ SİLƏN 10 il ƏVVƏL

Maşını svetoforun qırmızı işığında saxlayıram. 7-8 yaşlı oğlan uşaq əlində əski yaxınlaşır. Onsuz da təmiz olan faraları silir. Yaşıl işığın yanacağını görüb tez pəncərəmə yaxınlaşır:

- Əmi, 20 qəpik ver də...

Dinmirəm. Qızım yanımda oturub.

- Əmi, sən o yanındakı gözəl qızın canı, 20 qəpik ver də.

Vermirəm.

- Əmi, 20 qəpik ver, bulka alım, yeyim.

Əl çəkmədiyini görüb 20 qəpiyin verib ordan uzaqlaşıram.

ŞÜŞƏ SİLƏN 10 İL SONRA

Gecə saat 12-dir. Toydan qayıdıram. 17-18 yaşlı uşaq qabağımı kəsir. Əlində də bıçaq.

- Alə, pulları çıxart.

Donub qalıram. Həmin şüşə silən, 20 qəpiyə görə yalvaran uşaqdır.

- Nə donub qalmısan? Yortum qarnıvu? Çevir ciblərivi.

Nəyim var çıxarıb verirəm.

- Saatı da çıxart.

Saatı da verirəm. Görəsən əl çəkəcək. Bıçaqlamaz ki...

- Əmi, qorxma. Öldürmərəm. Sağ ol de... şalvarını çıxartdırmadım. Ha...Ha...Ha.

Deyib, uzaqlaşır.

## QARABAĞ ƏLİLİ BUGÜN

- Salam.

- Hə, nə deyirsən? Vaxtım yoxdur. Tez elə.

- Torpaq istəyirəm. Ev tikim. Həyətyanı sahədə də toyuq-cücə saxlayım. Nəsə əkim.

- Torpaq yoxdur.

- Axı, mən Qarabağ əliliyəm. Qarabağda qılçamı itirmişəm.

- Neyləyim... Nə vaxt torpaqlar alınar, qılçanı basdırdığın yerdə də gedib ev tikərsən.

- Özümü yandıracam!

- Get nə istəyirsən, elə!

Qarabağ əlili həyətə çıxır. Üstünə benzin töküb yandırır.

## QARABAĞ ƏLİLİ 10 İL SONRA

- Salam.

- Hə, nə deyirsən? Vaxtım yoxdur.

- Torpaq istəyirəm. Ev tikim. Həyətyanı sahədə də toyuq-cücə sağlayım. Nəsə əkim.

- Torpaq yoxdur.

- Axı, mən Qarabağ əliliyəm. Qarabağda qılçamı itirmişəm.

- Neyləyim... Nə vaxt torpaqlar alınar, qılçanı basdırdığın yerdə də gedib ev tikərsən.

Qarabağ əlili elə kabinetdəcə benzini çıxarır. İcra başçısının üstünə tökür. Kibriti çəkir.

# ŞEYXÜLİSLAM KİMDİR...

“ŞEYX HƏZRƏTLƏRİ” YOX...

İlk dəfə bu tarixi şəxsiyyətlə şəxsən AzTV-də işlədiyim dövrdə tanış olmuşam. Qafqaz Müsəlmanları İdarəsinə çəkilişə getmişdim. Bizi mətbuat katibi, mərhum Hacı Akif qarşıladı. Elə birinci sualımdan tənbehə məruz qaldım.

- Şeyx Həzrətləri mətbuat konfransı keçirəcək, yoxsa görüşdür?

- Mahir “Şeyx həzrətləri yox”, Şeyxülislam Həzrətləri deyilməlidir. Bu gün həm görüşdür, həm də mətbuat konfransı.

İçəri keçdik. Qonaq Asiya Müsəlmanları Komitəsinin sədri Əl-Səud Babteyn (adda yanlışlığa yol versəm, bağışlayın) idi. Pres-relizdə yazılanlara görə çox varlı adamdır. Ərəb dünyasının tanınmış simalarından sayılırdı. Əgər Şeyxülislam Həzrətləri onu qəbul edirdisə, deməli nüfuz sahibidir. Qonaq həm də şair nəslindən olduğu üçün Akademiyada xüsusi müsabiqə də keçirmək istəyirdi. Keçirdi də. Bakıda, səhv etmirəmsə Dilarə Əliyeva küçəsində nümayəndəliyini də açmışdı. İşçiləri də yalnız ərəblər idi. Qaçqınlara, Qarabağ əlillərinə, qaçqın şəhərciklərinə mütəmadi yardımlar göstərirdilər. Xırdalanda Əl-Əzhər universitetinə bərabər universitet də tikdirmək istəyirdi.

O illər Azərbaycan üçün çətin dövrlər idi. Çadır şəhərcikləri hələ tarixə qovuşmamışdı. Şeyxülislam Hacı Allahşükür Paşazadənin böyük nüfuzuna və apardığı danışıqlar nəticəsində ərəb dünyasından qaçqınlara 1 milyon dollar məbləğində yardım ayırmışdılar.

Təcili çəkiliş qrupumuzu QMİ-yə çağırdılar. Başda Şeyxülislam həzrətləri olmaqla Hacı Madər Musayev, Hacı Salman və digərlərinin qatıldığı nümayəndə heyətiylə Biləsuvara – Çadır şəhərciyinə yol aldıq. Mart ayı idi. Şəhərciyə çatdıq. Şeyxülislam Həzrətləri qaçqınlar qarşısında çıxış edərək dedi ki, bu yardımı müsəlman qardaşlarımız sizin üçün göndərib. İlk olaraq 250 min dollarlıq bir yardımdır. Bundan sonra ərəb qardaşlarımız özləri sizinlə sıx təmasda olacaq. Daha çox nəyə ehtiyacınız varsa müəyyən edib gətirəcəklər.

Yardımları qaçqınların və ərəb təşkilatından olan işçilərin öhdəsinə buraxıb hamılıqla maşına əyləşdik. Yolda bizi Biləsuvarın icra başçısı qarşıladı. Hardansa xəbər tutmuşdu ki, Şeyxülislam həzrətləri rayona gəlib. Şam yeməyinə dəvət etdi. Etiraz etmədi. Yemək əsnasında icra başçısına bir nəfər yaxınlaşıb qulağına nəsə dedi. O da nə qədər çalışdısa hislərini biruzə verməsin, alınmadı. Sanki utanırmış kimi gülümsədi. Bu, Şeyxülislam Hacı Allahşükür Paşazadənin gözündən qaçmadı:

- Dədə, nə baş verib?
- Heç...üzr istəyirəm, oğlum olub.
- Hə... lap yaxşı. Adın Məhəmməd qoyuram.

Bu an Şeyxülislamın yanında oturan bir yaşlı kişi:

- Sən niyə adın qoyursan? Bəlkə kişinin bir arzusu var, əhdi var. Başqa ad qoyacaq?

Deputat Hacı Madərin "Şeyximiz dedi, qurtardı. Ağzı nədir başqa ad qoysun" sözlərindən hamımız gülüşdük.

"Məhəmmədin qədəmləri mübarək olsun" deməklə adqoyma mərasiminə son qoyuldu.

Şəhərə qayıtdıq. Bizimlə səfərdə olan digər televiziya nümayəndəsi onları tezcə işə çatdırmaqlarını xahiş etdi. Materialı gecəylə efirə verəcəyini bildirdi. Mən də işə gəlib kameranı, kasseti təhvil verdim. Evə gəldim. Televizoru açdım. Şeyxülislamın səfəriylə bağlı süjetə baxdım. Bircə "ay həmkarlar, day mənim sizə sözüm yoxdur" dedim.

Süjet isə təqribən beləydi: "Axır ki, Şeyx yığdığı nəzirləri başladı paylamağa. Payladığı da nə olsa yaxşıdır? İki kilo

düyü, iki kilo un, bir litr günəbaxan yağı, qalın ədyal..." İndi təsəvvür edin də orda olan mən jurnalistdə belə məlumatlar yox idi. İkincisi də ki, Şeyxülislam da açıq-aydın hamıya dedi ki, bu yardım onun yox, müsəlman qardaşlarındır. Televiziyada ərəblərə heç "sağ ol" da demədilər.

Səhəri gün 6-cı mikrorayonda əlillər üçün tikilən evin sakinləriylə də görüş oldu. Ərəbistandan gələn müsəlman qardaşlarımız onlara da humanitar yardım verdilər.

## ŞEYXÜLİSLAM AĞIR GÜNLƏRDƏ HEYDƏR ƏLİYEVİN YANINDAYDI

Yadınıza bir şeyi də salmaq istəyirəm. Hər dəfə televizorda qaçqın şəhərciklərindən bəhs edən süjetlərə baxanda orda fars, ərəb əlifbasında humanitar təşkilatın adı yazılan transparantlara rast gəlirdik. Beynəlxalq müsəlman təşkilatları həmin düşərgələri öhdələrinə götürmüşdülər. Qardaş, qonşu ağır gündə tanınar. Yəqin ki, bunu heç vaxt yaddan çıxartmamalıyıq. Yoxsa adama bilirsiniz də nə deyərlər? Nankor!

Burdan bir sual da meydana çıxır. Ümummilli lider Heydər Əliyevin yürütdüyü siyasətində Qafqazda və ərəb dünyasında böyük hörmətlə qarşılanan Şeyxülislam Hacı Allahşükür Paşazadənin rolu böyük idimi? Əlbəttə. Buna zərrəcə şübhəm yoxdur.

## ŞEYXÜLİSLAM MƏNİM QARDAŞIMDIR

Deyəcəksiniz ki, bu boyda ziyalı övladı Mahir AzTV-də işləməsəydi öz Şeyxülislamını tanımayacaqdı? Yanılırsız. Mən onu hələ 1990-cı ilin 20 Yanvarında tanımışam. Tanımamışam - milyonlardan biri kimi mənim də sınağımdan üzüağ çıxıb. Dost ağır gündə tanınar. O da bu dostlardan biri yox, birincisi olub.

Təsəvvür edin. 20 yanvar faciəsi baş verib. Şəhid yox, konkret desək ölülərimiz ortalıqda qalıb. Xalq başın itirib. Rəhbərlər

yox. Bu gün də xronikaya baxsanız orda yalnız bircə nəfəri tanıyacaqsınız. O da 40 yaşlı Şeyxülislam Hacı Allahşükür Paşazadədir. Heç ömrünüzdə 40 yaşlı el ağsaqqalı görmüsünüzmü? Heç ömrünüzdə azərbaycanlıların bir müsəlman kimi bir-birinə qardaş deməyini görmüsünüzmü? Amma mən görmüşəm.

## ŞEYXÜLİSLAM PROVAKASİYAYA GETSƏYDİ

20 yanvarda Azərbaycanda hakimiyyət yox idi. Bütün gündəlik proseslərə Şeyxülislam Hacı Allahşükür Paşazadə başçılıq edirdi. Deputat idi. Yəni ki, həm də siyasi xadim. 40 yaşlı dini liderdə bu qədər cürət hardan idi? Gəlin tarixi bir yerdə səhifələyək.

"SSRİ Ali Sovetinin Sədri Mixail Qorbaçova Şeyxülislam Hacı Allahşükür Paşazadənin müraciəti

(21 yanvar 1990-cı il)

Nə qədər olsa da mənim sözlərim Azərbaycan xalqının sonsuz kədərini, milyonlarla insanın ürəyinə hakim kəsilmiş müsibəti heç cür çatdırmaq iqtidarında deyil. Mən bunları ona görə demirəm ki, Siz bizim dərdimizə şərik olasınız, bizimlə bölüşəsiniz. Bu mənim xalqım üçün təhqir olardı. Bu mənim şəhid olmuş həmvətənlərimin ruhunu təhqir etmiş olardı. Yanvarın 19-dan 20-nə keçən gecə və sonrakı günlər Bakıda törədilən vəhşiliklər heç bir ölçüyə sığmır. Şəhərin küçələri yüzlərlə günahsız qurbanların qanına boyanmışdır. Bunların arasında uşaqlar, qadınlar və qocalar vardır. Onların tankların tırtılları altında qalmış, pulemyot və avtomatlarla tikə-parça edilmiş cəsədləri insanı dəhşətə gətirir.

Bir dövlət başçısı kimi sizin imzanızla törənən bu qanlı qırğına, bu dəhşətli cinayətə heç bir bəraət ola bilməz. Qoşunların yeridilməsi üçün uydurulmuş bütün səbəbləri Azərbaycan xalqı nifrət və qətiyyətlə rədd edir.

Həmin səbəblərdən biri - guya Sovet dövləti üçün təhlükə sayılan qondarma «İslam faktoru» ortaya atılmışdır. Bununla

əlaqədar mən aşağıdakıları bildirirəm. İman əhli olmaq, o cümlədən islama mənsubiyyət əslində günah hesab edilən şovinizmdən, milli lovğalıqdan uzaq olmaq deməkdir. Çox yaxşı bilirsiniz və bunu mənim Sizə vaxtilə dediklərim də sübut edir. Zaqafqaziyanın müsəlman ruhaniləri siyasi və millətlərarası münaqişələrində dindən silah kimi istifadə etmək niyyətində olmamışlar. Çox yaxşı bilirsiniz ki, diyarımızda baş verən hadisələrin ən ağır anlarında İslam ağılla və bütün məsələlərin dinc yolla həllinə çağırmışdır.

Belə olduğu halda uydurma «İslam faktorunu» hərc-mərclik törədən bir səbəb kimi ortaya atmaq qəzəb doğurmaya bilməz.Tamamilə aydındır ki, bununla müəyyən məqsəd güdülmüşdür. Demək müsəlmanları xristianlara qarşı qoymaqla millətlərarası toqquşmaları daha kəskinləşdirmək niyyəti güdülmüşdür.

Siz bilin ki, bu faciə ilə bağlı əsl həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün əlimizdən gələni edəcəyik. Çünki, o dövlət ki, imperiya hökmranlığı niyyəti ilə millətlərarası çaxnaşmanı aradan qaldırmaq əvəzinə onu daha da qızışdırır, o dövlət ki, öz ordusunu öz vətəndaşlarının qatilinə çevirir, o dövlət ki, öz adamlarına layiqli güzərandan daha çox ölmək hüququ verir, belə dövlət ancaq nifrətə layiqdir.

Bakıda canlı insan ürəklərinə tuşlanmış güllələr milyonlarla insanın yenidənqurmaya olan son ümidlərini məhv edən bir atəş idi.

Özlərini əsl işğalçı kimi aparan cəza qoşunlarını Bakıya yeritməklə Siz sovet hökumətini rüsvay etdiniz və bununla təsdiq etdiniz ki, müstəqillik və xalqların ləyaqəti kimi anlayışlar bu hökumətə tamamilə yaddır. Siz bununla özünüzü bir siyasi xadim və bacarıqsız bir dövlət başçısı kimi ifşa etdiniz. Sizin haqqınızda yaranmış bir əfsanə də puç oldu, çünki bir əli ilə xarici məmləkətlərə sülh sazişi, o biri əli ilə öz vətəndaşlarına qarşı cəza tədbirləri imzalayan adamı «sülh uğrunda mübariz» adlandırmaq ən azı ləyaqətsizlikdir.Ən qanlı müharibələrdə həkimlərə, tibb yardımı göstərənlərə atəş

açılmamışdı. Sizin əmrinizlə Bakıya hücum edən qoşunlar isə yaralananlara kömək göstərən iki həkimi də güllələmişlər.

Bütün Azərbaycan xalqının iradəsini ifadə edərək mən Bakıdan qoşun hissələrinin dərhal çıxarılmasını qətiyyətlə tələb edirəm. Heç bir xalqla, həmçinin azərbaycanlılarla silah gücüylə danışmaq olmaz.

Bu, 10 gün, yaxud Əfqanıstandakı kimi 10 il davam edə bilər. Amma gec-tez ədalət və haqq işi qələbə çalmalıdır. Allah-taalanın izni ilə, bu haqq işi Azərbaycanda da qalib gələcəkdir. Məhz buna görə mənim xalqımın ən yaxşı oğul və qızları özlərini sovet qoşunlarının güllələrinə sipər etdilər. Dərin inamla və iman hissilə üzümüzü Allah-taalaya tutur və onun ulu dərgahından bu gün şəhid olan balalarımız üçün rəhmət diləyirik. Qoy Allah-taala bu fəlakəti mənim xalqımın başına gətirənləri, bu işə rəvac verənləri zəlil eləsin.

Ya Rəbb, Vətənimin, elimin bu ağır günündə bizlərə özün kömək elə, AMİN!"

## ISLAM FAKTORUNA ŞƏRH

Sizcə bu nə idi? Deməli Şeyxülislam meydanda tək idi. Xalq da onun ətrafında. Bircə hay eləməliydi və xalq da onun arxasınca getməliydi. Sadə dillə desək Şeyxülislam, yəni "islamçılar" Azərbaycanda hakimiyyəti ələ keçirməliydilər. Daha dəqiq desək Sovet Hakimiyyətini devirməliydilər. Qorbaçov da bütün dünyaya "islam faktoru" deyə car çəkməli, xalqımızı qan içində boğmalıydı. 20 yanvardan da betər.

Şeyxülislam Hacı Allahşükür Paşazadə böyük siyasətçi idi ki, buna getmədi, hələ Qorbaçova dediklərini bir tərəfə qoyuram.

Şeyxülislamı mən ilk dəfə belə tanımışam. Şeyxülislamın 20 Yanvardakı əvəzsiz, qiymətli fəaliyyəti və Qorbaçova Ali Sovetin tribunasından ünvanladığı bu müraciəti bilirsinizmi necə qiymətləndirildi? Moskva Hacı Allahşükür Paşazadəni gözdən salmaq üçün "KQB-nin polkovniki" damğası

yapışdırdı və bəzi həmvətənlərimiz bunu bugün də dişlərini ağarda-ağarda dillərinə gətirirlər.

## ŞEYXÜLİSLAMIN DƏRBƏND SƏFƏRİ

Şeyxülislamı mən daha yaxından onu bir telejurnalist kimi Dərbənd səfərində müşaiyət edərkən tanıdım. Rusiya sərhədinəcən azı üç yerdə saxlatdırdı. Süfrə açdırdı. Hər birimizlə yaxından tanış oldu.1998-ci il idi. Rusiya və Azərbaycan da artıq müstəqil dövlət idilər. Sərhəd keçid məntəqəsinə yaxınlaşdıq. Mənim və operatorun xarici pasportlarımız yox idi. Maşın karvanına nə bu, nə də o tərəfdən bir sərhədçi, gömrükçü yaxınlaşdı. Sərhədi sürətlə keçib getdik. Bu Şeyxülislamımıza böyük hörmətin əlamətiydi.

## MAHİR, MAŞINDAN DÜŞ! ÖLDÜRƏRLƏR!

Kaspiyskidə - dəniz qırağındakı mehmanxanada qaldıq. Çeçen müharibəsinin getdiyi vaxtlar idi. Dağıstanda da vəziyyət sabit deyildi. Gülləylə öldürmürdülər, sadəcə maşına bomba qoyub partladırdılar.

Bizi Xarxarov adlı mənimlə həmyaşıd – 32 yaşlı deputat müşaiyət edirdi. Çoxlu cangüdəni vardı. Soruşdum ki, neyləyirsən bu qədər “oxrananı”. Öldürmək istəsələr onsuz da öldürəcəklər. Dedi ki, “Mahir cangüdəni həyatımı qorumaq üçün yox, o dünyaya bütöv ölü şəklində getmək üçün saxlayıram. Bizdə gülləylə öldürsələr dərd yarıydı. Maşına bomba qoyub partladırlar. Sonra da cəsədinin tapılan hissələrini tabuta yığaraq, guya ki, ölü basdırırlar. Mən o dünyaya belə getmək istəmirəm. Heç olmasa cangüdənlərdən qorxub, uzaqdan snayperlə vursunlar”.

Belə bir şəraitdə Dağıstana səfər edən Şeyxülislama ayrıca zirehli maşın ayırdılar. Mahaçqalaya gəldiyi “Çayka” markalı maşın isə boş qaldığından (Sovet vaxtında yüksək vəzifəli admlar yalnız “Çayka”da gəzirdi) getdim əyləşdim ora.

Ədəb-ərkanla pencərəsin açıb başladım yol boyu kartecin tamaşasına çıxan insanlara əl etməyə. Dağıstanlılardan biri yaxınlaşdı ki, bəs gəl otur mənim "Volqa"ma. Mən də etiraz etdim ki, gül kimi "Çayka"nı qoyub sənin "Volqa"na niyə əyləşim? O da başa saldı ki, Şeyxülislamı əbəs yerə zirehli maşına əyləşdirməyiblər. O, Qafqaz regionu üçün qiymətli adamdır. Hər an təxribatçılar terror törədə bilər. Sən də əlini çıxarıb yelləyirsən. Şeyxülislam zənn edib səni öldürərlər.

QABİL VƏ ŞEYXÜLİSLAM

Yolboyu Şeyxülislamı daha yaxından tanımağa başladım. Qayıdanbaş dedi ki, çəkdiklərini yadigar qalsın deyə bir yerə topla, kasseti mənə gətir. Dediyi kimi də elədim. Təzə Pirə gəldim. Çay gətizdirdi. Söhbət əsanasında soruşdu ki, kimsən, hardansan. Mən də yerimi şirin salım deyə birinci anam tərəfdən başladım. Ki, "Şeyxülislam həzrətləri, anam tərəf Lənkəranlıdır". Bu dəm də o yandan kimsə "şair Qabilin oğludur" dedi. Şeyxülislam  ləhcəsinə uyğun "Oo" deyib duruxdu. Fikirləşdim ki, indi "yekə oğlansan, bu qədər səfərdə olmuşuq, həmişə AzTV-də məni sən işıqlandırmısan. Niyə deməmisən ki, bəs Qabilin oğlusan?" deyəcək. Bir az da fasilə edib

- Bəs Qabil mənə niyə deməyib ki, arvadı Lənkəranlıdır?

QABİL YEYƏN-İÇƏN, ŞEYXÜLİSLAM İSƏ…

Demək olar ki, bütün dövlət tədbirlərində - ziyafətlərdə yanaşı düşürdülər. Məəttəl qalırdım ki, İslamın haram buyurduğu təamlardan qəbul edən Qabillə Şeyxülislam necə yanaşı otura bilər? O saat da bir misal yadıma düşürdü:

Müqəddəslərdən biri yol gedəndə görür ki, 2-3 nəfər yeyib-içir. Yanlarından keçə-keçə "nuş olsun" deyir. Qayıdanda görür ki, içib, sərxoş olub bir-birilərinin başını yarıblar. "Haram olsun" deyib oradan aralanır.

## ŞEYXÜLİSLAM VƏ CANGÜDƏN

Cangüdən. Bu həm də Azərbaycan mühiti üçün prestij sayılır. Respublikamızda çox adamın cangüdəni var. Günlərin bir günü atam soruşdu ki, "bəs bilirsənmi dövlət səviyyəsində kimlər qorunur?" Dedim ki, "yox". Yadında saxla: Prezident, Milli Məclisin sədri, Baş Nazir və Şeyxülislam".

## "ŞEYX, NECƏSƏN?"

Dağıstana gedəndə "Beşbarmaq" pirində saxlatdı. Ziyarət etdi. Maşına minəndə yerli əhali onu dövrəyə aldı. Biri bərkdən "Şeyx, necəsən?" dedi. Hacı Akif yanımda durmuşdu. Dözmədi.

- Mahir, görürsən də... Katoliklər Papanın, Provaslavlar Aleksiyin, ermənilər Vazgenin əlindən öpür. Bunların isə danışığına bax. "Şeyx, necəsən?"

## SON

Bu qədər. Yazdıqlarım Şeyxülislam Hacı Allahşükür Paşazadəyə öz məhdud bucağımdan bir baxışım idi. Bilmirəm, onun bu yazıya ehtiyacı var, ya yox? Amma mən bunları yazmağa, onu hələ də tanımayanlara tanıtmağa bir ehtiyac duydum. O bütün Qafqazın Şeyxülislamıdır. Onu biz azərbaycanlılar bu vəzifəyə seçməmişik. Təyin də etməmişik. Dağıstan, Kabardin-Balkar, Gürcüstan, İnquşetiya, Çeçenistan, Qaraçay-Çərkəz, Adıgeyin və Azərbaycanın dini xadimləri bir araya gələrək onu Qafqaz Xalqlarının Ali Dini Şurasının sədri elan ediblər. Əlindən öpüblər. Mən də öpürəm.

# "TAQSIR BİZİM BU HACIBALADADIR!"

Avtobusda gedirəm. İki qadın – biri yaşlı, biri gəlin - söhbət edirlər. Gəlin deyir:

- Bir ildən çoxdur ki, Metropoliten "Memar Əcəmi-2" stansiyası tikir. "Papanin" bağlanıb. Yollarda tıxac artıb.

- Ağez, nə metropoliten, metropoliten salmısan. Taqsır bizim bu Hacıbaladadır.

- İki ildən çoxdur ki, Nəqliyyat Nazirliyi "3-cü Mikrorayon bazarı"nın qabağındakı küçəni bağlayıb. Tunel-körpü tikir. Nə gecəmiz var, nə gündüzümüz. Tıxac əlindən tərpənmək olmur. Palçıq içində batırıq.

- Ağez, nə Nəqliyyat Nazirliyi, nə yol tikinti? Taqsır bizim bu Hacıbaladadır.

- Bir bax. "Azərsu" yenə də küçələri qaza-qaza gedir. Dəmir turbaları çıxarır, plastik turbalar basdırır. O küçəni bağlayır, bu birini açır. Oranı qazır, buranı qazır. Sudan sonra da yəqin başlayacaqlar kanalizasiya xətlərini dəyişməyə. Deyən lazım ki, ay "Azərsu", kanalizasiya, su pulunu bir yerdə yığırsan, turbasın da bir yerdə dəyiş də...

- Ağez, "Azərsu" kimdir e? Taqsır bizim bu Hacıbaladadır.

- Ay başına dönüm, uşaq gedən məktəbi təmirə bağlayıblar. Qışın bu günündə də təmir olar? Yayı gözləyin də. Uşaqlar tətilə çıxsın, nə edirsiniz edin. Qalmışıq yollarda. Bu Bakı Təhsil İdarəsi hara baxır?

- Ağez, Bakı Təhsil idarəsi kimdir e? Taqsır bizim bu Hacıbaladadır.

- Aaaa. Bura bax e. 25-30 tonluq tireylerləri kim buraxıb şəhərə? Bu QAİ, gömrük hara baxır? Yol örtüyünü, lyukları sıradan çıxara-çıxara gedirlər.

- Ağez, QAİ kimdir? Taqsır bizim bu Hacıbaladadır.

Bu an sürücü başqa avtobusla ötüşməyə çıxır.

- Ay qardaş, avtobus sürürsən e, araba yox. Kartoşka-zad daşımırsan. İndi 20 qəpik artıq qazanacaqsan deyə, bizi qırdıracaqsan? Sizin yiyəniz yoxdur? Nəqliyyat Nazirliyi hara baxır e? Hər addımbaşı da "Sərnişinnəqliyyat"ın müfəttişləri düzülüb sıraya.

- Ağez, hansı Nəqliyyat Nazirliyi, nə "Sərnişinnəqliyyat"? Taqsır bizim bu Hacıbaladadır.

- Səhər metroda yenə işığı söndürmüşdülər. Qalmışdıq tuneldə. Bu "Azəreneji" də lap ağ eləyib. Həftə səkkiz mən doqquz bir oyun çıxarır.

- Onu sənə kim dedi? Taqsır bizim bu Hacıbaladadır.

- Yenə də küçələrdə iki sıra maşın dayandırıb yolları bağlayıblar. Balam yeraltı dayanacaqlar yoxdur? Əvvəllər yox idi, başa düşürdük. İndi ki, var. Gedin saxlayın da. Nə vaxtacan belə davam edəcək? Bu sürücülər də qəribə millətdirlər e? Evakuatorların planın doldururlar, amma dayanacağa enmirlər.

- Nə sürücü? Sürücülərdə taqsır var? Taqsır bizim bu Hacıbaladadır.

- Gör nə gözəl yollar çəkiblər? Şüşə kimidir. Lyukları da təzələyiblər. Üstündən keçəndə bir qram da hiss olunmur.

- Guya ki, yaxşı iş görüblər? Əvvəllər lyuklar yamadan fərqlənmirdi, asfalt da ki, bərbad vəziyyətdə. Şoferlər də maşınları sınmasın deyə yavaş sürürdülər, lyukları saya-saya gedirdilər. İndi otururlar maşına, basırlar qazı. Orda adam basırlar, burda bir-birinə girirlər. Sizə deyən var idi ki, yolları düzəldin? Gül kimi yaşayırdıq da. Taqsır bizim bu Hacıbaladadır.

- O gün qonşunun suyu partlayıb. Bütün evimi su basıb. Deyir ki, neyləyim. Suyun təzyiqi çoxdur da. Smestitellər dözmür.

- Düz deyir. Suyu da daimi verərlər? Heyf deyildi əvvəllər. Üç saat gələndə sevinirdik. İndi gecə-gündüz su gəlir. Kranlar neyləsin? Taqsır bizim bu Hacıbaladadır.

- Həyətimizdəki zibillliyi, sağ olsunlar, vaxtlı-vaxtında təmizləyirlər.

- Ağez, elə bilirsən təmizləyirlər, yaxşı iş görürlər? Aparıb tökürlər Balaxanının çölünə. Onlar da yandırıb tüstüsünü buraxırlar havaya. Ekologiya da başlayır çirklənməyə. Boğula-boğula qalmışıq. Təmizləməsələr ekologiya da çirklənməz. Bütün taqsır bizim bu Hacıbaladadır.

- İndi də sağolsunlar, yeni liftlər quraşdırırlar.

- Demə, bacı, demə. Əvvəllər işləmirdi, baş-beynimiz sakit idi. Özümüz də qıvraq idik. İndi lift işləyəni dizlərimiz də tutulub, özümüz də halsızlaşmışıq. Gül kimi məcburi idman edirdik də. Hardan lift dəyişdirmək gəldi bunların ağlına. Bütün taqsırlar bizim bu Hacıbaladadır.

- Nə isə mən çatdım. Hava da yaman tutulub. Deyəsən yağış yağacaq. Amma, sən Allah, day demə ki, buna da səbəbkar Bakı şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovdur.

- Ağez, xətrimə dəyirsən. Bura Bakıdır. Mən Bakıda ondan başqasını tanımıram. Dilimizin əzbəridir. Bakıya yağış yox e... lap qar yağsın, taqsır elə Hacıbaladadır ki, Hacıbalada...

# YAZIÇI ANARIN ÖLÜ VƏ DİRİ PROBLEMİ

Yazıçılar Birliyinin diri üzvləri - yazırlar, yaradırlar. Daim diqqət mərkəzində olmaq istəyirlər. Özlərini digərlərindən istedadlı sayırlar. Bir az məşhurları Anar müəllimin otağına tez-tez girərək özlərini "yada salırlar". Xüsusilə də Yazıçılar Birliyinin yubileyləri, öz yubileyləri və qurultaylar ərəfəsində ki, Anar müəllim birdən Prezident Administrasiyasına təqdimat-məktubu göndərsə, onların da adını xüsusi qeyd etməyi unutmasın. Prezident təqaüdlərinə təqdimat ərəfəsində də "dava-dalaş" düşür. Ev almaq üçün qalmaqallar isə artıq tarixə qovuşub.

Anar müəllim də bütün bu tələblərə, iddialara, bəzən də hikkələrə diqqətlə, hörmətlə yanaşır. Ara-sıra təqdimatlar yazır, arzu edənlərin adlarını ora salır. Və göndərir yuxarı. Orda da baxıb, üstündən xətt çəkib atırlar arxivə. Bununla da Anar müəllim missiyasını başa çatdıraraq, məsuliyyəti üzərindən atır. Bircə "bumeranqdırlar da, neyləyim? Atıram, qayıdır dəyir özümə" deyir. Amma ürəyində sevinir. Çünki yazıçılarının, şairlərinin qüdrətinə yaxşı bələddir. Bilir ki, yuxarıların zövqü Nizami, Füzuli, Puşkin, Tolstoy, Dostoyevski, İlyas Əfəndiyev, Rəsul Rza, Səməd Vurğun, Mirzə İbrahimov, Süleyman Rəhimov, Süleyman Rüstəm, Hüseyn Cavid, Mikayıl Müşfiq... və ən nəhayət Anar, Fikrət Qoca, Çingiz Abdullayev, Elçinin əsərləri üstdə köklənib. Onları indiki yazarların əsərləriylə heyrətləndirmək qeyri-mümkündür. Nə qədər təriflənsə belə. Roman dilində desək, Azərbaycan ədəbiyyatında kulminasiya nöqtəsi baş verib, artıq razvyazka gedir. Artıq zəlzələ

olub, ədəbiyyatı xırda afteşoklar bürüyüb. Anar müəllim Ordubadinin, Süleyman Rəhimovun, İlyas Əfəndiyevin, Əli Vəliyevin, Bayram Bayramovun, İsa Hüseynovun və ən son Yusif Səmədoğlunun, Çingiz Abdullayevin romançı olmasını başa düşür. Bəs indiki romançıları necə, anlayırmı?

Tələbəlik illərimdə tanınmaqda olan bir nasirin dalbadal üç romanı çapdan çıxmışdı. Yazıçı Elçin atama demişdi ki, nəbadə Mahiri o kitabları oxumasına imkan verəsən a... zövqü korlanar. Görəsən Anar müəllimin ömür boyu qazandığı zövqü korlanmayıb ki? Əgər korlanmasından qorxaraq qına salıb qorumağa çalışıbsa, çoxdan korşalıb. Hər ikisi müsbət hal deyil.

Diri, çox da tanınmayan, lakin adının əvvəlində "Yazıçılar Birliyinin üzvü" yazılanlar isə 50, 60, 70 yaşlarında Anar müəllimi narahat edirlər. Anar müəllim də abrına bükülərək bəzilərini üzdən belə tanımadığı bu adamlar üçün "Fikrət Sadıq, "Ədəbiyyat qəzeti"ndə bir dənə təbrik yazarsan" deyir. Fikrət Sadıq da "Yazıçılar Birliyinin üzvü" adını fəxrlə daşıyan, amma əslində təşkilata ləkə olan bu insanlar haqqında yazır. Ürəkdən yox, əti tökülə-tökülə yazır.

## ÖLÜ YAZIÇILARIMIZ

Burda isə məsələ tam fərqlidir. Onları üç kateqoriyaya bölmək olar. Həqiqətən də görkəmli, məşhur, təkcə ədəbiyyatda yox, Azərbaycanın ictimai-siyasi həyatında iz buraxanlar birinci yerdə gedir. Prezident başda olmaqla nekroloq imzalanır, vida mərasiminin yeri, saatı, harada dəfn ediləcəyi təyin edilir. Vəfat edənin xidmətləri nəzərə alınaraq Prezident vida mərasimində şəxsən iştirak edir, fəxri qaroulda durur. Qeyd etmək istərdim ki, Prezident İlham Əliyevin rəhbərliyi dövründə prezidentin vida mərasimində iştirakı hələ ki, üç yazıçıya qismət olub: Məmməd Araz, Qabil və Bəxtiyar Vahabzadə. Bu kateqoriya yazıçılara yazılan nekroloqda bütün Azərbaycan xalqına başsağlığı verilir.

Bir haşiyə çıxım. Atam gecə saat 12-də rəhmətə getmişdi. Səhərin açılmağını gözləyirdim. Saat 10-da ilk olaraq Bakı şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov bizə gəldi. Yanındakılara tapşırıqlar verməyə başladı. Mən yaxınlaşıb "dəfn harda, neçədə olacaq?" və digər suallar verəndə, o, "Mahir, bunların sənə dəxli yoxdur. Get qapına gələnləri qəbul elə, yola sal. Vəssalam. Prezidentin mənə də, mədəniyyət naziri Əbülfəs Qarayevə də xüsusi tapşırığı var. Dəfndən 40 mərasiminədək hamısını Prezident İlham Əliyev öz üzərinə götürüb".

İkinci kateqoriya isə istedadlı, tanınmış, amma görkəmli səviyyəsinə çatmayan yazıçılar barədədir. Belə adamların dəfn mərasimini Yazıçılar Birliyi təşkil edir. Yalnız Yazıçılar Birliyi rəhbərliyinin imzaladığı, mərhumun şəkliylə "Ədəbiyyat qəzeti"ndə nekroloq verilir. Bir-iki dənə də yanıqlı xatirə, ürək sözü əlavə olunur.

Üçüncü kateqoriya isə yalnız quru bir başsağlığı ilə o dünyaya yola salınır. Ədəbiyyatımız qarşısında xidmətlərinə görə yox, sadəcə ciblərində Yazıçılar Birliyinin vəsiqəsini gəzdirdiklərinə görə.

Bu yazını yazmaqda məqsədim tam başqadır. Amma bu girişə də ehtiyac duydum. Sonunu gətirmək üçün. Lətifəyə dönmüş bir-iki hadisəni nəzərinizə çatdırım. Sonra Anar müəllimdən bir xahişim olacaq. Axı, qarşıdan Yazıçıların qurultayı gəlir.

## "İSA, MƏN ÖLÜM, GECƏLƏR YAT"

İsa Hüseynov və Qabil Hüsü Hacıyev küçəsindəki evin 5-ci mərtəbəsində şərikli yaşayırlarmış. Yəni, dörd otaqdan ikisi İsaya, ikisi də Qabilə məxsusmuş. İsa müəllim adətincə gecələr işləyərmiş. Yəni ki, heç vaxt gecələr yatmırmış. Günlərin bir günü Qabil deyir ki, "İsa, sən Allah gecələr yat, gündüz işlə". Bir "mən ölüm" də vurur. İsa da razılaşır. Adətiycə gecə yazmaq əvəzinə yatır. Bir də görürlər ki, gecə saat birin

yarısında qapı bərkdən döyülür. Səsə ilk olaraq Qabil çıxır. Qapını açır. Görür ki, Süleyman Rüstəm qabaqda, arxada da şair İskəndər Çoşğun. Əlində də iki butulka araq və bağlama.

- Salam, Qabil. Restoranda yeyib-içirdik. Dedim ki, gedək Qabilgildə davam etdirək. İsa da bilirik ki, gecələr yatmır. İki araq götürdük, bir də çörək arası kabab.

- Xoş gəlmisiz, Süleyman müəllim. Keçin içəri.

Qonaqları otağa keçirən Qabil gəlib İsa Hüseynovun yataq otağının qapısını döyür:

- İsa, ay İsa. Dur ayağa. Sənə gecələr yatmaq yaraşmır.

## İTƏ ŞEİR

Günlərin bir günü şair İskəndər Çoşqun növbəti görüşdən sonra nişanlısını evə ötürür. Qız həyət evində yaşayırmış. Həyətdə də it. Qapını açıb nişanlısı ilə içəri girəndə it başlayır İskəndər Çoşquna hürməyə. Tutmur, dişləmir. Sadəcə hürür. Şair bir anlıq duruxur. Daha doğrusu qorxur. Və bədahətən:

*Hür! Hür! Bilirəm ki, mənə hürməyin,*
*Mənim sevgilimə sədaqətindir.*

## MƏMMƏD RAHİM, 75... DAY ÜZ VURMA

Qabillə Əliağa Kürçaylı Bulvarda gəzirlərmiş. İkisi də cavan, yeyib-içməyə həvəsli. Amma cibdə o qədər pul yox. Bir də görürlər ki, qarşıdan 50 yaşlı görkəmli şair Məmməd Rahim gəlir. İkisi də sözü bir yerə qoyub qonaqlıq qoparmaq məqsədiylə yaxınlaşırlar Məmməd müəllimə. Onu da qeyd edim ki, Məmməd Rahim hamıya borc versə də, qonaqlıq məsələlərinə çox da meylli olmayıb.

- Salam, Məmməd Rahim müəllim.
- Salam.
- Gözümüzə bir təhər dəyirsiniz. Neçə yaşınız var?
- 50.

- Hə bəsdir də. 50 yaş da pis deyil.
- Uşaqlar, nə bəsdir. Nə demək istəyirsiniz?
- Heç... Məmməd müəllim. Elə-belə... Sözdür də dedik. Nəsə xəstə-hal görünürsünüz e...

Məmməd Rahim isə əl çəkmir. Gənc şairləri "Mirvari" kafesinə aparır. Sifariş verir. Ortaya araq, "xolodnı zakuska" gəlir. Bir "rumka" Məmməd Rahimin sağlığına içəndən sonra. Əliağa Kürçaylı:

- Qabil, niyə ki, 50, Məmməd müəllim 55-ə də çata bilər. Nə olsun ki, rəngi solub.
- Ay uşaqlar, siz nə danışırsınız. Süzün bir,  yüz də vuraq.

Bir badə də içəndən sonra ortaya kabab gəlir. Bir tikə nuş eləyəndən sonra Qabil:

- 60 yaş da olar. Amma bundan o yana keçmək yoxdur.

Bu sözdən sonra Məmməd Rahimin narahatlığı bir az da artır. Qabillə Əliağa isə sadə insanın zəif damarını tutmaqlarından sevinərək, heç nə dinib danışmırlar. Özlərini ciddi aparırlar ki, Məmməd Rahim onların bu fəndindən xəbər tutmasın. Məmməd Rahimin də "uşaqlar bəlkə bir az da artırasınız?" sözlərini qulaqardına vurub, gözlərini boşaltdıqları araq şüşəsinə zilləyirlər. Məmməd Rahim də həmən "Ofisiant, bir butulka da gətir. Kababı da təkrar elə" deyir. İkinci şüşədən də bir badə içəndən sonra, keyfləri kökələn gənclər:

- Məmməd Rahim müəllim, 70. Qurtardıq.

Məmməd müəllim bu cavabdan sevinsə də, yenə də razı qalmır. Daha artıq yaşamaq istəyir. Bir rumka da süzür. Qabillə Əliağa da artıq "qotov" vəziyyətinə çatırlar. Badəni başlarına çəkib:

- 75. Məmməd müəllim day üz vurma. Qurtardıq.

## ... BUNUNLA ÜÇÜNCÜ DƏFƏDİR Kİ, VERİRƏM

Əvvəllər yazıçılar əlyazmalarını qəzet-jurnal redaksiyalarında işləyən makinaçılara yazdırırdılar. Hüseyn Arif də həmçinin. Günlərin bir günü gəlir yazısını yazdırmağa verdiyi qə-

zetlərdən birinə. Yaxınlaşır makinaçı qıza və şeirlərini çap formasında alır. Səhifəsini sayır. 50 rubl zəhmət haqqını verərək gedir. Qəzetdə işləyən jurnalistlərdən biri də demə bu qızın nişanlısıymış. Növbəti dəfə Hüseyn Arif tamam başqa bir iş üçün qəzetə gələndə bu nişanlı oğlan qızdan xəbərsiz iş yoldaşlarıyla sözü bir yerə qoyub, yaxınlaşırlar Hüseyn Arifə:

- Hüseyn qağa, yetim olanda nə olar? Gərək pulunu kəsəsən? Yazı yazdırmısan, pulun ver də... Sizinçün 50 rubl nədir ki?

- Doğurdan? - deyə Hüseyn Arif cibindən 50 rubl çıxarıb verir oğlana ki, bəs apar qıza çatdır.

Nişanlı oğlan da 50 rublu götürüb əvvəlcə sözləşdikləri kimi dostlarıyla gedir yeyib-içməyə. Üstündən bir müddət də keçir. Hüseyn Arif yenidən həmin redaksiyaya gəlir. Ağızlarında şirə qalan nişanlı jurnalist və dostları yenidən yanaşırlar şairə:

- Hüseyn qağa, yetim olanda nə olar? Gərək pulunu kəsəsən? Yazı yazdırmısan, pulun da verməmisən. Sizinçün 50 rubl nədir ki?

- Hə? Doğurdan? Yaxşı, 50 rublu verin o qıza. Deyin ki, "ay qəhbə, bununla üçüncü dəfədir ki, verirəm".

## "ƏMRİMİ VERİN, ÇIXARIN!"

80-ci illərin axırlarıydı. Bayram Bayramov Qarabağa Xalq Yardımı Komitəsinin sədriydi. Mətbu orqan da yaratmışdı. Adını da "Azərbaycan" qəzeti qoymuşdu. Demə "Azərbaycan" 1918-1920-ci illərdə 23 ay hökm sürmüş Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanının adıymış. O vaxtlar çoxu başa düşməsə də, bu, tarixi bir hadisənin 68 ildən sonra bərpası demək idi. Bu azmış kimi, Bayram Bayramov sovetin hökm sürdüyü bir dövrdə "Azərbaycan" sözünün baş hərfini aypara və səkkiz guşəli ulduz formasında verdirib.

Atamla Bayram əmigildəydik. Telefon zəngi gəldi:

- Bəli.

- .....

- Arnamentdir. Azərbaycanın milli arnamenti.

- ..........

- Necə başa düşürsünüz, düşün. "A" hərfi o cür də gedəcək.

- ...........

- Xoşunuz gəlmir, əmrimi verin, çıxardın.

- ...........

- Sağ ol.

Bayram əmi dəstəyi qoydu:

- Qabil, Mərkəzi Komitənin 1-ci katibi Vəzirov idi. İndi ayılıblar ki, ayparayla səkkiz guşəli ulduz Cümhuriyyətin bayrağındakı ay-ulduz imiş. Bəs onu çıxart. Mən də dedim ki, çıxartmıram. Əgər istəmirsinizsə məni işdən çıxarın. O da dedi ki, bəs mən kiməm ki, sizi işdən çıxarım.

SON

Anar müəllim, zaman keçdikcə sizin daşıdığınız vəzifənin yükünü daha dərindən başa düşməyə başlayıram. Demə siz Yazıçılar Birliyinin üzvü olan min yazıçı-şairin yox, həm də Xaqanidən üzü bu yana dünyasını dəyişən mərhum yazıçılarımızın da sədriymişsiniz. Ara-sıra onlar üçün də yubileylərinin keçirilməsi, xatirələrinin əbədiləşdirilməsiylə bağlı yuxarılara təqdimatlar yazırsınız. Dirilərdən çox da narahat deyilsiniz. Qapını döyüb içəri girirlər. Əsli və məcazi mənada layiqli cavablarını alıb bayıra çıxırlar. Amma ölülər bütün bu etiketlərdən uzaqdırlar. Bir vaxtlar şəxsən tanıdığınız bu məşhurlar sizin içinizdə, ruhunuzda, ədəbi və əbədi yaddaşınızda, yazıçı ürəyinizdədirlər. İcazəsiz yuxunuza da girirlər. Qeyri-iradi yadınıza da düşürlər. Köhnə xatirələri də oyadırlar. Bəzən sağ qalan övladları, nəvələri mətbuatda ünvanınıza hədyanlar da söyləyirlər.

Bu yaxında xalq yazıçısı, diri İsa Hüseynovun həyat yoldaşı Firuzə xanımın Modern.az saytına veriyi müsahibəni oxudum. Yaman giley-güzar edirdi ki, İsanın 85 illiyində

onu heç kim yada salmadı. Əgər dirilər yada düşmürsə, onda ölülərdən nə gözləyək. Yox elə bilməyin ki, atamla bağlı nəsə xahiş edəcəyəm, əsla. Amma ölünün yiyəsi olmalıdır fikrini əldə rəhbər tutaraq ölülərin yiyəsi olan sədr Anara bircə xahiş etmək istəyirəm. Qapıbir qonşum, mərhum Bayram əmi haqqında.

XAHİŞ EDİRƏM, BAYRAM BAYRAMOVUN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİYLƏ BAĞLI PREZİDENT ADMİNİSTRASİYASINA TƏQDİMAT YAZASINIZ.

İstəyirəm ki, bir vaxtlar yaşadığı Hüsü Hacıyev 19 saylı evin divarında İlyas Əfəndiyev, Abdulla Şaiq, Zeynal Xəlil, Hüseyn Arif və digər görkəmli yazıçılarımızın barelyefləriylə yanaşı, onun da nurlu çöhrəsi gülsün. Məncə titullarını saymağa ehtiyac yoxdur. Ədəbi yaradıcılığı da gözünüz önündə keçib, ictimai fəaliyyəti də. Bircə Qarabağla bağlı yazdığı iki cildlik "Karvan yolu" əsərini və "Azərbaycan" qəzetini, ay-ulduzu yenidən həyata qaytarmasını qeyd etsəniz yetər.

HÖRMƏTLƏ: MAHİR QABİL OĞLU İMAMVERDİYEV

# REKTOR ABEL MƏHƏRRƏMOV KİMDİR?

Darülfunun. Bu ad bəlkə də çoxlarına bəlli deyil. Amma mən 1983-cü ildə Sergey Mironoviç Kirov adına Azərbaycan Dövlət Universitetinə daxil olanda müəllimlərimiz ilk olaraq bu adı bizə tanıtdılar. Dedilər ki, bu elm-təhsil ocağının adı ilk olaraq darülfunun olub. Düzdür Azərbaycan Xalq Cümhuriyyəti dilə gəlməsə də, bu ilk, başlanğıc üçün bəs idi.

Sonra bizi  ikinci mərtəbədəki 209 saylı auditoriyaya yığıb  qırmızı üzlüklü tələbə biletlərini təqdim etdilər. Filologiya fakültəsinin dekanı, professor (indi akademik) Ağamusa Axundov bizə uğurlar arzuladı. Tələbə biletini təqdim edəndə şəklimizi də çəkmişdilər. Fotonun arxasında yazmışdım: "Professor Ağamusa Axundov gələcəyin professoru Mahir İmamverdiyevə tələbə biletini təqdim edir".

Elmə çox həvəsli idim. Kamal Abdulla kimi 30 yaşında elmlər doktoru olmaq arzusundaydım.

Oğlanlar əsasən ağ rəngli köynək geyinirdilər. Qırmızı tələbə biletini döş cibimizə qoyurduq ki, görsənsin. Elə bilirdik ki, kim bu qırmızı üzlüklü bileti cibimizdə görsə, o saat başa düşəcək ki, biz universitet tələbəsiyik. Bununla fəxr edirdik. Sonra atam başa saldı ki, əvvəllər universitet tələbələri qırmızı tələbə biletlərləriylə tanınmırdılar. Tələbə olan şəxs cavan olmasına baxmayaraq əlinə əsa, başına buxara papaq qoyardı. Gözündə də eynəyi olardı. Uzaqdan baxanda o saat bilinirdi ki, darülfunun tələbəsidir.

Atam Qabil orta məktəbdə olduğu kimi burda da eyni sözü deyirdi: "Mahir, məni aldığın qiymətlər yox, başının içindəki maraqlandırır".

Düzdür, mən bunu 31 il sonra başa düşdüm. Artıq gec idi. Bir söz də dedi ki, "çalış dərsdən qaçma. Bütün mühazirələrdə iştirak eləsən, diqqətlə qulaq assan bəsindir". Bunu da 31 ildən sonra başa düşdüm.

İkinci kursdan əsgərliyə iki illik xidmətə gedib qayıdandan sonra alim olmaq həvəsim itdi. Amma dərsdən qaçmırdım. Bir mühazirə də buraxmırdım. Diqqətlə qulaq asırdım.

1983-1987-ci illərdə universitetimizin rektoru Faiq Bağırzadə idi. 1987-1989-cu ildə isə Yəhya Məmmədov oldu. 1989-1990-cı illərdə Cəmil Quliyev, 1990-cı ildən isə Mirabbas Qasımov rektor vəzifəsinə təyin edildilər. (Allah hamısına rəhmət eləsin).

Oxuduğum müddətdə dörd rektorum oldu. Amma bu rektorlardan heç birini üzdən tanımırdım. Bircə Yəhya Məmmədov istisna idi. O da rektor kimi yox, şair Cabir Novruzun qudası kimi.

O vaxt universitet deyəndə yalnız indiki Bakı Dövlət Universiteti nəzərdə tutulurdu. İllər keçdi. Bir çox institutlar çönüb universitet oldu. Amma mənim universitetimə çatmadı. Nə qədimiliyinə, nə də səviyyəsinə görə.

Etiraf etməliyəm ki, çox da güclü, savadlı, fərqlənən tələbə deyildim. Amma təkcə auditoriyada mühazirəyə qulaq asmaqla çox şey öyrəndim. Çünki dərs deyənlər təkcə müəllim yox, həm də Azərbaycanın böyük alimləriydilər. O vaxt fəxrlə deyirdik ki, təkcə filologiya fakültəsində 40 elmlər doktoru, 135 elmlər namizədi var. Bu indi adi görünə bilər. Amma o dövrdə bu göstəriciyə, özü də keyfiyyətli göstəriciyə görə hətta Elmlər Akademiyasının da müvafiq sahəsini üstələyirdik. Müəllimlərimiz Ağamusa Axundov, Yusif Seyidov, Əlövsət Abdullayev Azərbaycan SSR Dövlət Mükafatına layiq görülmüşdülər. Bəzi müəllimlərimizin adı gələndə digər ali təhsil ocaqlarında dimdik dururdular.

Universitetim təkcə təhsil ocağı deyildi. Azadlıq hərəkatında öndə gedən mərkəzlərdən idi. 1989-1990-cı ildə təhsilimizi də bu yolda qurban vermişdik. O dövrdə müəllimlərimiz bizi

biliyimizə görə yox, azadlıq hərakatındakı fəal iştirakımıza görə qiymətləndirirdilər.

Nəhayət gələk yazımın başlığındakı suala: "Rektor Abel Məhərrəmov kimdir?" Çox saymazyana səslənir, elə deyilmi?

Əslində böyük adamdır, böyük alimdir. Əməkdar elm xadimidir, professordur, elmlər doktorudur, akademikdir, millət vəkilidir, atam Qabilə böyük hörmət və rəğbəti olan bir insandır. Cəmiyyətdə, ictimai-siyasi həyatda, təhsil, elm aləmində öz sözünü demiş adamlardandır. İndi Universitet ərazisinə daxil olanda oranı tanımaq qeyri-mümkündür. Abel Məhərrəmovun sayəsində bu təhsil ocağı xeyli dəyişib. Yeni korpuslar, idman zalları tikilib. Bütün bunlar hansı zəhmətlər hesabına başa gəlib bilirəm. Atama söhbət edəndə eşitmişəm. Əlbəttə ki, mənim onunla bağlı belə sual qoymağım nadanlıq, tərbiyəsizlik kimi qiymətləndirilə bilər.

Abel Məhərrəmov nə müəllimim olub, nə də rektorum. Amma bir etalon var ki, Abel müəllim mənim doğma saydığım bir təhsil ocağının rəhbəridir, axı. Deməli ona toxunmaq, mənə toxunmaq deməkdir.

İki qızım da universitetin məzunudur. Təhsil aldıqları illərdə bir dəfə də qapısını döyməmişəm. Daxili mətbəxi də gözəl bilirəm. Bircəciyin desəm bəs edər. Qızlarım oxuyan biologiya fakültəsində əgər biliyin varsa, bir müəllim də səni kəsə bilməz. İkincisi də ki, mühazirə oxuyan biri, imtahan götürən başqası, cavabları yoxlayan isə qeyrisidir. Bütün imtahan keçirilən auditoriyalarda kameralar da quraşdırılıb. Köçürməyin, nəzarətçi-müəllim saxtakarlığının qabağını almaq üçün. Savadsız, avara tələbələr, bundan narazısınızmı?

Deyəcəksiniz ki, əgər Abel müəllimi belə yaxşı tanıyırsansa, onda bu nə sualdır verirsən? "Rektor Abel Məhərrəmov kimdir?". Bu sualı mən özümə, universitetin çox minlik məzunlarına, tələbələrinə, müəllimlərinə, professor-dosentlərinə vermirəm.

70 manat rüşvət tələbi ehtimalını əldə rəhbər tutaraq, aləmə car çəkən, özü də Abel müəllimin ona dəfələrlə hörmətlə

yanaşdığını etiraf edən tələbəyə deyirəm: "Ay qızım, ay mənim doğma universitetimin adına ləkə yaxan tələbə, gələcək məzun, Abel Məhərrəmov kimdir? Rektor. Mən oxuduğum dövrdə Abel müəllim kimi dörd rektor görmüşəm. Hamısı da Abel müəllim kimi akademik, deputat, əməkdar elm xadimi. Sən və sənin kimilər bu sözləri deməklə, həyətdə çığır-bağır salmaqla elə sandınız ki, rektor Abel Məhərrəmovu biabırmı etdiniz? Əsla. Siz sadəcə mənim, eləcə də mənim kimi minlərlə, on minlərlə məzunun, müəllimin, elm xadiminin universitetini biabır etməyə cəhddə bulundunuz".

Bakı Dövlət Universitetin qapıları oxumaq, təhsil almaq, elm öyrənmək istəyənlərin üzünə açıqdır. Hansısa müəllimlə, dekan müaviniylə ədavəti, problemi olanlar, oxumaq istəməyənlər! Azərselin, bakselin, internetin, telefon, kompüter dükanlarının boğazından kəsib kəsirləriyçün pul ödəmək istəməyənlər, abrınız olsun. Bu müqəddəs məbədə girib oranı çirkaba bulaşdırmayın.

# XOŞQƏDƏM, ALLAH SƏNƏ LƏNƏT ELƏSİN!

50 il bir yerdə xoşbəxt həyat sürən, övladları, nəvələri, nəticələri olan ər-arvad "Qızıl toy"larını restoranda qeyd edib evə gəlirlər. Çarpayıya uzanıb, televizoru yandırırlar. Xoşqədəm Hidayətqızının təqdimatında "Səni axtarıram" verilişi gedir. Bu dəm aparıcı studiyada qonaq qismində əyləşmiş tanınmış kaman ustası, xalq artisti 86 yaşlı Habil Əliyevə yaxınlaşır və sual verir:

- Habil müəllim, heç ömrünüzdə xəyanət etmisinizmi?

O da sual bitməmiş:

- Bəli, etmişəm,- deyir.

Studiyada alqış səsləri qopur. Sonra da veriliş öz axarınca davam edir. "Qızıl toy"larını təzəcə qeyd etmiş kişi də verilişə maraqla baxmağa davam edir. Səhərdən verilişə eyni maraqla baxan 75 yaşlı arvadı isə üzünü ərinə tərəf döndərərək gözünü ona zilləyir. Kişi dillənir:

- Nə olub?
- Heç.
- Televizora bax da. Gözünü mənə niyə zilləmisən?
- Bir sual gəldi e, ağlıma.
- Nə sual?
- 50 ildir ki, soruşmaq istəyirəm. Amma nədənsə soruşmamışam.
- Soruş.
- Ay kişi, sən heç mənə xəyanət etmisən?

Habil Əliyevin cavabından cəsarətlənən kişi:

- Hə, xəyanət etmişəm.

Bunu eşitcək qoca arvad rəng alıb rəng verir. İncik səslə "Allah səni xoşbəxt eləsin, Xoşqədəm" deyərək, yorğanı başına çəkir. Arxasını ərinə çevirərək yatır.

Kişi isə "Xoşqədəm, Allah sənə lənət eləsin" deyərək, televizoru söndürür.

# "VOLQA", QAYMAQ, VARLI UŞAQLARI...

"VOLQA" (Sovet vaxtı)

1989-cu il idi. Sergey Mironoviç Kirov adına Azərbaycan Dövlət Universitetinin 5-ci kursunda oxuyurdum. Əsgərliyimi çəkmişdim. Kommunist idim. Təzəcə ailə həyatı qurmuşdum. Bir qızım vardı. Atam QAZ-24-10 "Volqa" avtomobili almışdı. 16300 rubla. İndiki pulla deyə bilmərəm nə qədər edir. Amma bir professorun aylıq əmək haqqısı 300 rubl idi.

Amma o vaxt hər adam da bu maşını ala bilmirdi. Çünki maliyyə deklarasiyası təqdim etməliydin. Ki, pulu hardan qazanmısan, nə yolla qazanmısan? Nə bir vəzifəli, nə də pullu "Volqa"ya yaxın gedə bilirdi. Hərdən lotereyada kimsə bu maşından udsaydı, varlılar dörd qat artığına pul verib bileti əldə edərdilər ki, bəs bəxtim üzümə gülüb.

Atam şair Qabil üçünsə bu problem deyildi. Təkcə bir kitabının qonorarı "Volqa"nın qiymətinə bərabər idi. Özü də ki, halal. Təsəvvür edin ki, üç bloklu, 24 mənzilli yazıçılar binasında on üç yazıçının "Volqa" avtomobili vardı. Mən hələ qonşu həyətdən bəstəkarlar Tofiq Quliyev, Süleyman Ələskərov, Xəyyam Mirzəzadə, Vasif Adıgözəlov, Nəbi Xəzri və digərlərini demirəm.

Atam maşını tək sürməyimə izn vermirdi. Deyirdi ki, evin tək uşağısan, bir şey olar, evim yıxılar. Amma hərdən gözündən oğurlanaraq, yaxud da lovğalanmaq məqsədiylə "Volqa"-nı qaçırdıb universitetə gedərdim. Oxuduğum filologiya

fakültəsində mənə münasibətdə hər hansı bir dəyişiklik, heyrət, paxıllıq hiss etməmişdim. Amma digər fakültələrdə özünü cəmiyyətin yüksək təbəqəsi sayan bəzi tələbələr mənə qarşı münasibətlərini 180 dərəcə dəyişmişdilər. Daha doğrusu mənə yox, "Volqa"ya. Bu məni elə də əndişələndirmirdi, hərəkətlərimdə, davranışımda hər hansı bir dəyişiklik də olmamışdı.Qudurmamışdım, elə həmin Mahir idim. Amma onların bircə sözü indiyəcən yadımdan çıxmır: "Şair Qabilin oğlu "Volqa" sürməsin, bəs onda kim sürsün? Biz?"

O dövrdə toyun səviyyəsi ora çağrılanların vəzifəsi, var-dövlətiylə ölçülmürdü. Xeyir işdə hər hansı ziyalının, yaxud da ziyalıların iştirakı, xeyir-duası toya, toy adamlarına başıucalıq gətirirdi.

Bu xüsusu yazıçı Anar hələ o vaxt "Evləri köndələn yar" əsərində çox ustalıqla təsvir etmişdi.

TOY (müstəqillik dövrü)

İşdəydim. Bir yoldaşım işə gecikmişdi. Heç soruşmadıq da niyə gecikmisən. Başladı, nə başladı.

- Uşaqlar, dünən toydaydım. Ləzzətli toy idi. Cəmiyyətin bütün qaymaqları ordaydı. Toyun sonunacan oturdum, yedim-içdim. Bir də gördüm gecə saat ikidir. Bir qaqaş "Porşe"-sində gətirib qoydu məni evə.

Özümü saxlaya bilməyib sual verdim.

- Yazıçı Anar ordaydı?
- Yox.
- Şair Fikrət Qoca necə?
- Yox.
- SSRİ xalq artisti Arif Məlikov necə?.
- Yox.
- Görkəmli bəstəkarımız Xəyyam Mirzəzadə, Xalq rəssamı Fərhad Xəlilov?
- Yox.
- Akademik Akif Əlizadəmi?

- O da yox.

- Bəs onda kim? Zeynəb Xanlarovamı? Xalq artisti Fərhad Bədəlbəylimi?

- Yox e, Mahir. Mən cəmiyyətin qaymaqları deyirəm. Nazir müavini filankəs, oliqarx beşmankəs. Komitə sədri kaşmənkəs. İndi qaymaq bunlar sayılır. Sən deyənlərdən heç kim orda yox idi. Heç gənc şair, bəstəkar, rəssam da sezilmirdi.

VARLI UŞAQLARI

İndi mətbuatın gündəmini varlı, vəzifəli adamların uşaqlarının avtomobillərinin, yaxtalarının, həyat tərzlərinin fotoları zəbt edib. Bunu ajiotaja çevirənlər də var. Amma mən bu mənzərəni çox sakit seyr edirəm. Nə vaxtsa mənə deyilənləri, özlərinə qaytarıram: "Onların olmasın, bəs kimin olsun? Bizim?"

Artıq zəmanə dəyişib. Qaymaqları siviriblər, ayranımız üzə çıxıb.

# MİKAYIL CABBAROV, ÜZR İSTƏYİRƏM! HƏSƏN MÜƏLLİM, BAĞIŞLA…

Həmişə ailəmlə bir yerə yığışanda onlarla belə zarafatlaşırdım: "Mən yetiməm. Nə atam var, nə anam, nə bacım, nə qardaşım". İki qızım, bir arvadım da deyirdilər ki, yetim niyə olursan? Bəs biz?

Əlbəttə ki, bu bir zarafatdır edirəm onlarla. Bir az cırnadıram, bir az kövrəldirəm. Qardaşlarım, bacılarım olmasa da yaxşı xala, əmi, dayıuşaqlarım, bacanaqlarım, qəyinlərim, baldızlarım var. Tələbəlik, AzTV , "Xalq qəzeti"ndə işlədiyim illərdən qazandığım gözəl dostlarım, yoldaşlarım var.

Mənə deyirdilər ki, bəs dost bir olar. İkinci dost sayılmır. Sadəcə yoldaşdır. Buna hardasa inanırdım. Amma 2008-ci il yanvarın 1-də "Xalq qəzeti"nə ayağımı basandan inandım ki, dost məhdud söz deyil. Həyatın boyu özünə nə qədər istəsən dost qazana bilərsən.

Məni "Xalq qəzeti"nə özümə dost bildiyim Həsən Həsənov gətirmişdi. Axşamlar gəlib kabinetində oturar, qəzetçiliyin mənə məlum olmayan incəliklərini ondan öyrənərdim. İş gecə saat on ikiyə, birə çəkəndə deyərdi ki, düşək bir şam edək. Bir dəfə də şama gedəndə əlini selektora apardı. Ərkyana "İbrahim, düş, aşağıda gözləyirik" dedi. Küçəyə çıxanda məndən hündür, cüssəli, gülərüz, saçı tökülmüş biriylə rastlaşdım. Həsən müəllim "Mahir tanış ol. İbrahim Ömərovdur. Qəzetimizin texniki direktorudur"

Getdik şam elədik, yenidən redaksiyaya qayıtdıq. Bu cür şam yeməkləri üç-dörd dəfə təkrarlandı. Amma sanki

İbrahimi yüz ildi ki, tanıyırdım. Artıq Həsən müəllimin kabenitində oturmaqla fəaliyyətimi məhdudlaşdırmırdım. Beşinci mərtəbəyə qalxıb İbrahimin otağına girirdim. Mənim 41, onun isə 30 yaşı vardı. Amma özünü 50-60 yaşlı bişmiş adam kimi aparırdı. Tez çay gətizdirər, şokolad konfetləri qənddana tökərdü. Hələ şkafına göz eləyib "müəllim,yaxşı viskim var, bəlkə bir 50 qram..." deyə işarə də edirdi.

Atamın ölümündən sonra əsəb xəstəsi olmuşdum. Depressiyadan çıxa bilmirdim. Ağzımı açmağımı görürdüm. Danışmağa qoymurdu. "Dur getdik Şıxova, balıq yeməyə. Müdiri də get özün yola gətir" deyirdi. Həsən müəllimlə müdir-işçi məsafəsini saxlayırdı. Amma demə məsələlər başqa məcraya yönəlirdi. Bunu nə Həsən müəllim, nə də mən bilirdim. Bilsəydik onu həmən "Xalq qəzeti"ndən, ümumiyyətlə həyatımızdan uzaqlaşdırardıq. Bu haqda sonra...

Günlərin bir günü Həsən müəllim soruşdu ki, "Mahir, bu İbrahim necə oğlandır?" Dedim ki, ay Həsən müəllim, pis olsaydı işə götürməzdin ki? Bir də beş ildir yanında çalışır, mən onu iki aydır tanıyıram. Amma sonra başa düşdüm ki, İbrahimə güvənmək olarmı mənasında soruşur. İbrahimi, hardasa 12 ildir ki, tanıdığı, sınağa çəkdiyi mən Mahirlə paralel və ya müqayisədə cavab almaq istəyir. "Hə. Bizim adamdır. Təmiz oğlandır".

Beləcə "Xalq qəzeti"ndə Mahir Həsən müəllim dostluğuna üçüncüsü də əlavə olundu. İbrahim Nizami oğlu Ömərov.

Hər dəfə otağına girəndə yanında müxtəlif adamlar olurdu. Qarşılarında çay, konfet. İçəri girmək istəməyəndə, təkid edirdi.

"Mahir, tanış ol. Fikrət müəllimdir, Rzayev. Professordur. Görkəmli alim, pedaqoq. DOSTUMDUR. Fikrət müəllim, Mahir xalq şairi Qabilin oğludur. Bizim qəzetdə informasiya şöbəsinin müdiridir. İstəyirəm siz də dost olasınız".

"Mahir, tanış ol, professor Buludxan Xəlilovdur. APU-nun filologiya fakültəsinin dekanı. DOSTUMDUR. İstəyirəm siz də dost olasınız"

"Mahir, tanış ol, professor, şərqşünas Məsiağa Məhəmmədi. Əla kişidir. DOSTUMDUR. İstəyirəm siz də dost olasınız."

"Mahir, tanış ol. Mehman müəllimdir.", "Mahir, tanış ol, şair Səlim Babullaoğludur", "Mahir, tanış ol Azər Sarıyevdir", "Mahir, tanış ol, Cavanşirdir. Dostum yox e... Bir yana gedəndə ailəmi qardaşlarıma yox, ona tapşırıram". "Tanış ol, Xaqanidir, Əfqandır, Nüşabədir..." Hamısını böyük fəxrlə təqdim edirdi. Bəziləri özlərindən kiçik olmasına baxmayaraq, İbrahimi dost kimi qəbul edirdilər, ərk edirdilər, şıltaqlıq edirdilər. Elə biri mən özüm.

Hamısını da "Dostum" deyərək böyük fəxrlə təqdim edirdi. Sanki "Dostlar dünyası"na düşmüşdüm. Hər dəfə bir məclisdə oturanda görürdüm ki, 31 yaşı olmasına baxmayaraq İbrahim artıq qocalıb, müdrikləşib. Babası ona həmişə deyirmiş ki, "İbrahim, əsl ziyalılarla dostluq elə". O da bu sözə qulaq asmışdı, asırdı.

Həsən müəllimə isə daha çox yaxınlaşırdı. Əlbəttə ki, bir yerdə işləyirdilər. Amma vaxt keçdikcə onlar arasında ata-oğul doğmalığı hiss edirdim. Artıq dairədə mən yox idim. İkisiydi. Zəng edib deyirdilər ki, gedirik "obed"ə, gəl filan yerə. Gedirik bağa, sən də gəl. Dənizə gedirik, səni də götürəkmi? Yaddan çıxartmırdılar məni.

Həsən müəllimin bir xasiyyəti vardı. AzTV-dən bələd idim. Dediyini eləsən, ərkini başa düşsən, sənin də hər hansı bir sözün onun üçün qanundur. Düzdür hər adama da ərk eləmirdi. Biri mən idim, biri də İbrahim. Mən yavaş-yavaş aradan çıxmışdım. Heç düz əməlli işə də gəlmirdim. Atama da belə ərköyünlük eləməmişdim. Sanki Həsən müəllimin iki oğlu vardı biri ərköyün, biri isə ağıllı, sözə baxan. İbrahim mənim də vəzifəmi yerinə yetirirdi.

Vaxt keçdikcə mən də İbrahimi öz dostlarımla tanış etməyə başladım. "Qaynım Ramiz Əkbərov. Polkovnik, həkim. Bacanağım Rəfail. Baldızımın oğlu Nahid Zairov cərrah-podpolkovnik. Cəlil Qaryağdı – heykəltaraş. Mərhum Cəlal Qaryağdının oğlu. Və ən nəhayət jurnalist Eldəniz Elgün."

Ziyalılarla çox maraqlanırdı. Onlar haqqında söhbət edirdim. Anarı, Fikrət Qocanı, Elçini, Səməd Vurğunu, Osman Sarıvəllini və digər görkəmli ziyalılarımızı adından tanısa da, mən onları insan kimi İbrahimə təqdim edirdim. Mənfi, müsbət cəhətlərini açırdım. Atamın adı gələndə isə yanıb-tökülürdü.

"Axı, mən səni niyə vaxtında tanımadım. Kişi məni tanısaydı səni çoxdan oğulluqdan çıxarardı. Gələcəkdi hər gün bura. O yeyib-içən, mən yeyib-içən. Deyəcəkdi Şamaxıya gedək! Gedəcəkdim. Deyəcəkdi Amerikaya gedək! Yenə gedəcəkdim. Sən necə adam olmusan ə? Arağı gizlətmisən. İçməyə qoymamısan. Heyf. Mənim atam da şairdir. Nizami Məmmədcanlı. Onunla da tanış edəcəkdim."

Hər dəfə beləcə təəssüflənirdi. Artıq bir-birimizə çox bağlanmışdıq. Gündə iki dəfə zəngləşməsəydik elə bilirdim ki, nəsə çatışmır. Bütün günü də qarışqa kimi çalışırdı. İngilis dilini mükəmməl öyrənirdi. Mən onu tanıyanda iki ali məktəbin bakalavr pilləsini, bir ali məktəbin isə magistraturasını bitirmişdi. İngiltərəyə gedib öz şəxsi hesabına üç aylıq kurs keçmişdi. Gəlib Akademiyanın doktoranturasına qəbul olmuşdu. Paralel olaraq Milli Elmlər Akademiyasında çalışırdı. Kitablar tərtib edirdi. Hamısında da "İ.Nizamioğlu" imzası qoyurdu. Deyirdim ki, bütöv yaz da adıvı. Deyirdi ki, "yox. Atamı itirdim, onun adını yaşatmalıyam. Biz tərəfdə kişilər 56-57 yaş yaşayır. Mənim də maksimum 20 ilim qalıb. Hər şeyi çatdırmalıyam. Oğlanlarıma yüksək təhsil verməliyəm, xaricdə oxutdurmalıyam".

Birinci sinifdən onlara repetitor tutmuşdu. Müdafiə etməyə hazırlaşırdı. Jurnalistlər üçün tikilən binada ev almaq istəyirdi. Ona görə yox ki, ehtiyacı vardı. On il idi ki, "Xalq qəzeti"ndə çalışmışdı, baş redaktorun 1-ci müavini vəzifəsinə qədər ucalmışdı. İstəyirdi ki, etdiklərindən nəsə bir xatirə qalsın. Və Həsən müəllim növbəti dəfə onun da adını siyahıya salsın.

Nəhayət... Günlərin bir günü gəldi ki, bəs qəbuldaydım. Təhsil naziri Mikayıl Cabbarov məni qəbul etdi. Bir saat söhbət elədi. Ondan əvvəl də 7-8 ay idi ki, təzə təhsil naziri haqqında

yazılar yazırdı. Nəsə vurulmuşdu onun fəaliyyətinə. Mən isə öz köşə yazılarımda o cümlədən Mikayıl Cabbarovu da tənqid edirdim. Az qalırdı ki, yumruğu başıma vursun ki, bəsdir də... əl çək də ondan. Yazmağa başqa mövzun yoxdur? Qoy işləsin də. O qədər işləməyən var, yazmırsan, işləyəni də ruhdan salmaq istəyirsən. İlk yazılarımı üç nəfər oxuyurdu, İbrahim, həyat yoldaşım Sevinc, bir də Eldəniz Elgün. Amma Mikayıl Cabbarovun adı olan yazılarımı İbrahimə göstərmirdim.

Nazir onu qəbul edəndən sonra Sumqayıt Dövlət Universitetinə prorektor təyin etdi. Yox elə bilməyin ki, İbrahimin rüşvət verməyə pulu, ya tapşırtdırmağa day-dayısı vardı. Mikayıl Cabbarov da təmiz adamdır. Sadəcə DOSTLARI vardı. Mikayıl müəllimin də xoşuna gəlmişdi. Özü işləyən adam olduğu üçün İbrahim kimi gənc, enerjili adamlara ehtiyacı vardı. Mikayıl müəllimin bütün atdığı addımlardan danışırdı mənə. Özü də ağızdolusu. Hər dəfə də deyirdi ki, görərsən Mikayıl müəllim təhsilimizi nə yüksəklərə qaldıracaq. Mən də qulaq asırdım, bir mütərəqqi adam kimi sevinirdim də. Amma nə edim ki, qələmi əlimə alanda ilhamım tam əks tərəfə çevrilirdi. Tikanlı sözlər kağıza düzülürdü. Özümdən asılı deyildi. Yenə gəlirdi ki, "Mahir, işin olmasın da Mikayıl müəllimlə. Səndən xahiş edirəm. Bax, qaqaşını da aparıb prorektor qoydu. Sabah daha da yüksəldə bilər. Amma xəbər tutsa ki, biz dostuq, ətrafındakılar bunu başqa cürə yoza bilərlər. Səndən xahiş edirəm, Mikayıl Cabbarov haqqında yazma. Yaz e, yaxşı yaz". Hətta Eldəniz Elgünə dəfələrlə tapşırmışdı ki, Mahir Təhsil nazirliyi haqda yazsa, qoyma çapa versin. Ölümünə iki gün qalmış isə Məsiağa Məhəmmədiylə üçümüz birgə yeyib-içərkən professoru da öz tərəfinə çəkdi. O da məni qınadı. Və söz verdim ki, "İbrahim, qurtardıq.Bir də Mikayıl Cabbarovun adını çəkməyəcəyəm".

İki gündən sonra isə İbrahimin ölüm xəbərini aldım. Amma vədimə xilaf çıxdım. Mikayıl Cabbarovun adı olan bir yazı da yazdım. Hörmətli Mikayıl müəllim. Bilirəm yazdıqlarımın sizin üçün heç bir əhəmiyyəti yoxdur. Öz gözəl işlərinizi,

fəaliyyətinizi davam etdirməkdəsiniz. Komandanızda indi İbrahim Ömərov yoxdur. Sizi çox istəyirdi. Sizə çox inanırdı. Bu yolda yanınızda olmaq istəyirdi. İrəli getmək istəyirdi. İbrahimin ruhu sakit olsun deyə, Mikayıl Cabbarov, sizdən üzr istəyirəm!

Həsən müəllim, sən isə məni bağışla. İbrahimin hüzüründə mənalı-mənalı süzdün məni. Bilirəm ki, günahım var. Sizi mən yaxınlaşdırdım. Özüm isə aradan çıxdım. İbrahim səninçün çox şey idi. Oğlun yox, oğuldan da doğma idi. 60 yaşında oğul itirmək isə çox ağırdır. Hönkürməkdən başqa isə heç bir əlacın yox.

SON

İbrahim, dünən səni dəfn edəndən sonra Eldənizlə oturub səni sənsayağı yad etdik. Ağlamağımı saxlaya bilmirdim. Eldəniz dedi ki, ay axmaq, niyə ağlayırsan. Həmişə bir yerdə oturanda İbrahim demirdi ki, atalarımız da burdadır? Onların sağlığı olsun. İndi o da, şair Qabil də, Nizami əmi də burdadırlar. Ağlama. Bir mərifətli sağlıq de, içək. Özümü toplayıb dedim:

- Papa, o vaxt Həsən müəllimə də demişdim. İbrahim yaxşı oğlandır. Götür oğulluğa. Həsən müəllim, Məsiağa, Fikrət, Səlim, Mehman, mənim kimi sonda hönkürüb, peşman olmayacaqsan. Peşman olmayacaqsan ki, niyə axı onu tanıdıq ki, indi də yoxluğuna yanırıq. Kaş ki, heç tanımayaydıq deyirik. Biz itirdik, siz qazandınız. Özü də ki, əbədi. Bir də ki, papa, o, ziyalıları çox sevir, tanış elə onlarla. Dostluq etməyi sevir. Fani dünyadakı dostlarını da çox sevir. Bir də gördün ki, yuxumuza girib bizi də təzə dostlarıyla tanış etdi "Mahir, tanış ol. Bu Nizami Gəncəvidir. DOSTUMDUR. Bu isə Səməd Vurğun. O da DOSTUMDUR". İbrahim, sənin sağlığına. Sənin yeni həyatının, yeni dostlarının sağlığına.

# SADƏ QONŞU VƏ NAZİR...

2003-cü ildən Prezident Heydər Əliyevin atam – xalq şairi Qabilə bağışladığı evdə yaşamağa başladıq. Qonşularım cəmiyyətdə yüksək mövqe tutan ziyalı, vəzifə mənsublarıydı. Onlardan biri də vergilər naziri Fazil Məmmədov idi. Əlbəttə ki, onu hamınız tanıyırsınız. Amma qonşu-nazir Fazil müəllimə 50 yaşını qeyd etdiyi bu əlamətdar günlərdə öz baxış bucağımdan bir nəzər salmaq istədim. On bir illik müşahidələrimin qənaəti olaraq.

"BÖYÜK ADAMDIR..."

İşdə idim. Atam zəng etdi ki, ziyalı İmamverdi Əbilovun həyat yoldaşı rəhmətə gedib. Hökmən Neftçalaya gedib hüzür verməliyəm. Hidayət əmin də (Hidayət Zeynalov – gənclik dostu, jurnalist) bizimlə gedəcək. Onunla həyətdə gözləyirik səni.

İcazə alıb evə gəldim. Maşının şüşələrini silməyə, bəzi zəruri texniki baxışdan keçirməyə başladım. Atamla Hidayət əmi isə bir az aralıda dayanıb söhbətləşirdilər. Qapının ağzında isə vergilər naziri Fazil Məmmədovun hökumət maşını dayanmışdı. İşə gedən vaxtı idi. Atamla Hidayət əmi də mənim nə vaxt "hazıram, gedə bilərik" deməyimi gözləyirdilər.

Bu vaxt Fazil müəllim dəhlizdən çıxıb maşınına tərəf gəldi. Avtomobilinə əyləşdi. Maşın yerindən azca tərpənmişdi ki, yenidən dayandı. Fazil müəllim yerə düşüb "mən şairlə görüşüb gəlirəm" deyərək atama tərəf yönəldi. Atamın başı

söhbətə qarışsa da, demə 40 il "Kommunist" qəzetində şöbə müdiri işləmiş, həyatında çox vəzifəli görən Hidayət əmi bütün bunları müşahidə edirmiş.

Fazil müəllim atama yaxınlaşdı. Mehribanlıqla görüşdü. Hal-əhval tutdu. Hidayət müəllimlə də "ağsaqqal, salam" deyə görüşdü. Maşın təklif etdi ki, "hara lazımdır aparım". Atam da yolüstündə olduğunu, razılığını bildirdi. Nazir yenidən qayıdıb maşına əyləşib həyətdən çıxdı. O vaxta mən də işlərimi qurtardım. Yola düşdük. Hidayət əmi:

- Qabil, bu Fazil Məmmədov nə böyük adammış.

- Hə də, Hidayət, vergilər naziridir, zarafat deyil. Özü də Mahirlə yaşıddır.

- Qabil, vəzifəsini demirəm e... Sənin arxan bloka tərəf idi. Mən isə hamısını müşahidə edirdim. O, blokdan çıxdı, maşına əyləşdi. Yenicə tərpənmişdi ki, avtomobili saxladıb təzədən yerə düşdü. Gəlib səninlə görüşdü. Sən onsuz da onu görmürdün. Çıxıb gedə də bilərdi. Amma maşını saxlatdırmağı, düşüb səninlə görüşməyi, hal-əhval tutmağı mənə ləzzət elədi. Vəzifəsi öz yerində... əgər ziyalıya belə hörmət edirsə, böyük adamdır.

## SADƏ QONŞU

Binamızdakı sakinlər iki yerə bölünürdü. Elə başa düşməyin ki, vəzifələrinin böyük-kiçikliyinə, var-dövlətlərinə görə. Əsla. Deyəcəyəm, sizə də gülməli gələcək.

Bayaq dediyim kimi, qonşularımız görkəmli dövlət xadimləri olduğuna görə bina güclü mühafizə olunurdu. Girişdə də həmişə azı dörd-beş adam dayanardı. Aralarında mühafizəçi də olurdu, sürücü də. Mən də çox vaxt onlarla dayanıb söhbətləşirdim. Bu dəm Fazil müəllim köməkçisiylə liftdən çıxdı. Yanımızdan keçərkən salamlaşdı, hal-əhval tutdu. O gedəndən sonra uşaqlar:

- Çox sadə, insan adamdır. Gedəndə də, gələndə salamlaşır, hal-əhval tutur.

- Axı, burda qəribə nə var ki?- deyə xəbər aldım. –Allahın salamıdır da verir.

- Yox, Mahir, sən sakin olduğuna görə belə şeyləri tuta bilmirsən. Burda elələri var ki, gözləri ayaqlarının altını görmür. Salam vermək nədir... heç salam da almırlar.  Fazil müəllimsə gözəl insandır. O gün də lift xarab olmuşdu. Qalmışdı içində. Başqası olsaydı aləmi dağıdardı. Fazil müəllimsə...

## NAZİR VƏ ALİMLƏR

2000-ci ildə Baş Dövlət Vergi Müfəttişliyi ləğv edilərək, Vergilər Nazirliyi yaradıldı. AzTV-nin "Xəbərlər"ində işləyirdim. Dedilər ki, vergilər naziri kimi Fazil Məmmədov ilk tədbirini keçirir. Kameranı götür get. Tez nazirliyə yollandım. Belə təsəvvür edirdim ki, böyük bir zala daxil olacağam. Təntənəli iclas çəkəcəyəm.

Bizi balaca dəyirmi stolu olan konfrans zalına apardılar. İçəridə oturanları tanımırdım. Demək olar hamısı yaşlı adamlar idi. Fazil müəllim iclası açandan sonra mənə məlum oldu ki, bu insanlar alimdirlər. Onları bir yerə toplayıb, şura yaratmaq istəyir. Ki, nazirliyin təşəkkül tapmasında bu sahəni gözəl bilən elm adamları da yaxından iştirak etsinlər. Öz töhfələrini versinlər.

## QONŞU YOX, HƏM DƏ NAZİR

Atam rəhmətə getmişdi. Vida mərasimində görmədim Fazil müəllimi.

Həyətdə çadır qurulmuşdu. "Üç" mərasimiydi. Bir də gördüm ki, Fazil Məmmədov və vergilər nazirinin üç müavini içəri daxil oldular. Əyləşdilər. Mən də yaxınlaşdım. Başsağlığı verdi. "Yaxşıydı ki, nə oldu bu şairə birdən-birə? Mən də xaricdə ezamiyyətdəydim. Dəfnə gələ bilmədim" deyə üzrxahlıq elədi. Mən də son  saatlarını danışdım. Heyfslənib ah çəkdi. Bir qədər oturandan sonra:

- Qabil müəllim yaxşı kişiydi, gözəl şair, ziyalımız idi. Allah rəhmət eləsin. Mahir sənin də nə sözün, problemin olsa müraciət elə, - deyib sağollaşdı.

O gedəndən sonra qohumlardan biri dedi ki, yaxşı qonşudur. O saat əlavə elədim. "Təkcə qonşu yox. Qonşu olsaydı tək gələrdi. Müavinləriylə gəlib. Fazil müəllim həm yaxşı qonşudur, həm də nazir".

50 – 35 = 15

Mən Fazil Məmmədovun vergilər naziri, idman federasiyasının prezidenti kimi fəaliyyətindən, gördüyü işlərdən danışsam, bir kitab alınar. Bir tərəfdən buna mənəvi ixtiyarım da çatmır, axı. Çünki iqtisadçı, vergi işçisi, idman xadimi deyiləm. Sadəcə həyat müşahidələrimdən qonşu, nazir Fazil müəllimlə bağlı bəzilərini sizinlə bölüşməyə qərar verdim. Özü də onun üçün əlamətdar olan günlərdə - 50 yaşının, yubileyinin astanasında. Bəzən mənə müqayisələr gətirməyimi irad tutsalar da, ancaq yaxşı alındığını da gizlətmirlər. Fazil müəllimin bioqrafiyasına nəzər salanda bir rəqəm diqqətimi çəkdi. Demə o, bu yüksək vəzifəyə 35 yaşında layiq görülüb və 15 ildir ki, hər hansı bir "ÇP"siz bu vəzifənin öhdəsindən gəlir.

Gənc yaşlarından yüksək, məsul post tutan, indiki gənclərə örnək olaraq 15 ildir ki, özünü sədaqətli, siyasi cəhətdən yetkin, bütöv bir insan kimi təsdiq edən Fazil müəllim! 50 yaşın mübarək!

Hörmətlə: Qabilin oğlu, qonşu Mahir

# VƏZİFƏLİ BALASINDAN ŞİKAYƏT MƏKTUBU

Hörmətli redaksiya, yaxud da sayt!

Salam. Sizə yazmaq istəməzdim. Çünki biz tərəflərdə yazı yazana boşboğaz deyirlər. Düzdür dostlarımla birlikdə asfallt üzərində maşının təkərləriylə "yazmağı", ilan şəkli çəkməyi sevirik. Amma bu yazmaq siz yazdığınızdan deyil. Sizin kimi yazana jurnalist deyirlər, bizim kimi "yazan"ları isə xalq arasında qaqulya, qaqaş çağırırlar.

Bizdə saymaq prestij sayılır. Yox, sevinib atdanıb düşməyin. O saymaqdan demirəm. Nə qədər yazsanız da sizi saymayacağıq. Mən pul saymağı deyirəm. Allah sizə də qismət eləsin, çox gözəl şeydir. Təzə Amerikan dollarının blokunun plyonkasını cırırsan, ətri götürür aləmi. Ən bahalı Kuba siqarı kimi burnuvun altından o yana, bu yana keçirib dərindən nəfəs alırsan. Dolların ətri gedir-gedir dolur ciyərlərinə. Oxxayy... Bütün nə xəstəliyin, dərdin var hamısı çıxır çanından. Eləmirsən tənbəllik başlayırsan saymağa. Pulsayan maşınla yox. Ona etibar eləmək olmaz. Əllə. Baş barmağını dilinlə tüpürcəkləyib saymadın, day nə ləzzəti? Bir paçka sayırsan. Barmaqlarına baxırsan. İki paçka sayırsan. Barmaqlarına baxırsan. Bir də görürsən ki, barmaqların, əllərinin içi qapqaradır. Dilin də o cümlədən. Dilimdəki pul ləkəsi yavaş-yavaş keçir qanıma. Ordan da damarlar, kapilyarlar vasitəsilə bütün bədənimə yayılır, hüceyrələrimə hopur.

Sonra qar kimi ağ köynəyini geyinib çıxırsan şəhərə. Əlini də hərdən sürtürsən üstünə. Qarası yaxılır köynəyinə. Kim ki,

"buna bax e, nə pintidir e... çirkli köynək geyinib" desə bil ki, kasıb-kusubdur, o nə bilir pul ləkəsi nədir? Belələri ancaq vicdan, qan, yağ, namus ləkəsi nə olduğunu bilərlər. Jurnalistlər isə mürəkkəb ləkəsindən başqa bir şey anlamırlar. Qələmlərini mürəkkəbə batırıb üstümüzə sıçradırlar ki, ləkələsinlər bizi. Amma yenə alınmır. İyirmi-otuz dollar paçkası sayıram, sonra da üstümə sürtürəm. Pul ləkəsi elə silir ki, mürəkkəb ləkəsini, izi-tozu da qalmır. Pul ləkəsi namus ləkəsini də, qan ləkəsini də çox rahat aparır.

Nəsə çox haşiyə çıxdım. Harda qaldım? Həəəə… pul ləkəsində. Kim ki, bu ləkəni tanıyır, deməli bizimkilərdəndir. İndi pul ləkəsini tanımayanlar, sual verəcəksiniz ki, ay vəzifəli balası, bəs bezmirsən dollar saymaqdan? Bezirəm. Niyə bezmirəm ki... Elə bilirsiniz insan deyiləm? Mən də insanam. Başa düşürəm ki, insan hər gün kabab, plov yeyə bilməz. Yeknəsəklik biz varlıları da məhvə apara bilər.

Ona görə də hərdən "ağzımın dadını" dəyişirəm. Atama deyirəm ki, mənə manat gətir. Keçirəm manat saymağa. Manatdan bezəndə Avro sayıram. Funt sterlinq də pis deyil. Amma nə deyirsiniz deyin, dolların yerini vermir. Necə başa salım sizi ki, başa düşəsiniz, ay kasıblar. Bax toyda lap ağ balıqdan kabab ver, qara kürünü süfrəyə düz, yenə axırda nə deyəcəklər? "Yeməklərin şahı, zəfəranlı, ətirli plov gəlir". Bax dollar da plov kimi şeydir. Pulların şahıdır, ətirlidir.

O gün bir kasıb nə desə yaxşıdır? Deyir ki, siz varlıların pulunu balta da kəsmir. Əsəbləşib gəldim evə. Bir dollar paçkasını qoydum kötüyə. Baltanı götürüb vurdum. Xırt iki yerə böldü. İkinci paçkanı da qoydum. Vurdum. Bunu da kəsdi. On dənə paçkanı beləcə zay etdim. Hirslənib gedib tutdum qurumsağı ki, ə... məni dolamısan? Deyirsən ki, varlıların pulunu balta kəsmir. Necə yəni kəsmir? Kəsdi, axı... Nə desə yaxşıdır? "Mən çaşdım. El misalında deyilir ki, "filankəsin pulunu balta kəsmir". Bilməmişəm "varlıların pulunu balta kəsmir" demişəm".

Dedim ki, ay axmaq, sənin bir səhvinə görə 100 min göyü havaya sovurmuşam e... O söz siz kasıblar üçün deyilib e... yəni ki, pulu balta kəsmir. Sizin də pulunuz yox. Olmayan şeyi balta necə kəssin?

Nə isə yorulmuşam bu kasıb-kusubu başa salmaqdan ki, atamın, mənim pulumu saymasınlar. Ara yerdə də yüz min dolları belə xarab elədim. Eybi yox, kasıba qadağa, başıma sadağa.

İndi də siz jurnalistlər yığmısınız məni boğaza. Gah saatımı göstərirsiniz, gah maşınımı, gah da villamı. O saatdan 28 Maydakı keçiddə bilirsinizmi nə qədərdir? Özü də 5 manata. "Kitayski". O otuz-qırx minlik saatı taxım sən jurnalistin qoluna, iki ay bütün müqəddəslərə and içsən də inanmayacaqlar ki, bu qədər qiyməti var. Amma beş manatlıq "Kitayski" saatı tax mənim qoluma, o saat bütün saytlar çar cəkəcək ki, "şvetsarski"dir. Özü də "yedinka". Xüsusi olaraq mənümçün istehsal olunub. Çünki mən qiymətli adamam. Saat məni yox, mən saatı qiymətə mindirirəm.

Nəsə çox çərənlədim. Yazmaqda məqsədim başqa idi, gör nələri də açdım dedim. Hörmətli jurnalistlər. Çox xahiş edirəm, nəyi yazırsınız yazın. Bircə maşınlarıma toxunmayın. Yandırıb-tökməyin məni. Kasıbın gözündə tiri qoyub, varlının gözündə çöp axtarmayın. Maşınlarımızın "Feysbuk"dakı şəkillərini hər dəfə çap edəndə xəcalətimdən yerə girirəm. Qiyməti bir yana, motorun gücünü yazanda "voobşe" məhv oluram. Bir ay camaat arasına çıxa bilmirəm xəcalətimdən. Vallah siz jurnalistlər dəhşətsiniz. Siz maşın görməmisiniz e... Siz motor görməmisiniz. Heyf ki, yüz dənə xəstəliyim var. Yoxsa sizə elə maşınlar, elə motor gücləri, elə "zmeyka"lar göstərərdim ki?

Qonşumuzda yoluğun, kasıbın biri var. O gün baxıram "Feysbuk"a nə yazsa yaxşıdır. Deyir ki, əsgərliyə gələn kimi bir dənə tank alıb qoyublar bunun altına. Motorun da gücü 1500 at gücü. Asfalta çıxanda asfaltı dağıdır. Bir dənə qazı basanda motorun xorultusuna dağ-daş tərpənir. Qulaqları

səsdən deşilməsin deyə xüsusi papaq da qoyurlar. Dərə-təpə nədi bilmir. "Zmeyka"nın biri bir qəpik. QAİ də yox, VAİ də. Üç dost oturub sürürlər özləriyçün. Şəklin də çəkib qoyub "feys"ə. Altında da nə yazsa yaxşıdır? "Bununla yüz ermənini birdən əzərəm, heç uf da deməərəm". Ay jurnalistlər, bəs buna niyə susursunuz? Mənim incə-mincə "Hammerim"ə tank deyirsiniz, amma qonşunun tankını gözünüz görmür. Bir azərbaycanlını maşınla basıb qol-qıçını sındıranda, ya da o dünyalıq edəndə bizi günün qəhrəmanı edirsiniz. Atamızı işdən çıxartdırırsınız. Yüz ermənini birdən maşınının altına basıb öldürmək istəyəni gözünüz də görmür. 500 min dollara maşın gətirdəndə bütün aləmə car çəkirsiniz. Bilirsinizmi, tank necəyədir? Google-a girib maraqlanmışam. "Abrams" tankı M1A2 model, ili 1999, özü də sadə salon - düz 6 milyon 200 min dollar. İndi özünüz sual verin kasıb qonşumun harda idi pulu ki, tankı alıb qoya altına. Hökumət havayı verib. Mən yatsam yuxumda da görmərəm. Özü də yazır ki, hər şeyimiz havayıdır – yeməyimiz də, geyimimiz də. Supları yaman tərifləyir. Mən isə külbaş supun bir boşqabına restoranda 70 manat pul ödəyirəm.

Nə isə, ay jurnalistlər, yazanda kasıb qonşumdan da yazın. Bizdən yazmaq istəsəniz, mənim bu iki misramı əlavə etməyi unutmayın:

*Biz varlılar da onlardan biri*
*Qaqulya, qonşudan qalma geri.*

# İBRAHİMİN ÖLDÜYÜ GÜNDƏN HƏYAT DAVAM ELƏYİR

Səhər tezdən bu nə telefon zəngidir e? İlk dəfəydi ki, belə rahat yatırdım. Gözəl yuxular görürdüm.

- Alo.

- Mahir müəllim, salam. Çox gözəl məqaləydi. İdarəmizin rəhbərliyi adından minnətdarlığımı bildirirəm.

- Kimdir? Füzuli, sənsən?

- Bəli, Mahir müəllim. Minnətdarlığımızı bildiririk. Çox sağ olun.

- Siz də sağ olun.

Bu Füzulinin də başı xarab olub e... Mənə "Mahir müəllim" deyir. İndi Həsən müəllimə bir xahişdir də eləmişəm. İndi buna görə səhər saat doqquzun yarısında adamı yuxudan oyadarlar. Yəqin rəhbərlik yanındaymış. Ona görə özünü belə rəsmi aparır. Gül kimi yuxu görürdüm də... İki huri mələk vardı. Yox. Kimə danışıram ki, bunları. Qoy gözümü yumum. Bəlkə yenidən qayıtdılar. Sonra da gedərəm redaksiyaya. Həm minnətdarlığı ünvanına çatdıraram, həm də İbrahimlə görüşərəm. Bizim də görüşməyimizdən olmaz e. Əl veririk, sonra da başımızı bir-birinə vururuq. Bir-birimizi öpmürük. Kişi kişiylə öpüşməz axı. Uşaqlıqda başımız birinin başına dəyəndə deyirdik ki, bəs gəl bir də kəllələrimizi toqquşduraq. Keçəl olarıq axı. Amma İbrahimlə bundan qorxumuz yoxdur. O da keçəldir, mən də. Hələ vaxt var. İş 10-da başlayır. Bir az da yatım.

Hə... Qayıdırlar yenə. Nə gözəldirlər. Özü də iki nəfərdir. Lap İbrahimin yeri məlum. Bah... bu nədir e... Bilsəydim

telefonu söndürərdim. İldə, ayda bir namaz, onu da telefon qoymaz. Yox. Deyəsən heç yerinə düşmədi bu misal.

- Alo.
- Mahir. Ay Mahir, bilmirəm necə deyim?

Ay Allah. Necə deyir desin. Amma tez desin. Yuxum yarımçıq qalıb axı...

- Nə olub ki? Nəsə həkimlik bir işiniz var?
- İbrahim ölüb.

Yox. İlk olaraq "ola bilməz", "inanmıram" demirəm. Realistəm. Bircə

- İndi hardadır?
- Suraxanıda. Atası evində.

Yerimdən dururam. Hamama girirəm. Əl-üzümü yuyuram. Başqa vaxt 3-4 gündən bir saqqalımı təraş edərəm. Amma dünəndən bugünə çıxan tüklərimi qırxıram. Üstündən odekolon vururam.

- Maşın sürmə. Özündə deyilsən, - deyə yoldaşım səslənir.
- Niyə ki? İnanmıram. Sözdür də deyirlər.

Evdən çıxıram. Maşına minib mənə bu xəbəri çatdıranları da yolüstü götürürəm. Yol alırıq Suraxanıya. İbrahimin qaçqın ata ocağına. Həyətlərinə girirəm. Kişilər divar boyu dayanıb. Balaca otaqdan qadınlar ağlayır. "İbrahim hanı?" soruşuram. Dostu deyir ki, bəs indi məsciddən gətirmişik.

- Heyf.

HAŞİYƏ:

- İbrahim, kisələnirsən?
- Hə.
- Burda lap məsciddəki kimidir. Atamı yuduzduranda görmüşəm. Orda da belə daşdır. Uzandırırlar. O üz, bu üz çevirirlər. Kisələyirlər. Sabunlayırlar. Heç fərqi yoxdur.
- Oxayyy. Ay kisəçi, bir az yavaş ol. Belə getsə çirkə çıxacam. Mahir, sən də gicləmə də... Gör nə yadına düşdü e? Orda mürdəşirdir, burda kisəçi. Orda çimdirəndən sonra ölü namazı qılırlar, burda "həmişə təmizlikdə deyirlər". Orda qəbirə

qoyub ağzınacan torpaq tökürlər. Burda... indi kisə qurtarsın, səni bilmirəm. Mən “Efes” pivəsi içəcəyəm. (SON)

- Bəs mənə niyə xəbər verməmisiniz?

- İstəmədik gecəylə narahat edək.

İçəri baxıram. Ortada tabut. Ətrafda da qadınlar. Anası baş tərəfdədir. Həyat yoldaşı ortada. Əllərini tabut boyu gəzdirirlər. “İbrahim, İbrahim” deyə oxşayırlar. Deməli tabutdakı İbrahimdir. Mənim dostum. Bəs onda niyə otağa girmirəm. Həmişəki kimi görüşmürəm. Başımı başına vurmuram. Yox, olmaz. Axı, otaqda qadınlar var. Bəs, nə edim? İcazəmi alım? Başa düşmədim. Dostumla salamlaşmağa icazəmi almalıyam. Küçəyə çıxıram. O baş bu başa gəzirəm. Ağlayıram. Niyə ağlayıram? Dostumla görüşə icazə almaq istədiyimə görəmi, yoxsa bunun görüş yox... Yox inanmıram. Axı, mən realistəm. Gözümlə gördüyümə inanıram. Həmişə olduğu kimi hamama da çağırmayıb məni. Fikirləşirəm. Lap nə olursa olsun. Əgər İbrahim o otaqdadırsa onunla həmişəki kimi görüşməliyəm. Əgər deyilənlər düzdürsə sonra gec ola bilər. Bəlkə dəfni gözləyim? Elə ki, tabutu məzarın yanına qoydular, xalçanı açdılar, irəli keçib diz çöküm. Qucaqlayım, başımı başına vurum, salamlaşım. Həmişə olduğu kimi. O da desin ki, “çay içirsənmi?”. Mən də “əgər şokolad varsa, içərəm” deyə naz edim. Yox, düzgün alınmır. Əgər dəfndə belə etsəm belə çıxacaq ki, özümü göstərirəm. Yaxşısı budur həyətə qayıdım, qardaşlarından icazə alıb görüşüm.

Yenidən geri qayıdıram. Sağ olsunlar icazə verirlər. Qadınları tabutun ətrafından azca da olsa uzaqlaşdırıb özümə balaca yer edirəm. Dizimi xalçaya qoyub başımı başına yaxınlaşdırıram. Toqquşdururam. Ağ kəfənin təmasından alnını, burnunu, dodaqlarını, çənəsini, üzünü hiss edirəm. Öpmək istəyirəm. Amma sözləri yadıma düşür: “Kişi kişiylə öpüşməz”. Amma bu sözü eşitmirəm. Sanki, “mən təmizəm. Cənnətə gedirəm. Məni ağız suyunla, göz yaşlarınla mundarlama” deyir. Amma, “sanki”...

Qohumları ayağa qaldırır məni. Həyətdən çıxıram. Təklif edirlər ki, çadıra gedib bir stəkan çay içim. Soruşuram. Nə ilə? Cavab verirlər ki, İbrahimin halvasıyla.

Razılaşıram. Əynimdə təzə gödəkcə var. Çay içəndə üstümə tökürəm. Ləkəsi qalır. Yanımda oturan biri deyir: "Təzə gödəkçədir. Hayıf oldu". Deyirəm ki, eybi yox, gələn mövsüm təzəsini alaram. Fikirləşirəm. Əgər köhnə olsaydı, deyəcəkdilər ki, "onsuz da köhnəydi də... bir şey itirməmisən?". Amma təzədir. Ona görə "Hayıf oldu" deyirlər.

Bir an düşünürəm. İbrahim cavan idi. Belə çıxır ki, ölmədi? Hayıf oldu. Eləmi? Bəs 48 yaşında təzədən İbrahim kimisini hardan tapım?

Bu an xəbər gəlir ki, bəs vaxtdır. Qəbiristanlığa getməliyik. Yola düşürük. Mənzil başına çatırıq. İbrahimi qəbirə sallayırlar. Qardaşı yanına düşür. Molla isə...

HAŞİYƏ: Uşaq bağçasındayam. Günorta yeməyini yemişik. Yatmaq vaxtıdır. Tərbiyəçi üstümüzə qışqırır. "Hamı sağ böyrü üstə çevrilsin. Hər iki əlini cütləşdirib başının altına qoysun. Gözünü də yumsun". Mən də belə edirəm. Düzdür, yuxum gəlmir. Amma qorxuram. Tərbiyəçimdən qorxuram. Gözümü yumub, özümü sağ böyrüm üstə yatmağa məcbur edirəm. Hərdən gözümü açıram. Tərbiyəçi bunu sezir. Hər yanımdan keçəndə əlini sol çiynimə qoyub adımı deyərək çiynimi tərpədir. "Mahir, yat" deyir. (SON)

Molla isə "qardaş, İbrahimi böyrü üstə çevir. Üzü əks tərəfə. Əlini çiyninə qoy. Hər dəfə adını deyəndə çiynini tərpət" deyir. Beləcə üç-dörd dəfə. Yenə fikirləşirəm. Yox, belə olmaz. Axı, İbrahim ölmək üçün yox, yaşamaq üçün yaşayırdı. Qəbrə də özü düşmədi. Qohumları güclə düşürtdülər. Qardaşı da çiyninə vurub-vurub yatızdırdı. Yuxuya gedən kimi də üzərinə yorğan örtdülər. Al qumaşdan, gül-çiçəkdən.

Bir anlıq fikrə getdim. Mənim qardaşım yox. Oğlum yox. Bəs mən öləndə qəbrə kim girəcək? Dözmədim. Ağladım. Yox, hönkürdüm. İbrahimə görə yox. Nə vaxtsa çiynimi sığallayıb məni yatızdıracaq qardaşımı itirdiyimə görə.

15 GÜN SONRA

“Mahir, ayıl. Özünə gəl. Yekə kişisən. Bu nədir? Ağlamağı yığışdır”.

Eldəniz Elgündür. Əlini çiynimə salaraq özünə sıxıb. Əliylə sol çiynimi ovuşdurur, başını başıma vurur. Özündən asılı olmayaraq bəzən yavaş, bəzən zərblə. Görəsən niyə belə edir? İbrahimlə mənim bu cür görüşməyimdən xəbəri varmı? Yox. Özü də başını başıma çox vurur. Bir, iki, beş, altı, on... Biz İbrahimlə görüşəndə bir dəfə toqquşdururduq. Bu lap sərhədi keçdi. Bəlkə İbrahimlə görüşmədiyim günlərin əvəzini çıxır? Ola bilər. Bəs bizim aramızda olan bu özəl salamlaşmanı hardan bilir? Həəə. Keçən dəfə demişdi axı. İbrahim burdadır. Bir mərifətli sağlıq de, “vuraq”. Bunu da o başa salıb yəqin.

Qardaşı İbrahimin çiynini sığallayıb həmişəlik yatızdırdı. Eldəniz isə çiynimi ovuşdurub yuxudan oyadır: “Bir bax. Uşaqlar tonqaldan hoppanırlar. Bayramdır. Nəvələri, qızları təbrik etmisən? Bu gün mənim qızım Leyluşun ad günüydü. Sabah da uşaqları şəhərə çıxaracağam...”.

Həyat davam edir. İbrahimin öldüyü gün dayandığı yerdən...

# AVTOŞLARA ŞAD XƏBƏR

Nədənsə çoxlu pul qazanmağım gəlib. Həvəsə düşmüşəm. Nəfsimi boğa bilmirəm. Qısa müddət ərzində varlanmaq istəyirəm. Yox, rüşvətli, "hörmət"li bir iş istəmirəm. Halallıqla milyoner olmaq istəyirəm. Artıq marketinq araşdırmalarına da başlamışam. Dövrü mətbuatı yaxından izləyirəm. Bir boş sahə axtarıram ki, burnumu soxum. Amma görürəm ki, heç bir burunluq da yer yoxdur. Hamısı tutulub. Ağzını da elə bərk-bərk tikiblər ki...

Bir qədər araşdırma apardıqdan sonra axır ki, tapdım. Qərara aldım ki, Zığ-Aeroport beton yolunun bir tərəfini, yəni ki, Aeroporta gedən hissəsini icarəyə götürüm. Özü də gecə saat 12-dən səhər saat 6-ya qədər. Artıq Bakı şəhər İcra Hakimiyyətinə təqdim etmək üçün Biznes-Plan da hazırlamışam.

Yazmışam ki, son illər respublikamızda yol hərəkəti qaydalarına riayət olunması sahəsində nə qədər ciddi işlər görülsə , cərimələr sərtləşdirilsə də insan ölümüylə nəticələnən qəzaların sayı artmaqdadır. Ona görə də mən humanist addım ataraq bu beton yolu icarəyə götürmək, hər iki sonluğunda şlaqbaum qoymaq istəyirəm. Qoy avtoşlar gəlsinlər, öz bahalı avtomobillərini və mühərriklərin güclərini nümayiş etdirsinlər. Giriş haqqı hər maşın üçün 200 manatdır. Trasa buraxılan hər bir kəs dilindən iltizam verməlidir ki, başına bir iş gəlsə, yəni ki, yaralansa, ya da Allah eləməmiş həlak olsa yolun rəhbərliyi məsuliyyət daşımır. Çünki bir də gördün bütün nəsli durub gəldi üstümə ki, bəs gül kimi tərbiyəli, qanacaqlı, abırlı uşağımız ölüb, başı da qızıldan. Deyəcəksiniz ki, belə

bir qanun yoxdur. Var. Necə olur ki, əməliyyata girən xəstənin özü, ya adamları əməliyyatdan sağ çıxmayacağı halda həkimin heç bir məsuliyyət daşımamasına qol çəkə bilir, maşını saatda 240-300 kilometr sürətlə sürməyə gələn, dirigözlü ölümə gedən aftoş yox. Trasın da adın qoyacağam "Cənnət yolu". Qoy cəlbedici olsun. "Cəhənnəm yolu" qoysam qorxub gəlməzlər, ona görə.

Trasda DYP, yanğınsöndürmə, fövqəladə hallar, təcili tibbi yardım, evakuator, molla, ölü maşını xidmətləri də fəaliyyət göstərəcəklər. Avtoşlar əvvəlcədən tibbi yoxlamadan keçəcəklər. Əgər içkili-hallıdırlarsa trasa buraxılacaqlar. Nəyə görə? Bunu da nəzərə almışam. Başlarına bir iş gəlsə ağlamağa yer olsun. Qohumları desin ki, ayıq olsaydı, belə qələt eləməzdi, dostları içirdib yoldan çıxarıblar yazıq uşağı.

Ötüşməyə çıxanlar girov olaraq xarici saatlarını, qızıl əşyalarını, maşınları əzilib şil-küt olarsa əzik maşınlarını yolun rəhbərliyinə təhvil verməkləri barədə müqavilə də imzalayacaqlar. Yolda əzdikləri işıq dirəyi və digər yol-mühəndis qurğularının əvəzi olaraq. Yox elə bilməyin ki, mən bu əşyaları və əzik maşınları zapçast edib sataraq əlavə gəlir götürmək fikrindəyəm. Əsla. Əksinə, Azərbaycanda analoqu olmayan "Qaramat muzey"i yaradacağam. Açıq hava altında əzik maşınlar muzeyi, qapalı bir yerdə isə qaqaşlardan qalan əşyaların nümayişi. Çünki saytlarda şəkillərə baxıb inanmayanlar gəlib burda hər şeyi gözləriylə görə bilərlər. Muzeyə giriş isə pullu olacaq.

İndi deyəcəksiniz ki, hər maşına 200 manat almaqla necə milyoner olmaq istəyirsən? Düz deyirsiniz. Ona görə də Biznes planda digər ekstremal insan növləri də nəzərdə tutulub.

"Cənnət yolu" MMC-də "MAHİRAZ" qumar oyunları təşkil ediləcək. Mərc qoşmaq istəyənlər burda toplaşa bilər və canlı yayımda ötüşməni seyr edə, həm də pul qazana bilərlər. Ümumi mərcin 20 faizi isə MMC-nin hesabına keçiriləcək. Mərcə ilk olaraq üç kateqoriya salınacaq: ötəcək, ötməyəcək, şil-küt olacaq.

Bizə özünü yandırmaq istəyənlər də müraciət edə bilər. Onlara xüsusi, müəyyən müddət oda davamlı paltar geyindiriləcək və sonra əllərinə iki litrlik fanta qablarında benzin veriləcək ki, özlərini yandırsınlar. Trenajora həmin adamdan xəbərsiz  ailə üzvləri də dəvət olunacaq. Bütün bu proses və ailə üzvlərinin reaksiyası, qışqırıq səsləri lentə alınıb SD diskdə ona təqdim ediləcək ki, baxandan sonra özü qərar versin. Özünü yandırmaq yaxşıdır, ya yox?

Avtoşlar  maşın sürərkən yola qəflətən yiyəsiz it-pişik, lap inək də buraxılacaq. Əlbəttə ki, xəstə mal-heyvan. Burda mən cəmiyyətə iki qat xeyir verəcəyəm. Birincisi  aftoşlar bu canlıları vurarkən dərk edəcəklər ki, maşını vəhşi kimi sürmək həm də  insanların da həyatına təhlükədir. İkinci tərəfdən isə küçələrdə boş-boş gəzən, quduzluq və digər xəstəliklər yaradan heyvanların sayı azalacaq. Bazarlarda isə kilosu 3-4 manata satılan mal əti qəhətə çıxacaq. Deyəcəksiniz ki, ekoloqlar, təbiəti qoruyanlar  bunun əleyhinə çıxarlar, imkan verməzlər. Onlar heç cınqırlarını da çıxarmayacaqlar. Danışsaydılar  labaratoriyalarda heyvanların üzərində aparılan dərman sınaqlarına qarşı çıxardılar da. Axı, bu  elədiyim də insanların gələcək sağlamlığı, təhlükəsizliyi üçündür. Bir də ki, belə canlı sevəndirlər gedib qara kürüləri bazar piştaxtalarından yoxa çıxartsınlar. Körpə nərə balıqlarının ovlanmasının və satışının qarşısını alsınlar. Nəhayət ağac kəsilmələr, qanunsuz ovçuların, brakonyerlərin sayını azaltsınlar. Cərimə kəsməklə yox e... əməli mübarizə.

İndi də deyəcəksiniz ki, niyə şəhərə yox, Aeroport istiqamətinə gedən yolu icarəyə götürürsən? Ona görə ki, humanist adamam. MMC-də aerokassa da fəaliyyət göstərəcək. Qəza törədərək yaralanan aftoşun və ya yanındakının həyatını nəyin bahasına xilas etmək  və  hətta xarici ölkələrin qabaqcıl tibb müəssilərinə çatdırmaq üçün aeroporta maneəsiz girişi təmin etmək məqsədiylə bu marşrut seçilib. Ona görə də “Cənnət yolu” MMC-yə  təşrif buyuranlardan əvvəlcədən xarici pasportlar da tələb olunacaq.

Sonra mən yaşadığım evin damını icarəyə götürəcəyəm. Dünya standartlarına uyğun elastik kəndirlər gətirib ora bərkidəcəyəm. Özünü damdan atıb öldürmək istəyənlər üçün treninqlər keçirəcəyəm. Kəndiri ayaqlarına bağlayıb 20-ci mərtəbədən buraxacağam üzüaşağı. İkinci mərtəbəyə çatanda kəndir dartılaraq yenidən onları 20-ci mərtəbəyə qaldıracaq. Görüm bundan sonra özlərini öldürmək fikrinə düşəcəklər, ya yox?

Son bəhanəniz. İndi də deyəcəksiniz ki, bəs ictimaiyyət sənin bu layihənə qarşı çıxacaq. Əsla. Əksinə. Əhalinin bütün təbəqələri, istər varlı olsun, istər kasıb, istər vəzifəli olsun, istər işsiz, hamısı mənə uğurlar arzulayacaqlar. Hətta maddi dəstək verənlər də olacaq. Vəzifəli, varlı sevinəcək ki, övladlarına görə daha onları işdən çıxarmayacaqlar, qəzetlərdə, saytlarda biabır etməyəcəklər. Axı, mənim "Cənnət yolum" dövlətin lisenziyası əsasında fəaliyyət göstərəcək. Avtoşların da hərəkəti tam qanuni hesab olunacaq. Buna görə valideynlər heç bir məsuliyyət daşımayacaqlar. Oğullarından da çox sevdikləri vəzifələrini itirmək qorxusuyla üz-üzə qalmayacaqlar. Əksinə, "gördünüz, dünən mənim oğlum X6-yla Bentlini ötdü", yaxud da "oğlum maşınıyla inəyə necə qoymadı... inək cırıq-cırıq oldu" deyə qürrələnəcəklər də. Kasıbların mənə verməyə bir şeyləri olmasa da təkcə duaları bəsimdir. Çünki xarici, bahalı maşınlara ağızlarının suyu axa-axa baxıb, onların altında qalaraq şil-küt olmaqdan qurtulacaqlar.

# O DÜNYADAN XALQ DİPLOMATLARINA MƏKTUB

Salam, xalq diplomatlarımız!

Hər dəfə xalq diplomatiyası sözünü eşidəndə sizi bilmirəm, burdakı ölülərin gülməyi gəlir. Yox, düzgün çıxmadı. Yaman yumşaq dedim. Xalq diplomatiyası sözü eşidəndə elə bil ki, atamızı söyürlər. Bax belə düzgün çıxar. Özü də bunu ermənilər yox, Bakının mərkəzində oturub, beynəlxalq təşkilatların çörəyini yeyənlər deyəndə özümüzə yer tapmırıq. Nə istəyirsiniz, ay xalq diplomatları! Azərbaycanlıların, Türklərin ürəklərindəki kinimi, küdurətimi silmək? Onu da sual edim: kimin yaratdığı kini, küdurəti? Biz Azərbaycanlıların, yoxsa ki, ermənilərin? Əlbəttə deyəcəksiniz ki, fərqi yoxdur, olan oldu, ötən ötdü. Nə fərqi var ki? Fərqi böyükdür. Bir misal deyim başa düşün. Lap müasir tərzdə.

"Xəzər Dəniz Gəmiçiliyi"nin rəis müavininin oğlu yol qəzası törədərək, yüksək sürətlə idarə etdiyi maşınıyla tarzən Ağasəlim Abdullayevin ailəsi olan maşını vuraraq xurd-xəşil edib. Sənətkarın həyat yoldaşı, nəvəsi ölüb, özü, gəlini, oğlu müxtəlif xəsarətlər alıb. Aftoş sürücünü də tutub basıblar dama. Atasını da işdən qovublar.

Gəlin tarzənin ürəyinə bir rəhm salaq, ona sizin xalq diplomatiyanızı aşılayaq. Yəni ki, o, durub getsin Mübariz Mədətovun qapısına ki, gəl barışaq. Olan olub, keçən keçib. Sonra polis, prokurorluq, məhkəmə oraqanlarına muracİət etsin ki, aftoş oğlunu bağışlayıram, həbsdən buraxın. Ən nəhayət, xalq diplomatiyasında görünməyən addım. Prezidentə ailəsinin

qalan üzvləri adından məktub ünvanlasın ki, bəs xahiş edirəm Mübariz Mədətovu vəzifəsinə bərpa edəsiniz. Gülüncdür, elə deyilmi? Bu xalq diplomatiyasıdırmı? Yox , burda Azərbaycan xalqına məxsus, onun xarakterinə uyğun bir diplomatiya görmürəm. Bu erməni-hay xalq diplomatiyasıdır.

Hörmətsiz Azərbaycanlı xalq diplomatları, erməni bizim qapımızı kəsdirib barışıq diləməkdən, yalvarıb üzr istəməkdən, sizə nə olub ki, Ermənistanın yolunu su yoluna çevirmisiniz? Belə çox istəyirsiniz gələcək nəsilləri? Elə bilirsiniz ki, xalq diplomatı olsanız başınıza tac qoyacaq ermənilər? Beynəlxalq təşkilatlar hesabınıza pul qoya bilər, amma taca inanmıram.

Qaranquş xalq diplomatlarından Polad Bülbüloğlu yadıma düşür. Qarabağda vertalyotdan düşüb öz doğma obasını gəzməyini əks etdirən kadrlar indi də gözümün qabağındadır. Bilirsinizmi ordakı ermənilərin gözündən nə oxuyurdum:

"Polad Bülbüloviç, atovun büstünü güllələyib, deşik-deşik edib göndərdik Bakıya. İndi nə istəyirsən? Gəlmisən sonuncu dəfə ata-baba yurduna baxmağa? Gəl bax. Beş dəqiqə vaxtın var. Qoca kişisən də. Sənə mojnadır. Bir ayağın burda, bir ayağın gorda. Necə olsa məşhur adamsan. Fəxri məcburi köçkün-qaçqın sayılırsan. O biri qaçqın bacı-qardaşların kimi o dünyaya ürəyi vətən nisgilli getmə. Axırıncı dəfə heç olmasa Şuşanı gör. Torpaq da götürə bilərsən. Öləndə qəbrinə səpərlər. Bir pinqvin kulyoku qədər. Artıq olmaz. Bizim bundan artıq Azərbaycanlılara veriləsi torpağımız yoxdur".

Həəəə, erməni-hay xalq diplomatlarımız, sizi nə gözləyir, bilmirəm. Mənə yox, heç olmasa həmcənnətlərim, o dövrün xalq diplomatları Mirzə Fətəli Axundovla Cəfər Cabbarlıya inanın. İndi də peşmandırlar əsərlərində məzlum erməni obrazını, Tuğ kəndini təsvir etməklərinə. Deyirlər ki, yaxşı şey olsaydı ermənilər xalq diplomatiyasının bariz nümunəsi olan, əsrlər boyu formalaşmış, daha dəqiq özlərinin formalaşdırdıqları xalq diplomatiyasının bayrağı, bayraqdarı Tuğ kəndini qoruyub saxlayardılar da. Niyə işğal etdilər? Niyə dağıtdılar?

Orda yaşayan ermənilərі də azərbaycanlı adıyla içimizə səpməkdən ötrümü?

Hörmətlsiz erməni-hay xalq diplomatlarımız, mən də sizlərdən biri olmaq istəyərdim. İndidən məram və məqsədi olan çıxışım da hazırdır. İstəyirsiniz sizə də oxuyum. Deməli, ermənilər Azərbaycan torpaqlarını azad edir, ordularını geri çəkirlər, ata-baba torpaqlarımızın adlarını özlərinə qaytarırlar, üzr istəyirlər beynəlxalq səviyyədə. Deyirlər ki, pox yemişik, qələt eləmişik və bundan sonra mən də sizə qoşuluram. Yox, hüquqi şəxs kimi yox, mənə qrant-mrant lazım deyil. Burda hər şey var, özü də havayı. Və başlayıram məqalə yazmağa, çıxış eləməyə ki, “mənim xalqım, ermənilər axır ki, öz taqsırlarını boyunlarına aldılar. Elədiklərini özlərinə yedirtdik. Özü də artıqlamasıyla. Peşmandırlar, özü də it kimi. Gəlin bir şans da verək. Yoxlayaq”. Bu sözümdən sonra bir-iki misal da gətirəcəyəm ki, inandırıcı olsun. Məsələn “faşistlər Dünya müharibəsində 60 milyon insanın qanına bais oldular, onda gərək heç kim “Mersedec”də, BMV-də, “Opel”də, “Volsfagen”də gəzməsin, ya da Almaniyaya müalicəyə getməsin” və sair, ilaxır.

Bax buna deyərəm xalq diplomatiyası. Yoxsa ki, sizin yolunuz birtərəflidir. Düşmən erməni topuyla-tüfəngiylə qulağımızın dibində, siz isə başlamısınız erməni-hay xalq diplomatiyasına.

Xalq diplomatlarımız, bilmirəm şəhər uşağısınız, ya kənd, amma danışdıqlarınızdan başa düşürəm ki, qorodskoysunuz. Kənd uşağı olsaydınız belə şey eləməzdiniz. Ona görə də sizin ermənilərlə birgə fəaliyyətinizin gələcək uğurlarıyla bağlı bir test təklif etmək istəyirəm. Xərcini oğlum Mahirə deyərəm, o çəkər. Ermənistanda olanda gedərsiniz bir kəndə. Bir tövlə istəyərsiniz. Mahirin sizə verdiyi pula bir ton darı alarsınız. Darı, yəni ki, “pşeno”. Bir ton darını tökərsiniz tövlənin küncünə. Sonra erməni kəndlisindən bir donuz istəyərsiniz. Donuzu buraxarsınız tövləyə. Yazıq heyvan yemi görən kimi daraşacaq darıya. Siz də erməni həmkarlarınıza deyərsiniz ki,

gəlin indi də "kış-kış" edək, donuzu darıdan çıxaraq. Onlar da sizinlə birgə başlayarlar kış-kış etməyə. Əgər bu kış-kışla donuz darıdan çıxsa ermənilərlə əməkdaşlığı davam etdirin. Mən də, bütün Cənnət-məkan da sizin arxanızdayıq. Əgər donuz kış-kışla darıdan çıxmasa ver-veşinizi yığışdırıb, suyunuz süzülə-süzülə qayıdın geriyə.

Bunu gözünüzlə görməsəniz, bilirəm ki, ağıllanmayacaqsınız. Nə ermənilər kış-kış diplomatiyası ilə torpaqlarımızdan çıxacaq, nə də ki, ürəklərindəki kini kökündən təmizləyəcəklər. Biz azərbaycanlılara isə xalq diplomatiyası lazım deyil. Ürəyimizdə nə kin var, nə də küdurət ki, silib təmizləyəsiniz. Sadəcə düşmənimiz var. Darıya daraşan düşmənimiz.

Qabil, Axirət respublikası,
Cənnət şəhəri, aprel 2014.

# RADİO VƏ DEPUTAT

Salam. Gəlin tanış olaq. Mən radioyam. Adım da VEF-dir. Sovet dövründə buraxıblar məni. Zavodun verdiyi pasporta görə altı dənə batareyayla işləməliyəm. Qocalmağıma baxmayaraq hələ sazam. Dalğaları qəbul edə bilirəm. Amma bir gün məlum oldu ki, məni qidalandıran batareyalardan daha istehsal etmirlər. Sovet dövrü bitib. İndi müstəqillikdir. Buna da əlac tapdılar.

Qoymadılar öləm. Xüsusi qurğu düzəldib qoşdular birbaşa cərəyana. Düzdür daha məni qırağa çıxara bilmirlər. Elə otaqdaca qulaq asırlar. Cərəyandan ayırsalar sönə bilərəm axı. Beləcə oxuyuram. Bəd-bəd xəbərlər verirəm. Yaxşı xəbərlər versəm qulaq asmazlar axı. Ona görə də gündəmdə qalmaq istəyirəm. Amma görürəm ki, nə vaxtsa mənim də sonum gələcək. Yeni radiolar çıxıb. Həm radiodur, həm MP-3-dür, həm kompakt kasset yeri var, həm flyaşla işləyir. Ən əsası isə səsucaldanı güclüdür. Nə qoysan bərkdən danışır. Özü də bütün dalğaları tutur. Məndən fərqli olaraq pultu var. Uzaqdan idarə olunur. Düyməciyi basırlar ki, oxu! – oxuyur. Yox, başqa kanal oxusun – o da oxuyur. Bezəndə, disk oxusun – həmən oxumağa başlayır. Kasset, yaxud da flyaşa keçsin. Problem yoxdur, bunu da bacarır. Lap zəmanə adamları kimi. Adı radiodur, amma yüz cəbhəyə işləyir. Mən isə heç nə bacarmıram. Bircə radioluqdan başqa. Yox səhv etdim. Axı, mən təkcə radio deyiləm. Nə olsun ki, adıma radio deyirlər. Əsl adım radioqəbuledicidir. Lazımi dalğanı tuta bilsən xariclə əlaqə yaratmaq olar. Onda bütün müasir aparaturalardan irəli olarsan. Adın radio olar, özün isə zatən radioqəbuledici. Heç kim də bilməz.

Yox, deyəsən bundan da xəbər tutublar. Aaaa, deyəsən cərəyandan ayırmağa da çalışırlar. Bəs onda taleyim necə olacaq? Səsim necə çıxacaq? Eybi yox qoy söndürsünlər. Heç olmasa ehtiyat hissəsi kimi istifadə edərlər. Ölsəm də dalğası olan, amma daxili ölən digər radioqəbulediciləri yaşadaram. İndi deyəcəksiniz ki, radio ola-ola bunu hardan öyrənmişəm? Güldürməyin məni. Necə yəni hardan? Bəzi deputatlarımızdan. Hələ ölməyiblər, ölməyə də hazırlaşmırlar, amma indidən orqanlarını vəsiyyət ediblər. Mənim onlardan nəyim əskikdir ki?

# QIĞILCIM...OCAQ...ŞÖLƏLƏR...

1976-cı ildə, 10 yaşım olanda atam əlimdən tutub məni indi Konstiusiya Məhkəməsinin yerləşdiyi binaya - Siyasi Maarif Evinə gətirdi. Qapıda mənim içəri girməyimə etiraz etdilər. Onda atam "mən də gəlmirəm" deyib, mənim də içəri buraxılmağımı təkid etdi. Siyasi Maarif Evinin direktoru Vəli Məmmədovun məsələyə müdaxiləsindən sonra məni də zala buraxdılar. Demə, həmin gün Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev altı laureatdan biri olan şair Qabilə Azərbaycan SSR Dövlət Mükafatının diplomunu və medalını təqdim edəcəkmiş. Təsəvvür edin də... partiya və hökumət nümayəndələrinin toplaşdığı zala 10 yaşlı uşağın buraxılması nə demək idi. Əgər mənə görə atamı geri qaytarsaydılar bu, artıq səs-küy demək idi. İlk dəfə mən Heydər Əliyevi yaxından orada gördüm.

Amma tanışlığım bununla bitmədi. Demək olar ki, hər gün bu böyük insanın fəaliyyətiylə yaxından tanış olurdum. Yox, elə bilməyin ki, dövrü mətbuatı oxuyurdum. Yox. Balacaydım hələ. Atam görkəmli ziyalı, yaşadığım əhatə Yazıçılar, Bəstəkarlar, Alimlər binaları olduğuna görə çox şeyləri başa düşməsəm də onlara qulaq asıb yadımda saxlayırdım. Əlbəttə ki, o vaxt "uşaq böyüklərin söhbətinə qulaq asmaz" iradını dəfələrlə eşitsəm belə. Amma indi fikirləşirəm ki, axı böyüklər nə danışırdı ki? Yaddaşımı varaqlayıram:

"Heydər Əliyev çox enerjili adamdır. Bütün sahələrə eyni dərəcədə maraq və qayğı göstərir. Kabinetində oturmur.

Görülən işlərlə yerində tanış olur. İşlərində nöqsan tutsa, yerindəcə cəzalandırır. Yaxşıları göyə qaldırır".

"Pambıq və üzümçülükdə rekord nəticələr əldə etməyi qarşısına məqsəd qoyub. Buna uyğun olaraq şərabçılıq da paralel inkişaf edir. İnsanların həyat-güzəranı yaxşılaşır. Kəndə gedirsən adamın ürəyi açılır. Hər qapıda ən azı bir maşın dayanır. Hər məhsul bayramında fərqlənənlərə "Volqa", "Jiquli" avtomobilləri bağışlayır".

"Dünən cənub bölgəsinə gedirdim. Şıxovu keçəndən sonra Dərin Özüllər zavodu yaradıb. Nəsə həngamə bir şeyə oxşayır. Beləsin hələ görməmişdim"

"Deyirlər ki, yaponlar Kondisioner zavodunu başqa yerdə tikəcəkmişlər. Amma Heydər Əliyev Brejnevi inandırıb – bizdə gəlib tikiblər. Gör inkişafımıza nə qədər dəstəkdir e..."

"Zarafat deyil...Yeni Əhmədli, Yeni Günəşli, Hövsan qəsəbələrini salıb. Hamısında da əhalinin sayına görə uşaq bağçaları, orta məktəblər, poçt, milis bölmələri, poliklinikalar. Hələ yeni mikrorayonlardakı Leninqrad, Kiyev layihəli evlərin tikintisini demirəm. Əvvəllər belə şeylər vardı? Bu kişi gələndən sonra yaratmağa başlayıb. Necə çatdırır bütün bunları? Möcüzədir, vallah!".

"Süleyman Rəhimov, Mirzə İbrahimov, Süleyman Rüstəm, Rəsul Rza, Fikrət Əmirov, Qara Qarayev, Rəşid Behbudov, Niyazi, Tahir Salahov Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldülər. Hamısı da SSRİ-nin deputatlarıdır. Kişi belə sənətkarları qiymətləndirdikcə, ucaltdıqca, özü onlardan da yüksəyə qalxır".

"Xəbəriniz oldumu? SSRİ Xalq artisti Zeynəb Xanlarova BMT-nin iclas salonunda konsert verib. Dünya üzrə yeganə oxuyandır ki, bu şərəfə layiq görülüb. Özü də Azərbaycanlı. İki yüz faiz Heydər Əliyevin dəstəyi olub. Yoxsa...".

"Monumental heykəltaraşlığımız gör necə inkişaf edir? Halal olsun! Bakı artıq heykəllər şəhəri sayılır".

"Bakıya axır ki, Lenin ordeni də verdirdi. "Qəhrəman Şəhər" statusuna layiq idik. Neynək. 35 ildən sonra Heydər

Əliyev buna nail ola bildisə, böyük şeydir. Görəsən Bakı neft verməsəydi, sovet tankları necə yeriyəcəkdi faşistlərinin üstünə, təyyarəsi necə uçacaqdı?"

"Lenin adına saray, Gülüstan sarayı, Qonaq evi, İdman-konsert kompleksi, Abşeron, Təzə İnturist, Moskva mehmanxanaları, Mərkəzi Komitənin, Milli Məclisin, Mərkəzi Poçtamtın, Əmanət bankın yeni binaları... Hansını deyəsən, saymaqla qurtarası deyil. Hamısı da özünəməxsus memarlıq abidələri. Bakı, Azərbaycan gör necə gözəlləşir?"

"Xəbərin var neyləyib də Heydər Əliyev. Dövlət mükafatına namizədlər irəli sürülmüşdü axı? Qabillə Bəxtiyar Vahabzadə - ikisi də siyahıda varmış. İkisi də şair. Yəni ki, qanuna görə mükafatı ikisindən biri almalıymış. Xüsusi olaraq Moskvaya, "Qosplan"a məktub yazıb. Onlar üçün xüsusi olaraq əlavə iki yer də alıb. Sevir də sənətkarları. Heç kim bacarmazdı bunu".

"Abbas Zamanovun Akademiyadakı çıxışından sonra bilirsən də nələr oldu. Düzdür, partiyadan çıxartdılar... Amma Naxçıvanda da bir dənə erməni qalmadı..."

Mən böyüklərin bu sözlərinə qulaq asırdım. Hamısı da ziyalı, sözün düzünü deyən, sözü üzə deyən insanlar idi. Hətta Mərkəzi Komitənin birinci katibi Heydər Əliyevlə görüşdə fikirlərini açıq deməkdən belə çəkinmirdilər. Böyük rəhbər də onların hər sözünə diqqətlə qulaq asar, hətta şıltaqlıqlarıyla da oynayardı.

Mənim uşaqlıqda həyətdə oynayarkən eşitdiklərimi, sonralar yetkin bir insan kimi gördüklərimi, oxuduqlarımı qələmə alsam, bəlkə də cild-cild kitablar alınar. Necə ki, belə kitablar artıq yazılıb və tarixin yeni səhifələri üzə çıxdıqca yazılır da.

Tarixə böyük bir ekskurs etmək istəməzdim. Lakin bir məqamı nəzərinizə çatdırmağı vacib bilirəm. Heydər Əliyev 1982-ci ildə Moskvaya getdi. Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini seçildi. İki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü. Sağlığında ikən doğulduğu şəhərdə - Naxçıvanda büstü ucaldıldı. Amma bir gözü xalqımızın, respublikamızın üzərindəydi.

1987-ci ildə isə vəzifəsindən istefa verdi. Xalqın təkidli tələbiylə yenidən hakimiyyətə isə bundan altı il sonra – 1993-cü ildə qayıtdı. İnandırım sizi ki, Azərbaycan onun qoyub getdiyi elə həmin Azərbaycan idi. Bu altı il ərzində respublikada altı rəhbər dəyişmişdi. Amma bir daşı da daş üstünə qoymamışdılar. Əksinə, Heydər Əliyevin qurduqlarını dağıtmışdılar. İkinci dəfə hakimiyyətə gəldiyi on ildə Heydər Əliyev hansı işlər gördü, onun davamçısı Prezident İlham Əliyev hansı işlər görür hamısı göz qabağındadır.

Amma 2004-cü ildə Azərbaycanın ictimai-siyasi həyatına daha bir ad əlavə olundu – Heydər Əliyev Fondu və onun rəhbəri Mehriban xanım Əliyeva.

## FOND

"Fond" sözü Azərbaycan lüğətində yeni söz deyil. Sovet vaxtı bu sözü müxtəlif rakurslarda eşidirdim. Məsələn: "Filmotekamızın Qızıl fondundan..." yaxud da "filan bədii film kinomuzun Qızıl fonduna daxil edilmişdir". Yazıçılar İttifaqında "Ədəbiyyat fondu" fəaliyyət göstərirdi. Akademiyada "Əlyazmalar fondu" var. "Fond" sözü səslənəndə sanki muzey, arxiv, qədimilik gəlib dayanırdı göz önündə.

Müstəqillik illərində dövlət səviyyəsində Neft fondu yaradılmışdı. Lakin 2004-cü ildə Heydər Əliyev Fondunun yaradılması Azərbaycanda böyük bir hadisə oldu. Əmin idim ki, artıq bu fond zəngindir. Heydər Əliyevin ömrü boyu Azərbaycan üçün gördüyü işləri, foto-arxivləri, sənədləri, video-materialları, yazılan cild-cild kitabları bir yerə toplasaq zəngin bir salnamə yaratmaq olar. Amma fondun ancaq muzey, arxiv rolunu oynayacağı zənnimdə yanılmışdım. Axı Heydər Əliyevin arzuları böyük idi. Həyatda olmasa belə onun əməlləri davam etdirilməli, ideyaları həyata keçirilməliydi. Mehriban xanım Əliyevanın üzərinə isə iki qat məsuliyyət düşürdü. Birinci Heydər Əliyevin adını yaşatmaq, ikincisi isə fondun adını yüksəklərə qaldırmaq.

Dünyada fondlar çoxdur, müxtəlifdir. Bəzən böyük, müdrik şəxsiyyətlər həyatdan köçəndən sonra onların varidatları bir yerə toplanaraq xüsusi fondlar yaradılır. Bunlar müxtəlif təmayüllü olur. Məsələn ən çox tanıdığımız Nobel fondu artıq neçə onilliklərdir ki, elmin inkişafına öz töhfəsini verir. Böyük Britaniyada, Kanada, ABŞ və digər dövlətlərdə isə fondlar yalnız xeyriyyəçilik fəaliyyəti göstərirlər.

Amma dünyanın heç bir fondu Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətiylə müqayisə oluna bilməz.

## RUHUN ZƏNGİNLİYİ

Birindən soruşanda ki, toy mərasimini necə başa düşürsən? Deyir ki, iki gəncin ailə həyatı qurması, yemək-içmək məclisi, kəbinkəsmə mərasimi. Amma musiqini nədənsə yaddan çıxarırlar. Görəsən musiqi olmasa o toyun nə ləzzəti? Stolun üstündəki yeməklərdən dadıb, bir azdan doyursan. Amma toyun sonunadək musiqiyə qulaq asmaqdan, rəqs etməkdən insan doymur. Çünki ruh həzz aldıqcada zənginləşir.

Belə bir deyim var. İnsan hər gün səhər yuxudan durduqda "bu gün hardan ailəmə bir tikə çörək qazanım, gətirim" yox, hansısa yenilik etmək barədə düşünməlidir. Hər bir yenilik də öz arxasıyca maddi-mənəvi zənginlik gətirir. Heydər Əliyev Fondunun fəaliyyətinə nəzər yetirdikcə mən bu misalın doğruluğuna inanıram.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu nə edir?

– Yeni uşaq bağçaları, məktəblər inşa etdirir. Savadlı, bilikli gələcəyimizin yetişməsi və Azərbaycana xidmət etməsi üçün.

– Elm mərkəzləri, ocaqları yaradır ki, elmli gənclərimiz yetişsin və Azərbaycanın inkişafına öz töhfələrini versinlər.

– Yeni səhiyyə ocaqları, mərkəzlər yaradır, mütəmadi qanvermə aksiyaları keçirir ki, insanlarımız sağlam olsun, irsi, sağalmaz xəstəliklərə düçar olanlar özlərini tənha, köməksiz hiss etməsinlər.

– Beynəlxalq konfranslar, sərgilər, festivallar təşkil edir ki, Azərbaycan mədəniyyətini dünyaya daha yaxından tanıtsın, sevdirsin.

– Yeni idman qurğuları, meydançaları tikdirir ki, idmançı gənclərimiz meydana çıxsın, Azərbaycan bayrağı böyük idman arenalarında dalğalansın, himnimizin sədaları gəlsin.

– Azərbaycanda İKT-nin inkişafına xüsusi diqqət ayırır ki, hətta gözdən əlillər, fiziki qüsuru olan insanlar da bu proqramlardan bəhrələnib, müasir həyatdan, inkişafdan geri qalmasınlar.

– Ekologiyamızın saflığı uğrunda çalışır. Yürüşlər, həftəliklər, iməcliklər, ağacəkmə kampaniyaları keçirir.

– Azərbaycanla bağlı müxtəlif dillərdə kitablar, jurnallar, disklər çap etdirib dünyanın müxtəlif kitabxanalarına hədiyyə edir.

Bir sözlə, Azərbaycan üçün çalışır, bütün dünyada Azərbaycanın təbliğatıyla məşğuldur.

## QIĞILCIM

9 yaşım olanda atam məni Leninqrada gəzməyə aparmışdı. Ermitaj, Petropavlovsk, "Avrora" kreyseri, Smolnı, muzeylər və sairə, ilaxır. Getdiyimiz yerlərdən biri də "İskra" qəzetinin redaksiyası idi. Rus dilini yaxşı bilmirdim. Atam tərcümə etdi. "İskra", yəni ki, "Qığılcım". Sonra başa düşdüm ki, qığılcım həyatda əsas şeymiş. Ulu əcdadlarımız qığılcımdan od alıblar. Amma əsas qığılcım yox, ondan yaranan odu, ocağı qoruyub saxlamaq, sönməyə qoymamaqdır.

Heydər Əliyev də XX əsrin son otuz ili və XXI əsrin əvvəllərində Azərbaycanın həyatına bir qığılcım kimi daxil oldu. Böyük bir Azərbaycan ailəsinin başçısı kimi ocağını yandırdı. İnsanlar da bu ocağın ətrafına toplaşdılar. Sonra isə İlham Əliyev bir Prezident və Mehriban xanım Əliyeva isə Heydər Əliyev Fondunun rəhbəri kimi bu ocağa sahib durdular. Əməlləriylə, işləriylə bu alov daha da gur yanmağa, dünyaya

işıq saçmağa başladı. İndi isə bu ocağın, alovun şölələri bütün dünyaya yayılmağa başlayıb. Təkcə Heydər Əliyev Fondunun xarici ölkələrdə yüzdən çox tərəfdaşı var. Əməkdaşlıq sferası isə çox genişdir. Artıq Fond bir çox dövlətdə nəcib xeyriyyəçilik əməllərini həyata keçirir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın Rusiya Federasiyası miqyasında apardığı işlər isə xüsusilə təqdirəlayiqdir. Həştərxan şəhərində olarkən Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə salınmış uşaq şəhərciyində, Knyaz Vladimirə ucaldılmış abidənin önündə, Azərbaycan-Rusiya Dostluq körpüsündə, Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət vaxtı və adını daşıyan məktəbdə olarkən bir azərbaycanlı kimi böyük fəxr hissi keçirtdim. Bu təkcə mənim bir şəhərdə - Həştərxanda gördüklərimdir. Amma bu cür işlər Rusiyanın digər şəhərlərində böyük vüsətlə həyata keçirilir. Leyla xanım Əliyevanın bu fəaliyyəti Rusiyanın müxtəlif orden və mükafatlarıyla yüksək qiymətləndirilir.

Leyla Əliyevanın təşəbbüsü ilə artıq dörd ildir ki, davam edən "Xocalıya ədalət" beynəlxalq təbliğat-təşviqat kampaniyası isə Xocalı həqiqətlərinin dünyaya çatdırılması, bu faciənin Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi tanınması üçün həyata keçirilən məqsədyönlü fəaliyyət istiqamətlərindən biridir.

## ÜMİD SONDA ÖLÜR

"İnsanın əli hər yerdən üzüləndə saman çöpündən belə yapışar". "İnsanın əli yananda barmaqlarını ağzına təpər". Misallar çoxdur.

Azərbaycanın ucqar dağ rayonu Yardımlıdaydım. O vaxt AzTV-nin "Xəbərlər" proqramında çalışırdım. Qohumlardan biri yaxınlaşdı ki, "bəs uşağım anadangəlmə paralicdir, yataq xəstəsidir. Əvvəllər balacaydı, qucağıma götürüb həyətə çıxarıb, gəzdirə bilirdim. İndi isə böyüyüb – gücüm çatmır. Əlil arabasına ehtiyac var, almağa isə maddi imkanım çatmır.

Məktub yazmışam Heydər Əliyev Fonduna ki, mümkünsə yardım eləsinlər. Çatdır məktubumu Mehriban xanıma. Ümidim onadır".

Məktubu aldım. Amma necə çatdıracağımı bilmirdim. Ananın ümidini də qırmaq istəmədim. Bakıya qayıdandan sonra poçta girib zərfə qoydum. Ünvanı yazıb ananın adından Heydər Əliyev Fonduna göndərdim. Üstündən bir həftə keçməmiş Fondun iki işçisi uzaq dağ kəndi Yardımlıya gedərək xəstə uşağa baş çəkiblər və əlil arabasıyla təmin ediblər.

Bir də gördüm ki, telefonuma zəng gəldi. Yardımlıdakı qohumumuz idi. Sevinirdi. "Allah Mehriban xanım Əliyevanın canını sağ eləsin, ömrün uzun eləsin, ərini, balalarını saxlasın!". İndi bu əhvalatı yadıma salıb öz-özümə fikirləşirəm. Görəsən Mehriban xanım Əliyeva son on ildə nə qədər belə dua, savab qazanıb. Deyə bilmərəm. Çünki açıqlanmır. Heydər Əliyev Fondu, onun rəhbəri Mehriban xanım Əliyeva "Sağ əlin verdiyini sol əl bilməz" prinsipiylə yaşayır və bu xeyirxahlıq missiyasını davam etdirir.

# FƏXRİ AD, MÜKAFAT, TƏQAÜD VƏ ORDEN

"Rəsul Rza Fondu"nun sədri, xalq şairi Fikrət Qocanın Modern.az-a verdiyi kiçik bir məlumatı oxuyuram. Xəyalım məni uşaqlığa, yaxın keçmişə aparır. Bu xatırlatmamda bəzi jurnalistlərimizə irad da var, Fikrət Qocanın daha geniş açıqlamalarına ehtiyac da. İndi isə növbəylə.

MÜKAFAT

İlk dəfə mən mükafatı 10 yaşında görmüşəm. Atam "Nəsimi" poemasına görə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdü. Məbləği də 2500 rubl idi. Nişanı isə təmiz qızıldan. Bir də diplomu vardı.

HAŞİYƏ: Atama mükafat təqdim olunmamış "yumaq" məsələsi önə keçdi. Yəni ki, qərar çıxmağına, laureat olmasına baxmayaraq nə diplom, nə döş nişanı, nə də pul verilmişdi. Atam isə zamanı qabaqlayıb "Köhnə İnturist"də böyük ziyafət sifariş vermişdi. Qiyməti də hardasa 600 rubl edirdi. Pul isə yox idi. Bütün "narodnı"lar, məşhurlar hamısı dəvət olunmuşdu. Atam sevincək evə qayıtdı.

- Bəyim, Salamla (qonşumuz Salam Qədirzadə) getdik dükana. Ziyafət üçün qəşəng "bejevı" rəngdə kostyum aldıq.

- Pulu hardan tapdın?

- Salamdan borc istədim, verdi.

- Nə əcəb?

Salam əmi az da olsa xəsisliyi ilə ad çıxarmışdı. Əslində indi başa düşürəm ki, xəsis deyilmiş. İndiki zəmanədə kim kimə borc verir ki? Bata bilər yox. Batır. Bir də ki, o dövrdə xalq şairi Məmməd Rahimdən başqa heç kim həvəslə borca pul vermirdi. Anamın "nə əcəb?" sualından atam fikrə getdi.

- Düz deyirsən e, Bəyim, elə-belə vaxtda borc istəsən güclə verərdi. İndi nə az nə çox düz 600 rubl istədim ziyafət üçün, o saat da çıxarıb verdi. Tərəddüd etmədən. Üstəlik dedi ki, təzə kostyum da almalısan. Qabağa düşdü, getdik dükana, kostyumu da özü bəyəndi. Pulun da ödədi.

Ortaya sükut çökdü. Atam dərin fikrə getdi. Üstündən bir az keçmiş:

- Tapdım. Salam axı yaxşı bilir ki, mükafat almışam. Məbləği də 2500 rubldır. Ona görə də borcu ürəklə verib. (SON)

Atamın respublika miqayasında ən yüksək mükafata layiq görülməsi mənim bu sahəyə marağımı artırdı. Atam izah etdi ki, bu mükafatdan bir pillə yüksəyi SSRİ Dövlət Mükafatıdır. Məbləği 5000 rubl. Rəsul Rza, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə bu mükafata layiq görülüblər. SSRİ-də ən yüksək mükafat isə "Lenin mükafatı"dır. 7500 rubl (əgər uşaq yaddaşım aldatmırsa). Yadıma gələni Nəbi Xəzrini bu mükafata təqdim etmişdilər. Amma ala bilmədi. Bundan da böyüyü Nobel mükafatı idi ki, Şoloxov, Soljinitsin bu adı daşıyırdılar. Ən aşağısı isə Lenin Komsomolu mükafatı sayılırdı. İlk pillə olmasına baxmayaraq onun da müəyyən, o dövr üçün kifayət qədər yüksək mükafat fondu vardı. Ona görə də mükafat deyəndə pul gəlib dayanardı göz önündə.

## FƏXRİ AD

Sovet dövrü (elə indi də) yazıçılıqda iki fəxri ad vardı. Birinci mərhələ Əməkdar İncəsənət xadimi, sonda isə "Xalq şairi" və "Xalq yazıçısı" fəxri adları. Atam "Əməkdar incəsənət xadimi" alanda, pul vermədilər. Amma bu fəxri ad

maddi vəziyyətimizə müsbət təsirini göstərdi. Yəni ki, şeirin 1 misrasına verilən qonarar artdı. Səhv etmirəmsə 1 rubl 75 qəpik oldu. Soruşdum ki, xalq şairi alsan neçə olacaq? Dedi ki, bir misra 2 rubla bərabər olacaq. Düzdür atam xalq şairi oldu. Amma müstəqillik dövrünə düşdüyündən qonorarlar artıq ləğv olunmuşdu. Xalq şairi və ya xalq yazıçısı alanın son mənzili də əvvəldən məlum idi. Sovet vaxtı bu yalnız 1-ci Fəxri Xiyaban idi. Müstəqillik illərində isə həm 1-ci, həm də 2-ci Fəxri xiyaban onları ağuşuna almağa başladı. Müstəqilliyin sonrakı illərində "əməkdar"lığa və "xalq" titullarına görə məbləğlər də təyin edildi.

Sovet dövründə Böyük Vətən Müharibəsi iştirakçıları isə qonarardan tutulan verginin yarısından, əlilləri isə vergidən tam azad idilər. Bu baxımdan Salam Qədirzadə, Hüseyn Abbaszadə, İsmayıl Şıxlı, Bayram Bayramov xoşbəxt yazıçılardan sayılırdılar.

## ORDEN

Atam iki ordenlə təltif olunub. Prezident Heydər Əliyevin vaxtında 70 illik yubileyi münasibətilə "Şöhrət", Prezident İlham Əliyevin sərəncamıyla "İstiqlal" ordenləriylə. Bu ordenlər hər adama verilmir. Xüsusilə də "İstiqlal". Əgər "İstiqlal" ordeni alıbsa, deməli seçilmişlərdəndir. Xalqımız qarşısında xüsusi yox, böyük xidmətləri olub. Atam bu sırada 50-ci idi . Və bu ordenlərə görə hər hansı pul mükafatı verilmir.

HAŞİYƏ:

- Mahir, "Xəbərlər"də dedilər ki, "bir qrup şəxs respublikamızın ali dövlət mükafatı – "Şöhrət" ordeninə layiq görülüb". Belə çıxır ki, indi ordenə də pul verirlər? – deyə atam soruşdu.
- Yox.
- Bəs onda niyə ordenə ali dövlət mükafatı deyir jurnalist?
- Çünki savadsızdır. (SON)

LAUREAT… LAYİQ… TƏLTİF…

İndi müstəqil respublikamızda layiqli insanlar müxtəlif adlara, mükafatlara, orden-medallara layiq görülürlər. Amma təqdimatlar müxtəlifdir. Amma belə olmalıdır.

Mükafata təqdim olunurlar. Sonda komissiya üzvləri səs versə alır. Mükafat alan insan "Laureat" adlanır.

Fəxri ada layiq görülürlər. Adının qabağına bir "Ad" da əlavə olunur.

Orden-medallarla təltif olunurlar. Olursan orden-medallı. Sovet vaxtı "Kovaler ordenov" yaraşdırması da vardı.

PREZİDENT TƏQAÜDÜ

Atam Prezident təqaüdü alan ilk 10 nəfərdən biri idi. İllər keçdi. Bu təqaüdün məbləği də artdı, layiq görülənlərin sayı da. İndi səhv etmirəmsə 1000 manatdır. Bu təqaüd ömürlükdür. Loru dildə desək, öldün, qurtardı. Yəni ki, öləndən sonra arvadı, həddi-buluğa çatmayan uşağı varsa ona bu təqaüd verilmir.

HAŞİYƏ: Atam öləndə anam yataq xəstəsiydi. Paralic idi. Qohum-əqraba soruşdu ki, görəsən prezident təqaüdünü Bəyim xalaya verərlər bundan sonra? Dedim ki, "bilmirəm. Axırıncı məbləği mən alacağam. Orda soruşaram". Nazirliyə gedəndə maraqlandım. Dedilər ki, "ömürlükdür, yəni ki, öldüyün günə qədər. Həyat yoldaşına, həddi-buluğa çatmayan uşağına verilmir".

Öz-özümə şükür etdim. Yaxşı ki, biz varıq. Dolanışığımız da var. Yoxsa yazıq arvada kim baxacaqdı. Təqaüdü də 60 manat. Sonra fikirləşdim. Birdən tənha olaydı. Onda necə olacaqdı? Təqaüdə görə bəlkə kimsə yiyə durardı. Otaqdan çıxmağa hazırlaşırdım ki, nazirlik işçisi məni saxladı.

- Mahir müəllim, adi dövlət idarəsində işləyən, adi dövlət qulluqçusu (onu da qeyd edim ki, bir çox sürücü də dövlət

qulluqçusu sayılır, xadiməni hələ demirəm) ölsə, təqaüdünü arvadına verirlər. Amma xalqımız qarşısında bu boyda xidmətləri olan insanlar vəfat etdikdən sonra təqaüdləri dayandırılır. Həyat yoldaşlarına verilmir. (SON)

Gözəl məntiq idi. Həm də məntiqsizlik. Yəqin ki şərhə ehtiyac yoxdur.

MÜKAFAT

Qayıdaq mükafatlara. Kim mükafata layiq görülürsə diplomla yanaşı, ona müəyyən məbləğ də verilməlidir. Məbləğ o mükafatın səviyyəsini təyin edir. Məsələn, Nobel mükafatının səviyyəsini milyonlar müəyyənləşdirir. Milyonlarla mükafat fondu olmasa, görəsən "Nobel"in hörməti olarmı? Ədəbi sahədə çoxlu mükafatlarımız mövcuddur.

Hörmətli xalq şairimiz Fikrət Qoca Yazıçılar Birliyinin 1-ci katibi olmaqla yanaşı, həm də Rəsul Rza Fondunun sədridir. Uzun illərdir ki, tanınmış, görkəmli yazıçılara bu fondun mükafatı təqdim olunur. Görəsən "Rəsul Rza mükafatı", "İlyas Əfəndiyev mükafatı" və digər ədiblərimizin adını daşıyan ədəbi mükafatların fondu nə qədərdir? Adlarına mükafat təsis olunmasını başa düşürəm. Sevinirəm. Layiqdirlər. Bəs görəsən mükafatın məbləği həmin böyük şəxsiyyətlərin adına layiqdirmi? Yoxsa ki, əsas pul deyil, əsas addır deyib xırda məbləğlə qənaətlənirlər?

Atam da Rəsul Rza mükafatı laureatı idi. Aldığı məbləği də bilirdim. 100 dollar. O vaxt üçün böyük pul idi. Amma o zamandan çox keçib. Görəsən indi necədir? Təntənəli surətdə təqdim olunan ədəbi mükafatların məbləği görəsən o qədər azdır ki, geniş ictimaiyyətə açıqlanmır? Bəlkə də Mükafatın adı ilə məbləği arasında uçurum çox böyükdür, ona görə. Axundovu demirəm, neçə-neçə yüksək təltif, mükafat görən Rəsul Rza və İlyas Əfəndiyev sağ olsaydılar bu mükafatın məbləğindən fərəhlənərdilərmi, yoxsa?

# ELMİRA AXUNDOVAYLA VAQİF MUSTAFAYEVİN SƏHVİ

Azərbaycanın Dövlət Mükafatı laureatı. Hər dəfə kimisə belə təqdim edəndə uzaq 1974 və 1976-cı illər yadıma düşür. Niyə iki tarix yazdım? Çünki atam şair Qabilin üç kitabdan ibarət "Nəsimi" poemasını o dövrdə iki dəfə bu mükafata təqdim etmişdilər. Birinci dəfədən ala bilməsə də, ikinci cəhdi uğurlu alınmışdı. Atam və ailəmiz üçün bu əlamətdar hadisəylə bağlı müxtəlif xatirələrim var.

Bu günlərdə atamın dostu, qələm yoldaşı və ən nəhayət qonşumuz Elmira Axundovanın "Heydər Əliyev. Şəxsiyyət və zaman" roman-tədqqiqat çoxcildliyinin Dövlət Mükafatına təqdim olunması xəbərini eşidəndə 1976-cı ildən yatıb qalan xatirələrdən biri yadıma düşdü.

Elmira Axundovanın bu əsəri müxtəlif idarə və təşkilatlarda geniş müzakirə olunur və bu çoxcildliyin mükafata layiq olduğu xüsusi vurğulanır. Mən də bu fikirdəyəm. Əminəm ki, sonda mükafat komissiyasının üzvləri də bu qənaətə gəlib, çoxlarının gözlədiyi və gözlədiyim qərarı çıxaracaqlar. Amma bu çoxcildliklə bağlı kiçik bir iradım var. Onu deməyə bilmərəm. Yəqin müəllif də mənimlə razılaşar.

1976-cı il

O dövr Azərbaycan SSR Dövlət Mükafatına müxtəlif bədii əsərlər, bədii film, müsiqi, heykəltaraşlıq, rəssamlıq nümunələri təqdim olunmuşdu. O cümlədən də atamın üç

kitabdan ibarət "Nəsimi" poeması. Son etapda bütün əsərlər o vaxt Mərkəzi Komitənin 1-ci katibi Heydər Əliyevə təqdim olunur. O atamın üç kitabdan ibarət "Nəsimi" poemasını əlinə götürərək rusca bunları deyir: "Eto je ne poema, a tselaya biblioteka" ( "Bu ki, poema deyil, böyük kitabxanadır"). Nəticədə əsər mükafata layiq görülür. Sonralar isə 13 min misradan ibarət bu əsəri poema yox, mənzum roman adlandırmağa başlayırlar. Deməli həm dövlət tərəfindən qiymətin alır, həm də adı məzmununa, möhtəşəmliyinə uyğunlaşdırılır. Belə bir fikir yarana bilər ki, "nə fərqi var, əsas məzmun, poetika, bədiilikdir ki, Qabil də bunu yaradıb, öhdəsindən gəlib. Ad texniki məsələdir". Razı deyiləm bu fikirlə.

VAQİF MUSTAFAYEV

Bu insana yaradıcı bir şəxs kimi böyük hörmətim var. Qismət olub cəmi iki ay yarım "Speys"in rəhbəri kimi də tanımışam. Yaradıcılığında bədii filmlər öz yerində, çəkdiyi sənədli filmlər toplusuna rəğbətim çox böyükdür. Hədsizdir desəm yanılmaram. Televiziya sədri kimi fəaliyyətini qeyd etmək istəməzdim. Çünki nə Azərbaycan, nə rus, nə də türk kanallarını izləyirəm. Yox, elə bilməyin ki, tənqidi fikirlərimi ortaya qoyacağam. Əsla. Lap belə fikirlərim olsaydı da yazmazdım. Çünki özüm AzTV-nin "şineli"ndən çıxmışam. Düzgün alınmaz.

Səbəb reklam və anonslardır. Bir verilişə düz-əməlli axıracan baxa bilmirsən. Mənim fikrimcə, lap qanunları, iqtisadi maraqları bir tərəfə qoyaq, bu cür iş üslubu ən birinci tamaşaçıya qarşı hörmətsizlikdir. Veriliş zamanı addımbaşı anonslar isə əlavə əsəb gərginliyi. Ona görə də üstünlüyü əsas kino və təbiət aləmini göstərən və kinonun, ya verilişin ortasına reklam soxmayan xarici kanallara verirəm.

Mayın 10-da əlimdə pult adəti üzrə kanalları sayırdım. "Space" kanalında sevdiyim sənədli filmlə rastlaşdım. Vaqif Mustafayevin Heydər Əliyev haqqında çəkdiyi sənədli

filmlərlə. Birinə baxdım. Bitdi. Dərhal o biri başladı. O da bitdi. Digəri başladı. Hamısı da biri o birindən maraqlı. Sanki ilk dəfə idi ki, baxırdım. Səhv etmirəmsə on sənədli film. Sənətşünas deyiləm. Amma adı sənədli filmdir. Yəqin ki, bu adı bu filmlərə Vaqif Mustafayev özü verib. Bununla da böyük yanlışlıq edib. Vaqif müəllim, sizin çəkdiyiniz bu inikal əsərlərin bircə adı var: KİNOEPOPEYA

ELMİRA AXUNDOVA

Onun xüsusi təqdimata ehtiyacı yoxdur. Nasir, publisist, tərcüməçi, ədəbiyyatşünas, ictimai-siyasi xadim. Mən onu ilk dəfə SSRİ-nin mərkəzi mətbuat orqanlarından olan "Literaturnaya qazeta"nın müxbiri kimi tanımışam. Amma son illər məhsuldar və səmərəli ədəbi fəaliyyəti diqqətimi xüsusilə cəlb edir. Cild-cild romanlarını, tərcümələrini, ədəbi-bədii fikirlərini bir tərəfə qoyuram. Söhbət Heydər Əliyevin şəxsiyyətini özündə əks etdirən "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildliyindən gedir. Çoxcildlik, yəni ki, Azərbaycan və rus dillərində 14 qalın kitab. Üzümü Elmira xanıma tutub demək istəyirəm. 14 kitab və içində böyük Heydər Əliyevin böyük şəxsiyyəti. Şəxsən mənim bu əsərə roman-tədqiqat, yaxud da çoxcildlik deməyə dilim gəlmir. Belə desəm yanlışlığa yol verərəm. Bu Epopeyadır. Azərbaycanın ədəbiyyat tarixində yaradılan ən böyük EPOPEYA.

SON

Hər bir yaradıcı insan nəsə yaradanda özü onu qiymətləndirmək iqtidarında deyil. Əsərə tarix və onu oxuyan, görən insanlar daha layiqli qiymət verir. Atam Qabil İmadəddin Nəsimi haqqında əsər yazmışdı. Adını poema qoymuşdu. Heydər Əliyev bu əsəri "tselaya biblioteka" adlandırdı. Vaxt keçdi xiridarlar onu mənzum roman adlandırmağa başladılar.

Vaqif Mustafayev müxtəlif illər ərzində Heydər Əliyev haqqında sənədli filmlər çəkmişdi. Hamısının da məzmunu müxtəlif. Adını da sənədli film qoymuşdu. Amma müxtəlif illərdə çəkilən müxtəlif məzmunlu 10 filmə bu gün bir-birinin ardınca baxanda sənədli film formatından çıxır. Kinoepopeyaya çevrilir.

Elmira xanım Axundova da qısa müddət ərzində bu böyüklükdə iş görüb. Adını da roman qoyub. Amma bir insanın, özü də Heydər Əliyev kimi şəxsiyyətin həyatını, şəxsiyyətini tanımaq, öyrənmək, bilmək baxımından bu kitablar məncə artıq roman çərçivəsindən çıxıb. Mükafata layiq bir epopeyaya çevrilib.

# BİZİM "XALQ QƏZETİ"

Az.TV-nin "Xəbərlər" proqramında 11 il işləmək, sonra isə ordan ayrılıb, "Xalq qəzeti"nə işə qəbul olunmaq bilirsinizmi nə deməkdir? Jurnalist həmkarlarım bunu yaxşı bilir. Digər sənət sahibləri üçün aydın olsun deyə, belə bir misal çəkmək istəyirəm. Təsəvvür edin toydur. Qonaqlar gəlir, gedir. Təamlar, mahnılar, rəqslər bir-birini əvəz edir. Vur-çatlasındır. Və ən nəhayət toyun sonu. Sakitçilik hökm sürür. Ortaya tort və dondurma gəlir. AzTV qaynar qazan idisə, "Xalq qəzeti" bənzətməylə desəm mənim üçün tort və dondurma idi. Elə bil ki, kurorta düşmüşdüm. Televiziyadakı kimi dəhlizdə ora-bura qaçan yox. İş günü bir stəkan, yox səhv etdim iki-üç stəkan çay içməsəydin başlanmazdı. Bütün günü sakitçilik olardı. Saat 12-də görürdün ki, planlaşdırmadır. Redaksiya heyəti yığışır. Yox belə düzgün alınmır. Çox bəsit dedim. Redaksiyamızın, ümumilikdə Azərbaycan Jurnalistikasının ağır artilleriyası dəhlizin o başından görsənməyə başlayır. Ağır-ağır addımlar, zəhmli baxışlar, hərəsinin də qoltuğunda bloknot, arasında da qələm. Onlar belə görmüşdülər. Onları belə öyrətmişdilər. Onlar da bu məktəbi davam etdirirdilər.

Həyatları boyu həm məcazi, həm də hərfi mənada kağız-qələm əllərindən əskik olmamışdı. Mən də bu dəm baş redaktorun otağından çıxıb, divara söykənər, sanki bu ağır artilleriyanın keçidini qəbul edərdim. Bəzən dilimi dinc qoymurdum. 63 yaş pensiya həddi olmasına işarə edib, lap çox ərkim çatanlardan yaşlarını soruşardım. Xoşlarına gəlmirdi, amma danışmırdılar. Əyri-əyri süzürdülər. "Bu uşaq-muşağı

belə ciddi qəzetə niyə işə götürürlər?", "Redkollegiyanın üzvüdür, o boyda informasiya şöbəsi buna tapşırılıb, heç iclasa da girmir", "Baş redaktor olsaydım nə qovardım bunu işdən", "Heç əməlli-başlı işə də gəlmir, redaktor niyə bunu işdə saxlayır" deməklərini gözlərindən oxuyurdum. Bircə Tahir Aydınoğlunun baxışlarında qəzəb yox idi. Çünki AzTV-nin şinelindən çıxmışdı. Məni başa düşürdü. Bilirdi ki, dilim deyir, ürəyim təmizdir.

Bu qocaman jurnalistlərimizi əvvəllər tanımırdım. Əlbəttə ki, bu mənim günahım idi. Sonra başladım otaqları yavaş-yavaş gəzməyə. Onları daha yaxından öyrənməyə. 1996-cı ildən tanıdığım baş redaktorum Həsən Həsənovdan sonra texniki direktor İbrahim Ömərovu tanıdım. Redaksiyaya ekskursda o da yaxın bələdçim oldu. O kimdir, bu kimdir, keçmişdə kim olub. Sovet dövründə raykomları, nazirləri qorxu altında saxlayan, qələmlərinin bircə işarəsiylə onları kreslolarını laxladan jurnalist həmkarlarım idi bunlar. Qocalmışdılar. Nuraniydilər. Azərbaycanda on rəhbər görmüşdülər. "Kommunist"dən "Xalq qəzeti"çisinəcən uzun yol keçmişdilər. Hələ də davam edirdilər. Gücləri-qüvvətləri həmin idi. Səhər saat 9-da artıq işlərinin başındaydılar. İşə gecikməyə görə Həsən müəllimin layiq gördüyü töhmətçilər sırasında bir dəfə də adlarına rast gəlmədim. Nə vaxt da otağa girsəydim nəsə yazardılar. Kompüterdə yox, qələmlə, kağızla. Buna öyrəşmişdilər. Həmişə də əlimə baxırdılar. Yox, məcazi mənada demirəm, əsli mənada qəbul edin. Əlimə baxıb, başlarını bulayar, köks ötürərdilər. Sonra başa düşdüm ki, nə demək istəyirlərmiş.

"Mahir, sənin qələmin yoxdur?". Demək istədikləri bu imiş. Demə bu insanlar redaksiyada çalışanlara xasiyyətinə görə yox, birinci qələminə görə qiymət verirlərmiş.

Sonralar başa düşdüm ki, qocaman jurnalistlərimiz təkcə redaksiya işləriylə məşğul deyillərmiş. Bir çoxu ali məktəbdə dərs deyirmiş, bəziləri paralel olaraq elmi fəaliyyətləriylə məşğul imiş, bəzisi kitab yazırmış, kitab redaktə edənləri də var idi. Necə deyərlər bu jurnalistlərimiz qələmləriylə təkcə

yazmırlarmış, torpağı belləyib, toxum səpib, alınlarının təriylə sulayıb, məhsul yetişdirib ailələrinə çörək aparırlarmış. Halal çörək. Deyəcəksiniz ki, bunlar necə jurnalistdirlər ki, heç vəzifəli, pullu dostları da yoxdur? Var, yaxşı dostları var, amma bunlar sponsor yox, dostdurlar.

Sonra idman jurnalistikasının flaqmanı Oqtay Bayramovun zədə alıb işə çıxmamasından yararlanıb, başladım futbol üzrə dünya çempionatının oyunlarıyla bağlı balaca məqalələr yazmağa. Bir müddətdən sonra "Atam Qabilin maraqlı əhvalatları" kitabım çapdan çıxdı. Və ən nəhayət günlərin bir günü kollektivdən ayrıldım. Rəsmi ayrıldım. Amma əlaqələrimi kəsmirəm. Gedirəm, hal-əhval tuturam. Ara-sıra çıxan bədii-publisistik yazılarımı oxuduqlarını, bəyəndiklərini deyirlər. Haqlı iradlarını da bildirirlər. İndi başa düşmüşəm ki, qocaman jurnalistlərimizin ürəyində bir qram da paxıllıq yoxmuş. Xoşlarına gəlmişəm və bunu gizlətmirlər. Əyri-əyri də süzmürlər. Mənim işdən çıxmağıma da peşman deyirlər. Əksinə "yaxşı ki, getdin, yoxsa qələmi əlinə almayacaqdın" deyirlər. Burda Xəlil Rza Ulutürkün bir sözü yadıma düşür – "Layiq olum".

Bizim "Xalq qəzeti" belə qəzetdir. Çox təriflədim deyəsən. Bəziləriniz ironiyayla deyəcəksiniz ki, "bəsdir də... göz dəyər". Amma 95 ildir ki, fasiləsiz çıxan qəzetimiz həqiqətən də tərifə layiqdir. Çünki köhnə ənələrini yaşadır. 95 ildir ki, dövlətin sayıq keşikçisi, təbliğatçısıdır. Bu yolu tutub, bu yolla da gedir və bu yolla da gedəcək.

Gözünüzün önündə kərpicdən tikilmiş bir bina təsəvvür edin. Bu binanın aşağı hissələrində bir kərpici qoparıb götürün. Çox biədəb görsənəcək, elə deyilmi? Ümumi ansambla xələl gətirəcək. Baş redaktor Həsən Həsənov da bu qəzetin 95 illik ənənəsini yaşadır. Yaşlı nəslə hörmətlə yanaşır. Özləri gəlib işdən çıxmaq barədə ərizə yazsalar da bir müddət dərkənar qoymur, gözləyir. "Birdən darıxar, geri qayıtmaq istəyər" deyərək. Qocaman jurnalistimiz Telman Heydərov da bu günlərdə xəstə olmağını bəhanə edərək işdən uzaqlaşdı. Niyə

"bəhanə edərək" dedim? Çünki o gün küçədə rastlaşdıq. Maşallah, məndən də qıvraq idi. O gün isə oxudum ki, 75 yaşı tamam olur. Keçmiş iş yoldaşım Qalib Arif kimi qələmi əlimə almağa qərar verdim. Sonra gördüm ki, təkcə Telman Heydərovu təbrik etsəm inciyəcək. Axı, bu il onun 50 il külüng çaldığı "Xalq qəzeti"nin də 95 yaşı tamam olur. Üstə gəl bu qəzetin sükanı arxasında duran, irəli aparan Həsən Həsənov da 60 yaşını haqlayır. Necə deyərlər yubiley yubileyə qarışıb, bayram bayrama. Ona görə də hamınızı təbrik edirəm, mənim köhnə və müasir həmkarlarım! Telman Heydərov, 75, Həsən Həsənov, 60 yaşın mübarək! Ömrümün dörd ili olan "Xalq Qəzeti", sənin də 95-ini təbrik edirəm. Təkcə səni yox, bütün kollektivi, bütün kollektivimizi.

# HEYDƏR ƏLİYEVİN ÇÖRƏYİNİN DUZU

QISA XATIRLAMA

Prezidentin fərdi təqaüdü 10 noyabr 1997-ci ildə Prezident Heydər Əliyev tərəfindən təsis edilib. İlk vaxtlarda bu təqaüdün məbləği səhv etmirəmsə o vaxtın pulu ilə 1 milyon manat idi. Xalq dilində desək "100 şirvan", dollarla desək hardasa 200 dollardan çox, müasir dildə səsləndirsək 250 manat. Mənim AzTV-dəki 4 "şirvanlıq" maaşımla, 100 dolların dördbaş ailənin bir aylıq bazarlığını görməsiylə müqayisə etsək, çox böyük məbləğ idi. İndi isə prezidentin fərdi təqaüdü 1000 manatdır. Rəsmi məlumatım bu qədər. Amma prezidentin fərdi təqaüdü ilə bağlı xatirələrim də var. Həm atam, həm də digərləriylə bağlı. Yazmağa qərar verdim.

Bu xatirələr 1997-2003-ci illəri əhatə edir. Etika xatirinə yox, sadəcə yazıda gedən insanların bu gün sağ qalan övladlarının acığına gəlməsin deyə, ad çəkməyəcəyəm. Bir də ki, məqsədim ad çəkmək yox, prezident təqaüdünün duzunu, bərəkətini verməkdir. Bu pulun bir vaxtlar maliyyə məngənəsində boğulan yaradıcı, məşhur insanlara nə qədər əl tutmasını göstərməkdir. Təkcə onlara yox, ailələrinin digər üzvlərinə, hətta pişiklərə də...

"BEŞ ŞİRVAN"

- Qabil, təqaüdü gətirdilər?
- Hə, Bəyim.

- "Beş şirvanı" ayır.

Atam Qabillə anam arasında ayda bir dəfə baş verən bu söhbət bəlkə də bədii əsər mövzusudur. Mən isə bunu balaca bir yazıya salmaqla kiçildirəm. "100 şirvan" təqaüdü evə gətirən kimi, anam atamın başının üstünü alardı. Pulun üstündən "beş şirvan" (mənim o vaxt bir aylıq maaşımdan çox) götürüb tez dükana girər. Xırdlayar - o dövrün diliylə desək - "məmməd" - 1000 manatlıq edərdi. Sonra isə marşrut bəlli idi.

- Qabil, gəldim.

- Hə, danış.

Atam da anamı bu mövzuda danışdırmaqdan zövq alırdı.

- Getdim birinci pulu xırdaladım. Qalxdım Təzəpirə. Orda qapıda oturublar kasıb-kusublar – yaxınlaşdım onlara. Hamısını tanıyıram. Birinin oğlu türmədədir. Biri şikəstdir. O birinin uşağı xəstədir... Başladılar dua eləməyə. "Allah ömür versin, can sağlığı, allah balanı saxlasın". Puldan bir hissəsini onlara verdim.

- Ay Bəyim, hamısını onlara verib gələydin də.

- Yox. Bəs o birilər? Ordan düşdüm Qasım İsmayılov küçəsindəki kilsəyə. Rus dilənçilər dayanıb qapıda. Onlara da verdim.

- Nə dedilər?

- Dedilər ki, "Day boq vam zdorovye". Sonra...

- Nə "sonra"? Qurtarmadı pul?

- Yox. Ordan getdim "Göy məscid"ə. Orda küçədə dayanan dilənçilərə də pul payladım, gəldim.

- Hə. Lap yaxşı. Duaları köməyimiz olsun. Pulumuz dava-dərmana, həkimə getməsin. Bəs pişiklər?

- Hə. Girdim dükana sosiska aldım 1 kilo, həyətə girməyimi görmüşdüm qaçdılar üstümə. Verdim yedilər.

- Nahaq tək vermisən, gərək məni də çağıraydın. Sosiskanı bir yerdə verərdik.

- Yarısını saxlamışam, düşəndə özün verərsən.

- Yaxşı ki, pişikləri yaddan çıxarmamısan. Yoxsa "öldürəcəkdim" səni. Qoy ayda bir dəfə keyf eləsinlər. Nə vaxtacan

artıq-urtuq, köhnəlmiş yemək yeyəcəklər? Öz payımı sabah verərəm, bu gün artıq toxdular. Qoy iki gün dalbadal keyf eləsinlər.

- Gələn təqaüddə birdən unudaram, yaddan çıxarma ha "5 şirvanı". O saat ayır.

- Yox, yaddan çıxarmaram. Allah Heydərin canın sağ eləsin. Ömrü uzun olsun.

- Amin.

- Bəyim, mən gedirəm.

- Hara?

- "Kiev" kafesinə. Təqaüd almışam. Şuriklərə (5-6 nəfər yaxın ətrafı, dostları) qonaqlıq verməliyəm.

"QORXUR Kİ, ÖLLƏM. PREZİDENT TƏQAÜDÜ…"

Günlərin bir günü Az.TV-nin başqa redaksiyasının yaradıcı heyəti tanınmış şəxslərdən birinin evinə müsahibə almağa gedir. Təxəllüsü "D" olan bu görkəmli adam sağlığında qiymətini almış, Heydər Əliyevin də böyük hörmət bəslədiyi, "İstiqlal" ordenli insanlardan idi.

Çayxanada oturmuşduq. Qonşu stolda oturan həmkarlardan biri mənə tərəf çevrilərək:

- Mahir, "D"nın ailəsini tanıyırsan?

- Yox. Özünü tanıyıram. Səhv etmirəmsə bir qızı olmalıdır. Nə olub ki?

- Heç. Müsahibə almağa getmişdik. Məəttəl qaldıq.

- Qeyri-adi bir şey dedi ki?

- Yox e... Üç ay bundan qabaq da getmişdik. Qapının zəngin basdıq. Açan olmadı. Bir də düyməni basdıq. Gözlədik. Handan-hana bu 75 yaşında xəstə arvad gəlib qapını açdı. Dedik ki, yəqin evdə təkdir. Üzrxahlıq elədik ki, "bəs əziyyət verdik sizə də". Birdən o biri otağın qapısından qızı başını çıxardı. O da "qızım, AzTV-dən qonaqlarımız var, çay gətir" deyəndə qapını elə çırpdı ki, az qaldı ki, qorxumuzdan qaçaq. Arvad da yaman pərt oldu. Dinməzcə qaldı. Bu gün isə getmişik.

Zəngi basan kimi qapını qızı açdı, "Salam. Xoş gəlmisiz. Ana, Az.TV-dən gəliblər səni çəkməyə. Keçin, keçin içəri. Anam böyük otaqdadır" deyərək içəri dəvət etdi. Tez getdi çay gətirdi. Bizim yanımızda anasını qucaqlayıb "qurban olaram e sənə" deyib, maç da elədi. "D" isə dinməzcə oturmuşdu. Biz də məəttəl-məəttəl baxırdıq. Keçən dəfə qapını çırpmaq nə idi, indiki isti münasibət nə. "D" bu sualı gözlərimizdən oxudu: "Ay bala, fikir verməyin. Allah ömrünü uzun eləsin - Prezident Heydər Əliyev mənə bir milyon manat təqaüd kəsib. Evdə hörmətim qalxıb. Bu da mənə yaxşı qulluq göstərir. Qorxur ki, ölləm, prezident təqaüdü də kəsilər".

M.A.

"Xəbərlər"də belə bir qayda-qanun vardı. Prezident sərəncamına ictimaiyyətin reaksiyası, yəni ki, müsahibələr. İlk belə rəyi beş nəfərdən alırdıq. Xalq şairi Qabil, xalq yazıçısı Hüseyn Abbaszadə, xalq şairi Bəxtiyar Vahabzadə, akademik Kamal Talıbzadə, akademik Bəkir Nəbiyev. Atdığı addıma bu beş nəfərin reaksiyası Heydər Əliyev üçün əsas idi. Sıralamanı təsadüfən belə vermədim. Çünki tanınmış adamlardan müsahibəni mən alırdım. Birinci gəlirdim Hüsü Hacıyev 19-a.

Qalxırdım 4-cü mərtəbədəki mənzilimizə. Atamın fikirlərini alırdım. Sonra düşürdüm 3-cü mərtəbəyə - Hüseyn Abbaszadə rəyini bildirirdi. Sonra həyətə çıxıb giridim 2-ci bloka. Qalxırdım 5-ci mərtəbəyə - Bəxtiyar Vahabzadəgilə, nəhayət üç mərtəbə aşağı enib Kamal Talıbzadəgilin qapısını döyürdüm. Bəkir Nəbiyevin evi Az.TV-nin yanında olduğundan ora əsasən Ərsalan Əliyev gedirdi.

Prezident təqaüdü veriləndə isə rəy formatını minnətdarlıq formasına dəyişdik. Onda mən yaradıcı, görkəmli simalarımızı daha yaxından tanımağa başladım. Xüsusən də şəxsi həyatlarını. Və bir daha Heydər Əliyevin prezident təqaüdü təsis etməklə bağlı qərarını yüksək qiymətləndirməyə başladım. Təkcə atamın bu təqaüdü almasına görə yox.

Təqaüd alanlar sırasında "M.A."-nın da adı vardı. Ev telefonunu güclə tapdım. Zəng elədim. Dedi ki, gəl mikrorayona, "Pioner" kinoteatrının qabağına. Qabağınıza çıxacağam. Gəldik. 85-dən yuxarı yaşı olmasına baxmayaraq qıvraq idi. Ordan həyətarası piyada iki yüz metr gəldik "xruşşovka" binanın yanına. Birinci mərtəbədə qalırdı. Yarıqaranlıq mənzil idi. Tez çay gətizdirdi. Mikrafonu qoşduq. Məqsədim ancaq minnətdarlıq sözlərini almaq idi. Amma çaşıb sualı başqa cür verdim:

- "M" müəllim, prezidentin fərdi təqaüdçüsü olmanız xəbərini harda eşitdiniz?

- Ay bala, soruşma. Dünən az qalmışdı ki, ürəyim partlaya öləm. Teatrda tamaşadaydım. Tamaşa qurtardı. Çıxdım mindim 57 saylı avtobusa gəldim evə. "Pioner"in qabağına çatanda gördüm ki, bu soyuq havada gəlinim əyni nazik, başıaçıq kinoteatrın qabağında o yan-bu yana var-gəl edir. Məni görcək həyəcanla, qaça-qaça cumdu üstümə. Qucaqlayıb, başladı ağlamağa. Ayaqlarım elə bil qırıldı. Dedim ki, yəqin nəsə bədbəxt hadisə baş verib. Handan-hana deyir ki, bəs "ata, sənə Prezident təqaüdü veriblər - 2 milyon 500 min manat. Saat 8-də "Xəbərlər"də verdilər. Teatra da zəng eləmədim. Bildim ki, tamaşadasan. Sevincimdən evdə də otura bilmədim. 2 saat yarımdır səni burda gözləyirəm". Ay bala, Allah prezidentimiz Heydər Əliyevə uzun ömür versin, cansağlığı versin. Bizim bu yaşımızda ailədə hörmətimizi qaldırdığına görə.

Əlbəttə ki, "Xəbərlər"də "M.A."- nın bu fikirləri getmədi. Hamısını "qayçıladım", bircə minnətdarlıq yerindən başqa.

## "BOMJ"UN SUPERMARKETDƏ NƏ İŞİ?

Torqovıda, köhnə "Dinamo"mağazasının yerində, o dövrün yeganə və xodgedən dükanı -"Ramstore" açılmışdı. Malların qiymətində fərq böyük idi. "Fanta" bayırda 2 min idisə, orda 4 minə satılırdı. Yaxşı Türkiyə istehsalı olan pivələri də vardı. Günlərin bir günü pivə könlümə düşdü. Girdim "Ramstor"a.

İki dənəsini götürüb kassaya yaxınlaşmaq istəyirdim ki, bir qarı nənə diqqətimi cəlb etdi. Biz o vaxt belələrinə "rus babuşkası" deyirdik. Amma geyimi çox köhnə idi. Yay vaxtı olmağına baxmayaraq, əynində tünd boz rəngdə əsgər şinelinə oxşayan uzun jaket, ayağında valenki fason ayaqqabı, başında rəngi solmuş şal örpək. Əlindəsə "Koka-kola", Moskvanın bahalı "Servelat" kolbasası, vetçina, cürbəcür konservalar, qara çörək. Məəttəl qaldım. Görəsən "bomj"u bu cür dükana necə buraxıblar? Və ya "bomj"dursa, onun bu dükanda nə işi? Yaxud da "bomj"dursa, bəs bu bahalı malları hansı pulla alır? Bu dəm o da qarış-qarış addım ataraq kassaya yaxınlaşırdı. Yanından keçəndə üzünə baxdım. O da mənə baxıb gülümsədi. Sanki balaca uşaq atası aldığı oyuncağı həmyaşıdına göstərib acıq verirmiş kimi - hər iki əlində tutduğu malları aşağı-yuxarı oynadaraq mənə göstərməyə başladı. Onu tanıdım. 83 yaşlı qadının gözlərindən sevinc yağırdı. Çox xoşbəxt görünürdü. Həmin an böyük rus oftolmoloqu Fyodrovun sözləri yadıma düşdü: "Xoşbəxt o şəxsdir ki, dükana girə, ürəyi istəyəni götürə və qiymət soruşmayaraq ala".

Bu qadın görkəmli teatr ustası, iki ay idi ki, prezident təqaüdünə layiq görülən, 2000-ci ildə isə "İstiqlal" ordeniylə təltif edilən kimsəsiz "V.Ş." idi. İmkanlı adamların girdiyi dükandan alış-veriş edirdi. Necə ki, yaxın keçmişdə belə etmişdi. O həyatı ona yenidən qaytarmışdı Heydər Əliyev. Hə, gözlərindən bunu da oxudum. "Allah, Heydər Əliyevə uzun ömür versin".

## PREZİDENT TƏQAÜDÜ ONUN ÖVLADIDIR

Növbəti prezident təqaüdçüsünü mən şəxsən tanımıram. Şeirlərini də oxumamışam. Amma bir təsadüf məni onunla qiyabi tanış etdi.

Həkim olan tanışlardan biri danışmışdı haqqında: "Günlərin bir günü tanış şəfqət bacısı zəng elədi ki, xəstə var. Evdə baxmaq lazımdır. Şairə "X". Evinə getdim. Qocalmışdı.

Yataqdan qalxa bilmirdi. Şəfqət bacısı da hər gün gəlir, başa çıxır. Dərmanların alıb gətirir, iynələrini vururmuş. Mən də yoxladım. Öz sahəmə aid xəstəliyi çıxmadı . Sadəcə əzələ ağrısı idi. Çıxanda şəfqət bacısı cibimə pul basmaq istədi. Götürmədim. Amma kimsəsiz, 90-a yaxın yaşı olan qadının kim olması, şəfqət bacısının qohumu olmaya-olmaya niyə bu qədər canfəşanlıq etməsi sualına cavab tapmaq istəyirdim. Soruşdum. Dedi ki, "bu xanım şairədir. Oğul-uşağı da xaricdədir. Prezidentin fərdi təqaüdçüsüdür. Mənə pul verir. Mən də nə lazımdır alıb gətirirəm. Qulluq edirəm. Hər gün də prezidentimizə dua eləyir".

Həkimin bu sözləri məni yaman tutdu. Hətta uşaqlarının unutduğu bu xanımı Heydər Əliyev yada salmışdı. Ona fərdi təqaüd kəsmişdi. Bu təqaüd isə bu yaşında ona doğma uşaqlarını, nəvələrini əvəz etmişdi.

## TƏQAÜDÇÜLƏRİN DƏ XƏSİSİ OLUR

President Heydər Əliyevlə görüşlərin birində şair Qabil dostu - F.S. adlı tanınmış şairin fərdi təqaüdə namizədliyini irəli sürür. Prezidentimiz də bu xahişi müsbət cavablandırır. Üstündən iki ay keçir. Amma F.S. təqaüdün qonaqlığını vermir ki, vermir. Sətiraltı xatırlatmağa ehtiyac olduğunu görən Qabil digər dostların yanında:

- F.S., təqaüdü aldın?
- Qabil, Allah sənə uzun ömür versin. Prezident Heydər Əliyev sağ olsun, amma elə bil ki, sən verdin mənə bu təqaüdü.
- F.S., soruşuram ki, bu ayın təqaüdünü gedib kassadan aldın?
- Heç kim deməzdi bunu prezidentə. Bunun yerinə öz xahişini edərdi. Ancaq sən etdin bunu.
- F.S., bu ayın təqaüdün almısan, ya yox?
- Evdə də uşaqlar duaçıdırlar sənə. Hər gün səndən razılıq edirlər.
- F.S., sənə sual verirəm ki, bu ayın təqaüdün aldın, ya yox?

- Aldım, Qabil. Dünən aldım.
- Belə de də. Dedim, bəlkə almamısan, yadına salım ki, get al.

"KÖPƏYOĞLUDUR BİR GÜN DƏ AZ.TV-DƏ QALSAM"

Fərdi təqaüdə layiq görülənlər arsında televiziyamızın da qocaman xadimləri vardı. Amma özlərini bu ada layiq bilən, amma yaddan çıxanlar da az deyildi. Bunu gizlətmirdilər də...

- Ay Mahir, prezident mənə fərdi təqaüd versin a... köp-pəyoğludur bir gün də Az.TV-də qalsam. Həmin gün ərizəmi yazıb çıxacağam. Gedib nəvələrimlə oynayacağam.

Vaxt keçdi. Həmin adamlar da (M.A., S.Ə.) bu təqaüdə layiq görüldülər. Amma işdən çıxmadılar. Təqaüd əks təsir göstər-mişdi. Cavanlaşmışdılar elə bil. Əvvəlkindən iki qat artıq ça-lışırdılar. 75-80 yaşları olmasına baxmayaraq indi də çalışırlar.

SON

Bu mənim Prezidentin Fərdi təqaüdü - Prezident Heydər Əliyevin kəsdiyi fərdi təqaüdlərlə bağlı qısa xatirələrim idi. Bu təqaüdlər artıq 17 ildir ki, verilir. Allahın əmriylə yaşlı in-sanların dünyası dəyişdikcə, dövlət başçısı İlham Əliyevin sərəncamıyla təqaüdçülərin siyahısı da yenilənir. Vaxt keçdik-cə, bu təqaüdçülərin sayı da artırılır. Onların çoxunu tanıyırıq. Şəxsi həyatlarına bələd olmasaq da, bircə şeyi dəqiq bilirəm. Açıq deməsələr də, heç yanda yazmasalar da, bu sözləri hər gün təkrar edirlər: "Allah Heydərə rəhmət eləsin, İlhama uzun ömür versin". Ailə üzvləri də onlara qoşulurlar: "Amin".

# BAŞ NAZİRDƏN KİTABXANAÇI TƏYİNATI

Bəlkə də bu, müstəqil Azərbaycanın tarixində yeganə, təkrarolunmaz hadisədir. İnanılmazdır desəm yanılmaram. Bu hadisənin bəzi iştirakçıları sağdırlar. İnanmasanız onlardan da soruşa bilərsiniz. Amma soruşmasanız yaxşıdır. Boyunlarına almayacaqlar. Bəlkə də utanacaqlar. Amma mən bununla həmişə fəxr etmişəm ki, Azərbaycan Respublikasının Baş nazirinin göstərişiylə kitabxanaçı təyinatı almışam. Nə olsun ki, imtina etdim.

MƏZUN MAHİR

1990-cı ildə Bakı Dövlət Universitetini bitirdim. Partiyaçı, əsgərliyini çəkmiş, ailəli, iki uşaq atası, nəhayət Qabilin oğlu olmasına baxmayaraq, iş tapa bilmirdim. Müəllimim, professor Kamil Vəliyev ilk aylarda məni Yazıçılar Birliyində yenicə açılmış "Dədə Qorqud ensiklopediyası"na işə götürsə də, bir ildən sonra ixtisara düşdüm. Amma mən daha yüksək üfüqlər zəbt etmək arzusundaydım. Yüksək üfüqdə isə atamın müxalif olduğu mütəllibovçular idi. Ona görə də heç bir şansım yox idi. Bir də ki, zəmanə də pis zəmanə idi. Heç baş açmaq olmurdu. Bir günün içində əliyevçi vəzirovçu olurdu, sonra çönüb mütəllibovçu adlanırdılar, külək səmtin dəyişən kimi musavatçıya, "bəy"ə çevrilirdilər, sonra isə təzədən kəndilərinə qayıdıb özlərini əliyevçi adlandırırdılar. Amma o zaman kəsiyində bir nəfər də özünü "məmmədovçu" adlandırmadı.

Söhbət 28 fevral 1992-ci ildən 15 may 1992-ci ilə qədər prezident səlahiyyətlərini icra edən Yaqub Məmmədovdan gedir.

Yaqub Məmmədovun rektor olduğu dövrlərdə atama olan isti münasibətini bilirdim. O, prezident olanda və Firuz Mustafayevi Baş nazirin əvəzi təyin edəndə köhnə yaralarımın qaysağı yenidən qopdu. Başladım atam Qabilə xoşu gəlmədiyi mövzuda müraciət etməyə: "Vəzifə istəyirəm!". Əlbəttə ki, cavabını əvvəlcədən bilə-bilə: "Heç vaxt. Mən sənə görə ağzımı bağlaya bilmərəm". Amma bu dəfə işimi əvvəlcədən ehtiyatlı tutdum.

- Papa, bilirsən də, Firuz Mustafayev baş nazirdir.

- Bilirəm.

- Bilirsən də, Şamaxının birinci katibi olanda, sənin bir sözünlə iki qardaşoğlunu vəzifəyə qoydu, himayə etdi.

- Bilirəm.

- İndi lap böyük vəzifədədir. Görəsən indi ağız açsan, mənə vəzifə verərmi?

Atam özünün sevimli, mənim isə sevmədiyim sözləri dilinə gətirmədi. Fikrə getdi.

- Hə... deyərəm, niyə demirəm ki... Yaxşı kişidir. Sadə adamdır. Ona ağız açaram.

Səhəri gün atam Yazıçılar İttifaqındakı hökumət telefonundan zəng çaldı Firuz Mustafayevə. Təbrik elədi. Dedi ki, yanına gəlmək istəyirəm. O da məmnuniyyətlə atamı qəbul etdi.

HAŞİYƏ: Şamaxıda atamın yaxın dostu var idi – Baba müəlim. Qardaşdan artıq bilirdi onu. Öləndən sonra da ailəsiylə əlaqələrini kəsməmişdi. Günlərin bir günü oğlu Nadir zəng elədi ki, "Qabil əmi, rayona təzə raykom gəlib - Firuz Mustafayev. Bəs məni ona tapşır, iş versin". Atam da onu şəxsən tanımadığı üçün arayıb tapdı ki, bəs Firuz Mustafayev akademik Xudu Məmmədovun dostudur, o da Bəxtiyar Vahabzadənin. Onların vasitəsilə tapşırmağa qərar verdi. Amma nə Xududan, nə də Bəxtiyardan səs çıxdı. Sonda belə qərara gəldi ki, özü getsin Şamaxıya – "Mən tanımıram. Yəqin ki, məni tanıyar" deyərək.

Xülasə, "raykom"a deyirlər ki, Bakıdan Qabil müəllim gəlib. O vaxt da Bakıdan gəlmək nadir və təhlükəli məsələ idi. Yəni, ya yoxlama gəlib, ya da ki, jurnalist. Xüsusi diqqət ayırmaq lazımdır. Firuz Mustafayev atamı hörmətlə qəbul edir. Çay gətizdirir. Amma nədənsə nəzərlərini ondan ayıra bilmir. Bu atamın da diqqətindən qaçmır. Firuz Mustafayevin torpaq adamı, zəhmətkeş insan olduğunu, yəni şeirdən-sənətdən uzaq olduğunu zənn edən atam girişə ehtiyac olduğunu sezir və özünü təqdim edir.

- Mən Qabiləm, şair Qabil. Azərbaycan Dövlət Mükafatı laureatı, Əməkdar İncəsənət xadimi…

Firuz Mustafayev isə:

-Yox e, Sizi tanıyıram. Amma səhərdən baxıram, tapa bilmirəm ki, Sizi kimə oxşadıram.

- Hitlerə? – deyə atam fikirləşmədən cavab verir.

Bunu eşidən Firuz Mustafayev əlini stola çırpıb "axır ki, tapdım. Yoxsa səhərdən fikirləşə-fikirləşə qalmışam ki, səni kimə oxşadıram". SON

Nə isə, atam köhnə dostu-tanışı Firuz Mustafayevlə görüşür. Uzun hal-əhvaldan sonra mənim xahişimi edir. O da telefonu götürüb məni tapşırır İsmayıl Sadıxova – Nazirlər Kabinetinin mədəniyyət və səhiyyə şöbəsinin müdirinə. Ki, "Mahirə iş ver".

İsmayıl müəllim də məni qəbul elədi. Üzündən nur yağan bir kişi idi. Deyəsən indi də o vəzifədə işləyir. Çox böyük hörmət və ehtiramlı görüşdən sonra ötürdü məni Mədəniyyət Nazirliyinə. Bəlkə də ixtisasım filoloq olduğu üçün Mədəniyyət Nazirliyi sistemi daha məqsədəuyğun sayılmışdı. Bir də ki, mənimçün nə fərqi? İş olsun, daha doğrusu vəzifə. 26 yaşlı mənə başqa nə lazım idi ki?

Ordan çıxıb gəldim atamgilə. "Doklad" eləməyə. Dedim ki, İsmayıl müəllim məni mədəniyyət naziri Polad Bülbüloğluya tapşırdı. Dedi ki, gedərsən onun qəbuluna. Atam da söylədi ki, tək getmə. Sabah gəl, bir yerdə gedək. Nəhayət səhərisi getdik nazir Polad Bülbüloğlunun qəbuluna. On dəqiqə

gözləmişdik ki, gəldi. Atamı görcək "gəl, Qabil, gəl" deyə içəri dəvət etdi. Dəvətində səmimiyyəti rəsmiyyətindən yüksək idi. Polad müəllim stoluna çatmamış katibə bir əlində bir stəkan su, o biri əlində salfetin üstündə dərman çatdırdı özünü. Polad müəllim də dərmanı dilinin üstünə qoyub suyu içdi. Üzünü bir az da turşutdu.

- Nə olub, Polad?

- Xəstəyəm, Qabil.

O vaxt Polad Bülbüloğlunun 47 yaşı vardı. Elə bil ki, mənim indiki yaşımdan bir yaş da kiçik. Bilmədim həqiqətən xəstəydi, yoxsa ki, bizi görüb təzyiqi qalxmışdı. Ya da ki, içdiyi vitamin idi, sadəcə göz qaytarmaq istəyirdi. Amma onu da deyim ki, Polad müəllim səhnədə, televiziya ekranlarından daha çox xoşbəxt, gülərüz, ruslar demişkən "jizneradostnı" görünürdü, nəinki nazir kreslosunda. Neyləsin, taleyi onu bu vəzifəyə məhkum etmişdi.

Qısa söhbətdən, əlbəttə ki, atamla qısa hal-əhvaldan sonra düyməni basdı. Bir ziyalı, mədəni qadın içəri girdi. Məni ona tapşırdı. Kabinetinə getdim. Çox həlim səsi vardı. Sanki psixoloq idi. Anket doldurdum, tərcümeyi-halımı yazdım. Telefonumu götürdü, dedi ki, sizinlə əlaqə saxlayacağam. Otaqdan çıxanda qapının üstündəki lövhəciyə baxdım. Demə o, kadrlar və təhsil şöbəsinin müdiriymiş.

Atamla Mədəniyyət Nazirliyindən çıxdıq. Çox sevinirdim. Zarafat deyil. Baş nazir tapşırıb o boyda Nazirlər Kabinetinin mədəniyyət və səhiyyə şöbəsinin müdirinə. İsmayıl müəllim məni qəbul edib. Sonra o, zəng edib mədəniyyət nazirinə baş nazirin tapşırığını çatdırıb. O da məni qəbul edib. Nazir də tapşırıb şöbə müdirinə, o da məni qəbul edib. Sənədlərimi də götürüb. Qalıb bircə o boyda nazirin əmr verməsi. Öz-özümə deyirdim ki, Mahir, daha nə istəyirsən? Arzun artıq həyata keçib. Aşağısı-aşağısı… Yox, düzü o vaxt heç vəzifələrin adlarını da bilmirdim.

Evə gəldim. Gözüm telefondaydı, qulağım səsdə. İntizarla gözləyirdim. Bir gün keçdi, zəng edən olmadı. Bir həftə keçdi,

yenə zəng gəlmədi. Bir ay keçdi, başladım Süleyman Rüstəmin "Ana və poçtalyon" şeirindən məşhur misraları zümzümə etməyə:

*Bir aydır ki, Mahirin gözləri yol çəkirdi,*
*Başqa bir dərdi yoxdu, iş-vəzifəydi dərdi.*

Artıq gözümün kökü saralmağa başladı. 40 gün keçdi. Nəhayət… Yox, elə bilməyin ki, zəng gəldi. Əsla. Sadəcə, Yaqub Məmmədovu işdən çıxardılar. Daha doğrusu Ayaz Mütəllibov onu devirib, təzədən prezident oldu. Ayaz Mütəllibov da taxta keçən kimi Firuz Mustafayevi çıxarıb yerinə Rəhim Hüseynovu qoydu. Sözün hərfi mənasında "qırx"ı (4 aprel-14 may) çıxan kimi. Bir gün sonra isə Ayaz Mütəllibovu devirib yerinə İsa Qəmbər gəldi. Bakı qaynar qazan kimi qaynayırdı. Amma mənim gözüm yenə telefondaydı.

Nəhayət, bir gün telefon zəng çaldı. Alıcı quş kimi aparatın üstünə şığıdım, dəstəyi götürdüm. Gözlədiyim kimi Mədəniyyət Nazirliyindəki xanım şöbə müdiri idi. Sevincdən gözlərim yaşardı.

- Mahir müəllim.
- Bəli.
- Salam.
- Salam.
- Sizi işə dəvət edirik.
- Hara?
- Axundov adına kitabxanaya.
- Nə?
- Kitabxanaçı.
- Hansı vəzifəyə?
- Kitabxanaçı.
- Çox minnətdaram. İstəmirəm. Amma sizdən bir söz soruşmaq istəyirəm.
- Buyurun.

- Sizcə kitabxanaçı olmaq üçün baş nazirmi göstəriş verməliydi?

- Bilmirəm. Məsləhət belə oldu.

O vaxt mən kitabxanaçılıqdan imtina etdim. Amma, əslində belə etməməliydim. O boyda baş nazir, şöbə müdiri, nazir iki ay axtarıb-axtarıb, xüsusi olaraq mənimçün tapmışdılar bu işi. Gec də olsa, minnətdarlıq. Hörmətinizə görə çox sağ olun.

# UŞAQLIQ DOSTUM TOĞRUL ADIGÖZƏLOV

Milli Məclisdə qanunlar necə qəbul olunur? Bilmirəm. Sadəcə sıralamanı bilirəm. Bilirəm ki, qanunların qəbulunda əsas yük daimi komissiyaların, indiki dildə desək daimi komitələrin üzərinə düşür. Əsas məsuliyyət də komissiya sədrlərinin üzərindədir. Yalnız bir qanunun hazırlanmasının mən də müşahidəçisi olmuşam. Bu İnsan Hüquqları İnstitunun ortaya çıxardığı "Ombudsman haqqında" Azərbaycan Respublikasının Qanunudur. Amma başqa bir qanunumuzun da hazırlıq prosesi mənə ləzzət edib. Yazımı Hadı Rəcəblinin başçılıq etdiyi Sosial siyasət daimi komissiyasının fəaliyyətiylə başlayacağam. Amma əsas məqsədim bu deyil.

"YÜZ DƏFƏ EŞİTMƏKDƏNSƏ, BİR DƏFƏ GÖRMƏK YAXŞIDIR"

AzTV-nin "Xəbərlər" proqramında işləyirdim. Dedilər ki, kameranı götür çıx qapıya – Milli Məclisin komissiyasının iclasıdır. Məəttəl qaldım. Komissiyadırsa niyə qapıya çıxmalıyam, elə Milli Məclisin özünə gedərəm də. Dedilər ki, yox. Hadı müəllim dedi ki, qapıda gözləyirəm çəkiliş qrupunu. Baş redaktorum deyən təki də elədim. Hadı Rəcəbli bizi öz "DEU-Espero" hökumət maşınıyla qapıda gözləyirdi. Ondan başqa digər maşında da qadın deputatlar əyləşmişdi. Maşına oturub yola düşdük. Soruşdum:

- Hadı müəllim, hara gedirik?

- "Leyla Şıxlinskayanın klinikası"na- deyə cavab verdi.

Məəttəl qaldım, deputatlar hara, doğum evi hara. Çünki o vaxt bu ilk özəl klinika doğuş üzrə ixtisaslaşmışdı. Hadı müəllim nigarançılığımıza son qoydu:

- Mahir, özəl səhiyyə haqqında qanun layihəsi hazırlanır. Bu klinika da Azərbaycanda ilkdir. Gedirik yaxından tanış olaq, bu sahəni daha dərindən öyrənək ki, qanun da mükəmməl alınsın. Təkliflərimizi verə bilək. Ona görə də iclası zalda yox, səyyar keçirmək qərarına gəldik.

Düzü Hadı Rəcəblini o günə qədər köhnə kommunist, köhnə fikirli adam kimi tanıyırdım. Amma bu yenilikçiliyinə görə fikirlərim tam dəyişdi. Klinikaya çatdıq. Hadı müəllimdən əlavə dörd nəfər də qadın deputatımız onunla idi. Binanın qarşısında bizi Leyla Şıxlinskaya və qonşumuz, uşaqlıq dostum, böyük bəstəkarımız Vasif Adıgözəlovun oğlu Toğrul qarşıladılar. Mən bilirdim ki, Toğrul həkimdir, cərrahdır.Amma burda işləməyini bilmirdim. İçəri keçdik. Hamımıza xalat, papaq və baxil verdilər. İlk dəfə idi ki, belə şey görürdüm. Başladıq xəstəxananı gəzməyə. Toğrul deputatlarımızı tanış etdikcə, onları maraqlandıran suallara da cavab verirdi. Bir jurnalist kimi mənimçün də yeni məqamlar çox idi. Mən həm də məhlə uşağı, bir vaxtlar həyətdə futbol oynadığım Toğrulu da bir həkim kimi tanımağa başlayırdım. Daha doğrusu kəşf edirdim. Sonra Leyla xanımın otağına yığışdıq və komissiyanın iclası açıq elan olundu. Suallar olduqca Leyla xanım Toğrula yönəldirdi. O da hamısına cavab verir, sadə dildə əsaslandırırdı. Sonda o da məlum oldu ki, Toğrul Adıgözəlov bu klinikanın baş həkimidir. Ayrılanda mənə yaxınlaşıb soruşdu ki, sən demə AzTV-də işləyirmişsən, xəbərim yoxmuş. Sabah saat 12-də vaxtın olsa gəl bura. Səninlə söhbətim var.

Toğrulla həkim – jurnalist tanışlığımız burdan başladı.

## UNİKAL BEYNƏLXALQ TƏDBİR

Səhəri gün klinikaya gəldim. Dedi ki, bir tədbir keçirməyi planlaşdırmışıq. İstərdim ki, Az.TV işıqlandırsın. Səni də

çağırdım ki, öyrənim. Mümkündürmü bu. Razılıq verdim. Tədbir haqqında isə heç nə soruşmadım. Ayda yüz belə beynəlxalq seminar, simpozium, konfrans çəkirdik. Hamısı da biri-birinin eyni. "Giriş sözüylə filankəs açdı, vacib məsələlər müzakirə olundu, məruzələr dinlənildi, sonra da filankəs bağladı". Düzü, əhəmiyyətli bir şey sanmadım.

Konfrans günü operatorla klinikaya gəldik. Balaca zal ağzınacan dolu idi. Rəyasət heyətində fransalı həkimlər oturmuşdu. Uzun-uzadı danışmadılar. Ayağa durub zalı tərk etdilər. Fikirləşdim ki, elə bu? Amma heç kim yerindən tərpənmədi. Zala ani nəzər yetirdim. Respublikanın tanınmış həkim və cərrahlarıydı. Bir də gördüm ki, səhnədə ekran sallandı. Bir azdan isə cərrahiyyə zalı, nəsə cərrahiyyə əməliyyatı göstərməyə başladılar. Mənə maraqlı deyildi. Özü də ki, qandan qorxan mən üçün əməliyyatın bütün təfərrüatlarının bu dərəcədə incəliklərinə qədər göstərilməsi film-ujasa bərabər idi. Dəhlizə çıxdım. Gördüm ki, Toğrul gəlir.

- Biz kifayət qədər kadrlar götürdük, icazənlə gedirik.

- Hara gedirsiniz? Konfrans hələ başlamayıb axı...

- Bəs bir nəfər fransızca danışdı, sonra da cərrahi əməliyyat filmini başladılar göstərməyə. Hamısından da kadrlar götürdük.

- Nə film? Mahir bu həkimlər Fransadan gəlib. Onların elədiyi əməliyyatı digər ölkələrdə eləmirlər. Azərbaycanda bu xəstəliyə düçar olan xəstələrimiz kifayət qədərdir. Bizə də müraciət edirdilər ki, xaricə getməyə o qədər pulumuz yoxdur. Biz də seminar-konfrans təşkil elədik, həkimləri dəvət etdik ki, gəlsinlər həm puluyla cərrahiyyə əməliyyatı eləsinlər, həm də bizim həkimlər baxıb ixtisaslarını artırsınlar. Səhnədə də film deyil, cərrahiyyə zalından xüsusi kameralarla birbaşa yayımdır. Əməliyyatdan sonra qonaqlar yenidən zala gələcək və həkimlərimizi maraqlandıran suallara cavab verəcəklər. Bu minvalla iki gün davam edəcək.

Beynəlxalq tədbirin əhəmiyyətini anlamağa başladım. Birinci xəstələrimizə bu əməliyyat iki qat ucuz başa gəlmişdi,

ikincisi isə milli kadrlarımız heç bir xərc çəkmədən iki gün bu əməliyyatları seyr edəcək, incəliklərini öyrənməyə çalışacaqdılar. Üçüncüsü isə, "Leyla Şıxlinskaya klinika"sının həkimləri fransızlara assisentlik edib, daha da püxtələşəcəkdilər. Bir gülləylə iki dovşan vurmağı eşitmişdim. Amma baş həkim Toğrul Adıgözəlov üç hədəfə birdən çatmışdı.

İNKİŞAF

Özəl klinika yaratmaq pul yığmaq, varlanmaq demək deyil. Heyf ki, bəzi klinikaların bugünkü yarıtmaz fəaliyyəti insanlarda bu sahəyə bir ikrah hissi yaradıb. Buna da səbəb sahibkarların tibbdən anlayışının olmamasıdır. Onları pul qoyub mayanı çıxarmaq maraqlandırır. Özü də qısa müddət ərzində. Üstə də gəl baş həkimlərin səriştəsizliyi. Necə deyərlər, gözəl həkim ola bilərsən, amma baş həkim olmaq üçün xüsusi bacarıq, qabiliyyət lazımdır. Ona görə də bəziləri xarici ölkələrə getməyə üstünlük verirlər. Dərdlərinin çarəsi Azərbaycanda ola-ola.

Atam xəstəxanaya düşəndə qəribə bir situasiyayla rastlaşdım. Üç gündür ki, yatırdı. Həkimi yaxınlaşıb soruşdu ki, ürəkdən başqa narahatçılığı yoxdu ki? Qulağına pıçıldadı ki, var. O saat uroloq dəvət etdilər. Atamı dinlədi. Dedi ki, kateterin yeridir, tədricən keçib gedəcək. Sonra atam dedi ki, gözlərim sulanır. O saat göz həkimi dəvət etdilər. Sual verdi ki, Qabil müəllim əvvəllər də belə şey olubmu? Dedi ki, yox. Cavab verdi ki, narahat olmayın bu yaşda belə şeylər olmalıdır. Keçib gedəcək. Başqa "problemlər" də dedi. Onu da yaşla əlaqələndirdilər. Axırda da baxdım ki, hər həkim çağrılmasına görə pul-xidmət kağızına üç-dörd şirvan "həkimin təqibi" xidmət haqqısı yazıblar. Həkim gəlməmişdən qabaq isə bu sözləri mən atama artıq demişdim: "Papa, fikir vermə, səksəndəndir". Özü də bir qəpiksiz, havayı.

Gözəl bilirdim ki, İlk özəl klinikanın baş həkimi kimi, Toğrul bununla kifayətlənən deyil. Bir müddətdən sonra klinika

digər sahələr üzrə də ixtisaslaşmağa başladı. O da sirr deyil ki, insanlar xəstələnəndə klinika yox, ilk növbədə yaxşı həkim axtarırlar. Ona görə də Azərbaycanın yüksək ixtisaslı həkimləri bu işə cəlb olunmağa başladı. Onların təklifləri dinlənildi. Xaricdən müvafiq aparaturalar alınaraq Azərbaycana gətirildi.

Bir qohumumuz var. İmkanlı şəxsdir. Söhbət əsnasında dedi ki, bəs uşağın burnunda sümük əyri idi, nəfəs ala bilmirdi. 90-cı illərdə əməliyyat elədilər. Çəkiclə burnuna o qədər vurdular ki, psixikası da pozuldu. Nəfəs almağı da köhnə qaydasında qalıb. Təkrar əməliyyata girməkdənsə qorxur. İndi deyirlər ki, "Leyla Şıxlinskayada" müasir üsullarla əməliyyat edirlər. Çəkicsiz-baltasız. Tanışın yoxdur ki?

O saat Toğrula zəng elədim. Bizi qəbul etdi. Qohumun mənə də danışdıqlarına qulaq asıb güldü.

- Siz nə danışırsınız. Heç qorxub eləməyin. Oğlanı gətirin, analiz götürək. Heç deməyin ki, əməliyyat edəcəyik. Sonra uzadacağıq onu palataya. Bir də ayılacaq ki, əməliyyata girib də çıxıb da... hər şey də qaydasındadır. Bir gün qalacaq burda, sonra buraxacağıq evə.

Toğrulun nə dediklərini sonralar başa düşdüm. Bir başqa qohumumuzun gözünü əməliyyat edəcəkdilər. Bunu da beş gün qabaqdan demişdilər. Yaman qorxurdu, həyacan keçirirdi. Əməliyyata bir az qalmış ürəyi tutdu, infarkt oldu, iki gündən sonra isə öldü.

Onda bildim ki, həkim həm də gözəl psixoloq olmalıdır. Çünki həkim xəstəliyi yox, xəstəni müalicə edir.

## XARİCİ TƏCRÜBƏ

Tibbdə müasir texnologiyalar icad olunduqca kadrların ixtisaslarının artırılması da önə keçirdi. Toğrul Adıgözəlov bu işlərə də böyük önəm verirdi. Klinikada işləyən həkimlər xarici ölkələrin qabaqcıl klinikalarına ixtisasartırma kurslarına göndərilirdi. Özü də klinikanın öz hesabına, uzun müddətə. Bu da özəl sahənin əsas tələblərindən biriydi. Deyəcəksiniz ki,

burda nə var ki? Nə çox respublikamızda belə kadrlar. Adına da "uzman" deyirlər. Amma nəzərə alın ki, bu yazım 1999-2003-cü illəri əhatə edir.

## ÖZƏL KLİNİKADA HAVAYI XİDMƏT

Bəli, düz oxudunuz. Özəl klinikada havayı xidmət. Özü də kampaniya xarakterli yox, il boyu. Həm də heç yanda reklam edilmədən. İndi deyəcəksiniz ki, reklam edilməyibsə, bəs sən hardan bilirsən?

Günlərin bir günü baş həkim Toğrul Adıgözəlov zəng elədi ki, Mahir, sabah səhər 11-də gəl klinikaya, gedəcəyik uşaq evinə, bayram sovqatı aparacağıq.

Vədələşdiyimiz kimi də elədim. Klinikadan yola düşdük mənim də tez-tez getdiyim uşaq evlərindən birinə. Həyətə girməyimizi görmüşdük. Uşaqlar Leyla xanımla Toğrulu, həkimləri dövrəyə aldılar. Qucaqlayıb, öpdülər. Bir də gördük ki, bir maşın da həyətə girdi. Müğənni Aygün Bəylər öz çalğıçı dəstəsiylə maşından düşdü. Zalda bir gözəl bayram düzənləndi. Canlı musiqi, rəqslər. Hədiyyələr də öz yerində. Mən bu uşaq evində çox tədbirlərdə olmuşdum, amma beləsini görməmişdim. Bir də gördüm ki, məni də ortaya dartıblar, rəqs edirəm. Üç saata yaxın orda olduq. Sonra geri qayıdıb materialı hazırladım. Efirə verdim. Yadigar qalsın deyə üzünü kasetə köçürüb səhəri gün klinikaya gəldim. Toğrul deyəsən əməliyyatdaydı. Başladım klinikanı gəzməyə. Bir də gördüm ki, on-on beş uşaq məni dövrəyə alıb qucaqladılar. Baxdım ki, bəs dünən məniylə rəqs edənlərdir.

- Siz burda neyləyirsiniz?

- Həkimə gətiriblər.

- Xəstələnmisiniz? Çox oynadınız da dünən, yəqin tərlədiz. Ona görə də soyuq dəydi.

- Yox. Xəstə olduq olmadıq. Hər ay bizim hamımızı növbəylə gətirib burda müayinədən keçirirlər. Ehtiyacı olanları müalicə, hətta əməliyyat da edirlər. Klinika hamiliyə götürüb bizi.

"Xəbərlər"də efirə gedən süjetdə klinikanın uşaq evini hamiliyə götürməsini, yəni ki, sağlamlıqlarını nəzarətə almasını verməmişdim. Çünki bilmirdim. Baş həkim –təşkilatçı Toğrul gizlətmişdi bunu məndən.

SON

Toğrul Adıgözəlov "Leyla Şıxlinskayanın klinikası"ndan sonra digər özəl layihələrə də uğurlu imza atdı. Amma bu günlərdə Azərbaycanın bir nömrəli sağlamlıq ocağı sayılan Mərkəzi Klinik Xəstəxanaya baş direktor təyin olunması məni daha çox sevindirdi. Çünki belə geniş meydan məhz onun kimi yenilikçi insanların yeridir. Təxminən bilirəm nələr edəcək. Yeni şöbələr yaradacaq. Bəziləri kimi nazir Oqtay Şirəliyevin etimadını sözdə yoxda, əməldə həyata keçirəcək. "Leçkomissiya" kimi tanıdığımız səhiyyə ocağını daha da yüksəldəcək. Bunun üçün onun böyük potensialı var.

Səhiyyə xadimi, həkim olmayan mən,  34 yaşından 15 il bu sahədə bir təşkilatçı, baş həkim kimi çalışan Toğrul Adıgözəlovdan çox əmin danışdım, elə deyilmi? Bilirsinizmi hardan qaynaqlanır bu əminlik? Çünki mən də yaradıcı insanın ailəsində böyümüşəm. Bizim üçünsə əsas kökdür. Adı yaşatmaq, daha da ucaltmaqdır. Böyük musiqi xadimləri Zülfi, Vasif, Rauf Adıgözəlovlar bu dünyada olmasalar da dirijor, xalq artisti Yalçın və əməkdar həkim  Toğrul Adıgözəlov qardaşları bu böyük nəslin davamçılarıdır. İnanıram ki, bu adların simasında bu məşhur familiya daim yüksəklərdə olacaq. Həm musiqimizdə, həm də səhiyyədə.

# BİZİM HÜSEYN BAĞIROV

Deyirlər ki, AzTV böyük məktəbdir. Bunu məhdud mənada başa düşmək lazım deyil. AzTV-də jurnalist kimi püxtələşmək öz yerində, bura həm də həyat məktəbidir. Bəziləri bu məktəbdən bəhrələnərək bir nəticə çıxarır, irəli gedir, parlayır, bəziləri isə yerində sayaraq bu məbədin adını "bataqlıq" qoyurlar. Mən də AzTV-nin şinelindən çıxanlardanam. Bu məktəbdən mənə qalan isə 11 il müddətində topladığım müşahidələrdir. Telefon kitabçamda tanış olduğum 2 mindən çox müxtəlif peşə, sənət, vəzifə sahibinin adı var. Onlardan biri də ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırovdur. Onu həm alim, həm rektor, həm ticarət naziri, həm də ekoloqlarımızın böyüyü kimi tanımışam, müşahidə etmişəm. Bir jurnalist kimi bəyənmişdim.

Düz tutdunuz. Sözümdən belə çıxdı ki, daha jurnalist deyiləm, ona görə də Hüseyn müəllimi bəyənmirəm? Əsla. Amma həqiqət də budur ki, AzTV-dən ayrıldığım yeddi il ərzində nə Hüseyn müəllim atlı kimi mən piyadanı yada salıb, nə də mən onu. Heç küçədə də rastlaşmamışıq. Bəs nə oldu ki, birdən-birə onun haqqında yazmağa qərar verdim? İnanmazsınız. Bu yaxında Masazıra gedirdim. Xırdalan dairəsindən üzü Sumqayıt yoluna tərəf bir 200-300 metr irəliləyəndən sonra sağ tərəfdə böyük ərazidə ucaldılmış qəşəng ofis binasını gördüm. Köhnə xatirələrim oyandı. Ziyalı, mədəni, alicənab, jurnalistlərə həmişə hörmətlə yanaşan, mətbuata açıq olan Hüseyn Bağırov – bizim Hüseyn müəllim yadıma düşdü. Niyə məhz ofis binasına baxandan sonra? Tələsməyin. Yavaş-yavaş, hər şeyi ardıcıllıqla.

## REKTOR HÜSEYN BAĞIROV

Mənim həyatda bir problemim var. İngilis dilini öyrənə bilmirəm. Nə edirəmsə alınmır. Beləcə gəlib çatmışam 48 yaşına. Arzum isə ürəyimdə qalıb. Amma o vaxt 34 yaşım vardı.

Nə isə, məni göndərdilər Qərb Universitetinə çəkilişə. Sürətli ingilis dili kurslarının açılışı idi. Xaricilərlə birgə layihə. Həm Azərbaycan, həm də ingilis dilində sərbəst danışan bir nəfər tədbiri aparırdı. Deyirdi ki, bu kurslarda qısa müddət ərzində - altı aya ingilis dilinə yiyələnməyi bacaracaqsınız. Sonra bildim ki, bu natiq rektor Hüseyn Bağırovdur.

Tədbir bitdi. Qayıtdım, materialı hazırladım. Amma rektorun "altı aya ingilis dilini öyrənəcəksiniz" sözü beynimdən çıxmırdı. Bu necə olur ki, yeddi il orta məktəbdə, beş il də universitetdə bu dərsi keçiblər, heç nə qavramamışam, altı aya necə ingilis dilində danışmağı bacaracağam ki? Bir yandan isə Qərb Universiteti AzTV-yə yaxın olduğundan həvəsə düşmüşdüm. Mədəni barter planı çızmışdım: onlar mənə ingilis dilini öyrədərlər, mən də əvəzində onların tədbirlərini işıqlandıraram.

Ertəsi gün. "Hyatt Recensi-Naxçıvan" otelində konfransdaydım. Keçib zalda əyləşdim. Təsadüfən Hüseyn Bağırovla yanaşı düşdüm. Məni tanıdı:

- Baxdım süjetə. Çox sağ olun. Minnətdaram.

- Siz də sağ olun, Hüseyn müəllim. Amma bir şeyi başa düşmədim sizin çıxışdan. Mən 12 il məktəbdə ingilis dilini öyrənə bilmədim ki, bilmədim. Bəs siz altı aya bu dili necə öyrədə biləcəksiniz? Mən də bu kurslara yazılmaq istəyirəm, ona görə soruşuram.

- Neçə yaşınız var?

- 34.- deyə cavab verdim.

- Evlisiniz?

- Bəli.

- Uşağınız varmı?
- İki qızım var. Məktəbə gedirlər.
- Altı aya cavan uşaqlar, tələbələr öyrənə bilərlər. Bu cür ailə qayğılarıyla, AzTV-də gərgin iş rejimiylə siz altı yox, bir ilə bu dilə yiyələnə bilərsiniz. Gəlin yazılın kursa, başlayın. Həftədə iki dəfə.
- Hüseyn müəllim, çox sağ olun. Amma, mən başa düşmək istəyirəm ki, 12 ilə heç nə qavramayan mən, bir ilə necə dil öyrənə bilərəm ki?
- Mahir, sənə 12 il ingilis dili dərsi keçiblər. Biz isə sənə ingilis dili keçməyəcəyik, danışmağı öyrədəcəyik.

Çox sevindim. Amma arzum ürəyimdə qaldı... Niyə?

## TİCARƏT NAZİRİ

AzTV-də işləyəndə, özünü tərifləmək olmasın, ayağı yüngül jurnalistlərdən sayılırdım. Kimi çəkirdimsə, işıqlandırırdımsa irəli gedirdi. İntiqam Babayev, Azay Quliyev, Əkrəm Abdullayev, Fuad Muradov, Ceyhun Osmanlı, Fərhad Əliyev və sairə. Sonra bəziləri məni yaddan çıxarırdılar. Başlayırdılar geriyə saymağa.

Bu ingilis dili öyrənmək həvəsindən iki-üç gün keçmişdi. Prezident sərəncamı gəldi: "Hüseynqulu Bağırov ticarət naziri təyin edilsin". Baş redaktorun məsləhətiylə ilk müsahibəni almağa mən getdim. Nazirlər Kabinetinin binasında otururdu. Kabinetə girəndə Qərb Universitetinin rektoru Hüseyn müəllimi gördüm. Demə, adı pasportda rəsmi olaraq Hüseynqulu imiş. Ona görə tanımamışam sərəncamı oxuyanda. Təbrik elədim. Müsahibə aldım. Azərbaycanın milli valyutasının yeni variantının kağızının, görünüşünün hansı standartlara uyğun olacağı barədə məlumat verdi və gələcək planlar haqqında danışdı. Gəlib müsahibəni efirə verdim. Daha Qərb Universitetinə "yolum bağlandı". İngilis dili öyrənmək arzum yenə ürəyimdə qaldı.

## HÜSEYN BAĞIROVUN MEŞƏSİ

Dostum, iş yoldaşım, jurnalist Akif Məcidoğlu da Hüseyn müəllimi gözəl tanıyırdı. Qarşılıqlı hörmətləri vardı. Biz də çəkilişlərə birgə gedərdik. Günlərin bir günü gəldi ki, bəs xəbərin var da... yeni nazirlik yaradılıb. Hüseyn müəllimi də qoyublar ekologiya və təbii sərvətlər naziri. Strukturu formalaşdırır. Zəng eləmişdi ki, bir tədbiri var Cəngidə, ora getmək lazımdır. Hazırlaş.

Dalımızca nazirliyin işçisi Asif adlı bir nəfər gəldi. Köhnə "Niva" maşınında. Noyabr ayında, çiskinli havada maşına oturub yola düşdük. Şamaxıya tez-tez gedən biri kimi Cənginin harada yerləşdiyini bilirdim. Çöllü-biyaban idi. Üç-dörd dənə ev vardı. Bir də ki, məşhur Cəngi aşırımı. Vəssalam. Fikirləşdim ki, görəsən orda nə çəkəcəyik? Xülasə çatdıq Cəngiyə. Maşından düşdük. Uzaqda bir quyuqazan maşın işləyirdi. Palçığı tapdalaya-tapdalaya yoldan 150 metr həmin qurğuya doğru getdik. Bizi görcək iki nəfər sevinə-sevinə qarşımıza qaçdı:

- Asif müəllim, dediyimiz kimi də oldu. Su çıxdı. Özü də şirin su.

Məəttəl qaldım. Axı burda qəribə nə var ki? Neft çıxmayıb ki, su çıxıb da... Ətraf palçıqdır, su da axıb eləyəcək gölməçə. Sonra? Nə olsun ki? Lap tutaq ki, su çıxıb. Bunu AzTV-nin "Xəbərlər" kimi hörmətli proqramına nə dəxli? Bu zaman Asif müəllimin səsi gəldi:

- Çəkin də... hava qaralır.
- Nəyi çəkək? – deyə Akif dilləndi.
- Maşını, suyu, çöllü-biyabanı.
- Tutaq ki, çəkdik, sonra? Burdan nə yazacağıq ki?
- Onları cənab nazir özü deyəcək.

Çəkiliş apardıq. Əgər buna çəkiliş demək mümkündürsə. Maşın, su, çöllü-biyaban görüntüləri. Geri qayıtdıq. Nazirin kabinetinə girdik. Sevincək idi.

- Sizə məlumat verim ki, o ərazidə əvvəllər məşhur Cəngi meşələri olub. Biz də ilk olaraq bu meşənin bərpasını qarşımıza məqsəd qoyduq. Amma problemimiz su idi. O əraziyə su çəkdirmək mümkünsüz idi. Quyu qazdırdıq, su çıxdı. Özü də şirin su. Problem həll oldu. Ürəklə meşə salınmasına başlaya bilərik.

O vaxt bu müsahibə, nazirin sevincli baxışları mənə çatmırdı. Amma indinin özündə Şamaxıya gedəndə, uçsuz-bucaqsız gənc meşəliyi görəndə sevinirəm. "Hüseyn müəllimə, halal olsun" deyirəm. Elə özümə də, Akifə də, bütün Azərbaycan jurnalistlərinə də. Özümüzə niyə?

HÜSEYN MÜƏLLİM, GƏLİN ÇIXIN DA....

Elə həmin ildən ağacların əkilməsinə başlandı. Mal-qaranın o ərazidən keçməsinə qadağa qoyuldu. Meşəbəyi təyin edildi. Hüseyn Bağırov bir az da irəli getdi. "Perevalda" da ağac əkməyə başladı. Suvarılma isə belə aparılırdı. Su aşağıdakı quyudan sisterna maşınlara doldurulurdu, sonra maşınlar aşırımla yuxarı qalxır, tinglərə su verirdi. Böyük zəhmət və əzab-əziyyət. Bu meşənin əsası qoyulandan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aparatı öz yerində, biz jurnalistlərin də "qara günləri" başlandı. Taqsır özümüzdəydi. Dilimizin bəlasına düşmüşdük.

Günlərin bir günü Akif Məcidoğlu dedi ki, sabah səhər saat 8-də olmalıyıq nazirliyin qabağında. Gedirik Cəngiyə. İməcilikdir. Tezdən gəldik. Ayrıca bir avtobus ayrılmışdı. İçi də dolu jurnalist həmkarlarımız. Bütün yolu gülə-gülə, danışa-danışa gəldik Cəngiyə. Yamaclarda ağac əkilirdi. Nazir müavini Firdovsi müəllimdən sıravi işçiyəcən hamısı burdaydı. Çalalar qazır, peyin tökür, ağac əkir, sonra da vedrəylə su daşıyıb dibinə tökürdülər. Çəkiliş aparan zaman yaman gülərüz olurdular, həvəslə işləyirdilər. Amma çəkiliş qurtaran kimi dodaqlarının altında nəsə mızıldanırdılar. Baballarını yuya bilmərəm, deyəsən "bazar günü bu nə bəladır, ay Allah,

düşmüşük. Camaat kefdə, yemək-içməkdə, biz isə ağac əkirik" deyirdilər.

Biz də lazımi kadrlar götürüb, başladıq naziri gözləməyə. Bir də gördük ki, "Nissan-Maxima" maşını dayandı. İçindən bir nəfər düşdü. Düzü tanımadıq. Ayağında rezin sapoq, əynində göy, qalın gödəkcə, əlində bel – başladı yamacı bizə tərəf qalxmağa. Demə Hüseyn müəllim imiş. Bu imicdə birinci dəfə idi ki, nazir görürdüm. Jurnalistlərdən kimsə dilini dinc qoymadı:

- Hüseyn müəllim, harda qalmısız e... Donduq, axı? Bircə sizdən müsahibə almağımız qalıb. Onu da götürək, gedək.

Cavab ani və gözlənilməz oldu.

- İndi hərəyə 10 dənə ağac əkərsiniz, yaxşıca da qızışarsınız. Ağac əkməsəniz müsahibə də verməyəcəyəm.

Bu dəfə mən dilimi dinc qoymadım. Səhərdən ac-susuz olmağımıza işarə olaraq, çırtmanı boğazıma vurub:

- Hüseyn müəllim, qızışmağın başqa yolları da var.

- Mahir, o asan yoldur. Biz çətin yolla gedəcəyik.

Nazir göstəriş verən kimi nazirliyin işçiləri o saat hərəmizi əlcək, bel və on dənə ağacla təmin etdilər. Başladıq ağac əkməyə. Özü də Hüseyn müəllimin ciddi nəzarəti altında. Peyini yolun qırağına tökmüşdülər, ordan vedrələrə doldurub yamaca qaldırırdıq, suyu da həmçinin. Nəhayət hərəyə on ağacı əkib qurtardıq. Hüseyn müəllim ondan sonra müsahibə verdi. Sonuncu sualı yenə mən verməli oldum.

- Hüseyn müəllim, bu rəsmi hissə idi, "bədii hissə" də olacaqmı?

Nazir arif adam idi. O saat bildi ki, yeyib-içməkdən dəm vururam. Sözümü yerə salmadı. O saat göstəriş verdi. Həmkarlarımın alqışını qazandım. Beləliklə soyuq havada həm belə, həm də elə qızışdıq. Və indi o yolu gedəndə uşaqlarıma fəxrlə deyirəm:

- Bax, o ağacları görürsüz? Onları atanız əkib.

Əlbəttə ki, Hüseyn müəllim məcbur edəndən sonra.

## QURD, KOSTYUM, CƏZA

İsmayıllıda qurd peyda olmuşdu. Adı da səhv etmirəmsə Amerikan kəpənəyi idi. Nazirliyin bütün qüvvələri buna qarşı səfərbər olunmuşdu. Əraziyə gedib çıxanacan bu məsələyə ironik yanaşırdım – meşədə qurd olar da... Amma hər şeyi gözümlə görəndən sonra bildim ki, məsələ çox ciddidir. İsmayıllı meşələri məhv olmaq təhlükəsiylə üzləşib. Elə bil ki, multfilmə baxırdın. Qurd yarpağı beş saniyə ərzində yeyib qurtarırdı. İşçilər də kəpənək və tırtılları əllə toplayıb, doldururdular torbalara, sonra da bir yerə yığıb, nöyüt töküb yandırırdılar. Başqa əlacı yox idi. Sonradan prezidentin sərəncamıyla əlavə vəsait də ayrıldı, sanaviasiya işə qoşuldu.

Bu prosesi işıqlandırmaq üçün getmişdik İsmayıllıya. Nazir bir az gecikirdi. Bir də gördük ki, gəldi. Maşından düşdü. Həmişəki kimi iş formasındaydı. Ayağında sapoq, əynində fəhlə paltarı.

Maşından düşən kimi kostyum geyinmiş, qalstuk taxmış, ayaqqabları par-par parıldayan biri ona yaxınlaşıb salamlaşmaq istədi. Düzü mən Hüseyn müəllimi birinci dəfəydi ki, belə əsəbləşən gördüm.

- Bu nədir? Burda səndən başqa gör bu cür geyinən var? Sən buraların böyüyüsən. Biz də gəlmişik sənə köməyə ki, meşələri xilas edək. Hamımız da “raboçi formada”. Sən isə kostyum geyinib durmusan qabağımda. Get, gözüm görməsin səni.

Həmin adam demə İsmayıllı meşə idarəsinin rəisiymiş. Allah bilir nazirinə xoş gəlmək üçün güzgünün qabağında neçə saat bəzənib-düzənmişdi. Amma Hüseyn müəllim o nazirlərdən deyildi. Nazirliyin yanımda duran bir işçisindən soruşdum:

- Yazıq. Yəqin indi töhmət verəcək ona, hə?
- Yox.Ondan da pis.
- İşdən çıxaracaq?
- Yox.

- Bəs nə edəcək?
- İsmayıllının səfalı meşəsindən keçirəcək Cəngi meşəsinə müdir. Başına gün döyüb ağlı gəlsin yerinə. Hüseyn müəllimin öz cəza metodları var. İşdən çıxmaqla canını qurtara bilmərsən.

## MAHİR, SUALIN YOXDU Kİ?

Əvvəldə qeyd etdiyim kimi, Hüseyn Bağırov jurnalistlərin sevimlisiydi. Deyəsən elə indi də elədir. Yoxsa digər həmkarları kimi mətbuatda onun da adına tez-tez rast gələrdik. Əlbəttə ki, adını oxuyuram, amma müsbət prizmadan. Bu da məni sevindirir. Cəngidə nazirdən yemək-içmək xahişim jurnalistlərimizə yaman ləzzət eləmişdi. Ona görə də hər müsahibədən sonunda gözlərini mənə zilləyirdilər ki, "bəs, dillən!". Axı, AzTV flaqman sayılırdı.

Günlərin bir günü qərara aldım ki, sevimli sualı verməyəcəyəm. Düzü hörmətsiz olmağımdan qorxurdum. Nazir adamdır, bir də gördün ki, qanıqara oldu, qayıtdı pis söz dedi. Nəsə dillənmədim. Müsahibə qurtardı. Sonda soruşdu ki, bəs "başqa sualınız yoxdur ki?" Heç kim dinmədi. Müsahibəni Akif Məcidoğlu aldığından mikrofonu da o tutmuşdu. Mən isə qıraqda dayanmışdım. Birdən Hüseyn müəllim mənə tərəf çönərək:

- Mahir, sualın yoxdur ki?

Həmkarlarım gülüşdü. Əlavə etdi ki, filan yerdə süfrə açıblar. İndi burdan gedirsiniz ora. Nahar edib, sonra yollanırsınız işə. Bilmirəm indi də belədir ya yox? İnanıram ki, nazirimiz bu köhnə ənənəyə bu gün də hörmətlə yanaşır.

## SÖHBƏT PEYİNDƏ DEYİLMİŞ

Ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırov tədbirlərdə tez-tez bir sözü təkrar edirdi. Ekologiyamıza ziyanlı bir amil kimi. Amma mənə nədənsə çatmırdı. Axı, bu necə ola

bilər ki, mal-qaranı örüşə buraxmayasan. Çünki inəklər torpağı elə tapdalayır ki, ordan uzun müddət bir dənə də ot çıxmır.

Günlərin bir günü İsmayıllıya çəkilişə gedirdik. Nazirlik hansısa təşkilatla birlikdə Azərbaycanın bir neçə bölgəsində təmmənnasız olaraq beş ədəd bioqaz qurğusu quraşdırmışdı. Məlumat üçün qısa olaraq bildirim ki, həmin bu qurğular təzə mal peyiniylə doldurulur, nəticədə isə məişətdə işlənilən qaz alınırdı. Çəkilişi elədik. Qazı da yandırdıq. Fikirləşdim ki, bəs bunun Ekologiya nazirliyinə nə dəxli?

Sonradan başa düşdüm ki, bu qurğu ən azı 7-8 baş qaramalı olan evlərdə quraşdırıla bilər. Bunun üçün heyvanlar yalnız tövlə şəraitində saxlanmalıdır ki, peyinin toplamaq mümkün olsun. Əvəzində isə kəndli havayı qaz və təbii gübrəylə təmin olunur. Hətta azot gübrəsini plastik qablara toplayıb satıb mənfəət də götürə bilər. Ən başlıcası isə ekologiyamıza ziyan dəymir. Yaşıl düzlər səhralaşmaqdan qurtulur, kimyəvi gübrələr qrunt sularına çöküb zəhərləmir, bir də atmosferə buraxılan zərərli qazların sayı azalır. Buna el içində bir güllə ylə beş dovşan vurmaq deyərlər.

## SÖHBƏT MAŞINLARDA DEYİL

"Bu qədər maşın olar? Hamısının turbasından o qədər qaz çıxır ki, hava da çirklənir, Nəfəs almaq da mümkün deyil". Yəqin bu ara söhbətləri sizə də tanışdır. Yəni ki, Bakının ekologiyasını çirkləndirən əsasən avtomobillərdir, loru dildə desək vıxlop qazlar. Amma Hüseyn müəllim hər tədbirdə Bakının ekologiyasına avtomobillərdən çıxan qazların deyil, Balaxanı zibilliyinin, zibillərin yandırılmasının ziyan vurduğunu deyirdi. Düzü mənə çatmırdı bu izah. Amma...

Günlərin bir günü Gömrük Komitəsi müsadirə etdiyi malları Balaxanı zibilliyində yandırmağa aparmışdı. Prosesi jurnalistlər də izləyirdi. Dostum Akif Məcidoğlu da kamerasıyla ordaydı. Bir saat yarımlıq çəkilişdən sonra yorğun-arğın geri qayıtdı. Təsəvvür edin də iy, üfunət, milçəklər. Kadrlarda hər

şey aydın görünürdü. Amma burda qeyri-adi bir şey yox idi. Zibillikdə, özü də mərkəzi poliqonunda iy olar da, milçək də ki, öz yerində.

Nəsə materialı hazırladı verdi. Səhəri gün işə gələndə gördüm ki, Akifin qanı qaradır. Bir az da pərtdir.

- Akif, nə olub?

- Nə olacaq, srağagün firmenni mağazadan ayaqqabı almışam. Bu gün baxıram ki, altı cırıqdır. Getdim qırğın saldım ki, brak ayaqqqabını mənə sırımısınız.

- Bəs niyə pərtsən? Qanın da qaradır. Dərslərini vermisən, ürəyini də boşaltmısan.

- Yazıqlar heç nə demədilər. Amma ordan çıxandan sonra yadıma düşüb ki, dünən Balaxanı zibilliyində çəkilişdəydim, axı. Zibillik sönülü görsənsə də, demə altdan sönməyibmiş, gizli-gizli yanırmış. Bir saat yarıma da ayaqqabımın altını əridib deşib. Bu gömrükdən kim xeyir görüb ki, mən də görəm? 30 “şirvanım” batdı ara yerdə.

Onda barmağımı dişlədim. Demə Hüseyn müəllim bunu deyirmiş. Üst-üstə qalaqlanmış yüz hektarlarla zibilliklərdə, yarımadanın düz ortasında gözlə görünməsə də gecə-gündüz yanma prosesi gedirmiş. Hava zərərli maddələrlə zəhərlənirmiş. Onu da qeyd edim ki, prezidentimizin sərəncamlarıyla bu sahədə əsaslı dəyişikliklər aparıldı. Yeni struktur yaradıldı, Balaxanıda məişət tullantılarını emal edən zavodlar tikildi.

## KÖMÜR

Biz AzTV olduğumuzdan çox da köntöy suallar vermirdik. Baxmayaraq ki, ekologiyayla bağlı kifayət qədər tənqidi süjetlərimiz də gedirdi. Və Hüseyn müəllim bu süjetlərə çox diqqətlə yanaşırdı. İncimirdi, əksinə özü də istəyirdi ki, gözündən qaçan problemlər üzə çıxsın, həllini tapsın.

Jurnalistlərin verdiyi əzəli suallardan biri də kömürlə bağlı idi. Bəli, kabab bişirəndə işlətdiyimiz kömür. Ekologiya Nazirliyinin bununla bağlı xüsusi reydlər keçirdiyini bilirdim.

Problem bu gün də öz aktuallığını saxlayır. Amma bu suallara cavab verəndə Hüseyn müəllim güclü bir arqument də gətirirdi. Təkcə kömürlə bağlı yox.

- Siz də bilirsiniz ki, meşəliyi qırıb, ağacları kəsib odun kimi yandırmaq olmaz. Siz sual verən jurnalistlər kabab yeyirsiniz, lap bişirirsiniz də. Etiraz edin buna. Almayın kömürü, yeməyin kömürlə bişirilən kababı. Evinizi qızdırmaq istəyirsinizsə meşədəki ağacı niyə kəsirsiniz ki? Həyətinizdəki ağacı kəsin yandırın da. Yaxud nöyütdən istifadə edin. Ət, toyuq yemək istəyəndə meşəyə qaçırsınız? Yox. Həyətinizdə saxlayırsınız. Bəs onda odun lazım olanda niyə meşəyə qaçırsınız? Həyətinizdə əkdiyiniz, böyütdüyünüz ağaca heyfiniz gəlir, meşədəki ağaca yox? Biz də siz qeyd etdiyiniz neqativ hallara qarşı mübarizə aparırıq. Amma siz də bizə sualla yox, əməli işinizlə, vətəndaşlıq mövqeyinizlə kömək etsəniz yaxşı olar.

Ay jurnalist həmkarlarım, gəlin etiraf edək. İsmayıllının çubuq kömürünün kababı ləzzətli olur da... elə deyilmi? Kömür samovarının çayının dəmi bilirsiniz də nədir. Bir çayniki də 5 manat. Yaxud da odun peçinin böyründə uzanıb bir saat mürgüləyirsən a... Yaxud da peçin üstünə çörək qoyub qızdırıb, arasında da motal pendiri... bunun başqa ləzzəti var. Sonra da deyirik ki, taqsır ekoloqlardadır.

## TELEJURNALİSTLİYİMİN SON AYLARI

2006- cı ildə AzTV-də sədr dəyişikliyi oldu. Yeni sədr köhnələrdən olsa da, yeni, gənc adamlarla işləməyə üstünlük verirdi. Ona görə də baş redaktorlara müxtəlif "sivil, təbii" üsullarla köhnələri aradan çıxartmaq əmri vermişdi. Təzələr isə bir az təcrübəsiz idilər. Həm də tanınmırdılar. Bunun üçün zaman lazım idi. Çünki mən özüm də televiziyaya gələndə belə idim. Onlara bacardığım köməyi edirdim də...

Çəkilişlərə elə də getmirdik. Amma günlərin bir günü baş redaktor mənə yaxınlaşdı ki, bəs get Ekologiya Nazirliyinə. Prezidentin təzə sərəncamıyla bağlı nazirdən müsahibə al.

Düzü məəttəl qaldım. Nə əcəb mənə bu tapşırığı verir? Özü də bilə-bilə ki, ora həmişə Akiflə mən getmişəm. Arifdən qorxmur? Soruşdum:

- Niyə?

- Kimə tapşırmışam, yarıtmayıblar. Zəng edirlər. Onları qəbul etmirlər.

Düzü yeddi-səkkiz ay idi ki, biz də ora getməmişdik. Çəkinə-çəkinə mətbuat katibi İradə İbrahimovaya zəng etdim. Tapşırıq aldığımı bildirdim. O da xahişimi nazirə çatdırdı. Bir saatdan sonra artıq nazir Hüseyn Bağırovun kabinetində müsahibə alırdım.

## TƏMİZLİK AYLIĞI

Nazirlik rayon İicra Hakimiyyətləriylə birlikdə təmizlik aylığı keçirirdi. Müxtəlif rayonlara nazirliyin məsul əməkdaşlarıyla səfər edirdik. Bir gün də yolumuz Qubaya düşdü. Birbaşa getdik icraya, komissiyanın həmsədrlərindən olan icra başçısının müavinini aramağa. Demə biz bu qapıdan girmişik, o da xəbər tutub arxa qapıdan qaçıb. Əlbəttə ki, bu istiqamətdə hansı işlər görülüb, tədbirlər planı barədə məlumat ala bilmədik. Ona görə də qərara aldım ki, rayon mərkəzini tək gəzim. Niyə tək? Çünki mənimlə gedən ekoloqlar mənimlə birgə gəzməkdən, müsahibə verməkdən çəkindilər. Daha doğrusu qorxdular. “Mahir, bilirik, sən nəsə pis bir şey çıxardıb verəcəksən efirə. Arada biz qalacağıq. Nazirimiz əslən bu tərəflərdəndir. Sənə heç nə deməyəcək, amma bizi...”.

Düzünü desəm, heç qaşıyıb qan çıxartmağa da ehtiyac yox idi. Sizin də şahidiniz olduğunuz çay hövzələrinə zibil atılması, qeyri-qanuni zibil poliqonları və sairə burada da vardı. Və bundan zinhara gələn Quba camaatının özəl ləhcəsində şikayət müsahibələri. Birini soruşurduq, yüzünün də yerini özləri göstərirdilər. Əzəl mübtədaları da İcra Hakimiyyətinin rəhbərliyi idi.

Nə isə, ertəsi gün efirə Qubadakı ekoloji vəziyyətlə bağlı bomba süjet getdi. Düzdür İcra Hakimiyyətində hamısı ayılmışdı, icra başçısı hamısını fərağat qoymuşdu. Amma artıq gec idi.

Düzü bu süjetdən Hüseyn müəllimin də inciyəcəyini zənn edirdim. Amma tədbirlərin birində mənimlə həmişəki mehribanlıqla görüşdü. Nigarançılığıma son qoymaq üçün soruşdum:

- Mən də qorxurdum ki, məndən incimisiniz?
- Niyə?
- Qubadan verdiyim tənqidi süjetə görə.
- Niyə inciməliyəm ki?
- Əslən ordan olduğunuza görə belə düşünmüşdüm. İşçiləriniz də yaman qorxurdu.
- Boş-boş danışırlar. Əgər mən o bölgədənəmsə, oralar ikiqat təmiz və abad olmalıdır. Düz eləmisən vermisən. Nəticə çıxarmasalar get bir də çək. Heç kimdən də çəkinmə. Prezidentimiz qarşımıza ekologiyayla bağlı konkret tapşırıqlar qoyub. Bunları da sizli-bizli əl-ələ verib birgə həyata keçirməliyik.

## "PRİYATNI" ADAMDIR

Şair Ramiq Muxtarın oğlunun toyu idi. Ailəvi getmişdik. Onu da xatırladım ki, Ramiq Muxtar həm də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyindəki institutlardan birinin direktorudur. Toya təşrif buyuranlar arasında nazir Hüseyn Bağırov və aparatın rəhbəri İsa müəllim də vardı. Qeyri-iradi "papa, nazir Hüseyn Bağırov da toya gəlib" dedim. Bir azdan sağlıq üçün atama söz verdilər. Yerdə olan kamera kabellərinə ilişib yıxılmağından qorxaraq, onu müşaiyət etməli oldum. Sağlığı dedi, rəqs elədi. Yerimizə qayıdanda nazir oturan qonşu stola yaxınlaşdıq. Görüşdü. Minnətdarlığını bildirdi. Sonra qayıtdıq yerimizə.

- Papa, nə məsələydi ki? Niyə minnətdarlıq etdin ki?- deyə soruşdum.

- Yazıçılardan birinin problemi çıxmışdı. Məndən xahiş etdi ki, Hüseyn müəllimə ağız açım. Mən də 4 nömrə hökumət telefonuyla zəng etdim. Sözümü dedim. Düzü səsi quru gəldi. Problem də ciddi problem idi. Belə fikirləşirdim ki, xahişimi yerinə yetirməz. Amma həmin gün sevinə-sevinə yazıçı yanıma gəlib dedi ki, bəs sağ ol, nazir sənin bir sözünlə işimi həll etdi. Düzdür "sağ ol"u mənə dedilər. Amma əsl sağ ol ona düşür. Bir neçə dəfə zəng etdim, dedilər ki xaricdədir. Telefonda səsi quru gəlirdi, amma "priyatnı" adam imiş.

## MƏN ŞƏXSƏN ÇOX ŞEY ÖYRƏNDİM

Ekologiya deyəndə əsasən təbiəti, hava və suyu əsas götürürük. Hüseyn müəllimin tədbirlərinə qatılmaqla mən ekologiya barədə çox şey öyrəndim. "Quş qripi", nərə balıqlarının yetişdirilməsi, ağacların, heyvanların qorunması üçün yeni qoruq və yasaqlıqların yaradılması. Bu tədbirlərdə prezidentlər Heydər Əliyev və İlham Əliyevin həmin sahəyə böyük diqqətinin də şahidi oldum. Amma iki şeydə AzTV-dən çıxmağıma peşmanam. Bunlardan biri Hüseyn müəllim də söz verdiyi kimi, suitilərin Xəzər sahillərindəki məskəninə səyahət idi ki, ora gedə bilmədik. Bir də Antarktidaya səyahət əlimdən çıxdı. Axı Hüseyn Bağırov həm də Hava və Ektremal İdman Növləri Federasiyanın prezidentidir.

## SON

Ekologiya və Təbii Sərvətlər nazirliyinin belə bir ənənəsi vardı. İməclik. Bu təkcə ağacəkmək deyildi. Bakının ətrafında hər hansı boş, baxımsız, zibillik ərazi seçilir və orda şənbə, bazar günləri iməcliklər keçirilirdi. Biz də işıqlandırırdıq. Əlbəttə ki, nazir yenə öz sözünə sadiq qalırdı. Jurnalistlər beş-altı torba zibil yığmasaydılar müsahibə vermirdi. Qayıdaq yazımın əvvəlinə.

Xırdalan dairəsindən 200-300 metr Sumqayıt yoluyla irəliləyirəm. Böyük ərazidə yaraşıqlı tikililər salınıb. Təqribən 8-9 il bundan qabaq Hüseyn müəllimin başçılığı ilə bu nəzərdən kənar, zibil basmış ərazidə iməclik keçirmişdik. Nazir hamıdan fəal idi. Nümunə göstərirdi. Yaxınlıqda qaçqınların məskunlaşdığı bir yataqxana var. Yataqxananın da ətrafında sınıq-salxaq dükanlar. Birdən bu mağazanın sahiblərindən biri sadə iş formasında işləyən Hüseyn müəllimə yaxınlaşıb nə desə yaxşıdır:

- Qardaş, dükanın ətrafında da zibil var. Sonra oranı da yığışdırarsan.

Hüseyn müəllim heç nə demədi. Sadəcə başını bulayıb, gülümsədi.

Bakı-Ələt yoluyla Yardımlıya gedirəm. Yol boyu on sıra ağac əkirlər. Özü də ki, çox, lap çox. Görəsən bitirə biləcəklərmi. İnanmıram ki, bu çöllü-biyabanda yaşıllıq zolağı salmaq mümkün olsun. Amma Cəngi yadıma düşür. Hüseyn Bağırovun Ekologiya və təbii sərvətlər naziri kimi ilk layihəsi. İndiki dildə desək, uğurlu layihəsi. Ələt yolu boyu da meşəlik olacağına inanmağa başlayıram. Çünki Hüseyn müəllimə inanıram.

# ATA OĞLUNU CƏZALANDIRDI

SOVET DÖVRÜ

- Məmməd kişi, oğlunun çıxartdığı hoqqalardan xəbərin var?
- Var. Amma xahiş edirəm, bir də onun adını yanımda çəkmə. Biabır edib öz hərəkətləriylə məni el içində. Ona görə evdən də qovmuşam, oğulluqdan da çıxarmışam. Hələ daimi qeydiyyatdan da. Vəsiyyətnamə də yazmışam ki, mirasdan ona bir çöp də çatmasın.

MÜASİR DÖVR

- Mamed, oğlunun çıxartdığı hoqqalardan xəbərin varmı?
- Var. Xahiş edirəm, bir də onun adını yanımda çəkmə. Biabır edib öz hərəkətləriylə məni. Ona elə bir qulaqburması vermişəm ki, ömrünün axırına qədər yadından çıxarmayacaq.
- Evdən qovmusan?
- Yox.
- Oğulluqdan çıxarmısan?
- Yox.
- Mirasdan məhrum etmisən?
- Yox.
- Bəs nə etmisən?
- Bunlardan da böyük cəza vermişəm. "Feysbuk" səhifəmdəki dostluq qrupundan adını silmişəm. Özünü də bloka salmışam. Qoy indi yanıb tökülsün.

# ELDƏNİZ ELGÜNÜN "40"-ı ÇIXDI

HAYIF ONDAN, "HEYF "

Bu başlığı oxuyanda bəziniz heyfsləndi. "Hayıf ondan" dediniz. Cavan idi. Uşaqları da balaca. Üstəlik əlavə də elədiniz ki, "vallah xəbərim olmayıb. Bilsəydim hökmən başsağlığına gedərdim. Yaydır da... Burda olmamışam yəqin. Saytlar da yazmayıb e bu haqda. Axı, tanınmış jurnalistdir. Nə əcəb?!".

Bəziləri isə sevinəcək. "Axır ki" deyib dərindən köks ötürəcək və "arvad, yadındadır da nələr yazırdı məndən, hamısı da düz. Komissiya-komissiya dalıyca düzülürdü. Hər gün "tərlədirdilər" məni. Pul da götürmürdü ki, ağzını bağlayım" deyəcəklər. Amma bir yandan da heyfslənəcəklər. "Xəbər tutsaydım hökmən yasına gedərdim. Ən böyük arzum idi ki, onun halvasını yeyim. Heyf. Arzum ürəyimdə qaldı" əlavə edəcəklər.

Başladığım yazıya elə buradaca nöqtə qoymaq olardı. Bu, dostum Eldənizin xarakterinin bütöv açması idi. Yekun vursam belə deyərdim: Eldəniz dostuna dost, düşməninə düşməndir.

"40"

Zarafatım və girişim çox kobud alınsa da bunları yazmağa məcbur idim. Düzdür, siz başqa cürə başa düşdünüz. Amma Eldəniz Elgünün həqiqətən də 40-ı çıxdı. 41-inə qədəm qoydu.

İnsanın bu həyatda bir neçə dəfə qırxı çıxır. Anadan olanda, qız ərə gedəndən sonra, qadın doğandan sonra, yaşayıb 40 yaşına çatanda və ən nəhayət dünyasını dəyişdikdə. Yəqin ki, bu rəqəmdə nəsə var. Olmasaydı uzun əsrlərdən, nəsillərdən gəlib bizə çıxmazdı ki...

Bütün qırxları canla-başla keçiririk, qeyd edirik. Amma nədənsə 40 yaşı keçirməyi heç kim istəmir. 45-ə saxlayırlar. Amma inandırım sizi ki, boş sözdür. Özüm, daha doğrusu atam sınaqdan çıxarıb:

HAŞİYƏ: Mən və yoldaşım Sevinc 40 yaşına çatmışdıq. Atam da yubileylərə hazırlaşırdı. Özü də ayrı-ayrılıqda. Qonaqları da çağırmışdı. Sevinc hey etiraz edirdi. "Qırx yaşı qeyd eləmirlər". Atam da belə deyimlərə-zada inanmadığı üçün "əla ziyafət təşkil elə, vəssalam" deyərək durmuşdu. Nəhayət yoldaşımın 40 yaşını qeyd elədik. Qonaqlar, gəldi getdi.

- Hə, gəlin, gördün nə yaxşı keçdi? Sən isə deyiridin ki, 40-ı keçirmək olmaz. Heç nə olmadı ki... Özü də ki, nə qədər qabağa düşdük.

- Necə yəni qabağa düşdük?

- 40-la cüməaxşamını birləşdirdik.

Ağlımıza da gəlməzdi ki, atam bu məqamı tuta bilərdi. Demə həmin gün həftənin dörcüncü gününə - cümə axşamına düşübmüş. (SON)

İndi mən də sağam, yoldaşım da… heç nə olmayıb. Artıq 50-yə hazırlaşırıq. Bunu ele-belə yazdım. Birdən Eldəniz qeyd eləməz, 40-ı bəhanə gətirər.

## SAAT

İndi deyəcəksiniz ki, axı 40 yaş nədir ki, hələ durub bunu qeyd edəsən. Üstəlik bir məqalə də yazıb aləmə car çəkəsən. Mən də elə düşünürdüm. Amma hər bir yazının meydana gəlməsinə bir qığılcım bəs edir.

Çoxdan Modern.az saytında səhifəyə qoyulmasına baxmayaraq "Rauf Arifoğluyla foto-söhbət"ə bugünlərdə baxdım.

Ordakı dörd şəkil məni yaman tutdu. İkisi türmədə - İqbal Ağazadə və Pənah Hüseynlə - çəkdirdiyi, biri Həccdən qayıtdığı vaxt, o biri də Azərbaycanın Avropa Şurasına qəbulla bağlı müzakirələrdə çəkdirdiyi şəkillər. Düzdür bu şəkillərin sayı çox da ola bilərdi. Bəzi tarixi məqamları da özüm göz önündən keçirdim.

Cəmiyyət, dövlət böyük saata bənzəyir. Bu saatın əqrəblərini hərəkətə gətirən isə içindəki xırdaca elementlər, vintlər, pərlərdir. Bəziləri, əksəriyyəti tərsinə fırlanır, amma saatın əqrəbləri elə saat əqrəbi istiqamətində - düzünə yoluna davam edir. Bu vintlər saatın, həyatımızın hərəkətverici qüvvələridirlər. Hərdən xarab olurlar, yollarını azırlar, türməyə salınırlar, bərpaya – tövbəyə ehtiyac duyanda Həccə də gedirlər, əsgərliyə də göndərilirlər. Düz yola qayıdanları da olur, qayıtmayanları da. Amma 1988-ci ildən başlayaraq Azərbaycanda vint rolunu oynayan bu cavanları, gəncləri yaşadan tək bir amal olub – Azərbaycanın müstəqilliyi, sonra da dövlətçiliyimizin möhkəmləndirilməsi. Saatın düzgün işləməsində xırda detal olan bu şəxslər artıq 40-ı haqlayıblar. Ötüb-keçən illərdə hansı mərhumiyyətlərdən keçmələrinə baxmayaraq müqəddəs amallarına sadiq qalıblar. Onların çoxu cəmiyyətə məlum deyillər. Ona görə də belələrinə "Papaq altında yatan oğlanlar" deyirlər.

Nə isə… qayıdım mətləbə. Rauf Arifoğluyla foto-söhbətə baxdım. Və Eldəniz Elgünün 40 yaşına bu yazını yazmağa qərar verdim. Çünki bu saatın xırda vintlərindən biri də məhz odur.

## İLK TANIŞLIQ

Biriylə tanış olanda milli mentalitetimizə uyğun olaraq soruşuruq – "Hardansan?" Bəzi söz başa düşməyənlər hardansa, kimdənsə eşitdiklərini tutuquşu kimi təkrar edirlər – "Azərbaycanlıyam". Onda sualın birini də verirəm. Mən axı soruşmadım milliyyətin nədir, mən soruşdum ki, hardansan,

kökün, əsl-nəcabətin hardandır? Dağ havası udmusanmı, yoxsa aran? Bulaq suyu içmisənmi, yoxsa çay? Axı hər el-obanın, kəndin öz adət-ənənələri, öz mentaliteti var. Baxmayaraq ki, vahid Azərbaycan ailəsiyik.

İlk tanışlıqda Eldənizə də bu sualı verdim. "Mən Qanlıdanam. Göycənin Qanlı kəndindən" dedi. Düzü qorxdum. Deməli bu kəndin camaatında nəsə var ki, el-oba bu kəndə o adı verib. Amma ona da arxayın oldum ki, Eldəniz təmiz dağ havası, saf bulaq suyu içib. Nə olsun ki, kəndlərinin adı Qanlıdır.

Bu özünü çox gözlətmədi. Eldəniz gündəmə elə vurhavurla gəldi. Binəqədi rayonunda çəkilişdə olarkən ANS-in müxbiri kimi icra başçısı İnqilab Nadirovun sürücüsü ilə əlbəyaxaya çıxdı.

Ondan əvvəl gənc Eldəniz AzTV-də, azad mətbuatda çalışmışdı. Jurnalist kimi ilk müəllimi Gəray Fəzli olmuşdu. Jurnalistikaya bu gəlişi isə maddi ehtiyacdan doğmuşdu. Orta məktəbdə oxuyarkən sinifdə Yeni il gecəsi, o vaxtkı dillə desək "veçer" təşkil olunur. 10-cu sinif şagirdləri də müəyyən məbləğdən yığmağa qərar verirlər. O cümlədən Eldəniz də. Bəs pulu hardan alsın? Bakıda yenicə məskunlaşan ailədə restoranda keçiriləcək veçerə veriləcək pul hardaydı? Ona görə də Eldəniz Gəray Fəzlinin baş redaktoru olduğu qəzetə gedir. Kuryer işə düzəlir. Sonra isə onun qələmini də yoxlayırlar. Uğurlu alınır. Beləcə uzun jurnalistika yolunun əsası qoyulur.

## HEYDƏR ƏLİYEV VƏ JURNALİSTLƏR

Heç kimə sirr deyil ki, Heydər Əliyev mətbuata və televiziyaya böyük önəm verirdi. Bunun mən AzTV-nin "Xəbərlər" redaksiyasında işlədiyim 11 il ərzində şahidi olmuşam. Hər xırda detala belə, tələbkar olan böyük Heydər Əliyevin sayəsində biz nəinki sözə, hər vergülə, nöqtəyə də diqqətlə yanaşırdıq. Əgər Prezident Adminstrasiyasının rəhbəri Ramiz Mehdiyevin də mətbuata professional yanaşmasını nəzərə

alsaq, o vaxt bu sahədə işləmək hər adamın işi deyildi. Xüsusilə də qəzet, jurnal, radio və ən nəhayət televiziyanın rəhbər strukturlarında.

O dövrdə yeni yaranan "Space" televiziyasının informasiya xidmətinin başına 27 yaşlı Eldəniz Elgünün gətirilməsi , baş redaktor, baş direktor, daha sonra sədr müavini təyin edilməsi onun siyasi cəhətdən yetkin, məmur kimisə bacarıqlı olmasından xəbər verirdi.

QƏLƏM

AzTV-də işləyirdim. Artıq Arif Alışanov sədr keçmişdi. Doğma saydığım AzTV haqqında mətbuatda gedən mənfi, (bəlkə də düzgün, ya da qərəzli) tənqidi materiallar məni də narahat edirdi. Bu kələfin ucunu axtaran zaman, yenidən Eldənizlə yaxınlaşdım.

Comərdcəsinə elə ilk görüşdə "Arif Alışanov qardaşım Şöhrət Eldənizi işdən çıxarıb. Əcəb eləyib. Qəbul edirəm. Müdirdir, özü bilər. Mən də müdir olmuşam. Kimlə işləməyimə özüm qərar vermişəm. Amma sonra bir məclisdə bu addımını qabardaraq məni təhqir edib. Onların yanında üzr istəsin – "savaşımı qurtarım" - qələmi qoyum yerə".

Daha başqa söz demədim. İnsan ilk növbədə öz ailəsini – atasını, anasını, bacı və qardaşlarını sevməlidir. Əgər belə deyilsə bu gün Eldənizin mənə qarşı gözəl münasibətinin doğruluğuna, səmimiyyətinə mən də heç vaxt inanmazdım.

Belə bir misal var: "Yetimə hay verən çox olar, pay verən az". Bunu müasir dövrlə uyğunlaşdırsam başqa cür alınar: "Yetimə hay verən də yoxdur, paydan söhbət gedə bilməz". Atam öləndən sonra əsəblərimdə pozğunluq yarandı, yəni ki, depressiyaya düşdüm. Bunun altını indi də çəkirəm. Həyata həmişə Qabilin gözüylə baxan, ona gözünü dikən, çətin anlarda üstünə qaçan, arxası olan Mən indi tək qalmışdım. Həyata öz gözlərimlə baxmalı, artıq mənə gözünü dikən ailəmə arxa olmalıydım. Qərarları da tək çıxarmalıydım. Tək qaldığım

ilk aylarda mənə çox adam ürək-dirək verdi. Hətta konkret olaraq iş də təklif elədilər. "Xalq Qəzeti", İTV, "Space" –dən. İnanıram ki, özüm də müraciət etsəydim mətbuat sahəsində digərləri də iş baxımdan mənə etiraz etməzdilər. Demə, o dövrdə mən indi çox dəbdə olan psixoloji dayağa daha çox ehtiyac duyurmuşam. Eldənizlə ikinci yaxınlığım məni yaşadığım depressiyadan çıxarmağa kömək oldu. Gənc, amma həyatın müxtəlif ziq-zaqlarından keçib gələn 33 yaşlı uşaq 41 yaşlı mənə çox şeyləri başa saldı. Özü də böyük hövsələylə, yavaş-yavaş. Azərbaycanlılara məxsus heç bir paxıllığa, siyasi xəsisliyə varmadan.

ELDƏNİZ, MƏN VƏ DOSTLAR SAĞ OLSUN

2012-ci ilin sonunda həyatımda demə yeni mərhələ başlayıbmış - Yaradıcılıq. Demə bunun adı publisistikaymış. Etiraf edim ki, bilmirdim. Amma yazırdım. İctimai-siyasi həyatdakı mövzulara çox toxunurdum. Amma çapa vermirdim. Cəmi iki yerə - "Azadlıq radiosu"nun saytına və "Kulis.az" saytına üç yazı təqdim etmişdim. 2013-cü il isə prezident seçkiləri iliydi. Mənə düzgün məsləhət verən birinə, amma yazılarıma həvəslə, ürəklə yanaşa biləcək insana, insanlara ehtiyacım vardı. Eldəniz Elgün yadıma düşdü. Axtarıb tapdım. "Unikal" qəzetində baş redaktorun müavini idi. Onun üzünə qəzetin baş redaktoru Asəf Rzayevlə, iş yoldaşları Hüseyn, Fərzuq, Zaurla tanış oldum. Mehriban, kiçik bir kollektivdir. "O dünyadan Elşad Abdullayevə məktub", "Ramiz Mehdiyev dünən və bu gün", "Köçürənlər və köçürülənlər" yazılarını Eldənizə verdim. Oxudu. O saat "Gunxeber.com" saytının rəhbəri Zabil Müqabiloğluya müraciət etdi. O da sağ olsun səhifəyə yerləşdirdi. Beləcə Eldənizlə üçüncü tanışlığımız başladı.

Yaradıcılığıma mərhum dostum İbrahim Ömərov da qoşuldu. Adlarını "senzura" qoymuşdum. Əgər hər ikisi desəydilər ki, "yazı yaxşıdır", əminliklə, ürəyim sakit sayta göndərirdim. Əlbəttə ki, Tağı Türkün tanış etdiyi Modern.az-ın rəhbərləri

Elşad Eyvazlıyla Əfqan Qafarlının da gözündən düzəldilməsi lazım olan ən xırda detallar da qaçmırdı.

Beləcə bir il yarıma Eldəniz mənim üzə çıxardığım 200-dən yuxarı yazımın ilk oxucusuna, tənqidçisinə çevrildi. Oxuyub "brak" etdiyi yazılarımın sayını isə demirəm. Utanıram, axı.

Eldəniz təkcə yazılarımı oxumurdu. Bədii yaradıcılığa, yəni ki, publisitik yazılardan hekayəyə keçməyə də o məni ruhlandırdı. Ən sonuncu isə bədii tərcümə. Görüşlərin birində dedim ki, Eldəniz, Leyla xanım Əliyevanın bir şeirini oxumuşam. Çox gözəl yazıb. Adı da "Gedim bir az ağlayım"-dır. Yaman tutub məni. Az qalmışdı ki, tərcümə etməyə başlayım. Dedi ki, elə də. Day nəyi gözləyirsən? Dedim ki, axı şair deyiləm, ömründə şeir yazmamışam. Cavabı tutarlı oldu: "Publisistik yazılar da yazmamışdın, hekayə də. Özünü sınadın, alındı. İndi də özünü sına". Cəhd elədim, tərcümə etdim. Oxuyub qəti rəy vermədi. "Əkbərə də göstər, o məndən yaxşı bilər" dedi. Beləcə qiymət verənlərim sırasına məni "ustad oğlu" deyə çağıran, tanınmış şair Əkbər Qoşalı da qoşuldu. Özünün zərif, dəqiq redaktələri, məsləhətləriylə.

BU QƏDƏR

Bir il yarımdır ki, Eldənizlə mütəmadi əlaqə saxlayırıq. Demək olar ki, hər gün. Çay içirik. Yeyib-içirik. Bu söhbətlərdə nə qədər yazılarım yaranıb. Eldəniz özünün "Erməni psixologiyası" kitabını yazıb başa çatdırıb. Beləcə gəlib 40-a çıxıb. Böyük yaş deyil. Amma bildiklərinin, gördüklərinin, keçdiklərinin, yaşadıqlarının müqabilində ona 60 yaş verərdim. Amma bircə dənə pis xasiyyəti var. Allah heç kimi onun qələminin altına salmasın. Heç düşmənimə də arzu eləmirəm.

A, indi yadıma düşdü. Bütün bunları yazdım ki, Eldəniz qorxmayıb 40 yaşını ürəklə qeyd eləsin. Yadımdan çıxmışdı ki, içkini tullayıb. Onunla da bir məclisdə oturdun, yemədin-içmədin, day nə ləzzəti? Bu qırxın, o biri qırxdan nə fərqi?

Eldənizi təbrik edirəm. 40-ı mübarək. Yenə də jurnalistika sahəsindədir. Psixoloqdur. Çox söhbətlər edirik, gerçəkliklərə varırıq, deyinirik, gileylənirik, ötən günlərə heyfslənirik. Amma Eldəniz Elgündə bir şey dəyişmir. Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə məhəbbət və sədaqət.

# HACIBALA ABUTALIBOVUN "KİŞİ" SÖZÜ

KİŞİ

Günlərin bir günü bir gənc məclisə düşür. Süfrə arxasında oturanlar soruşurlar ki, subaysan, yoxsa evli? Cavab verir ki, subay. Onda yaşlı nəslin adamları ona deyir ki, "Ey sultanlar sultanı, keç yuxarı başa". Bu, gəncin xoşuna gəlir.

Üstündən illər keçir. Bu gənc evlənir. Günlərin bir günü yolu yenə də həmin məclisdən düşür. Məclis əhli də həmin gəncin evləndiyini bilirmiş. Bu dəfə ona xitabən "ey kişilər kişisi, keç süfrə arxasına" deyirlər. Bu müraciət, yəni öz aləmində sultanlıqdan kişiliyə "eniş" gənci əsəbləşdirir. Ona görə yenidən sultanlıq titulunu geri qaytarmaq üçün evə gedir, heç bir səbəb olmadan arvadı boşayıb, atası evinə qaytarır. Bir neçə gündən sonra yenə həmin məclisə gəlir. Bu dəfə məclis əhli ona acıqla baxaraq "rədd ol burdan, ey oğraşların oğraşı" deyib, qovur.

BALACA KİŞİ

Hər bir insan bu dünyaya ya oğlan, ya da qız doğulur. Doğulandan evlənənədək sultanlıq həyatı keçir. Yalnız evləndikdən, evə gəlin gətirdikdən sonra oğlan kişi, qadın isə xanım olur. Dünya xalqlarında bu, müraciətlərdə özünü biruzə versə də, Azərbaycanda son illərdə əhəmiyyətini itirib. Fransız cəmiyyəti də ərə getməyənə "madumazel", ərə gedənə isə

"madam" müraciətini birləşdirib "madam" etmək niyyətindədir. Amma bizdə bir yaşında uşaq da ağlayanda "yekə kişisən, kişi də ağlayar?" deyirlər. Atam bu məqamı üç yaşlı dayım oğlu Xəzriyə yazdığı "Yekə kişi" şeirində belə təsvir edib:

*Xəzri bu səhər*
*Ağladı bərkdən,*
*-Bağçaya getmək*
*İstəmirəm mən.*
*Anası dedi:*
*-Xəzri, bu nədi?*
*Yekə kişisən,*
*Başa düşürsən?*
*Xəzri hıçqırıb*
*Soruşdu: - Məgər*
*Yekə kişi də*
*Bağçaya gedər?!*

Bütün atalar istəyir ki, oğlan uşaqları kiçik yaşlarından başlayaraq kişilik məktəbi keçsinlər. Bəziləri örnək olur, bəziləri isə eləcə dildə uşağına "yekə kişisən" deməklə çulunu sudan çıxarır. Hətta sünnət mərasimini əməlli başlı pulyığma mərasiminə çevirirlər. Arqumentləri də güclü olur: "Allah bilir bu uşaq nə vaxt böyüyəcək, arvad alacaq ya almayacaq, toy eləyəcək, ya qız qaçıracaq - o günü mən görəcəyəm, ya yox. Yaxşısı budur, toyu indi edim. Toylarına getdiklərim də gəlib "borc"larını – atdıqlarım pulu indi geri qaytarsınlar".

## KİŞİLİK MƏKTƏBİ

Vaxt ötür, il dolanır. Ömrü boyu "kişisən", "yekə kişisən" sözü eşidən oğlan uşağı – "kişi qırığı" orta məktəbi qurtarır. Ata-ana valı dəyişir. "Oxu, yaxşı hazırlaş. Ali məktəbə girə bilməsən əsgərliyə aparacaqlar". Baxmayaraq ki, əsgərlik əsl kişilik məktəbi sayılır. Bəs ata-ana niyə oğlunu bu yoldan

saxlamaq istəyir. Aydındır ki, oxumaq lazımdır. Daha yüksək bilik almaq üçün. Bəs bunun əsgərliyə nə dəxli? Deyəcəksiniz ki, axı, bir il daxil olmasa, əsgərliyə getsə, bildikləri də yadından çıxacaq. Düz deyirsiniz. Amma gəlin özümü aldatmayaq. Oğlan, ali məktəbi qurtarır. İndi də magistraturaya girməlidir ki, əsgər getməsin. Sonra doktorantura və sairə. Nəhayətdə "Əlvida, kişilik məktəbi!".

25 yaşına çatan bir şəxs görəsən hansı məktəbi keçdi? Nəhayət evlənmək. Kişi olmaq. Yad bir ailənin qızını gətirib xanım etmək. Bir il yarımlıq əzablı, əziyyətli, mərhumiyyətli əsgərlik yollarından keçmədən. Təsadüfi deyil ki, türklər əsgər getməyən gəncə qız vermirlər.

Bir subyektiv fikrimi deyim – razılaşa da bilərsiniz, razılaşmaya da. Azərbaycan qadını bu gün Azərbaycan kişisindən daha güclüdür. Çünki məktəbi güclüdür. Analar qızlarına daha yaxşı dərs keçir, nəinki atalar. Bu gün qadınlar daha yaxşı, yüksək məvacibli iş tapa bilirlər. Ailənin, ata-ananın dayağıdırlar. Əri, qaynanası, atası evdən qovan, uşaqlarıyla küçədə qalan ən pisi belə, alqışa layiqdir. Özünü satar, amma... Bunu xırdalamaq istəməzdim. Bircə atalar sözü deyim başa düşün: "Uşaq atadan yox, anadan yetim qalır"...

Kişi olmaq isə çox asandır. Türk dilində cins bölümündə erkək yazırlar. Bizdə isə yeni doğulmuşa da "kişi".

## KİŞİ TİTULU

Mənim aləmimdə kişi – ailə quran, başında durmağı, hər təhlükədən qorumağı bacaran insana deyilir. Kişi olmaq böyük məsuliyyətdir. Əlbəttə ki, bura xasiyyəti, xüsusi keyfiyyətləri də əlavə etmək lazımdır. Ailənin hər bir üzvü bu sözün təşəkkül tapmasında məsuliyyətlidir. Allah eləməmiş, ola bilər ki, evin xanımı, qız-gəlin elə bir hərəkət edər, papağından - kişi adından məhrum olarsan. Keçmişdə bu qəbahəti, xəyanəti qanla yuyardılar. İndinin özündə də belə hallar var. Sovet qanunvericiliyi belə xəyanətə görə qətl törədən kişilərə

güllələnmə cəzası vermirdi. 7-8 il həbs cəzasıyla cəzalandırırdı. Türmədə də belələrinə böyük hörmətlə yanaşılırdı. Bəs indi necə? Deyim siz də gülün.

Televizorda göstəriblər. Daha doğrusu təbliğ ediblər. Arvadı çobana xəyanət edir. Çoban bunu bilir. Neyləsə yaxşıdır? İki-üç dənə qoyun satıb, puluna evində kamera qurur, arvadının xəyanət epizodlarını lentə alıb, televiziyalardan birinə göndərir. Öz aləmində arvadını bütün el içində biabır edir. "Bərəkallah "kişi"!"

Yaxud da qadın jurnalistlərdən birinə kişilərdən pis-pis təkliflər gəlir. O isə qardaşına, ərinə demir. "Feysbuk"a çıxaraq, həmin adamları adlarını açıqlamaqla hədələyir. Bəs görəsən ərinə niyə demir? "Feysbuk"u kişi sayır,ərini yox?

## KVN-İN KİŞİ SÖHBƏTİ

Nə isə. Çox çətin məsələdir sözün əsl mənasında kişi olmaq. Yazdıqca uzanacaq. "Dəli Kür"ə baş vurub, başqasının arvadını qaçıran Cahandar ağadan da misal gətirmək olar, "Kişi sözü" adlı bədii filmdən də... Hələ "Avropa" otelinin qabağındakı "kişicik"ləri demirəm. Uzun məsələdir.

Məqsədim isə tam başqadır. Çox hörmət bəslədiyim Hacıbala Abutalıbovun – "Azərbaycanda bir dənə Kişi var, o da bizim prezidentimizdir" cümləsi. İndi deyəcəksiniz ki, ilin əvvəlində söylənən bu sözə altı ay sonra qayıtmaqda Mahirin nə məqsədi?

Mən o cümlənin mənasını gözəl başa düşürəm. Amma "KVN-Parni iz Baku" teatrının sonuncu tamaşasındakı 20 dəqiqəlik "Milli Məclisin iclası" bölümü, "Kişi söhbəti"ni gülüş hədəfinə çevirməyi məni bu yazını yazmağa məcbur elədi. Bir də ki, fevral ayında bu mövzuda yazı yazmışdım. İzah etmişdim ki, Hacıbala Abutalıbov prezidentin fərmanıyla təyin olunmuş bir icra məmurudur. O, Bakıda dövlət başçısının iradəsini həyata keçirir. Hər hansı sakinin ona minnətdarlığı prezidentimizə ünvanlanmış sayılmalıdır. Sakin də

alqışı Hacıbala müəllimə yox, prezidentə ünvanlamalıydı. Amma ictimailəşdirmədim. Elə bildim ki, bəzi anlamazlar anlayacaqlar.

EVİN KİŞİSİ, EVİN XANIMI

Kişidən danışıb, arvaddan danışmamaq günah olardı. Çünki, yuxarıda qeyd etdiyim kimi kişini kişi edən qadındır. Yox, içki məclislərində arvaddanqorxan kişi təəssüratı yaradan bəziləri kimi sağlıq demirəm.

AzTV-də işləyirdim. Otaq yoldaşım Esmira Çərkəzqızı həm də "Səhər" proqramının şənbə buraxılışının aparıcısı idi. Hər verilişdə telefon bağlantıları olardı. Telefon edənlərin də çoxu evdar qadınlar idi. Verilişdən sonra otağa qayıdan Esmira xanım əsəbindən partlayardı: "Soruşuram ki, ay xanım, nə işləyirsiniz? Cavab verir ki, ev xanımıyam. Yaxşı, mən televiziyada işləyirəm, belə çıxır çöl xanımıyam?". Biz də gülüşərdik. Amma indi anlayıram  ki, telefon əlaqəsi yaradan qadınlar öz evdarlıqlarını yox, özlərini evlərinin başçısı kimi təqdim edirlərmiş. Evin kişisi varsa, evin xanımı da olmalıdır.

"EVİN KİŞİSİNİ SORUŞARLAR…"

Fərman Kərimzadənin "Axırıncı aşırım" əsərini oxuyan az olsa da, bədii filmə hamı baxıb. Bir epizodu xatırladım. Şadlınski iki silahdaşıyla həyətə girir. Bunları Qəmlo qarşılayır. Qəzəblə soruşur ki, nə lazımdır, kimi istəyirsiniz? Abbasqulu bəy də cavab verir ki, "evin kişisini soruşarlar".

Filmin bu yerinə çox baxmışıq. Ləzzət də eləyib. Görəsən Qəmlo kişi deyildimi? Tarixə müraciət etsək, bu tarixi şəxsiyyət öz el-obasının qəhrəman övladlarından olub. Amma filmdə qaniçən kimi göstərilən bu adam da Kərbəlayının el-oba içində hörmətini-izzətini, ondan bir baş yuxarı, yəni ağsaqqal - evin kişisi olmasını qəbul edir. Əvvəlcə əlini tapançaya atsa da, Abbasqulu bəyin bu sözlərini udur. Biz tamaşaçı

və oxucular da bu detalı çox asanlıqla qəbul edirik. Heç bir müzakirəyə varmırıq. Görəsən niyə? Çünki ailədə, obada kişi cinsinə mənsub insan çox ola bilər. Amma evin kişisi, elin ağsaqqalı tək olur. O cümlədən də xanımı, ağbirçəyi.

## "KİŞİ" KEÇDİ

Mən uşaq olardım. Yanımda atam və dostları danışanda tez-tez "kişi" sözü işlədərdilər. Başa düşmürdüm kimi deyirlər. Sonradan bildim ki, Bu "Kişi" o "kişi"dən deyilmiş. Atamgil bu sözü işlədəndə o zamanlar iki nəfəri nəzərdə tuturlarmış. 1937-53-cü illərdə yaşadıqları qorxulardan danışanda Azərbaycanın rəhbərlərindən olan Mir Cəfər Bağırovu, o biri isə həm də mənim müasirim olan, intibah dövrü yaşayan respublikamızın rəhbəri Heydər Əliyevi. Demə o vaxt ratsiyayla milislər belə bir-birinə "Kişi keçdi", "Kişi yaxınlaşır" deyə xəbər ötürürlərmiş. Onu da qeyd edim ki, bu "Kişi" sözü, o biri "kişi" sözündən deyildi. Bu söz cümlənin əvvəlində də, ortasında da, axırında da böyük hərflə yazılırdı.

## KİŞİ ADAM

"Əəə, sən öl, kişi adamsan". Bu sözü məişətimizdə tez-tez eşidirik. Biri səndən borc pul istəsin, çıxart ver, o saat belə deyəcək. Pulu verməsən deyəcək ki... Məsələn, məndən dostlar qonaqlıq istəyəndə, mən də imtina edəndə bilirsinizmi nə deyirlər? Deyirlər ki, "aton yaxşı kişiydi, o qədər qonaqlıqlar verib bizə. Heyf, sən ona oxşamadın. Heyf".

Amma əslində bu söz mərd adamlara deyilir. Hansısa qeyri-adi addımlar atan, xalqının tarixində, qəlbində yaşayan insanlara şamil edilir. Yaxud da şəxsi münasibətlərdə sınanılan, sədaqət imtahanından üzüağ çıxan adamlara da kişi adam deyirlər. Mən bu sözü Heydər Əliyevin dilindən bir dəfə - 1997-ci il yanvarın 7-də eşitmişdim. Atam şair Qabilə demişdi. Əlbəttə ki, sədaqətinə, bütövlüyünə görə. AzTV-nin fondunda videoyazısı durur.

## KÖHNƏ KİŞİLƏR

Bu sözə layiq insanlar çox azdır. Bəlkə də barmaqla göstərilir. Hər adam bu sözə layiq ola bilmir. Atamdan tez-tez eşidərdim bu sözü. Belə deyərdi: "Filankəs bir sözə bu məsələni həll etdi". Bilirsinizmi niyə ad çəkmirəm? Çünki atamın həyatında beləlməri çox idi. Mənim indiki həyatımda belələri az qalıb. Yalnız birini yazıb qeyd eləmişəm. İstəsəniz oxuyarsınız. Adı belədir – "İlyas Əfəndiyev, Qabil, Hacıbala Abutalıbov köhnə kişilərdəndir". O biriləri də vaxtı gəldikcə yazacağam.

## HAMI BİR KİŞİNİ TANIYIR

Respublikamıza hansı qonaq gəlirsə, hamısı Azərbaycanın 1-ci şəxsiylə görüşməyə can atır. Buna nail olanlar özünü xoşbəxt sayırlar. Respublikada kimsə, hansısa haqsızlıqla qarşılaşırsa Prezidentdən imdad diləyir. Dövlət başçısına məktub yazır. İkinci ünvan isə Azərbaycanın 1-ci Xanımı Mehriban Əliyeva olur. Onu da qeyd edim ki, "Azərbaycanın 1-ci Xanımı" tituldur, rəsmi vəzifədir. Gündəlik həyatdakı müraciət, hörmət formasından fərqli olaraq "Xanım" sözü böyük hərflə yazılır.

Deyəcəksiniz ki, bunları hamı bilir, təkrarlamağa nə ehtiyac var? Düzdür, burda qeyri-adi bir şey yoxdur. Çünki Azərbaycan dövləti də böyük bir ailə, evdir. Yüz minlərlə ailənin, evin toplumudur, o cümlədən mənim, Hacıbala Abutalıbovun, İmanovların ailəsi də bu böyük ailənin bir zərrəciyidirlər. Bu dövlətin başında isə İlham Əliyevlə Mehriban Əliyeva durur. Bu ailənin, evin Kişisi İlham Əliyev, Xanımı isə Mehriban xanım Əliyevadır. Bunu hamımız bilir, başa düşür, qəbul edirik.

Buna görə də Hacıbala Abutalıbovun heç bir mübaliğəyə, ifrata varmadan söylədiyi "Azərbaycanda bir dənə Kişi var, o da bizim prezidentimizdir" cümləsini çox təbii qəbul edirəm. Hətta öz versiyamı da irəli sürərdim. Azərbaycanın 1-ci

Kişisi İlham Əliyev, 1-ci Xanımı Mehriban Əliyevadır. Yaxud da “Evin kişisi tək olar”.

Amma KVN teatrının bu cümləni və mövzunu gülüş, satira və ya yumor obyektinə çevirməsi ilk baxışdan gülüş doğur-sa da mənim xoşuma gəlmədi. Hadisələrə həmişə çox həssas, incə yanaşan, böyük tarixi olan, bu sahədə uzun yol keçmiş, ən nəhayət böyük bəstəkar, köhnə kişilərdən olan Süleyman Ələsgərovun məktəbini keçmiş bir nəvənin rəhbərlik etdiyi teatr bu mövzuda yanlışlığa yol verdi. Qırmızı xətti keçdi. Sadə dillə desək, Kişi söhbətinə nahaq qarışdı. Özü də Heydər Əliyevin adını daşıyan sarayda.

# BİZİM TELLİ PƏNAHQIZI

Qonaq. Allah qonağı. "Allaha da qurban olum, qonağına da". "Qonaq qonağı istəməz, ev yiyəsi heç birini".

Qonaq haqqında çox misallar, lətifələr var. Neçəsi də sizin yadınıza düşdü. Amma elə qonaq var ki, gündəlik həyatımızda onları seçmirik. Qonaq da çağırmamışıq, vaxtsız qonaq kimi gəlişinə sevinməmişik. O evimizin yeganə sevimli qonağı olub. Sadəcə düyməciyə basmışıq, nağıllardakı kimi qarşımızda peyda olub. Hətta adını nağıllardakı kimi "Sehrli güzgü" də qoymuşuq. Mən də ağlım kəsəndən, 1970-ci ildən bu televiziyanın pərəstişkarlarından olmuşam.

Ordan bizə baxanların adlarını, familiyalarını, apardıqları verilişlərin adını əzbər bilirdim. Bəzilərinin ailə həyatını da. Çünki atam tez-tez Azərbaycanda yeganə olan AzTV-nin qonağı olurdu. Onda AzTV demirdilər. Telestudiya çağırırdılar. İlk adı belə olduğundan. Atam da o Bakı Telestudiyasında bir müddət çalışmışdı – Ənvər Əlibəyli, Seyfəddin Dağlı, rəssam Ağarəhim və digərləriylə birlikdə. Ona görə də televizorda kimisə görəndə əlavə şərhini də verirdi. Bu Gülşəndir – Məmməd Əkbərin qızı, bu Şahindir, bu Şəfəq – Ənvər Əlibəylinin övladları, İlqar Əlfi Qasımovun oğludur, Yusif Günaydın müəllimim Mirzə Cavadın oğlu. Qorxmaz Əlili Cəfər Cabbarlının müasiri, böyük aktyorumuz Məhəmməd Əlilinin övladıdır. Təqdimatlar çox idi. Hamısını yazsam, mövzudan çox kənara çıxaram.

Bu verilişlər içində ən çox sevdiyim isə "Günün ekranı" idi. Bilməzdim ki, nə vaxtsa özüm də bu redaksiyada işləyəcəyəm.

Amma əksər jurnalistləri üzdən tanıyır, ad-familiyalarını əzbər bilirdim. Diktor-aparıcıları demirəm, onları bütün respublika tanıyırdı. Hamı elə bilirdi ki, televiziyada onlardan böyük adam yoxdur, televiziyamızın rəhbərləri də məhz onlardır. Amma onlar televiziya sədrlərindən irəlidəydilər. Müasir dildə desək, AzTV-nin siması -brendləriydi. Rafiqlər, Hicran, Sabir, Roza, Şərqiyyə, Tamilla, Gülşən, Sevda, Kəmalə, Nailə, Ofelya, Davud. Çoxları onların heç familiyasını da bilmirdilər. Çünki hər evin doğma övladlarıydılar.

Belə bir qayda var. Yazı yazanda ad çəkməzlər. Kimsənin adı yadından çıxarsa, həmin adamlar müəllifdən inciyə bilərlər. Amma yazmaq lap yadımdan çıxsa belə, nəinki onlar, bütün AzTV və qocaman radiomuz həmişə mənim yaddaşımda, ürəyimdədir.

Amma televiziyamızda elə simalar da olub ki, onlar özləri ayrılıqda bir simvola – brendə çevriliblər. "Xəbərlər" proqramında çalışarkən, demək olar ki, hər gün Ənvər Qafarlının adı çəkilirdi. "Səhər" proqramı deyəndə Qullu Məhərrəmli o saat yada düşür. "Retro" kino zalı Ayaz Salayevin yetirməsidir. "Səhər görüşləri"ni, "Dalğa" proqramını, "215KL"-i necə, yaddan çıxaran varmı? Əsla.

Bu seriyaya bir verilişi də əlavə etmək istərdim: Telli Pənahqızının müəllifi olduğu "Mədəniyyət xəbərləri". İndi irad tutacaqsınız ki, Telli xanımı niyə quru-quru təqdim etdim. Əvvəlinə tanınmış telejurnalist, teleaparıcı, televiziya xadimi, şairə, tərcüməçi, müəllim, rəhbər, iş yoldaşım kimi təqdimatlar qoymadım. Hələ rəsmi dövlət təltiflərini demirəm. Tələsməyin.

## İLK TANIŞLIQ

Cəmiyyətin ən həssas təbəqəsi ziyalılar sayılır. Çox çətin adamlardır. Hər biri fərdi yanaşma tələb edir. Jurnalist ona yaxınlaşmazdan qabaq, oxumasa da, eşitməsə də, görməsə də heç olmasa bir-iki əsərinin adını əzbərdən bilməlidir ki,

istədiyini, yəni ki, müsahibəni ondan ala bilsin. Azərbaycan televiziyasında bu sahənin ASları çox idi. Nahid Hacızadə, Mailə Muradxanlı, Vəlixanlılar, həm də televiziyanın rəhbərliyində təmsil olunanlar. Çünki ziyalılar cəmiyyətin qaymaqları olduğu üçün televiziya ekranı da məhz onların üzünə açıq idi.

Belə bir dövrdə xüsusi olaraq "Günün ekranı" proqramının sonunu gözləyirdim. Bilməyənlərə deyim ki, "Günün ekranı" sovet vaxtı 21.00 –da efirə çıxan yarım saatlıq informasiya proqramı idi. Moskvanın "Vremya" proqramı kimi. Məhz bu proqramın sonunda mədəniyyət xəbərləri gedirdi. Və Telli Pənahqızının mədəniyyət tədbirləriylə bağlı süjetləri diqqəti xüsusilə cəlb edirdi. Məlahətli, ürəyə yatımlı səsini demirəm hələ. Hər həftənin şənbə reportajı isə xüsusilə maraqlı olurdu. Xüsusi bənzətmələri, təsvirləriylə bəzənən süjeti quru, boz xəbərlər proqramına bir istilik gətirirdi. Mən onu ilk dəfə belə tanıdım.

## ŞƏXSİ TANIŞLIQ

1996-cı ildə sədr Nizami Xudiyevin xeyir-duası, Baş Proqram direktoru Məmmədəli Zülfüqarovun məsləhətiylə məni AzTV-yə, Proqram direktorluğuna buraxılış redaktoru götürdülər. Yadınıza gələr. Adına AzTV-2 deyirdilər. Səhv etmirəmsə 18.00-da başlayar, gecə saat 11-12-yə işini yekunlaşdırardı. Əsasən AzTV-1-də yayımlanan verilişlərin təkrarı gedirdi AzTV-2-də. Buna da hesablanmışdı. İş əsnasında Telli xanımla yaxından tanış olduq. Böyük kabineti vardı. Sol əlinin ətrafında müxtəlif telefonlar. Birinin üstündə gerb vardı. Heyrətimi gizlətmədim:

- Telli xanım sizin hökumət telefonunuz da var? Deyəsən dörd nömrədir, hə?

Cavab vermədi. Sadəcə gülümsündü. Onda başa düşdüm ki, belə şeylərə əhəmiyyət vermir. Özünü sadəcə jurnalist sayır. Bir müddətdən sonra Telli xanımın otağında əlavə stol-stullar qoyulmağa, AzTV-2 özü veriliş istehsalına başladı.

Kollektivdə digər jurnalistlərimizlə də tanış olmağa başladım. Əvvəllər qadın koloniyalarındakı məhbuslarla bağlı çox kövrək, yanğılı verilişlər hazırlayan Firuzə Nadir, şirin ləhcəsi və qələmi olan Şərəf Cəlilli, adı kimi özü də, verilişləri də gözəl Ceyran Rəhimova, gənc jurnalist, sonralar "Xalq qəzeti"ndə birgə çalışdığım Aida Aysa, professional operator, mərhum Dünyamin Hüseynov, rejissor Elxan, indi estrada ulduzu olan balaca Xəyalə Manaflı və onun kiçik bacısı. Hazırlanan verilişlər də orijinallığı və yüksək səviyyəsiylə seçilir, sevilirdi. Xüsusilə də Xəyalə Manaflının və bacısının aparıcısı olduqları, balacalar üçün "Çərək, çərək, gəl görüşək" verilişi. Bir buraxılış redaktoru kimi vəzifə borcum idi verilişləri izləmək. Amma "Çərək, çərəy..."i çox sevirdim. Musiqi məktəbində oxuduğum illəri yadıma salırdı. Vlades Pelşin ORT kanalında "Uqaday melodiyu" verilişinin açılmasına hələ illər qalırdı.

"MƏDƏNİYYƏT XƏBƏRLƏRİ"

AzTV-2-nin orijinal verilişlərindən biri də Telli Pənahqızının aparıcısı olduğu "Mədəniyyət xəbərləri" həftəliyi idi. Paralel olaraq AzTV-1-də də gedirdi bu veriliş. Telli xanım həftənin mədəniyyət mənzərəsinə son qoyurdu bu verilişlə. Şəxsən ziyalı ailəsindən olan məni qane edirdi. AzTV-2 ayrıca kanal təəssüratı yaradaraq əməlli başlı səs-küy qoparmışdı. Müsəlman mühitində yaşadığımızı, mentaliteti nəzərə alsaq, belə davam edə bilməzdi. Hökmən badalağ qoşub, verilişləri bağlayıb, kollektivi isə pərən-pərən salmaq lazım idi. Belə də oldu. Bəlkə də AzTV-2-nin kollektivi özü buna şərait yaratdı. Beləcə kanal içində yaradılan kanalın xoş ovqatına son qoyuldu. İşçilərin bəzisi radioyaya keçirildi, bəziləri də digər redaksiyalara. Heyf.

AzTV-2 LƏĞV EDİLDİ

Kollektiv ixtisara salınmaqla yanaşı, AzTV-2 də ayrıca qurum kimi yox, Baş proqram direktorluğunun bir şöbəsi

kimi fəaliyyətə başladı. Telli xanım da direktorun müavini oldu. "Xəzər" redaksiyasının "Üz-üzə" verilişi də çox maraq doğururdu. Bir müddətdən sonra isə İctimai Televiziyanın yaranmasıyla bağlı ümumiyyətlə ləğv edildi. "Mədəniyyət xəbərləri" isə yaxşı ki, bu ixtisardan kənarda qaldı.

## TELLİ XANIMIN İŞÇİSİ SAYILA BİLƏRƏM

Yaxşı bilirsiniz ki, mədəni tədbirlər əsasən axşam vaxtı olur. Yox, düz demədim – tamaşalar da, konsertlər də, yubileylər də eyni vaxtda başlanır. İndi gəl bunların hamısını lentə al və həftə sonu efirə gedən "Mədəniyyət xəbərləri"ndə işıqlandır.

Deyə bilərsiniz ki, birini, ya ikisini yaddan çıxarsaydı nə olacaqdı ki, dünya dağılacaqdı? Düz bildiniz. Çünki səhəri gün inciklik, umu-küsü dolu telefon zənglərinə məhz proqramın yaradıcısı və aparıcısı Telli xanım cavab verməliydi. "Telli xanım, unutmusunuz deyəsən məni", "Telli xanım, nə əcəb mənim yubileyimi işıqlandırmadınız?", "Telli xanım, sən Allah, düzünü de, Nizami (Nizami Xudiyev –Az.TV-nin sədri) çıxartdı məni efirdən?" və sairə, ilaxır. Hələ süjet nədir, zalda tamaşaçı kimi seyr edən ayrı-ayrı ziyalılar öz sifətlərini "Mədəniyyət xəbərləri"ndə görməyəndə də zəng edirdilər: "Öz gözümlə gördüm, Dünyamin çəkdi. Amma siz efirə vermədiniz".

Ona görə Telli xanım bütün mədəniyyət xadimlərinə çox diqqətlə yanaşırdı. Bir operator idi, bir özü, bir də rejissor. Hər şeyi də çatdırırdı. Necə?

Mədəniyyət tədbirlərinə "Xəbərlər" proqramı da gedirdi. Mən də onda "Xəbərlər" redaksiyasında işləyirdim. Şair, ziyalı çörəyi yediyimdən elə bil ki, məni "propiska" eləmişdilər sərgi salonlarına, yazıçılar, bəstəkarlar, rəssamlar ittifaqlarına, akademiyaya, konservatoriyaya, Mədəniyyət və İncəsənət universitetinə. Bəzən bir gecədə iki-üç yerə gedirdim. Hamısına da quru, xəbərlərsayağı 30-40 saniyəlik bir şey yazıb ötürürürdüm efirə. Amma kasetləri pozmurdum. Telli Pənahqızının

mədəniyyətimizə, ziyalılara, öz verilişinə, öz sənətinə böyük məhəbbətinin xatirinə. Çəkdiklərimi məndən götürür, süjet hazırlayıb elə bir şövqlə tamaşaçıya təqdim edirdi ki, mənim efirə verdiklərim olurdu ...

Bəzən sancmadan, bir müəllim kimi məsləhətlərini də verirdi. Hiss edirdim ki, "Günün ekranı"nda bir vaxtlar hazırladığı mədəniyyətlə bağlı süjetləri, şənbə reportajları yadına düşür: "Bax, yazırsan "payız". Nə olar ki, əvvəlinə artır "qızılı payız", Quru ifadələrdən çıx. Təsvirlərə yer ver. Axı, şair oğlusan?!"

Bir şeyi unutdum. AzTV-2 bağlansa da Telli xanımın nə otağını əlindən aldılar, nə də verilişini başqa redaksiyaların yedəyinə qoşdular. Avtonom qaldı. Atam Qabil demişkən: "Ayrıca gəmiyəm, öz bayrağım var".

## ŞAİRƏ TELLİ PƏNAHQIZI

Günlərin bir günü Telli xanım mənə kitab verdi ki, "atana çatdır. Şeirlər kitabımdır. Təzəcə nəşr edilib". Mən də çatdırdım. Üstündən üç gün keçmişdi ki, atam zəng elədi: "Telliyə de ki, o əsl şairdir. Belə də de". Yaxınlaşıb, atamın sözünü ona dedim. Zəng edib minnətdarlığını bildirdi. Sonra ərkyana: "dediyini yazsa Qabil müəllim, mənimçün böyük qiymət olardı" dedi. Atama çatdırdım bu arzunu. Razılaşdı. Heyf ki, xəstəliyi mane oldu. Bu sözləri isə qısa da olsa yazmaq mənə qismət oldu.

## "SPACE"

Üstündən illər keçdi. Mən AzTV-dən ayrıldım. Üç ay Speys-də işlədim. Burda da "Mədəniyyət xəbərləri" adlı veriliş gedirdi. Amma Telli xanımın hazırladığı verilişin yerini vermirdi. 2007-ci il dekabrın 31-də mənim televiziya fəaliyyətim başa çatdı.

TELLİ XANIM HARDAN YADIMA DÜŞDÜ?

Amma televiziyada işlədiyim illər heç yadımdan çıxmadı. Çünki orda işləyənlər yadımdan çıxmır. Böyük dərs keçdilər mənə. Özləri də bunu hiss etmədən. Hamısından yığdım. Doğurdan da böyük məktəb idi. Həyatımda üç böyük məktəb keçdim. Birinci Qabilin və onun ədəbi mühitinin məktəbini, ikincisi əsgərlik – kişilik məktəbini, üçüncü isə AzTV məktəbini. AzTV-dən uzaqlaşanı mənim köhnə həmkarlarımın, müəllimlərimin əksəriyyətini görmürəm. Təsadüfən bu gün internetdə rast gəldim ki, Telli xanım bu yaxınlarda öz yubileyini qeyd edib. Vallah, xəbərim olmayıb. Dəstəyi götürüb quruca təbrik də etməmişəm. Bir də ki, altı yaş nədir ki, bunu təbrik də edəsən. Amma günahımın böyük olduğunu nəzərə alıb ürək sözlərimi yazmağa qərar verdim. Yazıda xətalara yol verdiyimi bilirəm. Hansı?

HAŞİYƏ: Bir gülüş ustası haqqında yazı hazırlayırdım. Dedi ki, mən oxumamış çapa vermə. Yazdım. Adının yanına görkəmli gülüş ustalarımız Yaşar Nuri, Nəsibə Zeynalova, Səyavuş Aslan və digərlərini də əlavə etdim. Güclü alınsın deyə. Yazını bitirib, kağıza çıxarıb gəldim yanına. Qələmi əlinə alıb birinci elə onların adının üstündən xətt çəkdi. “Yazı mənim haqqımdadır, bunların adını bura niyə əlavə etmisən?” deyərək. (SON)

Telli xanım, sizin haqqınızda yazdığım bu yazı istərdim ki, davamlı olsun. Və müasirim, bir vaxtlar sadəcə iş yoldaşlarım olan digər televiziya korifeylərimiz də nə vaxtsa başladığım bu layihənin qəhrəmanlarına, gənc nəsillər üçünsə bir örnəyə çevrilsinlər.

SON

Hər dəfə televiziya fədailərimiz haqqında fikirləşəndə bir atalar misalı yadıma düşür. “Çörəyi ver çörəkçiyə, birini də

üstəlik". Çörəkçilər sağdırlar, tam həyat enejisiylə doludurlar, istedadlarının, bilik və bacarıqlarının pik nöqtəsindədirlər. Bircə çörəyi onlara vermək qalır, özü də birini də üstəlik.

Əvvəldə etmədiyim təqdimatın lap yeridir - tanınmış telejurnalist, tele-aparıcı, televiziya xadimi, şairə, tərcüməçi, pedaqoq, rəhbər, iş yoldaşım və ən nəhayət Azərbaycan mədəniyyətinin brendi olan "Mədəniyyət xəbərləri" verilişinin yaradıcısı, aparıcısı Telli Pənahqızı, bizim Telli xanım, yubileyin mübarək!

# MAŞIN SÜRMƏK ZÜLMDÜR

12 ilin sözü olar. Atam, anam, mən, həyat yoldaşım və iki qızım "Volqa" maşınımızda Yardımlıya gedirdik. Cümləm çox uzun oldu, eləmi? Yazsaydım ki, "ailəlikcə gedirdik" – bəs etməzdimi? Amma məqsədim var. Ona görə hamını qeyd etdim.

Maşını mən sürürdüm. Salyana çatmamış 100-cü kilometrdə yol ayrıcı var. Burda həm də çayxana, kafe fəaliyyət göstərir. Mən də maşını qaydasında sürürdüm. Ümumiyyətlə lap düz yolda da sürəti 80-dən yuxarı qaldırmazdım. Bu yerə çatanda birdən kafedən pişik çıxıb yola doğru qaçmağa başladı. Arxada maşın, qarşı tərəfdən də maşın gəlirdi. Əyləci bassaydım arxadan vuracaqdılar. Bəlkə də zəncirvari qəza yarana bilərdi. Sol tərəfə qaçırsaydım üzbəüz gələn avtomobilə çırpılacaqdım. Başqa əlacım qalmadı. Pişiyi basdım. Bir xırçıltı səsi gəldi. İndi də qulağımdadır. Bir az gedib maşını saxladım. Üzümə su vurdum. Atam yaşına görə sürücülükdən imtina etməsəydi bəlkə də ona verərdim sükanı. Bir az özümə gəldim. Amma düz Yardımlıyacan 50-dən yuxarı qalxa bilmədim. O xırçıltı səsi qulağımdan getmirdi. Rayon mərkəzlərinin içindən keçəndə piyadalar öz yerində, gözüm hey pişik axtarırdı. Qorxurdum. Mənəvi zərbə almışdım. Birdən pişik olmayaydı, adam olaydı – bəs onda nə edəcəkdim. Əyləci basıb maşını saxlaya biləcəkdimmi? Çox ölçdüm-biçdim. Gördüm ki, yox. Şükür elədim. Amma pişik də canlı idi. Məni polisə, müstəntiqə, məhkəməyə çəkmədilər, cəza da

vermədilər. Amma ki, cəzamı daxilimdə bu gün də çəkirəm. Bakının dar küçələrindən keçdikdə hər hansı bir dalandan, qapıdan yola uşaq çıxacağından ehtiyatlanıram. Pişik gəlib durur gözümün önündə.

## SÜRÜCÜ

Sürücülük sənət deyil. Amma çox məsuliyyətli bir işdir. Bu əhvalatı oxumusunuz. Amma təkrar etsəm yerinə düşər.

“Atam təzə “QAZ 24-10” maşını almışdı. Qarajdan çıxarıb silirdim. Bu dəm Bəxtiyar əmi (Bəxtiyar Vahabzadə) blokdan çıxdı.

- Salam, Bəxtiyar əmi.

- Salam, ay bala. Əlini (sürücüsü) görməmisən?

- Yox.

- Mən də tələsirəm. Harda qaldı bu?

- Bəxtiyar əmi, mən apara bilərəm.

- Yox, ay bala, yolda bir qəza-zad törədərsən... Sonra gəl Qabilə cavab ver.

Güldüm. Evli, bir uşaq atası olan mənə bu sözü deməyindən özü də... Nə isə, balkonda dayanan Dilarə xalaya “Əliyə deyərsən gələr universitetə. Mən tələsirəm, Mahirlə getdim” deyib əyləşdi maşına. Çoxdan ürəyimdə qalan sualı ona verdim.

- Bəxtiyar əmi, həmişə sizin də, atamın da maşını olub. Amma atam maşını özü sürür, Siz isə sürücü saxlayırsınız. Niyə?

- Ay bala, sürücü olmaq çox məsuliyyətli işdir. Birinci özünə cavabdehsən, ikinci maşına, üçüncü də maşında oturanlara. Mən bu boyda məsuliyyəti boynuma götürə bilmərəm”.

Bəxtiyar əmi bunu elə-belə demirdi. Özü maşın sürəndə nəsə olmuşdu ki, bu qənaətə gəlmişdi. Ona görə sürücülərin başqa adı da var: Potensial cani.

## BƏSTƏKAR, QONŞU SÜLEYMAN ƏLƏSGƏROV

Altı nəfərdən ibarət İmamverdiyevlər ailəsi tətilə gedirdik. Mən 4-cü mərtəbədən şey-şüyü daşıyır, baqaja yerləşdirirdim. Atamsa həyətdə var-gəl edirdi. Nəhayət dəmir qapını da bağlayıb anam, həyat yoldaşım, iki qızım həyətə düşdük. Gördüm ki, atam qonşumuz, bəstəkar Süleyman Ələsgərovla söhbət edir. Yəqin ona demişdi ki, rayona tətilə gedirik. Sağollaşanda birdən Süleyman əmi atama:

- Qabil, bütün ailəni bir maşına otuzdurursan?
- Hə. Mahir təkdir, başqa uşaq yox, nəvələr balaca. Çox olsaydılar iki maşın tutardım.
- Yox e... belə təhlükəlidir. Mən həmişə rayona gedəndə ailəni ayrı-ayrı maşınlara otuzdururam. Allah eləməmiş bir şey olsa kimsə sağ qalsın.

## YEDDİ SANİYƏ

Atamın xalası oğlu vardı – Əsəd xalaoğlu. Yeyib-içən kişi idi. Köhnənin də professional şoferi idi. Amma içəndən sonra sükan arxasına oturanda sanki ayılırdı. Bir dəfə mənə də öyüd-nəsihət kimi bir söz dedi:

- Mahir, yadında saxla, heç vaxt içib maşın sürmə.
- Niyə? Atam da içir, siz də. Sonra oturursunuz rula.

-Sən bizə baxma. Biz çətin düzələy. Amma bir şeyi başa düş ki, içki hər hansı situasiyada reaksiyanı 5-7 saniyə azaldır. Alə, bilirsən ki, 5 -7 saniyə nədir? Maşın sürəndə iki saniyə də bəs edər ki, kimisi görməyib basıb keçəsən. Bir də ki, qəza zamanı taqsır lap səndə olmasın. İçkilisənsə taqsırkar səni çıxardacaqlar.

Düzdür, buna riayət etmirdim. Atam öləndən sonra başladım əməl eləməyə. Çünki bir qələt eləsəydim dalımca polisə gələn olmayacaqdı. İndi-indi başa düşmüşəm ki, istər arxan olsun, istər olmasın adam içkili vəziyyətdə sükan arxasına

oturmaz. 48 yaşım var – deyəsən gec başa düşmüşəm, amma axır ki, başa düşmüşəm. Cavan uşaqlar da mənim yaşıma çatanda başa düşəcəklər.

## QAN BAHASI

Hərə bu sözü bir cürə başa düşür. Çoxu bunu kimsə kimsəni bilməyərəkdən öldürən vaxt, xüsusilə də yol-qəza hadisələrində , taqsırkar tərəfin dəfn xərclərini, dəymiş ziyanı ödəməsini, hətta ortaya nəğd pul qoyub bağışlanmasını diləməsini qan bahası kimi başa düşür. Bəzən bir nəfərin ölməsi bütün ailənin dirçəlməsinə, xoşbəxtliyinə, hətta qohum olmağına səbəb olur. Burda zərər çəkənlə zərər vuranın ailələrinin intellektual səviyyəsini qeyd etmək yerinə düşərdi. Amma atam danışdığı bir əhvalatla qan bahasının tamam başqa bir şey olduğunu mənə anlatdı:

“Qədim Bakıda, qoçularının pistoletlə gəzdiyi, bir sözə görə insanların hamının gözü qabağında bir-birini öldürdüyü vaxtda yaşlı ər-arvad küçəylə gedirmişlər. Birdən avaranın biri bunlara yanaşır. Arvada söz atır. Kişinin əli silaha gedir. Amma birdən dayanır. Avara da gülə-gülə qadına sataşmağında davam edir. Kişi səbr edərək, əlini cibinə salır. Bir beşlik qızıl çıxararaq avaraya verir. O da qızılı alır, ağzını yumur, sevinə-sevinə onlardan aralanır. Arvadı soruşur:

-Ay kişi sən nə edirsən? Öldürmədin öldürmədin. Heç olmasa bir şapalaq çəkəydin, uzanaydı yerə. Sən isə çıxarıb pul verirsən. Özü də qızıl.

-Arvad, bir səbrin olsun.

Beləcə ər-arvad yollarına davam edirlər. Səfil də pulu əlində oynada-oynada qabaqdan bir başqa kişiylə gələn arvad-uşağa yaxınlaşıb onlara da sataşır. Kişi də hirslənib, qəməsini çıxararaq soxur bu avaranın qarnına. O da sərələnib yerə ölür.

- Arvad, gördün? Mən ona pul verəndə o bədbəxt elə başa düşdü ki, mən sataşmağını qiymətləndirdim. Həvəslənib

gedib qabaqdakılara da sataşdı ki, bəlkə o da pul verə. Nəticədə qanına qəltan elədilər. Əslində isə o bir qızıl onun qan bahası idi. Qanı məndən uzaq oldu".

Düzdür, bu əhvalat inandırıcı görsənməsə də, öz ailəsinin qanını pulla qiymətləndirməyi – qan bahası deyib pul götürməyi şəxsən mən düzgün hesab etmirəm. Və bu cür insanlara pis baxıram. Bağışlayırsansa bağışla. Heç bir qan bahası olmadan. Buna deyərəm böyüklük, kişilik, müdriklik. Sonrası başqa söhbətdir. Qan bahası deyil. Mərdliyə layiqli qarşılıq verməkdir.

ŞAMAXI

Sovet vaxtı QAZ-24-ü olanları barmaqla göstərirdilər. Toylarda da "Volqa"yla maşın gətirmək prestij sayılırdı. Şamaxıda bir ailə vardı. Müəllim ailəsiydi. Oğlu Tibb institutunun üçüncü kursunda oxuyurdu. Atasının QAZ-24-ü vardı. Tətilə gələndən-gələnə maşını o da sürürdü. Bu cür tətillərin birində dostunun toyu olur. O da bir dost kimi maşınıyla birlikdə olur dostunun əmrinə müntəzir. "Volqa"nı bəzəyirlər, kapotuna gəlincik bərkidirlər. Şamaxıda dəbdir. Balaca uşaqlar gəlin maşınının qabağını kəsərlər. Kəndə yaxınlaşanda uşaqlar nəinki yolu kəsirlər, hətta üzüm plantasiyalarından artıq qalan dəmir tellərlə yolu bağlayıb dururlar. Maşın onlara yaxınlaşır. Xələt alandan sonra uşaqlar teli yoldan çıxarıb boşaldırlar. Sürücü də yerindən tərpənir. Beş metr aralanmamış birdən qəribə xırçıltı, qışqırıq səsləri gəlir. Maşından düşüb görür ki, balaca bir uşaq təkərin altında can verir. Sonradan aydın oldu ki, demə teli yığışdırarkən bir ucu maşına ilişib, o biri ucu isə onu yığışdıran uşaqlardan birinin şalvarının balağına. Maşın hərəkətə başlayanda dartıb salıb təkərin altına.

Düzdür bu, hadisədir. Heç kim istəməzdi ki, belə olsun. Uşağın valideynləri, qohumları da, hüquq-mühafizə orqanları da buna anlaşıqlı yanaşmışdılar. Amma bu mənzərəni görən

sürücü heç cürə özünü bağışlaya bilmədi. Məhkəməni məcbur elədi ki, onu həbs etsinlər, türməyə salsınlar. Baxmayaraq ki, ali məktəbdən də qovulacaqdı. Həbsə getdi, dörd il yatdı, çıxdı və bununla da yüngüllük tapdı. Yenidən instituta girdi, evləndi. Həyat davam elədi.

SON

Maşınsız həyatımızı təsəvvür etmək çətindir. Amma bu cür hadisələr başına gəlməyə.

# QMİ-NİN TOXLAR ÜÇÜN EHSAN ZALI

Qafqaz Müsəlmanları İdarəsinin Təzə Pir məscid kompleksində mərasim zalları açılanda bəlkə də məndən çox sevinən olmadı. “Axır ki...” dedim. Sevindim ki, nəhayətdə dinimizə böyük hörmət gətirəcək bir addımdır. Nə qədər acın, kasıbın qarnı tox olacaq. Özü də hər gün. Amma...

Bir necə dəfə bu mərasim zallarında keçirilən yas mərasimlərində iştirak etmişəm. Qabağıma çay qoyublar – içmişəm. Plov çəkiblər - yemişəm. Ac olmasam da... Deyiblər ki, ehsandır, zəhmət çəkiblər, yeməlisən. Ye, sonra da “Allah qəbul eləsin”, “Allah rəhmət eləsin!” de. Zəhmət çəkib bu təamları hazırlayanların ölənlərinin ruhuna bir salavat da çək. Mən də məclis yiyəsinin bu sözlərinə əməl eləmişəm. Süfrədə nə olmasından, zənginliyindən asılı olmayaraq sevinmişəm. Təzə Pir məscidində bu cür geniş mərasim zallarının açılmasına sevinmişəm. Amma bir anlıq fikrə getmişəm. Əgər bura Təzə Pir məscidirdisə, onun tərkibində fəaliyyət göstərən mərasim zalı – ehsan paylanan yerdirsə, onda Mahir, sənin nə işin var burda? Yaxud qabağımda oturan nazirin, nazir müavininin, imkanlı şəxslərin? Axı onlar bura başsağlığına gəliblər, yeməyə yox! Axı ehsan kasıb-füqəra, bir tikə çörəyə, yaxud ət yeməyinə həsəd olanlar üçündür. Biz isə sadəcə başsağlığına gələnlərik. Ehsan bizlərçün deyil.

Bu gün QMİ-ni taqsırlandırırlar. Hardasa həqiqət də var bu iradlarda. Adi bir detalı götürək. QMİ rəsmi idarədir. O əmr verməlidir. Amma ki, tövsiyyə verir. Əgər Şeyxülislam da belə şeylərin əleyhinədirsə, onda onun tabeliyində olan bu

mərasim zallarında niyə yemək bişirilməsi üçün mətbəx açılıb? Professional aşbazlar cəlb olunub?  Bilirsiniz nəyə görə? Çünki desələr ki, burda ancaq çay, halva, limon , qənd verilir – bir nəfər də Təzə Pirdə öz yas mərasimini keçirməz. Təzə Pirdəki mərasim zalları şan-şöhrət üçündür, bir sözlə 5 ulduzdur, VİP-dir.  Əgər belə deyilsə, əks reaksiya yaxın günlərdə özünü göstərəcək, əməli addımlar atılacaq – peçatlı-möhürlü, rəsmi sözçüsü  olan idarə kimi.

Amma zalların adına bir fikir verin. Mərasim zalı. Yəni ki, başsağlığına gələnlər üçün zal. Burda çay, qənd, limon, su, halva olsa yetər. Ehsan zalı isə ayrıca olmalıdır. Hər gün olmalıdır. Mərasim keçirməyə gələnlər hamısı bu zala pul köçürməli, nəticədə kasıb-kusub heç olmasa gündə bir dəfə də olsa isti yeməklə təmin olunmalıdır. Buna nə bir jurnalistin, nə də mənim etiraz etməyə gücü çatar. Əksinə, informasiya dəstəyi verərlər. Məsələn: “QMİ-nin mətbuat xidmətindən kasıb-füqəranın nəzərinə. Hər gün saat 14-də Təzə Pir məscidinin ehsan zalında ehsan süfrələri təşkil olunur”. Menyu vacib deyil. Nə qədər zəngin olsa alqışlayarıq onu.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət dairəsi çox genişdir. Çox insan onlara müraciət edir. Hamısı ağlayır, sızlayır, pis həyatlarından gileylənirlər. Bu cür ehsan zallarının yaradılması dövlətin sosial siyasətinə yardım etməzmi? Bir də ki, Təzə Pirdəki mərasim zalları dövlətin vəsaiti hesabına tikilməyibmi? Yəqin ki, nazir Səlim Müslümov bunu bizim hamımızdan yaxşı bilir, dəyərləndirir. Nəinki o, Qırmızı Aypara Cəmiyyəti də, digər əlaqədar sosial institutlar da.

Təzə Pir məscidində isə mərasim zalları fəaliyyətini davam etdirir. Məhərrəmlik, Orucluq, Səfər ayı toy biznesinə ildə üç ay zərbə vursa da, yas biznesi ilin 365 günü durmadan inkişaf edir, çiçəklənir. QMİ isə sadəcə tövsiyyə verir. Tövsiyyənin arxasınca da konkret  ehsan menyusu.

Hər gün Təzə Pirdəki mərasim zallarına başsağlığına yüzlərlə adam gəlir. Çay içir, plov yeyir, sonra da bığının yağını

silir, salavat çəkib "Allah qəbul eləsin", "Allah rəhmət eləsin" deyir. Bunu yas yiyəsi şan-şöhrət kimi qəbul edir. Mollalar da razılıq edir. Bəs görəsən toxların yediyi bu ehsanı Allah qəbul edirmi?..

# İSMAYIL ŞIXLININ “ANTİSOVET” ÇAĞIRIŞI

Birinə telefonla zəng edirsən. Həmin adam da hansısa aşağı səviyyəli dövlət işində çalışır. Çaşıb nəsə bir zarafat edirsən. O saat sağollaşmaq istəyir. “Telefonuma qulaq asa bilərlər. Başqa vaxt oturub yaxşıca söhbətləşərik. Üz-üzə. Yoxa çıxma. Zəng elə” deyir. Bununla da özünün guya çox böyük adam olmasını gözə soxmaq istəyir. Amma əslində heç kimdir. Bu cür astarı bir qəpiyə dəyməyən cılız insanları görəndə uzaq 80-90-cı illər yadıma düşür.

1987-ci ilin yayında əsgəri xidməti başa vurub qayıtmışdım. Dekabrın 4-ü isə ad günüm idi. O vaxt yapon istehsalı olan maqnitafon, televizor, videokamera, videomaqnitafon almaq bir xülya idi. Bir kamera bir VOLQA qiymətinəydi. Dayım Vaqif də mənə böyük bir hədiyyə - ikikassetli “SHARP” maqnitafonu hədiyyə etdi. Onu da gətirib qoyduq 16 kavadrat metrlik qonaq otağındakı pianinonun üstünə. Bu balaca otaqda stol, altı stul, divan, iki kreslo, kitab şkafı, televizoru bir təhər yerləşdirmişdik. Mənzilimiz o qədər balaca idi ki, maqnitafonun mikrofonuyla mətbəxdə danışan adamın səsini belə, aydın yazmaq mümkün idi.

Evə atamın dostları gələndə, stolun arxasında oturanda otağın o başına keçməyə heç cığır da qalmırdı. Hökmən kimsə ayağa durub yol verməliydi. 80-ci illərin axırından 90-cı illərin əvvəllərinə qədər atamın dostlarının bizə gəlməsi, toplaşması tez-tez olurdu. İsmayıl Şıxlını, Bayram Bayramovu, Xəlil Rzanı, Ramiz Duyğunu, İsrail Mustafayevi tanısam da,

Sadıq Murtuzayev, Adil Hacıyev mənim üçün köhnə adlar, yeni insanlar idi.

Başqa qruplar da vardı. Bəxtiyar Vahabzadə, Nurəddin Rzayev, Xudu Məmmədovu da tez-tez bir yerdə görürdüm. Bir dəfə həyətə düşüb maşını çıxaranda gördüm ki, Oljas Süleymenov qarajın qabağında dayanıb. Sadə adam idi. Görəndə ki, qarajın qapısı bağlanır hələ tutub saxladı da. Yoxsa maşına çırpılacaqdı. Bəxtiyar müəllimi gözləyirdi həyətdə. Xalqımıza kömək lazım olanda Bəxtiyar Vahabzadənin çağırışına uçub gələrdi.

Mən artıq ali məktəbi bitirmişdim. Evliydim. Ona görə də söhbətlərə diqqətlə qulaq asır, sadəcə siyasi savadımı artırırdım. Hər söhbətin sonunda da bu sözü eşidirdim.

- Mahir, nə sakit oturub qulaq asırsan. Maqnitafonu işə sal, səsimizi yaz. Vaxt gələcək bu səs yazılarının qiyməti olmayacaq.

Yazardım. Amma yazıçı adam idilər. Bilmirdilər ki, kasset çox bahalıdır. Mənim isə pulum yox. Utanırdım deməyə.

İsmayıl Şıxlıyla Bayram Bayramov hər ikisi eyni, açıq fikirli adamlar idi. Təmkində, siyasi addımlarında tamamlayırdılar bir-birilərini. Amma nədənsə atam Bayram Bayramovun dediklərinə əks reaksiya verir, İsmayıl Şıxlının dediklərini isə razılıqla qarşılayardı. Söhbətlər təkcə siyasi məna daşımırdı. Ədəbiyyatımızın yazılmayan səhifələri də aid idi bura. Nədənsə onlardan biri yadıma düşdü. Əliağa Vahidlə bağlı bir hadisə. İsmayıl Şıxlının dediklərindən:

- Qabil, Yazıçılar İttifaqının katibi idim. Xəbər verdilər ki, Əliağa Vahid rəhmətə gedib. Çox təsirləndim. Özün bilirsən də, böyük şair-qəzəlxan olsa da, yuxarılarda çox da qəbul etmirdilər. Amma Bakı kəndləri çox sevirdi onu. Elə bir məclis yox idi ki, xanəndələr Vahidin qəzəllərini oxumasın.

Bir də gördüm otağın qapısı açıldı. Xarici görünüşlərindən, geyimlərindən Bakı kəndlərinin əhlinə oxşayan dörd nəfər içəri girdi. Ədəb-ərkanla salam verib əyləşdilər:

- İsmayıl müəllim, xəbəriniz var da yəqin – Vahid rəhmətə gedib.

- Bilirəm. Allah rəhmət eləsin. Ədəbiyyatımız üçün böyük itkidir.

- Bu gün də dəfn edəcəyik.

- Harda?

- Biz də buna görə gəlmişik ki, sizinlə məsləhət edək. Biz istəyirik ki, Vahid Fəxri Xiyabanda dəfn olunsun. Bizə də dedilər ki, bu sizdən asılıdır. Yazıçıların böyüyü sizsiniz axı?

Cavab verə bilmədim. Nə cavab verəydim ki? Telefonu götürüb Mərkəzi Komitəyə zəng etsəydim yüz faiz imtina edəcəkdilər. Sözüm yerə düşəcəkdi. Məni isə nəticə maraqlandırırdı. Nəticə də o idi ki, Vahid layiq olduğu məkanda – Fəxri Xiyabanda basdırılmalıydı. Təmkinimi, hisslərimi biruzə vermədən:

- Bəs sizə nə mane olur ki, Vahidi Fəxri Xiyabanda dəfn etməyinizə.

- Necə yəni? İcazə alınmalıdır. Özbaşına olmaz.

- Vahid kimi böyük şairlərə icazə alınmır. Aparın basdırın. Şairi sevən o boyda insan selinin qabağında kim sizə etiraz edə bilər ki?

Bu sözlər dilimdən necə çıxdı özüm də bilmirəm. Yanıma gələnlər sevincək durub getdilər. Mən deyən kimi də eləmişdilər. Böyük izdihamın müşaiyətiylə Əliağa Vahidin cənazəsini aparmışdılar Fəxri Xiyabana və qəzəlxan-şair orda torpağa tapşırılmışdı. Etiraz edən olmamışdı. Demə yuxarılarda da Vahidi sevənlər az deyilmiş. Üzdə bunu biruzə verməsələr də...

Mənim bu çağırışımı da yəqin ki, heç kimə deməmişdilər. Desəydilər...

# BİZİM HƏSƏN MÜƏLLİM

Müəllim. Orta və ali məktəbi bitirdikdən sonra elə bilirdim ki, bu söz mənimçün tarixə döndü. Bundan sonra kimə müəllim desəm də bu yalnız hörmət əlaməti və ya müraciət forması ola bilərdi. Amma bilmirdim ki, həyat məktəbi Təhsil Nazirliyinin tərkibində olan bütün məktəblərdən alidir, həm də ki, əbədi. İmtahandan üzüağ çıxmaq isə çətin. Çünki bu məktəbin nə kitabı var, nə də dəftəri. Amma inandırım sizi ki, müəllimlərin yaxşı olsa çətin heç nə yoxdur. Mənim də həyat məktəbimdə az da olsa belə müəllimlərim olub. Onlardan biri də Həsən müəllimdir. Hazırda "Xalq qəzeti"nin baş redaktoru işləyən, keçmiş müdirim, sadiq dost-yoldaş, heç vaxt köməyini , məsləhətini əsirgəmiyən, bir sözümü iki etməyən Həsən Zal oğlu Həsənov.

İLK TANIŞLIQ

AzTV-nin "Xəbərlər"ində işləmək çoxdankı arzum idi. Ona görə də atamı dəng eləmişdim ki, Nizami Xudiyevə xahiş eləsin, o da məni bu redaksiyaya keçirsin. Heydər Əliyev kimi bir prezidentin hakimiyyətdə olduğu və ictimai-siyasi hadisələrin çevik cərəyan etdiyi bir dövrdə "Xəbərlər" aparıcı mövqeyə malik idi. Nə isə, atam Nizami müəllimə xahiş edir ki, Mahiri keçirt "Xəbərlər"ə. O da "baş üstə" deyir. Növbəti növbətçiliyin sonunda, gecə saat 12-də dəhlizdə Nizami müəllimlə üz-üzə gəldik:

-A bala, nə istəyirsən? Dədanı niyə qızışdırıb salmısan üstümə? Get qəbul otağına gəlirəm. Görüm nə istəyirsən...

Yanında dörd nəfər vardı. Amma qayıdanda onu Baş proqram direktoru Məmmədəli Zülfüqarov, bir də orta boylu, qara saçlı, səliqəylə geyinmiş bir nəfər müşaiyət edirdi.

-Bala, nə istəyirsən? Bax istəyirsən bu Həsəni çıxarım, səni qoyum onun yerinə. İstəyirsən? İstəyirsənsə Məmmədəlini çıxarım, ol baş proqram direktoru. Bacaracaqsan?

-Nizami müəllim, Mahir "Xəbərlər"ə redaktor keçmək istəyir. - deyə Məmmədəli müəllim Nizami müəllimin şirin Naxçıvan ləhcəsində mənimlə məzələnməsinə son qoymağa cəhd etdi.

-Yaxşı. Bala, mikrafon tuta bilirsən?

-Yox.

Mən pərt olmuşdum. "Xəbərlər" həvəsim də ölmüşdü. Ona görə də "yox", "yox" deyib bir dəfəlik AzTV-dən uzaqlaşmaq istəyirdim.

- Yazı yaza bilirsən?

- Yox.

- Uşaq bağçası-zaddır səninçün "Xəbərlər"? Ora hazırlıqlı adam lazımdır.

Nizami müəllim nə soruşurdusa "yox" deməyə başladım. Çox arif adam idi sədrimiz. Gördü ki, pərt olmuşam. Ona görə belə deyirəm. Burdan çıxandan sonra üz tutacağım, gileylənəcəyim ünvanı da yaxşı bilirdi. Amma atamı çox istədiyindən məcbur olub.

- Yaxşı, gəl içəri. Məmmədəli, Həsən, siz də gəlin.

Kabinetə girdik.

- Həsən, bu uşağı verərsən o qızın yerinə. Nə idi adı onun?

- Gözəl Nəcəfova.

- Hə, Gözəlin yerinə. Məmmədəli, buraxılış redaktoru yerini də boş saxla. Qoy adı orda getsin. Bir ay vaxt verirəm. Bacarsa, Həsən, raportunu yazıb gətirərsən. Keçirərik ştata. Bacarmasa...

Çox sevinirdim. İstədiyimə nail olmuşdum. Ən əsası isə həvəsim böyük idi. Nizami müəllimin kabinetindən Həsən müəllimlə çıxdıq. "Sabah səhər gələrsən ikinci mərtəbəyə. Otağını göstərərəm" dedi. Həsən Zal oğlu Həsənovla ilk tanışlığım belə oldu. Jurnalistika sahəsində ilk müəllimim də elə Həsən müəllim oldu.

SINAQ MÜDDƏTİ

Bu bir ayda nə tapşırıq verdilərsə elədim. Yazı metodlarını, iş qaydasını öyrəndim. Demə "Xəbərlər"də ən zəhlətökən iş axşam çəkilişləriymiş. Heç kim həvəs göstərmirdi bu cür tədbirlərə. Mən isə canla-başla gedirdim. Öyrənirdim. Özüm də bilmədən demə məni digərlərindən fərqləndirən bir cəhət varmış. Mənim leksikonumda digər həmkarlarımdan fərqli olaraq "Niyə axı mən? Ora niyə mən getməliyəm? Dünən mən getdim də, bu gün qoy başqası getsin" sözləri yox imiş. Həsən müəllim də işçidə çalışqanlığı, tapşırığı vaxtında yerinə yetirməyi yüksək qiymətləndirirmiş. Xeyrini də gördüm. Bir aydan sonra Həsən müəllimin yazdığı raport Nizami müəllimin qabağındaydı. O gündən indiyəcən Həsən müəllimi daha da yaxından tanımağa başladım.

"TORPAQ YETİŞDİRİR DƏ…"

Sovet vaxtı rektorlar qəbul imtahanı keçirilən auditoriyaları gəzirmişlər. 1972-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin rektoru Faiq Bağırzadə gələcək tarixçilərin imtahanına girir. "Kim bileti çəkib, həmən cavab verə bilər?" sualını verəndə, arxa partada əyləşən bir oğlan əlini qaldırır. İnamla bileti çəkir və cavab verməyə başlayır. Əlavə sualları da cavablandırır. "Əla!", "5" – deyə Faiq Bağırzadə əlini yüksək bilik nümayiş etdirən oğlanın çiyninə vurur.

- Bala, adın nədir?
- Həsən.

- Məktəbi harda bitirmisən?
- Göycə mahalında.
- Lap yaxşı. – üzünü komissiya üzvlərinə çevirərək.- Görürsünüz? Torpaq yetişdirir də...

Çox sakit və bilikli adamdır Həsən müəllim. Ensiklopedik biliyə malik insanlar indi cəmiyyətimizdə çox azdır. Uzun müddət Azərbaycan Sovet Ensiklopediyasında çalışıb. Sonra "Vətən səsi", "Amal" qəzetlərində əməkdaş, "Yeni Azərbaycan" və "Respublika"qəzetlərində baş redaktorun 1-ci müavini, AzTV-də "Xəbərlər"in baş redaktoru, AzTV sədrinin televiziya üzrə müavini və ən nəhayət bu gün "Xalq Qəzeti"-nin baş redaktorudur. Qısa tərcümeyi-halı bundan ibarətdir Həsən müəllimin. Amma mən onun həyat yoluna sizə məlum olmayan spektrlərdən nəzər salmağa çalışacağam.

## SİZƏ YARIM SAAT VAXT VERİRƏM

Yuxarıda qeyd etdiyim kimi, çox mülayim və sakit adamdır Həsən müəllim. "Xəbərlər"də işləyəndə bircə dəfə səsini ucaltdığını gördüm:

Hardasa prezident çəkilişi olur. Materialı da təcili efirə çatdırmaq lazım imiş. Tədbirin əvvəlindən çəkilmiş kasseti tez verirlər sürücü Əbdülə. O da tez çatsın deyə tıxacdan sıyrılıb maşını Prezident Aparatının qabağından kəsə sürür və DYP onu saxlayır. Nə and-aman edirsə ki, "bəs efir "yanır", kasseti çatdırmalıyam" - polislər qulaq ardına vururlar. Onda Əbdül sənədləri də onlarda qoyub, sürür gəlir işə. Həsən müəllim gecikdiyinə görə onu tənbeh edəndə, başına gələn hal-qəziyyəni danışır. Mən də növbətçiydim. Həsən müəllim bunu eşitmədi? Dəstəyi götürdü, harasa zəng elədi. "Danışan "Xəbərlər"in baş redaktoru Həsən Həsənovdur. Sizə 15 dəqiqə vaxt verirəm. Xidməti maşınımın sənədləri stolumun üstündə olmasa ..........." deyib dəstəyi yerinə qoydu. On beş dəqiqə keçməmiş DYP serjantı tər-qan içində redaksiyaya girdi. Əlində də sənədlər.

İlk və axırıncı dəfə Həsən müəllimi onda əsəbiləşib səsini qaldıran gördüm.

…MƏN DƏ QORXDUM

20.00 "Xəbərlər"inə az qalmış Prezident Aparatından sədrin qəbul otağındakı faksa sərəncam, fərmanlar gəlməyə başlayırdı. Hamısını da efir variantına uyğunlaşdırıb diktora ötürürdük. Necə deyərlər dəhlizdə qaçhaqaç düşürdü. Belə növbətçiliklərin birində:

Həsən müəllim studiyanın qapısında dayanmışdı. Mən də sərəncamın olduğu faks əlimdə dəhlizin giriş qapısını açdım.

- Mahir, cəld ol! – deyə Həsən müəllim dilləndi.

Bir addım irəli atmaq istəmişdim ki, səs gəldi. Yoluma davam etmək istədim. Amma sanki nəsə məni tutub saxlayırdı. Həsən müəllim də demə bunu görürmüş. Tez qabağıma gəlib kağızı əlimdən alıb studiyaya getdi. Demə qapıdan keçəndə pencəyin aşağı iç cibi dəstəyə ilişib. Addımımı atanda da dartılıb astarı cırılıb. Həsən müəllim studiyadan çıxıb gördü ki, kostyumun astarının cırılmasından dilxoram. Fikrimi dağıtmaq üçün gülə-gülə:

- Kostyumun cırılıbmış? Mən də qorxdum. Elə bildim ki, faks cırıldı.

REDAKTƏ XÜSUSİ İSTEDADDIR

Baş redaktorumuz Həsən Həsənov və müavini Mülatif Adurovun gözəl redaktə qabiliyyətləri var. Balaca bir səhv gözlərindən qaçmazdı. Həsən müəllim düzəlişləri qırmızı rəngli qələmlə edirdi. İlk vaxtlarda yazılarım "qanına qəltan olurdu". Amma səhvlərimi izah da edirdi, öyrədirdi. Bu gün də yazı-pozumda hər hansı bir yanlışlıq hiss edəndə, amma səhvimi tuta bilməyəndə Həsən müəllimin üstünə qaçıram. "Qabilin o dünyadan məktubu" adlı ilk publisistik yazıma vəsiqə verən, "qələmin var, amma tənbəlsən" deyib tənbeh

eləyən də  məhz Həsən müəllimdir. Onun mənə "Müasir Azərbaycan ədəbiyyatının canlı ensiklopediyası"san deyərək həvəsləndirməsi  sonda bu mövzuda nə qədər yazının, xatirənin meydana gəlməsinə səbəb oldu. Məhz belə yazılardan ibarət ilk toplunun "Atam Qabilin qəribə əhvalatları" kitabımın da redaktorluğunu Həsən müəllim öz üzərinə götürdü. Əlbəttə ki, dostumuz, mərhum  İbrahim Ömərovun gözəl tərtibatını da yaddan çıxarmaq olmaz.

Qış vaxtı idi. Axşam saat altıda ilk qar yağmağa başladı. Mən, Gülsəfa Əhmədova, Bahadır Şəfi və Əli Nəcəfxanlı növbətçiydik. Təbiətin bu gözəlliyini vəsf etmək, həm də şair olan Əli müəllimə tapşırıldı. O da yazdı. İlk cümlə beləydi – "Bakıya noğul-noğul qar yağır". Birdən Həsən müəllim otağından səsləndi:.

- Əli, yazı hazırdır?

- Bəli, Həsən müəllim.

- Tez gətir bura.

Mən otaqdaydım. Həsən müəllim də daxili telefonla sədrlə danışırdı.  Əliylə Bahadır içəri girib kağızı Həsən müəllimə verdilər:

- Yazı hazırdır, Nizami müəllim. Operator da kadrları çəkib gəlir. Oxuyum?

Həsən müəllim kağızı əlinə alıb oxumağa, elə birinci cümlədən bədahətən redaktə başladı. "Bakıya..." Həsən müəllim ani fasilə verdi, "noğul-noğul" sözünü çıxartdı. "İlk" sözünü artırıb  davam elədi. "Bakıya ilk qar yağır". Beləcə bir səhifəlik  yazını gözəyarı redaktə eləyərək oxudu. Əli:

- Bax, Mahir, buna deyərlər  "naxodu" redaktə.

## QABİL VƏ HƏSƏN MÜƏLLİM

Atamla Həsən müəllim arasında qarşılıqlı hörmət vardı. Avtoqraf şəklində olsa da Həsən müəllimə şeir də ithaf eləmişdi.

*Canım-gözüm Həsən!*
*Mahirə bir şey olsa,*
*Bəs sən orda nəsən?*

Amma bu tanışlıq azadlıq hərəkatının ilk illərinə gedib çıxırdı. O dövrdə ictimai hadisələrlə bağlı beynəlxalq təşkilatlara müəyyən müraciətlər olunurdu. Bəxtiyar, Qabil, Xəlil Rza, Ziya Bünyadov, İsmayıl Şıxlı  kimi ziyalılar bu müraciətləri imzalayanlar içərisində ilk olurdular.  Təşkilatlanma işlərində o dövrün qabaqcıl, əsas hərəkətverici qüvvələr olan gənc ziyalılarının da rolu danılmaz idi.

Onlardan biri olan Həsən Həsənov hazırladığı müraciəti götürüb gəlir Yazıçılar binasının həyətinə. İmzalatdırmaq üçün.  Yuxarı – Qabilin mənzilinə qalxmağa heç ehtiyac da qalmır. Əsəbi halda harasa gedən atamla elə həyətdə rastlaşır. Gəlişinin məqsədini deyəndə atam heç müraciəti oxumadan, məğzini bilmədən "yox, qol çəkmirəm" deyir. Daha doğrusu bu sözlə hirsini tökür Həsən müəllimin üstünə. O da "Qabil müəllim, imza atmasanız da, siz Ayaz Mütəllibova ünvanladığınız 24 sualla hər şeyi demisiniz". Bu atamın xoşuna gəlir, geri qayıdır.

- Xoşum gəldi səndən. Ver bura kağızı,- deyir. İmzasını qoyur, yoluna davam edir.

VƏTƏN HƏSRƏTİ

Yuxarıda yazdığım kimi Həsən müəllim Qərbi Azərbaycanda, Göyçə mahalında doğulub. Mən oralarda olmasam da Həsən müəllimin, İbrahimin söhbətlərində  o yerləri gəzib gəlmişəm. Göyçə gölündə farel balığı tutmuşuq, ocaq qalamışıq. Qazana elə gölün dupduru suyundan töküb balığı soyutma bişirmişik. Özümüzlə gətirdiyimiz araqdan yüz-yüz vurmuşuq da... "Google" axtarış sistemində Həsən müəllimgilin kəndlərini görmüşəm də. Məni kəndin küçələriylə gəzdirib,

oxuduğu məktəblə tanış edib, evlərinin yerini göstərib. Yəqin ki, nəvaxtsa kəndlərinə qonaq da aparar məni. Qiyabilik gerçəkliyə çevrilər.

ÇETIREJDI DEDUŞKA

Həsən müəllim üç qız atasıdır. Mən isə iki. Bir qız atası kimi vəzifəsini yerinə yetirib, hamısını köçürüb. Mən də elə onun kimi. İndi də nəvələri dilindən düşmür. Qəribə bir yarışa çıxmışıq. Həyatımızın əlamətdar çağlarında bir-birimizə zəng edəndə özəl salamlaşmağımız da var. Zəng edib baba olması münasibətilə təbrik etmək istədim. Dəstəyi götürdü. Təbrikimi gözləmədən:

- Deduşka Qasan Qasanov sluşaet.

İki il keçdi. O mənə təbrikə zəng elədi. Bu dəfə mən:

- Deduşka İmamverdiyev sluşaet.

Üstündən bir az keçdi. Artıq Həsən müəllim "dvajdı deduşka Qasanov sluşaet" deyirdi. Cavabım çox gözlətmədi. Mən də "dvajdı deduşka" oldum. Sonra hər ikimiz "trijdı". Nəhayət Həsən müəllim məni "yerimdə otuzdurdu" - "çetırejdı deduşka" deməklə. Hələ onu da əlavə etdi ki, "hələ uşaqsan. Mənə çata bilmərsən". Həyatsa davam edir. İnanıram ki, bu cür hərbiçisayağı "doklad"larla bir-birimizi hələ çox salamlayacağıq.

ƏLİYEVÇİ

Həsənovlarla İmamverdiyevləri birləşdirən bir mühüm cəhət də var. O da mənən Əliyevçi olmaqlarıdır. Bu yolda Həsən müəllim gəncliyindən Qabillər, Vahabzadələr kimi ön cəbhədə olub. Bu şəxsin xilaskarlıq missiyasını hələ o vaxt görən, əməli addımlar atan, Heydər Əliyevin siyasətini ürəklə həyata keçirənlərdən biri olub. İndi də belədir.

Prezidentimiz İlham Əliyevin 40 yaşı tamam olanda o vaxt AzTV-də bir neçə hissədən ibarət film hazırlanmışdı. Daha

doğrusu bu film Həsən müəllimin yaradıcılığının məhsulu idi. Sonluq isə özəl idi. Tamaşaçı üçün yeni, maraqlı idi Həsən müəllimin bu tapıntısı. Demə İlham təkcə ad yox, həm də Əliyevlərin ailə kodu imiş. "İlham" sözündəki hərflər ayrı-ayrılıqda bu ailənin üzvləriymiş: "İ" – İlham, "L"- Leyla, "H"- Heydər, "A" – Arzu, "M"- Mehriban.

SON

Artıq iki ildir ki, "Xalq Qəzeti"ndə işləmirəm. Amma elə həftə olmur ki, redaksiyaya getməyim. Bəziləri indi də elə bilirlər ki, mən bu qəzetin əməkdaşıyam. Jurnalistikadan uzaqlaşsam da yazılarımda bu stil hələ də duyulmaqdadır. Çünki bu sahədə on altı illik bir MƏKTƏB keçmişəm. Və bu həyatımın on altı ilində Həsən Həsənov həmişə mənim müəllimim, baş redaktorum olub. Mən də onun ərköyün tələbəsi, işçisi. "Xalq qəzeti"ndə işləyərkən işə mütəmadi gecikdiyimə, çox vaxt isə ümumiyyətlə işə gəlmədiyimə görə 25 dənə töhmət verib mənə. (müsəlmanın 25 dənəsi) Amma sonda düz yola gətirib. Utandığımdan ərizəmi yazıb işdən çıxmışam. Amma insanlığımız, dostluğumuz əvvəlki səviyyəsində qalıb.

Hə. Az qala yadımdan çıxmışdı. Həsən müəllim, 60 yaşın mübarək! TƏBRİKLƏR!

# SONA TAĞIYEVANIN MƏKTƏBİ

Sovet Azərbaycanında mülkiyyətçi, mülkədar ən xatalı sözlərdən biri idi. İnsanlar hətta bu sözü dillərlinə gətirməyə qorxurdular. Çünki çox mülk sahibinin son aqibətini, acı taleyini görmüşdülər. Özü də ki, bu söz o dövrün leksikonuna da yad bir kəlmə idi. Çünki hər şey sovetin mülkiyyəti sayılırdı. Ona görə də hamı “bizim” deyirdi. “Bizim məktəb”, “bizim kolxoz”, “bizim idarə”, “bizim zavod”, “bizim Leonid İliç Brejnev”. Misalları nə qədər istəyirsinizsə artıra bilərəm.

Buna necə uyğunlaşmışıqsa, müstəqillik dövründə də hələ ki, “mənim” sözü dəbə minmir ki, minmir. Biri pul tökür, zəhmət çəkir klinika açır, adını əndərəbadi yevropeyski bir isimlə adlandırır. Yazmır ki, məsəlçün “Mahirin klinikası”. Yaxud da özəl məktəbə bütün qütblərin, dənizlərin, dağların adını verirlər, amma öz adlarını verməkdən çəkinirlər. Məsəlçün yazmırlar “Mahirin orta məktəbi”, “Mahirin ali məktəbi”. O cümlədən dükanlar, ictimai iaşə obyektləri, idman zalları, bərbərxanalar, apteklər, daha haralar, daha nələr. Bircə Leyla Şıxlinskaya bu sahədə ilk və son qaranquş oldu. Yaratdığı özəl tibb müəssisəsinə “Leyla Şıxlinskayanın klinikası” adını verdi, öz adını verdi. Amma bütün bunlara baxmayaraq hər bir məkanın, obyektin Azərbaycanda öz sahibi var və onlar rəsmi olaraq sahibkardırlar.

Sovet dövrü isə sahib olmaya-olmaya sahibkara çevrilmək böyük fəxarət sayılırdı. Bu məktəblər, xəstəxanalar nömrəylə yox, adla çağrılırdı. Cavadzadənin klinikası, Ramizə İsmayılovanın məktəbi, Aliyə Təhmasibin məktəbi, İbrahim

İbrahimovun institutu, Nikitinin kolxozu, Şamama Həsənovanın kolxozu... Heç kim də qısqanclıq eləmirdi. Əksinə onlarla fəxr edirdilər, ən yüksək dövlət təltifləri də öz yerində. Onlardan biri, bəlkə də birincisi 190 nömrəli orta məktəbin direktoru Sona Tağıyeva idi. Mənim Sona müəlliməm və onun məktəbi.

## BİRİNCİ SİNİF

Bizim yazıçılar binasının gənc sakinlərinin əksəriyyəti 190 və 132 nömrəli məktəbdə oxuyurdular. Rusca təhsil almaq istəyənlər isə 189 nömrəli məktəbə gedirdilər.

Atam, anam məni də 190 nömrəli məktəbin birinci sinfinə qoydular. Özü də qorxuzdular. “Bax, özünü yaxşı apar. Buranın direktoru Sona xanımdır a... Çalış gözünə də görünməyəsən. Özünü pis aparsan? ...”

Bəxtimiz gətirmişdi. İkinci növbə oxuyurduq. Yuxarı siniflər səhər növbəsi olduğundan Sona müəllimə əsas diqqətini onlara yönəldirdi. O vaxt xuliqanlığı ilə ad çıxarmış Sovetski məhləsinin sakinlərinin çoxu 190 nömrəli məktəbi seçirdi. Daha doğrusu öz uşaqlarıyla bacara bilməyən valideynlər belə, Sona xanıma üz tuturdular. Bilirdilər ki, Sona müəllimə onları tərbiyə etməyi bacaracaq. İndi yadıma düşəndə dəhşətə gəlirəm. Özünü pis aparan, dərsini oxumayan bir şagird bir sinifdə neçə il qalar axı? Bir il, iki il, üç il. Ta o vaxtacan ki, Sona müəllimə ondan adam düzəldirdi. İndiki kimi deyildi e... Oxudun-oxumadın kamal attestatı alasan – “tupoy” olsan da. Özü də o vaxtlar elə bir dövr idi ki, göstərici, plan deyilən anlayışlar vardı. Hər hansı bir minus məktəbin ayağına yazılırdı. Amma 190 nömrəli məktəbin göstəriciləri, olimpiyadalarda ön yerə çıxması, qızıl medalların sayı bu minusları kölgədə qoyurdu. Bir də ki, 190 nömrəli məktəb Qafqazda yeganə ordenli məktəb idi. Qırmızı Əmək Bayrağı ordeniylə təltif edilməsi də Sona xanımın və onun kollektivinin nailiyyəti idi.

Elə bilməyin ki, Sona xanım tək idi. Əsla. Əgər bu gün hər hansı məktəbdə bu cür müəllim kontingenti olsa direktor kreslosu uğrunda qan su yerinə axar. Sosialist Əməyi Qəhrəmanı, əməkdar müəllim, atam Qabilə də dərs demiş Zərbəli Səmədov, uzun müddət Bakı təhsil idarəsinə başçılıq etmiş Sadıq Məmmədzadə, 132 nömrəli məktəbin direktoru, SSRİ Ali Sovetinin deputatı olmuş Ramizə İsmayılova, o vaxt Azərbaycanın və SSRİ-nin rəhbərlərindən olan Heydər Əliyevin bacısı Şəfiqə Əliyeva. Fənlər üzrə lap adi müəllimlər belə, adla çağrılırdı.

## İLK QORXU

190 nömrəli məktəb beş mərtəbəli idi. Sağ və sol tərəfdən paralel olaraq pilləkənlərlə yuxarı qalxırdılar. Sona müəllimə də tənəffüsdə yox, əsasən dərs vaxtı mərtəbələri gəzirdi. Ona görə də birinci sinifdə oxuyan mən direktorla rastlaşmamışdım. Heç üzdən də tanımırdım. İkinci növbədə biz əsasən dərs hissə müdiri Əfruz xanımı tanıyırdıq. Birinci növbədəki kimi şagirdləri sıraya düzüb himn oxutdurmur, idman elətdirmirdilər. Eləcə gəlib girirdik sinfə. Direktoru isə heç görmürdük.

Sona müəllimə ikinci növbədə mərtəbələri nadir hallarda gəzirdi. Özü də Sona xanım yuxarı mərtəbələrə qalxanda o biri tərəf pilləkənlərlə də tərbiyə işləri üzrə müavin Səkinə xanım qalxırdı. Dərsdən yayınan şagirdlər Sona müəllimədən qorxub o biri başdakı pilləkanla aradan çıxmağa calışanda Səkinə müəllimə qabağına çıxardı. Tutmağa gücü çatmayanda da heç olmasa üzdən tanıyıb, sonradan valideynini məktəbə çağırardılar. Valideyn də gəlib iki saat direktorun otağında qızarar, utanar, sonda da "Sona xanım, bacarmıram bu uşaqla. Bütün günü zavodda oluruq, fəhlə adamıq. Uşağım sənə əmanət, tərbiyə elə" deyib gedərdi. Böyük Sabir demişkən "Əti sənin, sümüyü mənim".

İkinci sinifdə oxuyurdum. Su içmək bəhanəsiylə müəllimdən icazə alıb sinif otağından çıxdım. Su içdim. Amma

nədənsə geri qayıtmağa tələsmədim. Dəhlizdə heç kim yox idi. 28 kvadrat metrlik dar mənzildə yaşayan mənim üçün sanki meydan idi. Başladım tək-tənha bu başdan o başa qaçmağa, sürüşməyə. Bir də baxdım ki, o başdan kimsə gəlir. Tanımadım kimdir. Yaxınlaşıb qulağımdan tutdu. Yaşlı, saçları ağ, beli bir az bükülmüş qadın idi. Tənbeh elədi. Qulağımdan tutsa da dartmadı, burmadı, heç incitmədi də. Amma bu qulaqburması mənim sonrakı həyatımda – nizam-intizam məsələlərində böyük rol oynadı. Demə bu yaşlı qadın Lenin, Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı ordenli direktorum - Sona xanım imiş.

## SONA XANIMIN CƏZASI

Yeddinci sinifdə oxuyurduq. Nə üstündəydi yadımda deyil, onuncu sinifdə oxuyanlarla davamız düşmüşdü. Mənə xətər dəyməsə də, direktorun otağına tutub məni də apardılar. Əlbəttə ki, taqsır onuncu sinif şagirdlərindəydi. Biz beş nəfər bir qıraqda dayanmışdıq, onuncu sinfin hündür boy şagirdləri isə ayaqüstə düzülüb başlarını aşağı salmışdılar. Sona xanım yerindən durdu. Onlara yaxınlaşdı. Boyu balaca idi Sona müəllimənin. Nə desə yaxşıdır "xuliqan"lara? "Başını aşağı elə". Şagird də başını aşağı əydi. Sona müəllimə sağ əlini qaldırıb pis aparanların qulaqlarını növbəylə çəkdi. Sonra üzr istətdi. Bu qulaq çəkmək yox, qulaqburması idi. Bu özünü pis aparanları sanki qıdıqlasa da, amma mənən yumruq zərbəsindən də qüvvətliydi. Bunun qarşılığında cavab qaytarmaq nədir, heç cınqırlarını da çıxarmırdılar, valideynlərinə gedib şikayət də etmirdilər. Bilirdilər ki, evdə desələr ki, Sona xanım onların qulağını çəkib, şillə yeyəcəkdilər. Üstəlik də ata-anaları tezdən durub gəlib Sona xanımın otağında üzr diləyəcəkdi. Çünki onlar özləri də 190-ın, Sona müəllimənin yetirmələriydi. Bu qulaqburmaların xeyrini onlar da görmüşdülər. Sona xanımın nəsli davam edirdi.

Sona xanım milis çağırmırdı. Amma cəzası bütün cəzalardan ağır idi. Ziyalı, vəzifəli ailələrdən olanları xüsusi diqqət mərkəzində saxlayırdı. "Onlar özlərini pis aparsa, dərslərini pis oxusalar, day başqalarından nə tələb eləyək?" deyərək.

Bu qorxunun qabağında dəcəlliyimizdən qalmırdıq. Onuncu sinifdə dərsdən qaçıb Sabirin heykəliylə üzbəüz, monolitin altındakı kafeyə isti kakao ilə isti bulka yeməyə gedirdik. Bir də görürdük ki, ya sinif rəhbərimiz, ya da zavuç qapıda dayanıb. Hara qaçmağımızı da ehtimal edirdilər. Bəzilərinin harda, hansı küncdə siqaret çəkməklərini, siqareti gizlətdikləri "taynik"ləri də gözəl bilirdi. Məhlələrində ad çıxaran, mənəm-mənəm deyən, hətta cibində bıçaq gəzdirən ən pis şagird də Sona xanımın qarşısında başını əyir, vurduğu xəfif, yumşaq şillədən əriyir, hətta ağlayırdı da... Fiziki cəhətdən cansız, bəstəboy olsa da, böyük zəhmi vardı Sona xanımın. Ailə üzvlərini erkən itirə-itirə getsə də, 190 nömrəli məktəbi özünə doğma ailə saymışdı. Bu məktəbi özünkü sayırdı. 1945-ci ildən – 29 yaşında ikən bu böyük ailənin başçısına çevrilmişdi.

## HƏM DƏ SONA MÜƏLLİMƏ

Onu hamı Sona xanım çağırırdı. Elə biz şagirdlər də. Amma yeddinci sinifdən qara günlərimiz başladı. Sona xanım bizim kimya müəllimimiz oldu. Düzünü desəm dəqiq fənləri yaxşı bilmirdim. Kimyadan isə sıfır idim. Buna baxmayaraq Sona müəllimə rüblüyə mənə "3" – kafi yazırdı. Beləcə heç nə bilməyə-bilməyə, danışmaya-danışmaya 7-ci sinfi üçlə başa vurdum. Səkkizinci sinifdə də heç bir irəliləyiş olmadı. Amma yenə üçümü aldım. Məndə elə bir təsəvvür yaranmışdı ki, Sona müəllimə atama görə hörmət edir mənə. İstəmir ki, iki alıb sinifdə qalım. Bu məni razı salsa da, amma Sona müəlliməyə, onun müəllimliyənə qarşı daxilən bir hörmətsizlik hissi yaradırdı. "Nə oldu? Deyirdilər ki, belə asır, belə kəsir. Heç tənbeh də eləmir ki, oxu. Heç söymür də. Eləcə üçümü yazır." deyərək.

Doqquzuncu sinifdə vəziyyət dəyişdi. Mənim yolum aydın idi. Filoloq olacaqdım. Filoloq olmaq üçünsə yalnız humanitar fənləri bilsəydin kifayət idi. Amma attestat balı deyilən bir şey də var idi ki, o da yüksək olmalıydı. Ali məktəbə qəbulda aldığın qiymətlərin üstünə əlavə olunub son nəticə çıxarılırdı. Əgər attestatda dörd dənə "4", qalanı "əla" idisə deməli balın "5" sayılırdı. Beş dənə dördün olardısa artıq bal dörd yarıma enirdi. Mən bunu bilmirdim. Amma kimsə atamı başa salmışdı.

Doqquzuncu sinifdə oxuyurdum. Günlərin bir günü atam əlimdən tutub apardı məni Sona xanımın yanına. O günəcən atamı bir dəfə də məktəbə çağırmamışdılar. İçəri girdik. Atam "Sona xanım, Mahir filoloq olacaq. Amma kimyadan üç alsa ali məktəbə daxil olması mümkünsüzdür. Çünki attestat balına təsir edəcək. Ona görə də bu məsələyə həssas yanaşmağınızı xahiş edirəm. Bütün fənlərdən beşdir, bircə texniki fənlərdən mənə oxşayıb" dedi.

Sona müəllimə heç nə demədi. Sadəcə başıyla razı olduğunu ifadə etdi. Otaqdan çıxdıq. Attestata fənn üzrə vahid qiymət səkkiz rüblük qiymətin əsasında gedirdi. Məsələn kimyadan Atestata "4" almaq üçün Sona müəllimə mənə doqquz, onuncu siniflərdə bütün rübləri dörd yazmalıydı. Yaxud da doqquzuncu sinifdə "üç", onuncu sinifdə isə "dörd". Üstəlik yekun imtahanda da "4" almalıydım.

Beləcə doqquzuncu sinifdə bütün rüblərdə kimyadan "3" aldım. Belə də gözləyirdim. Sona xanım kimi müəllimələr bundan artıq saxtakarlığa gedə bilməzdilər. "Üç"ü yazırdısa, hələ allahıma şükür etməliydim. Sinifdə 28 nəfər idik. Onlardan üçü ikinci, üçüncü il bir sinifdə sayanlar idi. Çoxdan əsgərliyə getməliydilər. Amma oxuyurdular. Doqquzuncu sinfin birinci rübünün sonunda möcüzə baş verdi. 28 nəfərdən iyirmi beşi, o cümlədən mən də kimyadan rüblüyə "5" aldıq. Hələ iki, üç il sinifdə qalanları demirəm. Onlar "4" aldılar. İkinci rübü də bu göstəriciylə başa vurduq. Qış tətilindən sonra isə qara günlərimiz başladı. Sona müəllimə nə desə yaxşıdır? "Siz elə bilirsiniz ki, sizə beşi elə-belə yazmışam? Mən Sona müəlliməyəm.

Mənim fənnimdən hamı bir nəfər kimi beş almalıdır. Özü də ki, buraxılış imtahanına Maarif nazirliyindən komissiya gəlir. Özünüzü toparlayın. Sabahdan bütün dərslər kimya olacaq. Düz beş ay. Gələndə yeddinci-səkkizinci sinif kimya dərsliyini də gətirin. Əvvəldən başlayacağıq".

Başqa müəllimlər proqramların başa çatdırmışdılar. Təkrara keçmişdilər. Ona görə də Sona xanım direktorluq hökmündən istifadə edərək, onların da dərs saatlarını götürmüşdü. Beş ay ərzində, gündə 4-6 saat olmaq şərtiylə Sona müəllimə bizə kimya dərsini keçdi. Keçmədi ye... kimyanı öyrətdi. Mendeleyev cədvəlini gözüyumulu bilirdim. Kimyanı o dərəcədə mənimsəmişdim, Sona müəllimə kimyanı mənə elə sevdirmişdi ki, hətta filoloq yox, kimyagər olmaq fikrinə düşmüşdüm.

Beləcə gəlib çıxdıq buraxılış imtahanına. O vaxtlar belə bir qayda vardı. Qızıl medala namizədlər bileti çəkməli, fikirləşmədən həmən cavab verməliydilər. İmtahan vaxtı Sona müəllimə hamımızı otağa yığdı. Başda iki nəfər tanımadığımız adam oturmuşdu. Demə Sona müəllimə direktor olduğu üçün onun imtahanları Maarif nazirliyinin nəzarəti altında keçirilirmiş. İmtahan başlamamış Sona müəllimə ayağa durub "mənim şagirdlərimin hamısı bilet çəkəcək, fikirləşmədən də cavab verəcəklər" dedi. Elə də oldu. Nəticədə 25 nəfər "5", üç nəfər isə "4" aldı. Dörd alanlar isə neçə il bir sinifdə sayanlar idi. Baxmayaraq ki, onlar da beşə cavab vermişdilər. Bu imtahandan o vaxtın "Azərbaycan müəllimi" qəzetində də yazdılar, nümunə göstərdilər. Mən isə kimyadan attestata öz halalca "dörd"ümü aldım. Nə olsun ki, imtahanda "əla" almışdım. Rüblükdə "üç"üm vardı, axı?!

## SAHİB ƏLƏKBƏROV

190 nömrəli məktəb Səbail rayonunun ərazisində yerləşir. Sahib Ələkbərovu bu rayona təzəcə icra hakimiyyətinin başçısı təyin etmişdilər. Tədbirlərini "Xəbərlər"də işıqlandırmağa isə mən gedirdim. Sahib müəllimi köhnə komsomol rəhbərim

kimi çoxdan tanıyırdım. Əsgəri xidmətdə olarkən Azərbaycan komsomolunun 1987-ci ildə keçirilən 32-ci qurultayına nümayəndə də seçilmişdim.

Bir dəfə hansısa tədbirlə bağlı Sahib müəllimə sualım meydana çıxdı. Axtardım. Şöbə müdiri işləyən Qabil dedi ki, Sahib müəllimin başı qarışıqdır. Birinci vəzifə kimi qarşısına məqsəd qoyub ki, 190 nömrəli məktəbi yay tətili dövründə əsaslı təmir elətdirib başa çatdırsın. Axtarsan orda taparsan". Bilmirəm Sahib müəllim 190-ın məzunudur, ya yox? Amma icra başçısı kimi bu ilk addımı mənə ləzzət elədi.

## 190-IN MƏZUNLARI

190-ın məşhur məzunları çoxdur. Adlarını çəkmək istəmirəm. Bu məqaləyə sığışmaz deyə. Mən də bu məktəbin məzunu olmağımla fəxr edirəm. İllər ötdükcə qiyməti daha çox görünür. Azərbaycanın təhsil sistemində, bu məktəbdə də hər şey dəyişib. Amma bir şey dəyişməyib. Adı. Bura Sona xanımın məktəbidir.

Akademik Cavadzadə dünyasını dəyişdikdən sonra "Cavadzadənin klinikası" rəsmi olaraq öz adına qovuşdu. İvanovkadakı kolxoz da Nikitinin adını daşıyır. 190 nömrəli məktəb də öz sahibinin adını gözləyir. Yəqin ki, bu qərar verilsə bir vaxtlar bu məktəbin məzunu, özü də, qızları da Sona xanımın şagirdləri olan, indi isə onun adını daşıyan, şəhid Osman Mirzəyevin də ruhu inciməz, əksinə şad olar. Biz də şad olardıq.

# "ZOLOTAYA SEREDİNA" VƏ YA MODERN.AZ

"Zolotaya seredina", yaxud "ortaq məxrəc". Mən şəxsən bu sözləri çox sevirəm. Daha bir sevdiyim atalar sözü də var. "Yaxşı at özünə qamçı vurdurmaz". Hər bir insan həyatda yerini, rolunu, oturuşunu-duruşunu ölçüb biçməlidir ki, sonradan peşmançılıq çəkməsin.

Ucuz şöhrət dalıyca qaçmamalıdır. Əgər qaçsa uduzacaq. Şöhrət gəlib özü səni tapmalıdır.

Müasir zəmanəmizdə "şöhrət" sözü çox az işlənir. Bu sözü "reytinq", "ulduz", "populyar" kimi ifadələr əvəz edib. Bu üç sözün hamısını 5 yaşlı Modern.az saytına aid etmək olar. Mən Modern-lə 2013-cü il martın 6-dan əməkdaşlıq edirəm. Bu bir il yarımda 200-dən çox yazımı, 16 tərcüməmi oxuculara təqdim edib. Mən bu saytın təkcə müəllifi yox, həm də gündəlik oxucusuyam. Bu saytı təkcə Azərbaycanda oxumurlar, xaricdə də, hətta mənfur qonşularımız da yaxından izləyirlər. Mənim "Ərmən - Şuşanikin sevgisi" hekayəm və "Erməni qadınları və azərbaycanlıların erməniləşdirilməsi prosesi" yazılarım məhz Modern.az.-ın "sayəsində" düşmənlərimizin bizə qarşı bayraq elədikləri qondarma armyanofobiya siyahısına salınıb.

Hər bir televiziya, radio, qəzet və sayt ona başçılıq edən şəxsin siması, güzgüsüdür. Modern.az da o cümlədən. Saytı açarkən Elşad Eyvazlıyla Əfqan Qafarlının professional rəhbərlik, redaktorluq, xiridar qabiliyyətinin hamımız şahidi

oluruq. Bu iki gənc ciddi mövzuları işıqlandırmaq baxımından məncə çox ürəkli adamdırlar.

Keçmiş televiziya işçisi kimi tam əminliklə deyə bilərəm ki, Modern.az saytının internet televiziya qolu açılsa, bu sahədə də böyük uğurlar əldə edə bilər. Bu yolda onlara əməli, təmənnasız kömək göstərməyə mən də hazıram. Çünki cəmiyyətdə bu cür ortaq məxrəcə ehtiyac çoxdur. Yəqin ki, cəmiyyətdə "Çörəyi ver çörəkçiyə, birini də üstəlik" misalını bilən və həyata keçirmək istəyən insanlar buna qiymət verəcəklər.

Modern.az daima yenilik axtarır. Özünə düşmən yox, dost qazana-qazana gedir. Oxucularının sayını artırır. Xoş niyyəti, qələmi olan hər bir insanın üzünə bu saytın qapıları açıqdır. O cümlədən reklam yerləşdirmək istəyənlərə də.

Modern.az-ın orijinal layihələri haqqında çox danışa bilərəm. Amma ehtiyac bilmirəm. "Görünən dağa nə bələdçi". Oxuyan onsuz da görür, bilir. Müasir oxucunu aldada bilmərsən.

Bu gün əvvəllər çalışdığım AzTV, "Space", "Xalq Qəzeti" kimi doğma saydığım Modern.az saytının 5 yaşı tamam olur. Çox az yaş olmasına baxmayaraq, şərəfli bir yol keçib Modern.az kollektivi bu beş ildə. Uğurlar arzulayıram, təbrik edirəm – həm oxucu, həm də bir müəllif kimi.

# BAKIDA "MAHİR KREMATORİYA" XİDMƏTİ

Çoxdandır ki, işsizəm. Amma axtarışlarımı davam etdirirəm. Zığ-Aeroport yolunu icarəyə götürmək istəyim puç oldu. Avtoşları bir zümrə kimi yox elədilər. Mənim də onlardan pul qazanmaq arzum puç oldu. Bir sözlə, arzularımı beşiyindəcə boğa-boğa gedirlər. Günlər keçdikcə bu dünyadan ayrılıb o biri dünyaya yaxınlaşıram.

Amma cəmiyyətdə alternativlik deyilən bir anlayış da var. Ona görə də heç kim xəbər tutmamış başladım marketinqə. Nə edim ki, həm qara camaata faydalı olum, xidmət göstərim, həm də pul qazanım.

Getdim məscidə. Ölü yuyulan, kəfənlənən, icarəyə pulla mafa, tabut, gülab verilən yerə - qiymətləri öyrəndim. Sonra məscidin ətrafında dayanan qara maşın sürücüləriylə bazarlaşdım. Sonra getdim qəbiristanlığa. Orda da qiymətləri öyrəndim. Sonra da qəbiristanlığın nəzdindəki daş sexinə dəydim. Ordakı qiymətləri də öyrəndim. Molla pulunu da gəldim üstünə. Sizcə nə qədər elədi? Aşağısı min manat, yuxarısı on min, bəlkə də çox. Baxır qəbirüstü abidənin növünə, bir də ölünün kimliyinə. Gəldim kalkulyatoru qoyub qabağıma hesabladım. Vurdum - çıxdım. Axır, qərara aldım.

Alternativ olaraq Krematoriya açacam. Bu sahədəki monopoliyaya alternativ olaraq. Adını da qoyacam – "Mahir Krematoriya". Mahir sözü iki məna daşıyacaq. Həm adım məşhurlaşacaq, həm də krematoriyanın mahirliyini, mükəmməlliyini ifadə edəcək.

İlk olaraq bununla bağlı Poladəritmə zavodları ilə danışığa başladım. Razılıq verdilər. Bu nəcib işimdə mənə uğurlar arzuladılar. Heç icarə pulu da istəmədilər. “Peçdir də... onsuz da bütün günü yanır. Ölünün yanması istiliyini aparmayacaq ki, əksinə bir az da gurlaşdıracaq”.

Müasir elit evlərin qazanxanalarından da təkliflər oldu. Onlar da heç nə istəmədilər. Amma gördüm ki, onlar bu işə qaza qənaət etmək üçün gedirlər. Ona görə də razılaşmadım. Hər şeyi ölçüb biçəndən sonra qiymət qoydum. Azərbaycanın müsəlman adət-ənənələrindən irəli gələn minimal qiymətlərdən düz on qat aşağı – 100 manat.

Qaydaları, iş prinsipini də müəyyənləşdirdim. Deməli mənə zəng edirlər. Öz CİP maşınımda gəlirəm. Mərhumu taxta tabutda qoyuram maşınıma. Arxamca da dörd ölü yiyəsi gəlir. Aparıram zavoda. Salıram peçə. Yandırıram. Bütün proses ölünün böyük, ya balaca, kök ya arıq olmasından asılı olaraq maksimum iki saat çəkir. Sonra külünü xüsusi qaba toplayıb verirəm yiyələrinə. Onlarla gəlirik bulvara. Minirik ekskursiya gəmisinə. Çıxırıq Xəzər dənizinə. Urnadakı külü səpirik ləpələrin qoynuna.

Xəzər dənizinə gəmiylə çıxırıq! Bildiniz? Burda qaydaları mən qoyuram! Bu mənim ideyamdır! Yoxsa ki, vertolyltlar alıb, yeni dəb salmayın ki, ölünün külü vertolyotdan dənizə səpilməlidir. Bu sahənin də zibilini çıxarıb VİP xidmət yaratmayın. Bildiniz? Ekskursiya gəmisi – vsyo!

Bu xidmətimlə israfdan savayı, gör nə qədər zülmdən qurtarıram sizi, gələcəkdə öz ailə üzvlərimi də. Nə ad günündə, nə də ildə qəbirüstünə getmək var, bayramlarda qəbirin üstünə səməni qoyub, şam yandırmaq da yox. Başdaşını qucaqlayıb öpmək yox. Ölmüşünə heyfslənmək yox.

Təkcə sağ qalanları yox, mərhumu da o dünya əzablarından hifz edirəm. Qıl körpüsündən keçərkən kəllə-mayallaq dərəyə yuvarlanmır, İnkir-Minkirin sual-cavab meydanında onların sözləri qarşısında qızarıb, utanmır. Ömrü boyu Cənnətdən dəm vurub-vurub sonunda Cəhənnəm alovunda

yanmır, qır tiyanında qaynamır. (Siz heç ömrünüzdə günahsız, Cənnətlik insana rast gəlmisiniz?) Bütün bu rahatlıqları mən sizə 100 manata bəxş edirəm. Əgər köhnə adət-ənənələrlə getsəniz, böyük pul xərcləyib, sonda onsuz da yanacaqsınız. Elə bu başdan mən yandırıram da. Sadəcə yüz manata.

"Mahir Krematoriya"nı seçin. Peşman olmazsınız. "Mahir Krematoriya" – Sizin o dünyanız.

# ƏJDƏR XANBABAYEV, BƏXTİYAR VAHABZADƏ, CƏLAL ƏLİYEV

Mən həyatımda çox təltif, mükafat, fəxri ad görmüşəm. Çoxunun tarixçəsinə yaxından bələdəm. İndi də "İstiqlal", "Şöhrət" ordenləri, "Xalq şairi", "Əməkdar İncəsənət xadimi" fəxri adları, Azərbaycan Dövlət Mükafatı laureatının diplom və nişanı, Ali Sovetin Fəxri Fərmanı, "Əməkdə İgidliyə görə" medalı evimizin bəzəyidir. Atamın ölümündən sonra bir dəfə də olsa qapağını açıb, döşümə sancıb, boynuma salıb, güzgünün qabağında dayanıb fors eləməmişəm. Bu təltiflər məndədir, amma mənimki deyil.

Bu ali mükafatların hərəsinin öz tarixçəsi var. Qonşularımızın aldığı mükafatların da şahidiyəm. Onların da öz tarixçəsi var. Hər adın, medalın, ordenin dəyərini də bəlkə başqalarından yaxşı başa düşür, düzgün qiymətləndirirəm. Kimin layiq, kimin layiq olmadığı göz qabağımdadır. Amma bir yanlışlıq buraxdım. Görkəmli yazıçılarımız aldıqları bütün adlara layiqdirlər.

Belə bir deyim də var - " Filankəs filan mükafata layiqdir. Bu ad ona ana südü kimi halaldır". Amma çifayda. Əliağa Vahidi götürək - "Xalq şairi" fəxri adına layiq deyildimi, yaxud da Abdulla Şaiq, Əli Kərim, Nüsrət Kəsəmənli, Əliağa Kürçaylı, Əhməd Cəmil, Salam Qədirzadə, Əlfi Qasımov, Mirmehdi Seyidzadə, "Vicdan susanda" romanının hazırda həyatda olan müəllifi Vidadi Babanlı, Əlibala Hacızadə, İsi Məlikzadə və digərləri. Düzdür bu cür insanlar da qiymətini alır, xalq özü

onlara ad verir – "Xalqın şairi", "Xalqın yazıçısı". Bəlkə də ömür vəfa versəydi tam başqa cür olardı. Allah rəhmət eləsin – gücümüz buna çatır.

Mənim bu mövzuya müraciət etmək fikrim yox idi. Əgər Modern.az. saytı "Heydər Əliyev ordeni" və bu ordenlə təltif olunmuş şəxslərlə bağlı bilgiləri səhifəsində yerləşdirməsəydi. Onlar 15 nəfərdir. Hamısı da görkəmli insanlardır. Prezident sərəncamını müzakirə etmək fikrindən uzaq, prezidenti dəstəkləyən bir insan kimi demək istəyirəm ki, hamısı layiqdir. Azərbaycana dost, qardaş adamlardır. Bizim yolumuzda çox işlər görüblər. O cümlədən rəssam Tahir Salahov və bəstəkar Arif Məlikov. Bu orden dövlət təltifindən əlavə mənə ona görə əzizdir ki, Böyük Heydər Əliyevin adını daşıyır. Bəs...

İSTİQLAL ORDENİ

Heydər Əliyevin hakimiyyəti dövründə "İstiqlal ordeni" ən ali təltif sayılırdı. Elə indinin özündə də. Hər adama verilmir bu orden.

1995-ci il idi. Prezident Heydər Əliyevin sərəncamı ilə ilk dəfə olaraq bu ordenə üç nəfər - Xəlil Rza Ulutürk (ölümündən sonra), Məmməd Araz, Bəxtiyar Vahabzadə - layiq görüldü. Əlbəttə ki, təqdimata, yaxud da ki, artıq söz-söhbətə ehtiyac görmürəm. Hər üçünə ana südü kimi halal idi bu təltif.

Atam da belə düşünürdü. Amma...

Evdə oturmuşduq. Sərəncam elan olundu. Atam bir anlıq fikrə getdi. Elə başa düşdüm ki, özünün adını bu siyahıda görmədiyi üçün fikirlidir. Çünki Azadlıq meydanında istiqlaliyyətimiz uğrunda çox adamlar mübarizə aparmış, xalqın haqq sözünü demişdilər. Qabil, Sabir Rüstəmxanlı, Elçibəy, İsmayıl Şıxlı, Famil Mehdi və kimlər, kimlər... Amma bir anlıq öz dünyasından ayrıldı. Nə desə yaxşıdır:

- Mahir, Azərbaycanda bu "İstiqlal ordeni"nə layiq iki adam var. Biri Gülhüseyn Hüseynoğludur, o biri də İsmixan

Rəhimov. İndi istiqlaliyyətdən danışmağa nə var? Onlar 1948-ci ildə, Stalinin dövründə azadlığımız üçün Sovet hakimiyyətinə meydan oxuyublar. Cəmi yeddi nəfər olublar. "İldırım" hərəkatının tələbə üzvləri. İndi ikisi sağdır. Əsl istiqlalçı onlardır.

1991-Cİ İL

Məni ifrata varmaqda taqsırlandırmayın. Mən nə YAP-ın üzvüyəm, nə də döşümdə qızıldan tökülmüş imza lehimi daşıyıram. Mən sadəcə Əliyevçiyəm. Bu insanı 70-ci illərdən tanımışam. Daha doğrusu əvvəl tanıdıblar, sonra tanımışam. 1991-ci ildə Milli Məclisdəki çıxışı indi də qulağımda səslənir - əleyhinə durub çıxış edənlər də, müdafiəsinə duranlar da... Bu olaya "Heydər Əliyevin həyatında Bayram Bayramov çevrilişi" adlı xatirə-məqaləmdə başqa bir aspektdən toxunmuşam. Bu, tarixdir. Və bu tarixin mənim kimi şahidləri çoxdur. Bu məqalənin adındakı "çevriliş" sözünü mən elə-belə yazmamışam. Əslində bu məqalənin, daha doğrusu "çevriliş" sözünün üç bucağı vardı. Biri Bayram Bayramov, biri Bəxtiyar Vahabzadə, o biri isə Cəlal Əliyev.

Həmin gün deputat Heydər Əliyev çıxış etdi. Bir çoxları yerə ayaqlarını vurdular, fit çaldılar, ədəbsizlik etdilər. Dirijor da başda oturmuşdu – prezident Ayaz Mütəllibov. Çıxış edənlər də oldu. Amma heç biri yadda qalmadı. Bircə Bayram Bayramovdan başqa. İclas bitdi. Səhəri gün yenə də iclas idi. Tribunaya Bəxtiyar Vahabzadə çıxdı. Çıxış etdi. Yoxdur internetdə bu çıxış. Bayram Bayramovun da çıxışının stenoqramması yoxdur. Dövlət qəzetlərində qalıb yalnız bu tarix. Son 21 il ərzində heç televizorda da bu kadrları nümayiş etdirmədilər. Canlı yayımdan göz yaddaşlarına birbaşa həkk olundu. Bu meydanda bir nəfər də vardı. Mirzə Ələkbər Sabir. Bəxtiyar Vahabzadə öz poeziyasından şeir oxumadı. Köməyə Böyük Sabiri çağırdı.

*Zülmətsevər insanlarız üç-beş yaşımızdan,*
*Fitnə göyərir torpağımızdan, daşımızdan,*
*Tarac edərək, bac alırız qardaşımızdan,*
*Çıxmaz, çıxa bilməz də bu adət başımızdan....*
*Əslafımıza çünki həqiqi xələfiz biz!*
*Öz qövmümüzün başına əngəlkələfiz biz!*

Prezidentin, "KQB", "MVD", prokurorluq orqanları rəhbərlərinin iştirak etdiyi Milli Məclisdə üsyünkaranə bir çıxış, özü də Heydər Əliyevin müdafiəsinə edilən bir çıxış. Üç yüz deputatdan hansının buna cürəti çatdı? Heç birinin. Bəxtiyar Vahabzadə bunu etdi.

Bəs küçəyə çıxanda Heydər Əliyevi qapıda kim gözləyirdi? Əlbəttə ki, qardaşı Cəlal Əliyev. Ordan çıxıb Heydər Əliyev kimin evinə, kimin ocağına üz tutacaqdı? Əlbəttə ki, Cəlal Əliyevin. Əjdər Xanbabayevin nümayişkaranə, sifarişli, Heydər Əliyevçilərə bir növ mesaj olan qətlindənsə cəmi-cümlətanı bir il vaxt keçmişdi. Niyə, məhz başqası yox? Məhz kiçik qardaşı Cəlal Əliyev?!

Yaxşı, sual verə bilərsiniz ki, 25 yaşlı Mahir Qabiloğlu evdə televizorun qabağında oturub Ali Sovetin iclasına baxa-baxa bunları hardan bilirdi?

Ertəsi gün atam zəng elədi ki, gəl gedək Şamaxıya. Gəldim. Maşınımızı satmışdıq. "Şamaxinka"ya gedib ordan yol maşınına minəcəkdik. Yuxarı qalxdım. Gördüm ki, telefonla danışır.

- Yaxşı danışdın. Ürəyimdən tikan çıxartdın.

- .....

- Hardadır? Axı Cəlalın telefonunu bilmirəm.

- .......

- Ay Bəyim, yaz ...... Bəxtiyar, bu dəqiqə zəng edirəm.

Danışan Bəxtiyar Vahabzadəydi. Telefonda da atama "Heydər Əliyevin üstünə yaman düşüblər. Mənəvi dəstək olmalıyıq. Qardaşı Cəlal Əliyevgildə qalır" deyirmiş. O vaxtadək

atam müxtəlif yazılarda bu böyük şəxsiyyətin müdafiəsinə qalxmışdı. Harada görürdüsə, ona böyük hörmət və ehtiramla yanaşırdı, söhbətləşirdilər. Lakin harada yaşadığını bilmirdi.

Atam nömrəni yığdı. Cəlal müəllimlə salamlaşıb, hal-əhval tutandan sonra Heydər müəllimlə danışmaq istədiyini dedi. O da dəstəyi verdi.

"Fikir verməyin. Siz böyük adamsınız. Bəxtiyar da tutarlı cavab verdi hamısına. Hamımız sizi çox istəyirik. "Ömür həbləri" romanında sizin obrazınızı da yaratmışam. Sadıq Murtuzayevin "İnsanla, torpaqla, raykom katibiylə üz-üzə" kitabına yazdığım məqalədə də sizin böyüklüyünüzü bir daha təsdiq etmişəm".

Atam daha nələr demədi. Təsəvvür edirsiniz də... o dövrdə Heydər Əliyev üçün Qabilin bu sözləri nə demək idi. İndi bildinizmi ki, Heydər Əliyev Qabili niyə çox istəyirdi? Harda gördü zarafatlaşırdı. Bir sözünü iki eləmirdi.

Amma mən 100 faiz əmin idim ki, həmin gün Heydər Əliyevə bu cür zənglər yüzlərlə olmuşdu. Hamısının da səbəbkarı Bəxtiyar Vahabzadə idi. Heydər Əliyevin qaldığı evi və telefonu yalnız o bilirdi. Çünki o, bir nömrəli Əliyevçi idi.

Heydər Əliyev danışandan sonra dəstəyi yenidən Cəlal müəllimə verdi. O da ünvanı atama dedi. Atam dəstəyi qoyub iş otağına keçdi. Kağızda nəsə yazdı. Sonra onu "Ömür həbləri" kitabının ilk səhifəsinə köçürtdü. Şeirlə yazılmış 16 misralıq avtoqraf idi:

*Məsləhətdir, aç, oxu,*
*Sən bu kitabı, Heydər!*
*Çox suala tapacaqsan da*
*Cavabı, Heydər!*
*Görəcəksən quruluş –*
*Zay quruluşdur, a kişi,*
*Yandırır həm şişi o,*
*Həm də kababı, Heydər!*
*Üstünə kim bu saat*

*Qalxdı, xoruzlandısa da,*
*Xoruzun uçmağa*
*Hardaydı ki, tabı, Heydər!*
*Hansı namərdin olub*
*Vicdanı, abrı-həyası,*
*Mərdə-mərdanəyə xas*
*Vicdan əzabı, Heydər!*
*10.11.1991*

Başqa jurnal, qəzet, kitabı da onunla bərabər sellofan torbaya qoydu.

- Deməli gedirsən Nazirlər Kabinetinin yanına, onun bərabəriylə üzü Dağüstü Parka doğru irəliləyirsən. Solda iki hündürmərtəbəli bina görəcəksən. Biri iki blokludur, o biri bir bloklu. Bir blokluya girirsən qalxırsan liftlə .... (yadımda deyil) mərtəbəyə. Cəlal müəllimin evidir. Verirsən ona. Sonra tez gəlirsən. Şamaxıya gedirik. Cum!

Sellofan torbanı alıb deyilən ünvana getdim. Bloka girdim. Heç kim yox idi. Qarşımı da kəsmədilər. Liftin düyməsini basdım. Atam dediyi mərtəbəyə qalxdım. Mənzilin zənginin düyməsini basdım. Gözüm künc-bucaqda idi. Amma heç kim yox idi. Öz-özümə fikirləşdim. Yəni Heydər Əliyev kimi adam burda yaşayır, heç kim də məndən soruşmur ki, "hara gedirsən?", "niyə gedirsən?". Qapını Cəlal müəllim açdı:

- Salam, Qabilin oğluyam. Atam göndərdi bunları Heydər Əliyevçün.

- Salam. Ay bala, keç içəri. Atan niyə gəlmədi?

- Bilmirəm. Dedi ki, apar kitabları ver, gəl.

- Keç içəri, kişiylə görüş.

Utandım. Elə kandardaca kitabları verib, Cəlal müəllimlə sağollaşdım. Evə qayıtdım. Evə girəndə atam telefonla danışırdı.

- Qabil, bəs mən səni gözləyirdim, uşağı göndərmisən.

- Heydər müəllim, sizin qəbulunuza düşmək belə asandır ki, məgər?

SON

O vaxtdan 23 il ötüb. Hər dəfə "Heydər Əliyev ordeni"nin təltifiylə bağlı xəbər oxunanda üç şəxsiyyət yadıma düşür-Əjdər Xanbabayev, Bəxtiyar Vahabzadə, Cəlal Əliyev. Biri qətlindən sonra, biri ölümündən sonra, biri də sağlığında.

# REKTOR ABEL MƏHƏRRƏMOV ƏNƏNƏNİ POZDU

Özümün də məzunu olduğum Bakı Dövlət Universitetinin qədim ənənəsi var. Bu ənənənin az qala 100 yaşı tamam olsun. Bütün rektorlar buna əməl edib, yaşadıb, estafeti bir-birilərinə ötürüblər. Ənənələrə qeyd-şərtsiz əməl ediblər. İnkişaf da etdirəni olub. Amma pozmağa heç kim cəhd etməyib. Bircə rektor Abel Məhərrəmovdan başqa. Bunu çox az adam bilir. Fevralın 28-də yazdığım "Rektor Abel Məhərrəmov kimdir" adlı yazıda Abel müəllimin xalqımız, elmimiz qarşısında xidmətlərini qeyd etmişdim. Əgər bunu yazmışamsa, pozduğu ənənədən də yazmağı özümə borc bildim. Ona görə yox ki, bu məqalədən nəticə çıxarıb, bir vaxtlar buraxdığı səhvi düzəltsin. Əsla. İstəsə də alınmaz. Gəlin Abel müəllimi tənqid etməkdə tələsməyək. Məsələdən sizi də xali edim, ondan sonra bir yekun rəy verərik.

2001-Cİ İL

Onu da qeyd edim ki, atamın 81 illik ömür yolunda cəmi bir dəfə yubileyi xüsusi qeyd olunub. O da 70 yaşında. 2001-ci ildə 75 yaşı tamam olanda heç bir səbəb olmadan yubileyinin keçirilməsini istəmədi. Heç Anarı yuxarılara təqdimat yazmağa da qoymadı. Sadəcə Prezident Heydər Əliyev evə zəng edib təbrik etdi. Digər təşkilatlardan da zənglər gəlir, yubiley keçirmək istəyirdilər. Amma atam razılıq vermirdi. Beləcə 75-i də ötürdük.

2005-Cİ İL

AzTV-də "Xəbərlər" redaksiyasında işləyirdim. İş çox idi. Bu yandan da növbətçiydim. Birdən cib telefonumun özəl sirena zəngi çalındı. Telefonu cibimdən çıxarmamış zəngdən bildim ki, atamdır.

- Hə, papa.
- Hardasan?
- İşdə.
- İş qaçmır. Get evə. Maşını çıxart qarajdan. Gəl Bakı Dövlət Universitetinə. İstəyirəm atova olan xüsusi ehtiramı görəsən.
- Papa, vallah işim çoxdur.
- Gəlməlisən. Gəlməsən Nizami Xudiyevə zəng edəcəyəm.
- Yaxşı, gəlirəm.

"Ehtiram", yaxud da "xüsusi ehtiram". Atam bununla məni heyrətləndirmək istəyirdi? Guya mən bilmirdim ki, atama hər yerdə hörmət-ehtiram göstərirlər? Xüsusilə də Universitetdə. Bir də ki, universitetə gəlməyim lazımdırsa, daha maşını neyləyir ki? Nə isə, məcbur olub mindim taksiyə, evə gedib maşını qarajdan çıxarıb gəldim Universitetə. Qalxdım qəbul otağına. Məni Qabilin oğlu kimi yox, Az.TV-nin əməkdaşı kimi tanıyan rektor köməkçisi Namiq qabağımı kəsdi.

- Mahir, Abel müəllim, məşğuldur. Yanında iclas var. Başqa vaxt gəl.
- Yaxşı, onda mümkünsə çatdırarsan ki, gəlmişdim. Mən getdim.

Sevinirdim. Bəhanəm var idi. Gəldim, köməkçi içəri buraxmadı. Bu dəm qəbul otağına Fikrət Şiriyev girdi. O bilirdi ki, kimin oğluyam.

- Mahir, salam. Gəlmisən? Keç içəri, gözləyirlər.
- Fikrət müəllim, rektorun yanında qonaqlar var. İclas keçirilir, - deyə Namiq yenə qabağımı kəsdi.
- Elə Mahiri gözləyirlər də... ki, gəlsin, iclas başlasın.

İçəri keçdim. Uzun stolun arxasında tanıdığım insanlar oturmuşdular. Prorektorlar, dekanlar, tanınmış alimlər. İyirmi nəfər olardı. Başda isə Abel müəllimlə Qabil oturmuşdu. Atam məni görcək.

- Mahir, gəl tanış ol Abel müəllimlə, müəllimlərinlə. Qara Namazovu tanıyırsan, müəllimin olub.

Hamıyla görüşdüm. Tanış olmadım. Çünki hamısını tanıyırdım. Onlar da məni. Çünki BDU-da çəkilişlərdə çox olmuşdum. Amma yenə də atamın məni bura çağırmasının məqsədini başa düşmürdüm.

- Qabil müəllim, hazırdır. Gətirsinlər?

- Hə. Başlayaq.

Qapı açıldı. Qısa, ağ xalat geyinmiş iki nəfər içəri daxil oldu. Stolun üstündəki kitab-dəftəri yığışdırdılar. Ağ süfrə saldılar. Boşqabları, badələri süfrəyə qoydular. İki cür blinçik, soyutma toyuq, turşu xiyar və başqa salatları ortaya düzdülər. Abel müəllim atama:

- Qabil müəllim, siz deyən kimi. Blinçik iki cürdür. Həm ətlə, həm kəsmiklə.

- Denən süzsünlər.

Xidmət edənlər qədəhlərə araq süzdülər.

- Hörmətli Qabil müəllim, siz bizim universitetə xoş gəlmisiniz. Sizi 75 illiyiniz münasibətilə kollektivimizin adından təbrik edirəm. Cansağlığı, uzun ömür, yeni yaradıcılıq uğurları arzulayıram.

Hamı durdu. Qədəhləri toqquşdurdular. Birdən Abel müəllim köməkçisi Namiqə baxaraq "Nə oldu?" dedi. Köməkçi otaqdan çıxıb tezcənə də qayıtdı.

- Çatırlar, Abel müəllim.

Bir azdan köməkçi əlində böyük gül dəstəsi otağa girdi. Abel müəllimlə atam yerlərindən durub otağın orta hissəsinə keçdilər. Abel müəllim böyük gül buketini atama təqdim etdi. Sonra köməkçiyə baxdı. O da balaca bir bağlamanı rektora verdi. Abel müəllim də bağlamanı açıb içərisindəki qızıl təsbehi çıxartdı. "Qabil müəllim, bu da kollektivimiz adından

sizə xatirə hədiyyəsi" deyərək atama təqdim etdi. Süfrənin başında oturanlar da əl çaldılar.

Atamın təsbehə xüsusi məhəbbəti vardı. Ona görə də ləzzət etmişdi ona bu hədiyyə. Yanında oturana göstərdi. O da əlinə götürüb "Qabil müəllim, bəh-bəh-bəh" dedi. Bu vaxt onun yanındakı təsbehi aldı ki, yaxından baxsın. Beləcə təsbeh stolun başına fırlanıb gəldi çatdı mənə. Mən də götürüb qoydum cibimə. Bu vaxt atam:

- Ver mənə təsbehi.
- Vermirəm. Mənimdir.
- Ver, heç olmasa baxım. Qaytarıram.
- Vermirəm.

Nə qədər elədisə vermədim. Qabına salıb qoydum cibimə. Atamın 70 illiyində nazir Ziya Məmmədov da belə bir təsbeh bağışlamışdı. Atam da "qızıl bədbəxtçilik gətirir" deyərək dayıma vermişdi ki, aparıb satsın. Pula ehtiyac olmaya-olmaya. Ona görə də işimi əvvəlcədən ehtiyatlı tutmuşdum. Amma bu qızıl əhvalatından nə Abel müəllimin, nə də ki, məclisdəkilərin xəbəri vardı. Ona görə də ata-balanın oyuncaq üstündə dava edən balaca uşaqlara xas dialoquna təəccüblə qulaq asırdılar.

Hər şeyi başa düşür, atama olan böyük ehtiramı görürdüm. "Xüsusi ehtiram" sözünü və məni bura dəvət eləməklərinisə yox. Bircə şeyi də anlamırdım ki, 2005-ci ildə 79 yaşı tamam olan Qabili Abel müəllim niyə 75 yaşı münasibətilə təbrik etdi. Məclis qızışdı. Sağlıqlar bir-birini əvəz edirdi. Atamı tərifləyirdilər, təbrik edirdilər. Mən də yeyir, sağlıqlara badə qaldırırdım. Eləcə tamaşa edirdim. Gözləyirdim ki, nə vaxt məclis başa çatacaq, mən də işə qayıdacağam. Nəhayət atam söz demək üçün ayağa qalxdı.

- Bu gün Abel müəllim məni universitetə dəvət etdi. Gördüyü işlərlə tanış etdi. Nə qədər dəyişikliklər olub burada – xəbərim yox idi. Düzü tanımadım universiteti. Prezidentimizin mənim üçün doğma olan universitetə xüsisi diqqət və qayğısının şahidi oldum. İdman-üzgüçülük kompleksi tikilib,

kitabxana, fənn kabinələri yenidən qurulub, yeni korpuslar ucaldılıb. Abel müəllim universitetin inkişafı üçün çox iş görüb. Mənə də neçə ildir deyir ki, Qabil müəllim, sənin 75 illiyini universitetdə qeyd etmək istəyirəm. Razı olmurdum. Bu gün universiteti gəzib kabinetə qayıdandan sonra yenə də dedi. Soruşdum ki, ay Abel müəllim, yubileyi necə keçirəcəksən? Cavab verdi ki, qədim təhsil ocağının öz ənənəsi var. İndi göstəriş verəcəyəm, hamı Böyük akt zalında toplaşacaq. Siz kresloda əyləşəcəksiniz. Yubileyi mən açacağam. Filologiya fakültəsinin dekanı Qara Namazov sizin yaradıcılığınız barədə məruzə edəcək. Tələbələr şeirlərinizi oxuyacaq. Sonra çıxış üçün söz veriləcək sizə. Arzu etsəniz şeirlərinizi də oxuyarsınız. Sonra mən Sizə universitetin təbrik diplomunu təqdim edəcəyəm. Xatirə hədiyyəsi bağışlayacağam. Televiziyaları da, qəzetləri də dəvət etmişik. Soruşdum ki, Abel müəllim, nə hədiyyə? Dedi ki, əl işi olan bahalı, böyük keramik vaza. Sonra da gedib bir başqa yerdə yubileyi "bədii hissə" ilə davam etdirərik. Mən də Abel müəllimə minnətdarlığımı bildirdim. Dedim ki, Abel müəllim, yubileyi mənimçün eləmirsən? Dedi ki, bəli. Dedim onda belə elə. Akt zalı-zad lazım deyil. Heç kimə də əziyyət vermə. Hamı, özüm də yaxşı bilirəm ki, yaxşı şairəm. Tərifləməyəcəksiniz? Təbrik etməyəcəksiniz? Bunun üçün elə sənin kabinetin yaxşıdır. Prorektorları, dekanları dəvət elə bura. Restoranlardan birindən sifariş et, yaxşı bir süfrə aç. Yeyib-içən Qabilçün bundan yaxşı yubiley ola bilməz. Hədiyyəyə gələndə isə vaza istəmirəm, qadın deyiləm a... qızıl təsbeh yaxşıdır. Onu da, gülü də burda təqdim edərsən. Abel müəllim də razılaşdı. Mənə olan xüsusi ehtiramının xətrinə kabinetində süfrə açılmasına icazə verdi. İndi Mahir, özün fikirləş, hansı şairin yubileyi universitetin rektorunun kabinetində, yemək-içmək məclisiylə qeyd edilib? Amma Abel müəllim buna razılıq verdi. Bax buna deyərəm şair Qabilə xüsusi hörmət-ehtiram. Səni də çağırdım ki, bu xüsusi ehtiramı gözünlə görəsən.

Yubiley məclisi başa çatdı. Universitetdən çıxdıq. Maşına oturdu. Hələ də həyəcanlıydı. Ləzzət eləmişdi ona Abel müəllimin təşkil elədiyi bu yubiley tədbiri. Dedi ki, sür sahilə. Hava almaq istəyirəm. Gəldik Şıxova. Yağışlı, küləkli bir gün idi. Gəzdi, dalğalara tamaşa etdi, hava aldı. Sonra evə gəldik. Maşını qaraja saldım. Açarları verdim. Təsbeh yadından çıxmırdı. Dedi ki, qalx yuxarı anana göstər, o da görsün. Dedim ki, "yox e... verməərəm ki, verməərəm". Bu gün də qızıl təsbeh, diplom, bir də fotoşəkillər o gündən bir yadigar kimi atamın arxivini bəzəyir.

O vaxtdan on il ötüb. Bu illərdə Universitetdə qədim ənənələr bir dəfə də olsa pozulmayıb. Bircə dəfə pozulmuşdu. O da Rektor, alim, ziyalı Abel Məhərrəmovun Şair Qabilə xüsusi, təkrar edirəm XÜSUSİ EHTİRAMININ təzahürü idi. Naxışa bərabər yanlışlığa isə alqış düşür.

Atamın Bakı Dövlət Universitetindəki 75 illik yubileyi həmin gün nə televiziyada göstərildi, nə də mətbuatda getdi. Üstündən on il keçəndən sonra isə qərar verdim ki, yazım. Yazdım ki, ürəyimdə yaşatdıqlarım, xatirələrdə də yaşasın.

# BİZİM AZƏR SARIYEV

Həyatda hər birimiz o birimizə bircə yaş arzulayırıq: "Səni görüm yüz yaşayasan!". Bu sözü deyirik, amma sonra nə qədər yalançı, qeyri-səmimi olduğumuzu, boğazdan yuxarı danışdığımızı başa düşürük, anlayırıq. Yüz yaş arzulayaq – problem yoxdur. Qarşı tərəfi deyə bilmərəm, sənin bu yaşa çatmağa qüdrətin çatacaqmı? Həmin adamın yüz yaşını görə biləcəksənmi? Bu bir əfsanədir, yaxud da ki, sadəcə olaraq əlçatmaz bir arzu. Ömrümdə yalnız atama 100 yaşı arzulamışdım. Bəlkə də 100 yaşa çatdığına görə Azərbaycanın ilk Milli Qəhrəmanı adına layiq görülən ilk Azərbaycan şairi ola bilərdi. Amma ki...

80 yaş isə gözəl yaşdır. Kifayət qədər həyatına bir qiymət veriləcək yaşdır. Dostumuz Azər Sarıyev bu yaşın yarısına - 40 yaşa çatıb. İndi evdə oturub fikirləşir. Özünə də qəribə gəlir: "40 yaşına çatdım. Nə olsun?". Azər, heç nə olmasın. Sadəcə... Cümləmin sonunu yazımın axırında gətirəcəyəm.

İLK TANIŞLIĞIM

AzTV-də işləyirdim. Mərkəzi Seçki Komissiyasına çəkilişə göndərdilər. Zala daxil oldum. Yanımda qarayanız, çatmaqaş, gülərüz biri oturdu. Kimsəylə ünsiyyət qurmaqda heç bir problemim olmayan mən, onu jurnalist həmkarlarımdan biri kimi qəbul elədim. Adətimcə iclasdakılardan biri haqqında söz, daha doğrusu "prikol" dedim. O, ikisini gətirdi. Bir azdan o birinə "ilişdim", yanımda oturan ikisini gətirdi. Beləcə

iclasın sonunacan darıxmadım. Sonda soruşdum ki, sən kimsən? Dedi ki, Arif müəllim təqaüdə çıxdı, mən MSK-nın yeni mətbuat katibiyəm. Adım da Azərdir. Azər Sarıyevlə ilk tanışlığım belə başlandı.

## 4-CÜ HAKİMİYYƏT

Mətbuatı dördüncü hakimiyyət adlandırırlar. Burda bir yanlışlıq var. Niyə? İzahını verim. Mənim sözümü doğru və ya yalan çıxarmaq üçün zəng edin hər hansı nazirliyin rayon şöbəsinə. Yaxud da poçt şöbəsinə. Yaxud da torpaq şöbəsinə. Ya da ki, ekologiya idarəsinə, yol idarəsinə, nəqliyyat idarəsinə və sairə, ilaxır. Lap rayon mədəniyyət idarəsinə. Heç nə soruşmayın. Bircə onu deyin ki, "mən jurnalistəm. Məlumat almaq istəyirəm. Sizin adınız, familiyanız nədir?". Bilirsinizmi nə cavab verəcəklər? Deyəcəklər ki, "siz nazirliyin mətbuat xidmətiylə əlaqə saxlayın. Sizə orda bu barədə müfəssəl və səhih məlumat verərlər". Deməli nazirliklərin mətbuat xidmətləri az qala nazirlərdən sonra ikinci həlledici bir postdur. Nazirliyin eşidən qulağı, danışan dilidir. Bəlkə də dördüncü yox, ikinci hakimiyyətdir. Azər Sarıyev də MSK-nın danışan dili olub. Bir mətbuat orqanı, televiziya, radio, yaxud da sayt deyə bilməz ki, Azər onun telefonuna cavab verməyib, sözünü, sualını, sorğusunu MSK-nın sədri Məzahir Pənahova və digər idarəedici orqanlara çatdırmayıb, yaxud da ki, onları cavab intizarında süründürüb. Azərbaycanda dörd-beş nümunəvi mətbuat katibi vardısa, onlardan biri də bizim Azər Sarıyev idi.

## NÖVBƏTİ TANIŞLIQ

İllər ötdü. Mən AzTV-dən çıxdım. Əlaqələr kəsildi. Azərlə növbəti tanışlığımız "Xalq qəzeti"nin baş redaktorunun birinci müavini İbrahim Ömərov vasitəsilə davam elədi. Çay süfrəsi, yemək-içmək süfrəsi arxasında Azərlə daha da yaxınlaşdıq,

doğmalaşdıq. Mən Azərdən mətbuat katibi, yaxud da bir dost kimi başqa münasibət də gözləmirdim. Bir tərəfdən müdiri Məzahir Pənahov idi. O Məzahir Pənahov ki, atam Qabilə xüsusi hörmət və ehtiramı vardı. Bir tərəfdən isə dostum İbrahim Ömərov hər adama dost deməzdi. Onun dilində dost sözü bir etalon, qiymətləndirmə meyarı idi.

"ƏRMƏN – ŞUŞANİKİN SEVGİSİ"

Günlərin bir günü, daha doğrusu 2014-cü ilin yanvarında "Ərmən – Şuşanikin sevgisi" adlı kitabım çapdan çıxdı. Saytlarda xəbər getməmiş Azər zəng etdi. Təbriklərini çatdırdı. Axşam professor Məsiağa Məhəmmədi, şair Səlim Babullaoğlu, İbrahim Ömərov, bacanağım Rəfael, Eldəniz Elgünün də dəvətli olduğu məclisə onu da çağırdım. Vaxtında gəldi. Sevincindən uçmağa qanadı yox idi. Sanki öz kitabı çapdan çıxmışdı.

Ertəsi gün zəng elədi:

- Mahir, Məzahir müəllimə də dedim kitabının çıxmağını. Sabah səni gözləyir.

Ertəsi gün qar yağmışdı. Yollar da ki, buz bağlamışdı. Bir təhər gəlib çıxdım MSK-ya. İki kitab gətirmişdim. Bir az otağında əyləşdikdən sonra Məzahir müəllim qəbul elədi. Yazılarımda qaldırdığım erməni məsələsiylə bağlı özəl fikirlərini bildirdi. Kitabımı da oxuyacağını söylədi. Birdən Məzahir müəllim Azərdən soruşdu:

- Azər, şairə dedinmi kitabı?

- Dedim, Məzahir müəllim.

Yanından çıxıb yenidən Azərin otağına gəldik. Müəmma dolu bir sual verdim:

- Azər, Məzahir müəllim dedi ki, kitabı oxuyacaq. Düz dedi, yoxsa mədəniyyət xatirinə?

- Mahir, sən Məzahir müəllimi tanımırsan. Xaricə səfərləri zamanı özüylə yalnız Azərbaycan yazıçılarının kitablarını götürür, oxuyur. O bayaq dediyi kitab ki, var e... təyyarədə

uçarkən itirib. Yarımçıq oxuyub. Onu deyirdi ki, kitabı tapıb gətirim.

Düzü Azərə paxıllığım tutdu. Bu cür müdirə mətbuat katibliyi eləməyə nə var ki?.. Ertəsi gün yenə zəng etdi. Daha beş kitab istədi. Sanki öz kitabı kimi təbliğat və reklamımla məşğul idi.

EVDAR KİŞİ

Günlərin bir günü zəng elədi ki, "neyləyirsən, nə işlə məşğulsan?". Dedim ki, "Heç nə. Evdar kişiyəm". Güldü. Dedi ki, "elə mən də evdar kişiyəm".

Burda bir haşiyə çıxım:

HAŞİYƏ: AzTV-də işləyirdim. Adını çəkmək istəmədiyim həmkarlarımdan biriylə söhbət zamanı dedi ki, "bəs mənim AzTV-də nə itim azmışdı. Mən indi Azərtac-ın Türkiyədəki xüsusi müxbiriydim. Bir nəfər vardı. Atası güclü çıxdı. Girdi kiminsə yanına. Öz oğlunu soxdu araya". (İndi həmin müxbir səfirdir). (SON)

Mən onda anlamırdım ki, bu, böyük vəzifədir, yoxsa kiçik. Amma demə böyük vəzifəymiş. Bizim Azər Sarıyevi də illər sonra bu vəzifəyə layiq gördülər. Sevinmişdim. Türkiyəyə gedəndə lövbər salmağa bir limanımız vardı. Amma imtina etdi. Lap Azərcəsinə, uşaqlarının təhsili xatirinə. Elə-belə, səmimi, gülə-gülə. İndi mən deyəndə ki, evdar kişiyəm, o da mən soruşanda bu sözü təkrar edir. İki dost cəmiyyətdə bir tarazlıq yaratmışıq. Ekvatorda lövbər salmışıq.

40 YAŞLI AZƏR SARIYEV

Bizim Azər 40 yaşına çatdı. Gözəl yaşdı. Bu yaşda yalnız bir qazanc ola bilər. O da "BİZİM" sözüdür. Əgər mən, Eldəniz, yaxud digər dostlarımız deyirsə ki, "Bizim Azər – Bizim Azər Sarıyev" – bundan gözəl qazanc ola bilməz. Qayıdım yazımın əvvəlinə. Yarımçıq qalan abzasımı tamamlayım.

“80 yaş isə gözəl yaşdır. Kifayət qədər həyatına bir qiymət veriləcək yaşdır. Dostumuz Azər Sarıyev bu yaşın yarısına - 40 yaşa çatıb. İndi evdə oturub fikirləşir. Özünə də qəribə gəlir: “40 yaşına çatdım. Nə olsun?”. Azər, heç nə olmasın. Sadəcə, telefonu əlinə götür, dostlara zəng elə, başına yığ. Ürəyimizdə olanları üzünə dəyək. Sağlığına da yüz-yüz vuraq. Vəssalam-şüttəmam.

# BƏXTİYAR SADIQOV VƏ SİLVA KAPUTİKYAN

Bu yazının adını görüb təəccüblənməyin. Elə bilməyin ki, oxucu cəlb etmək xatirinə adını belə qoymuşam. Elə anlaşılmasın ki, Milli Məclisin orqanı olan "Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Bəxtiyar Sadıqovun adını azərbaycanlıların qatı düşməni, Zori Balayanın dişi tayı olan Silva Kaputikyanla bir müstəviyə endirmişəm. Yaxud da ki, vəzifəsinə yarınıb nəsə söz demək istəmişəm, müdafiə etmişəm. Əsla. Sadəcə oxuyun. Mən nəticə çıxarmışam. Oxuduqdan sonra isə nəticə çıxarmaq sizlikdir.

SAMVEL QRİQORYAN

Atamla bağlı xatirələri, lətifələri mənim yazılarımda çox izləmisiniz. Mənim müasirlərim olan Azərbaycan yazıçıları da artıq mənim qəhrəmanlarıma çevrilir. 1900-cü ildə anadan olan Süleyman Rəhimovdan üzü bu yana. Kimsə qələmimin yaxşı vaxtına düşür, kimsə də pis. Amma hamısında ortaq məxrəc var. Bütün bunlar Azərbaycan yazıçılarının sandıq ədəbiyyatıdır. Çox adamın gördüyü, heç kimin qələmə almadığı sandıq ədəbiyyatı. Düzdür "sandıq ədəbiyyatı" başqa mənada işlənir. Amma siz bunu memuar kimi adlandıra bilərsiniz. Siz elə bilirsiniz ki, mən yazdıqlarımı Anar, Elçin Əfəndiyev, Vaqif Səmədoğlu, Elçin Şıxlı və adını bilmədiyiniz neçə-neçə yazıçı-şair övladı görməyibmi, bilmirmi? Görüblər. Düzünü bilsəniz məndən on qat, bəlkə yüz qat artıq bilirlər.

Amma ki, yazmırlar. Mənim fikrimcə İlyas Əfəndiyev, Rəsul Rza, Səməd Vurğun, İsmayıl Şıxlı, Mirzə İbrahimov, İmran Qasımov və neçə-neçə nəhəngin şəxsiyyəti onların yaradıcılığından qat-qat yüksəklərdə dayanır. Onların yaradıcılığını oxuyub öyrənə bilirik, amma həyatlarına yaxın gedə bilmirik. Bircə Anar "Sizsiz"  kitabını ortaya qoyub. Amma çılpaqlıqlara varmayıb. Sadə bir suala cavab verməyib. Səməd Vurğunla Rəsul Rza dost idimi, yoxsa... Özümə gəldikdə isə "Yarımçıq" romanım beynimdə hazırdır, qalıb kağıza köçürməyim.

Samvel Qriqoryan da mənim qonşum olub. Yox. Belə olmaz. Gəlin sizi yaxından tanış edim. Samvel Qriqoryan – Azərbaycan SSR-in əməkdar mədəniyyət işçisi, Azərbaycan SSR-in xalq şairi, 16 il Azərbaycan Ali Sovetinin deputatı olub. Yenə də qaranlıq qaldı sizə? Tanımadınız? Zori Balayanı "Ocaq" kitabına görə mənim nəslim yaxşı tanıyır, amma  Azərbaycan xalq şairi olmuş Samvel Qriqoryanın bir misrasını da bilən yoxdur. Nə sağlığında, nə də indi – öləndən sonra. Şəxsən mən qonşu Mahir də onun nə bir kitabının, nə də yazısının şahidi olmuşam. Baxmayaraq ki, atamın bütün kitabxanası yazıçıların avtoqraf verdiyi kitablar hesabına formalaşıb. Əgər mən tanımıramsa, onda indiki nəsil onu necə tanımalıdır?

Bu istiqamətdə yenə ağırlıq mənə düşür. Daha doğrusu Bəxtiyar Sadıqova sağ ol deyin ki, onun bir sözünə, daha doğrusu bir şəkilçini müdafiə etməsinə məqalə yazmaq fikrinə düşdüm.

1984-cü il idi. Sergey Mironoviç Kirov adına Azərbaycan Dövlət Universitetinin  filologiya fakültəsinin 2-ci kursunda oxuyurdum. Tərcümə kursu açılmışdı. Mən də ora yazıldım. İlk müəllimimiz professor Bayram Tahirbəyov oldu. Sonradan onu Şamil Zaman əvəz etdi. Mənə qarşı çox aqressiv idi. Bilmirəm, bəlkə də özümü dərsdə pis aparırdım, ona görə.  Beşinci dərsdə şair Qabildən misal gətirdi. Uşaqlar da çönüb mənə baxdılar. O da niyə belə etdiklərini soruşanda, dedilər ki, bəs Mahir Qabilin oğludur da... Elə bil Şamil müəllimi kökündən dəyişdilər. Zəhləsi gedən mən oldum onun sevimli

tələbəsi. Günlərin bir günü tapşırıq verdi ki, "bəs özün seç. Rus yazıçılarından birindən tərcümə etməlisən". Mən də evə gəldim, axtardım atamın kitabxanasını. Nəhayət Şukşinin iki cildliyini tapdım. Niyə məhz onu? Çünki Şukşini aktyor kimi rollarını sevirdim. "Krasnaya kalina" bədii filminə dəfələrlə baxmışdım. Kitabda "İmtahan" adlı hekayə diqqətimi cəlb etdi. Bunu Şamil müəllimə dedim. Dərsdən sonra evinə dəvət etdi. Səhv etmirəmsə Verxni Naqornıda, köhnə birmərtəbəli evdə yaşayırdı. Birinci sözü bu oldu: "Mahir, mən fransız dilindən tərcüməçiyəm. Atan "Azərbaycan" jurnalında işləyərkən mənim Viktor Hüqodan etdiyim "Klod Qo" adlı tərcüməmi yüksək qiymətləndirib, çap edib. Ona görə də mənim borcumdur ki, səni tərcüməçi kimi yetişdirəm. Heç olmasa bu cür borcundan çıxam".

Düzü tərcüməçiliyə həvəsim vardı. Mehdi Mirkişiyevin qısa məsləhətlərinə də qulaq asmışdım. Amma indiki kimi o vaxt bu sahəni dərindən dərk etmirdim. Atam demişkən. "Tərcümə etmək çətindir. Gərək oxuyasan, mənanı saxlayasan, sonra özün şeir yazasan. Bu daha asan tərcümədir". Amma nəsrdə çox çətin idi. Məqsədim tərcümədən danışıb başınızı yormaq deyil. Bu mənim nəsr tərcüməsində sonuncu işim oldu.

O dövrdə, yəni ki 1984-cü ildə Samvel Qriqoryana Azərbaycan ədəbiyyatının digər nümayəndələri ilə birlikdə "Xalq şairi" fəxri adı vermişdilər. Bu, birmənalı qarşılanmamışdı. Dərslərin birində Şamil Zaman bu məsələyə münasibətini bildirdi: "Deyirlər ki, yox, düzgün deyil Samvel Qriqoryana bu adı vermək. Bilirsinizmi, Samvel Qriqoryan Mirzə Ələkbər Sabirin yaradıcılığını erməni dilinə tərcümə edib. Məhz bu xidmətinə görə halaldır ona".

Onda başa düşmürdüm bu sözü. Bəlkə Şamil müəllim də bu sözü məsələnin nə yerdə olduğunu bilmədən dedi. Bəlkə də bu fikir Samvel Qriqoryana yox, Böyük Sabirə olan məhəbbətin bir təzahürü idi. Amma indi başa düşürəm ki, ermənilər erməni dilində Sabiri oxuyandan sonra azərbaycanlıların portretini daha dəqiq, daha səhih yaratmağı bacarıblar.

*Millət necə tarac olur olsun, nə işim var,*
*Düşmənlərə möhtac olur olsun, nə işim var.*

Bu misralar görəsən Samvel Qriqoryanın "ifa"sında ermənicə necə səslənirmiş? Ermənicə bilmirəm, amma təsəvvür etmək çətin deyil erməninin yaratdığı azərbayanlı millətinin surəti.

BƏXTİYAR SADIQOV

AzTV-də "Xəbərlər"redaksiyasına təzə keçmişdim. Yazıları yazanda feillərin sonluğuna "ıb, ib, ub, üb", ya da "dı, di, du, dü" artırırdım. Baş redaktorumuz Həsən Həsənov da bütün bunların üstündən qırmızı rəngli qələmlə xətt çəkib edirdi – "mış, miş, muş, müş". Düzünü desəm, yaxud da desək, bu cür oxunuş çox qıcıqlandırırdı məni, bizi. Hətta çəkilişlərə gedəndə digər jurnalist həmkarlarımız lağ da edirdilər. Adımızı "mış-muş" çağırırdılar. Əlavə də edirdilər ki, "nə görmüsünüz e bu "mış-muş"da. Dili ağırlaşdırırsınız".

Amma "Xəbərlər" öz prinsipindən geri çəkilmirdi. Nəinki "Xəbərlər", AzərTac İnformasiya Agentliyi, "Azərbaycan" və , "Respublika" qəzetləri də. Zaman ötdü. Televiziyamızda nəsil dəyişikliyi getdi. "Mış-muş"lar getdi, yerinə "ib-ib"lər gəldi. "Mış-muş"lar "ıb, ib"ə çevrildi. Amma "Azərbaycan", "Xalq qəzeti" simasını qorudu. Bu gün də qoruyur.

SİLVA KAPUTİKYAN

Mən onu Zori Balayanın dişi variantı, Azərbaycanlıların bir nömrəli düşməni sayıram. Zori Balayanla birlikdə Qorbaçovun qəbuluna girib "Qarabaq bizim olmalıdır" deyə ultimatum verəndir erməni şairəsi Silva Kaputikyan. Azərbaycana, Azərbaycan xalqına nə qədər böyük nifrəti vardı onun, Allah bilir.

Amma bir sözü yadımdan çıxmır. Bəlkə də qısa təhriflə ifadə edəcəm. Amma sizə də çatdırmağa borcluyam: "Azərbaycan dili gözəl dildir. Axıcıdır, şirindir. Bir qulaq asın: "Biri varmışşşşşşşş, biri yoxmuşşşşşşş"".

SON

Gəlin dilimizə qiymət verək. Onu qoruyaq. Adi "mış-muş"umuzu qorumağa qadir deyiliksə, heç olmasa bu yolla gedənlərə - Bəxtiyar Sadıqova, Həsən Həsənova və onların kollektivinə mane olmayaq. Bunu heç müzakirə obyektinə də çevirməyək.

# MƏNİM ƏCLAFLIĞIM

Azərbaycanın xalq yazıçısı Hüseyn Abbaszadə mənim qonşum idi. Köhnə cəbhəçi idi. Yox, elə başa düşməyin ki, Azərbaycan Xalq Cəbhəsi Partiyasının üzvü idi. Əsla. Sovet dövründə Böyük Vətən Müharibəsində vuruşub sağ-salamat qayıdanlara cəbhəçi deyirdilər. İndi soruşacaqsınız ki, ay Mahir cəbhəçi olmağının Hüseyn Abbaszadənin yazıçılığı, yaxud səninlə qonşu olmasıyla nə əlaqəsi. Bilməyənlər də bilsin. Cəbhəçi olan yazıçıların bəxti ya əlli, ya da yüz faiz gətirmişdi. Məsələn, müharibədə vuruşub, yaralanıb əlil olanlar vergidən yüz faiz azad idilər. Amma vuruşub yaralanmayanlar isə əlli faiz. Bir kitabın qonorarından tutulan verginin puluna isə az qala bir maşın almaq olardı. Atamın da hər dəfə kitabı çıxanda, qonorar alarkən çıxılan verginin məbləğini ona deyəndə bu cəbhəçilərə paxıllıq edirdi. 1944-cü ildə, 18 yaşı tamam olanda cəbhəyə getmək istəsə də zəif görməsini əsas gətirib müharibəyə aparmamışdılar.

Amma Hüseyn Abbaszadə bu cür xoşbəxt yazıçılarımızdan idi. Həm gözəl yazıçı idi, həm də vergidən yüz faiz azad. Hüseyn Abbaszadəni buna bədənində iz qoyan, nitqini qüsurlu edən faşist gülləələri layiq görmüşdü.

Məni "Qabiloviç" deyə çağırırdı. Hüseyn əmi və onun ailəsi haqqında geniş söz açmaq istəmirəm. "Məleykə Abbaszadə mənə niyə əzizdir" yazımdakılar təkrarçılıq olar. Sadəcə yaddaşım məni on yeddi il əvvələ apardı. Qonşum Hüseyn əmiyə qarşı bir yanlışlığa yol vermişdim. Bilə-bilə etmişdim. Qəsdən

etmişdim. Ona görə də yazımın adını "Mənim bağışlanmaz səhvim" yox, məhz "Mənim əclaflığım" qoydum.

## 1997-Cİ İL

1997-ci il idi. Qızğın, çevrilişlər dolu ictimai-siyasi hadisələr Prezident Heydər Əliyevin siyasəti nəticəsində artıq tarixə qovuşurdu. Müstəqil Azərbaycanın tarixində əminamanlıq, intibah dövrü başlamışdı. Televiziya verilişlərində üstünlüyü həyəcan dolu xəbərlər yox, yubileylər, ədəbi-bədii hadisələrlə dolu verilişlər ələ alırdı. 1997-ci ilin yanvarında atamın 70 illik yubileyi təntənəli surətdə qeyd olundu. Heydər Əliyev şəxsən özü iştirak etdi. Sonra isə növbə 75 yaşlı Hüseyn Abbaszadəyə çatdı. Dövlət Dram Teatrında yubiley mərasimi təşkil olunmuşdu. Prezident Heydər Əliyev bu ərəfədə Hüseyn əmini "Şöhrət" ordeniylə təltif etmişdi, ona təbrik məktubu ünvanlamışdı.

O vaxt AzTV-nin "Xəbərlər" proqramında işləyirdim. Baş redaktorum Həsən Həsənov məni çağırdı:

- Şair oğlu, axşam yubileyə gedəcəksən?

- Yox. Nə yubileydi ki?

- Sən necə qonşusan? Hüseyn Abbaszadənin Azdramada yubileyidir. Get həm iştirak elə, həm də çək. Yoxsa inciyər səndən.

Həsən müəllim beləcə incə yumoruyla Yazıçılar Birliyindən gələn çəkiliş xahişli məktubu verdi mənə. Operator Dünyamin Hüseynovu da yanıma salıb gəldim Azdramaya. Dünyaminin birinci sözü bu oldu:

- Qədeş, mən həm də "Mədəniyyət xəbərləri" üçün çəkəcəyəm. Ona görə də müsahibə götürərik. Telli xanım tapşırıb. Yubileyi də bir az geniş çəkəcəyəm. Özü də axıracan oturarıq.

Razılaşdım. Lojaların birində lövbər saldım. Yubileyin əvvəlində Prezident Aparatının Humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadə prezidentin yubilyara ünvanladığı təbrik məktubunu oxudu. Gül dəstəsini ona təqdim etdi.

Hiss olunurdu ki, Fatma xanım bu təbriki ürəkdən oxumur. Sadəcə vəzifə borcunu yerinə yetirir. Hüseyn əmiyə əl verib görüşəndə də bir istilik hiss olunmurdu. Elə Hüseyn əmi özü də...

HAŞİYƏ: Yubileydən bir az öncə Prezident Heydər Əliyev "Prezidentin fərdi təqaüdü" təsis olunmasıyla bağlı sərəncam imzalamışdı. Və birinci sərəncamla səhv etmirəmsə atam Qabil də daxil olmaqla 10 nəfər görkəmli yazıçı – xalq şairi və yazıçısı – bu təqaüdə layiq görülmüşdü. Onların arasında Nəbi Xəzri, Hüseyn Abbaszadənin adı yox idi. Bu, Hüseyn əmiyə pis təsir eləmişdi. Pula görə yox, adının orda olmamasına görə. Atamla söhbətində: - Qabil, bu iki yüz faiz Fatmanın (red.- PA-nın Humanitar siyasət şöbəsinin müdiri Fatma Abdullazadə) işidir. Mənə nifrət edir, mən də ona. Ona görə adımı siyahıdan çıxarıb.- dedi.

Atamın isə Fatma xanıma, Fatma xanımın isə atama böyük hörmət, ehtiramı vardı. Elə hey Hüseyn əmini sakitləşdirirdi ki, yox e, Fatma xanım belə iş görməz. O bütün yazıçıları çox sevir. Elə atam deyən də oldu. Birinci sərəncamdan iki ay sonra daha on nəfər prezident təqaüdünə layiq görüldü. Onların arasında Nəbi Xəzrinin də, Hüseyn Abbaszadənin də adları vardı. Atam Hüseyn əmiyə:

- Gördün? Mən deyən düz çıxdı. Fatmalıq deyilmiş. (SON)

Sonra çıxışlar başlandı. Dünyamin də çəkməyində idi. Yubileydə iştirak etmək üçün Hüseyn əminin oğlu İlqar da xüsusi olaraq ABŞ-dan Bakıya gəlmişdi. Əlində o vaxt əlçatmaz bir şey sayılan kiçik formatlı əl kamerası vardı. Səhnənin bir küncündə dayanıb olanları lentə alırdı. Amma professional televiziyonşik kimi başa düşürdüm ki, nə o Dünyamin Hüseynovdur, nə də kamerası bizim Betekam kamerası kimi yüksək keyfiyyətli.

Fasilədə Hüseyn əmidən böyük bir müsahibə aldım. Bu, Telli Pənahqızının tapşırığı idi. Yubileydə axıracan oturduq. Həm qonşu, həm də müxbir kimi borcumu yerinə yetirdim. Qaldı materialı hazırlayıb efirə vermək.

Ertəsi gün işə gəldim. Yazdım. İkinci proqram üçün aldığım müsahibəni də arxasına qoşmaq qərarına gəldim. Kadr arxası mətni Həsən müəllimə təqdim etdim.

- Mahir, bu nədir?

- Hüseyn Abbaszadənin yubileyi.

- Bilirəm e yubileydir. Bu boyda niyə yazmısan? Sən bilmirsən ki, bir dəqiqədən artıq süjet getmir efirə? Apar bunu azalt.

- Həsən müəllim, mənim qonşumdur axı.

- Bilirəm qonşundur. Mən demirəm ki, vermirik. Yaxud da başdansovdu yanaş. Qəşəng bir süjet hazırla, amma bir dəqiqə, maksimum bir dəqiqə on-iyirmi saniyə. Bu nədir? Hələ sinxron da verəcəksən?

- Bəli, Həsən müəllim, müsahibə də aldım. Bəs baxanda Hüseyn əmi deməyəcək ki, danışdıqlarım hardadır? Sonra başlayacaq məni danlamağa. Gərək məni göndərməyəydiniz.

- Sənə tapşırıq vermişdim ki, müsahibə alasan?

- Özü dedi ki, "al!"

Bunu yalan dedim. Həsən müəllim fikrə getdi. Hüseyn müəllimə, onun şəxsiyyətinə hörməti böyük idi. Amma ki, "Xəbərlər"də o dövrdə süjetlərdə müsahibə getmirdi. Süjetlər də maksimum bir dəqiqə olurdu. Yalnız dövlət çəkilişlərində xronometraj dəqiqəni aşa bilirdi. Sonunda da "Xüsusi buraxılış" anonsu verilməklə.

Nə isə, Həsən müəllimi pis duruma salmışdım. Amma istəyirdim ki, Hüseyn əminin yubileyini bir nömrəli proqram sayılan, o vaxt prezident proqramı adlandırılan "Xəbərlər"də yaxşı işıqlandırım. Çünki bütün ziyalılar "Xəbərlər"ə bir nəfər kimi baxırdılar. Əgər yaxşı verməsəydim, Hüseyn əmi yenə də taqsırı Fatma Abdullazadədə görəcəkdi.

Süjeti hazırladım. Hardasa iki dəqiqədən bir az çox çıxdı. Axşam efir qabağı bütün kassetləri yığıb aparırdıq Baş Proqram direktoru Məmmədəli Zülfüqarovun otağına. Həsən müəllimlə birgə baxırdılar. Ehtiyac duyulanda süjeti Nizami müəllimə də göstərirdilər. Həsən müəllim bu dəfə kassetləri mənə daşıtdırdı. Demə, məqsədi varmış. Otaqdan çıxmaq

istəyəndə dedi ki, "getmə. Elə birinci səndən başlayacağıq". Məmmədəli müəllim yubiley süjetinə baxdı.

- Alə, bu nədi?

- Hüseyn Abbaszadənin yubileyi.

- Alə, bildim e, yubileydi. Niyə bu qədər çoxdur? Həsən baxmamısan bunun yazısına?

- Baxmışam. Amma çox israr elədi ki, böyük getsin.

- Olmaz. Apar bunu yarıbayarı azalt.

- Məmmədəli müəllim, Hüseyn müəllim özü dedi ki, yaxşı ver mənim yubileyimi. İndi soruşsa nə deyim? Deyim ki, Məmmədəli müəllim qoymadı?

Məmmədəli müəllim də fikrə getdi. Bilirdi ki, deyə bilərəm. Ondan sonra isə gəl Hüseyn Abbaszadənin qabağında dayan...

- Yaxşı, qoy getsin. Amma Mahir, sənə deyirəm, bundan sonra bizi belə çıxılmaz vəziyyətə salma. Başa düşdün?

- Baş üstə. – deyib sevincək otaqdan çıxdım.

İşin axırı idi. Evə çatanacan "Xəbərlər" qurtarmışdı. Fikrini öyrənmək üçün birinci atama zəng elədim. Dəstəyi anam götürdü:

- Mama baxduz yubileyə?

- Hə. Baxdım. Məni də göstərmişdin.

- Bəs papa?

- Papa evdə yoxdur. Respublika sarayında Prezidentin tədbiridir – ora gedib.

Dəstəyi qoydum. Zəng elədim Hüseyn əmigilə. Dəstəyi həyat yoldaşı Solmaz xala götürdü:

- Salam, Solmaz xala.

- Salam.

- Mahirdir e.

- Hə, bala, necəsən?

- Baxdınız yubileyə?

- Harda göstərdilər ki?

- AzTV-də.

- Ay bala, biz yerli-dibli Azərbaycan kanallarına baxmırıq. Biz ancaq rus kanallarına baxırıq.

Pərt oldum. Amma pərtliyimi güclə gizlədib:

- Solmaz xala, Hüseyn əmi evdədir?

- Yox. Saraydadır. Prezident tədbirinə gedib.

Bu da ikinci pərtlik. Yenə də özümü toparladım. Əlacım qaldı özümü tərifləməyə.

- Əla verdim e "Xəbərlər"də. Müsahibəsini də, sizi də. Bütün qonşularımızı. Geniş şəkildə.

- Necə dəqiqə?

- Üç dəqiqə. - deyə 30 saniyə mübaliğəyə vardım.

- Nə? Üç? Mən də elə bildim ki, bir on-on beş dəqiqə gedib.

Bu da üçüncü pərtlik. Yenə də pərtliyimi biruzə vermədim.

- Solmaz xala, siz baxmamısınız. Yəqin qohum-qonşu baxıb. İndi zəng edib sizə də deyəcəklər ki, baxdıq - əla süjet idi.

- Kim zəng edəcək ki, ay bala. Hamı Respublika sarayındadır. Baxan olub ki? Hüseyn özü baxmayıbsa, kimə lazımdır ki, süjetə baxmaq.

Bu da dördüncü pərtlik. Sağollaşıb dəstəyi yerinə qoydum. Əl-üzümü yudum. Yeməyimi bir təhər yedim. Başladım televizora baxmağa. Amma özümə gələ bilmirdim. Bütün günü bir süjetin arxasına düşüb keçirdiyim həyacanların cavabını, qiymətini almışdım. Özümə söz verdim ki, bir də yazıçıların tədbirlərini çəkməyəcəyəm. Ertəsi gün Dünyamin kasseti gətirib mənə verdi. Ağlıma bir fikir gəldi ki, həm "sıroy", həm də süjeti adi maqnitafon kassetinə köçürüb verim Hüseyn əmiyə. Qoy yubileyindən yadigar qalsın. Zəng etdim evlərinə. Bu dəfə dəstəyi Hüseyn əmi özü götürdü.

- Hüseyn əmi, bilirəm dünən baxa bilməmisiniz. Narahat olmayın. Həm bütöv variantı, həm də süjeti köçürüb gətirəcəyəm.

- Neynirəm ki... İlqar hamısını çəkib. Lazım deyil.

Bu da beşinci pərtlik. Sağollaşıb suyum süzülə-süzülə dəstəyi qoydum yerinə. Kasseti pozmalıydım. Amma pozmadım. Qoydum siyirtməmə. Olanları atama da danışdım. Dedi ki, yaz kasseti gətir ver. Dedim ki, yox. Dedi ki, özün vermək istəmirsənsə, ver kasseti mənə, çatdırım. Yenə də "yox" dedim.

Dedi ki, yaşlı adamdırlar. Fikir vermə. İnsan qocalanda belə olur. Bir azdan ananla mən də belə olacağıq. Biziylə də belə umu-küsü edəcəksən? Atam nə hay elədisə, sözünə qulaq asmadım. Amma kasseti də pozmurdum. Eləcə şkafda qalmışdı.

Üstündən bir ay keçdi. Otaqda oturmuşdum. Şəhər telefonuna zəng gəldi. Dəstəyi götürdüm. Hüseyn əmi idi:

- Qabiloviç, necəsən?

- Yaxşıyam, Hüseyn əmi.

- Mahir, telefonunu atandan aldım. Mənim yubileyimi çəkən o operator var idi e... Adı nədir onun? Keçəl, balacaboy kişi...

- Dünyamin?

- Hə. Dünyamin. Ona denən ki, bəs kasseti köçürüb gətirsin mənə.

- Kasset qalmayıb axı, Hüseyn əmi.

- Sən ondan soruş. Bəlkə qalıb?

- İki yüz faiz qalmayıb.

- Bəlkə fonda verib?

- "Xəbərlər"in çəkdiklərini fonda vermirlər.

- İndi o boyda yubiley belə çıxır ki, havaya uçdu?

- Bəli.

- Yaxşı. Sağ ol. Amma hər ehtimala qarşı Dünyamindən soruşarsan.

- Hüseyn əmi, bəs İlqar çəkirdi axı öz kamerasıyla.

- İndi baxırıq ki, başdan-ayağa brak çəkib. Hansısa knopkanı düz basmayıb.

Danışığı başa çatdırdım. Şkafı açdım. Hüseyn Abbaszadənin yubileyi olan kasseti çıxartdım. Videotekaya qalxıb uşaqlara verdim. Onlar da xüsusi aparata saldılar. İçində olanların hamısını pozdurdum. Dərindən nəfəs aldım.

Nə mənim bir aydır ki, içimdə gəzdirdiyim pərtlikdən əsər-əlamət qaldı, nə də ki, Azərbaycanın xalq yazıçısı, Dövlət Mükafatı laureatı, Əməkdar iİncəsənət xadimi, nasir Hüseyn Abbaszadənin, qonşum Hüseyn əminin ömrünün yeganə yubileyindən xırda bir nişanə.

# ARVAD, ALLAH VERƏNDƏN GƏTİR

KASIB AİLƏ

Axşam saat 9-dur. Kasıb ailə şam eləyib. Televizorun qabağında oturub türk serialına baxır. Bu dəm qapının zəngi çalınır. Evin kişisi qapıya çıxır.

- Ay xoş gəlib, səfa gətirmisiniz.
- Xoş gününüzə gələk.
- Buyurun, keçin içəri.

HAŞİYƏ: Belə bir lətifə var. Günlərin bir günu kasıb ailə şam edir. Birdən arvad əlindən bıçağı salır.

- Ay kişi, qonaq gələcək.

Elə bu dəm qapının zəngi çalınır. Kişi qapını açır. Dörd nəfərdən ibarət qohum dəstəsi içəri girir. Süfrə açıq olduğundan onları da stola dəvət edirlər. Kişiylə arvad əlini yeməkdən çəkir ki, qonaqlara bir şey çatsın. Bir az keçir arvad yenə də bıçağı əlindən yerə salır.

- Ay kişi, qonaq gələcək.

Bu dəm yenə qapı döyülür. Kişi qapını açır. Üç qohum da belə gəlir. Onlar da süfrə arxasına oturur. Bu dəfə ana "uşaqlar dərslərini hazırlamalıdırlar" bəhanəsiylə onları süfrədən uzaqlaşdırır. Ki, qonaqlara yemək çatsın. Bir az keçir arvad yenə bıçağı əlindən salmaq istəyir. Onu güdən əri bıçağı göydəcə tutur. Kişi sevincək:

- Ay arvad, yaxşı ki, bıçağı göydə tutdum. Yoxsa yenə qonaq gələcəkdi,- deyir.

Amma bu dəm yenə qapı döyülür. Ortada isə yemək yox. Soyuducu da boş. Kişi qanıqara qapını açır. Kandarda qonşusunu görüb sevinir.

- Qonşu, xeyir ola?

- Qonşu, sizə qonaq gəlib. Liftə qalıblar. Gəl kömək elə, çıxaraq. (SON)

Qonaqlar içəri keçir.

- Ay arvad, əziz qonağımız var. Allah verəndən gətir düz stola.

Arvad çaş-baş qalır. Əvvəl tezcə çay dəmləyir. Soyuq dəyəndə uşaqlar üçün saxladığı zoğal mürəbbəsindən qaba tökür. Səhər uşağın dərsə aparacağı peçenyeni qabından çıxarıb səliqəylə boşqaba düzür. Çayı süzüb podnosda aparıb süfrəyə düzür. Sonra yenidən mətbəxə qayıdır. Soyuducunu açır. Baxır. Görəsən Allah verəndən soyuducuda nə qalıb? Gözünə kərə yağı, "Üç inək" pendiri, bir də 7 qəpiklik yumurta sataşır. Altı dənə yumurtanı bir qaba vurur. Üstünə azça çay sodası tökür ki, köpsün. Yaxşıca çalır. Yağ dağa düşəndən sonra tavaya tökür. Pendiri dilim-dilim doğrayır. Yayda bağladığı badımcan kürüsü də yadına düşür. Çörəyi doğrayır. Podnosa qoyub süfrəyə aparır. Kişi də çebuş arağı qoyur ortalığa. Arvad:

- Pendir kənd pendiridir. Anam rayondan göndərib.

- Bəh-bəh-bəh! – əri arvadının sözünə qüvvət verir.

- Yumurtaları da anam göndərib. Həyətimizdəki qara toyuğun yumurtasındandır.

- Bəh-bəh-bəh ! – kişi yenə əlavə edir.

- Çörək də öz təndirimizdən çıxıb.

- Bəh-bəh-bəh! – kişi başını razılıqla tərpədir.

- Nuş olsun. Bir az tez gəlsəydiniz anamın kənddən göndərdiyi beçəni çığırtma bişirmişdim. Neynək. Gələn dəfə gəlməmişdən qabaq xəbər verərsiniz. Bu dəfə xəcalətliyik yanınızda.

## ORTABAB AİLƏ

Axşam saat 9-dur. Ortabab ailə şam eləyib. Televizorun qabağında oturub rus kanallarına baxır. Bu dəm qapının zəngi çalınır. Evin kişisi qapıya çıxır.

- Ay xoş gəlib, səfa gətirmisiniz.
- Xoş gününüzə gələk.
- Buyurun, keçin içəri.

Qonaqlar içəri keçir.

- Ay arvad, əziz qonağımız var. Allah verəndən gətir düz stola.

Arvad özünü itirmir. Əvvəl tezcə çay dəmləyir. Qonaq üçün saxladığı şaftalı, əncir mürəbbəsindən ümumi qaba tökür. Uşaqların əlindən gizlətdiyi, qonaq üçün saxladığı şokolad konfeti çıxarıb qənddana qoyur. Çayı süzüb aparıb süfrəyə düzür. Sonra yenidən mətbəxə qayıdır. Soyuducunu açır. Baxır. Görəsən Allah verəndən soyuducuda nə qalıb? Çəkilmiş mal əti. Bundan tezcə kotlet bişirmək olar. Yanında da kartof qızartması. Bir də vermişel dəmləsə yerinə düşər. Həm də tezbazar. Yaxşı ki, yayda qoyduğu tutmalar var. Hələ "bolqarski perets"i demirəm. Qonaqların yanında xəcalətli qalmayacaq. Tezcə bunları hazırlayıb, podnosa qoyub süfrəyə aparır. Evin kişisi də bardan yaxşı moskovski araq götürüb ortaya qoyur.

Gələn qonaq da məəttəl qalır ki, bu qısa zaman ərzində evin xanımı bu qədər neməti necə hazırlayıb süfrəyə düzdü. O saat deyirlər:

- Əhsən. Bərəkallah.

## VARLI AİLƏ

Axşam saat 9-dur. Varlı ailə şam eləyib. Televizorun qabağında oturub xarici kanalda ingiliscə xəbərlərə baxır. Bu dəm qapının zəngi çalınır. Evin kişisi qapıya çıxır.

- Ay xoş gəlib, səfa gətirmisiniz.
- Xoş gününüzə gələk.
- Buyurun, keçin içəri.

Qonaqlar içəri keçir.

- Ay arvad, əziz qonağımız var. Allah verəndən gətir düz stola.

Arvad yerindən tərpənmir. Gözüylə xidmətçiyə işarə edir. O da mətbəxə keçib çay və kofe dəmləyir. Xarici şokoladları səliqəylə qənddana düzür. Cənnət alması, qoz, zeytun mürəbbəsini qaba tökür. Bon-apetitdən, AZZA-dan sifariş edilən tortu, pirojnaları doğrayır. Aparıb süfrəyə düzür. Sonra yenidən mətbəxə qayıdır. Soyuducunu açır. Baxır. Görəsən Allah verəndən soyuducuda nə qalıb? Beş cür xarici kolbasa, qara-qırmızı kürü, vetçina, balıq, ləvəngi, burjanina. Bir də şamdan qalan plov, iki cür qara. Tezcə bunları da qızdırıb, süfrəyə aparır. Evin kişisi də servantı açıb viski, tekila götürüb ortaya qoyur.

- Siz Allah, bağışlayın da. Bivaxt gəlmisiniz. Allah verəndən nuş eləyin. Bir pənco-pənco da boğazımızı yaşlayaq.
- Allah süfrənizi açıq eləsin.

## ALLAH YETİRƏN

Allah təkdir. Allah adildir. Amma nədənsə yetirəndə birinə qayğanaq verir, birinə də qara kürü. Birinə çebuş içizdirir, o birinə viski. Biri qonağa uşağının boğazından kəsdiyini yedizdirir, o biri isə özgələrinin boğazından kəsdiyini. Görəsən niyə? Tapdım. Kim ki, bu dünyaya Cənnət deyib, təamlar yeyəcək, onlar o biri dünyada cəhənnəmlik olacaqlar. Kim ki, bu dünyada kasıbçılıqla yaşayacaq, daha doğrusu sürünəcək, o dünyada cənnətlik olacaqlar. Məncə Cənnətə getmək üçün bu dünyada cəhənnəmlik olmağa dəyməz.

# O DÜNYAYA TƏLƏSƏN VAQİF SƏMƏDOĞLUNA CAVAB

Ömrünün son günlərində Xalq Şairi Vaqif Səmədoğlu "Yatmaq istəmirəm" adlı balaca bir şeir yazmışdı. Bu şeirdə onun xərçəng xəstəliyindən çəkdiyi ağrıları, əzabları, yuxusuz qalmağı kövrək notlarla gözəl təsvir olunur. Mən də ona zarafatyana belə bir təskinlik cavabı yazdım. Özü də nəzmə çəkərək.

VAQİF SƏMƏDOĞLU

**Yatmaq istəmirəm**

*İlahi,*
*Yatağın nə sağında*
*Nə solunda,*
*Nə bir gözəlin qolunda*
*Yatmaq istəmirəm.*

*İlahi,*
*Nə söyüd kölgəsində,*
*Nə dünyanın ən azad ölkəsində*
*Yatmaq istəmirəm.*

*İlahi,*
*Dar quyu dibində,*
*Qaranlıq nəm içində,*
*İşıqlı qəm içində,*

*Ağrısız*
*Bir az yatmaq istəyirəm...*
*4 oktyabr, 2014, Bakı*

MAHİR QABİLOĞLU

**O dünyayçun darıxma!**

*Vaqif, bu öz işindir,*
*İstəyirsən yat-yatma.*
*Dərin, şirin yuxuya,*
*İstəyirsən bat-batma.*
*Gözəllər işindədir –*
*İstəyirsən qucaqla,*
*İstəyirsən heç baxma.*
*Bircə bunu bilirəm:*
*O dünyayçun darıxma!*

*Söyüdlər dəbdən düşüb,*
*İndi dəb palmanındır.*
*Onunsa kölgəsi yox. -*
*Kölgə yatmaqçun deyil,*
*Fotonun zamanıdır.*
*Azərbaycan azaddır,*
*Lap yaşamaq anıdır.*
*...Vaqif, sən heç tələsmə,*
*Sənə yatmaq yaraşmır,*
*Belə yatsan günahdır.*

*Ölmək üçün tələsmə,*
*Dar quyu müftə deyil,*
*İzolyasya etsələr,*
*Quyuda nəm nə gəzir?*
*Qaranlıqdan danışma,*

*İnkir-Minkir fanarla,*
*Təzə ölülər gəzir.*
*Ağrı diriyə məxsus,*
*Yatmaq istəyirsənsə,*
*Bir dənə "dimedrol" iç.*
*"Xoşbaxtlıq, xoşbaxtlıq" de,*
*Şairlərə sən iliş.*
*Moşunu ifşa etdin,*
*Mahirlər peyda oldu –*
*Sən yaz, mən cavab verim.*
*Amma... heç yana getmə.*
*Atam da dilə gəlib*
*yazır ki: - Vaqifə de,*
*Səməd, Yusif burdadır,*
*Qazaxı sonsuz qoyma!*
*Saqqalına yaraşmır,*
*Ölməzliyə tələsmə.*
*Əzrayıl "zakaz" sevmir,*
*O dünyayçun darıxma!*

*5 oktyabr 2014-cü il*

# KOROĞLUNUN HEYKƏLİ PLAGİATDIRMI?

Heykəltaraş Tokay Məmmədova, onun yaratdığı eks Əzizbəyov, eks 11-ci Qızıl Ordu heykəllərinə böyük, Nəsimi heykəlinə cüzi rəğbətimə rəğmən bildirməliyəm ki, Koroğlu heykəli plagiatdır. Düzdür, məndə belə bir şübhə də var ki, Koroğlu heykəlini ümumiyyətlə Tokay Məmmədov yaratmayıb. Çünki bu onun sənətkarlıq səviyyəsindən, imkanlarından qat-qat aşağı bir sənət nümunəsidir. Azərbaycan heykəltaraşlığına ləkədir. Bu sənətin şikəst əsəridir.

İndi sual verə bilərsiniz ki, axı, Mahir, sən sənətşünas deyilsən? Düzdür. Sadəcə mənim bədbəxtçiliyim ondadır ki, 10 yaşında Leninqraddakı heykəlləri, Bakıda Sabsayın, Fuad Əbdürrəhmanovun, Cəlal Qaryağdının monumental heykəltaraşlıq incilərini görüb seyr etmişəm. Zövqüm bu fonda formalaşıb. Nə olsun ki, sənətşünas deyiləm. Amma xalqın gözü mizan-tərəzidir.

Gəlin bir az konkret olum. İki mülahizəm var. Birincisi – Koroğlunun heykəli plagiatdır. İkincisi – bu heykəli yaşı səksəni ötən Tokay Məmmədov yarada bilməzdi. Daha doğrusu Tokay Məmmədov bunu özünə yaraşdırmazdı. Nəsə uşaq-muşaq barmağı var bu işdə. Necə? İzah edim də.

Dissertant gəlir akademikin yanına ki, bəs elmi rəhbərim ol, himayə et məni. O da deyir ki, "baş üstə". Sonra dissertant elmi kitab çap etdirmək istəyir. Akademikə verir ki, o da bir dərkənar qoysun. Akademik də guya oxuyur. Sonra da deyir ki, kitabda bəzi boşluqlar vardı, onları doldurdum. Bəzi

əlavələr etdim. Nəticədə akademikin adı müəllif sırasında birinci yazılır, naşı dissertantın adı isə ikinci. Oxuyanlar da baxır ki, bəs kitabın ön sözüylə, finalı heç uyuşmur elmi əsərə. Nəsə akademikin barmağı var burda. Kitab isə ümumilikdə zəifdir. İndi lətifəsi Koroğlunun heykəlindən uzaq.

Birinci mülahizəmi mən sübut etməyə çalışacağam. İkincisini isə... əgər belə olubsa, heykəltaraş Tokay Məmmədov özü etiraf etməlidir. Əgər desə ki, belə olmayıb, bu heykəldə "dissertant əli" yoxdur... Onda bir misalı çəkmək məcburiyyətində qalacağam... İndi isə mərhələylə fikirlərimi açıqlayım.

## HƏKİM VƏ DONUZ

Son günlərin bir lətifəsi var. Yəqin eşitmisiniz. Bir azərbaycanlı təcrübəçi həkimi göndərirlər xaricə təcrübə keçməyə, yeni cərrahi əməliyyatlara yiyələnməyə. Klinikada ona izah edirlər ki, bu əməliyyat çox təhlükəlidir. Ona görə də birinci heyvanların üzərində təcrübə aparmalısan. Bütün xərclər nəzərə alınıb, amma donuzun pulunu özün ödəməlisən. Nə az, nə çox, düz 80 avro. Azərbaycanlı təcrübəçi də onlar deyən kimi edir. 80 avro verib donuz alır. Elə birinci təcrübədə donuz ölür. İkincisini alır, o da ölür. Daha doğrusu, onu da öldürür. Beləcə beş gündə beş donuz - bizim milli jurnalistikamızın sevimli ifadəsiylə desək - həkim səhlənkarlığının qurbanı olur. Axırda təcrübəçi bezir. Oxumaqdan, öyrənməkdən yox, donuza pul verib almaqdan. Cərrahiyyə əməliyyatının texnologiyasını, dərmanları öyrənir, deyir ki, mən getdim, sağ olun. Soruşurlar ki, hara? Deyir ki, Azərbaycana. Orda adamların üzərində öyrənəcəyəm, özü də havayı. Öləndə də deyəcəklər ki, alın yazısını pozmaq olmaz, əcəli elə buracan imiş.

İndi lətifəsi bizim rəssamlardan uzaq. Bu sənətdə natura deyilən bir qayda var. Hətta böyük imperatorlar belə, rəssamların qarşısında saatlarla otururlarmış ki, şəklimi çək, yaxud da heykəlimi yap. Bəziləri isə at belində. Lüt qadın şəkli çəkənlər isə saatına filan qədər verib naturaçılar dəvət edirlər

ki, rəsmləri daha gözəl və qüvvətli alınsın. Görəsən niyə belə edirlər? Lüt qadınmı görməyiblər, yaxud da təbiətmi seyr etməyiblər? Yaddaşlarında qalanları köçürsünlər, vəssalam-şüttəmam. Daha niyə əlavə xərc çəkirlər ki? Çünki sənətkar ustalığı  təkcə insanın xaricini, təbiətin gözəlliyini tabloya köçürməkdən ibarət deyil. Ordan gələn ruhu, enerjini, hissləri də fırçaya almaq bacarığıdır.

Atam Qabilin dediyi bir sözü yenə də xatırlatmaq istəyirəm: Ona sual verəndə ki,  qadını sevərək yazılan sevgi şeiriylə,  qadını sevməyib yazılan sevgi şeiri arasında fərq nədir? Cavab vermişdi ki, bir var bulaq suyu, bir də var labaratoriyada distilə edilmiş su. İkisinin də kimyəvi formulu H2.O-dur. Amma biri dadlıdır, o biri dadsız.

Qayıdım yavaş-yavaş mövzuya. Üzeyir Hacıbəyovun "Koroğlu"operasında baş rolu oynayan Bülbül səhnəyə bilirsinizmi necə daxil olurmuş? Atın belində. Bəli, bəli, Opera və Balet teatrının kiçik səhnəsində bütün təhlükələrə baxmayaraq rejissorun təxəyyülü bu cür həllini tapırmış. Bu tapıntı deyildimi? Bəlkə də rejissor Üzeyir Hacıbəyov dühasının məhsulu olan operanın quruluşunu  ikiqat gücləndirmişdi bu addımıyla. Koroğlu varsa, Qırat da səhnədə olmalı, görünməliydi. Təsəvvürdə yox, canlı.

İndi sual olunur. Görəsən Tokay Məmmədov öz geniş emalatxanasına neçə dəfə at gətizdirib? Yaxud da ki, Koroğluya prototip kimi hansı enlikürək, hündürboy oğlana paltar geyindirib atın belində saatlarla otuzdurub eskizlərini edib? Axı, bu heykəl üçün kifayət qədər pul buraxılmışdı ki, nəinki at kirayələmək, hətta ilxı almaq olardı. At, naturşik, qədimi paltar, qılınc, qalxan tapmaq belə çətin idimi? Əsla. Tokay Məmmədov bunu etmişdimi? İnanmıram. Etsəydi bu cür səviyyəsiz heykəl şəhərimizin ən gözəl yerini "bəzəməzdi".

## BU HEYKƏL TOKAY MƏMMƏDOVA NİYƏ TAPŞIRILDI?

Bilmirəm təsadüfdür, yoxsa? Amma belə məlum olur ki, Koroğluyla bolşevik Əzizbəyov arasında nəsə bir paralel var.

“Əzizbəyov” metrostansiyasının adını dəyişib Koroğlu qoydular. Tokay Məmmədovun yaratdığı Əzizbəyov heykəlini yerlə yeksan edib, əvəzində Koroğlunun heykəlini ona həvalə etdilər. Belə çıxır ki, Koroğlu heykəli Əzizbəyov heykəlinin qanbahası imiş. Məhkəmə proseslərində qanbahası görmüşdük. Ölmədik heykəltaraşlıqda da bunu gördük.

TƏSƏVVÜR EDİN

Bir anlıq təsəvvür edin. Koroğlu heykəlini yapmaq Tokay Məmmədova yox, sizə həvalə olunub. Nə edərdiniz? İlk ağlınıza o gəlməliydi ki,  bu heykəl hansı formada olmalıdır. Koroğlu Qıratsız təsəvvür edilmədiyinə görə, heykəlin də iki elementdən – Koroğlu və Qıratdan ibarət olması vacibdir. Bu bir. İkincisi, Koroğlu hökmən atın belində, əlində də qılınc olmalıdır. Üçüncüsü... Bax üçünçü elementdə hər şey dalana dirənir. Əgər at şahə qalxmış vəziyyətdə olsa, ilk növbədə Pyotrun Peterburqdakı heykəli gəlib duracaq göz önündə. İkincisi də ki, bu cür formalı Koroğlu heykəli artıq Naxçıvanda ucaldılıb. Əgər at sakit durmuş vəziyyətdə olsa... Burda da qeyri-adi bir şey yoxdur. Bu forma fatehlərə xas bir quruluşdur. Kralların və ya Çingiz xanın Monqolustandakı heykəlinə bənzəyəcək. Bu həm də Koroğlunun xarakterini açmağa imkan verməyəcək. Onda neyləməli? Gəl elə atın dörd ayağı da göydə qalsın. Bax bu, yenilikdir. Bəs bu cür vəziyyətdə neçə ton ağırlığında heykəli hündür pedestala necə otuzdurmalı? Hə, bu vaxt Çənlibel qayalığının şiş ucu köməyə gəlir. Dayağı Qıratın qarnının ortasından yerləşdirmək olar. Tokay Məmmədov əvvəl belə etmişdi. Sonra gördülər ki, başqa bir mənzərə alınır. Guya ki, Qırat qayalıqdan hoppanır. Qarnı qayalığın şiş ucuna ilişir və cırılır. Yazıq at. Və o saat başqa əlac tapıldı. Pedestaldan boz qranitdən ucalan həmin şiş ucu biədəb şəkildə kəsib götürdülər. Heykəli Koroğlunun sol ayağına bərkitdilər. Belə təsəvvür yaranır ki, Koroğlunun ayağı nəyəsə ilişib qabağa gedə bilmir. Amma demə bu əlavə olunmuş element, daha doğrusu

dayaq heykəltaraş təxəyyülündə bulud imiş. Şəkililər burda deyib e... "heykəltaraş, sənin təxəyyülünə dana kəsim".

PEDESTAL

Heykəlin pedestalı normal ölçü və hündürlükdədir. Yəqin ki, bunu yaradıcı heyət dəfələrlə ölçüb-biçib. Bir də ki, pedestal alçaq olsaydı, heykəlin bütün eyibləri aydın görünəcəkdi. İkinci tərəfdən isə atın damarları, və digər ayıb bədən üzvləri aydın-aşkar verilməliydi. Bu isə mentalitetimizə yad bir elementdir. Yaxşısı budur ki, yuxarıda olsun. Bilinməsin ki, Qırat dişidir, ya erkək.

Həm də pedestal məsələsi Azərbaycan heykəltaraşlığında ən yaralı yerdir. Məhz bu elementə görə Nəriman Nərimanovun Sovetskidəki əzəmətli heykəli şikəst heykəllər sırasına daxildir. O vaxt Moskvanın "Nərimanovun heykəlinin pedestalı Kirovun heykəlinin pedestalından hündür olmamalıdır" siyasi qərarı, heykəltaraş Cəlal Qaryağdını da pis vəziyyətdə qoymuşdu.

SON QƏRAR

Və belə qərara alınır ki, at çaparaq vəziyyətdə olsun. Burdan başqa xırdalıqlara varmaq istəmirəm. Deməyəcəyəm ki, Koroğlu atdan böyükdür. Yazığın ayaqları yerə dəyib əzilir. Altındakı Qırat yox, Ponidir. Sadəcə iki şeyi qeyd etmək istəyirəm.

İnşaatda taraz deyilən bir alət var. Amma ustalar çox da bu alətə inanmırlar. Əlavə olaraq qırağa çəkilib tikdikləri divara bir də baxırlar. Sonra da əlavə edirlər ki, ən düzgün taraz, mizan insan gözüdür.

Koroğlu heykəlinin qabağında dostumu gözləyirdim. "Göyçə" xəngəlxanası o həndəvərdə yerləşir. Gedirdik xəngəlləməyə. Bir süpürgəçi də bağda təmizlik işləriylə məşğul

idi. Birdən dayandı. Başını yuxarı qaldırıb Koroğlunun heykəlinə baxdı və: "Bu heykəli yapanın..!".

ŞƏXSİ MÜLAHİZƏLƏRİM

Koroğlunun dövründən bizə yalnız dastan qalıb. O da aşıqlarımızın dilində gəlib bu günə çıxıb. Amma indiki dövr internet dövrüdür. İnternetdə nə desən tapmaq olar. İnanmıram ki, yaşlı, qoca insanlar interneti sevir. O cümlədən Tokay Məmmədov da. Yəqin "dissertant"ı cəld tərpənib və istədiyini tapıb. Axtarışa Koroğlu adını verib. Görüb ki, bir şey hasil olmur. Ya kinodan fraqmentdir, ya da ki, operadan. Rus əlifbasıyla yazıb. Yenə də heç nə hasil olmayıb. Bu dəfə "Koroğlu dəli" yazıb. Alınmayıb. Rus dilinə tərcümə edib. "Koroqlu psix", "Koroqlu sumaşedşiy" yazıb. Yenə də nəticə olmayıb. Deyib ki, qoy onda "Koroqlu durak" yazım. Bu zaman ekrana nə gəlsə yaxşıdır? Rus xalq nağılı "İvan-durak", Yaxud da "İvanuşka duraçok". Özü də sevimli atı Qorbunokun belində. İki əlləri yanda. Sol əlində də "Jar-ptitsa", tərcümə etsək Simurq quşu. Atın da bütün ayaqları göydə. "Ura" deyib yerindən hoppanır. Şəkli flyaşkaya köçürüb gəlir kompüter sexinə. Dizaynerə beş-on manat verir. Birinci atın qulaqlarını qısaldır. İvan-durakın papağını milliləşdirir. Bığ qoyur. Priçoska verir. Əlindəki quşu sildirir. Yerinə qalxan taxır. O biri əlinə isə qılınc verir. Hər şeyi düzgün edir. İvan-durakı miqyasa uyğunlaşdırır. Amma Konyok-qorbunok yaddan çıxır. Atı da böyütsəydi, bu "dissertant"ın heç misli-bərabəri olmazdı. Beləliklə çox da tanınmayan sovet rəssamı və multiplikatoru, 1996-cı ildə 71 yaşında rəhmətə gedən Vladimir İvanoviç Zarubinin Yeni il münasibətilə buraxdığı açıqça yaman karına gəlir. "İvan-durak" Koroğlu olur, "Konyok Qorbunok" isə Qırat.

Beləcə Azərbaycan heykəltaraşlığında yeni, möhtəşəm sənət əsəri dünyaya gəlir.

Burda pis bir şey yoxdur. Azərbaycan mədəniyyətlərin qovuşuğunda yerləşir. Bu cür heykəlin dünyaya gəlməsini

pisləməyin, əksinə təqdir edin. Təqdir edin ki, yaşı səksəni ötmüş heykəltaraş bu cür müasir bir əsər ortaya qoya bilib. Əgər yaxşı dəyərləndirsək, lap Nobel də ala bilər. Sadəcə iki düzəliş lazımdır. Birinci, heykəlin pedestalında Koroğlu sözünün altında, mötərizə də (İvan-Durak) sözləri də cızılsın. İkincisi də Tokay Məmmədov aldığı qan bahası pulundan Vladimir İvanoviç Zarubinin ailəsinə bir halallıq göndərsin. Çox yox, 100 min dollar olsa bəsdir.

İKİNCİ MÜLAHİZƏ

Birinci mülahizəmi şəkillərlə hardasa isbat etməyə çalışdım. Razılaşacaqsınız, ya yox? Bilmirəm. Bircə bunu bilirəm ki, kor-kor, gör-gör.

İkinci mülahizəm isə Tokay Məmmədovun bu heykələ aidiyyatının olmamasıdır. Düzdür "elmi rəhbər" odur, ad da onundur. Amma Koroğlunu yapanlar, yapdıməli edənlər "dissertant"lardır. Düzdür buna saxtakarlıq derlər. Amma ki, Tokay Məmmədovun 70 il qazandığı hörmətin bir heykələ qurban getməsinin fonunda bu saxtakarlıq heç nədir. Əgər bu mülahizəmi sənətkar və heykəltaraşlıq sənətinin müasir üzvləri qəbul etmirlərsə, son əhvalatımı oxusunlar. Görsünlər ki, hansı yaxşıdır? Saxtakarlığı qəbul etmək, yoxsa Tokay Məmmədovun bu yaşında "şalvarının düşməyi?"

SON

Bir böyük Azərbaycan aktyoru olur. Adını yazmayacağam. 20-ci əsr Azərbaycan teatrının təşəkkülündə böyük xidmətləri vardı. Böyük dramatik rollar yaratmışdı. Titullarını saymaq istəmirəm. Sadəcə bir məqamı qeyd edim.

Bu aktyor qocalır. Eşitdirirlər ki, daha səhnəyə çıxma. Rolu unudarsan, ya səndələyib yıxılarsan, hörmətdən düşərsən. Qulaq asmır. Günlərin bir günü tarixi dramda oynamaq üçün yenə səhnəyə çıxır. Taxtından ayağa duranda şalvarı düşür.



Alt paltarı görünür. Demə şalvarın düyməsini yaxşı bağlamayıbmış. Bilmirəm doğrudur bu hadisə, ya yox. Atamdan eşitmişəm. Sadəcə bu əhvalatda bir məntiq var. Hər bir sənətkar özünə hörmət qoyub vaxtında sənətini tərk etməlidir.




Xanəndələr xoruz buraxmamış, aktyorlar şalvarı əynindən düşməmiş, heykəltaraşlar isə Koroğlunu İvan-durak, Qıratı isə Konyok-qorbunok cildində görməmiş.

P.S. Bir təklifim var. Baş nazirin müavini Elçin Əfəndiyev, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev! Xahiş edirəm Koroğlunun, Qara Qarayevin heykəlləri yenidən işlənsin.

Hörmətlə: vətəndaş Mahir İmamverdiyev.

# ƏMİR MUSTAFAYEVİN TOYU

*Atasının ilkisi,*
*Burnu qara tülküsü.*

Bu misraları ilkim olan qızım körpə Suğraya deyəndə gülür, sanki başa düşürmüş kimi əllərini yuxarı qaldırıb oynadırdı. Ailənin ilki olmaq böyük xoşbəxtlik sayılır. Lap özümdən götürüm. Mən dünyaya gələndə çox adama titul vermişəm. Mənim sayəmdə ata, ana, dayı, xala, baba, nənə olublar. Bu bir ailənin, yaxud da hər bir ailənin yaşadığı sevincdir. Yəqin ki, mənim ilk cümlələrim hamınıza çox doğma gəldi. Əmir Mustafayev də ailənin ilk nəvəsi oldu. Yazıçı-jurnalist Əmir Mustafayevə babalıq titulu verdi.

QONŞU ƏMİR MUSTAFAYEV

Sovetlərin vaxtında yazıçılar aləmində dövlətin təsbit etdiyi bir qanun vardı. Rəsmi dildə desək, kim öz yaradıcılıq şəraitini daha da yaxşılaşdırsaydı, yəni ki, yeni, daha yaxşı mənzilə köçsəydi, köhnə evini Yazıçılar İttifaqına təhvil verməliydi. O mənzilə də növbəsi çatmış başqa bir yazıçı ailəsi köçməliydi. Bizdən bir mərtəbə yuxarıda xalq şairi Samvel Qriqoryan yaşayırdı. O köçəndən sonra bu ev Elçin Əfəndiyevə verildi. İlyas Əfəndiyev Domsovetin arxasında daha yaxşı ev aldıqdan sonra Elçin elə həmin binada yaşamış atasının mənzilinə köçdü, ata-baba yurduna yiyə durdu. O evə Yasamaldakı

mənzilini təhvil verən Əmir Mustafayev köçdü. Əmir Mustafayevi – Əmir əmini ilk dəfə onda tanıdım.

Gözəl ailəsi vardı. Həyat yoldaşı Ofelya xala, oğlu Samir, qızı Samirə. Mənimlə yaşıd idilər. Çəmənzəminlinin nəvələri Leyla və Yusif, Zeynal Xəlilin nəvələri Vildan, Vüqar və Aygün, Xəyyam Mirzəzadənin oğlanları Fəxri və Pərvin, İsa Hüseynovun qızı Sevincdən ibarət həmyaşıdlar dəstəsinə Samirlə Samirə də qoşuldular. Bir sözlə atalarımız dost idisə, biz də dost olmalıydıq. Bakı dilində buna məhlə uşağı da deyirdilər.

## VƏZİFƏ BÖLGÜSÜ

İsti yay günlərindən biri idi. Üçüncü sinfə keçmişdim. Yay tətilindəydim. Atam maşını qarajdan çıxartdı. “Dənizə gedirik” dedi. Əmir əmini hayladı. Oturduq maşına, yola düşdük. Yolüstü Domsovetin arxasındakı binanın qarşısında İsmayıl Şıxlı – İsmayıl əmi də maşına əyləşdi. O dövrdə atam “Azərbaycan” jurnalında şöbə müdiri idi. Baş redaktor isə yox idi. Bu vəzifəni baş redaktorun müavini, şair Novruz Gəncəli icra edirdi. Gəldik çıxdıq Pirşağı sahillərinə. Atam “Turist” stol-stulunu açdı. Üstünə qəzet saldı. Əvvəlcədən hazırladığı azuqəni süfrəyə düzdü. Azuqə deyib sizi nigaran qoymayım. Soyutma kartof-yumurta, təzə pomidor-xiyar, pendir, kolbasa, çörək, Vinzavod-2-nin arağı, mineralnı, balıq konservası. Süfrəni düzəldib dedi ki, bir suya baş vurub gəlirəm. Azca keçməmiş qayıtdı. Araq açıldı. Badələrə süzüldü. Sağlıq deyildi. Əlbəttə ki, birinci İsmayıl Şıxlının sağlığına. Böyük o idi. Bir az zakuskadan sonra atam təklif verdi ki, girək bir çimək, sonra davam edərik. Tez stolun üstündəki yeməkləri baqaja yığdıq ki, birdən sahildə gəzən ac-yalavac, sahibsiz itlər daraşar. Baş vurduq suya. Sahildən xeyli uzaqlaşdıq. Su boy verirdi. Bu zaman İsmayıl əmi:

- Qabil, bu gün dedilər ki, gəl “Azərbaycan” jurnalına rəhbərlik elə.

- Əla, mirzə. Razı oldun?

- Yox.
- Niyə?
- Nəsə istəmirəm. Kiminlə işləyəcəyəm ki? Üz-göz olacağam yazıçılarla.

İsmayıl əmi vəzifə sevməzdi, vəzifədən qaçan adam idi. Lenin adına Pedaqoji universitetdə dərs deməyi – müəllimliyi bütün vəzifələrdən üstün tuturdu. Abrını da qoruyan adam idi. Heç kimin xətrinə dəyməyi xoşlamazdı. "Azərbaycan" jurnalı da çox qəliz yer sayılırdı. Yüksək qonorar fondu vardı. İstəsən də istəməsən də kiminsə iqtisadi ayağını tapdalayacaqdın.

- Ay mirzə,- deyə atam dilləndi,- mən ölməmişəm ki? Götürərsən özünə müavin – sənə kömək edərəm.
- Yaxşı, Qabil, tutaq ki, səni müavin götürdüm. Bəs məsul katib?
- Məsul katib də olsun Əmir. Əmirdən yaxşısını tapacaqsan? Əl-ələ verib işləyərik.

Xəzərin qoynunda, su boy verən yerdə aparılan vəzifə bölgüsü ertəsi gün Yazıçılar İttifaqının iclasında öz rəsmi təsdiqini tapdı. İsmayıl Şıxlı baş redaktor oldu, Qabil müavin, Əmir Mustafayev isə məsul katib.

## ƏMİR ƏMİ İÇƏN DEYİLDİ...

Əmir əmi spirtli içki içmirdi. Amma qəribəsi o idi ki, bizdə yemək-içmək məclisi düzənlənəndə, o da dəvətlilər sırasında olurdu. Sadəcə badəni toqquşdurar, dodağına vurub yerə qoyardı. Atam ha tövr edirdisə, "yoldan çıxara bilmirdi" Əmir əmini.

Yaradıcı aləmdə belə bir qayda var. Yazıçı yazdığını çapa verənəcən kiməsə oxumalıdır. Bu baxımdan ilk əlinə keçən arvadı olur. Sonra isə zövqünə inandığı dostlar gəlir. Atam yenicə rübailər yazmağa başlamışdı. Günə hardasa ikisini, ya birini yazırdı. Təsəvvür edin də - bir günə dörd misra. Sonra zəng edirdi Əmir əmiyə ki, "düş aşağı". O da gəlirdi.

- Əmir, qulaq as.

*Kişi adam vurar, adam dolamaz,*
*Kişi təslim olar, quyruq bulamaz!*
*Arvad qabağında boşqab sındırıb,*
*Kişi qabağında boşqab yalamaz!*

Necədi, Əmir?
- Əla, Qabil müəllim.
- Onda bunu yumaq lazımdır.

Tez süfrə açılırdı. Allah verəndən düzülürdü stola. Əmir əmi "İç də!" təzyiqlərinə tab gətirirdi. Amma 870 rübaidən 340-cı dünyaya gələndə Əmir əmi "sındı". Oldu əsl yeyib-içən oğlan.

İNCİKLİK

1993-cü ildə Əmir əminin hansısa şəxs haqqında məqaləsi çıxmışdı. Bu da atamı çox əsəbiləşdirmişdi. Həcvə yaxın bir şeir yazıb çap elətdirdi. Amma hirsi soyuyandan sonra "Şeytana lənət" adlı şeir də həsr elədi Əmir əmiyə.

*Ürəyimdə salam-kəlam xiffəti,*
*Bu xiffəti yozan şeytana lənət.*
*Müqəddəsmiş qonşuluğun ülfəti –*
*Bu ülfəti pozan şeytana lənət.*

*Sənnən böyük, sənnən uşağam, Əmir!*
*Küdurətdən-kinnən uzağam, Əmir!*
*Sən də yarpaq, mən də yarpağam, Əmir,*
*Novruz günü qopan tufana lənət!*

*Kaş qəlbimə toxunanda dinəydim,*
*Ağzın üstə tərs şilləyə dönəydim.*
*Sən qalxaydın, mən də bir az enəydim*
*O mərtəbə, o pilləkana lənət!*

*Yaxınların yaxınısan bizə sən,*
*İnanmıram bu küsüyə dözəsən.*
*Rəva qıldın niyə köntöy sözə sən*
*Həmən cümlə, həmən lisana lənət!*

*Çıxmasın ki, üzrü xəlvət istərəm...*
*Olan olub... gəlib minnət istərəm...*
*Bərpasına möhtac hörmət istərəm*
*İpək telə mürgə salana lənət!*

*Saralacaq qəzetlərin varağı...*
*Silinəcək həm haqqı, həm nahaqqı.*
*Sönməyəcək qonşuluğun çırağı –*
*Bu çırağa əli uzana... lənət!*

*İynə-sancaq bükülməsin əsgiyə...*
*Nə ehtiyac adam boğan tüstüyə?*
*Gəl, əl verək, keçsin isti istiyə*
*Pünhan-pünhan körük basana lənət!*

*Biz kişiyik, düzələcək aramız,*
*Bir sağlıqla sağalacaq yaramız...*
*Arvad-uşaq arasında aramız*
*Belə qalsa – anda-amana lənət!*

*Bu pilləkan – son mənzilin yoludur,*
*Bəlkə də son ayın-ilin yoludur,*
*Həm Əmirin, həm Qabilin yoludur*
*Qiyamətə qurdla qalana lənət!*

*29.03.1993*

## PREZİDENT HEYDƏR ƏLİYEVİN İLKİ

Əmir Mustafayev çox sakit, həlim adam idi. Amma 1985-90-cı illərdə yazılarıyla öz sözünü kəskin deyirdi. Heydər Əliyevə böyük məhəbbətinin təzahürü idi ki, ümummilli lider təqaüdçü həyatı yaşayanda rəhbərlik etdiyi "Respublika" qəzetində onunla bağlı böyük məqalələrini, müsahibələrini oxucularıyla bölüşürdü. Bölüşmək azdır. Əmir Mustafayev əlində qələm Heydər Əliyevin müdafiəsinə qalxanların sırasında ilk jurnalistlərimizdən idi. Təzyiqlərə də məruz qalırdı. Vəzifəsi də kiçildilirdi.

Heydər Əliyevin 1993-cü ilin iyunun 15-də hakimiyyətə qayıdışı proseslərini diqqətlə izləyirdim. Bu olayları Azərbaycan televiziyası canlı yayımlayırdı. Və ilk iclasda Heydər Əliyevin ilk əmri bilirsinizmi nə oldu? Əmir Mustafayev "Azərbaycan" qəzetinin baş redaktoru təyin olundu. 1998-cu ilin dekabrında "Tərəqqi" medalı təsis olunduqdan sonra isə, ilk dəfə bu medala məhz Əmir Mustafayev layiq görüldü. Heydər Əliyevin qiymət verdiklərinin sırasında Əmir Mustafayev ilk oldu.

## "HAVA NECƏ OLACAQ?"

Təkrar da olsa qısaca xatırladım. Atam 70 illik yubileyi ərəfəsində "Hava necə olacaq?" adlı şeir yazdı. Müxalifət mətbuatından olan bir qəzetin ünvanını məndən soruşdu. Dedi ki, şeiri ora aparıb verəcəm. Etiraz etdim. Təkidlə "Əmir əmiyə ver, qoy baş redaktoru olduğu "Azərbaycan" qəzetində çap eləsin də...". Yox, verməz, - dedi. O, suyu üfürə-üfürə içir. Dövlət qəzetində belə şeir verər? Çıxardarlar onu işdən. Amma iradıma ram olub bir mərtəbə yuxarı qalxdı. Şeiri Əmir əmiyə verdi. Həmin gün dəng oldum. Elə hey "Əmir onu verməyəcək. Sənə nahaq qulaq asdım" deyirdi. Amma ertəsi günü qəzetdə şeiri görəndə fikrini dəyişdi. Bu şeiri çap eləməyi ilə Əmir əmi vətəndaşlıq mövqeyini bir daha ortaya qoymuşdu.

## ƏMİR MUSTAFAYEVİN TOYU

Əmir əmi bu vəzifədə ömrünün sonunacan qalacaqdı. Amma, səhhətiylə bağlı işdən uzaqlaşdı. Prezidentin fərdi təqaüdünə layiq görüldü. Çox keçmədi vəfat etdi.

Oktyabrın 11-i isə Əmir Mustafayevin toyu idi. Yəqin ki, məni düz başa düşdünüz. Yazıçı Əmir Mustafayevin ilki-nəvəsi, adını yaşadan Əmir Mustafayevin toyu. Mən də iştirak edim. Mustafayevlər ailəsinin sevincinə qoşulub sevindim. Stolun üstündə hər şey vardı. Üç cür "Rossiyski" araq, asaterin balığından hazırlanmış yeməklər, qara-qırmızı kürü, daha nələr, nələr. Müğənnilər, oynayanlar, şadlananlar. Tək bircə şey çatmırdı. Baba Əmir Mustafayevlə, nənə Ofelya xalanın xeyir-duası.

# AKADEMİYALAR – NƏ HACIBƏYOVLAR DOĞULUR, NƏ ŞIXLİNSKİLƏR…

Akademiya. Bu ad çox böyük addır. Bir vaxtlar bu ad yek idi. Sovet dövründə bir akademiya vardı ki, bu da Azərbaycan Elmlər Akademiyası idi. Onun da prezidenti ən yüksək maaş alan insan sayılırdı – 900 rubl. Mədəniyyət sahəsində isə Akademik Dram Teatrı fəaliyyət göstərirdi. Sonra sovet dağıldı. Bilirsiniz də... köhnə qanun var. Təzə ay çıxanda köhnə ayı doğrayıb ulduz edirlər. Ona görə də köhnə akademiyanı doğrayıb müxtəlif akademiyalar yaratmağa başladılar. Daha doğrusu yaranmadı. Sadəcə adları çönüb akademiya oldu. Konservatoriya Bakı Musiqi Akademiyası adlandırıldı, Neft-Kimya İnstitutu Bakı Neft Akademiyasına çevrildi, bir vaxtlar Bakı Ali Partiya Məktəbi kimi böyük şöhrəti olan bir əlçatmaz təhsil ocağı Dövlət İdarəçilik Akademiyası oldu. Bəh-bəh-bəh. Bəh-bəhi yaman tez dedim. Gəlin əvvəldən yavaş-yavaş gəlim. Bəh-bəhi sonda bir daha xatırladaram.

BAKI MUSİQİ AKADEMİYASI

Musiqi təhsili almaq sovet dövründə çox qəliz məsələ idi. Xüsusi müsabiqədən keçdikdən sonra səni musiqi məktəbinə qəbul edirdilər. Təsəvvür edin ki, qəbul o qədər ciddi imiş ki, balaca Müslüm Maqomayevi musiqi məktəbinə götürmürlərmiş. Mən sonralar Müslüm Maqomayev olmasam da, bu cür müqavimətlə qarşılaşmışdım. 6 nömrəli musiqi

məktəbinə məni anamın inadından sonra qəbul elədilər. Sovet dövrü olmasına baxmayaraq, təhsil pullu idi. Yəni ki "xozrasçyot" – təsərrüfat hesablı. Ayda anam 16 rubl 50 qəpik pul ödəyirdi. Yeddi ili oxuyub başa çatdırdım. Dövlət imtahanı verdim. Mənə şəhadətnamə verdilər. Dedilər ki, bu, natamam orta təhsildir. Orta təhsil almaq istəsən, gərək Asəf Zeynallı adına Musiqi Texnikumuna girəsən. Ondan sonra isə Üzeyir Hacıbəyov adına Dövlət Konservatoriyasına daxil ola bilərsən ki, ali təhsilli musiqiçi olasan. O vaxtlar orta təhsilli musiqi savadını o cümlədən iki məktəb – Bülbül adına 11 illik Orta Məktəb, bir də Dzerjinski klubunu yanındakı 11 illik Musiqi Məktəbi veririrdi. Baxmayaraq ki, orta təhsil 10 il idi.

Bütün bunları sadalamaqda məqsədim odur ki, sırf ali musiqi təhsili almaq üçün mən gərək 7 il musiqi məktəbində, 4 il texnikumda, 5 il isə Konservatoriyada oxumalıydım. Düz 16 il. Müstəqillik dövründə Konservatoriyanın adını Akademiya etmək məqsədəuyğun idi. Keyfiyyətini deyə bilmərəm, pilləvari irəliləliyişə görə bu struktur məğbul sayla bilər. Amma konservatoriya akademiya olanı 23 ildir ki, nə Üzeyir Hacıbəyov doğulub, nə də sonbeşik Xəyyam Mirzəzadə.

## RƏSSAMLIQ AKADEMİYASI

Bu sahədə də çox ciddi bir qəbul vardı. Hamının bitirdiyi 10 illik orta məktəbi başa vurandan sonra, sənədlərini Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə verməliydin. Sonra isə İncəsənət İnstitutunun müvafiq fakültəsinə daxil olmaq şansı əldə edə bilərdin. Bu sahədə ən yüksək pillə isə Leninqrad Rəssamlıq Akademiyası idi. Müstəqillik dövründə bunu Bakıda açılan Rəssamlıq Akademiyası əvəz etdi. Keyfiyyətini deyə bilmərəm, pilləvari irəliləliyişə görə bu struktur məğbul sayla bilər. Amma Akademiya açılanı nə Əzim Əzimzadələr doğulub, nə də sonbeşik Tahir Salahov.

## FRUNZE ADINA ALİ HƏRBİ AKADEMİYA

Hərbçi olmaq sovet dövründə çox asan idi. Amma hərbi sahəyə rəhbərlik etmək hər insana qismət olmurdu. Əgər əvvəldən özünü hərb sənətinə bağlamaq istəyin vardısa, onda orta məktəbin 7-ci sinfindən Naxçıvanski adına Hərbi Məktəbə, yaxud da Moskvada Suvorov Hərbi Məktəbinə oxumağa gedə bilərdin. Bu toxum sayılırdı. Hərbçi olmaq "sümüyün iliyinə yedizdirilirdi". Daha sonra hər hansı Ali Hərbi Məktəb önündə dururdu. Əsgərlik xidməti də bu dövrün içində sayılırdı. Bundan sonra leytenant rütbəsi alıb başlayırdın 25 illik hərbi xidmətinə. Əgər səndə qeyri-adi bir qabiliyyət görsəydilər göndərirdilər Moskvadakı Frunze adına Ali Hərbi Akademiyaya. Buranı bitirənlər general-mayor və daha yüksək rütbələrə, hərbi vəzifələrə yüksəlməyə ümid edə bilərdilər.

İndi bütün bunları müstəqillik dövründə açılan Silahlı Qüvvələrin Ali Hərbi Akademiyası əvəz edir. Amma Akademiya açılanı nə Şıxlinskilər, Mehmandarovlar doğulub, nə də sonbeşik Barşadlılar.

## ALİ PARTİYA MƏKTƏBİ

Ali Partiya Məktəbi. İndiki dillə desək, Dövlət İdarəçilik Akademiyası. Elə binası da həmin binadır. Buranı sovet vaxtı bitirən insanlar sonralar partiya eşalonunda yüksək vəzifələr tuturdular. Yüksək vəzifəyə yüksəlməyənləri də olurdu. Məsələn, qonşumuz, yazıçı Əmir Mustafayev bu məktəbi bitirsə də, vəzifə almamışdı. Müstəqillik dövründə dövlət qəzetinin baş redaktoru olması isə onun Heydər Əliyevə sədaqətinin nəticəsi idi.

Bu Ali Partiya Məktəbindən yüksəyi isə Moskvada yerləşən Sovet İttifaqı Kommunist Partiyasının Ali Partiya Məktəbi, qısa desək VPŞ (Vıssaya Partiynaya Şkola) idi.

HAŞİYƏ: Modern.az saytının "Qeyri-ixtisaslı jurnalistlər" rubrikası var. Görəsən mətbu orqanlarının bolluğu dövründə Jurnalistika fakültələri Azərbaycanın qəzet, jurnal, sayt, radio, televiziya bazarını yüksək ixtisaslı jurnalistlərlə təmin edə bilərmi? Yaxud, sualı başqa cür qoyum. Bu ali təhsil ocaqlarında keçirilən dərslər qəzetlərin, jurnalların, radioların, saytların, televiziyaların öz jurnalistlərinə qoyduğu tələblərlə üst-üstə düşürmü? Burda bir misal yada düşür: "Cin ayrı, şeytan ayrı".

Ona görə də Modern.az saytının "Qeyri-ixtisaslı jurnalistlər" rubrikasını çox maraqla izləyirəm. Belə qənaətə gəlmək olar ki, jurnalist işləmək üçün heç də hansısa ali məktəbin hansısa fakültəsini bitirmək vacib deyil. Ya bacarığın olmalıdır, ya da qələmin. Bunların ikisi də olsa sənə zaval yoxdur. (SON)

Təsəvvür edin ki, mən Dövlət İdarəçilik Akademiyasının müəllimiyəm. Və auditoriyada TQDK yolu ilə daxil olan gənc tələbələr yox, hazırda vəzifədə oturan, sonradan püxtələşmək, biliklərini artırmaq üçün bu təhsil ocağına üz tutanlar əyləşib. Biri DYP-nin böyüyüdür. Mən onun qiymətinimi kəsə bilərəm? Əsla. Maşınım həmən cərimə meydançasına gedər. İcra başçısına gözün üstə qaşınmı var deyə bilərəm? Əsla. O başçıdır, başım gedə bilər. Qrupda olan hər hansı bir vəzifəli adama güldən ağır söz də deyə bilmərəm. Çünki onlar artıq hakimi mütləqdirlər. Sadəcə diplom dalınca Dövlət İdarəçilik Akademiyasına gəliblər ki, tərcümeyi-hallarına yazsınlar: "Mən "partşkola"nı bitirmişəm".

Yaxşısı budur özümü bihörmət etməyim. Birindən oğlumu işə düzəltmək xahişi edim, o birindən yubileyimin banketinin hesabını verdirməyi rica edim. O birindən altı sot torpaq istəyərək, sonradan satıb pula çevirim. Daha nələr, daha nələr. Sonra da hər yerdə fəxrlə qeyd edim: Filan başçı, filan nazir müavini, filan idarə rəisi, filan JEK müdiri mənim tələbələrim olub. Bəzilərinin auditoriyada sifətlərini görməsəm belə...

## MİLLİ ELMLƏR AKADEMİYASI

MEA-da son illərdə böyük dəyişikliklər var. Qapıda turniketlər quraşdırılır. Hamı işə vaxtında gəlib-gedir. Qoca direktorlar yenisiylə əvəzlənir. Nizam-intizam məsələlərindən başımız ayılan kimi, gün o gün gələcək ki, Nobel mükafatı da alacağıq. İnşallah! Amin!

## SON

Allahın işinə qarışmaq olmaz. Kiminə ağılı, elmi birinci yetirir, amma vəzifə qismət eləmir. Kiminəsə vəzifəni birinci yetirir, bilik dalınca sonra "Partşkola"ya göndərir. Təcrübə isə sübut edir ki, vəzifə bütün siyasi elmlərdən irəlidir. Yox elə bilməyin ki, onlar da qeyri-ixtisaslı jurnalistlər kimidir. Əsla. Onların ixtisası, ixtisaslarına uyğun diplomları da var. Lap göz deşir. Qiymətləri də "beş"dir. Burda atamın bir nəsihəti yadıma düşür: "Mahir, qoy qiymətin lap "3" olsun. Buna görə səni danlamaram. Əsas başının içində bir şey olmasıdır".

# “MAHİR DONOR XİDMƏTİ”

Sovet dövründə dəb idi. Adla çağrılırdı maşınlar. Məsələn: “QAZ-31 almışam, “Çayka” mostuyla”. Yaxud da “VAZ 2103-dür məndə, amma 06 matoruyla”. Sonra zibilini çıxartdılar. VAZ 2106 buraxmağa başladılar, amma VAZ-2103 mühərrikiylə, yəni ki, gücü az. Bununla heç kim qürrələnmirdi. Ən yaxşısı o idi ki, maşının öz motoruyla olsun. Yəni ki, “korennoy”. Bir də görürdün ki, QAZ-2410-dur, amma buferi QAZ-3102. Yaxud da siqnalı, qabağındakı emblemi “Mersedec”ə məxsusdur. Hətta televizorlar da “sovetski” olmasına baxmayaraq, “yaponski” trubkayla gəlirdi.

Vaxt keçdi, zaman ötdü. Dünya səhiyyəsi maşınqayıranlardan, cihazqayıranlardan nümunə götürdü. Əvvəl-əvvəl plastik əməliyyatlara başladılar. Burnu kiçiltdilər, döşü, yanı böyütdülər, bədənə cürbəcür silikonlar dürtdülər. Allahın bağışladığı qabırğaları çıxarıb, incə belli qızlar yaratmağa başladılar. Sonra bir az da irəli getdilər. Qanın ağ hissəciklərindən bir dərman, qırmızı hissəciklərindən isə başqa bir əlac kəşf etdilər. Ayaqdan damar çıxarıb ürəyə yamadılar. Yəni ki, bədənin özündən “zapçast” istehsal etməyə başladılar. Sonra bir az da irəli gedib başqalarını “zapçast” etməyə başladılar. Qanlarını da sorub ehtiyacı olanlara köçürtdülər. Adlarını da donor qoydular. Səhiyyə o qədər inkişaf etdi ki, nəinki ürək, böyrək, indi qaraciyəri də transplatasiya edirlər.

Bir estrada ulduzu hər hansı bir əməliyyat etdirdikdən sonra aləmə car çəkir. Nə olsun? Çifayda? Bunu əvvəl-əvvəl etmək olmazdımı? Bəlkə kiminsə burnu balacadır, böyütmək

istəyir. Estrada ulduzu, adam paxıl olmaz. Uzadardılar hər ikisini yanaşı, estradamızın görkəmli ulduzunun burnunu kəsib yapışdırardılar ehtiyacı olan kasıbın burnuna. O da sonra gedib hər yanda fəxrlə deyərdi ki, bəs mən mənəm, amma burnum filankəsindir. Köhnə dillə desək – "QAZ 2410-am, amma buferim QAZ -31-dir".

Başqa əzalardan, yəni ki, döşdən, yandan danışmıram, ayıbdır. Səhiyyə dilində biabırçı çıxır. Maşın dilində deyim, çünki daha abırlı səslənir – zadni most, peredok. O qədər kasıb arıqlar var ki, kökəlmək istəyir. Estrada ulduzlarımız, niyə paxıllıq edirsiniz? Verin də öz piyinizdən, ətinizdən kasıblara – qoy bir az ətlənsinlər, buxaqları sallansın.

Deyirlər bir xəstəlik var ki, qabağın almaq olmur. İtdən keçir adama. Həkimlər qabırğalarını kəsə-kəsə gedirlər. Belə xəstələr adam deyillərmi? Onlara hansısa estrada ulduzuna lazım olmayan, kəsilib qırağa atılan qabırğa köçürülsə, savab sayılmazmı?

Mən isə sağlamam. Hər şeyim özümküdür. Yəni maşın diliylə desək korennoy. Heç kimin "zapçast"ına ehtiyacım yoxdur. Yəqin ki, olmaz inşallah. Fala da baxdırmışam. Kitab açıb deyiblər ki, bəs 80 yaşı keçəcəksən. Bunu istəməsəm belə. O gün eşitmişəm ki, bəzi deputatlarımız orqanlarını vəsiyyət ediblər. O saat atam Qabilin danışdığı bir rəvayət yadıma düşdü:

"Allahın dörd mələyi olur. Mikayıl, İsrafil, Cəbrayıl, Əzrayıl. Hərəsinə bir missiya tapşırır. Təkcə Əzrayıl öz vəzifəsindən narazı qalır. Arqumenti də bu olur ki, bəs mən o qədər insanın canını necə alacağam? Bu boyda işi necə çatdıracağam? Cənabi- Allah da cavab verir ki, narahat olma. Sənə çox da güc düşməyəcək. Biri suda boğulub öləcək, biri qəzada, o biri yanğında. Çoxu təyyarə qəzasında, hələ xəstəlikləri, epidemiyaları demirəm".

İndi mən də fikirləşirəm ki, orqanlarını vəsiyyət edənlər bütün günü ora uçurlar, bura uçurlar. Birdən təyyarə partladı. Zapçastları ələ gələcək ki, hələ bir onlardan başqa insanlara da ehtiyat hissəsi kimi istifadə etsinlər? Ona görə də işimi ehtiyatlı tutmaq istəyirəm.

Özünüz bilirsiniz də, yetim oğlanam. Nə atam var, nə anam. Nə bacım var, nə qardaşım. Yaşım da çatmır ki, yetimxanaya versinlər. Ona görə də, ay orqanlarını vəsiyyət edən bəzi deputatlarımız. Mənə heç nəyiniz lazım deyil. Öz matorum, peredokum, zadni mostum, karbiratorum yaxşı işləyir. Vaxtlı-vaxtında TO-dan – texniki baxışdan keçirirəm. Ona görə də gəlin nağd danışaq. Hərəniz üç maşınınızdan birini, dörd mənzilinizdən birini, Nabranda, İsmayıllıda, Novxanıda, Mərdəkandakı dörd bağınızdan birini, Xızıda, Masazırda, Bakıda, Çuxuryurddakı dörd torpaq sahəsindən birini, Bakıda, Sumqayıtdakı dörd obyektinizdən birini mənə vəsiyyət etsəniz, həm Allaha xoş gedər, həm də bəndəyə. Bax, buna deyərlər, nağd söhbət, donorluq. Qanın, orqanın, QHT-lər üçün pulun donorunu eşitmişdik. Gəlin siz də bu ilkə imza atmaqla donorluğun yeni növünü yaradın.

Yalan dedim? Böhtan atdım? Əsəbləşdiniz? Mənziliniz, bağınız, maşınınız, torpaq sahələriniz bundan qat-qat çoxdur? Bağışlayın. Üzr istəyirəm. Çoxdursa sağlığınıza qismət. İstəməyənin gözü çıxsın. Mən sadəcə Azərbaycandakıları saydım. Sərhədlərimizin hüdüdlarını və həddi aşmadım.

Sözlərimi oxuyub hay-həşirə düşməyin. Mən indidən danışmıram a... Öləndən sonra deyirəm. Lap pis dedim e... Gör nə arzuladım sizin kimi yaxşı insanlara. Yaxşı, eybi yox, mən şəxsiyyət vəsiqəsiylə sizin qulluğunuzda hazır. Düz deyirsiniz. Bu günün işini sabaha qoymazlar. Notariuslar hər gün işləyir. Həm də ki, savabı bu dünyada qazanın ki, Cənnətə naxodu düşə biləsiniz. Həəə… qaldı ad məsələsi. Bu prosesin də adını qoyaq – “Mahir donor xidməti”. İstəsəniz qanun da qəbul edin. Pis səslənmir, eləmi? Mən “Za!”, bəs siz? Orqan bağışlamaq savab işdir. Amma bir yetimi sevindirmək savabın üstünə daha bir savab yazır.

Göydən üç alma düşdü: Biri uşaqlarınızın, biri nəvələrinizin, biri də mənim. Nəticələriniz yeməsə də olar. Canları çıxsın nəvələriniz onlara da bir şey saxlasınlar.

Hörmətlə: Donora ehtiyacı olan Mahir Qabiloğlu.

# HACIBALA ABUTALIBOVUN ÇƏKDİYİ YOLLAR

Mən Səməd Vurğun küçəsində yaşasam da, yolum əsasən Bülbül küçəsindən keçir. Bir-iki ay bundan əvvəl növbə bizə də çatdı. Yox elə bilməyin ki, Bakı şəhər İcra Hakimiyyəti yolun təmirinə başladı. Əsla. "Azərsu" boruları dəyişməyə başladı. Sözüm yox. Düzünü desəm ürəyimdən idi. Çünki bu yay neçə dəfə susuz qalmışdıq. Çürüyən dəmir boruları ha yamayırdılar, xeyri olmurdu ki, olmurdu. On gündən sonra partlayırdı. İndi isə problemi kökündən həll edəcəkdilər. Hələ yerin altıyla gedən qaz xətləri də dəyişdiriləcəkdi.

Hər şeyi qaydasında başa çatdırdılar da... Nə olsun ki, müvəqqəti narahatçılığımız oldu. Sağ olsunlar. Bir də ki, əvvəldən lövhələrə "Bakı şəhər İcra Hakimiyyəti müvəqqəti narahatlığa görə üzr istəyir" sözlərini yazıb əhalidən üzrxahlıq diləmişdilər.

Əvvəllər belə bir tendensiya vardı. Qaz, yaxud da su idarəsi haranısa qazıb, boruları düzəldirdisə, üstünü də eləcə torpaqlayıb çıxıb gedirdilər. Yol da uzun müddət kələ-kötür qalırdı. Amma bu tendensiyaya son qoyulub. "Azərsu", "Azəriqaz" işini qurtaran kimi Bakı şəhər İcra Hakimiyyəti keçir hərəkətə. Bizim Bülbül küçəsində də belə oldu. Köhnə səki daşlarını sökdülər, asfaltın üst qatını yondular, qazılan yerlərdə trambovka işi apardılar ki, sonra çökməsin deyə. Köhnə lyukları da söküb çıxartdılar. Yanğınsöndürənlər üçün xüsusi qurğular da qoydular. İndi deyəcəksiniz ki, burda qeyri-adi nə var ki? Hamımız bu mənzərənin şahidi olmuşuq da...

Amma bir hadisə, daha doğrusu yaşlı bir qadınla ustalar arasında düşən mübahisə mənim diqqətimi çəkdi. Bu söhbətdən, mübahisədən mənə çox şey agah oldu. Yazdım ki, siz də xali olasınız.

Deməli, bütün bu hazırlıq işlərini görəndən sonra Bakı şəhər İcra Hakimiyyətinin müvafiq strukturu çatdı son mərhələyə. Yəni ki, yeni asfalt örtüyünün döşənməsinə.

Asfaltdan əvvəl yolu süpürmək öz yerində. Əlavə olaraq xüsusi hava vuran güclü kompressor-xortumlarla yolun hətta tozunu da təmizlədilər ki, təzə asfalt təmiz, tozsuz yerə döşənsin. Bunu da başa düşdük. Standarta uyğun bir hərəkət idi. Nəhayət asfalt döşəndi. Düpbədüz, lazımi qalınlıqda, şüşə kimi. Dedim yəqin ki, indi də qalıb yola ağ xətlər çəkib, zolaqlara ayırmaq. Ondan sonra bir aylıq müvəqqəti çətinliyimizə son qoyulacaq. Amma ki...

Ertəsi gün əllərində "otboynı molotok" deyilən cihaz olan ustalar başladılar düpbədüz, şüşə kimi yeni salınan asfaltı dağıtmağa. Bir yaşlı qadın da buna dözməyib:

- Ədə, neyləyirsiz? Dünən salmısız, bu gün dağıdırsız?

- Yox, ay xala, təzə lyukları quraşdırırıq,- deyə ustalardan biri cavab verdi.

- Bunu əvvəldən edəydiz də... Bütün işiniz belədir. Asfaltı çəkmisiniz, indi də yadınıza düşüb ki, bəs lyukları dəyişməmisiniz. Bunu vaxtında qoyun ki, sonra asfaltı dağıtmayasız da...

- Ay xala, özümüz belə eləmişik.

- Deməli, bilə-bilə edirdiniz ki, əlavə pul yeyəsiniz? Hə?

- Yox, ay xala. Bax lyukların yerini əvvəldən işarə eləmişik. Sonra da asfaltı çəkmişik. İndi lyukun yerini ölçüsünə görə qazıb açırıq. Sonra da yolun səviyyəsinə uyğun – tarazla yeni lyukları otuzduracağıq. Ki, nə bir santimetr yuxarı olsun, nə də aşağı. Yolun üst səthindən heç fərqlənməsin. Nə baxanda görsənsin, nə də üstündən keçəndə sürücülərin, piyadaların, sərnişinlərin ruhu incisin. Ay xala, sürücülərin bir sözü var e... Bakının köhnə yollarında gedərkən deyirdilər ki, lyukları saya-saya gedirik. Bax o dövr qurtardı.

- Aaa, siz Allah bağışlayın, bunları bilmirdim. Allah, işinizi avand eləsin. Bağışlayın ki, işinizə qarışıb, mane oldum.

- Eybi yox. Ay xala, bax hansı yolla getdin, maşın hərəkət edəndə, lyukların üstündən keçəndə hiss olunmadı, bil ki, bu yolu Bakı Şəhər İcra Hakimiyyəti təmir edib. Keyfiyyətinə zəmanət veririk.

- Bakı şəhər İcra Hakimiyyəti nədü? Allah, can sağlığı versin. Denən ki, Hacıbalanın çəkdiyi yollar da. Day niyə uzadırsan?...

# İBRANİMİN BABASININ NƏSİHƏTİ

İbrahim Ömərov mənim dostum idi. Amma neyləyək ki, bizi tez tərk elədi. Cəmi 36 yaş. 36 yaş nədir ki?

Amma duzlu-məzəli söhbətləri yadda qaldı. Təkcə bir sözünə - "İnsanlar bir-birinizi sevin və bunu bir-birinizə deməkdən çəkinməyin" - kəlamına "Gözəl İbrahim" adlı bir hekayə həsr etdim. Çünki o, ətrafındakı bütün insanları sevirdi.

İbrahim həm də adını daşıdığı babasıyla fəxr edirdi. Onun kəlamları, nəsihətləriylə oturub-dururdu. Elə bir məclis olmazdı ki, ondan söz deməsin, rəhmət oxutdurmasın. Babasının nəsihətlərdən birini mənə də nəql eləmişdi:

"Mahir, 7-8 yaşım olardı. Babam isə deyirdi ki, "İbrahim, bax a... arvadın dalıyca qaçma, çata bilmərsən". Məəttəl qalırdım ki, nə deyim. Arvada çatmağa nə var ki. Qonşumuz Məmmədəli arvadı onu əsəbiləşdirəndə dalıyca qaçırdı. Qaçıb, çatıb, hələ bir qapaz da vururdu. Hələ evdəkiləri demirəm. Bax indi evlənmişəm. Arvad məndən bərk qaça bilər ki, mən də ona çatmayım? Əsla. Kişi arvadın dalıyca qaçar, ona çatar, hətta ötər də...".

Bir müddət keçdi. İbrahim bir az da yaşlandı. Axır ki, babasının bu nəsihətini başa düşdü: "Mahir, demə İbrahim babam tamam başqa şey deyirmiş. Məsələn: arvad səndən təzə palto istəyir. Bir təhər pul tapıb alırsan. Üstündən bir az keçən kimi beyninə dublyonka düşür. Onu da alırsan. Bir az keçir, arvad artıq şuba xülyasındadır. Onu da alırsan. Köhnə aldığın qara rəngdədirsə, arvada ağ rəngli şuba lazımdır. Yaxud da tək brilliant qaşlı üzük alırsan, buna bab sırğasını istəyir.

Sırğa alırsan, medalyon yada düşür. Sonra bilərzik, saat, daha nələr, nələr. İndi başa düşmüşəm ki, arvadın arzuları çox və sonsuzdur. Hansını həyata keçirsən, yeniləri dünyaya gəlir. İndi-indi babamı başa düşməyə başlamışam. Arvadın arzuları sonsuzdur. Bu arzuların dalıyca qaçmaq olmaz – çata bilmərsən. Arvadın dalıyca qaçacaqsan, qaçacaqsan, bir də görəcəksən həyatın sonudur. Sən finişdəsən. Arvadın arzuları isə hələ də startda".

PS. İbrahim, baban bu sözləri arvadın, gəlinlərin, qız nəvələrinin arzularının dalıyca qaçıb-qaçıb, finişə çataçatda başa düşüb demişdi. Amma biz səni startda itirdik, həyat yoldaşının, gələcək gəlinlərinin, qız nəvələrinin arzuları finişə erkən çatdı.

# PİSKARYOV, PROFESSOR CƏLAL ABDULLAYEV VƏ ŞAHİ XƏNDAN

1976-cı ildə ailəlikcə Leninqrada səyayətə getmişdik. Atam, anam, bir də mən. Düzünü desəm ovsunlamışdı bu şəhər məni. Heykəltaraşlıq, memarlıq, rəssamlıq əsərləriylə. Bu gözəlliyə xələl gətirən bir məqam var idisə, o da Leninqradın müharibə vaxtı blokada günlərində yaşadıqları idi. Ekskursiya marşrutlarından biri də Piskaryov Memorial Qəbiristanlığı oldu.

Ümumilikdə götürəndə köklü leninqradlılar öz tarixlərini gözəl bilirdilər. Məhz bu xüsusiyyətlərinə görə atam Qabil onları bir-birindən ayırırdı. Əgər rusu saxlayıb hər hansı sualına cavab almaq istəyirdinsə, əgər o, bu suala təmkinlə, şəhərinə böyük məhəbbətlə cavab verirdisə, deməli o, köklü Sankt-Peterburqlu idi. Əgər sual verdinsə, səni it kimi qapdısa, deməli müharibədən sonra bu şəhərə köçənlərdəndir. Bizim Bakı dilində desək "çuşka".

Nə isə .... gəldik qəbiristanlığa. Yaşıl çəmənliyə örtülmüş təpəciklər gördük. Üstündə sadəcə illər yazılmışdı. Hər təpəciyin də sahəsi 100 kvadtrat metr. Demə, bu torpağın altında kütləvi məzarlıq imiş. Blokadada ölən o qədər çox imiş ki, ekskavatorla dərin çala qazıb, cəsədləri üst-üstə qalaqlayıb, üstünü də torpaqla örtürlərmiş. Demə, Piskaryov qəbiristanlığında 600 min leninqradlı basdırılıbmış.

Birdən atam yanımızdan keçən bir rusu saxladı:

- Bağışlayın, buranın adı Piskaryov məzarlığıdır. Bəs Piskaryov özü kim olub?

- Tacir, zadəgan.

- Nə? Zadəgan? Mən də elə bilirdim ki, hansısa inqilabçının adıdır.

Sonra üzünü anamla mənə tutub:

- Köpəyuşağı  Hacı Zeynalabdin Tağıyevin adını evinin pencərəsindən də qaşıyıb pozdular. Amma qəbiristanlıqlarından zadəgan adını silməyiblər.

SEYİD ƏZİM ŞİRVANİ

Bir şirvanlı kimi Şamaxıya tez-tez gedərdik. Mərkəzi yolun solunda Şahi Xəndan qəbiristanlığı var. Sabirin qəbri hündür təpədəki Yeddigünbəz məzarlığında olsa da, müəllimi Seyid Əzimin qəbri burdadır. Yoldan da görsənir. Hər dəfə ordan keçəndə atam "Seyid Əzim, Allah sənə rəhmət eləsin" deyərdi. Amma nədənsə gec-gec ziyarət edirdi. Əsasən Sabirin qəbri üstünə gedirdi.

Vaxt keçdi. Mən böyüdüm. Orta məktəbdə Seyid Əzim Şirvanini keçəndə tez-tez bu misralara rast gəlməyə başladım:

*Mən öləndə Şah Xəndanda basdırın*
*Çünki onun Şahidi Xəndanı var.*

Bu misralara siz müxtəlif variantlarda da rast gəlmisiniz. Amma bir dəfə də olsun mən, yaxud da həmsiniflərim müəllimdən soruşmadı ki, bəs Şah Xəndan kim olub? Qəbiristanlıq niyə onun adıyla bağlıdır?

MÜƏLLİMİM PROFESSOR CƏLAL ABDULLAYEV

Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin 5-ci kursunda oxuyurdum. Professor Cəlal Abdullayev Sovet ədəbiyyatından dərs deyirdi. Atama, bacanaqları Nəbi Xəzri, Məstan

Günər, İsa Hüseynov, baldızı Firuzə xanıma görə məni çox istəyirdi. Düzü, evin uşağı sayılırdım. Bunu bilirdim. Ona görə də dərsdə ərköyünküyüm özünü biruzə verirdi. Günlərin bir günü əsəbiləşdi. Üzünü mənə çevirib:

- Mahir, dərsini bilsən belə, Qabilin "Nəsimi" poemasından iki fəsil əzbər deməsən sənə qiymət yazmayacağam.

Düzünü desəm şeirlə, poeziyayla aram yox idi. Xüsusilə də şeir əzbərləməklə. Amma məcbur idim. Gəlib Cəlal müəllimin sözünü atama da dedim.Məsləhət istədim ki, 13 min misralıq poemadan hansı fəsli əzbərləyim. Dedi ki, "Şahi Xəndan" və "Eheyy" fəsillərini əzbərlə. Mən də məcburiyyət üzündən başladım əzbərləməyə.

*Mənim böyük qardaşımın*
*adı Şahi Xəndan idi,*
*O, şairdi... eşidənlər*
*kəlamına heyran idi.*

*Atəşliydi, alovluydu*
*sinəsində çarpan ürək.*
*O sel kimi coşqun idi,*
*bulaq kimi rəvan idi...*

Onda bildim ki, Seyid Əzim Şirvani

*Mən öləndə Şah Xəndanda basdırın*
*Çünki onun Şahidi Xəndanı var.*

deyəndə kimin adına olan qəbiristanlığı nəzərdə tuturmuş. Demə, Nəsiminin Şahi Xəndan adlı böyük qardaşı olub. Zəmanəsinin böyük şairi olub. Amma bir misrası da bu günə gəlib çatmayıb. Sadəcə qəbiristanlığın adında bugünəcən yaşayıb. Sadəcə sənətkar, şair taleyi.

SON

O vaxtdan mən Şahi Xəndanı tanıdım. Şahi Xəndan qəbiristanlığını da tanıdım. Sizə də bu əhvalatı danışdım ki, Şamaxıdan - Nəsiminin qardaşının adını daşıyan qəbiristanlığın yanından keçəndə Sabir, Nəsimi, Seyid Əzim Şirvani, Abbas Səhhət və daha neçə böyük şairimizlə yanaşı, ona da rəhmət oxuyun. Nə olsun ki, bir misrası da qalmayıb. Amma qəbiristanlığın adında adı qalıb ki... Lap Leninqraddakı zadəgan Piskaryov kimi.

# NƏBİ, QABİL, BƏXTİYAR

Adım Mahir, təxəllüsüm Qabiloğlu olsa da, həyatda məni müxtəlif cür çağırırlar. Amma bunların içində ən çox "şairoğlu" müraciətini tez-tez eşidirəm. Onu deyim ki, şair oğlu olsam da ömründə şeir yazmaq fikrinə düşməmişəm də. Amma bir dəfə "yoldan çıxdım". Üç şeiri dalbadal düzdüm. Fəxrlə qıraqdan özümə baxıb qürurlandım da.

Bir anlıq fikrə getdim. Yazdıqlarım həqiqətənmi şeirdir? Kimə müraciət edim, kimə oxuyum, kimdən soruşum? Bəlkə elə doğurdan da şairəm, yaxud da atam Qabil demişkən sadəcə "şaircik"?

Yazdıqlarımı oxumağa, bir məsləhət almağa sənətkar aradım. Üzvü olduğum Qabilin ocağına baş vurdum. Tapmadım. Qonşularımızı, mənə düzgün məsləhət verə biləcək insanları - Bəxtiyar əmini, Nəbi əmini və digərlərini axtardım. Onlar da yox idilər. Yaşadığımız Hüsü Hacıyev küçəsi 19 – yazıçılar evi suyu qurumuş bulağa bənzəyirdi. Hansı birisinin qapısını döyəydim ki? Hamısı dünyasını dəyişmişdi. Nəticədə yazdığım üç cızma-qaranı atdım qırağa. Adını şeir qoyduğum bu şeir dünyaya gəldi.

Mənə ustadoğlu deyə müraciət edən yeganə adam - şair, qələminin pərgarlığına və obyektivliyinə inandığım - Əkbər Qoşalıya müraciət etdim. Oxudu. Və ilk, bəlkə də son şeirimin "buraxılış vəsiqə"sini imzaladı.

Allah Nəbi Xəzriyə, Qabilə, Bəxtiyar Vahabzadəyə və dünyasını dəyişən, bu gün yeri görünən bütün şair və yazıçılarımıza rəhmət eləsin!

## NƏBİ, QABİL, BƏXTİYAR

*Nəsə demək istəyirəm –*
*Ürək doludur...*
*Şeir qoşmaq istəyirəm*
*Qələm odludur...*
*Yazmaq-pozmaq istəyirəm –*
*Kağızım boldur.*
*Ancaq yazdığımı kimə oxuyum? –*
*hardasız, ay ustadlar? –*
*Nəbi, Qabil, Bəxtiyar...*

*Yazmaq istəyirəm,*
*Fəqət qorxuram.*
*Yuxuma girərlər*
*gecə yarısı...*
*Qıyğacı baxışlar*
*gözümü oyar.*
*"Şairəm söyləyir yerindən duran,*
*Adamın üzündə həya gərəkdir"*
*deyibən yenidən qeybə yollanar...*
*Nəbi, Qabil, Bəxtiyar...*

*Poeziya gör nə günə qalıbdır!?.*
*Qaymaq gedib, ayran üzə çıxıbdır;*
*Meydan boşdur – Mahir baş qaldırıbdır,*
*"Yazan" çoxdur...*
*Ustadları kim fikr edər, kim anar..?*
*Nəbi, Qabil, Bəxtiyar...*

*Şeir zərgər işi –*
*bunu bilirəm...*
*Ruhu gözəllərdə*
*axmaq deyiləm.*

*Nə incəbellim var,*
*nə də ki, gözəl...*
*Onu da özləriylə*
*cənnətə aparıblar.*
*Mənəsə deyirlər:*
*axtaran tapar...*
*Nəbi, Qabil, Bəxtiyar.*

*Həyətimiz köçüb,*
*Közərir ocaq,*
*Başçı yoxdur,*
*Qalıb mənim tək qaçaq.*
*Axtarıram ilham,*
*gələcək haçaq?*
*Bunun vədəsini bilirdi onlar –*
*Nəbi, Qabil, Bəxtiyar...*

*Əkbər Qoşalı der:*
*Ustad oğlusan,*
*Təbin rəvan gəlir,*
*Qabiloğlusan;*
*Bir də görəcəksən*
*"Nobel" almısan...*
*Onlar ölən gündən getdiyim "biyar"*
*Bu şeiri oxuyub güləcək əğyar,*
*Çünki yoxdur –*
*Nəbi, Qabil, Bəxtiyar...*

# İBRAHİM, BULUDXAN, CAVANŞİR

Bir İbrahim adlı dostumuz vardı. Niyə dostum yox, dostumuz dedim? Çünki onu sevən, bu gün də yaddan çıxarmayan Fikrət Rzayev, Məsiağa Məhəmmədi, Eldəniz Elgün, Seyid Cavanşir, Mehman müəllim, müavinindən daha çox ona dost kimi baxan Həsən müəllim inciyər məndən. Hələ adını çəkmədiyim digər dostları demirəm.

Professor Buludxan Xəlilov da bizim İbrahimin dostu idi. Gündə üç-dörd dəfə telefonla danışmasa, işdən çıxandan sonra "Xalq qəzeti"nə gəlib ona salam verməsə evə getməzdi.

Bağda yaşadığım vaxtlar idi. Qış axşamlarının birində İbrahimin iş telefonuna zəng etdim:

- İbrahim, salam.
- Salam, Maka.
- Yaxşı borş bişirmişəm.
- Gəlirik.

İbrahim mənim bişirdiyim üç yeməyə etiraz edə bilmirdi. Biri kabab çəkməyimə, ikinci bişirdiyim borşa, bir də kartof, motal pendirin qırıntısı qatılmış vermişel-plova. Lap vacib işi olsa belə, atıb bizə gəlməliydi. Demə, mən zəng edəndə Buludxanla Cavanşir də otaqdaymışlar. İbrahim də tez kreslosundan sıçrayaraq "Buludxan, Cavanşir getdik bağa, Mahir yaxşı borş bişirib" deyir. Bunu eşidən Buludxan üzünü turşudub "Nə? Borş?" - deyir.

Etiraz etməyinə baxmayaraq İbrahim onu "sən də "Şamaxinka"da düşüb gedərsən evə" bəhanəsiylə mindirir maşına. Üz alırlar Masazıra. Sükanın arxasında da Cavanşir olur.

Yol boyu İbrahim ha illah eləsə də, “ay Buludxan, Mahirin borşu, sən yediyin borşlardan deyil. Gəl gedək. Peşman olmazsan” desə də, Buludxan razılaşmır ki, razılaşmır. Mənim bişirdiyim borşun əleyhinə hələ bir-iki “antisovet” söz də söyləyib, lağa qoyur. “Mən ….. plov yemirəm ki, bığım yağa batar, indi gecə yarısı gedib kakoy-to borş yeyəcəyəm?” deyərək. Beləcə gəlib çıxıblar “Şamaxinka”ya.

Birdən İbrahim Cavanşirə deyib ki, “saxlama, sür birbaşa Masazıra”. O da basıb qaza. Bundan sonra Buludxanın etiraz səsləri bir az da qalxıb. Amma nə tövr eləsə də, Cavanşirə maşını saxlatdıra bilməyib. Cavanşirin cəddindən qorxaraq, “seyid, cəddivə qurban olum” deyərək oturub sakitcə.

Mən isə süfrəni açıb bunları gözləyirəm. İri qazan borş, yanında ev tutmaları, zoğal arağı, xama, xardal, qara və təndir çörək. Bir də eşitdim ki, darvazanın ağzında maşın dayandı. Səs-küy qalxdı. Bildim ki, gəldilər. Qaça-qaça darvazanı açmağa gedirdim ki, Buludxanın səsi lap zilə qalxdı. Əvvəl başa düşmədim nə məsələdir. Yavaşca qapını açdım. Buludxanın arxası mənə tərəf idi. Ona görə də hiss etmirdi ki, onu mən də eşidirəm. Amma İbrahimlə Cavanşir məni görürdülər. Buludxanın “çıxış”ını kəsmirdilər ki, mən də eşidim:

- Borş. Nə borş? Gecə vaxtı da borş olar. Heç olmasa kabab olsaydı deyərdim hə. Yoxsa ki, borş. Mahir nə borş bişirəcək ki, hələ bir şəhərdən basa-basa gəlmişik bu boyda yolu...

Birdən Buludxan İbrahimlə Cavanşirin gülməyindənmi şübhələndi, ya arxasında hənir hiss etdi. Arxaya çevrildi. Gördü ki, mən dayanmışam. Tez valı dəyişdi:

- Salam, canik. Necəsən? Borş hazırdır?

## ÇAY, ŞOKOLAD, VİSKİ, QONAQLIQ

İbrahimlə Buludxanın qəribə bir dostluğu vardı. Aralarındakı ərk isə ikiqat artıq idi. (Mən ondan geri qalmırdım) İbrahimin kabinetinə girən kimi:

- İbrahim, bu nədir, qonaq gəlib, çay gətizdir.

Çay gəlirdi. Bu dəfə şokolad yada düşürdü. İbrahim şkafı açıb bahalı şokoladlardan götürüb doldururdu qənddana. Sonra qonaqpərvərliklə göz vuraraq "professor, yaxşı viski də var, süzüm?" deyəndə, Buludxan "çox yox. İyirmi-iyirmi" deyə cavab verərdi. İyirmi sonra yuvarlaqlaşıb "yüz" olurdu.

Buludxan Xəlilov Azərbaycan Pedaqoji Universitetinin Filologiya fakültəsinin dekanı, professordur. Pedaqoqdur. İşdə o qədər ciddidir ki, üzündən zəhirmar yağır.

Günlərin bir günü universitetin yanından keçəndə İbrahim dedi ki, gəl Buludxana dəyək. Demə məqsədi varmış. Məni də əvvəldən xali etdi ki, "alova nöyüt töküm". Girdik binaya, qalxdıq 3-cü mərtəbəyə. Girdik dekanlığa. Otağa girən kimi:

- Professor, bu nədir, qonaq gəlib, çay gətizdir.

Mən isə "Yanında da moskovski şokolad" deyə əlavə etdim.

Buludxan da narahat halda, o biri otaqda olan işçilərinin, tələbələrinin eşitməsindən ehtiyatlanaraq:

- İbrahim, qadan alım. Bura universitetdir e, təhsil ocağıdır. Burda belə şeylər olmur.

- Viski də...

- İbrahim, viski nədir. Bura məktəbdir e, məktəb.

- Başa düşmədim. Onda belə çıxır ki, mənim otağım çayxanadır? Vsyo, sən gələndə mən də sənə çay verməyəcəyəm.

- İbrahim, qadan alım, sən jurnalistikaya baxma. Orda ayıb sayılmır. Amma biz tələbələrə təlim-tərbiyə veririk.

Otaqdan çıxdıq. Qucaqladı öpdü məni ki, sağ ol. Mən danışanda topa yaxşı güllə qoyurdun. Amma bu bir zarafat idi. Axşam yenə də bir yerdəydik. İbrahimin çaylı-şokoladlı, viskili, dostları ətrafında olan otağında. Belə bizim kasıb vaxtımızda olurdu. Şıxovda kütüm balığının qızartması, "Ağ şəhər" kafesində düşbərə, Göyçə xəngəlxanasını hələ demirəm.

## İBRAHİMİN SEVDİYİ ŞEİR

Elə ki, iyirmi-iyirmi gillədirdik... üç dəfə "iyirmi"dən sonra İbrahimin Buludxandan bir xahişi olurdu:

- Pofessor, qadan alım, Nəbatidən o şeiri de.

Buludxan müəllim də böyük həvəslə, intonasiyayla başlayırdı, nə başlayırdı:

*Səba, məndən söylə o gül'üzarə,*
*Bülbül gülüstanə gəlsin, gəlməsin?*
*Bu hicran düşkünü, illər xəstəsi*
*Qapına dərmanə gəlsin, gəlməsin?*

*Mən qurbanı olum ənbər tellərin,*
*Qönçə dodaqların, püstə dillərin,*
*O lalə rüxsarın, mişkin xalların*
*Oduna pərvanə gəlsin, gəlməsin?*

*Gözüm çox həsrətdir xumar gözünə,*
*Günəş camalına, şəkər sözünə,*
*Utanıram, necə deyim üzünə,*
*Dərdin xəstə canə gəlsin, gəlməsin?*

*Dolaşdır boynuma şümşad qolunu,*
*Qucaqlayıb qucum incə belini,*
*Ləli-ləbin əmim, sorum dilini,*
*İstər ölü canə gəlsin, gəlməsin?*

*Nəbati istəməz sənsiz dünyanı,*
*İzzəti, hörməti, şövkəti, şanı,*
*Bir zada qalmayıb daha gümanı,*
*Bu baş o meydanə gəlsin, gəlməsin?*

MAKA

İbrahim mənə zarafatla Maka deyirdi. Bir dəfə Tbilisiyə getmişdik. Girdik "Xingal evi"nə.

Sifarişimizi verdik. Ofisiant qız yeməyi gətirəndə qeyri-iradi soruşdum:

- Devuşka, kak vas zovut.
- Maka.- deyə cavab verdi.

Demə gürcülərdə Maka qız adıymış. İbrahim gözünü mənə zillədi ki, görüm nə deyəcəyəm. Mən isə əvvəlcədən İbrahim məni çağıran kimi Maka deyə cavab verəcəyimi planlaşdırmışdım. Amma gördüm ki, belə alınmayacaq. Ona görə də özümü sındırmadan:

- A menya Makaka.

**PS.** Əziz dostumuz İbrahim! Ruhun şad olsun. Yerin yaman görünür. Hər şey qaydasına düşüb. O gün Buludxanın otağına getmişdim. Qabağıma çay da qoydu. Yanında şokolad, quru tut. Öz tort payını da mənə verdi. Meyvəni dilimlətdirib stola düzdü. Bircə viski yox idi. Əminəm ki, yaxın gələcəkdə o da olacaq.

O vaxtlar narazı-narazı bağda yediyi borşu yada saldı. Dedim ki, İbrahimdən sonra borş bişirmirəm. Nəbatini xəbər aldım. Dedi ki, Nəbatinin də o vaxtdan ilhamı ölüb. "Xalq qəzeti"ndəki otağında da çay quruyub. Məni də Maka deyə çağıran yoxdur. Bilirsən niyə? ÇÜNKİ SƏN YOXSAN!

# XƏLİL RZANIN "ARABA"SI

Xəlil Rza Ulutürkü lap körpəliyimdən tanıyıram. Atamın dostu idi. Çox istiqanlı, mehriban adam idi. Heç kimin xətrinə dəyməzdi. Kimsə ona Xəlil müəllim, yoldaş Xəlil Rza, yaxud da Xəlil Rza Ulutürk deyə müraciət etməzdi. Sovet dövrünün qılıncının qabağı da, dalı da kəsən dövrlərdə belə, onu Xəlil bəy deyə çağırırdılar.

Osmanlı türkcəsindən işlətdiyi sözləri əlbəttə ki, çoxları, o cümlədən mən balaca Mahir də başa düşmürdüm. Amma buna baxmayaraq 6 yaşlı mən yaxşı bilirdim ki, türklər avtomobilə -Azərbaycan dilində nə qədər gülməli səslənsə də - araba deyirlər. Onun da öz tarixçəsi vardı.

Xəlil əmi atamla hansısa məclisdən qayıdırlarmış. İkisinin də kefi yuxarıymış. Yəni ki, içiblərmiş. Onları evlərinin qapısında düşürtmək əmri almış sürücüyə deyirlər ki, "maşını evdən bir az uzaqda saxla. Burdan piyada getmək istəyirik". Nə isə, maşından düşüblər. O vaxtkı Əzizbəyov, indiki İslam Səfərli küçəsiylə yürüməyə başlayıblar. Əlbəttə ki, səkiylə yox, yolun qırağıyla. Gecə yarısı, boş küçədə axır bir maşın tapılır ki, bunların yanından keçsin. Və keçəndə yolun hərəkət hissəsinə daha yaxın olan atamın ayağına toxunur. (Yaxud da ki, atam maşına toxunub. Çünki qapalı sınıq idi. Maşın dəysəydi sümük xıncım-xıncım olardı)

Nə başınızı ağrıdım, atamın ayağı sınır. Xəlil əmi də onu çiyninə alıb otuzdurur maşına gətirir ovaxtkı Şaumyan xəstəxanasına, indi Leyla Şıxlinskayanın klinikası yerləşən məkana. Atama yardım göstərirlər, ayağını tez rentgen edib gipsə salırlar.  Ovaxtkı milis, indiki polisə də xəbər verirlər.

Atam ağrıdan sızıldadığından milis ona yaxınlaşmır. Yanaşırlar bu hadisənin canlı şahidi Xəlil Rzaya (o vaxt təxəllüsü belə idi). Deyirlər ki, danış görək hal-qaziyyə necə baş verib. O da:

- Böyük Qabilimizlə yolla yürüyürdük. Bu dəm bir araba gəlib dəydi böyük şairimizə.

- Nə? Araba? – milis təəccüblə soruşur.

- Bəli araba. – deyə Xəlil Rza cavab verir.

- Nə araba? Bəlkə fayton? – deyə milis bir qədər də dəqiqləşdirməyə can atır.

- Xeyr, araba idi.

- Gecə vaxtı, şəhərin mərkəzində... orda araba nə gəzirdi? Nə arabası idi, eşşək, yoxsa at?

- Sadəcə araba idi. Bir də gördüm ki, Qabilimiz yerdə uzanıb, ağrıdan qışqırır. Tez onu aldım çiynimə, otuzdurdum arabaya, gətirdim xəstəxanaya.

Milis Xəlil Rzanı yaxşı tanımadığından, onun leksonuna bələd olmadığından belə düşünür ki, yəqin dəmdir – onu ələ salır. Tez ordan uzaqlaşıb gedir.

QORBAÇOVUN BƏXTİ GƏTİRDİ...

20 Yanvar faciəsindən sonra Xəlil Rza Ulutürkün sovet rejiminə qarşı nifrəti daha da artmışdı. O vaxt çoxu bu mövqedə idi. Hətta açıqca Qorbaçovu cəllad da adlandırırdılar. Xəlil əminin bu cəllada münasibəti isə tam fərqli idi.

O vaxtlar SSRİ Xalq deputatlarının qurultayı keçirilirdi. Bizim azərbaycanlı nümayəndə heyəti də orda iştirak edirdi. Bu deputatlardan birinə (yazıçı Anar) söz verilmədən cürət edib çıxır tribunaya ki, xalqımızın dərdini desin. Danışmaq istəyəndə Qorbaçov mane olur. O da neçə çıxmışdısa, eləcə də qayıdıb oturur yerinə. Sonra da bunu belə izah edir ki, bəs ailə tərbiyəsi gördüyündən, ayağını bir başmağa dirəyib çıxış edə bilməzdi. Naxallıq ədəbsizlik sayılır. Xəlil əmi isə başqa cürə deyirdi:

“Olaydım o bizim deputatlarımızın yerində. Danışmaq bəhanəsiylə çıxaydım tribunaya. Birdən geri çönərək yapışardım

Qorbaçovun boğazından. Görüm sonra onu mənim əlimdən ala bilərdilər, ya yox".

Düzdür, Xəlil Rza ailə tərbiyəsi görmüşdü. Amma milli ruhda tərbiyəsi, Türk xalqına məhəbbəti hər şeydən üstün idi.

TƏBRİZ ELƏ DEMƏZ

Təbriz (şəhid, Azərbaycanın Milli Qəhrəmanı Təbriz Xəlilbəyli) məndən iki yaş böyük olsa da, Rzadan fərqli olaraq dostluğumuz tuturdu. Atam təzə "Volqa" QAZ-2410 maşını almışdı. Hərdən qarajdan qaçırıb, bərabər gəzməyə də çıxırdıq. İndinin aftoş-qaqaşları savayı. Amma  xuliqanlıq etmirdik. Sadəcə əylənirdik. Hər dəfə də deyirdi ki, "Atama maşın aldıracam. Bizim də "Volqa"mız olacaq".

Xəlil əminin isə avtomobilə heç həvəsi yox idi. Lakin ailə böyük qüvvədir. İnsanı həvəsə gətirməyə qadirdir. Moskvadan dönəndən sonra bu məsələ gündəmə gəldi. Yazıçılar İttifaqının xəttiylə "Volqa" ayırsalar da, Xəlil əmi istəmirdi. Sovet dövründə isə hər adam öz qiymətinə "Volqa" almağa layiq görülmürdü.

Günlərin bir günü onlarda olanda Təbriz mənə bir işarə elədi. Mən də başladım:

- Xəlil əmi, Təbriz deyirdi ki, papam qoy Lefortovadan qayıtsın, ona maşın aldıracam.

Xəlil əmi hirsli-hirsli sifətimə baxıb sözümü kəsdi:

- Təbriz heç vaxt elə söz deməz.

- Necə yəni deməz? Deyirdi axı. Deyirdi ki, qoy papam qayıtsın, mənimçün "Volqa" alacaq.

Xəlil əmi bu dəfə də hirsini boğub:

- Mən dedim, axı, Təbriz elə söz deməz.

Naəlac qalıb, üzümü Təbrizə çevirdim:

- Təbriz elə demirdin?

- Deyirdim. – deyə o da təsdiq elədi.

Xəlil əmi, bu dəfə lap partlayaraq:

- Mən deyirəm ki, Təbriz "papa" deyə bilməz. Təbriz "atam mənim üçün "Volqa" alacaq" deyə bilərdi.

# 2015

# RAMİL USUBOV NÜMUNƏSİ

"Mənim polisim məni qoruyur". Bu, sovet dövründən qalan bir misaldır. Sadəcə "milis" sözü "polis" sözüylə əvəzlənib. Mən isə polisdən qorxuram. Bunu boynuma almaqdan utanmıram. Bəlkə də "böyük hörmətlə yanaşıram" desəydim qəbul edərdiniz. Mən isə sadəcə - qorxuram. Bilirsinizmi niyə? Təsəvvür edin ki, sizə küçədə sıravi bir polis nəfəri yanaşır. Yaxud da ki, maşınınızı saxlayır. Özünü qayda-qanunla təqdim edərək sənədlərinizi tələb edir. Hünəriniz var sənədinizi təqdim etməyin. Artıq bu, qanun pozuntusudur – polisə tabe olmamaq. Ona görə də mən polislərdən qorxuram. Daha doğrusu, qanun pozuntusuna yol verib onlarla üz-üzə gəlməkdən. Çünki məhz onlar qanun simasında bizimlə hər gün rastlaşan konkret şəxslərdir.

Polislər çox sərtdirlər, həm də humanistdirlər. Heç nədən vətəndaşa ilişməzlər. Hər halda mən və ailəm bu cür neqativ hallarla hələ ki, rastlaşmamışıq. Hər şeyin düzünü onlar bilirlər. Hər şeyin ilkini onlardan soruşurlar. Əgər silah gəzdirirlərsə, deməli hər gün onlara tuşlanan silahlarla, güllələrlə gizlənpaç oynayan da, ilk qınaq obyekti də, vətəndaşları yaxşı başa düşən də polislərdir.

Bağışlamağı da bacarırlar. Oda nöyüt yox, su tökməyi üstün tuturlar. Təsadüfən yolundan çıxanların qulağının dibinə elə bir şillə çəkirlər ki, bu türmə kamerasında bir ya iki il yatmaqdan daha tutarlı olur. Hər halda keçmişdə bu cür milislər haqqında çox eşitmişəm. (polislər yox a...) .

Amma bu gün polis işləmək çox çətindir. Neçə-neçə cib telefonun kamerası onlara tuşlanıb. Hələ öz xidməti maşınlarında, küçə və meydanlarda  quraşdırılan kameraları demirəm. Hər hansı bir qanun pozuntusuna yol versə, hətta xırda bir xətanı bağışlasalar belə, ən azından sosial şəbəkələrin qəhrəmanına çevrilə bilərlər. Çox vaxt polis hadisə yerinə çatmazdan qabaq, artıq sosial şəbəkələrdə baş vermiş olay barədə xəbər tutursan. Ən ucqar kənddə belə, Daxili İşlər Nazirliyinin nümayəndəsi var. Bənzətməylə desəm, polis dövlətin damarlarında axan qandır. O,  hər yerdədir, o, hər birimizi nəzarətdə saxlamaq qüdrətinə malikdir.

Mənim 49 yaşım var. Düzdür həyatı başa düşmək yaşın azlığıyla, çoxluğuyla ölçülmür. Təsadüfən Atalar da "ağıl yaşda deyil, başdadır" deyiblər. 1988-ci ildən – tələbəlik çağlarımdan ölkənin ictimai-siyasi həyatında fəal iştirak etdiyim və bir az da qələmim olduğim üçün son 27 ildə şahidi olduğum, eşitdiyim hadisələri, tarixi məqamları süzgəcdən keçirib, analiz edib qələmə alıram. Və bu siyahıda polis ön sıralardadır.

Müstəqillik tarixinin 24 ilinin 21 ilini əhatə edən, general-polkovnik Ramil Usubovun nazirlik dövrü isə anbaan göz önümdədir. "Anbaan" dedim. Çoxları bunu saniyəbəsaniyə kimi qəbul edə bilər. Yaxud da ki, belə təsəvvür yarana bilər ki, mən Daxili İşlər Nazirliyinin "ştatnı" salnaməçisiyəm. Əsla. "An" sözü müstəqilliyimizin ilk illərində  mənim anlamımda "ani" sözüylə sinonim olub. Və bu sözün arxasıyca "yanlışlıq" sözü bizi anbaan izləyib. Ani yanlışlıqlar isə  neçə-neçə faciəmizə yol açıb.

Nəhayət ümummilli lider Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlişindən sonra yanlışlıqlar çox ustalıqla aradan qaldırıldı. Bu baxımdan böyük siyasətçinin 1994-cü ildə sərəncamla yox, məhz prezident FƏRMANıyla daxili işlər naziri vəzifəsinə  təyin etdiyi Ramil Usubovun xidmətləri danılmazdır.

APREL 1994-CÜ İL

Atama dəyməyə gəlmişdim. O vaxtlar Prezident Heydər Əliyevin hər bir görüşünü, müşavirəsini, qəbullarını televiziyada yayımlayırdılar. Atam birdən:

- Mahir, bu Ramil Usubov kimdir?

- Papa, təzə daxili işlər naziridir. Dünən televiziyada verirdilər.

- Bilirəm e... "televiziyada verirdilər". Mən soruşuram kimdir? Heydər müəllim onu yaman tapşırdı e... kollektivə.

- Nə olsun ki?

- Yox e... bərk-bərk tapşırdı. Belə başa düşdüm ki, çox etibar etdiyi, yaxın bildiyi adamdır.

O çətin dövrlərdə etibar və sədaqət kriteriyaları hər şeydən yüksəkdə dayanırdı. Onda bu meyarları heç kim dərindən hiss etmir, bilmirdi. İndi ən yeni tariximizin səhifələrini varaqlayarkən belə aydın olur ki, məhz 1995-ci ildə respublikada illər boyu hökm sürən dərəbəyliyin qarşısı alınacaq və Azərbaycanın inkişaf tarixi yazılmağa başlayacaq. Bu inkişafın əsasında daxili sabitlik əsas meyar idi. Ramil Usubov belə bir vaxtda Daxili İşlər Nazirliyinin başına gətirildi.

1994 OKTYABR VƏ 1995 MART

İndiki kimi yadımdadır. Dövlətdə təmsil olunan nazirlər iki yerə bölünmüşdülər. Bəziləri hegemonluq edərək daxili sabitliyi pozur. Bəziləri isə nəinki vəzifələrinə uyğun olaraq dövlətinin, vətəndaşlarının hüquqlarını müdafiə edir, hətta öz şəxsi təhlükəsizliklərini belə, təmin edə bilmirdilər. Günün günorta çağı Baş Prokurorluğa hücum ... Nə isə. Mövzum bu deyil. O dövrün dırnaqarası vəzifə qəhrəmanlarının "qəhrəmanlıq"larını sadalasam, mövzudan çox kənara çıxmış olaram. Ən yeni tariximizin bu cür qara səhifələri çoxdur. Belə bir dövrdə DİN-in – o nazirliyin ki, tərkibində OMON kimi bir hərbiləşmiş,

siyasiləşmiş qurum fəaliyyət göstərirdi – rəhbərliyinə gətirilmək və bu cür tarixi şəraitdə tarixin bütün sınaqlarından üzüağ çıxmaq, siyasi iradə, sədaqət, əzmkarlıq göstərmək. Vallah, böyük qəhrəmanlıqdır. Hələ prezident etimadını doğrultmağı demirəm. Və buna o dövrün müasiri olan mənim kimi sıravi vətəndaşın indi qiymət verməyi, o günlərin şahidi olmayanlar üçün çox gecikmiş bir addım və çox adi görsənə bilər. “Gecikmiş” sözüylə özüm də razıyam.

## HÖRMƏT VƏ “HÖRMƏTSİZLİK”

Ramil Usubov nazir təyin olunduqdan bir ay sonra atam zəng edib qəbuluna gedir. 1992-ci ildə rayon milis idarələrinin birində rəis müavini vəzifəsindən haqsız yerə uzaqlaşdırılan, 1993-cü ilidə isə yenidən orqanlara bərpa edilən (şöbə rəisi kimi – mayor rütbəsində) yaxın qohumumuzun xahişini edir. Xahiş, daha doğrusu loru dildə desək “tapşırma” belə olur – “Qardaşoğluda gözün olsun”.

Ramil müəllim atama olan sonsuz hörmətinin və ən başlıcası inamının (Qabil hər adama görə ağız açmaz) nəticəsi olaraq həmin qohumu yenidən rayon polis idarəsinin rəis müavini vəzifəsinə bərpa edir. Nəinki ədaləti bərpa edir, hələ üstəlik podpolkovnik rütbəsi də verir. Amma...

Atama da sirr deyildi ki, həmin qohum yaxşı içən idi. Çox vaxt əndazəsindən çıxırdı. Nə olsun ki, işinin öhdəsindən gəlirdi. Amma paqon və silah gəzdirən adam əndazəsini bilməliydi. Nazirliyə edilən şikayətlər və qohuma elan edilən xəbərdarlıqlar nəticəsini vermədikdə nazir Ramil Usubov həmin qohumu istefaya göndərdi. Bu xəbəri atama səbəbkar özü çatdırdı. Yenidən nazirə ağız açmağını istədi. Atamın cavabı isə qısa oldu:

- Əcəb elədi Ramil müəllim. Sənə demişdim ki, içmə. Hələ sağ ol de ki, mənə olan hörmətinə görə istefaya göndərib. Sistemdən də qova bilərdi.

Sonralar da atam Ramil müəllimlə görüşəndə həmin qardaşoğlunu yada salarkən "Qabil müəllim, mənim fikrim o idi ki, onu rayonlardan birinə rəis göndərim. O isə içməyə başladı" deyirdi. Atam isə "əcəb elədin. Lap düz elədin. Canı çıxaydı içməyəydi.  Mən qoca kişiyəm, mənə olar. O isə vəzifə adamıdır" deyib gülürdü.

SON BORC

Atam rəhmətə getmişdi. "Üç mərasimi" idi. Bir də gördüm ki, çadıra başda Ramil Usubov olmaqla dörd nəfər daxil oldu. Mənə başsağlığı verdi. Xarici səfərdə olduğundan dəfndə iştirak edə bilmədiyini dedi. Onunla gələnlər isə müavinləri, generallar Oruc Zalov, Əsgər Ələkbərov və Vilayət Eyvazov idi. Bu, Ramil Usubovun bir nazir və sıravi vətəndaş kimi xalq şairinin xatirəsinə sonuncu ehtiramı idi.

POLİSİN MƏNƏ "HÖRMƏTSİZLİYİ"

Biz belə öyrəşmişik. Yox, bəlkə də qanımızdadır. Məsələn, yol polisi məni saxlayır.

- Serjant filankəsov. Xahiş edirəm sənədlərinizi təqdim edin.

Mən də atamdan mənə miras qalan, həmişə maşında talisman kimi gəzdirdiyim sovetin qırmızı üzlüklü sürücülük vəsiqəsinin arasına öz "pravamı" və "texpasportu" qoyub ona təqdim edirəm. O da maraqdan ilk olaraq köhnə "pravaya" baxır və şəkli tanıyır:

- Pah, Qabil müəllimin oğlusuz. Allah rəhmət eləsin. Yaxşı kişiydi. Sözü üzə deyən idi. Bir şeiri də var e... "Tərs düşəndə yerimiz"...

- Səhv düşəndə.

- Hə... "Səhv düşəndə yerimiz". Siz necə, şeirdən-zaddan yazırsız?

- Xeyr.

- Heyf... Buyurun sənədləri. Gedə bilərsiniz.

Mən və digər "müsəlmanlar" etdiyimiz xırda xətaların qarşılığında bu cür münasibətə öyrəşmişik.Yəni ki, bağışlanmağa. Kimə görəsə bağışlanmağa. Burda Həsən ağanın qohumu məsələsi yada düşür. Necə demişdi Əbdürrəhim bəy Haqverdiyevin Mirzə Səfəri… kağızını kontorda növbədənkənar almaq istəyən qudurğan gəncin "Həsən ağanın qohumuyam" sözünə?

- De sən öl, Həsən ağanın qohumusan?

- Sən öl, Həsən ağanın qohumuyam.

- Doğrudan Həsən ağanın qohumusan?

- Vallah, Həsən ağanın qohumuyam.

- Sən Həzrət Abbas, Həsən ağanın qohumusan?

- Həzrət Abbas haqqı Həsən ağanın qohumuyam.

- Onda gəl min boynuma. Neyləyim Həsən ağanın qohumusan. Gözlə, kağızın nə vaxt hazır olar, apararsan...

"Həsən ağanın qohumları" bütün dövrlərdə olub. Elə biri mən özüm. Düzdür bir fərqim o olub ki, qudurğan olmamışam. "Qabilin oğluyam" deməklə sadəcə cərimənin məbləğindən, ya da ki, sağlığında atamın uzun-uzadı tənbehlərindən canımı qurtarmaq istəmişəm. Maşını əlimdən ala bilərdi axı...

Bu gün isə mənzərə tam başqadır. Hər bir pozuntu elektron vasitələrlə qeydə alınır.

Mən yol polisi üçün Qabilin oğlu yox, sadəcə sürücüyəm. Protokol yazılmalı, cəriməmi ödəməliyəm. Birdən "Qabilin oğluyam" dedim? Atamdan miras qalan "pravanı" da öz "pravama" qatıb yol polisinə təqdim etdim. Onda necə olsun? Məncə heç bir əhəmiyyəti yoxdur. Polis öz üzərinə düşən vəzifəni yerinə yetirməlidir. Tələb etdiyi sənədləri götürüb, talismanımı geri qaytarmalıdır. Və buna görə mən ona heç bir irad tuta bilmərəm. Amma vay onda ki, yol polisi mənimlə məzələnə:

- Qabilin oğlusan? De sən öl Qabilin oğlusan? Doğurdan Qabilin oğlusan? Sən Həzrət Abbas Qabilin oğlusan?

- Hə.

- Onda gəl min boynuma. Neyləyim Qabilin oğlusan. Protokol yazıram, get canın çıxsın cəriməni ödə. Mən səndən böyük kişinin oğluyam. Heç bunu deyirəm? - cavabı verə. Bu məqamda təqsir ondadır. İstədidiyim yerə şikayət verib, onu cəzalandırılmasını tələb edə bilərəm. Sübut da ki, nə qədər. Bütün maşınlarda demək olar ki, kamera da var, mikrofon da. Mən isə işimi bilirəm. Nə "Həsən ağanın qohumu" deyib özümü bihörmət edirəm, nə də ki, yol polisinin məni təhqir edib işindən uzaqlaşdırılmasına bais. Heç "Dosta zəng etmək" hüququndan da istifadə etmirəm. İnandırım sizi ki, bu cür davrananların günahını çox vaxt polis də bağışlayır, Allah da...

## POLİS VƏ LEYLA YUNUS

Bu kadrları hamınız izləmisiniz. Leyla Yunus onun yanında dayanan polis zabitinin başından papağını götürüb vızıldadır. Həmin an mən o polisin yerində olmadığıma görə peşmançılıq hissi keçirdim. Dedim ki, o polisin yerində olsaydım, o andaca məndən boyca balaca olan Leyla Yunusa yuxarıdan aşağı elə bir qapaz qoyardım ki, yerində qalardı. Mən bunu edərdim. Yox. Mən bunu polisin yerində olsaydım edərdim. Zabit bəs nə etdi? Təmkinini pozmadan gedib papağını yerdən götürüb başına qoydu. Leyla Yunusa heç bir söz demədi. Əgər təhqiramiz cavab versəydi, yaxud da ki, Mirzə Səfərsayağı "gözüm aydın Həsən ağanın qohumusan" desəydi, yaxud da xəsarət yetirsəydi, iki yüz faiz əminəm ki, onu polis orqanlarından xaric edəcəkdilər. Qanuna zidd hərəkətlərə qanuna zidd cavab verdiyinə görə. Düzdür mənim kimi düşünənlərin ürəyindən tikan çıxaracaqdı, amma özünü də işdən çıxaracaqdılar. Qazancı isə bu videonun bir-iki ay baxış rekordu qıracaq səviyyəyə qalxması olacaqdı. Bu, polisə yaraşardımı? Sonrasını yaxşı bilirsiniz. Kim indi hardadır, Kim indi hardadır...

İki misal çəkdim. Mirzə Səfər və Leyla Yunusun timsalında. Sadəcə ictimai qınağı birtərəfli müəyyən edənlər üçün.

MƏNİM POLİSİM DYP-DİR

Bu gün mənim ən çox rastlaşdığım Dövlət Yol Polisinin işçiləridir. Tələbləri də yalnız bir şeydir: "Ay sürücü, ay piyada, qanunlara riayət et!". Vəssalam. Bu da mənimçün çətin şey deyil. Amma polis dostlarımı, tanışlarımı da yaddan çıxartmıram. 2 iyul - peşə bayramlarında zəng edirəm, kitabım çıxanda avtoqraf yazıb hədiyyə göndərirəm.

POLİS VƏ AVROPA OYUNLARI

Ölkəmiz iyun ayında böyük bir idman bayramına – 1-ci Avropa Oyunlarına ev sahibliyi etdi. Tarixin yaddaşına qızıl hərflərlə yazılan, Prezident İlham Əliyevin və oyunların Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın başçılığı ilə baş tutan bu bayramdan, əldə etdiyimiz uğurlardan hər bir azərbaycanlı kimi mən də böyük fəxarət hissi keçirirəm. Onu da qeyd edim ki, burda uğurlarımız ikiqat sayılmalıdır. Əldə etdiyimiz medallarla Avropa dövlətləri arasında 2-ci yeri tutmaq və bu oyunları yüksək səviyyədə həyata keçirmək.

Belə bir söz var. "ÇP-siz". Yəni ki, xətasız. Məncə bu qədər idmançının, qonağın, turistin təşrif buyurduğu Azərbaycanda ictimai asayişin qorunması və hətta xırda bir xətanın belə, baş verməməsi həm də Daxili İşlər Nazirliyinin kollektivinin böyük uğurudur. Burda Daxili Qoşunların və DYP-nin əməyini xüsusi qeyd etmək istərdim.

SON

Polis son illərdə çox inkişaf edib. Bu inkişafda 21 il bu sahəyə xidmət edən daxili işlər naziri, general-polkovnik Ramil Usubovun xidmətləri danılmazdır. Mən onun və ümumilikdə

polisin fəaliyyətinə öz prizmamdan ani bir nəzər yetirdim. Sevinirəm ki, nazirimiz ən yeni tarixin çətin sınaqlarından üzüağ çıxdı. Sayıqlığını itirmədi. Bu illər ərzində nazirliyə peşəkarlıqla başçılıq edir. Peşəkarları sevir, qiymətləndirir, dövlət təltifi üçün prezidentə təqdimat yazır. Öz işinin öhdəsindən gəlməyənləri isə sadəcə sistemdən qovur, istefaya göndərir. Çoxları üçün bu, bir görk olur. Bu, bütün polislərə bir siqnaldır ki, qanunu pozan, hoppanıb-düşən, ağzının danışığını bilməyən, bəlkə də içkili, bəlkə də dərdli, bəlkə də hallı vətəndaşlarla klassik yazıçımız Əbdürrəhimbəy Haqverdiyevin yaratdığı Mirzə Səfər surətinin diliylə yox, qanunun diliylə danışarlar. Mirzə Səfərdən polis olmaz.

# "ÖL" DEYƏNDƏ ÖL, "QAL" DEYƏNDƏ QAL

Atam həyatının son illərində bu ifadəni tez-tez işlədirdi: "Allah, sən məni niyə yaradırsan ki, ilk saniyələrdən də ölümlə qorxuzasan". Bilmirəm bu ifadə şəxsən ona aid idi, ya yox? Amma mənim üçün mənası indi çox dərindir. Nə olsun ki, 49 yaşım var. Ölmək heç vaxt tez deyil. Ölmək heç vaxt gec deyil.

Mən çox qorxaq adamam. Hamıdan qorxuram. Arvaddan da, qızlarımdan da, kürəkənlərimdən də, nəvələrimdən də, polisdən də, prokurordan da, vergi işçisindən də, hakimdən də... Hətta üzünü heç vaxt görmədiyim Allahımdan da...

Amma mən elə bir şeydən qorxmuram ki, çəkindiyim bu insanların hamısı ondan qorxur. Hətta özləri üçün ən dəhşətli bir qarğış bilirlər "Allah səni öldürsün!" sözlərini. Amma mən onların hamısından üstünəm. Onlardan qorxsam da, onların qorxduğu ölümdən qorxmuram. "Allahım, mənə ölüm göndər" deyib gecə-gündüz yalvarsam da, məni öldürmür ki, öldürmür. Bəlkə səbəb yoxdur, ona görə. Bəlkə də ona lazımam. Gələcəkdə iblis, yaxud mələk rolunu oynatmaq üçün. Amma bütün bunların mənə heç biri lazım deyil. Mənə sadəcə ölüm lazımdır. Arvadım deyir ki, elə demə - Allaha acıq gedər, bu cavan yaşında qıyar sənə. Nəvə toyu görmərsən. Bəlkə heç mən nəvə toyu görmək də lazım deyil?! Mən sadəcə ölmək istəyirəm. Sadəcə ölmək. Yatmaq, bir də oyanmamaq.

Bir neçə dəfə cəhd də eləmişəm. Alınmayıb. İntihara etdiyim cəhdlər uğursuzluqla başa çatıb. Bəlkə seçdiyim intihar metodu düzgün deyil. Özümü dənizə atım. Yox, soyuqdur.

18-ci mərtəbədən yerə tullanım. Olmaz. Getdim düşdüm birinin başına, ya maşınının üstünə. Niyə başqasına ziyan vurum ki. Yaxşısı budur yandırım özümü. Yox. Kişiyə yaraşmaz. Ərindən bezən qadın etiraz əlaməti olaraq yandırar özünü. Bəlkə körpünün başına qalxım? Özümü ordan buraxım aşağı. Sonra da təsadüfən düşüm hansısa brezentli maşının üstünə. Sağ qalım, bassınlar dəlixanaya. Başlayım bitlərimi öldürüb, bir-bir saymağa.

Axı nə edim? Allah məni öldürmür ki, öldürmür. Bir səbəb də yoxdur axı. Niyə öldürsün? Pis adamammı? Niyə növbəni pozsun ki? Bəlkə Kimsə tapşırıb məni? İnanmıram.Yetim oğlanam. Allahın bacısı oğlu deyiləm a...

Yox, ölməyim yaxşıdır. Çünki salim olmaq istəyirəm. Ən salim insan isə fəqət olur tabutidə. Qərəzsiz də ola bilər. Amma əsas salimlikdir. Bəlkə həyat sıxır məni? Əsla. Sadəcə başım ağrıyır. Nəsə ağırlıq var başımda. Bəlkə başım bədənimə ağırlıq edir? Bədən də bu ağırlığa dözmür. Ona görə?

Düzdür ölümdən qorxmuram, amma ağrıdan ki, qorxuram. Qorxuram özümü asam, ağrı verə. Uksus içib zəhərləyəm. Ağrıdan qovrulam. Özümü balkondan atam, başım, bədənim parça-parça olsun. Bir gün reanimasiyada bir təhər sağ saxlasınlar. Ağrı pis şeydir. Mən də ki, ağrıdan qorxuram. Amma ölümdən qorxmuram. Bəlkə maşının "qluşitel"indən çıxan qazla nəfəs alıb uyum? Bəlkə döyüşə gedib bir-iki dənə də erməni öldürüm, sonra da özüm şəhid olum? Birdən öldürdüm. Amma məni əsir aldılar – sonra? İşgəncələr, nələr, nələr…

Ancaq ölmək istəyirəm. Ölümə də meydan oxuyuram. "Gəl məni öldür!". Amma yan qaçır.

Arvad da məsləhətlərini gen eləyib: "Görəcəksən, günlərin bir günü Əzrayıl gələcək ki, öldürürəm səni. Yalvaracaqsan ki, romanımın son səhifəsi qalıb. Qoy onu yazım, sonra öldür. Heç bir saniyə də aman verməyəcək. Ona görə də başını aşağı sal, işini gör. "Nə vaxt "öl" desələr öl, "qal" deyəndə qal".

# MAHİRİN TOYU

1988-ci il idi. Məni evləndirməyə hazırlaşırdılar. 21 yaşlı gəncin başını aldadıb, ayaqlarını "zəncirləmək" çox da çətin deyildi.

O vaxt indiki adət-qanunlar da yox idi. ZAQS toya gəlib kəbin kəsmirdi, balaca mələklər ətrafında rəqs etmirdi, fişəng atılmırdı və sairə, ilaxır. Həmin vaxt yeni dəb meydana gəlmişdi. İndi çox gülməli görünsə də, toyu videoya çəkdirmək. Bahalı şey idi. Əsasən yəhudi əsilli bakılılar məşğul olurdu bu işlə. Qiyməti də çox baha idi. İki saatı 300 rubl, üç saatı 500 rubl. Nəzərə alsaq ki, "Moskva" mehmanxanasının restoran zalında çalınacaq toyun bir yerinin qiyməti 25 rubl idi. İndi fərqi özünüz hesablayın da...

Mən də indiki yeni evlənənlər kimi ayağımı bir başmağa dirədim ki, bəs toy videoya çəkilməlidir. Vəssalam. Atam isə qiymətdən hürkərək və bəlkə də bu yeni texnologiyanın nə olmasını anlamadığına görə razılaşmırdı ki, razılaşmırdı. Amma sonda mən deyən oldu. Toyun iki saatının çəkilməsinə atam razılıq verdi, yəni ki, pul buraxdı. Amma deyinə-deyinə. "Nahaqq sənin sözünə qulaq asdım" deyə-deyə.

Xülasə toy oldu, qurtardı. Kasseti gətirib verdilər bizə. Videomaqnitofon isə yox. Onun da qiyməti o vaxt qəttəzə "Jiquli"nin qiymətinə idi. Qonşumuz Bayram əmigildə vardı. Birinci orda baxdıq. Bir-iki dəfə də qohumlar aparıb baxdılar. Sonra kasset getdi girdi ailə arxivinə.

Üstündən illər keçdi. Video, kasset, maqnitofon deyilən şeylər adiləşdi, ucuzlaşdı. Günlərin bir günü uşaqların

hansınınsa ad günündə atam dedi ki, gəl gedək univermaqdan videomaqnitofon alaq. Bəs axşam sizə gələndə toyunuzun kassetinə də baxarıq. Dediyi kimi də elədim.

Axşam süfrə yığışılandan sonra oturdu televizorun qabağında əvvəldən-axıra toya tamaşa etdi. Hər dəfə də "uşaq deyirdi qulaq asmırdım, amma yaxşı ki, çəkdirdik" deməklə kinoseansı başa vururdu.

Hər il demək olar ki, bir dəfə  toyumuzun seansı olurdu. Artıq toyun hər sözünü əzbər bilirdim. Atam da hər dəfə diqqətlə, sanki birinci dəfə baxırmış kimi toya əvvəldən-axıra tamaşa edirdi.

Bir dəfə nəsə kasseti tez qabağa fırlatmaq istədim. Üstümə qışqırdı. Əvvəlki vəziyyətinə qaytartdı.

- Ay papa, o vaxt mən deyəndə heç razılaşmırdın. İndi isə özün baxmaqdan doymursan.

- Yox, yaxşı şeymiş bu kasset. Gör,  toydan on il keçib. Hər il baxanda sayıb görürəm ki, orda iştirak edənlərdən neçəsi ölüb gedib. Mən isə sağ qalmışam. Təsəlli tapıram ki, hələ də sağam. Sən düz deyirmişsən, toyu kassetə çəkdirmək yaxşı şeymiş. Adama böyük ürək-dirəkdir.

# ATAM QABİLİN "DƏRS"İ

Yox, bu "dərs" o dərsdən deyil. Görmüşük ki, ata oğluna nəsihət edər, başına ağıl qoyar, düz yol göstərər, lazım olsa qulağını çəkər, lap kötəkləyər də... Amma atam mənə "dərs" verdi. Düzdür peşman deyiləm. Amma hər dəfə məndən təəccüblə soruşanda ki, "Mahir, sən babasan? Dörd nəvən var? Neçə yaşın var ki?". Cavab verirəm ki, "mən 43 yaşından babayam". O saat ikinci sual gəlir: "Yəqin tez evlənmisən?". Cavab verirəm ki, "Hə. 21 yaşında. Amma evlənməmişəm. Evləndiriblər".

Söhbət burda bitsə də, o saat bir əhvalat yadıma düşür. Dünən də həmkarım "Milli Məclis" jurnalının baş redaktoru Ülviyyə xanım bu sualı verəndən sonra qərara aldım ki, bu yazını yazım. Bəlkə siz də uşağınızı düzgün tərbiyə etmək üçün Qabilin bu metoduna əl atdınız. Amma inanmıram. Çünki texnika indi çox inkişaf edib. Ancaq o vaxt belə deyildi. Hər evdə telefon yox idi. Bizim evdə isə vardı. İnsanlardan bir iş telefonunu, bir də ev telefonunu soruşardılar. İş telefonlarını da idarələrdə kommutator sistemində qururdular ki, əməkdaşlar telefondan çox "asılmasınlar".

Ev telefonları isə azad idi. Danış nə qədər danışırsan. Müasir gənclər "feysbuk"dan, elektron poçtdan, SMS-dən, "vatsap"dan, bir sözlə cib telefonundan, planşetlərdən necə "asılırlarsa", mən də o vaxt telefon xəstəsiydim. Evdə tək olan kimi dəstəyi götürüb zəng edirdim. Kimə? Onu soruşmazlar. Əlbəttə ki, qızlara. Başlayırdıq söhbətə. Bəzən dəstəyi pianinoya yaxınlaşdırıb onlar üçün Sezen Aksunun repertuarından

"Minik sərçə", "Məhəbbətin vida mahnı"larını da ifa edirdim. Telefonun dili yüyrək olar deyib atalar. Hiss etmirdim ki, bir saat necə keçib. Bir də görürdüm ki, qapının zəngi çalınır. Açırdım. Qapıbir qonşumuz Bayram Bayramovun həyat yoldaşı Zümrüd xalaydı qapını döyən: "Ay Mahir, atan bizə zəng eləmişdi. Deyir bir saatdır evə zəng vururam "zanitdir". Mahirə denən telefonu qoysun yerə". Geri qayıdıram. Sağollaşıb dəstəyi qoyuram yerinə. Həmən zəng çalınır. "Mahir, bu nədir. Bir saat da telefondan "asılmaq" olar? Bəsdir də...".

Düz deyir. Bunu indi başa düşürəm. Onda isə hələ uşaq idim. 20 yaşım vardı. Sözlər telefon dəstəyini yapışdırdığım qulağımdan girir, o biri qulağımdan uçub gedirdi havaya. Ertəsi gün yenə eyni mənzərə. Telefon yenə qulağımda, yaxud da pianinonun üstündə. Yenə qapının zəngi basılır. Bu dəfə qonşumuz Əmir Mustafayevin qızı Samirədir. Yenə həmin sözlər: "Ay Mahir, atan bizə zəng eləmişdi. Deyir bir saatdır evə zəng edirəm "zanitdir". Mahirə denən telefonu qoysun yerə". Həmən dəstəyi yerinə qoyuram. Zəng çalınır. "Mahir, bu nədir. Bir saat da telefondan "asılmaq" olar? Bəsdir də...".

Atam deyir, mənsə cavab qaytarmasam da, sözlərinə əhəmiyyət vermirəm.

Uşağam axı?! 20 yaşım var. İki illik əsgərliyimi çəkmişəm. Universitetin 4-cü kursunda oxuyuram. Kommunist biletim də ki, cibimdə.

Bu mənzərə az qala hər gün təkrar olunur. Atam utandığından ayrı-ayrı qonşulara zəng edib qapımızı döydürür. Utana-utana. Amma mən utanmıram. Telefonla danışmağımda davam edirəm.

Günlərin bir günü isə atam hər gün təkrar etdiyi "telefonla az danış" sözlərini demədi. Sadəcə bir cümlə dedi: "Səni evləndirərəm, ağlın gələr başına". Başa düşmədim bu sözləri. Axı evlənməyin telefonla danışmağa nə dəxli? Bilirsiniz niyə başa düşmədim? Çünki uşaq idim. 20 yaşım vardı. Uşaq olduğum üçün də məni evlənməyə razı salmaq çox asan oldu. Namizəd isə çoxdan hazır idi. El adətincə elçi getdilər, nişan

qoydular, toy çaldırdılar. Mən oldum evli bir adam. Sonra bir qızım oldu, sonra o birisi. Telefondan nəinki asılmırdım, heç yadıma da düşmürdü. Pianino çalmağı da yadırğamışdım. Qonşularımızın da canı dincəlmişdi. Atam da artıq "Telefondan az "asıl"" sözlərini demirdi. Gülə-gülə, mənə yaxşı "dərs" verdiyinə sevinmiş kimi iki misra şeir oxuyurdu. Öz yaradıcılığından yox. Şair  Abbas Səhhətdən:

*Ürəyimdə daha yox qönçə dodaqlar dərdi,*
*Vardır ev dərdi, qadın dərdi, uşaqlar dərdi.*

# DİVARIN QULAĞI

Uşaqlıqda atamdan, böyüklərdən bir sözü tez-tez eşidirdim – "Divarın da qulağı var". Uşaq ağlımla fikirləşirdim ki, bunlar nə danışır? Divarın da qulağı olar? Zaman keçdi. Böyüdüm. Bu ifadənin məcazi mənada işləndiyini anladım. Amma başa düşmədim ki, bəs sovet vaxtı divarın "qulağı" vardısa, bəs "gözü" necə, var idimi? Sonra başa saldılar ki, demə "göz" də varmış. Əvvəllər beş-altı otaqlı mənzilin hər otağına bir ailə yerləşdirirlərmiş ki, qonşular bir-birinə həm "göz", həm də "qulaq" olsun. Hamam, tualet, mətbəx məsələlərinəcən. Adına da "kommunalka" mənzillər deyirlərmiş.

Sonralar isə hər ailəyə inkişafın göstəricisi olaraq ayrı-ayrı mənzillər verilməyə başladı. Amma binaları tikəndə mənzilə girişi balkonlardan qoyurlarmış ki, həyətdən hər şey görsənsin. Qoca "babuşkalar" da bekar-bekar həyətdə oturub bütün mərtəbələri güdürlərmiş. Kimin evinə kim gəldi, kim kiminlə dalaşdı, kim evə nə qədər bazarlıq etdi. Hətta qabağına torba qoyub, tində əyləşən semiçka satanlar da "göz" sayılırmış. Bu cür insanlar da sahə müvəkkilləri ilə dost imişlər. Binada nə baş verdi milisin, sahə müvəkkilinin ovcundaymış.

Onda uşaq ağlıyla maraqlandım ki, bəs ağız necə, o da var? Dedilər ki, varmış. Ciddi bir pozuntu olanda milis NKVD-yə xəbər verirmiş. Onlar da gəlib gecəylə həmin adamı udurlarmış. Sümükləri isə ya Sibirdən, ya da Nargin adasından tapılırmış.

Vaxt keçdi Stalinka layihəli evlər tikməyə başladılar. Qalın divarları "qulağ"ı, qapalı bloku isə "göz"ü yığışdırdı. Amma

Leninqrad və Kiyev layihələri panel binaları tikəndə xüsusi beton divarlar fikirləşdilər ki, qonşu mənzilində asqıranda divarın o biri tərəfində aydın eşidilsin. Qonşuya lazım olsa da, olmasa da. Xırda dinləmə çihazları, balaca fotoaparatlar isə yalnız xüsusi xidmət orqanlarına, yəni ki, KQB-yə məxsus idi.

İndi isə vəziyyət tam dəyişib. Qeybət, dedi-qodular erası başa çatıb. Rəfiqə əgər rəfiqəsinin ərini başqa qadınla restoranda, ya da kafedə görürsə, cib telefonunu götürüb rəfiqəsinə zəng edir. O da cavabında azərbaycansayağı buna inanmır. “Ola bilməz. Mənim ərim məni çox sevir. O mənə xəyanət etməz”. Rəfiqə isə nə and içir, nə də bir şey. Telefonun fotoaparatını götürüb xalxın ərinin o başqa qadınla şəklini çəkir, ordan da ötürür ya “vatçap”a, ya da “feys”ə. 20 saniyədən sonra kişinin telefonuna zəng gəlir. O da nə desə yaxşıdır? “Arvad, işdəyəm. Gəlirəm”. Yox, söhbət bununla bitmir. Ərin dediyi yalanları rəfiqə səsiylə çəkir telefonun kamerasına. O saniyə də göndərir xəyanətkar ərin arvadına. Sözümün canı budur ki, bizim insanlara bu çevikliyinə görə dünyanın ən güclü dedektivləri, casusları belə həsəd apara bilərlər.

Biz jurnalistlərə də bu lazımdır da. Ölmürük belə xəbərlərçün? Məsələn: “Kişi arvadının başını kəsdi - DANQ”, “Boşanmaların sayı artır - DANQ”, “Arvad əri yatarkən onun cinsiyyət orqanını kəsib - DANQ”. Danqıldadırıq özümüzçün nə qədər istəyirsən. Ona görə də hamı başlayıb özünü yaxşı aparmağa. Evdə də, eşikdə də...

Çünki müasir dövrümüzdə gözlə qulaq birləşib. Hər tində, evdə , binalarda, obyektlərdə, keçiddə, metroda , bir sözlə hər yerdə quraşdırılan müasir kameralar həm gözdür, həm qulaq. Qalmışdı bircə avtomobil. Ona da çarə tapıldı. Eşitməmiş olmazsınız, bu yaxında yeni DYP maşınları gətiriblər. Nəinki kompüteri var, hətta digər avtomobilin yanından keçəndə şəklini çəkir. Çəkmək bir yana fotonu cərimənin məbləğiylə birlikdə göndərir telefonuna. Ona görə də maşında “levi mal” gəzdirmək zamanı da bitdi.

Çox maraqlıdır, "divarın" "qulağ"ı da, "göz"ü də, "ağzı" da var. Bəs "burnu"? Nə vaxtsa yəqin ki, bu da olacaq. Amma inanmıram ki, bizimkilər bunu aparatlara həvalə edə. Çünki bir çoxları "havanı yaxşı iyləyir", bir çoxları isə sürücülərin ağzını.

# BİZİM SYOMA – AKİF MƏCİDOĞLU

Sizə nəzəriyyə dərsi keçməkdən uzaq olsam da, Azərbaycan jurnalistləri özlərini müxtəlif sahələrə bölürlər. Biri deyir qəzet-jurnal jurnalistiyəm, o biri deyir telejurnalistəm, reportyoram, jurnalist-aparıcıyam. Hələ yeni yaranan sayt, internet televiziya, radio jurnalistikasını demirəm. Bütün bu sahələrin içində AzTV-nin "Xəbərlər" redaksiyası tam fərqlənir. Burada əzəldən elə bir qayda təsdiq olunub ki, istəyirsən sədr dəyişsin, baş redaktorlar bir-birini əvəzləsin, Arif Alışanov kimi köhnələri çıxarıb yerinə təzələrini gətirən gəlsin - xeyri yoxdur. AzTV-nin "Xəbərlər"i Azərbaycan jurnalistikasının ayrıca, tədqiq olunmayan, heç kimin də dəyişdirə bilməyəcəyi bir sahədir. Bu gün də "Xəbərlər" proqramına baxanda mən özümü orada – çəkilişdəmi, montajdamı, bir sözlə iş prosesində hiss edirəm. Mahiyyətcə heç nə dəyişməyib. Dəyişən insanlar, texnika, avtomobildir. İlk baxışdan  və mənim yazdıqlarımı oxuduqdan sonra deyəcəksiniz ki, "Xəbərlər"də işləməyə nə var ki?

Əsla. Kənardan nə qədər bəsit və sadə görünsə də, AzTV-nin "Xəbərlər"i çox qəliz, özünəməxsus daxili ziddiyyətləri olan, mürəkkəb iş şəraitli bir redaksiyadır. Çünki özüm 11 il bu qazanın içində qaynamışam və çox şadam ki, həm də bişmişəm. Mən tək deyiləm. Biz çoxuq. Siyasi cəhətdən yetkin, senzurası qanında olan, hadisələrə açıq gözlə baxan, tamaşaçıya çatdıranda xəsisliyə yol verən, bir gözünu korluğa, bir qulağını karlığa vuran "Xəbərlər" redaksiyasının işçiləri bu gün də müxtəlif sahələrdə aparıcı qüvvəyə malikdirlər.

Çox şeyləri görüb şahidi olublar, lentin yaddaşına köçürüblər. Lentləri televiziyanın arxivinə, gördükləri hadisələri isə yaddaşlarının heç vaxt açılmayacaq arxivlərinə göndəriblər. İçərilərindən bir az ərköyünü mən çıxmışam. Hərdən "arxivim"dən oğurluq edib yayımlayıram.

Deyirlər ki, AzTV məktəbdir. Bütün özəl televiziyalar onun "şinelindən çıxıblar". AzTV-nin "Xəbərlər"i isə xüsusi məktəbdir. Hər adamı bu məktəbə götürmürlər. Hər adam da burda çox tab gətirib işləyə bilmir. Burda jurnalistə tələbə kimi aldığı təhsilin praktikasını yox, yazılmayan qanunları öyrədirlər. Birinci yazdırırlar, sonra isə artıq sözləri də özünə pozdururlar. Bilirsinizmi niyə?  Ona görə ki, özün başa düşəsən, nəyi yazmaq olar, nəyi olmaz.

Mən 30 yaşlı Mahir də 1996-cı ildə gəlib bu kollektivə düşdüm. Sizcə "Xəbərlər"in Sakit Ocaqlı, Akif Məcidoğlu, Gülsəfa Əhmədova, Qərənfil Xəlilova, Mülatif Adurov, Akif Təvəkküloğlu, Bahadır Şəfi, Əli Nəcəfxanlı, Esmira Çərkəzqızı, Natiq Abdullyev, Azad Müzəffərli kimi oturuşmuş, öz iş manerası olan jurnalistləri arasında o günəcən jurnalistikanın nə olduğunu bilməyən mən nə etməliydim?

Əlbəttə ki, Lenin demişkən "Öyrənmək, öyrənmək, yenə də öyrənmək". Hərəsindən azca bir şey götürə bilsəydim qiymətim olmayacaqdı. Amma onlardan əsasən ikisinin iş üslubu mənə daha doğma gəldi. Hər ikisinin 60 yaşı tamam olur. Hər ikisinə bir təbrik-məqalə borcum olacaq. Biri ilin əvvəlində, o biri sonunda. Akif Məcidoğlu martda anadan olduğu üçün Sakit Ocaqlıdan qabağa düşdü.

## AKİF MƏCİDOĞLU KİMDİR

Xırdalıqlara çox da varmayım. Hamı kimi o da orta məktəb bitirib. Əsgərlikdə olub. Ali təhsil alıb. Evlənib. Və nəhayət Azərbaycan Televiziya və Radio Verilişləri Dövlət Komitəsinə işə düzəlib. Yox, elə bilməyin ki, ora göydən düşüb. Atası Məcid kişinin görkəmli dövlət xadimi Əziz Əliyevlə doğma

əmioğlu olması şəhər yerində Akifin dadına çatıb. Əziz Əliyevin bacısı oğlu, o vaxt nazir vəzifəsində çalışan Qurban Əliyevin qohumbazlıq tapşırığı ilə onu əvvəlcə radioya, sonra isə ştatdankənar çalışdığı AzTV-yə işə, yəni ştata götürüblər. Yox, böyük vəzifə almayıb. Əvvəl filmotekada, sonra dublyajda və başqa redaksiyalarda ilk addımlarını ataraq nəhayət "Xəbərlər"in müxbiri olub. Amma mənim ona müxbir deməyə dilim gəlmir.

XÜSUSİ TAPŞIRIQLAR ÜZRƏ...

Dövlət sistemində belə bir ifadə var. "Xüsusi tapşırıqlar üzrə... ". Akifi əsasən başqalarının yarıda bilməyəcəyi çəkilişlərə göndərirdilər. O yerlərə ki, başqaları gedəndə kamerasını sındırıb, üz-gözünü əzişdirirdilər. Akif ora sağ gedib, salamat qayıdırdı. Hələ üstəlik tənqidi süjetini verib, aləmi də bir-birinə qatırdı. O, jurnalistdən çox reportyor idi. Risk etməyi xoşlayırdı. Bəlkə xatirələrə daha çox yer verim, sizə də maraqlı olsun.

TƏRƏZİNİN DAŞI BAŞIMIZA DƏYSƏYDİ...

Standartlaşdirma, Metrologiya, Patent üzrə Dövlət Agentliyi təzə yaradılmışdı. İlk növbədə ticarət obyektlərində tərəzidə aldatmalara son qoyulmalıydı. Yəni ki, elektron tərəzilər tətbiq edilməliydi. Xüsusilə də bazarlarda. Amma proses çox ağır gedirdi. Ona görə də Agentliyin rəhbərliyi bizə müraciət etdi. ( Niyə "bizə" yazdım? Çünki AzTV-də işlədiyim11 ilin son 6 ilini mən Akif müəllimlə ruslar demişkən "naparnik" olmuşam).

Səhər tezdən getdik Agentliyə. Sədr Xalidə Məsimova məsələnin ciddiliyini bizə izah elədi. Yəni ki, tərəzi daşlarının çəkisini azaltmaq üçün içini oyub mum doldururlar, plombu qırıb tərəzinin içərisində "xüsusi əməliyyatlar" keçirirlər. Bir sözlə müştərini çəkidə aldadırlar. Biz də bunları Agentlik

işçiləriylə aşkar edib kameraya çəkməli və göstərməliydik. Mindik maşınlara. Hara gəlsək yaxşıdır? Akiflə hər gün işdən sonra bazarlıq etdiyimiz, evimizin yanındakı Təzə bazara. Akif bir mənə baxdı, bir də operatora. Operator dedi ki, "zəng elə icazə al. Bu yaxında kameranın birini burda balıqsatanlar sındırıb. İcazə almasan girməyəcəyəm bazara". Biz də yaxşı bilirdik ki, icazə alsaq, gərək geri qayıdaq. Agentliklə də bütün əlaqələri kəsək. Çünki adımızı qorxaq qoyacaqdılar. Bir təhər operatorumuz Çingiz Orucovu yola gətirdik. Qabaqda Akif - əlində mikrafon, ortada operator, arxada isə mən və agentliyin işçiləri. Onlardan bircə xahişimiz oldu ki, dava düşsə kameraya ziyan dəyməyinə imkan verməsinlər. Yoxsa pulunu onlara ödətdirəcəyik. Bu da nə az, nə çox 15-20 min dollar edir.

Gəldik dayandıq bir narsatanın yanında. Agentlik əməkdaşları hansı tərəzi daşını götürdülərsə, gördülər ki, içi oyulub. Bunu Akifə izah edə-edə müsahibə verirdilər. Satıcılar da bizi dövrəyə alıb qulaq asırdılar. Amma cınqırları çıxmırdı. Birdən Akif mikrafonu narsatana çevirib "niyə camaatı aldadırsan?" sualı vermişdi ki, satıcının dəliliyi tutdu. Ən böyük tərəzi daşını əlinə götürüb başladı üstümüzə qışqırmağa ki, bəs "rədd olun! Yoxsa bunu çırpacam təpənizə". Bir an sakitlik yarandı. Bu vaxt isə gördük ki, başında buxara papaq olan yaşlı bir kişi, əlindəki əsanı yellədə-yellədə, söyə-söyə gəlir düz üstümüzə. Dedim ki, "vsyo, batdıq. Kamera nədir? Bizi də "spisat" edəcəklər". Yaşlı kişi Akifə yaxınlaşanda əsanı qaldırıb Akif müəllimə yox, narsatana bir dənə qoydu. Əlindəki daşı alıb "Alə, sən Akif müəllimə əl qaldırırsan? Bu daşı çırparam başına, onda bilərsən ki, Akif müəllimə əl qaldırmaq nə deməkdir?" dedi. Dərindən nəfəs aldım. Sonra da göstəriş verib, bir adam da ayırdı ki, bizi müşayiət etsin. Çəkilişimizi rahatcana eləyə bilək.

Akifi isə bu süjetə görə tərifləmək əvəzinə, yaxşıca məzəmmət elədilər. Təzə bazar isə elektron tərəzi sisteminə keçənlər sırasında ilk oldu.

## "NOVOSTROYKA" SÖZÜ

Böyük məsuliyyətlə və fərəhlə deyə bilərəm ki, "novostroyka" sözünü Akiflə mən dəbə salmışıq. Necə? Deməli Bakıda sovet vaxtından hasara alınmış, nəzarətsiz sahələr, yarımçıq qalmış tikintilər vardı. Zibilxanaya çevirmişdilər. Nə yiyə duran vardı, nə də bir şey tikən. Çəkilişimizin adını "Yarımçlq tikililər" qoyub icazəni aldıq. Birinci getdik Hüsü Hacıyev küçəsinə, Passaj bazarının böyründəki hasara alınmış zibilxana, antisanitariya mərkəzinə. Rahatca çəkdik. Verdik efirə. Səhəri qırğın düşdü. "Qırğın" bizim leksikonumuzda "reaksiya oldu" deməkdir. Bir də gördük ki, başladılar ərazini təmizləməyə, bünövrə qazmağa. Yenə getdik çəkdik. Adını da qoyduq "tənqiddən nəticə". Ordan yollandıq Ayna Sultanovanın heykəlinin arxasındakı hasara alınan əraziyə. Oranı da çəkdik. Iki gün keçmədi ki, orada da zibillikdən əsər-əlamət qalmadı. Yerində iki dənə "novostroyka" tikməyə başladılar. "Azərbaycan Televiziyasının tənqidindən nəticə çıxartdılar" adı ilə gedib o ərazidən daha bir süjet də hazırladıq. Ordan getdik Fətəli xan Xoyski küçəsi, İdman Akademiyasının yanı, Sərhəd Qoşunlarının hospitalı ilə üzbəüzdəki yarımçıq tikiliyə. Çəkdik verdik. Orda da iki müasir bina ucaltdılar. Nə isə beləcə başladıq Bakımızı gözəlləşdirməyə. Üç otaqlı, 120 kv.m-lik mənzil 18 min dollara idi. Hamısı da təklif edirdi ki, siz də hərəyə aşağı qiymətlə bir mənzil götürün. Pulunu da tikə-tikə ödəyərsiniz. Heyf ağlımız olmadı. Yoxsa bu dəqiqə Akifi "Syoma" yox, milyoner Akif, məni də evdar kişi yox, milyoner Mahir çağırardılar. Mövzudan kənara çıxmayım.

Bakıda tikilməyə başlayan bu evlərdəki mənzillər bir ilə başa gəlməklə elə bünövrədən də alınırdı. Ona görə də gəlirli sahə sayılaraq tikinti bumu başladı nə başladı. AzTV-nin bu süjetləri Prezident Heydər Əliyevin də xoşuna gəlmişdi. Çıxışlarının birində verdiyi qiymət bizi daha da ruhlandırdı. Rəsmi olmasa da, özümüzü Bakı şəhər İcra Hakimiyyəti başçısının

ştatdankənar müavinləri hiss etməyə başladıq. Antisanitariya mərkəzləri, küçə ticarəti, qanunsuz tikililər, bərbad yollar, əhalidən gələn şikayətlər, ağacların kəsilməsi. Bu barədə nə məlumat olurdusa, bizə zəng edirdilər. Dost-tanışların sayı çoxalırdı. Əlbəttə ki, tənqidi süjet efirə gedəndən sonra. Atalar "Qanı suyla yuyarlar" deyib. Biz isə tənqid etdiyimiz, bizdən inciyən adamlarla incikliyimizə yemək-içmək məclisi arxasında son qoyurduq.

NAHİD KABAKÇI

Nahid Kabakçı adlı bir türk iş adamı (Allah rəhmət eləsin) vardı. Köhnə avtovağzalın yerində tikilən "Natəvan" mərkəzinin sahibi idi. Müxtəlif gözəllik yarışmaları keçirirdi. Günlərin bir günü Akif dedi ki, "bəs Nahid Kabakçı zəng etmişdi. Bizi çağırır, özü də kamerayla". Getdik. Gördük ki, ağlamağa qalıb. (bir az artistliyi vardı). Demə hara müraciət edibsə, mərkəzə bitişik, daha doğrusu Mehdi Hüseynzadənin heykəli yerləşən bağla bunun idarəsinin arasında olan bərbərxana köşkünü götürmürlər ki, götürmürlər. Əraziyə nəzər yetirdik. Gördük ki, doğurdan da budka yeri deyil. Çəkdik. Səhəri zəng gəldi:

- Akif, sən böyük adamsan. JEK-ə dedim xeyri olmadı, İcra Hakimiyətinə dedim qulaq asmadılar. Sən televizorda üç kəlmə dedin, budkanı götürdülər. Sən icra başçısından da böyük adamsan. Gəl gözləyirəm səni...

AzTV-NİN "QƏNİRƏSİ"

Üz tutmuşduq Suraxanı rayonuna. Getdik birbaşa Suraxanı rayon İcra Hakimiyyətinə. Natiq müəllim bizi böyük hörmətlə qarşıladı. Çəkiliş etmək qərarımızı dedik. O da telefonu götürüb kiməsə zəng elədi.

- Akif müəllim gəlib. Yanımdadır.

- ........

- Hansı Akif müəllim? AzTV-nin Qənirəsi. (ANS-çi Qənirə Paşayeva nəzərdə tutulur- red.).

- Nə Qənirə, Natiq müəllim. Qənirə xanım ANS-in Akifidir.- deyə Akif ondan əvvəl televiziyada işlədiyinə işarə etdi. Gülüşdük. Amma bu sözün cəriməsi iki qat oldu.

İkisi də gözəl jurnalistimizdir. Həm Akif Məcidoğlu, həm də Qənirə Paşayeva. Bir mənfi məsələ aşkar etdilərsə, sonunacan getməliydilər.

## ÜÇ AKİF

"Xəbərlər"də Akif adlı üç redaktor vardı. Biri bizim Akif Məcidoğlu, biri Akif Təvəkküloğlu, o biri də Akif Cabbarov. Bəzən onları səhv salırdılar.

Günlərin bir günü "tufan qopdu". Xoşbəxtlikdən həmin gün çəkilişimiz olmamışdı. Amma sədrimiz Nizami Xudiyevə zəng edib şikayət etmişdilər ki, bəs Akif Abşeronda çəkiliş edib. Özü də ki, tənqidi ruhda. Abşeron rayonu Bakıya yaxın olsa da çəkiliş etmək zona müxbirinin səlahiyyətlərinə daxil idi. Bizim ora getməyə ixtiyarımız yox idi.

Nə isə Akifi çağırdılar sədrin otağına. Orda nə qədər and-aman edibsə Nizami müəllimi inandıra bilməyib.

Bir də gördük ki, qapı açıldı. Akif Cabbarov əlində mikrafon girdi içəri. Qeyri-iradi soruşduq ki, hardan gəlirsən? Dedi ki, Binəqədi rayonundan. Soruşduq ki, birdən Abşerona gedib eləyərsən a... Dedi ki, yox e, sən nə danışırsan? Binəqədi rayonunda ekoloqlarla çəkiliş edirdim.

Xülasə. Nə qədər elədilərsə tapa bilmədilər ki, Abşeron rayonuna icazəsiz kim gedib. Amma gedən müxbirin adı Akifdir ki, Akif.

Uzun araşdırmalardan sonra aydın oldu ki, Cabbarovun çəkdiyi Binəqədi rayonundakı ərazi Abşeronla həmsərhəd imiş. Yolun bir tərəfi bir rayon, o biri tərəfi də o biri rayon. Ekoloqlar da bunu bilmədən Abşeronun ərazisini Binəqədi adıyla Akifə çəkdiriblər. Abşeronun o ərazisinə də məsul şəxs

də nə qədər dil töksə də Cabbarovu, ekoloqları yola gətirə bilməyib. İşini ehtiyatlı tutaraq qaçıb icra başçısının üstünə ki, "Aman qoyma, Akif bizi çəkdi". Amma familiyasını öyrənməyi yadından çıxarıb.

Söhbət bunda deyil. Akif Məcidoğlu tənqidi süjetlərdə o qədər ad çıxarmışdı ki, icra başçıları, elə AzTV-dəkilər də Akif adı eşidəndə yalnız onu nəzərdə tuturdular.

## NİZAMİ XUDİYEV VƏ ARİF ALIŞANOVUN BULVAR GƏZİNTİSİ

"Xəbərlər"də gecə növbətçisiydim. Qış vaxtı olsa da hava sakit idi. Saat 23.00 radələri olardı. Bir də gördüm ki, sədrin köməkçisi hövllü girdi otağa.

- Mahir, tez elə kameranı götür, düş Bulvara. Yolüstü Akifi də evdən götür. Nizami müəllimin tapşırığıdır.

Tez operatorla girdik sədrin qəbul otağına. Növbətçi üçün kameranı, mikrafonu orda qoyurdular. Amma Nizami müəllim yerində yox idi. Əlimlə işarə etdim ki, bəs şef hanı?

- Nizami müəllim yoxdur. Ariflə (Arif Alışanov –sədr müavini) Bulvardaymışlar. Saat 22.30-da işıqları söndürüblər. Bulvar qara zülmətə bürünüb. Nizami müəllim də əsəbləşib ki, bəs bu nə deməkdir? Əhali dincəlməyə gəlir, bunlar da işığı söndürürlər. Zəng elədi ki, növbətçi kimdir? Dedim ki, Mahir. O da dedi ki, tək getməsin, Akifi də evdən götürsün.

Maşına minib üz tutduq Lenin muzeyinin qabağına. Akif artıq burda bizi gözləyirdi. Deyinə-deyinə mindi maşına. Dediyi iki mərtəbə, üç mərtəbəli sözləri yazmağa ehtiyac duymuram. Yəqin özünüz başa düşərsiniz. Akifin çox gözəl söyüş leksikonu var. Başladıq çəkilişə. Çəkiliş də ki, nə çəkiliş. Qaranlıq kadrlar. Güclə tapdığımız bir-iki dincələndən də narazılıq rəyləri. Ki, Bulvar niyə qaranlıqdır.

Səhv etmirəmsə 2003-cü il idi. Bakının elektrik şəbəkəsinə də "Barmek" rəhbərlik edirdi. Çəkilişi edib qayıtdıq işə. Oturdum kompüterin arxasına ki, yazım. Akif də tələsdirir ki, "bəs

dejurnı sənsən. Mən də sənin zibilinə düşüb yuxusuz qalmışam. Tez yaz qurtar, montaj eləyək çıxım gedim". Yazdım. Sona çatanda ilişdim.

- Akif, Bulvarın qaranlıq olmasında təqsirkar kimdir? Kimi yazım?

- Necə yəni kimi? Bulvar hara baxır?

- Bakı şəhər İcra Hakimiyyətinə.

- Onu da yaz!

- Bəs "Barmek"?

- Bura bax, uşaq-zadsan. "Barmek" nədir, Arabul kimdir Hacıbalanın yanında. Hacıbala müəllim desə ki, "söndür!", o da söndürəcək. Deyəcək "söndürmə!", o da söndürməyəcək. Arabul böyük-adam-zad olub mənimçün.

- Akif "Bakı şəhər İcra Hakimiyyəti hara baxır görəsən?" yazdım. Hacıbala müəllimin də adını yazım?

- Yaz.

- İnciyəcək axı?

- Əksinə. Yazmasan inciyəcək. Deyəcək ki, idarənin adını çəkmişik, amma onun adını çəkməmişik.

- Yaxşı. Deməli belə bitirirəm. "Yəqin ki, Azərbaycan televiziyasının bu tənqidi süjetindən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov lazımi nəticə çıxaracaq". "Vsyo?".

- Nə "vsyo"? Bəs bizim sevimli sözümüz?

- Yadımdan çıxdı ye.

- Eybi yox. Özüm əlavə edərəm. "Mövzunu davam etdirəcəyik".

Səhər açıldı. Günortaya yaxın biz artıq Hacıbala müəllimin kabinetindəydik. Akifin xətrini çox istəyirdi. Mənəsə əyri-əyri baxırdı. Amma atama görə dinmirdi. Bilirdi ki, sözləri kağıza mən düzmüşəm. Adımı "ilana zəhər verən kərtənkələ" qoymuşdu. Akifdə təqsir görmürdü.

Söhbət başlandı.

- Akif, bax şəhərdə bu qədər iş görürəm. Bir dəfə gedib çəkib təriflәmisən məni?

- Yox.
- Ağac əkirəm, yaşıllıqlar salıram. Bir dəfə adımı çəkmisən?
- Yox.
- Yolları düzəldirəm, antisanitariya ocaqlarını ləğv etmişəm. Bir dəfə qeyd etmisən?
- Yox.
- Bəs nə oldu ki, yuxuna haram qatıb gecə saat 12-də, bu soyuqda çıxdın Bulvara? Nədir, nədir işıqları söndürüblər. Sən bilmirsən ki, işıq məsələsinə "Barmek" baxır?
- Bilirəm.
- Bəs niyə onu tənqid etmirsən?

Akif susdu. Üzünü mənə çevirərək "Mahir, "vot"... indi bildin?" dedi. Daha arxasını gətirə bilmədi. Nə desin? Nizami müəllimin adını çəkə bilərdi? Mən isə ümumiyyətlə danışmırdım. Göstərişin kimdən gəldiyini, məsələnin necə olduğunu desəydik, gərək ərizəmizi yazıb işdən çıxaydıq. "AzTV and"ına sadiq qalıb "Vətən sirri"ni açmadıq. Heç işgəncə-zad da vermədilər. Hacıbala müəllim isə müsahibə verdi. Dedi ki, "gözəl Bakımızın gözəl Bulvarı bundan sonra rəngbərəng işıqlarıyla bərq vuracaq. Paytaxt sakinlərinin, qonaqların sevimli istirahət yerinə çevriləcək". Vəssalam. Otaqdan çıxdıq. Akifin birinci sözü nə olsa yaxşıdır?

- Mahir, sənə demişdim axı, "Barmek"i də ora əlavə elə. "Tak je nelzya". Məni də "podvodi"t elədin kişinin yanında.

Heç nə demədim. Sadəcə qızardım.

## CƏRRAHİYYƏ ƏMƏLİYYATI VƏ ZİBİLLİK

Akifin öd kisəsinin axarını daş tutmuşdu. Təcili cərrahiyyə əməliyyatı elədilər. Korobka şokolad alıb getdim yanına baş çəkməyə. 5 nömrəli xəstəxananın 4-cü mərtəbəsində yatırdı. Məni gördü üzü güldü. Elə bildim ki, darıxıb mənimçün. Kömək elədim bir təhər ayağa qalxdı. Həqiqət xanım çiyninə jaket atdı. Bir əliylə qolumdan tutdu, o biri əlində də böyründən sallanan sidik torbası... çıxdıq dəhlizə. Dedim ki, bəlkə

gəzməyəsən, başın gicəllənər. Dedi ki, “yox narahat olma. Burda bir şey görmüşəm. “Prosto ujas””.

On addım dəhlizin başına addımlayıb yaxınlaşdıq pəncərəyə. Uzaddan nəsə göstərib:

- Görürsən?

- Yox. Nəyi?

- “Kosoy” gözüvü. O boyda zibilliyi görmürsən?

- Harda?

- Erməni qəbiristanlığının yanında. Yarımstansiyanın böyründə.

- Hə..... gördüm.

- İndi burdan çıxarsan. Gedib öyrənərsən maşın yolu hardandır. Hansı rayona baxır. Çıxan kimi gedib çəkərik. Əla stəndap alınacaq. Vallah ayıbdır e... Xəstəxananın da böyründə bu boyda antisanitariya mərkəzi olar? Tak je nelzya…

Gedib zibilliyə baxdım. Nərimanov bələdiyyəsinə yaxın bir yerdə bu boyda zibilliyin olmasına düzü inanmadım. Hündürlüyü üç adam hündürlüyündəydi. Üstündən üç gün keçdi. İşə zəng gəldi. Akif idi. “Kameranı da götür gəl gedək” dedi. “Hara?” deyə soruşdum. “Ora. Tez elə. Yoxsa yığışdırarlar. Çatdırmarıq”.

RAF-a minib Akifi də evdən götürdüm. Çəkdik. Aləm dəydi bir-birinə. Düzünü desəm, əlli “Kamaz” zibil daşındı ordan. Hardan bildim? Kafedə işləyən yaxın qohumum zəng edib söydü məni. Dedi ki,” bizi də zibilə saldız. Dörd “Kamaz”ın pulunu İcra Hakimiyyəti bizdən aldı. Qalanlarını da qonşu obyektlərin boynuna qoydu. Bizim təqsirimiz nə idi?”.

Qohumun sözlərini Akifə də çatdırdım. O da Ekologiya naziri Hüseynqulu Bağırovun sözlərini təkrar etdi: “Vətəndaşlar, gəlin çevrəmizi təmiz saxlayaq!”.

## MAHİR, İNDİ MƏNİ BAŞA SAL...

Hansısa tədbirdə çəkilişdəydik. Çıxanda Akifə dedim ki, bəs evə batareya lazımdır, bir-iki də başqa şey. Ticarət

mərkəzindən alıb gəlirəm. Operator da kamerasıyla qoşuldu mənə. O da corab almalıydı. Girdik böyük ticarət mərkəzinə. Başladıq gəzməyə. Akif isə getdi maşına. Hamı bizə baxırdı. Daha doğrusu üstündə AzTV yazılan kameraya. Birdən satıcılardan biri adımı soruşdu. Mən də operatora göz vuraraq "adım Akifdir" söylədim.

İstədiyimizi tapıb aldıq. Qayıtdıq maşına. Yerimizə oturmuşduq ki, birdən Akifə zəng gəldi.

- Salam. Mənəm nazir müavini ........

- Ay əleykmə salam.

- Ticarət Mərkəzinin yanında nə gəzirsiz?

- Siz hardan bildiniz?

- Biz hər şeyi uzaqdan görürük. Oranın müdiri qardaşımızdır. İndi sənə zəng edəcək. Nə çəkmisən, poz getsin. Elə bil ki, ora sənin öz obyektindir.

Akif danışığını bitirdi. Üzünü bizə tutub:

- Neyləmisiz içəridə?

- Heç nə. Batareya aldıq. Bu da corab aldı.

- Bəs onda bu nazir müavini mənə niyə zəng vurur. Hardan bildi ki, mən də burdayam.

- Heç... satıcılar soruşdu ki, adınız nədir? Dedim ki, Akif.

- "Mahir" deyə bilmirdin?

Bu an yenə zəng gəldi.

- Salam, salam. Çox şadam. Bu nə sözdür. Qardaşımız dedi qurtardı. Bu nə sözdür. Ehtiyac yoxdur. – deyə Akif sözünü sona çatdıra bilmədi. Bir də gördük ki, maşının şüşəsini taqqıldadırlar. Akif qapını açmamış, - Mahir, düzünü de, nə çəkmisiniz?

- Heç nə.

- Necə yəni heç nə? Bəs bizi içəri, nazir müavininin dostunun otağına niyə aparırlar? Yəqin ki, obyektə də şərikdirlər. İndi soruşacaq ki, nə çəkmisiz? Nə cavab verim?

- Heç nə.

- Onda siz də gəlin. Uzağı lenti göstərərik, inanarlar.

İki yekəpər teloxranitel bizi müşaiyiət edib ensiz dəhlizlərlə apardılar bir kabinetə. Hələ biri kameranı hörmət əlaməti olaraq operatorun əlindən alıb daşıdı da. İçəri girdik. İçəri girən kimi "solidnı", elə Akif yaşda olan bir kişi kreslosundan qalxdı ayağa:

- Akif müəllim, sizi xoş gördük. Televizorda baxırıq, fəxr edirik. Amma bura gəlmisən, içəri girməmisən. Telefonunu da bilmirəm. Ona görə zəng vurub qardaşımızdan öyrəndim.

Ortaya çay gəldi. Birdən Akifin gözü stolun üstündə qoyulan fotolara sataşdı.

- Səninkilərdi? Allah saxlasın.

- Allah sizinkiləri də saxlasın. Biri bu il girdi ali məktəbə.

- Mənimkilər də - biri ali məktəbdədir. O biri də hazırlaşır.

Birdən Akifin "dostu" bizə tərəf baxdı.

- Siz gedin bayırda gözləyin.

- Yox, qoy otursunlar, - deyə Akif etiraz etsə də...

- Yox, gedin. Mən qardaşımla hələ çox dərdləşəcəyəm. Akif müəllim, qoy onlar getsin, mən səni öz maşınımla yola salaram. "Kak-raz obed" vaxtıdır.

Akif razı olmasa da cangüdənlərin müşaiyətiylə təzədən qayıtdıq RAF-a. Beş dəqiqə keçdi Akif yox, on dəqiqə keçdi Akif yox. Yarım saatdan sonra Akif gülə-gülə qayıtdı.

- Akif, nə oldu?

- Heç nə.

- O kim idi?

- Heç bildim ki?

- Nə danışdız?

- O öz oğlanlarından, mən də özümkülərdən. O giley elədi, mən giley elədim. Sonda da gedirdik restorana "obed"ə. Dedim ki, tələsirik. Pulu basdı cibimə ki, "onda axşam işdən sonra oturub mənim sağlığıma içərsiz". Getdik. Amma düzünü deyin. İçəridə nə çəkmişdiniz?

- Vallah, heç nə.

- Yox əşşi?????

SON

Onunla düz 11 il bir yerdə işləyib, onun altı ilini çörəyimizi bir yerdə yemişik. Daha doğrusu bölmüşük. O məni, mən də onu çox gözəl tanıyıram. İnanmıram ki, ailəsindən savayı onu mənim qədər yaxından tanıyan olsun. Təmiz adamdır. Əliyevlər ailəsinə yaxın olmasıyla həmişə fəxr edir. Tamerlan Əliyev, Gülarə Əliyeva haqqında xatirələri həmişə dilindədir. Atası Məcid kişinin Əziz Əliyevlə əmiuşağı olmasını çoxları bilir.

Ürəyi ilə dilinin arasında bir millimetr də olsa məsafə yoxdur. Ona görə də onunla dostluq etmək çox çətindir. Deyəcək, deyəcək, ta ürəyini boşaldanacan. Çox bic adamdır. Çünki ən böyük biclik – düzlükdür. Ürəklə dilin vəhdətidir.

Yaxşı insandır. Yaxşılıq eləməyi xoşlayır. Kim yanaşırsa həmən əli telefon dəstəyinə uzanır. Kömək edə bilsə də, bilməsə də. Kömək edə bilməyəndə vəzifəli adama elə sözlər yağdırır ki, ona müraciət edənlərin də ürəyindən tikan çıxır. Kömək etməyi bacaranda isə uşaq kimi sevinir.

Ruzusu ayağındadır. Sadəcə evdən eşiyə çıxmağı bəs edər. Gülərüzdür, qılıqlıdır. Qadın opponentləri daha tez yola gətirə bilir, nəinki kişiləri. Kübardır. Məclisdə oturuşunu da, duruşunu da bilir. Son dəblə, əndrabadi geyinməyi xoşlayır. Oğlanlarını çox istəyir. Həyat yoldaşını Həqiqət xanımı isə onlardan yox, dünyadan da çox sevir. Nəvələrini bilmirəm. Çünki son illər əlaqələrimiz kəsilib. Amma iki yüz faiz bilirəm ki, daş qayaya rast gəlib. Onlara çətin dinə. Leksikonundakı "gözəl" sözlərdən çətin ki, işlədə.

Onun 60 illik yubileyi ilə bağlı bu yazımda  yenə hansısa sərgüzəştləri dilə gətirmək istədim. Amma dayandım. 70-ə, 80-ə, 90-a, 100-ə də bir şey saxlamalıyam, ya yox?! Şair Əhməd Cəmil sayağı desəm, "Hamısını bu gün desəm, xatirə qalmaz sabaha". Özümün və dostlarımın adından sadəcə bir dejurnı ifadə işlətməklə yazıma son qoyuram: Akif, 60 yaşın mübarək!!!!!!!!!!!

# BORİS NEMTSOVLA BAĞLI XATİRƏ

AzTV-nin "Xəbərlər" proqramında işləyəndə dünyanın müxtəlif ictimai-siyasi xadimləriylə rastlaşmışam. Onlardan biri də Boris Nemtsov idi. Bakıda yeni neft kontraktlarının bağlanmasına həsr olunmuş böyük dövlət tədbiri keçirilirdi. Türkiyədən baş nazir Məsud Yılmaz, Gürcüstandan prezident Eduard Şevardnadze, Rusiyadan isə Baş nazirin I müavini Boris Nemtsov da iştirak edirdilər. Artıq rəsmi hissə başa çatmışdı.

Axşam saat 10-da tapşırıq aldım ki, bəs Binə aeroportuna gedib, qonaqların yola salınmasını lentə almalıyam. Operator Zakir Muxtarovla gəldik ovaxtki VİP ZAL-a. Çay içə-içə başladıq gözləməyə. Saat 23.00 oldu heç kim gəlmədi. Gecə yarı oldu heç kim yox... Nəhayət gecə saat 1-in yarısında birinci kortej qapıda dayandı. Zakir tez kamerasını rahladı, mən də mikrofonla yanında hazır dayandım ki, birdən Boris müəllim ürək sözlərini demək istəyər. Qonağı Baş nazirin 1-ci müavini Abbas Abbasov yola salırdı.

İçəri girəndə gördük ki, Boris Nemtsovun kefi yuxarıdır. Yəni ki, yaxşı vurub. Abbas Abbasova da bu haqda danışırdı.

- Deyirəm ki, Qeydar Aliyeviç, mən getməliyəm. Təzə evlənmişəm. Arvad məni gözləyir. Deyir ki, yox. Yeməsən-içməsən səni heç yana buraxan deyiləm. Ye-iç, sonra get arvadın yanına. Yaxşı kişidir, vallah. Yaxşıca yedim-içdim, sonra icazə verdi. Ona böyük hörmətim var.

Bu sözləri deyə-deyə yanımızdan keçəndə birdən bizi gördü. Gəldi dayandı düz kameranın qabağında. Zakir də düyməni basıb, başladı çəkməyə. Nemtsov sözünə söyüşlə başladı.

- (Mujik, tebe ne xuy delat?) Ay kişi, sənin işin-gücün yoxdur? Gecə saat 1-də  gəlmisən məni yola salmağa...

Zakir isə çəkir. Heç bir cavab vermirik:

- Bir buna bax, mənimlə danışmaq istəmir. (Posmotri na neqo. Ne xoçet somnoy razqovarivat).

Zakir yenə çəkir. Heç nə demir. Abbas Abbasov və digər yola salanlar da gülə-gülə bu səhnəni izləyirlər. Boris müəllim də gördü ki, Zakirdən bir səs çıxmır əlini ona uzadaraq.

- Yaxşı, mən getdim. Sağlıqla qal. (Nu mujik, do svidaniya. Ya poşol).

Zakirin gözü kameranın gözlüyündə olduğundan, əlbəttə ki, Boris Nemtsovun əl uzatmağını görmürdü.

- Abbas Aydın oğlu, bu mənimlə sağollaşmaq istəmir. (Abbas Aydınoviç, on ne xoçet somnoy poproşatsa).

Gördüm ki, əli uzana qalıb  Zakirə dedim ki, bəs əl uzadıb sənə, sağollaş getsin. Zakir də sol əlini qaldırıb çiynində olan kameranı tutaraq, sağ əlini kameranın düyməsindən çəkdi və Nemtsova tərəf uzatdı. O da razılıqla:

- Bax, bu, başqa məsələ. (Vot eto druqoe delo).

Sonra mənimlə və digərləriylə də görüşüb, ildırım sürətiylə təyyarəyə doğru addımladı. Bakıya balaca təyyarədə gəlmişdi. Ona görə də VİP zala yaxın saxlamışdılar. İki-üç pilləli trapın yanında stüardessa – qəşəng bir rus gözəli durmuşdu. Abbas Abbasov isə Boris Nemtsovun sanki yadından çıxmışdı. Qonaq trapa çatanda əliylə stüardessanın “popka”sına - yumşaq yerinə  bir sığal da çəkib təyyarənin salonuna keçdi. Özü də protokola və etiketə zidd olaraq Abbas müəllimlə sağollaşmadan. Gördüm ki, Abbas müəllim də yaman pərt oldu. Astaca “Abbas müəllim, bəs mən “Xəbərlər”də nə verəcəyəm?” soruşdum. O da çiynini çəkdi.

Dayanıb gözləyirdik ki, təyyarənin qapısı bağlansın və sonra çıxaq gedək. Hardasa iki dəqiqədən sonra Boris Nemtsov yenidən təyyarədən düşdü. Gülə-gülə Abbas Abbasovu qucaqlayaraq, öpdü. Təzədən bizə də əliylə vida elədi. Təyyarəsinə əyləşdi. Bizə də təkcə bu epizod lazım idi. Vəssalam.

Boris Nemtsov getdi. Bizə də bu xatirə qaldı...

# QAN

Hər dəfə qanvermə kampaniyalarıyla bağlı elanları, çağırışları oxuyanda məndə müxtəlif xatirələr oyanır. Düzünü desəm həyatımda çox donorluq etsəm də, bu çağırışlardan yalnız üçündə iştirak etmişəm. Qarabağ müharibəsinin getdiyi dövrdə, Bakı Süd Kombinatında kadrlar şöbəsində işlədiyim vaxt ilk dəfə qanvermə aksiyasının iştirakçısına çevrildim.

SÜRÜCÜLÜK VƏSİQƏSİ VƏ QAN

Ona qədər qan verməyə qarşı bir ikrah hissi vardı məndə. Və bu hiss elə-belə yaranmamışdı. Çox gülməli də olsa deyim. Sovet dövründə sürücülük vəsiqəsi almaq üçün tibbi müayinədən hamı keçirdi. Amma orda belə bir tələb də vardı. Bilmirəm qanuni idi, ya qanundan kənar, amma 250 qram qan verməsəydin sənə tibbi arayış vermirdilər. Qan vermək istəməsəydin gərək 25 rublundan olaydın. Amma onu da bilmirdim ki, pul qanuni tələbdir, yoxsa rüşvət. Mənə də bu tələbi irəli sürəndə tibb komissiyasını yaman pərt elədim. Yox, yazmaqla, atamla hədələmədim. Onda heç qələmim də yox idi. Sadəcə sarılıq xəstəliyi keçirməyimlə bağlı kağızı onlara göstərdim. Vəssalam.

YENİDƏN DOĞULDUM

İlk dəfə qan verməyim elə bil ki, məni yenidən həyata qaytardı. İştahım açıldı. Gecəni daş kimi yatmağa başladım. Səhər

saat 9-da işə gəlməli olan adam 12-də güclə yuxudan dururdum. Və o vaxtdan qan vermək, donor olmaq həvəsi yarandı məndə. AzTV-də işləyərkən Nəsimi bazarının yanındakı qanvermə institutunda keçirilən aksiyaları işıqlandırmaqla yanaşı, həm də iştirakçıya çevrilirdim. Özüm könüllü qan verməyə gedəndə isə sənədimi təqdim etmirdim. Adımı isə Məhəmmədov Məhəmməd Məhəmməd oğlu deyirdim.

İLK QAN

Donor, qan vermək sözünü ilk dəfə atamdan eşitmişəm. Atam heç vaxt qan verməmişdi. Onda donorluğa qarşı bir nifrət hissi yaranmışdı uşaqlıqdan. Bu haqda danışır, amma qələmə almırdı. Nəhayət 2000-ci ildə 74 yaşında bu hisslərini əks etdirən "Anamın qanı" şeirini yazdı. Müharibə vaxtı – 1942-ci ildə 16 yaşlı Qabil evə gəlir və görür ki, stolun üstündə nələr yoxdur.

*Bir gün dərsdən evə gəldim:*
*Bu nə deməkdir?*
*Bu nə süfrə, bu nə dəsgah, bu nə yeməkdir?*
*Lap ağ çörək... qolbas... süzmə... holland pendiri,*
*Hələm-hələm ələ düşməz dənəvər kürü...*
*Kərə yağı... şəkər tozu... mürəbbə, filan...*

Qara çörəyin talonla verildiyi bir dövrdə gənc Qabil dul qalmış anasına heç nə demir. Amma bu yeməkləri də nuşcanlıqla yemir. İkinci dəfə bu süfrəni görəndə etiraz edir. Ürəyində qövr edən şübhələri anasının üzünə vurur. Ortaya qoyduğu nemətlərə "zəhrimar" deyir. Cavabında isə anası:

*-Zəhrimar demə, bu zəhrimara, oğlum,*
*Gedirəm qan verirəm, yaralılara, oğlum.*
*Tapılmayan bu şeylər taqətimçün verilir.*
*Yenə də qan verməyə növbətimçün verilir.*

*Bu süfrə, bu naz-nemət qanıma əvəz, oğlum!*
*Get, ay anası ölmüş, get arxayın gəz, oğlum!*

Qabil də bu cavabdan sonra:

*Düşdüm ayaqlarına məsum anamın bu dəm:*
*-Ay anam, belə çıxır mən qanını yeyirəm?*
*Qan bahası süfrəni bir də açsan əgər sən,*
*Axtarma, baş götürüb qaçacağam bu evdən.*

Məhz bu hadisəyə görə atamın qanverməkdən nəinki xoşu gəlmirdi, hətta nifrət edirdi. Çünki müharibə vaxtı "anasının qanı"nı yemişdi.

20 YANVAR VƏ QAN

Hər dəfə 20 Yanvar gələndə, "bu bizim qan yaddaşımızdır" kimi pafoslu sözlər eşidəndə əsəbləşirəm. 20 yanvar bizim qan yaddaşımız yox, gözümüz qorxudulan gündür. Qan gördük, qorxduq. Hər tində, küçədə, məhlədə dayanan, indi cəllad adlandırdığımız sovet ordusunun əsgərlərinə, tanklara, BMP-lərə nəinki hücum edib qanımızı almadıq, heç yerdən balaca bir daş da götürüb atmadıq. Çünki qan görmüşdük. Qandan artıq qorxurduq. Ona görə də mən "20 Yanvar şəhidləri" yox, 20 Yanvar günahsız qurbanları deyirəm. Heç bir maneçilik törədilmədən salınan Şəhidlər xiyabanı isə bizə verilən qan bahası, göz dağı idi. "Ağlayın, sakitləşin, bir də belə dikbaşlıq etməyin. Yoxsa...". Bu mənim subyektiv fikrimdir.

Amma mən bundan danışmaq istəmirəm. O müdhiş gecədə Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinin tələbə və müəllim heyətinin və həkimlərin qəhrəmanlığını qeyd etmək istəyirəm. O gecə saysız-hesabsız yaralılara qulluq edən, qan verən məhz onlar idi. Mütəşəkkil şəkildə, heç bir çağırış olmadan. Amma nədənsə bunları yadımızdan çıxarmışıq.

## İKİNCİ QANVERMƏ AKSİYASI

İkinci dəfə qanvermə aksiyasına işlədiyim təşkilatdan qoşuldum. Özü də çox həvəslə. Kollektivdən cəmi 10-15 faiz işçi gəlmişdi. Qan verdik. Bir stəkan çayla şəkərbura, paxlava yedik. Sonra da getdik işimizə-gücümüzə. Səhəri işə gələndə divara asılan bir əmr gördüm. "Aksiyada iştirak edənlərə pul mükafatı verilsin". Özü də maaşın yarısı qədər. Kampaniyada iştirak etməyənlərin üzündə bir peşmançılıq oxunurdu: "Bilsəydik mükafat olacaq, gələrdik".

## QAN NƏDİR

Qan qırmızı rəngdə olur. Hər insanın bədənində cəmi-cümlətanı 5 litr olur. Amma mənim aləmimdə qan insandır. O da insan kimi qruplara bölünür. Qan da (rezusu) insan kimi mənfi-müsbət olur. Qana qırmızı rəng vermişik. Əslində onun eritrositləri sarı və yaşıl rəngdədir. Onlar bir-birinə qarışanda qırmızı rəngə çalır. Eynən insanlarda da mənfi çalarlar – xəyanət, daha nələr sarı rəng, yeni həyat, canlanma yaşıl rəng anlamını verir. Deməli mənfi-müsbət cəhətlərimiz də elə qanla ötürülür. Cövhərimizdə olur. 1-ci qrup qanı olanlar bütün qruplara donorluq edə bilir. Lap birinci sort insanlar kimi. Hər şeyi var, bütün nəslini saxlayır. Hətta qonşularına, qapısına gələnlərə də kömək edir. 4-cü qrup qanı olanlar isə donorluq edə bilmir, ancaq bütün qruplardan qan ona düşür. Lap kasıblar kimi. Verməyə heç nəyi yox, ancaq almağı, istəməyi bacarır. Əsla, elə başa düşməyin ki, həm də həmkarlarıma söz atıram. "4-cü hakimiyyət" ifadəsinin, 4-cü qrup qana heç bir aidiyyatı yoxdur.

Qan simsiz teleqrafdır. Həkim hansısa orqana təcili teleqram, xəbərdarlıq, yəni dərman göndərib sağaltmaq istəyirsə, onu qanla göndərir. Damarına iynə vurmaqla. Müharibə elan etmək istəyəndə isə sistem qoşur. Qalib də gəlir, məğlub da

olur. Qan təkcə qırmızı rəngdə olmur. Qanın qara rəngə çalan vaxtı da olur. Bir keyfimiz olmayanda, qüssə-kədər içində olanda, bir də öləndə.

BAYRAQ VƏ QAN

Sovet dövrü atamın və ziyalı dostlarının dilindən bu iki misranı tez-tez eşidirdim:

*Bayrakları bayrak yapan üstündeki kandır,*
*Torpak, eger uğrunda ölən varsa Vatandır.*

O vaxt bilmirdim ki, bu misralar Mithat Cemal Kuntay adlı birinin "On beş ili qarşılarkən" şeirindən iki misradır. Amma o vaxtlar çox məşhur idi. Türkiyə, SSRİ bayrağındakı qırmızı rəngləri də məhz qanın rəngiylə əlaqələndirirdilər. Azərbaycan bayrağında da qırmızı rəng var. Düzdür mənası başqadır. Amma mən həmişə onu qanla əlaqələndirmişəm. Uşaqlıqdan yaddaşıma həkk olunan məhz bu iki misraya görə.

QANVERMƏ KAMPANİYALARI

Hər dəfə qanvermə kampaniyalarına baxanda, insanların bu aksiyalara fəal qoşulmasını görəndə sevinirəm. Uşaqlıqdan yaddaşıma zəncirvurmaq, baş yarmaq, sinə döymək kimi həkk olunan Məhərrəmlik ayı da bu humanitar aksiya sayəsində mənə doğmalaşıb. Amma bir məsələ məni daha çox narahat edir. Verilən bu qanlar sonradan yoxlanıldıqda, neçə faizi yararlı sayılır? Yoluxucu, hepatit xəstəliklərinin yayıldığı bir vaxtda alınan qanların hamısı işə yarıyırmı?

İLK DƏFƏ GÖRDÜYÜM QANVERMƏ PROSESİ

Uşaq idim. 4 yaşım vardı. Yaxın bir qohumumuz xəstə idi. Demək olar ki, ölürdü. Artıq çadır, stol-stul, stəkan, samovar

tədarükünə də başlamışdılar. Bu anda bir savadlı həkim bütün gözləntiləri alt-üst etdi. Dedi ki, cərrahiyyə müdaxiləylə xəstəni sağaldacağam. Birdən qan lazım oldu.

Xəstənin qan qrupu da, rezusu da nadir qan qruplarından çıxdı. Nə qədər axtardılar tapa bilmədilər. Əlac ona qaldı ki, Lənkəranda yerləşən hərbi hissələrdən birinə müraciət etsinlər. Əlbəttə ki, hay verən tapıldı. Beş sovet əsgərinin sifəti indi də yadımdadır. Gəldilər qan verdilər. Ölümünə hazırlaşdığımız o qohumun o vaxt 32, mənimsə 4 yaşım vardı. İndi isə onun 77, mənimsə 49 yaşım var. İkimiz də sağ-salamatıq.

## ERMƏNİ VƏ QAN

Bu mövzuda yazmışam. Amma qısa xatırlatmaya ehtiyac var. Yəhudilərdə və ermənilərdə qan əsas anlayışlardandır. Özü də ki, ana qanı. Anası yəhudi olana avtomatik olaraq vətəndaşlıq verilir. Ermənilər isə dünyanı öz qadınlarını müxtəlif millətlərə ərə vermək hesabına erməniləşdirə-erməniləşdirə, özünküləşdirə-özünküləşdirə gedirlər. Çünki qan, həm də koddur. Millətin kodu.

## TƏSƏLLİ QANI

Bu gün Azərbaycan müharibə şəraitində olsa da, yaralılarımız yoxdur. Yəni ki, qana bu sarıdan ehtiyacımız yoxdur. Heç olmasın da... Amma çox heyf ki, qan bu gün dərmana çevrilib. Özü də zəruri bir tibbi preparat kimi.

Atam Qabili yüksək təzyiqlə 2005-ci il noyabrın 30-da Mərkəzi Klinik Xəstəxanaya çatdırdıq. Elə oldu ki, yeddi gün mən gecə-gündüz yanında qalmalı oldum. Kardioloji şöbədə ayrıca palata olmadığından, ora bitişik qan xəstəlikləri şöbəsində palata ayırdılar. Amma bu cür xəstələr gözə dəymirdi.

Mən əvvəllər burda çəkilişdə olmuşdum. Azərbaycanda ilk dəfə ilik köçürülməsi əməliyyatı keçirilmişdi. Bu əməliyyatı qan xərçəngi xəstələrini həyata qaytarmaq üçün edirlər.

Düzdür köməyi olmuşdu, amma cəmi 6 ay. Daha doğrusu ömrünü uzatmışdılar.

Nə isə. Gecə 11-də bir də gördüm ki, səs-küy qalxdı. Axşam 8-dən sonra kimsənin daxil ola bilmədiyi bir xəstəxanada 5-6 nəfər dəhlizdə bir-birinə dəymişdi. Dedim yəqin ağır xəstə gətiriblər. Ona görə. Palataya keçdim. Atamın venasına gecə-gündüz sistem qoymuşdular. Mən də nəzarət edirdim. Bir də gördüm ki, mühərrik səsi gəlir. Sanki hardasa işıqlar sönüb, generatoru işə salıblar. Qapını açıb dəhlizə çıxdım. Həmişə bağlı olan üzbəüz qapı açıq idi. Bir böyük aparat vardı orda. Onun səsi idi. Bir nəfər də aparatın yanındakı yarıoturaq çarpayıya uzanmışdı. Yumruğunu açıb-yumurdu. Xəstəyə heç oxşamırdı. Rəngi-ruhu yerindəydi. Dəhlizdə daha 4-5 adam əyləşmişdi. Biri isə əlində telefon kiminləsə danışırdı. "Gəlirsən? Tez elə. Qurban olum, tez çatdır özünü".

Palataya keçdim. Baş verənləri anlamırdım. Bu vaxt sistemə qoşulan dərmanın azaldığını gördüm. Dəhlizə çıxıb şəfqət bacısını səslədim. Hay vermədi. Palataları gəzməyə başladım. Birini açıb içəri girəndə sadəcə qorxdum. Çarpayıda sanki kinolarda, multfilmlərdə gördüyüm xortdan uzanmışdı. Gözləri açıq idi. Skletə bənzəyən başı, sifəti sapsarı idi, sanki həyat əlamətləri yox idi. Gözlərini mənə zilləmişdi. Birdən dodaqları qaçdı. Gülümsədi. Anlamadım ki, niyə. Şəfqət bacısına sözümü deyib otaqdan çıxdım. Sistemi dəyişməyə gələndə izah elədi ki, bəs palatadakı qan xəstəsidir, xərçəngdir. Bu aparat isə qandan onlar üçün xüsusi dərman hazırlayır. Bir müddət vəziyyətini düzəldir. Ağırlaşan kimi yenidən xəstəxanaya qaçırdırlar yiyələri. Ta canını tapşıranacan xəstə yiyələrinin donor tapmaq əziyyəti, əzabı davam edir.

İki gündən sonra həmin xəstəni evə yazdılar. Kolyaskada şöbədən çıxaranda mən də dəhlizdəydim. Keçəndə üzümə baxdı. Elə gülümsəyirdi. Yenidən həyata qayıtdığı üçün. Onda anladım ki, palataya qəfil girəndə, o da məni görəndə niyə sevinirmiş. Elə bilibmiş ki, mən də donoram. Ona dərman – qan verməyə gəlmişəm. Bununla razılığını bildiririmiş. O bir

həftədə üç elə xəstə gördüm. Sadəcə qıraqdan baxıb müşahidə edirdim. Xəstəni yox, 8 yaşlı qızın ata-anasının, 30 yaşlı qadının dul olmağa namizəd ərinin çəkdiyi əzab və iztirablarını. Onlara sadəcə qan lazım idi. Onu da çətinliklə də olsa əldə edirdilər. Bu sadəcə dərdə əlac edəcək dərman-qan deyildi, bu təsəlli qanı idi.

ELŞAD EYVAZLININ ÇAĞIRIŞI

Mən buna çağırış deyirəm. Amma o, "Xahiş edirik" yazıb və həmkarlarını, dostlarını martın 2-də qanvermə aksiyasına dəvət edib. Mən də gedəcəyəm. Və bu təşəbbüsü alqışlayıram. Amma "Feysbuk" səhifəsində bir nəfərin bu çağırışa "qan veririk, amma şərəfsizlər onu 85 manata satır" deyə reaksiya verməsi, şərh yazması məni yaman əsəbləşdirdi. Əlində paçkayla pulu ola-ola, xəstəsinə qan, donor tapa bilməyən şəxsləri göz önümdən keçirtdim. Ona cavab vermək fikrim yoxdur. (Sözündə hardasa həqiqət də var. Amma bu təşəbbüsün mahiyyətinə dəxli yoxdur). Sadəcə bu məqalədə xatirələrimi, müşahidələrimi yazdım. Yazdım ki, anlamayanlar da anlasın. Qanın qiyməti yoxdur. Qan qiymətsizdir. İstər bayraqda, istər genofondda, istər müharibə vaxtı, istərsə də sülh şəraitində xəstələrə şəfa vermək üçün hazırlanan dərmanlara işlənən xammal kimi. Hələ "qan bahası"nı demirəm.

# HADI RƏCƏBLİNİN "MÜƏLLİM"İ

Müəllim. Deyirlər ki, bu ad müqəddəsdir. Deyirlər ki, bu peşə müqəddəs peşədir. Ən böyük dahini də müəllimlər yetişdirir. Deyirlər. Deyirik. Sadəcə "deyirlər", sadəcə "deyirik". Günlər bizi sovet dövründən uzaqlaşdırdıqca, müstəqilliyimizin dərinliklərinə irəlilədikcə bunu lap tez-tez deyirik. Maraqlısı budur ki, deməklə yanaşı, dediyimizə inanırıqmı? Əməl edirikmi?

Mən elə bir məktəbi bitirmişəm ki, o, Zaqafqaziyada yeganə ordenli məktəb olub. Sona Tağıyeva, Sosialist Əməyi Qəhrəmanı Zərbəli Səmədov, Sadıq Məmmədzadə, Ramizə İsmayılova, Şəfiqə Əliyevanı, 190 nəmrəli məktəbi bütün Azərbaycan tanıyırdı. Anam Hacıbəyim Rəhimova 1943-ci ildə kişi müəllimlər müharibəyə çağrıldığından - 13 yaşından kiçik siniflərə müəllimlik etməyə başlayıb. 11 illik təhsil sistemindən 10 illik təhsil sisteminə keçid üçün təşkil olunan eksperimental sinfin rəhbəri olub. Atam da müəllim olub. Cəmi iki il. Özüm də müəlliməm. Daha doğrusu diplomumda filoloq ixtisasıyla yanaşı, Azərbaycan dili və ədəbiyyat müəllimi ixtisası da əlavə yazılıb. Niyə? Çünki o vaxt Azərbaycan Dövlət Universitetinə tələbə qəbulu elmi işçi ştatına təlabatdan qat-qat yuxarı idi. İşsiz qalmayaq deyə müəllimliyi DƏ ora əlavə etmişdilər. "Də"-ni təsadüfən böyük yazmadım. Çünki bu gün bu hal müəllimlik ixtisasına aiddir. Bu gün müəllim yetişdirən ali məktəblər, məzunların iş tapması üçün diplomda müəllim ixtisasının yanına hansı ixtisası əlavə yazırlar görəsən? Görəsən Azərbaycanda Müəllimlər İnstitutunun və özəl məktəblərin buraxdığı müəllimlər ordusuna ehtiyac, təlabat varmı?

Vaxt keçdi sovet dağılmağa, pis, qarmaqarışıq dövrlər başladı. Soveti dağıtmaq üçünsə ilk növbədə qara əllər onun təhsilinə uzandı. Yox, uzanmadı. Özümüz əl uzatmağa başladıq. Hər şeyə xərcləməyə pul tapdıq. Amma acından ölən məktəbə, müəllimə süpürgəpulu qədər əl uzatmağa pul tapmadıq. Bir "şirvan"ı, hansısa 5 "məmməd"i verəndə, bunu bütün aləm bildi. Müəllimdən xalq da, boş büdcəmiz də üz döndərdi. Amma ən dəhşətlisi isə müəllimin xalqdan üz döndərməsiydi. Bu da baş verdi. Müəllim ilk növbədə aldığı müəllimlik peşəsinə hörmətlə yanaşmadı. Ən ucqar dağ kəndində, rayonda ona ehtiyac duyulduğu halda ora can atmadı. Arqumentləri isə tutarlı və güclü oldu. Haqq etmədiyi və aylarla gecikdirilən müəllim maaşına acından ölmək istəmirdi. Başladı xarici ölkələrə gedib defisit mallar gətirib alver etməyə. Kommersiya dükanları açıb satıcılıq eləməyə. Taksi sürməyə. Hansı yollara getmədi müəllimlər və gələcəyin müəllimləri. Acıdıqmı onlara? Fikirləşdikmi ki, xırda maaşa necə dolanır, nə yeyir, nə içir? Balalarına nə yedizdirir? Əyninə təzə paltar alıb, səliqəli geyimiylə şagirdlərinə nümunə ola bilirmi? Sonu isə acınacaqlı oldu. Məhz müəllimlər süpürgəpulunun əvəzini artıqlamasıyla çıxdılar sizlərdən, bizlərdən. Uşaqlarınıza lazımınca dərs keçmədilər. İmkanı olanlar ciblərinin ağzını açıb, imkanı olmayanlar isə uşaqlarının, özlərinin boğazlarından kəsib əlavə müəllimlər tutdular. Yenə də həmin müəllimləri. Əvvəl-əvvəl ali məktəbə hazırlaşmaq üçün 10-11-ci siniflərdə uşaqlarımızı əlavə müəllim yanına göndərdik. İndi isə 1-ci sinifdən müəllim tutmaq artıq dəb halını alıb. Yox düz demədim, sadəcə məcburuq buna. Çünki biliyə, savada diqqətli olsaq da, müəllimə, müəllim sənətinə hörmətimiz yoxdur. Bu azmış kimi, müəllimləri borclu da çıxarırıq. Deyirik ki, "maaş azdır? Kim onları məcbur edir ki, müəllim işləsinlər. Bu yolu seçiblərsə, canları çıxsın təmiz işləsinlər". Düz də deyirik. Amma dediyimizə inanmaya-inanmaya düz danışırıq. Kənarda isə "Bu sənət sahibləri qəribə insanlardı e... adam da 200 manata görə müəllimlik edər? Bunların əsəbləri dəmirdəndir vallah" söyləyirik.

Bu illər ərzində müəllimlərə çox zərbə vurdular. Onları qeyri-obyektivlikdə, rüşvətxorluqda, tərəfkeşlikdə ittiham edib, qəbul imtahanlarından uzaqlaşdırdılar. Sonra isə ümumiyyətlə imtahan üzünə həsrət qoydular. Uşaqlarımıza dərs deməyi onlara həvalə etdilər, amma imtahan götürməyi yox. Tam məntiqsizlik. Son illər isə orta məktəblərdə buraxılış imtahanlarına da onlar buraxılmadı. 11 il ağaca qulluq elədilər, barını isə TQDK saf-çürük edir. Dadına TQDK baxır. Əksəriyyət məzunlar isə çürük çıxdı. Səbəbkar isə təbii ki, müəllimlər idi. Biz müəllimə son 25 ildə necə zərbə vurmuşduqsa, bumeranq kimi qayıdıb dəydi özümüzə. Ən dəhşətlisi isə - gələcəyimizə.

Bu qədər, hörmətli həmvətənlərim. Siz də öz misallarınızı mənim yazdıqlarımın yanına düzüb bir suala cavab tapın:

Hadı Rəcəblinin "müəllimi" nə edir? Bu həmin kənd müəllimidir ki, elə indi də sovet vaxtındakı qədər maaş alır. O elə həmin müəllimdir ki, külfət sarıdan maşşalla həmişə varlı olub. Bu elə həmin müəllimdir ki, öz sənətini sevir, uşaqlara bilik verir, kəndin tozlu küçələriylə addımlayanda yenə də kiçikdən böyüyəcən ayağa qalxıb dediyi "salam, müəllim" sözlərini eşidir. Dərsdən sonra saxladığı təsərrüfatla məşğul olur, arıçılıq edir, bal satır, mal-qara bəsləyir, ailəsinin ehtiyaclarını ödəyəndən sonra əlavə qatıq, süd, yumurta, nehrə yağını gizlincə satışa çıxarır. Müəllimliyi oxumamışdan qabaq babasından öyrəndiyi bənnalıq, xarratlıq, dülgərlik, arıçılıq, dərzilik sənətini də unudulmağa qoymur. Bu ona əlavə çörək qazandırır. Müəllimlik onun beyninin, dərsdən sonra etdikləri isə əlinin, qabarlı əlinin məhsuludur. Biri o birinə mane olurmu? Əsla!!! Əksinə, tamamlayır desəm yanılmaram. Bu, təkcə deputat Hadı Rəcəblinin misal çəkdiyi müəllimdirmi? Çox yaxın təmasda olduğum Şamaxı və Yardımlıda belə zəhmətkeş müəllimlər azdırmı? Yaxud da digər rayonlarda. Yaxud sualı başqa cür qoyum: Kimsə bu müəllimləri şagirdlərindən pul və ya nəsə tələb etdiyini görübmü? Hadı Rəcəblinin dediyi kənd müəllimi həmişə belə olub. Həmişə də müəllim

səviyyəsini, qürurunu qoruyub, saxlayıb. Gizli-gizli tövlədə inək sağsa belə.

Hadı Rəcəbli nə edir? Sadəcə müəllimin dərsdən sonra məşğuliyyətini, halal zəhmətini bir daha qeyd edir. Şair Famil Mehdi kimi

*Dilən, professor, utanma, dilən,*
*Dillən, professor, utanma, dillən,*
*Qoy sənin yerinə zaman utansın,*
*Səni bu günlərə salan utansın.*
*Qırılan ağac yox, tufan utansın,*
*Vurulan turac yox, vuran utansın.*

deyə xəcalət çəkib, bunu nəzmə çəkmir. Zəhmət, əmək isə utanclıq yox, insana həmişə başucalığı gətirir.

İndi hansı yaxşıdır? Müəllimlik diplomunu sandığa atıb, bu sənətə nifrətlə baxıb alverçilik etmək, taksi sürmək, şagirdlərə bilə-bilə təhsil verməyib, dərsdən sonra onlara onsuz da öyrətməli olduğu fənni canla-başla başa salmaq, öyrətmək, bunun müqabilində pul qazanmaq, ya da ümumiyyətlə heç bir iş bacarmayıb, şagirdinin əlindəki dörd aylıq məvacibi həcmində bahalı telefonlara baxaraq, təmiz müəllim adına qısınıb "budumu bizə verilən qiymət?" deyə sual etmək, yoxsa Hadı Rəcəblinin müəllimi kimi müəllimliyindən əlavə bənnalıq, dərzilik, çobanlıq, arıçılıqla məşğul olmaq?

Hadı Rəcəbli deməsəydi də onlar belə yaşayıblar, belə yaşayırlar, belə də yaşayacaqlar. Sadəcə millət vəkilimiz bunu birbaşa dedi. Ad çəkdi. Kənd müəllimi nümunəsini fərdiləşdirdi.

İndi deyəcəksiniz ki, kənddə, rayon yerində bu işlər məqbul sayıla bilər. Bəs Bakıda, digər şəhərlərdə necə olsun? Əgər millət vəkilinin bu sözü sizə pis təsir edirsə, haydı sabahdan uşaqlarınızı özəl məktəblərdən çıxarın. Əlavə müəllim yanına göndərməyin. Və ora xərclədiyiniz pulları yanınızdakı məktəblərin büdcəsinə köçürün. Müəllimin dərsdən sonrakı asudə vaxtının səmərəli keçməsi üçün məktəblərdə kurslar,

dərnəklər açın. O kurslarda həm müəllimlər əlavə qazanc yeri tapsınlar, həm də nəinki sizin, qoy imkansızın, kasıbın da balaları nəsə öyrənsin. Amma bir şərtlə. Sağ əlin verdiyini, sol əl bilməsin. Bir də ki, dilinizdən bir misal əskik olmasın: "Ay müəllim, uşağımı öyrət. Əti sənin, sümüyü mənim".

Özəl məktəblərə böyük pullar köçürüb deməyin ki, "yüksək bilik verir". O məbləğə məktəb yox, onun yüksək maaş verdiyi müəllim canla-başla işləyir. Ən çox qazanan isə özəl məktəb açıb müəllimlərin biliyini satan biznesmen olur. Müəllim evinə yenə də çörəkpulu aparır, biznesmen isə maşın, mənzil, villa pulu.

Bir də ilk növbədə öz uşağınızı qiymətləndirməyi bacarın. Oxumaq istəmirsə, buna gücü çatmırsa çıxarın 9-cu sinifdən uşağınızı. Qoyun sənət öyrənsin. İmtahanı verə bilmirsə, hazırlaşıb bir də cəhd etsin. Bacarmırsa qoy xaric etsinlər onu məktəbdən. Rüşvətlə, pul gücünə uşaq oxutdurub nə özünüzə əziyyət verin, nə də müəllimin adını ləkələyin. Bir şeyi anlayın. Müəllim heç vaxt rüşvət tələb etmir. Bizlər uşağımızın qayıblarını, paxırlarını örtmək üçün onların qapısına gedib yalvarırıq. İndi isə yalvarmağımzın da bir əhəmiyyəti yoxdur. Müəllimin quru adı qalıb, səlahiyyətləri isə əlindən alınıb.

Bir dostum var. Ali məktəb müəllimidir. Günlərin bir günü semestr imtahanında bir qohumumu ona tapşırdım. Açdı jurnalı. Baxandan sonra dedi ki, "Mahir, axı nə istəyirsən? Gül kimi tələbədir. Zərbəçidir". Nə desəm yaxşıdır? "Müəllim, qohum dörd-beşlə oxuyur. Amma atası istəyir ki, bütün qiymətləri "5" olsun. Qızı əlaçı olsun". Dostum heç nə demədi. Apardı məni imtahan otağına. Dayandı bir kompüterin qabağında və ona xitabən – "Kompüter, bu mənim dostumdur. Mahir Qabiloğlu. Qohumunu tapşırmağa gəlib. Deyir ki, dördə də cavab versə, "5"yaz. Kompüter, xahiş edirəm, sözünü yerə salma".

Bu qədər. Müqəddəs müəllim adını qoruyub saxlayan Hadı Rəcəblinin müəllimindəsə işiniz olmasın. Hadı müəllim, heç sən də danışıb yada salma. Nümunə də göstərmə. Bu cür

müəllimlər, istər kənddə, istərsə də şəhərdə, nümunə yox, müqəddəs sayılırlar.

Ayağında qaloş, yağışda, boranda, səhərin alaqaranlığında kəndin palçıqlı yollarıyla yavaş-yavaş addımlayan, əlindəki çomaqla həyətlərdən üstünə şığıyan kənd itlərini qova-qova şagirdlərinə bilik verməyə gedən, hədiyyəyə, pula görə yox, dərsini oxumadığına görə şagirdini söyən, döyən Hadı Rəcəblinin müəlliminə eşq olsun!

# QABİLİN MƏNƏVİ ÖVLADLARI

Hər il aprelin 4-ü gələndə daxilimdəki xatirələr varaqlanır. Aprelin 3-dən 4-nə keçən gecə, həyatın 23.45-24.00 arası, 15 dəqiqəlik anı gözümdə yenidən canlanır. Az qalıram ki, havalanım. Mən ilk dəfəydi ki, insanın həyatla sağollaşdığını görürdüm. Ona görə də saniyəbəsaniyə yaddaşıma həkk olunub.

Həmin gecə atam çox narahat idi. Saat 22.50-də dedi ki, mən getdim yatmağa. Keçdi yataq otağına. Biz isə böyük otaqda televizora baxırdıq. 15 dəqiqə keçmişdi ki, qapını tıqqıldatdı. “Yatmamısız ki?” soruşdu. Dedik ki, yox. İçəri keçib kresloda oturdu. Televizora baxmağa başladı. Nəvələrini soruşdu. Dedik ki, imtahana hazırlaşırlar. Başladı yoldaşıma acıqlanmağa ki, uşaqlara çox zülm eləmə. Əsas onların ali məktəbə daxil olmaqları deyil, taleləri gözəl olsun. Sonra qızları da səslədi. Suğraya dedi ki, saçımı dara, Bəyim isə belini ovxalamağa başladı. Hardasa 23.40-a qədər bizimlə oturdu. Sonra “siz də iş adamısınız, dincəlin. Mən getdim yatmağa” dedi. Yataq otağına keçdi. 5 dəqiqə keçmişdi ki, səsini eşitdim. Bircə “Mahir” qışqırdı. Yataq otağına qaçdıq. Gördüm ki, xırıldayır. Özündə deyil. Rəngi bomboz idi. Soyuq tər basmışdı. Köməkləşib otuzdurduq. Yoldaşım tez təzyiqini ölçdü və hönkürdü.

Amma yenə də ümidimi üzməmişdim. Təcili yardım yolda idi. Atamsa başını çiynimə qoyub xırıldayırdı. Sanki boğulurdu. Yoldaşım, qızlarım özlərini itirmişdilər. Yataq xəstəsi olan anamsa “Qabil, Qabil” deyib ağlayırdı. Biz ikimiz isə sakit idik. O, əbədi yuxuya gedirdi, mən isə onu ayıltmaqdan qorxaraq nə cınqırımı çıxarır, nə də tərpənirdim. Bu onun arzuladığı

ölüm idi. Həyatda nəyi arzu eləmişdisə, olmuşdu. Ölümü də öz istəyinə uyğun gəldi. Həyat yoldaşının, oğlunun, gəlininin və nəvələrinin əhatəsində. Ölümün də xoşbəxti olarmış.

ÖLÜMÜNDƏN İKİ AY YARIM ƏVVƏL

15 yanvar 2007-ci ildə, ədəbiyyata bir gündə qədəm basdığı xalq şairi Nəbi Xəzri rəhmətə getdi. O ədəbi nəsildən qaldılar ikisi – Bəxtiyar Vahabzadə və Qabil. Vida mərasimində həmkarım, AzTV-nin müxbiri Firuzə Nadir atamdan müsahibə almışdı: "Belə bir deyim var: "Nəslimin yarpaq tökümü başladı". Mən isə deyirəm. Nəslimin yarpaq tökümü başa çatır".

ÖLÜMÜNDƏN BİR AY YARIM ƏVVƏL

2007-ci il fevralın 13-də Prezident İlham Əliyev atama "İstiqlal" ordenini təqdim etdi. Təqdimat mərasimindən sonra atam hamının yanında prezidentdən üç xahiş etdi. Yazıçı və şairlərə təqaüdlərin verilməsi, yaradıcılıq evinin yenidən qurulması və...

Üçüncü xahişin əgər videoyazısını görməsəydim, heç vaxt inanmazdım: "Biz bir də heç vaxt görüşməyəcəyik..." giriş sözündən sonra məni prezidəntə tapşırdı. Bu onun xarakterinə uyğun deyildi. Amma deyəsən ölümünün yaxınlaşmasını hiss edirdi. Sonda xatirə şəkli çəkdirəndə ərkyanə bir də müraciət etdi. Bu, prezidentə yox, daha çox dostu Heydər Əliyevin oğluna edilən müraciət idi: "Mənim sözlərimi unutma haa..".

Prezidentimiz də bu səmimiyyətə səmimiyyətlə cavab verdi: "Qabil müəllim, sənin bütün göstərişlərini yerinə yetirəcəyəm".

Gülüşdülər. Ayrıldılar.

ÖLÜMÜNDƏN BİR AY ƏVVƏL

2007-nin fevralında artıq növbəti kitabı (həm də son) çapa hazır idi. Adını da "Ömrün gecə qatarı" qoymuşdu.

*Çaqqıldayır təkərlər,*
*Relslərin calağında*
*Keçir gecə qatarı,*
*Yanır qırmızı işıq*
*Zülmətin qucağında.*
*Heydən düşür paravoz,*
*İniltili fit çalır.*
*Gedir ömrün qatarı,*
*Dayanacağa az qalır...*

Kitabın bütün xərcini də dostu Hacıbala Abutalıbov öz üzərinə götürmüşdü. Qalmışdı şəkil.

- Mahir, bilirsən də... Mən bütün kitablarıma yeni şəkil verirəm. Gedək. Səninlə də şəkil çəkdirərik. Çoxdandır şəkil çəkdirmirik.

- Gedərik də... - deyə cavab verdim.

- "Gedərik də..." yox, bu gün işdən qaç, gedək.

Nə qədər istəsəm də sabaha saxlayım, alınmadı. Bir yerdə şəkil çəkdirmək ənənəmiz vardı. Hər il dekabrın 4-ü, mənim ad günümdə. Amma əsgərliyə gedəndən sonra bu ənənə pozulmuşdu.

Dalbadal cib telefonuma zəng elədi ki, gəl. Mənimsə planım tam başqa idi. Fotoatelyeyə getsəydik 3-4 şəkil çəkdirəcəkdik. Ona görə də ailəmizin dostu, fotoqraf Dilavər Nəcəfovla əlaqə saxladım. Onun da əlində iş olduğundan ləngiyirdi. Atam isə hövsələsizin biri, kostyumunu da geyinib oturmuşdu. Hava da qaraldığından fotoatelye bağlana bilərdi. Nəhayət Dilavərlə içəri girdik. Yaman əsəbi idi. Fotoatelye deyib durmuşdu. Yaxşı ki, Dilavəri tanıyırdı. Yoxsa işimiz lap ağır olacaqdı. Bu dəm qaynım Ramiz də yoldaşıyla gəldi. Həmin gün Dilavər bizim ailəvi 100-dən çox şəklimizi çəkdi. Atamın ölüm gününə isə cəmi bir ay qalırdı. Yox, ürəyimə heç nə dammamışdı. Sadəcə, kitabı bəhanə eləmişdim.

## ÖLDÜYÜ GÜN

Aprelin 3-ü. Bu, başqa bir mövzudur. Sadəcə bir məqamı qeyd etmək istəyirəm. Bugünə qədər balık (hisə verilmiş osetrin) yeyə bilmirəm. Hər dəfə balık görəndə bir peşmançılıq hissi keçirirəm. Həmin gün bazara göndərdi məni. Ənənəvi bazarlıq. Bilirdim ki, nə istəyə bilər, alırdım. Pulunu da özü verirdi. Təzə kartof çıxmışdı. Lap balacalarından seçib aldım. Balıq dükanın yanından keçəndə balık almaq istədim. Heç vaxt almamışdım. Özü də istəməmişdi. Amma təzə kartofun qızartmasıyla dayımgildə yeyəndə ləzzət eləmişdi. Satıcı gözüylə işarə elədi ki, məsləhət deyil. Mən də almadım. Evə girəndə, təzə kartofu görəndə o saat “balık da alaydın da...” dedi. İzah etdim ki, mən balıq məhsullarını yalnız tanışdan alıram. O da məsləhət bilmədi. “Pulun qaldı?” deyə soruşdu. “Bir-iki “şirvan”” cavab verdim. Üç dənə yüzlük dolları mənə uzatdı ki, “get bunları xırdala gətir”. “Sabah gedərəm də...” dedim. “Yox, indi get. Sabaha çıxmaya bilərəm. Mən indi istəyirəm” deyə israr elədi.

## ...ARTIQ GEC İDİ

...Təcili yardım özünü çatdırdı. Amma ümid sonda ölər deyərlər. Həkimlər daha nələr eləmədilər. Budundan iynə vurdular, ürəyin massajı, elektroşok, daha nələr. Anlayırdım ki, artıq gecdir. Amma dinmirdim. Bəlkə...

Həkim briqadası da deyəsən mənim “əmr”imi gözləyirdi. Allah isə əmrini vermişdi.

- Həkim, deyəsən...
- Bəli.
- Sağ olun.

Qaldım tək. Gecənin qaranlığı. ANS-in “Xəbərçi” proqramının rəhbəri, həmkarım Afət Telmanqızına zəng etdim. Dərdimə ilk şərik o oldu. Atam ilk dəfə pristupla xəstəxanaya düşəndə də Afət, ANS mənə dəstək olmuşdu.

Həmən çəkiliş qrupu göndərdi. Səhər isə ANS-in efirindən hamı xəbər tutdu. Bütün televiziyalar, mətbuat, saytlar, bir sözlə bütün həmkarlarım da dərdimə şərik oldular. Gec də olsa, hamısına ailəmiz adından minnətdarlıq.

OĞULLUQ BORCU

Son oğulluq borcu övladlar üçün valideynin ölüm günündən başlayır. İl mərasmində də başa çatır. Yaradıcı insanların uşaqları üçünsə bu sonsuzluğa qədər uzanır. Çünki yaradıcı insanlar digərlərindən fərqlənirlər.

Qaydalara görə mən həkimdən kağız almalıydım, sonra qəbir yeri danışmalıydım. El-oba gələcəkdi - iki dənə çadır qurdurmalıydım. Və sairə, və ilaxır. Amma...

Tezdən Bakı şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov gəldi. Atamın xətrini çox istəyirdi. İndi də onu yaddan çıxarmır. Başladı ətrafındakı şəxslərə göstərişlər verməyə. Onlardan yalnız Mənzil-kommunal departamentinin sədri Ənvər müəllimi və Ticarət departamentinin sədri Ramiz müəllimi tanıyırdım. Yaxınlaşıb nəsə söz demək istəyirdim ki, Hacıbala müəllim mənə hirslə "Bu işlər sənlik deyil. Prezident İlham Əliyevin qəbulundaydıq. Mənə də, Əbülfəs Qarayevə də müvafiq göstərişlərini verdi. Get, qapına gələnləri qarşıla, yola sal. Qabilin hüzürünü prezidentimiz verəcək".

İndi bilmirəm bu sözlər necə səslənir. Amma onda çiynimdə bir əl hiss elədim. Birinci növbədə Ənvər müəllim məni maşınına mindirib 1-ci Fəxri xiyabana apardı. 5 yer göstərdi. Nəbi Xəzrinin məzarının yanındakı boş yerə razılıq verdim. Ənvər müəllim qəbirqazanlara tapşırıq verəndən sonra, əlimi cibimə aparmaq istəyirdim ki, qoymadı. Sonra məscidə getdik. Halallıq suyunu tökdüm. Əlimi cibimə aparmaq istəyirdim ki, Ənvər müəllim yenə də qoymadı. "Eşitmədin, Hacıbala müəllim nə dedi. Bütün hər şeyi prezidentimiz edir" dedi. (3, 7, 40 mərasimləri də prezidentimizin adından verildi.)

Nəhayət dəfn mərasimi. Ölən günü dəfn mərasimini keçirmək mümkün idi. Amma təxirə salındı. Səbəbini demədilər. Vida mərasiminin harda keçiriləcəyini də söyləmədilər. Mədəniyyət naziri Əbülfəs Qarayev və onun işçiləri də bütün günü bizdəydilər. Nəhayət ertəsi gün Rəşid Behbudov adına Mahnı Teatrının binasında vida mərasimi keçirildi. İlk sırada mən, ailə üzvlərimiz əyləşmişdi. Birdən prezidentin mühafizə xidmətində işləyən, general-mayor Tofiq Rəsulovun oğlu, xalanəvəsi Cəmil mənə yaxınlaşdı. "Prezident İlham Əliyev vida mərasiminə gəlir" dedi. Onda bildim ki, dəfn mərasimini niyə bir gün gecikdiriblərmiş. Təhlükəsizlik tədbirləriylə əlaqədar. Bu mənimçün gözlənilməz oldu. Düzünü desəm İlham Heydər oğlunun gələcəyini gözləyirdim. Gözüm qapıda qalmışdı.

MM-in sədri Oqtay Əsədov, Baş nazir Artur Rasizadə, Prezident Adminstrasiyasının rəhbəri  Ramiz Mehdiyevlə birlikdə zala daxil olan prezident səhnəyə qalxıb fəxri qarovulda durdu. Tabutun önündə baş əyərək son ehtiramını bildirdi. Sonra mənə və ailə üzvlərimə başsağlığı verdi. Yanaşı əyləşdik. Özümü saxlaya bilməyib hönkürdüm. Əlini çiynimə qoyub, bircə söz dedi: "Səni başa düşürəm".

40 mərasiminəcən prezidentimiz və Əliyevlər ailəsi yanımızda oldu. Dərdimizə şərik çıxdılar. Amma yox. Düzgün ifadə etmədim. İlham Əliyev Qabilə prezident, həm də atasının dostu kimi son oğulluq borcunu yerinə yetirdi.

## HACIBALA ABUTALIBOV

40 mərasimi başa çatandan sonra oğulluq borcumun növbəti mərhələsinə keçdim. Qəbrüstü abidənin götürülməsi. Qısa deyim. Birinci təklif Hacıbala Abutalıbovdan gəldi: "İcazə ver dostumun qəbrinin üstünü mən götürüm. Büstünü qoydurum". Sonda elə də oldu. Bu oğulluq borcumu da Hacıbala müəllim yerinə yetirdi.

## ƏBƏDİLƏŞƏN XATİRƏ

Xatirə. Ölən insanın yaşaması. Bu uzun, daha dəqiq desək sonsuz prosesdir. Bəzən heç övladlardan da asılı deyil. Bu missiyanı xalq həyata keçirir. Çünki əsl sənətkar ürəklərdə yaşamalıdır. Ovladın üzərinə isə o vəzifə düşür ki, bu işi həm davam etdirsin, həm də öz övladlarına miras qoysun. Çünki yaradıcı insanlardan qalan miras təkcə ev, maşın, varidat deyil. Əsl varidat onların yaradıcılığıdır. Bilmirəm nə qədər öhdəsindən gəlirəm, ya yox? Amma Qabili sevənlər məndən daha artıq iş görüblər.

*Saysız şer içində adi şersən,*
*Ancaq nə şərikin, nə ortağın var.*
*Böyük bir axında üzüb gedirsən,*
*Xırdaca gəmisən, öz bayrağın var*

Qabil öz şeirlərini gəmiyə bənzətmişdi. Bu, bir poetik bənzətmə idi. Sadəcə söz. Amma bunun nə vaxtsa reallığa dönəcəyinə inanmırdım. Elə də oldu. Həmyerlimiz, "PALMALİ" Şirkətlər Qrupunun prezidenti Mübariz Mənsimov və vitse-prezident İbrahim Nəbioğlu atamın adını 7100 tonluq neft tankerinə verdilər. Adını da ingilis dilində "POET QABİL" qoydular. Çox sağ olsunlar. Onu da qeyd edim ki, bu atamın xatirəsinin əbədiləşdirilməsi istiqamətində bir ilk idi.

## SON

Bu qədər, ey Qabili yaddan çıxarmayanlar. İctimai Televiziyada "Azərbaycan əsgəri" şeirinin klipinə baxanda köks ötürənlər, cəmiyyətdə kiminsə yerdəyişik düşdüyünü görüb, sadəcə "şair Qabil demişkən "Səhv düşəndə yerimiz"" söyləyənlər, mənim təxəllüsümdə Qabil adını görüb yazımı oxuyanlar, oxuyandan sonra ya "ot kökü üstə bitər", ya da

“oddan kül törəyib” deyənlər! Atamın, Qabilin vəfatından 8 il ötdü. Bu 8 ildə Qabilə məndən artıq oğulluq edənləri qeyd etdim. Bu yazımla bu mənəvi varislərə bir daha minnətdarlığımı çatdırmağı qanuni varis kimi özümə borc saydım. Sağolsunlar.

# KAMİL ƏLİYEVİN ŞİLLƏSİ

Atam Qabilin belə bir sözü vardı. Mənim müəllimlərimlə rastlaşanda "Mən Mahirin müəllimlərinin qarşısında baş əyirəm" deyirdi. İndi başa düşürəm ki, bu elə-belə söz deyilmiş.

Müəllim - hərçənd ki, indiki dövrdə bu sözün qabağına "ƏSL" sözü də artırırlar – müqəddəs bir anlamdır. Əslində övladımıza - pul-para dalıyca özümüzü oda-közə vuran - bizlər deyil, məhz müəllimlər tərbiyə verirlər. Evdə aldığın ailə tərbiyəsinin əyər-əskiyini də düzəltmək məhz onların üzərinə düşür. Mən bu baxımdan çox xoşbəxt insanam. Və belə bir xoşbəxtliyi bütün yeniyetmə və gənclərə arzulayardım.

Mənimçün orta məktəb bir, Ali məktəb – Bakı Dövlət Universiteti - ayrı bir təlim-tərbiyə ocağı olub. Müəllimlərimin hamısına minnətdaram. O cümlədən professor Kamil Əliyevə. Mən onu ilk dəfə müəllimim kimi tanımamışam. Bunun qısa bir tarixçəsi var:

Yardımlıda yaşayan qohumlarımızdan biri sənədlərini ovaxtki Kirov adına Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinə verir. Xatirinizdədirsə, sovet dövründə ali məktəblərdə ilk imtahan Azərbaycan dili yazılı, ikinci imtahan isə Ədəbiyyat şifahi olardı. İnşanı da tam səhvsiz yazmaq hər adamın işi deyildi. Rayondan şəhərə ilk dəfə gələn bu qohumumuz da inşanı elə qüsursuz yazır ki, müəllimlər ondan şübhələnirlər. Ki, yəqin köçürüb. Rektora xəbər verirlər. Komissiya düzəldirlər. Ayrıca partada otuzdurub təkrar imtahan götürürlər. Yenə də "5"ə yazır. Rektor abituriyenti tərifləməyib. Bircə sual verib:

- Bala, müəllimin kim olub?
- Yardımlı orta məktəbinin müəllimi Kamil Əliyev.

Qohumumuz düz üç il dalbadal sənədlərini universitetə verdi. Üç il dalbadal da dörd qəbul imtahanının üçündən "5", birindən isə "2" alıb kəsildi. Axı, kənd məktəblərində xarici dilin tədrisi sıfır səviyyəsindəydi. Kamil müəllimi ilk olaraq belə, qiyabi tanıdım. Evdə də atam, anam, dayılarım, xalalarım onun haqqında, müəllimliyi barədə çox yüksək fikirlər söyləyirdilər. Amma onu üzdən tanımırdım.

Zaman keçdi. Mən də Universitetə qəbul oldum. "Nitq mədəniyyəti" üzrə ilk dərsimiz idi. Dəhlizdə yığışıb zəngin içəri çalınmasını gözləyirdik. Fənn müəllimini üzdən tanımırdıq.

Birdən 50-55 yaşlı bir kişi bizə yaxınlaşdı. Tələbə dostlarıma heç nə demədi. Üzümə bir yumşaq, amma "şapp" eləyən şillə vurdu:

"Ədə, bax avaralıq eləsən, dərsini oxumasan "2" verəcəyəm. Baxmaram ki, Qabilin oğlusan" dedi. Sonra da qucaqlayıb, şillə vurduğu yerdən öpdü. Belə etməyini başa düşmədiyimdən pərt olmuşdum. Axı niyə? Taqsırım nə idi? Heç bismillah eləyib kitabın üzünü də açmamışdıq. Müəllim nə bilir ki, mən oxuyanam, yoxsa avara? Axı niyə məhz məni vurdu? Axı patokda məndən savayı 74 tələbə var. Dərs başlayandan sonra bildim ki, mən başqa, 74 tələbə yoldaşım başqa. Bu, Kamil Əliyevdir. Yardımlılı Kamil Əliyev. Qulaqburmamı da əvvəlcədən verib.

O vaxt bunu çox anlamasam da, sonralar eşitdiyim bir misal Kamil müəllimin bu hərəkətinə ürəyimdə bəraət qazandırdı. Pərtliyim silindi getdi:

Deməli, günlərin bir günü bir ata qızına deyir ki, səhəngi götür get bulağa, su gətir. Qız elə qapıdan çıxmaq istəyəndə atası onu geri haylayır. Səhəngi yerə qoyub atasına yaxınlaşır. Elə bu dəm atası nə etsə yaxşıdır? Qızına bir dənə şillə ilişdirir. Səbəbini soruşanda atası:

- Ay qızım, əvvəlcədən vurdum ki, səhənglə ehtiyatlı olasan. Sındırmayasan. Sındırandan sonra səni danlamağımın, vurmağımın nə faydası var ki?

İndi də televiziyada işləmək istəyən gənclərə dərs keçəndə Kamil müəllimi tez-tez xatırlayıram. Çünki onun bizə əyani başa saldığı bir qüsurla AzTV-nin "Xəbərlər" proqramında tez-tez qarşılaşırdım. Prezident sərəncamlarında, rəsmi sənədlər oxunanda bu halla siz də rastlaşmısınız. Deməli prezident sərəncamı və ya fərmanı oxunur. Sənəddə giriş hissə olur. Yəni ki, əsaslandırma hissəsi. Sonra isə belə bir standart cümlə gəlir: "Yuxarıdakıları nəzərə alaraq........ qərara alıram....". Bunu deyib Kamil müəllim başını qaldırıb bir dəqiqə tavana baxardı. Ya da "Aşağıdakı tərkibdə komissiya təşkil olunsun..." deyib, başını aşağı salıb gözünü döşəməyə zilləyərdi. "Ay tələbələr, yazanda yazmaq olar, bu sözləri bu cür oxumaq isə savadsızlıqdır. Bunları yadda saxlayın. "Yuxarıdakıları" yox, deməlisiniz ki, "əvvəl sadaladıqlarımı nəzərə alaraq", yaxud da "aşağıdakıları" yox, "bu tərkibdə komissiya yaradılsın". Başa düşdünüz?".

Bu qədər. Kamil müəllim belə müəllim idi. Kamil müəllim belə alim idi. Professor Kamil Əliyev mənim yaddaşıma belə həkk olunub.

# ÇANAQQALA "ZƏFƏRİ", STALİN, QARABAĞ

Nədənsə hər dəfə "Çanaqqala zəfəri" (məhz "zəfəri", "döyüşü" yox) ifadəsini eşidəndə, Böyük Vətən Müharibəsi və Stalin gəlib dayanır gözümün önündə. Osmanlı İmperiyasıyla Sovet İmperiyasını, İstanbulla Moskvanı, Atatürklə Stalini müqayisə etməyə başlayıram. Bəlkə də düz eləmirəm. Axı tarixi faktlara, şəraitə tarixçi kimi yox, sadəcə publisist baxışıyla nəzər yetirirəm.

"VELİKA ROSSİYA, A OTSTUPAT NEKUDA – POZADİ MOSKVA"

"Rusiya böyükdür. Amma geriyə yol yoxdur - arxada Moskvadır".

Bu sözləri biz - sovet uşaqları – müharibə haqqında kinolarda, Stalinin dilindən eşitmişik. Daha doğrusu sovet yazıçıları belə yazıb. Rəsmi sənədlərdə isə bu sözlərin 16 noyabr 1941-ci ildə Moskva uğrunda döyüşlərdə həlak olan zabit Vasili Kloçkova aid olduğu deyilir. Amma bu ifadənin "Ni şaqu nazad" əmri verən, döyüşdə geri çəkilənləri yerindəcə güllələmək üçün silahlı dəstələr yerləşdirən Stalinə aid olması daha həqiqətəuyğun görsənir. Böyük Vətən Müharibəsində nə etdi baş komandan Marşal Stalin? Sərkərdə Kutuzovun 1812-ci ildə Napoleonla müharibədə sınaqdan çıxmış hərbi fəndini tətbiq etməklə, Moskvanı faşistlərə təslim etmədi. Moskvanın 30 kilometrliyinəcən gələn düşmənin qabağını kəsdi. Nəinki qabağını kəsdi. Sovet torpaqlarını azad etdi. Nəinki SSRİ-ni

azad etdi. İmperiyasının sərhədlərini Avropanın ortasına qədər uzatdı. SSRİ öz yerində, dünyada sosializm adlı böyük bir imperiya qurdu.

“MÖHTƏŞƏM YÜZİLLİK” VƏ SULTAN SÜLEYMAN

Heç bir tarixi kitab oxumasaq da, “Möhtəşəm yüz il” serialına baxmaq kifayət edər. Osmanlı İmperiyasının sərhədlərinin yüzilliklər boyu haracan uzandığı, dünyanın əsas hissəsi olan Avropanın Türkiyəyə bac-xərac verməsi bu serialda daha aydın görsənir. Bəs sonu nə oldu? Eynən Çanaqqala döyüşündən 26 il sonra Böyük Vətən Müharibəsində baş verəcək bir şərait yarandı. İmperiya süquta uğraya-uğraya Türkiyə sərhədlərinə geri çəkildi. Arxada İstanbul idi. Döyüş başladı – Çanaqqala döyüşü və döyüşdə qələbə çaldı Türk əsgərləri. Amma Türklər müharibəni uduzdular. Stalin kimi öz İmperiyalarını bərpa edə bilmədilər. Xarici qüvvələr məhz bu döyüşdə məğlub olsalar da, yüz illər boyu dünyada at oynadan bir xalqı öz sərhədləri çərçivəsinə soxub ram edə bildilər. İndi sual olunur: Çanaqqala döyüşü zəfər, yoxsa məğlubiyyətdir?

ÇANAQQALA DÖYÜŞÜ VƏ AZƏRBAYCANIN BƏLALARININ BAŞLANĞICI

Qarabağ müharibəsi başlayanı əlinə qələm götürüb bu barədə yazanların əksəri “ermənilərə torpaqlarımızdan pay vermişik, bağışlamışıq” sözlərini işlədirlər. Mən də belə bilirdim. Amma bu sənədi görəndən sonra başa düşdüm ki, əslində belə deyilmiş:

***ПРОТОКОЛ №3***
***Заседания Мусульманского Национального Совета***
***г. Тифлис***
***29 мая 1918 г.***
***Председатель Гасанбек Агаев***
***Секретарь М.Махсудов***

*Присутствовали: 1) Ф.Х.Хойский; 2) М.Ю.Джафаров; 3) М.Б.Гаджинский; 4) Ал.Б.Махмудбеков; 5) Ф.Б.Кочарлинский; 6) Дж.Мелик-Еганов; 7) Р.Б.Векилов 8) Г.Б.Шахтахтинский; 9) Ах.Ахундов; 10) М.К.Мамедбеков; 11) А.Шейхуль-Исламов; 12) М.Магеррамов; 13) Х.Б.Хасмамедов; 14) Дж.Б.Гаджинский; 15) С.А.Агамалов; 16) Шарифов.*

*На открытии заседания член Совета Ф.Х.Хойский докладывает Совету о результатах переговоров представителей Совета с представителями Армянского Национального Совета по поводу границы территории Азербайджанской и Армянской Федераций. Ф.Х.Хойский закончил свой доклад сообщением, что для образования Армянской Федерации им нужен политический центр, а таковым после отхода Александрополя к Турции может быть только Эриван, а потому уступка Эривани армянам, сказал Хойский, является неизбежной.*

*По этому вопросу высказались Х.Б.Хасмамедов, М.Ю.Джафаров, Шейхуль-Исламов (последний от имени партии "Гуммет"), М.Магеррамов (от имени Соц.Мус. блока), которые признают уступку Эривани армянам исторической необходимостью, неизбежным злом. Голосование по этому вопросу дало следующие результаты: за уступку Эривани подается 16 голосов из 28 общего числа: против - один; воздержавшихся - трое.*

*Затем ставится на обсуждение вопрос об образовании с армянами конфедерации. Затем после краткого обмена мнениями этот вопрос ставится на голосование. Такой порядок будущего устройства Азербайджана и Армении Советом принимается единогласно. Далее член Совета Ф.Х.Хойский вносит предложение о включении в состав Национального Совета Теймурбека Макинского путем кооптации, что Советом принимается единогласно.*

*Председатель /подпись/ Гасанбек Агаев*
*Секретарь /подпись/ М.Махсудов*
*ГААР, ф.970, оп.1, д.1, лл.51, 52 (копия)*

Bu sənəddən bir sitat: **"Х.Хойский закончил свой доклад сообщением, что для образования Армянской Федерации им нужен политический центр, а таковым после отхода Александрополя к Турции может быть только Эриван, а потому уступка Эривани армянам, сказал Хойский, является неизбежной".**

Demə biz Türkiyənin xətrinə, Aleksandropolun xətrinə, o vaxt Türkiyənin istilası altında olan İrəvanı ermənilərə güzəştə getmişik. "Ərməniyyə Federasiyası" adıyla. Bağışlamamışıq, GÜZƏŞTƏ GETMİŞİK. "Məndən keçdi, qonşuma dəydi" prinsipiylə hərəkət edən Türkiyə bu təhrikiylə nəinki ermənilərdən canını qurtardı, əksinə, qulağının dibində, qardaşı Azərbaycanın torpaqlarında ermənilərə dövlət yaratmaq üçün torpaq verdirdi. Protokola, rəsmi sənədə əsasən də yeni yaranan dövlətin adını da biz qoyduq – qədim Türk dövləti olan Ərməniyə, rusca Armeniya. Necə deyərlər ermənilər, bu torpaqda qədim kökləri olan ərmənlər kimi yurd saldılar. Baxmayaraq ki, oxuyanda "Qardaş olub Hayastan, Azərbaycan" oxuduq.

ERMƏNİLƏRDƏ TƏQSİR VARMI?

İndi ermənilərin bir əli Türkiyədə, bir əli də Azərbaycanda. Arxalarında da 1918-ci ildəki kimi, həminki Avropa dövlətləri. Daha da güclənmiş, dünyaya ağalıq edən ölkələr. Özü az idi, Türkiyə Azərbaycanı da zibilə saldı. O vaxt bilə-bilə, indi bilməyə-bilməyə. Burda şair yaxşı deyib:

"Anadır arzulara hər zaman Qarabağ".

Qarabağ hələ bizdə olan vaxt mahnılarda arzularımızın anası idi. Amma əslində arzu deyildi, Qarabağ bizim idi. Hey oxuyurduq. Ermənilər isə sevə-sevə oxuduğumuz bu mahnını reallığa çevirdilər. İndi Qarabağ həqiqətən arzularımızın anasıdır. "Ad bizim, yar özgənin". Qorxuram ki, bir azdan "Anadır arzulara hər zaman İstanbul" oxuyaq. Belə getsə, o gün uzaqda deyil.

# ELMİRA AXUNDOVA – AZƏRBAYCANIN "JZL"-İ

Atam Qabil kitab yığmaq həvəskarı deyildi. Yəqin evimiz darısqal olduğundan. Çünki 28 kvadrat metrlik mənzildə dörd kitab şkafı, iki kitab rəfimiz vardı ki, onların da hamısı avtoqraflı kitablar və anamın dərs vəsaitləriylə dolu idi. Şkaflardan biri balaca iş otağında, biri qonaq, ikisi isə yataq otağında idi. Amma qonşularımızın gözəl kitabxanaları vardı. Hər dəfə İsmayıl Şıxlı, Bayram Bayramov, Salam Qədirzadəgilə gedəndə sırayla düzülmüş şkaflara, rəflərə, ordakı eyni boyda, eyni cilddə olan kitablara baxanda xüsusi zövq alırdım. (Atamın dediyinə görə ən zəngin kitabxana İlyas Əfəndiyevin oğlu Elçinə məxsusdur. Görməmişəm).

Bu nəşrlər içərisində ən çox sevdiyim isə "JZL" - «Жизнь Знаменитых Людей» ("Tanınmış İnsanların Həyatı") silsiləsindən olan cildlər idi. Baxırdım bu kitablara və tarixi şəxsiyyətlərin adlarını əzbərləyirdim. Düşünürdüm ki, nəvaxtsa oxuyacağam bu kitabları. Dayım Fikrət isə kitab mağazasının müdiri olduğundan yaxşı bilirdim ki, bu kitablar çox bahadır. Tanışlıqla 25-50 rubl. Ya da ki, 20 kiloqram kağız maklatura verib, xüsusi çek alaraq havayı əldə edə bilərdin.

Bu gün Azərbaycan televiziyalarına baxıb əhalinin əhval-ruhiyyəsini asanlıqla təyin etmək olar. Yox yaşayış səviyyəsini, sosial problemlərini demirəm. Tamaşaçıların zövqünü deyirəm. İnsanlar sanki digərlərinin şəxsi həyatını bilməyə susayıblar, sanki tamarzıdırlar. Mən də o vaxt belə tamarzı idim. Amma dedi-qodu, ara söhbətlərinə yox, görkəmli insanların

həyat yolunu öyrənməyə. Çox şey bilirdim onlar haqqında. Salam Qədirzadənin söhbətlərindən Qorki adına Moskva Ədəbiyyat İnstitutunda dərs deyən görkəmli filoloq-alimləri tanıyırdım. İsmayıl Şıxlı qədim vaxtların kişilərindən danışırdı. Bayram Bayramov mənə Cəlil Məmmədquluzadəni, İbrahim bəy Davatdarovu, Həmidə xanım Cavanşiri, onun qardaşlarını, Cəlil Məmmədquluzadənin "əl gəzdirdiyi" dayəni, Həmidə xanım tərəfindən az qala güllələnəcəyi səhnəni, Nazlı xanımı, Çıraq bəyi, Pındıq Abbası tanıtdı. Yox, yazdıqları əsərlərdən oxumurdum bunları. Atamla söhbətlərindən öz uşaq yaddaşıma yazırdım. Təki gündəliklər də yazaydım.

Bəzən uşaq ağlımla gülürdüm onların bəzi sözlərinə. Məsələn Salam Qədirzadə böyük Puşkinşünas alim müəllimi haqqında danışanda hansı ifadəni işlətsə yaxşıdır: "Qabil, Puşkin nəvaxt, hansı ağacın dibinə iş..ib? Müəllimimiz buna qədər gözəl bilirdi rus klassikini". Gülürdüm. Əlbəttə ki, bunun müqayisə olduğunu anlamırdım. Sonra əlavə edirdi ki, "Qabil, qorxurduq o müəllimimizdən. Nə tapşırıq verirdisə edirdik. İmtahana girəndə tir-tir əsirdik. Amma imtahanda nə etsə yaxşıdır? Sinifqoma "zaçotka"ları yığdırıb, bilet çəkdirmədən hamımıza "5" yazdı və əlavə etdi: "Mən inanmıram ki, sizin içinizdən böyük Puşkini əla bilməyən ola"".

Bu cür xatirələrim çoxdur. Bəlkə də bu baxımdan indi hansısa professor, akademikdən də çox bilirəm. Çünki bu şeylər kitablarda yazılmayıb ki, götürüb oxuyasan.

İntensiv yaradıcılığa başlayanda məhz bu sandıq ədəbiyyatına meyl göstərdim. Saytlarda izləmə göstəricilərinə baxanda sevinirdim. Amma yeni yazmağa başlayan birinin bu qədər oxucu toplamağının niyəsini dərindən başa düşmürdüm. Demə tanınmış insanların, ilk növbədə atamın, onun timsalında dostları olan digər görkəmli şəxsiyyətlərin, mənə məlum, çoxlarına isə tanış olmayan həyat səhifələrini varaqlayırmışam. Günlərin bir günü bütün bunların hamısını toplayıb "Ərmən – Şuşanikin sevgisi" adlı kitabını çıxartdım. Birinci növbədə qonşum, jurnalist, publisist, yazıçı, tərcüməçi Elmira Axundovaya avtoqraf yazıb bağışladım.

ELMİRA AXUNDOVA KİMDİR

Yaradıcı insan. Ona gərək ilk növbədə yaradıcılığına görə qiymət verəsən. Nə edək ki, Azərbaycan cəmiyyəti şəxsiyyəti, şəxsi həyatı tanınmış insanların yaradıcılığı ilə tən tutur. Bəzən isə mizan-tərəzi pozulur.

Yaradıcı insanları şəxsiyyət kimi tanımaq isə mənim üçün çox asan idi. Çünki atam kimi məhək daşım vardı. Elmira xanımı da ilk olaraq mənə Qabil tanıdıb. Deyib ki, həm gözəl jurnalistdir, həm də gözəl insan. Onu da əlavə edirdi ki, çox "boyevoy" (mübariz) qızdır. Hər adamın işi deyil o boyda "literaturnı" qəzetin (Literaturnaya qazeta) respublikada müxbiri olsun. Çox istəyirdi (el dilində desək – indi istəməsin) Elmira xanımın xətrini. Sonralar xarici dövlət səfərlərində bir yerdə oldular. Mən onda AzTV-də işlədiyimdən Elmira xanımı bir jurnalist kimi şəxsən tanımağa başladım. İlk qiymətim isə bu oldu: "Heydər Əliyev kimi bir insan hər adamı özüylə səfərə aparmaz. Onun gözü pərgardır".

İllər keçdi. Elmira xanımla qonşu olduq. Ailəsini, oğlu Həbibi tanıdım. Deputat kimi fəaliyyətini izlədim. Amma ona olan hörmətimin bir pik nöqtəsi çatdı. "Heydər Əliyev. Şəxsiyyət və zaman" adlı 7 cildliyini görəndə. Uşaqlığım yadıma düşdü. Şəxsi kitabxanalarda "JZL" – «Жизнь Знаменитых Людей» adlı nəşrlərə həsrətlə baxdığım vaxtlar. O vaxt onların içində Heydər Əliyevin adı yox idi.

Düzdür sonralar, müstəqillik dövrümüzdə belə bir kitab yazıldı və bu silsiləyə daxil edildi. Amma cəmi-cümlətanı bir cild. Əlbəttə ki, hər bir nəşrin öz ölçü tələbləri var. Amma Heydər Əliyevin həyatını bir kitaba sığışdırmaq mümkün deyildi. Elmira Axundovanın yüksək tərtibatla, rus və Azərbaycan dillərində çapdan çıxan 14 kitablıq bir epopeyasını görəndə sevindim. O, bu işin öhdəsindən gəlmişdi. Belə deyək, bizim ilk "JZL"imizi yaratmışdı.

Bu epopeya Azərbaycanın Dövlət Mükafatına təqdim ediləndə isə Elmira xanımın keçirdiyi hiss və həyəcanları mənim qədər başa düşən inanmıram olsun. Çünki atamın da "Nəsimi" poeması 1976-cı ildə bu mükafata layiq görülmüşdü. Dövlət Mükafatı fəxri ad deyil. Mükafat şəxsiyyətə yox, əsərə verilən dövlət qiymətidir. "Şöhrət" ordeni və əməkdar jurnalist fəxri adı ilə öz qiymətini almış Elmira xanımın övladı sayılan çoxcildliyi də böyük qiymətə layiq görülmüşdü. Bu məni bir qonşu, həm də Heydər Əliyevçi kimi çox sevindirirdi.

ELMİRA AXUNDOVA "HAY VERƏN" YOX, "PAY VERƏN"DİR

Bu mövzuya qiymət vermək, olanları yekunlaşdırmaq düzgün olmazdı. Çünki həyat davam edir. Yaradıcılıq yolunda mənim eniş-yoxuşlarım çox ola bilər. Hətta sönə də bilərəm. Amma...

Yazıçı-şair uşaqlarının aldıqları tərbiyə digər ailələrin tərbiyəsindən fərqli olur. Ataları-anaları sanki onlar üçün bir Allahdır. Buna cəmiyyətdə "kompleks" də demək olar. Atalarına gördükləri hörmət və izzəti, onlar öldükdən sonra görmədikdə sınırlar. Bəzən lazımsız çıxışlar da edirlər. "Bağda ərik var idi, salam-əleyk var idi. Bağda ərik qurtardı, salam-əleyk qurtardı" kəlamını əldə bayraq da edirlər. Mən də atamın ölümündən sonra bu cür kompleksə düşmüşdüm. Hətta bəzilərinin sifətində "Gözüm aydın, Qabilin oğlusan. Qabil Qabil idi, bə sən kimsən?" ifadələrini də oxuyurdum. Yaxşı ki, bunu tez anladım. Anadan olduğum gündən qaynadığım doğma qazana qayıtdım. Nağıllardakı "Sim-Sim açıl", yəni "Qabilin oğluyam" kodu məhz burda keçərli idi. Burda da qapının arxasındaydım. Qapını döyürdüm. Soruşurdular "Kimsən?". Cavab verirdim. Amma cavab yalnız sənin təxəllüsün ola bilərdi. Ortaya isə yalnız və yalnız yazdıqlarını qoymalıydın. Özü də ikiqat məsuliyyətlə. Ortada Qabilin adı vardı. Və o ad bu qazanda qaymaq idi. Qapını isə içəridən kimsə açmalıydı.

Elmira xanım mənim qonşum idi. İndi də qonşumdur. Liftdə, yaxud da dəhlizdə rastlaşanda birinci sözü "Allah Qabil müəllimə rəhmət eləsin" kəlməsi olurdu. Kövrəlirdi də. Amma günlərin bir günü bu ifadəni eşitmədim. Başını razılıqla yellətdi. Yeni bir söz idi mənimçün: "Vsyo-taki gen özünü göstərir". Əvvəl başa düşmədim. Həmin an yaradıcılığa başlamağım heç yadıma da düşmürdü. Demə Elmira xanım mənim Modern.az-da təzə-təzə gedən yazılarımı izləyirmiş. Çox sevindim. Həm də utandım. Bir tərəfdən də fikirləşdim ki, yəqin Qabilin oğlu, qonşusu olduğum üçün tərifləyir. Ya da bir ustad olaraq məni daha da ruhlandırmaq üçün sadəcə xoş sözlər söyləyir. Amma...

Günlərin bir günü telefonuma zəng gəldi. Tanınmış şairlərdən biri idi. "Mahir, sənin "Ərmən – Şuşanikin sevgisi" kitabını hardan ala bilərəm?". Düzü mənə heç vaxt zəng etməyən bir adamın, özü də tanınmış simanın belə deməsindən duruxdum. Amma həmin adamın "Elmira Axundovanın "Kaspiy" və "525-ci qəzet"də sənin kitabın haqqında gözəl bir məqaləsi çıxıb. Kitabı mən də oxumaq istəyirəm" sözlərindən sonra liftdə və həyətdə mənə deyilən təriflərin sadəcə söz - qonşu sözü, Qabilin dostu kimi deyilən söz yox, jurnalist, publisist, yazıçı qiyməti olduğunu dərk etdim. Elmira xanım yazmışdı. Mənimçün ədəbiyyata VƏSİQƏ yazmışdı.

Üstündən 10 gün keçməmiş yenidən zənglər gəlməyə başladı. Bu dəfə rusdilli qohumlarımızdan. Demə Elmira xanımın təşəbbüsüylə "Ərmən – Şuşanikin sevgisi" hekayəm rus dilində "Kaspiy" qəzetində dərc olunub. Məsələ bununla başa çatmadı. Qonşu kimi növbəti dəfə rastlaşanda ərklə, bir az da amiranə şəkildə "Mahir, iki kitabını, Modern.az-da çap olunan məqalə və hekayələrin siyahısını, tərcümələri – yaxşı tərcümə edirsən – yığ bir papkaya, ver mənə. Anar müəllimlə, Fikrət Qocanın yanına gedib sənin Yazıçılar Birliyinin üzvlüyünə təqdimatını verəcəm". Üstündən beş ay keşməmiş RƏSMİ VƏSİQƏmi də belə aldım.

## QİYABİ, ƏYANİ

Dilimizdə bir "qiyabi" sözü var. Xoşum gəlmir bu sözdən. Amma nə edəsən ki, ədəbiyyatda "qiyabi tanışlıq" ifadəsiylə barışmalı olursan. Axı mən Hüseyn Cavidi necə əyani tanıya bilərəm? Mən anadan olmamışdan 20 il əvvəl ölüb. Yaxud da Səməd Vurğunu. Lap bir çox müasirimiz var ki, onları heç əyani də tanımamışıq. Sadəcə əsərlərini oxumuşuq. Mənim tanıdıqlarım bir çox yazıçı-şair var ki, onları indiki Qabriel Markessevərlər də görməyib. Bu cür dahi şəxsiyyətlər, görkəmli insanlar çoxdur. Əgər Azərbaycanın öz milli "JZL"ini, yəni "Tanınmış insanların həyatı"nı yaratsaq, həmin kitabda yazılanların bir faizini biləcəyəm, ya yox. Baxmayaraq ki, Elmira Axundovanın 7 cild həsr etdiyi Heydər Əliyev mənim, sizin müasiriniz olub. Görəsən Azərbaycan "JZL"ini yaza bilən insanlar varmı Azərbaycanda? Tək-tük. Bəlkə də sonuncu mogikanlar. Nəşriyyatlar susur, vaxt isə gedir. Müasirlər azalır, qiyabiçilər çoxalır.

Elmira xanımın yeni kitabını, nəfis tərtibatda çap olunan "Dostlarımın gözəl cizgiləri.." kitabını əlimə alanda ikiqat sevindim. Birinci növbədə bu kitabda iki fotoyla "Şair Qabil, Mahir Qabiloğlu və "O dünyadan məktublar"" adlı resenziya ilə mən də vardım. Ən başlıcası isə biz qiyabi və əyani tanıdığımız insanlara Elmira xanımın gözüylə baxacaqdıq. Və o da sirr deyil ki, bu qəbildən olan kitablar hər hansı bədii əsərdən yüksəkdə durur və oxucu tərəfindən acgözlüklə oxunur.

Səməd Vurğunla Mirzə İbrahimov Elmlər Akademiyasının həqiqi üzvləri idilər. Amma nə namizədlik, nə də doktorluq dissertasiyası müdafiə etmişdilər. Nə aspirantura, nə də doktorantura oxumuşdular. Amma yazdıqları neçə-neçə alimin elmi əsərlərindən yüksək tutulmuş, birbaşa akademik rütbəsinə layiq görülmüşdülər. Müasir dövrümüzdə isə Akademiyamız susur. Yazıçı-publisistlərimizin bu əvəzsiz xidmətlərini qiymətləndirməkdə çox qısqancdırlar. Bəlkə də paxıldırlar desəm yanılmaram.

Elmira Axundovanın "Portretlər", "Resenziyalar", "Esselər"dən ibarət 450 səhifəlik "Dostlarımın gözəl cizgiləri..." adlı kitabı onun haqqında bu ürək sözlərimi yazmaq üçün bir növ bəhanə oldu. Yazımda kitabın dərinliklərinə varmadım. "Görünən dağa nə bələdçi" məsəlini əldə bayraq tutaraq. Kitab ixtiyarınızdadır. Oxuyun... Çingiz Aytmatovu, Oljas Süleymenovu, Mais Məmmədovu, Sabir Rüstəmxanlını, rəssam Rasim Babayevi və digər görkəmli şəxsiyyətlərimizi Elmira Axundova prizmasından tanıyın. Bu kitabda toplanan yazılarda Elmira xanım rəssamdır. Öz rənglər dünyasıyla dostlarının portretlərini çəkir. Elmira xanım həm də xiridardır. Dostlarına bir insan kimi qiymət verməklə yanaşı, həm də onların yaradıcılığını dəyərləndirir. İki xətti paralel aparır. İstəyirsiniz birini deyim. Sabir Rüstəmxanlının qadın pərəstişkarları tərəfindən Yazıçılar İttifaqına gələn məhəbbət məktubları əsasında Mərkəzi Komitəyə donosu bilirsiniz kim yazıbmış? Mən bunu bilmirdim, indi bildim.

Sonda isə bir daha xeyirxahım və qonşum, Qabilin varisinə ehtiramla yanaşan Elmira xanımı yeni kitabı münasibətilə təbrik edirəm. Həm də təşəkkürümü bildirirəm. Yaradıcı insanlarımız haqqında yazdığı gözəl sözlərə və xatirələrə görə... bu yazılara qoyduğu geniş ürəyinə görə...

# HACIBALA ABUTALIBOVUN TƏŞƏBBÜSÜ, YOXSA ÜMUMXALQ BAYRAMI?

"Gül bayramı" nədir. Deyəcəksiniz ki, axı bunu anlamaq belə çətin şeydir ki? Gül bayramı 2001-ci ildən hər il mayın 10-u, Azərbaycana uzun müddət rəhbərlik etmiş Heydər Əliyevin doğum günündə, Bakı şəhər İcra hakimiyyətinin təşəbbüsü ilə keçirilən bir bayramdır. Artıq 14 ildir ki, mütəmadi davam edir. Bu bayram rəsmi dövlət bayramı olmasa da, kütləviliyi və bir həftə davam etməsiylə digər bayramlarımızı üstələyir. Amma mənim bu bayrama öz yanaşmam var və mən bu bayrama sadəcə Gül festivalı kimi baxmıram.

2001-Cİ İL MAYIN 11-İ

AzTV-nin "Xəbərlər" proqramında işləyirdim. Günorta 2-də dedilər ki, "Dənizkənarı Milli Parkda Gül bayramı keçirilir. Kameranı da götür, get çək". Bir an duruxdum. Yeni söz eşitmişdim - "Gül bayramı".

Düzünü desəm "gül" sözündən xoşum gəlmir. Tez solur, izi qalmır, ona görə. 20 Yanvar faciəsindən sonra isə xüsusilə qərənfil gülünə bir nifrət yaranıb məndə. Bu faciədən 25 il keçməsinə baxmayaraq, bu gün də heç kim bir-birinə qərənfil bağışlamır. Yalnız qəbrüstünə gedəndə məhz bu gül yada düşür. Qiyməti də bütün güllərdən ucuz.

Nə isə, gəlib çıxdıq Bulvardakı "Saat qülləsi"nin yanına. 50-100 metr uzunluğunda bir ərazidə gözəl bir mənzərənin şahidi olduq. Kənardan baxanda bu gözəlliyin gül, özü də təbii

güllərlə, məktəblilər tərəfindən yaradıldığına inanmadım. Mövzular müxtəlif idi. Azərbaycanın xəritəsi, üçrəngli bayrağı, Prezident Heydər Əliyevin müxtəlif şəkilləri güllərlə çəkilmişdi. Dibçəklər, gül şəkilləri, herbarilər. Güləbənzər don geyinmiş balaca qızlar rəqs edir, şeir deyir, mahnı oxuyurdular. Yaşıl çəmənlikdə dövrə vurub elə otururdular ki, sanki iri, gözəl bir gül kolunu xatırladırdılar. Yalnız yaxınlaşanda bilinirdi ki, bunlar başlarına gül şlyapalar qoymuş, gül çətirlər tutmuş bağça uşaqlarıdır. Hamısı da deyirdi ki, "əmi, bizi çək". Hamısı öz əl işinin digərlərindən yaxşı olduğunu sübut etməyə çalışırdı. Dillərində də Heydər babanın adı.

Amma bilmirdilər ki, biz "Xəbərlər"dən gəlmişik. Axşam efirə yalnız bir-iki dəqiqəlik süjet gedəcəkdi. İşimizi bitirib ordan aralanmaq istəyirdik ki, çoxdan tanıdığım rayon Gənclər və İdman idarəsinin işçisi bizə yaxınlaşdı: "Mahir, bəs bizim rayonu çəkmirsən? Bizim əl işləri Suraxanı rayonundakından da yaxşıdır". Onda bildim ki, mən təkcə Suraxanı rayonunun təşkil etdiyi Gül bayramını çəkibmişəm. Demə, Bulvar boyu, düz Azneft dairəsinəcən Bakının 11 rayonunun hərəsinin açıq hava altında öz Gül bayramı pavilyonu varmış. Beləcə rayonların ərazisini çəkə-çəkə gəlib çıxdım başa.

Ən yaddaqalan isə sonuncu oldu. Stulda əyləşib bizim çəkməyimizi əyri-əyri süzən şişman, qara sifət bir kişi (sonradan bildim ki, rayon İcra Hakimiyyətinin başçısıdır) saymazyana bizə tərəf dilləndi: "Nə Gül bayramı, Gül bayramı salmısınız. Bax indi maşınımı verirəm sizə. Gedirsiniz mənim rayonuma. Gözəl bir fontan yaratmışam ki, Bakıda analoqu yoxdur. Gedin onu çəkin verin bu bayramın əvəzinə, deyim ki, "hə". Yoxsa ki, Gül bayramı".

Bu əslində tənqid yox, baş tutmuş, hələ çox illər davam edəcək ilk Gül bayramına qarşı eşitdiyim ilk qısqanclıq fikirləri idi. Demə, Gül bayramı Bakı Şəhər İcra Hakimiyyətinin yeni təyin olunmuş başçısı Hacıbala Abutalıbovun təşəbbüsü imiş. Belə gözəl alınacağına isə...

14 YAŞ

İllər keçdi. Gül bayramının məkanı dəyişdi. Miqyası böyüdü. Mayın 10-u, Ümummilli liderimiz Heydər Əliyevin doğum gününə həsr olunan Gül bayramı həm də böyük bir beynəlxalq gül festivalına çevrildi. Yüzlərlə müxtəlif gül növləri məhz bu bayramda Azərbaycana gətirilib, paytaxt sakinlərinin, qonaqların gözünü, ruhunu oxşamağa başladı. Yerli və xarici gül dizaynerləri bu bayramda öz məharətlərini göstərməyə başladılar. Hər il də yeni fantaziyalar, yeni yaradıcılıq ixtiraları, yeni gül növləri, kinolarda gördüyümüz hava şarları. Artıq bu bayramı hər rayon öz ərasindəki parklarda keçirir. Əgər bu bayramın kütləviliyini nəzərə alsaq, təkcə Heydər Əliyev parkına və Qış bulvarına gələnləri saysaq, bu bayramın böyük ümumxalq məhəbbəti qazandığının, Ümummilli lider Heydər Əliyevə ümumxalq məhəbbətinin daha bir nümunəsinin şahidi oluruq.

ANA, ATA, GÜL, GÜL, GÜL...

Ana və ata. Balacalıqdan bizə ən yaxın, ən əziz olan bu insanlardan nələr istəməmişik ki... Hər şey. Ana, su ver. Ana, yemək ver. Ana, yuxum gəlir. Ata, çipsı al. Ata, kukla al. Ata, gəzməyə, sirkə, teatra, zooparka apar, karuselə mindir. Bütün bunları onlar pul verib bizim üçün alıblar.

Gül bayramı keçirilən ərazidəyəm. Yalnız bir söz eşidirəm. Balacalar əllərini müxtəlif güllərə uzadaraq "Ana, gül. Ata, gül" deyərək sevinirlər. Şəkil çəkdirirlər. Valideynlər, əmi, dayı, xala, bibi, baba, nənələr də balacaların bu sevincinə baxıb gülürlər. Onlara ünvanlanan müraciətdən sonrakı "gül" sözü, həm də "gül" feiliylə, gülüş sözüylə əvəzlənir. Lap vergülü götürək. Nə vaxt əzizlərimizə "gül" deyə müraciət edib, tərifləmişik ki? "Ana gül, ata gül".

VALİDEYNLƏRİN "ÜSYAN"I

Gül bayramlarına gələnlərin sayı o qədər çox olur ki, sıxlıq yaranmasın deyə, Bakı şəhər İcra Hakimiyyəti kordonlar düzməyə məcbur olur. Valideynlər də "axı, niyə gözləməliyəm ki. Televizorda elan veribsiniz ki, "Gül bayramı" keçirilir, dəvət eləmisiniz. İndi də deyirsiniz ki, gözlə...". Bir anlıq fikirləşirəm. Görəsən Azərbaycanda keçirilən hansı tədbirə baxmaq üçün bu boyda növbə düzənlənir? Rəşid Behbudov küçəsində 1 saatdır ki, tıxaca düşmüşəm. Həmişə olduğu kimi deyinmirəm. Sevinirəm. Axı bu gün ayın 10-dur. Xalq Ümummilli liderinin doğum gününü elliklə qeyd edir.

ƏMMA...

Filankəsin maşını var. Görəsən neçəyə alıb? Filankəs bağ alıb. Görəsən neçəyə alıb? Filankəs uşağını xaricdə oxutdurur. Görəsən pulu hardandır? Bu suallara cavab axtara-axtara əlinə kalkulyator götürüb başlayırsan hesablamağa. Demirsən ki, çalışım, özüm də bu pulun yiyəsi olum. Demirsən ki, axı mən onun nəyindən əskiyəm. Axı, həyatda bacarmıram yox, bacarmaq üçün çalışmıram anlayışı var. Bu günün varlıları görəsən kimlərdir? Dünənin kasıb, sadə insanları deyillərmi? Gül bayramının həndəvərində gəzib-dolaşanda bu cür bivec, deyingən insanlara da rast gəlirəm. Əllərində də kalkulyator. "Kimə lazımdır gül. Gülə verdiklərini versinlər mənə xərcləyim". Gülə gül kimi baxana yox, küçədə sərnişinlərə 20 qəpiklik kimi baxan avtobus sürücülərinə oxşayırlar. Burda yaxşı deyiblər e... "Gülə bülbül baxar, qaşqaldaq yox". Bu cür adamlar bu bayramın mahiyyətini anlamırlar. Ruh, zövq, gözəllik, bayram anlayışı belələrindən uzaqdır. Yaxşı ki, azdırlar. Bu cür adamlara bir müqayisəni nümunə gətirim.

Toy. Bəylə-gəlin pilləkanları qalxanda kənarda dayanan mələklər onların başlarına nə səpirlər? Gül ləcəkləri. Zala

girəndə atəşfəşanlıq, rəngli şarlar, musiqi və rəqslər. Toyun sonuna isə bunların heç biri qalmır. Lap gül ömründən də az olur. Bütün bunlara pul veririk, amma nədənsə pulla ölçmürük. Demirik ki, boş-boş şeylərə bu qədər pulumuz getdi. Çünki gözəllik pulla ölçülmür.

"19 MAY – ATATÜRKÜ ANMA, GƏNCLİK VƏ İDMAN BAYRAMI"

19 may tarixini Türkiyədə hamı sevir. Hamı bayram edir. Türkiyə Cümhuriyyətinin qurucusu Atatürkün doğum gününü belə qeyd edirlər. Müxtəlif tədbirlər və idman yarışlarıyla.

HACIBALA ABUTALIBOVUN TƏŞƏBBÜSÜ, YOXSA ÜMUMXALQ BAYRAMI?

14 il əvvələ qayıdıram. Bakı şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov hələ Ümummili liderimiz Heydər Əliyevin sağlığında belə bir təşəbbüslə çıxış edib və məhz onun xeyir-duası ilə ilk dəfə Gül bayramı keçirmişdi. Bu günlər Azərbaycan xalqı artıq 14-cü ildir ki, bu bayramı qeyd edir. Əvvəlcə Ümummilli liderin məzarını ziyarət etməklə, onun xatirəsinə hörmət və ehtiramını bildirir. Müxtəlif tədbirlər, konsertlər, velosiped yürüşləri, idman yarışları təşkil olunur. Amma bayramımız bir dənədir - Heydər Əliyev parkında, abidəsi önündə keçirilən "GÜL BAYRAMI". Ümummilli liderimizin doğum gününün, insanlara gül və sevinc bəxş edən 14 yaşlı bu bayramın artıq dövlət səviyyəsində bir bayram kimi təsdiq olunmasının, rəsmi istirahət gününə, el gəzintisinə çevrilməsinin məncə vaxtı çatıb. "10 May – Heydər Əliyevi anma, Gül bayramı".

# DOSTUMUZ RƏŞAD İLYASOV

Müğənni Rəşad İlyasovu 20 ildir ki, tanıyıram. Azərbaycan Televiziyasında işləməyə başlayanda, "Xəbərlər" redaksiyasına qədəm qoyanda onu və dostu Pərviz İskəndərovu rejissor kimi təqdim etdilər. Amma nədənsə duruxdum. Axı mən elə bil onu hardansa çoxdan tanıyırdım. Özümü saxlaya bilmədim. Dərhal soruşdum. Ani susaraq, gülümsədi. Cavab verməyə isə macal tapmadı. Artıq yadıma düşmüşdü. "Hə, papaq?..." deyəndə isə ətrafdakılar da gülüşdülər. Niyəsini isə sonra bildim.

94-ci illərdə klip çəkdirmək təzə-təzə dəbə düşürdü. Və musiqi üçün yeni olan bu proses çox ağır gedirdi. Həm müğənnilərin maddi durumları imkan vermirdi, həm də klipmeyker deyilən nəsil təzə-təzə cücərməyə başlamışdı. Texniki imkanlar məhdud olduğundan ilk qaranquşlar çox da keyfiyyətli alınmırdı. İfaçılar isə heç bu barədə düşünmürdülər də. Hər klip, əlbəttə ki, yaxşı klip böyük rezonanasa səbəb olurdu. 23 yaşlı gənc kanon ifaçısı Rəşad İlyasovun ilk "Çaldaş" klipi həm ifaçılıq, həm mahnı seçimi, həm də klipin rejissura və montaj həlli baxımından gözəl alınmışdı. O vaxt Rəşadın "Xəbərlər" proqramında iş yoldaşı olan montajçı, sonra isə sayılıb-seçilən klipmeyker Fuad Əlişovun ilk işi 6 aya başa gəlmişdi. İndi də bu videoyazıya baxanda onun adi montaj stolunda, kompüterin köməyi olmadan yığılmasına inanmağım gəlmir. Klipdə Rəşad İlyasovun şlyapası həm ona gözəl yaraşırdı, həm də kadrlar arası keçiddə gözəl vasitəyə çevrilmişdi – yoxa çıxır, meydana gəlir, yerə düşür, gah itir, gah

tapılır. Rəşad həm də bu elementə görə də yadımda qalmışdı. Demə həmkarlarım da "şlyapa" əvəzinə "papaq" deməyimə gülüşübmüşlər.

İlk növbədə Rəşad İlyasov mənim üçün iş yoldaşı, həmkar idi. Qaynar qazanı xatırladan, yaradıcılıqdan daha çox operativliyin üstünlük təşkil etdiyi "Xəbərlər" mühitində redaktor – rejissor kimi dil tapıb işləyirdik. Amma bilmirdik ki, rejissor Rəşad artıq yeni bir yaradıcılıq yolunun astanasındadır.

Rəşad İlyasov mühəndis ailəsində dünyaya gəlib. Anasının Az.TV-də işləməsi onu da bu sənət məbədinə gətirib. Lakin mən sonradan bildim ki, onun gözəl ifaçı olmasının səbəbləri, daha doğrusu kökləri daha da dərindir. Xalası məşhur kaman ustası, xalq artisti Şəfiqə Eyvazova, digər xalası qarmonçu Vəzifə Eyvazova, dayısı ud ifaçısı Yasəf Eyvazov, qardaşı gitaraçı Rüstəm İlyasov, bibisi oğlanları Asəf Hüseynov qarmonçalan, Şamil Hüseynov isə nağaraçıdır. Bütün bunları biləndən sonra bir atalar misalını çəkmək yerinə düşərdi: "Ot kökü üstə bitər".

İllər bir-birini əvəz edirdi. Demə Rəşad dostları üçün yeni sürprizlər hazırlayırmış. 1997-ci ildə ilk dəfə onu müğənni kimi tanımağa başladıq. Az.TV-nin efirində mərhum sənətkarımız Ələkbər Tağıyevin "Gözləyəcəyəm" mahnısı ilə debütü deyəsən uğurlu alınmışdı. Bu debütü bizi sevindirməklə yanaşı, həm də qorxudurdu. Görəsən Rəşad ifaçı olduğu qədər gözəl müğənni kimi də özünü təsdiq edə biləcəkmi?

Çox gözləmək isə lazım gəlmədi. Xalq artisti İlhamə ilə oxuduğu "Yaşın nə fərqi var ki" dueti öz möhürünü vurdu. Artıq onu hamı tanıyırdı. Bu mahnını ilk dəfə olaraq o, Sabunçu Mədəniyyət Sarayında təşkil edilən ilk solo-konsertində oxumuş və böyük alqışlarla qarşılanmışdı. Lakin mahnının klip şəklində ekranlara çıxması musiqimizdə böyük rezonans doğurdu. "Yaşın nə fərqi var ki..." sözü isə xalq arasında artıq zərbi-məsələ çevrilmişdi. İlhamə kimi sənətkarla duet oxumaq və onun tərəfindən klipə çəkilməyə bu dəvəti almaq isə Rəşad üçün böyük imtahan idi və bu imtahandan o, üzüağ çıxmışdı.

Dediyim kimi, klip uğurlu alınmışdı. Hər şeyə tənqidi yanaşan mən nə qədər çalışırdımsa, bir şey tapa bilmirdim. Sadəcə olaraq "Rəşad, yekə oğlansan, adam da ağ köynək geyinib torpağın üzərinə uzanar" deyə ona sataşırdım.

Populyarlıq qazanmaq, ildiki dillə desək, ulduz olmaq hər ifaçı və müğənniyə nəsib olmur. Lakin bu adı qazanmaq nə qədər çətindirsə də, onu qoruyub saxlamaq, inkişaf etdirmək daha da çətindir. Rəşad İlyasov artıq gözəl mahnılar axtarışındaydı. Estradamızın bəstəçi-ulduzları sayılan Eldar Mansurov, Aygün Səmədzadə, Novruz Aslanov, Xanım İsmayılqızı, Nailə Mirməmmədli kimi bəstəkarlarımızla yeni mahnılar üzərində çalışır və hər mahnı da böyük rezonansa səbəb olurdu. İlk olaraq tanınmış rejissor Pərviz İskəndərovla birgə "Gəl qayıdaq o sahilə", "İnləyən nəğmələr", "Sən dönərsənmi" mahnılarına çəkilən klipləri uğurlu alındı. Türkiyənin məşhur "Raks" şirkəti tərəfindən "Anaram səni" adlı ilk audio albomu buraxıldı. Gözəl bəstələr bir-birini əvəz etdikcə rejissorlar Fuad Əlişov, Aqil M.Quliyevin çəkdiyi kliplər bu əsərlərin məzmununu daha da gücləndirirdi. Artıq Rəşad bu kliplərdə özü çəkilməklə özünü bir aktyor kimi də göstərməyə başlamışdı.

Günlərin bir günü gecə 12.00 "Xəbərlər"ini yola verib Rəşadın maşınında evə qayıdırdıq. İstəyirdi ki, köhnə evimizə - 9-cu mikrorayona tərəf sürsün. Dedim ki, təzə ev almışıq, prezidentimiz bağışlayıb atama. Təzə Bazar səmtinə sür. Gedək bizə sən də gör. Vaxtın gec olmasına baxmayaraq (gecə saat 1-də) qalxdıq yuxarı. Əlində balaca bir bağlama tutmuşdu. Soruşdum ki, bu nədir? Dedi ki, həm təzə evinə hədiyyədir, həm də sürpriz. Çay stolu arxasında "Fa minor" adlı 2 diskli və 1 audio kassetli albomunun üstünü yazıb, qızıma bağışladı. Çox sevindim. 29 yaşında artıq 3 albom buraxmaq, saysız videokliplər çəkdirmək hər sənətkara nəsib olmur. Bu, yalnız özünə hörmət qoyan ulduzlara xas bir xüsusiyyətdir.

2006-cı ildən Rəşadı biz yeni ampuladan tanımağa başladıq. O, Az.TV-nin ən hörmətli, uzunömürlü proqramlarından

biri olan "SƏHƏR"i həmkarımız, gözəl jurnalist Nəcibə xanımla aparmağa başladı. Canlı efirdə aparıcılıq eləməyin məsuliyyətini isə biz televiziya işçiləri gözəl başa düşürük. Sonra isə digər televiziyalarımızın efirində layihələrə imza atmağa başladı.

İndi Rəşadın 41 yaşı var. İfaçı, müğənni, ulduz, aktyor, aparıcı kimi artıq özünü təsdiq edib. Şou-biznesdə abrını-həyasını qoruyub saxlaya bilib. Dedi-qodularla yox, sənətiylə özünü göstərib. "Ulduz xəstəliyi"nə də tutulmayıb. Köhnə dostluq münasibətlərini qoruyub. Amma inanmıram ki, arxayın yerində otura. Əminəm ki, yenə də dostları və pərəstişkarları üçün yeni sürprizlər axtarışındadır. Uğurlar, uğurlar, yenə də uğurlar.

# AzTV XATİRƏLƏRİM

## AzTV-YƏ GƏLİŞİM

Şamaxıdaydıq. Atam, mən, əmoğlu Malik, qohumlar yeyib-içirdik. Birdən Azərbaycan Televiziyasının "Xəbərlər" proqramında Prezident Heydər Əliyevin sərəncamı oxundu: "Nizami Mənaf oğlu Xudiyev Azərbaycan Televiziya və Radio verilişləri Dövlət Şirkətinin sədri təyin edilsin".

Atam "hə... tanıyıram. Yaxşı oğlandır. APİ-də rektor idi. Bizim Hikmət Ziyanın da kürəkənidir" dedi.

İşsiz idim. Elə bil ki, çiçəyim çırtladı:

- Papa, məni ora işə düzəlt.
- Yox.
- Niyə? Filologiyanı qurtarmamışam?

Nəsə çox höcət elədik. Yola gətirə bilmədim. Səhəri gün şəhərə qayıtdıq. Evdəydim. Bir də gördüm zəng gəlir. Atam idi.

- Nahid əmivin – Nahid Hacızadənin yanından danışıram. Nizamini də təbrik etdim. Səni də dedim. Sabah səhər gəl. Dedi ki, işə götürəcək səni.

Səhər tezdən AzTV-dəydim. Nizami müəllim qəbul etdi. Əmək kitabçama baxdı. Bircə sual verdi:

- Bala, iki ildir niyə işsizsən?
- Nizami müəllim, hara işə girmişəm, oranı "ağ günə" çıxarmışam.

Qəribə-qəribə baxdı. İzahını soruşsaydı deyəcəkdim. Deyəcəkdim ki, Nizami müəllim, "Azərkitab"da işləyirdim

– bağlandı. Yazıçılar Birliyinin "Dədə Qorqud ensiklopediyası"nda işləyirdim- bağlandı. Bakı Süd Kombinatında işləyirdim – bağlandı. Nərimanov rayon ticarət və ictimai iaşə idarəsində işləyirdim – bağlandı. "Saro" çay firmasında işləyirdim – bağlandı. İndi də gəlmişəm AzTV-ni ağ günə çıxarmağa.

Nəsə heç nə demədi. Axı, ortada Qabil vardı. İşə qəbul olundum. "Xəbərlər" proqramına keçəndə orda 70-80 adam vardı. İki aydan sonra 20 adam qalmışdı. 4-5 ildən sonra isə AzTV ləğv olundu, yerində Qapalı Səhmdar Cəmiyyət yaradıldı. 11 ildən sonra isə ordan uzaqlaşanda köhnə heyətdən cəmi 20 faiz qalardı, ya yox? AzTV-ni də ağ günə çıxartmışdım.

## 40 DƏRƏCƏ İSTİDƏ DƏ ADAM ANADAN OLAR?

Ən maraqlı anlarımız çəkilişlər idi. "Xəbərlər" olduğuna görə bütün sahələri əhatə edirdik. Əvvəl günlər əsasən humanitar sahələri çəkirdim. Həm iş prosesinə uyğunlaşır, öyrənirdim, həm də akademiya, muzeydən, yazıçı, rəssam, bəstəkar təşkilatlarından, sərgidən, konsertdən adama ziyan gəlməzdi. Səhv eləsəydim belə.

Yayın cırhacır vaxtı idi. Bakıda 40 dərəcə isti hökm sürürdü. Bu istidə 70 yaşlı operatorumuz Muxtar Məmmədovla 3 çəkilişə getmişdik. Üçü də biri-birindən "gözəl": muzey, sərgi, uşaq bağçası. Qayıtdıq. Montaj elədim. Baş redaktorumuz Həsən Həsənova dedim ki, "materiallar hazırdır. Filan kasetdədir. Başqa bir tapşırığınız yoxdursa, mən gedim". Soruşdu ki, "hara gedirsən?" Dedim ki, atamgilə. Onların Hüsü Hacıyev küçəsində - mərkəzdə yaşadıqlarını yaxşı bilən Həsən müəllim qabağıma bir məktub qoydu: ""Vahid Poeziya Evi"ndə bir yubiley var, yolüstü onu da çək. Maşın qapıda gözləyir".

Operator üçün "zayavka" verib çıxdım qapıya. Köhnə, tökülmüş sarı "QAZ-24" bizi gözləyirdi. Qoca bir şofer yaxınlaşdı. Bizim dalımızca gəldiyini dedi. Bir də gördüm ki, üç çəkilişdən sonra 70 yaşlı Muxtar dayı bir əlində 20 kiloqramlıq

kamera, o biri əlində "Anton" akkumlyatorlarla dolu qara çantası dilinin altında nəsə deyinə-deyinə, təri axa-axa gəlir. Maşında mən qabaqda, o isə arxada əyləşdi. Peşman oldum Muxtar dayıdan soruşmağıma:

- Muxtar dayı, necəsən?

- Necə olacam? Denən ay oğraş köppək oğlu, ay q...ə balağından düşmüş g......n . Sənin var-yoxunu.... , sənin nəslini...... Adam da bu istidə anadan olar? Ay...., ay ......İndi anadan olmusan, olmusan da. Bu istidə də yubiley keçirərlər. Keçirirsən keçir e. Day bizi niyə dartıb gətizdirirsən. Ay sənin.................

İki dəqiqə dözdüm. Sakitləşmədi. Sanki bulaq idi – söyüş bulağı. Qaynayırdı. Şofer də yaşlı adam. Ayıbdır. Nə deyər axı? Necə olsa AzTV-ni təmsil edirik. Çımxırdım Muxtar dayının üstünə. Çəkilişin rəhbəri mən sayılırdım, yaşda cavan olmağıma baxmayaraq. Muxtar dayı səsini kəsdi. "Baksovet"ə çatanda sürücüdən soruşdum ki, əmi yubiley kimindir?

- Ay bala, mənim yubileyimdir. Adım da şair ….

Arxaya çevrilib Muxtar dayıya baxdım. Dodaqaltı gülürdü. Bu istidə dörd çəkilişin hayfını bir nəfərdən çıxmışdı. Heç üzr istəmək fikri də yox idi.

## AYAĞIM FƏRHAD ƏLİYEVƏ DÜŞDÜ

Axşam saat 6 olardı. Növbətçi idik - rəhmətlik Gülsəfa Əhmədova, mən, Bahadır Şəfi və Əli Nəcəfxanlı. Həsən müəllim otağa girib Əliyə xitabən "Ticarət Nazirliyində mətbuat konfransı var. Get çək" dedi. Əli nəsə tutarlı bəhanə gətirdi. Onda Həsən müəllim Bahadıra müraciət etdi. Bahadır daha da tutarlı dəlil gətirdi: "Əli getmirsə, deməli nəsə bilir ki, getmir də... Özü də Miri Qəmbərov gedəndən sonra nazir təyin olunmayıb". Həsən müəllim gülə-gülə məktubu mənə uzatdı. Bu dəfə amiranə: "Get, çək!".

Mən də "boş kasetim yoxdur" deməyimi eşitdim. Əli də, Bahadır da hərəyə cibindən bir kaset çıxarıb uzatdılar mənə. Yəni ki, təzə gəlmisən, "molodoysan", yerini bil. Deyirlər çək, deməli çək.

Mətbuat konfransına gecikmişdik. Biz gecikdiyimizə görə də başlamırdılar. Bir saat oturub gözləyirlərmiş. AzərTAc-dan bir qadın müxbir vardı. Başladı deyinməyə. "Bu nazir harda qaldı ye. Doluyub bizi barmağına? Başlayırsan başla, başlamırsan - de işimizi bilək də. Özü də kimdir e, bu nazir?" Düz onun böyründə, jurnalistlərin içində oturan bir cavan oğlan dilləndi:

- Nazir yoxdur. Naziri əvəz edən isə mənəm.
- Adın nədir?
- Fərhad Əliyev.

Demə bir saat ərzində jurnalistlər dalıyca nə danışıblar Fərhad Əliyev hamısını eşidibmiş. Sadəcə onu üzdən tanımadıqlarına görə bilməyiblər ki, yanlarında oturan kimdir. Müxbir özünü itirmədi:

- Onda mənim yanımda niyə oturmusan? Get yuxarı başda – öz yerində əyləş də...
- Xanım, ora nazirin yeridir. Mən isə nazir müavini – naziri müvəqqəti əvəz edənəm.

Hamımız gülüşdük. Sonda Fərhad müəllim məni və Azərbaycanın ilk qadın operatoru Esmira xanımı qəbul etdi. Şokoladla çay gətirtdi. Hörmət-izzətlə yola saldı. Çəkilişdən geri qayıtdım. Üç gündən sonra isə Fərhad Əliyev ticarət naziri təyin olundu, sonra isə iqtisadi inkişaf naziri. Debüt süjetim - ayağım yüngül olduğundan çəkilişlərə şəxsən məni çağırırdılar.

## "LİDER" YALANÇI, AzTV SAXTAKAR

Müxalifətin mitinqlərinə əsasən mən gedirdim. Necə deyərlər ixtisaslaşmışdım. Ordakılar da öyrəşmişdilər mənə. Üç istiqamətdən çəkirdik. Birinci 20 Yanvardan "Qələbə" dairəsinədək olan yürüşü. Sonra "Qələbə" meydanındakı mitinqi. Və bunun fonunda müsahibələr. Meydandakı mitinq də üç nöqtədən çəkilirdi: bütövlükdə, kinoteatrın damından və dairədən.

Müxalifətin də AzTV-dən və “Lider”dən zəhləsi gedirdi. Xüsusilə də “Lider”dən - “Kuklalar” verilişinə görə. Müxalifətçi gənclər yürüşdə bir kolon təşkil edirdi.

Bir dəfə kameramızla onlara yaxınlaşdıq. Kameranı görcək başladılar qızışmağa, bərkdən qışqırmağa:

- “Lider” yalançı, AzTV saxtakar! “Lider” yalançı, AzTV saxtakar!

Amma bilmirdilər ki, biz hardanıq. Sadəcə “tarixə” – daha doğrusu arxivə düşmək istəyirdilər. Beləcə hayqırırdılar. Birdən AzTV-nin vəsiqəsini boğazıma keçirtdim. Getdim dayandım düz bunların qabağında. Gənc müxalifətçilərin bu qışqırığına dirijorluq edən başçıları vəsiqəni gördü. Vəsiqəyə baxıb gülə-gülə valı dəyişdi:

- “Lider” yalançı, “Lider” saxtakar! “Lider” yalançı, “Lider” saxtakar!

MÜXALİFƏT AzTV-yə QURBAN

Müxalifətin növbəti mitinqlərinin birində çıxışları tam çəkmək mənə həvalə olundu. Mitinq təşkilatçıları da ayıq tərpənmişdilər. Hər hansı təxribata yol verməməkçün tribunanın ətrafına ancaq jurnalistləri və çıxışçıları buraxırdılar. Əlbəttə ki, iqtidar jurnalistlərini yox. Özü də vəsiqəylə. Mən də operatorla məcbur olub yaxınlaşdım “keçid-buraxılış məntəqəsinə” - qolunda sarğı olan müxalifətçi nəzarətçilərə. Soruşdular:

- Hardan gəlmisiniz?
- Televiziyadan.
- Hansı?

Özümü itirmədim. Onsuz da üzdən tanıyırdılar. Vəsiqəmi çıxartdım. Az qala gözünə soxaraq:

- AzTV-dən.

Nəzarətçi bunu gözləmirdi. Hər dəfə prodakşn, özəl televiziya adıyla girirdik mərkəzə. Amma mənim bu sözüm onu lap yandırmışdı:

- Qaqaş, bu lap ağ oldu da. Bizi söyürsən söyürsən. Hələ vəsiqə də göstərirsən?

Başqa birisi gördü ki, yolu bağlamışıq. Yaxınlaşdı:

- Nə problem var ki, hardan gəliblər?

- AzTV-dən.

Bərkdən:

- Ay xoş gəlib, səfa gətirmisiniz. Həmişə Siz gələsiniz. Gözümüz üstə yeriniz var. Yol verin, AzTV gəlib. Gəlin çəkin. Hər cür şərait yaradacağıq Sizə. Sizə qurban olum. Çəkən əliniz yorulmasın. Çəkin hamısını. Verin AzTV-nin arxivinə. Hakimiyyətə qayıdanda bizə lazım olacaq.

QULAĞININ DALINI GÖRƏRSƏN, AMMA ÖZÜNÜ YOX

Kitab mükafatlarının təqdimatı idi. Düz 32 nəfər laureat vardı. Belə hallarda heç kim inciməsin deyə, nə ad çəkilirdi, nə də iri planlar verilirdi. Bunu bilirdim. Amma tədbirə girəndə laureatlardan o qədər tanış adam çıxdı ki, bu qaydanı pozmalı oldum. Üç cildliyi çıxan bir nəfər vəzifəli adamın müavini isə mənə yuxarıdan aşağı baxdığı üçün onu "cəzalandırmağa" qərar verdim. Yəni efirə elə verəcəkdim ki, nə şiş yansın, nə kabab. Amma əvəzində rəis tutub müavinini "kaznitləyəcəkdi". Bununla bağlı operatora da təlimat vermişdim. Nə isə materialı çəkib verdim efirə. Üstündən 5 dəqiqə keçmişdi ki, "tufan" qopdu.

"Mahir, efir və çəkiliş kassetini də götür, get Nizami müəllimin yanına".

İçəri girən kimi Nizami müəllimin halı dəyişdi. Mən o çəkilişdə digər həmkarımı əvəzləmişdim. Material da efirə yoldaşımın adıyla gedirdi. Demə Nizami müəllim ağzını yaxşı doldurubmuş ki, həmkarımı söyəcək. Məni görəndə bildi ki, işi mən qarışdırmışam – material mənlikdir. Baş redaktorumuz Allahverdi Məmmədova:

- Ə Allahverdi, bilirsən də. Bunun dədasını mən çox istəyirəm. İndi bilirsiniz ki, heç nə eləməyəcəyəm, hər dəfə bunu verirsiz irəli.

- Yox, Nizami müəllim, filankəsin işi olub, Mahir əvəz eləyib.

- Ə Mahir, sən çoxdan işləyirsən, bilmirsən ki, belə tədbirlərdə ad çəkməzlər? Krupnı sifət göstərməzlər? Telefonlar susmur axı? Filan rəis də zəng etmişdi ki, "kitabın adın çəkib, amma mən müəllifin adın çəkməyib. Üzümü də göstərməyib".

Arzuma çatmışdım. Amma vəziyyətdən də çıxmalıydım.

- Necə yəni göstərməmişəm. Göstərmişəm axı. Nizami müəllim, məcbur oldum ad çəkməyə. İmkan verin izah edim – lentə baxa-baxa.

- Göstər bala, göstər.

- İlk mükafatı akademik Bəkir Nəbiyevə verdilər. Atamın dostudur. Özü də məni qucaqlayıb öpdü. Sonra da dedi ki, atova salam deyərsən. İkinci millət vəkili Nizami Cəfərov – köhnə qonşumdur. Ramiz Əkbər – qaynımdır. Adın çəkməsəydim arvad evə buraxmayacaqdı. Yanında oturan da qohumdur – professor Telman Vəlixanlı. Bu, millət vəkili - Hüseynbala Mirələmovdur – o boyda tədbirdə yeganə "yaxşı oğlan". Bu da ki, həmin rəisin 3 cildlik kitabı. Vəssalam. Bir dəqiqəlik süjet doldu da.

- Mahir, sən mənə rəisi göstər.

- Budur, Nizami müəllim. Arxası bizə tərəf olan. Mükafat alan yerdə. Bundan artıq nə verim? Nə çəkilib onu da vermişəm. Arxadan tanımayıb özünü?

Nizami müəllim, dərindən köks ötürərək "get bala, get. Allahverdi, bir də bu uşağı belə məsuliyyətli yerlərə göndərmə". Otaqdan çıxdım. Rəisin müavininə dediyim sözü ürək eləyib Nizami müəllimə deyə bilmədim. Rəis müavininə demişdim: "Rəisin qulağının dalını görər, amma üzünü heç vaxt".

## APİ, YAXUD DA KATORQA - FƏRQİ YOXDUR.

Çəkilişə gedəndə özümüzü lap padşah sayırdıq. Kim üzümüzə pis baxsaydı, çəkmirdik. Kimdən xoşumuz gəlirdi üç dəfə verirdik. Azərbaycan Pedaqoji Universitetinə gedəndə isə, elə bil ki, katorqaya gedirdik. Nizami müəllim əvvəllər orda işləmişdi deyə, günümüzü göy əskiyə bükürdülər. Bir

dəqiqəlik süjetdə hamını necə göstərəydik axı? Nizami müəllim də həftəiçi dərs deməyə gedəndə düşürdülər üstünə ki, bəs "məni niyə efirə vermirsən?". İçindən ona dərs deyənlər olanda, ümumiyyətlə acı danışırdılar: "Ə Nizami, böyümüsən?!". Nizami müəllim də gəlib acığını tökürdü bizim üstümüzə. Başqa müxbirlər müəllimlərin bu təzyiqinə bir təhər dözürdülər. Mən isə atama güvənib, hərdən cavab da qaytarırdım.

Günlərin bir günü yenə APİ-də çəkilişdəydim. Zala girməyimi gördüm. O başladı ki, məni çək, bu dedi məni göstər. İçərisindən biri lap "uzağa getdi":

- Baxın, görün sizə necə sədr vermişiy e...

Day dözə bilmədim:

- Ay müəllimlər, Prezident təyin edəndən sonra, Sizin ağzınız nə idi ki, verməyəydiz.

## AzTV-1-DƏ YOX, "BİRİNCİ KANALDA"

Günlərin bir günü qocaman operator Muxtar dayı və müxbir rayonlardan birinə çəkilişə gediblərmiş. İcra başçısının müavini onları qarşılayır. İçəri dəvət edir. Hava isti olduğundan Muxtar dayı stolun üstündəki "Badamlı"nı götürüb açmaq istəyəndə "sortu bilinməyən podxolim" müavin tez suyu alır onun əlindən ki, bəs "icra başçısı gəlməyib. Stolun səliqəsini pozma".

Muxtar dayı dinmir. Təri axa-axa çəkilişi aparır. Tədbirdən sonra İcra aparatının üzvləri, qonaqlar süfrə açılmış arxa otağa girirlər. Muxtar dayı da müxbirlə ora daxil olmaq istəyəndə müavin yenə də mane olur. "Çəkilişi qurtardız da... Gəlin Sizi yola salım". Müavin bir-iki dənə də bu cür hörmətsiz hərəkətləriylə yadda qalır.

Nəsə, gəlirlər maşının yanına. Hörmətsiz hərəkətləri və yaltaqlığı ilə Muxtar dayını boğaza yığan müavin ayrılanda hələ həyasız-həyasız soruşur:

- Muxtar dayı, bu çəkilişə hansı kanalda baxacağıq?

- 1-ci kanalda!

- AzTV-1-də?

Muxtar dayı da başını aşağı salıb, hər iki əliylə qurşaqdan aşağını göstərərək:

- AzTV-1-də yox... Birinci kanalda, bala. Birinci kanalda...

BU HƏLƏ İŞLƏYİR?

Həmkarım və dostum Akif Məcidoğlu bir müxbir və insan kimi çox istiqanlıdır. Çəkilişdə vəziyyəti əlinə almağı, öz tərəfinə çevirməyi məharətlə bacarır. "Xəbərlər"də çoxdan işlədiyindən onu hamı tanıyır. Bizdə üç nəfər adaş olduğundan Akifi Akif Təvəkküloğlundan, Akif Cabbarovdan fərqləndirmək üçün "Syoma" çağırırdıq. Yəni ki "Syomka", "çəkiliş Allahı". Bəzi icra başçılarını "bələkdə görmüşdü", rəisləri isə "qundaqda".

Bir dəfə Akif Məcidoğlu gəlir bir idarə müdirinin yanına – müsahibə götürməyə. O da çoxdankı tanışı imiş. Ərki çatırmış. Amma müdir nədənsə razılıq vermir. Bəhanəsi də bu olur ki, "kostyum geyinməmişəm". Akifin təkidiylə sürücünü göndərirlər evə - kostyum dalınca. Müdir bir bəhanə də gətirir: "Üzüm tüklüdür". Akif müdiri "qıdıqlaya-qıdıqlaya" keçirir istirahət otağındakı hamama. Üzünü qırxdırır. O vaxta da sürücü kostyumu gətirir. Məlum olur ki, kostyum gəlib, qalstuk isə yaddan çıxıb. Həmişə səliqə və yüksək zövqlə geyinən Akif müəllim öz bahalı qalstukunu çıxarıb bağışlayır müdirə. Təki işi düzəlsin.

Bütün bəhanələri tükənən rəis könülsüz müsahibə verir. Hələ Akifə deyir ki, "bəlkə efirə verməyəsən?"

- Necə yəni verməyəcəyəm. Axşam saat 8-də özünə baxarsan.

Nə isə axşam müdirin müsahibəsi efirə gedir. Hökm sahiblərindən də bu müsahibəyə baxan olur. Və dərhal deyir:

- Bu hələ işləyir? Yaxşı ki, yadıma düşdü. Verin əmrini getsin.

"VAQİF MÜƏLLİM, ÇATIRAM"

Heydər Əliyev Beynəlxalq Hava Limanında təcili çəkiliş olmalıydı. Həmkarım Akif Məcidoğluya deyirlər ki, tez ora getməlisən. Operator hazır olur, RAF-a oturub yola düşürlər. Metronun "Bakı Soveti" stansiyasının ("İçərişəhər") yanına çatanda bədii rəhbər Vaqif Ağayev aeroportdan Akifə zəng edir.

- Akif, harda qaldın?
- Vaqif müəllim, "vot-vot" çatıram.

ALLAH "XƏBƏRLƏR"Ə RƏHMƏT ELƏSİN?

20.00 "Xəbərlər"i efirə gedirdi. Baş redaktorumuz Sahib Alıyev idi. Nəsimi Nəbizadə də aparıcı. Tanınmış adamlardan kimsə rəhmətə getmişdi. Gözəl qələmi olan Firuzə Nadir də mərhum haqqında yanğılı bir süjet hazırlamışdı. Bu da proqramın son materialıydı. Adəti üzrə hər süjetin də axırında müxbirin və operatorun adı çəkilməliydi. Bu dəfə də belə oldu "Firuzə Nadir, Dünyamin Hüseynov. "Xəbərlər"". Sonra da Nəsimi "Sağ olun" deyib proqramı bağladı. Studiyadan çıxanda Sahib müəllim düşdü Nəsiminin üstünə ki, "neçə ilin diktorusan. Görürsən mərhum haqqında süjetdir. Heç olmasa süjetdən sonra "Allah rəhmət eləsin" deyəydin də". Nəsimi o saat.

- Demək olmaz, Sahib müəllim.
- Niyə?
- Düz alınmır, axı? "Firuzə Nadir, Dünyamin Hüseynov. Xəbərlər" dalınca da "Allah rəhmət eləsin?!". Belə çıxır ki, "Xəbərlər" ölüb?

AKKUMLYATOR DƏM ALIR...

Rejissorumuz Azər Babayev gəlib xahiş elədi ki, bəs bağça müdirəsi olan bir qohumu ondan çəkiliş xahiş edib. Yubileydir

- 40 illk. Uşaq bağçasının ad gününü "Xəbərlər"də vermirdilər. Azər müəllimə hörmət əlaməti olaraq istisna edildi.

Mən, Muxtar dayı, Azər Babayev yollandıq Günəşlidə yerləşən uşaq bağçasına. İstirahət günü idi. Zala daxil olduq. Qəşəng süfrə açmışdılar. Azər müəllimin qışqırığı götürdü aləmi. Qohumu olan bağça müdirəsi başladı əsməyə:

- Ağez, bu nədir? Bura bağçadır e? Mən güc-bəla icazə almışam müdiriyyətdən. Sənə deyirəm bu nədir? Bağçada da stolun üstünə araq-konyak, şampanski qoyarlar?

- Ay Azər, yubileydir də... Qonaqlar da hamısı böyüklər. Nə olar ki?

Müdirənin sözü ağzında qaldı.

- Nə? Böyüklər? Uşaqlar hanı bəs?

- Bu gün istirahət günüdür. Özümüz məclisi bu günə saldıq ki, rahat yeyib-içsin qonaqlar. Uşaqlar olmayacaq.

- Necə yəni olmayacaq? Bəs mən efirə nə verəcəyəm. Deməyəcəklər ki, uşaqlar şeir demir, mahnı oxumur, rəqs eləmir – bu nə bağça yubileyidir? Hamısı bığıburma kişilərdir kadrda?

Nəsə tələm-tələsik spirtli içkiləri müvəqqəti də olsa stoldan yığışdırdılar. Müdirə qonşuluqdakı evlərə müəllimələrdən göndərdi ki, bir-iki uşaq tapın, yalandan da olsa, kameranın qabağında hoppanıb düşsünlər. AzTV çəkib qurtaranacan.

Azər müəllim də fürsətdən istifadə edib Muxtar dayı ilə çıxdı həyətə - bağçanın xarici görünüşünü çəkməyə. Mən isə içəridə oturub qeydlərimi aparırdım. Hərdən blinçiklə yüz-yüz də ötürürdüm – bağçanın sağlığına. Bir də gördüm ki, Azər müəllimin qışqırığı həyəti götürdü. Tez çıxdım.

- Azər, indi nə olub?

- Nə olacaq? Muxtar 2 dənə "tabletka"akkumlyator götürüb. Onlardan biri çəkilişə başlamamış yatdı. Biriylə bu boyda tədbiri çəkə biləcəyik? Biabır oldum qohumun yanında. Günəşli də ki, uzaq. Gedib təzə akkumlyator götürənəcən tədbir qurtarar.

Nəsə girdik içəri. Tədbirin başlanmağını gözləyirdik. Azərin bir gözü Muxtardaydı. Akkumlyatorun dərdi almışdı onu. Birdən:

- Muxtar,  yatan akkumlyator hanı?

- Qədeş, narahat olma. Qoymuşam aş qazanının qapağının üstünə. "Zaryadka" yığır.

## RASTROPOVİÇİN NƏVƏSİ

Mstislav Rastropoviç  Prezident Heydər Əliyevin dəvəti ilə Bakıya gəlmişdi. Görüşlərini Az.TV xüsusi olaraq işıqlandırırdı. İndi Mstislav və Leapold Rastropoviçlərin adını daşıdığı küçədə maestronun ata-baba yurduna gəlməsini, köhnə qonşularıyla görüşünü AzTV-nin əməkdaşı kimi mən çəkməli oldum.

Bütün məhlə onun pişvazına çıxmışdı. Mstislav Rastropoviç, arvadı, qızı, nəvəsi  maşından düşüb evə girdilər. Polislər də asayişi qoruyurdular. Balaca uşaqlar da o yana qaçırdılar, bu yana qaçırdılar. Səs-küyləri götürmüşdü aləmi. Axırda iş o yerə çatdı ki, yüksək çinli polis zabiti serjantlara əmr verdi ki, uşaqları uzaqlaşdırın ərazidən. Bu göstəriş bizim də ürəyimizdən oldu. Polislər də "ay uşaq qaçın, mane olmayın!" deyə-deyə başladılar uşaqları qovmağa. Birinə də dedilər ki, "ay uşaq qaç burdan!". O, getmədi. Rusca "uxodi!" dedilər, yenə də tərpənmədi. Polis serjantı eləmə tənbəllik aldı bunu qucağına apardı. Daha dəqiq desək, vurdu qoltuğuna ki, həmin ərazidən uzaqlaşdırsın. Birdən qonaqları müşayiət edənlərdən biri  başladı polisin dalınca qışqırmağa:

"İşin olmasın. Burax onu. O, Rastropoviçin nəvəsidir".

## "AÇILIŞ" BİƏDƏB SÖZDÜR

"Xəbərlər" proqramında gedən bəzi süjetləri "Səhər" proqramı da efirə verirdi. Hansısa məktəb istifadəyə verilmişdi. Görkəmli jurnalistimiz Valid Sənani dedi ki, "Mahir,

yolun düşsə yuxarı, kadr arxası mətni gətir. Videosunu axşam götürərik". Dedim ki, "Baş üstə". Öz efirimiz üşün materialı hazırladıqdan sonra kadrarxası mətni götürüb qalxdım "Səhər"in redaksiyasına. Valid müəllim öyrətməyi sevən adam idi. Kağızı əlinə alan kimi qırmızı qələmlə "qanına qəltan elədi". Bu bir az mənə toxunsa da, özümü sındırmadım. Öyrənmək heç vaxt gec deyil. Özü də ki, öyrədən olan yerdə.

- Valid müəllim, o düzəlişlər elədin a, onları mənə başa sal da...

- Bax, Mahir, yazmısan – "Yasamal rayonunda məktəbin açılış mərasimi olub". Bu ruscadan tərcümə olunma bir sözdür "tseremoniya otkrıtiya". Amma sən bunu belə - "məktəbin açılışı olub" verməliydin. Bildin?

- Axı, Valid müəllim, bu cür biədəb səslənir?

- Burda biədəb nə var ki? "Məktəbin açılışı".

- Yox e, Valid müəllim, mənim arvadım doğum evində işləyir. Mən belə şeyləri Sizdən yaxşı bilirəm. Açılış məktəbdə olmur. Açılış doğan qadınlarda olur. Bir barmaq, iki barmaq, üç barmaq, dörd barmaq. Sonra da uşaq ordan çıxır.

Valid müəllim gözlərini üzümə dikib baxırdı. Bircə bunu dedi:

- Bərəkallah, Mahir. Get, bala, get.

## QURBANDI SƏNƏ

Televiziya günü yaxınlaşırdı. Təltiflər olacaqdı. Siyahı da artıq Prezident Aparatına göndərilmişdi. Mənim umacağım yox idi. Çünki cəmi 10 il stajım, qabağımda isə ömrünün 30-40 ilini televiziyaya həsr edən mogikanlar, ustadlarım vardı. Amma ürəyimdən keçirdi ki, mənə də dövlət təltifi versinlər. Evdə atamla söhbət əsnasında bunu ona da dedim. Birdən:

- Dur o siyirtməni çək.

- Çəkdim. Nə lazımdır ki?

- Nə var orda? Bir-bir de.

- Orden-medallardır. Axşam nəsə dövlət tədbiri var?
- Yox, sadəcə orda olanları bir-bir sadala.
- Əməkdar İncəsənət xadimi. Sovetin iki medalı.
- Sonra.
- Xalq şairi.
- Sonra.
- Azərbaycan SSR Dövlət Mükafatı.
- Sonra.
- "Şöhrət" ordeni, "İstiqlal" ordeni. Vəssalam.
- Day hamısı evdə var da. Hansını istəyirsən götür. Qurbandı sənə.

## YAŞLI DİKTORLAR EFİRDƏN NİYƏ UZAQLAŞDILAR

Qocaman diktorlarımızın Azərbaycan televiziyasının inkişafında rolu danılmazdır. Onlar təkcə veriliş aparmırdılar. Həm də tamaşaçıya Azərbaycan ədəbi dilindən dərs deyirdilər. Nizami Xudiyev sədr təyin olunandan sonra diktorlara xüsusi qayğı göstərməyə başladı. Qonorarlarını artırdı. Efir paltarları almaq üçün hərəsinə ildə iki dəfə (yaz-payız mövsümü) yüksək məbləğdə pul ayırdı. Təkcə onlara yox, dövlət tədbirlərinə gedən müxbir, operator, rejissor və texniki işçilərə də o vaxt dəbdə olan "Centlemen" mağazasından dövlətin hesabına geyimlər aldırdı. "Siz AzTV–ni təmsil edirsiniz. Xarici görünüşünüz də yaxşı olmalıdır" deyərək.

Diktorlar "Xəbərlər"in canlı efirinə çıxmağa başladılar. Latın qrafikasına keçilməyinə baxmayaraq, yazı makinalarımız hələ də kirill əlifbasındaydı. Prezident Aparatından faksla gələn prezident məktubları, fərman və sərəncamlar isə latın qrafikasında. Qocaman diktorlarımızın gözü isə kiril əlifbasına öyrəşmişdi.

Günlərin bir günü efir gedə-gedə prezidentin 7-8 səhifəlik fərmanı gəldi. Özü də latın qrafikasında. Diktorlarımızdan biri də yazını höccələyə-höccələyə axır ki, oxuyub başa çatdırdı. Sonra isə sədrin yanına gedib canlı efirdən imtina elədi.

Qocaman diktorların efir mədəniyyəti yüksək idi. Öz şəxsiyyətlərinə də hörmətlə yanaşırdılar. İllər boyu qazandıqları hörməti latın qrafikasına qurban vermədilər.

ƏLİLLƏR AzTV-YƏ TOXUNMADILAR

90-cı illərin axırı idi. AzTV-nin "Xəbərlər" proqramında çalışırdım. Axşam saat dörd olardı. Baş redaktorumuz Həsən Həsənov məni, operatoru və "Həftə" proqramının əməkdaşı Elnar Məmmədlini yanına çağırdı.

- Gedirsiniz Binəqədi rayonuna – Qarabağ əllillərinin ofisinə. Nəsə qarışıqlıq salıblar. Polis maşınlarını çeviriblər. Polislərə xəsarət yetiriblər. İndi də qərargahın həyətində mitinq edirlər. Çəkin, gəlin.

Üzümü Elnara tərəf çevirdim. Elnar əsasən çəlikişlərə getmirdi. Fransız dilini yaxşı bildiyindən Strasburqda AŞPA-nın iclasları zamanı o vaxtkı nümayəndə heyətinin başçısı İlham Əliyevin fəaliyyətini işıqlandırırdı. Cavan olmasına baxmayaraq demək olar ki, bu işin öhdəsindən layiqincə gəlirdi. Amma indi Həsən müəllimin onu bu cür çəkilişə göndərməsi mənə qəribə gəldi. Bunu baş redaktorumuz da sezdi:

- Elnar da səninlə getsin. Üç nəfər bir-birinizə kömək olun. Gözünüzdən heç nə qaçmasın. Materialı da saat 20.00 "Xəbərlər"inə çatdırın.

Düzü nə baş verirdi, nə baş vermişdi bilmirdim. Bircə onu bilirdim ki, Qarabağ əlillərinin hansısa imtiyazları ləğv olunmuşdu. Bununla bağlı qərargahlarında öz etirazlarını bildirirdilər. AzTV-də onlarla bağlı efirə bir-iki veriliş də gedibmiş. Bunu sonra bildim.

Nə isə gəldik çatdıq həmin yerə. Polislər ərazini nəzarətdə saxlayırdılar. Mən, Elnar və operatorumuz qərargaha tərəf gedəndə xəbərdarlıq etdilər ki, "məsləhət deyil!". Mən də tapşırıq aldığımızı, çəkiliş aparacağımızı əsas gətirib irəliləməyə başladıq. Piyada çatdıq qərargaha. Mitinqin qızğın vaxtı idi. Operatorumuz başladı kadrlar çəkməyə. Fikir verdik ki, nəsə

bizə qəribə-qəribə baxırlar. Amma heç nə demirlər. Heç soruşmurlar ki, "hardan gəlmisiniz? Hansı kanaldansınız?". Bu an jurnalist həmkarlarımızdan biri, sonra o birisi mənə yaxınlaşdı:

- Mahir, başın xarabdır? Burda neyləyirsən? Səhərdən AzTV-ni söyürlər.

- Niyə?

- Necə yəni niyə? Dünən bunlar haqda veriliş gedib sizdə. Xoşlarına gəlməyib. İndi bilsələr ki, Siz Az.TV-dənsiniz... vay halınıza. Bayaq 3-4 polisi daş-qalaq etdilər. Cavadağanın başın yardılar. Nə qədər gec deyil çıx burdan. Yaman əsəbidirlər.

Həmkarlarıma qulaq asdım. Artıq efirə lazım olan kadrlar da əlimdəydi. Qərargahdan çıxdım. Bir əlil də bizə bir söz demədi. Əksinə "Xoş getdiniz" də dedilər. Nəsə başa düşmədim. Fikirləşdim ki, bəlkə Elnar Məmmədli boylu-buxunludur, qorxdular. Ona görə dinmədilər? Nə isə tapa bilmədim səbəbini.

Zaslon kimi çəpəki qoyulmuş polis avtobusuna yaxınlaşdım. Başı sarğılı Binəqədi rayon Polis İdarəsinin rəisi, polkovnik Cavadağa Sultanovdan hadisəylə bağlı müsahibə aldım. Bakı şəhər Baş Polis İdarəsinin rəis müavini, polkovnik Yaşar Əliyev də baş verən hadisələrə öz münasibətini bildirdi.

AzTV-yə geri qayıtdıq. Həsən müəllimə məlumat verdik. Baxışlarından başa düşdüm ki, lazım olan materialı çəkə bilmişik. Qarabağ əlillərinin bizi qonaqpərvərliklə qarşılayıb yola salmalarını da dedim. Həsən müəllim də bir izah verə bilmədi. Bircə "Get materialı hazırla. Vaxta az qalıb" dedi. Otaqdan çıxanda birinci Elnar qabağa düşdü. Arxasıyca baxanda hər şey aydın oldu. Həsən müəllimə baxdım. O da gülürdü. Əlillərin bizə niyə qonaqpərvərliklə yanaşdıqlarının səbəbi axır ki, aydın oldu.

O ərəfədə Elnar Strasburqdan - AŞPA-nın iclasından təzə qayıtmışdı. Orda ona jurnalist uniforması kimi gödəkçə də vermişdilər. Gödəkçənin qabağına və arxasına ingiliscə böyük hərflərlə Avropa Şurası sözləri və AŞPA-nın iri emblemi həkk olunmuşdu. Elnar da həmin gün işə gələndə böyük

fəxrlə bu gödəkçəni geyinmişdi. Demə əlillər də Avropa Şurasının gödəkçəsini geyən Elnarı görəndə elə biliblər ki, xarici müşahidəçidir. Biz isə onu müşayiət edən çəkiliş qrupu. AzTV-dən olmağımız  heç ağıllarına da gəlməyib.

Həmin gün Avropa Şurasının gödəkçəsi AzTV-nin işinə yaman yaramışdı.

# MÜNDƏRİCAT

MÜƏLLİFDƏN...3

## 2013

HEYDƏR ƏLİYEV FONDUNA ŞİKAYƏT...5
ÜRƏYİM QARA KÜRÜ İSTƏDİ...9
AYAZ MÜTƏLLİBOV, YAXŞILIĞA YAMANLIQ HANSI… ...11
POLİS NƏCİB PEŞƏDİRMİ? ...19
İLYAS ƏFƏNDİYEV, QABİL VƏ HACIBALA ABUTALIBOV
KÖHNƏ KİŞİLƏRDƏNDİR ...24

## 2014

KİRVƏ MÜQƏDDƏS ADAM OLMALIDIR, ERMƏNİ YOX! ...32
DEPUTAT OLMAQ İSTƏYİRƏM – BİR ÇAĞIRIŞ ...35
UŞAQ DOĞMAQ – KİTAB DOĞMAQ...39
“GÖRDÜN? ELMİRA QAFAROVA KİŞİ QIZIDIR!” ...41
SÜD...46
ELAN: “İNTİHAR ETMƏK İSTƏYİRƏM!” ...53
ŞÜŞƏ SİLƏN UŞAQ VƏ ÖZÜNÜ YANDIRAN QARABAĞ ƏLİLİ ..58
ŞEYXÜLİSLAM KİMDİR... ...60
“TAQSIR BİZİM BU HACIBALADADIR!” ...69
YAZIÇI ANARIN ÖLÜ VƏ DİRİ PROBLEMİ...72
REKTOR ABEL MƏHƏRRƏMOV KİMDİR? ...80
XOŞQƏDƏM, ALLAH SƏNƏ LƏNƏT ELƏSİN!...84
“VOLQA”, QAYMAQ, VARLI UŞAQLARI...86
MİKAYIL CABBAROV, ÜZR İSTƏYİRƏM!
HƏSƏN MÜƏLLİM, BAĞIŞLA…...89
SADƏ QONŞU VƏ NAZİR... ...95
VƏZİFƏLİ BALASINDAN ŞİKAYƏT MƏKTUBU...99

İBRAHİMİN ÖLDÜYÜ GÜNDƏN HƏYAT DAVAM ELƏYİR .............. 103
AVTOŞLARA ŞAD XƏBƏR ......................................................................108
O DÜNYADAN XALQ DİPLOMATLARINA MƏKTUB ....................112
RADİO VƏ DEPUTAT .............................................................................116
QIĞILCIM...OCAQ...ŞÖLƏLƏR... .......................................................118
FƏXRİ AD, MÜKAFAT, TƏQAÜD VƏ ORDEN ...................................126
ELMİRA AXUNDOVAYLA VAQİF MUSTAFAYEVİN SƏHVİ .........131
BİZİM "XALQ QƏZETİ" ..........................................................................135
HEYDƏR ƏLİYEVİN ÇÖRƏYİNİN DUZU ..........................................139
BAŞ NAZİRDƏN KİTABXANAÇI TƏYİNATI .....................................147
UŞAQLIQ DOSTUM TOĞRUL ADIGÖZƏLOV ...................................153
BİZİM HÜSEYN BAĞIROV ....................................................................160
ATA OĞLUNU CƏZALANDIRDI.........................................................175
ELDƏNİZ ELGÜNÜN "40"-ı ÇIXDI ........................................................176
HACIBALA ABUTALIBOVUN "KİŞİ" SÖZÜ ........................................184
BİZİM TELLİ PƏNAHQIZI .....................................................................192
MAŞIN SÜRMƏK ZÜLMDÜR................................................................200
QMİ-NİN TOXLAR ÜÇÜN EHSAN ZALI ..............................................206
İSMAYIL ŞIXLININ "ANTİSOVET" ÇAĞIRIŞI ...................................209
BİZİM HƏSƏN MÜƏLLİM.....................................................................212
SONA TAĞIYEVANIN MƏKTƏBİ.........................................................221
"ZOLOTAYA SEREDİNA" VƏ YA MODERN.AZ..................................229
BAKIDA "MAHİR KREMATORİYA" XİDMƏTİ ....................................231
ƏJDƏR XANBABAYEV, BƏXTİYAR VAHABZADƏ,
CƏLAL ƏLİYEV .......................................................................................234
REKTOR ABEL MƏHƏRRƏMOV ƏNƏNƏNİ POZDU ........................241
BİZİM AZƏR SARIYEV ..........................................................................247
BƏXTİYAR SADIQOV VƏ SİLVA KAPUTİKYAN.................................252
MƏNİM ƏCLAFLIĞIM...........................................................................257
ARVAD, ALLAH VERƏNDƏN GƏTİR ..................................................264
O DÜNYAYA TƏLƏSƏN VAQİF SƏMƏDOĞLUNA CAVAB ..........268
KOROĞLUNUN HEYKƏLİ PLAGİATDIRMI?......................................271

ƏMİR MUSTAFAYEVİN TOYU ....................280
AKADEMİYALAR – NƏ HACIBƏYOVLAR DOĞULUR,
NƏ ŞIXLİNSKİLƏR… ....................287
"MAHİR DONOR XİDMƏTİ" ....................292
HACIBALA ABUTALIBOVUN ÇƏKDİYİ YOLLAR ....................295
İBRANİMİN BABASININ NƏSİHƏTİ....................298
PİSKARYOV, PROFESSOR CƏLAL ABDULLAYEV VƏ
ŞAHİ XƏNDAN ....................300
NƏBİ, QABİL, BƏXTİYAR ....................304
İBRAHİM, BULUDXAN, CAVANŞİR ....................307
XƏLİL RZANIN "ARABA"SI....................312

## 2015

RAMİL USUBOV NÜMUNƏSİ....................316
"ÖL" DEYƏNDƏ ÖL, "QAL" DEYƏNDƏ QAL ....................325
MAHİRİN TOYU ....................327
ATAM QABİLİN "DƏRS"İ ....................329
DİVARIN QULAĞI ....................332
BİZİM SYOMA – AKİF MƏCİDOĞLU ....................335
BORİS NEMTSOVLA BAĞLI XATİRƏ....................349
QAN....................351
HADI RƏCƏBLİNİN "MÜƏLLİM"İ....................359
QABİLİN MƏNƏVİ ÖVLADLARI....................365
KAMİL ƏLİYEVİN ŞİLLƏSİ....................373
ÇANAQQALA "ZƏFƏRİ", STALİN, QARABAĞ....................376
ELMİRA AXUNDOVA – AZƏRBAYCANIN "JZL"-İ ....................380
HACIBALA ABUTALIBOVUN TƏŞƏBBÜSÜ,
YOXSA ÜMUMXALQ BAYRAMI?....................387
DOSTUMUZ RƏŞAD İLYASOV ....................392
AzTV XATİRƏLƏRİM ....................396

Mahir Qabil oğlu İmamverdiyev

SANDIQ

Bakı – 2015

Çapa imzalanıb: 10.10.2015

Sayı: 500

Ofset çap üsulu



*MAHİR QABİLOĞLU – Mahir Qabil oğlu İmamverdiyev 4 dekabr 1966-cı ildə Bakıda anadan olub. Bakıdakı 190 nömrəli məktəbdə orta təhsil alıb. 1990-cı ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsini bitirib. Müxtəlif illərdə Azərbaycan Yazıçılar Birliyinin "Dədə-Qorqud Ensiklopediyası"nda ədəbi işçi, AzTV-nin "Xəbərlər" redaksiyasında redaktor, "Space" televiziyasının "Hər gün" İnformasiya Proqramında baş redaktorun müavini, "Xalq qəzeti" qəzetində Redaksiya Heyətinin üzvü və şöbə müdiri vəzifələrində çalışıb.*
*Hazırda sərbəst yaradıcılıqla məşğuldur. Modern.az saytında bir müəllif kimi bədii, publisistik yazıları və tərcümələri yayımlanır.*
*"Atam Qabilin qəribə əhvalatları" (2011), "Ərmən – Şuşanikin sevgisi" (2014), "Cəncəhim" romanı (2014) və "Qurd yağı" (2015) kitabları nəşr edilib. "Sandıq" müəllifin sayca 5-ci kitabıdır.*
*Mahir Qabiloğlu bu ilin yanvarında Azərbaycan Yazıçılar Birliyinin üzvlüyünə qəbul edilib.*
*Ailəlidir, 4 nəvəsi var.*